"Qarşımızda duran əsas vəzifələrdən biri son əsrdə xalqımıza qarşı həyata keçirilən soyqırımı haqqında indiki və gələcək nəsillərdə möhkəm milli yaddaş formalaşdırmaq, bu faciələrə bütün dünyada siyasi və hüquqi qiymət verilməsinə nail olmaq, onun ağır nəticələrinin aradan qaldırılmasına və bir daha belə halların təkrar olunmamasına çalışmaqdır".

Heydər ƏLİYEV
Ümummilli lider

"Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu olmayıb və olmayacaqdır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəcəkdir, Dağlıq Qarabağ bizim doğma, əzəli torpağımızdır. Əsrlər boyu Azərbaycan xalqı Dağlıq Qarabağda və ətraf bölgələrdə yaşamışdır, yaratmışdır. Bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqları üzərində qurulmuşdur. İrəvan xanlığı, Zəngəzur mahalı bizim tarixi torpaqlarımızdır. Biz heç vaxt imkan verə bilmərik ki, doğma torpağımız olan Dağlıq Qarabağda ikinci erməni dövləti yaradılsın".

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Azərbaycan Respublikasının Prezidenti yanında
Dövlət İdarəçilik Akademiyası
"Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin
Azərbaycanlı İcması" İctimai Birliyi

ELÇİN ƏHMƏDOV

ERMƏNİSTANIN AZƏRBAYCANA TƏCAVÜZÜ: Təhlili xronika (1987-2011)

Kitab Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Böyük Elmi Şurasının 12 iyul 2012-ci il tarixli iclasının qərarı ilə çapa tövsiyə edilmişdir (protokol № 13).

13960

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI
BAKI-2012

Elmi redaktor: **Əli Həsənov**
tarix elmləri doktoru, professor

Rəyçi: **Musa Qasımlı**
tarix elmləri doktoru, professor

Məsləhətçi: **Bayram Səfərov**
"Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyi İdarə Heyətinin sədri, icma rəhbəri

Elçin Əhmədov. Ermənistanın Azərbaycana təcavüzü:
təhlili xronika (1987-2011). Ensiklopedik nəşr. Bakı, 2012, 912 s.

Monoqrafiyada XX əsrin 80-ci illərinin ikinci yarısından başlayaraq Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və işğalçılıq siyasətinin indiyə qədər davam edən mərhələsinin təhlili xronikası verilmişdir. Son 25 il ərzində (1987-2011) Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə yanaşı, eyni zamanda dünya birliyinin bu işğalla bağlı mövqeyi və beynəlxalq təşkilatların münaqişəyə dair qəbul etdiyi sənədlər də kitabda təhlil edilir. Bundan əlavə, baş verən hadisələr xronoloji ardıcıllıqla təhlil edilən monoqrafiyada münaqişənin nizama salınması istiqamətində Azərbaycan dövlətinin mövqeyi öz əksini tapmış, beynəlxalq təşkilatların fəaliyyətindəki ziddiyyətli cəhətlərə, buraxılan nöqsanlara, eləcə də perspektivdə həlli mümkün və zəruri olan məsələlərə də diqqət yetirilmişdir.

Azərbaycan tarixinin müxtəlif dövrlərinə dair sənədlər və xəritələr, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın işğal olunmuş əraziləri haqqında məlumatlar və fotolar, eləcə də erməni terror təşkilatlarının cinayətlərinin xronikası kitabın əlavələr hissəsində verilmişdir. Bununla yanaşı, münaqişənin nizama salınmasına dair BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, NATO və İslam Əməkdaşlıq Təşkilatı tərəfindən qəbul edilmiş sənədlər də ardıcıllıqla və sistemli şəkildə əlavələr bölməsində öz əksini tapmışdır. Kitab ali məktəblərin beynəlxalq münasibətlər, beynəlxalq hüquq, hüquqşünaslıq, politologiya, regionşünaslıq, tarix ixtisası üzrə təhsil alan tələbələr və magistrantlar, müəllimlər, eləcə də xarici siyasət məsələləri ilə məşğul olan mütəxəssislər üçün faydalı ola bilər.

Müəlif hüquqları qorunur. Müəllifin və nəşriyyatın icazəsi olmadan bu kitabı və ya onun hər hansı bir hissəsini çap etdirmək və yaymaq qadağandır!

ISBN: 978-9952-452-38-9

© Elçin Əhmədov, 2012
© "Letterpress", 2012

MÜNDƏRİCAT

Müəllifdən 11

Giriş 15

Ermənistanın Azərbaycana təcavüzü: təhlili xronika (1987-2011) 43

Nəticə 391

İstifadə edilmiş və tövsiyyə olunan ədəbiyyat siyahısı 411

Summary 479

Резюме 497

Əlavələr 519

Əlavə I. Azərbaycan tarixinə dair sənədlər və xəritələr 519

Əlavə II. Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın işğal olunmuş rayonları 587

II.1. Dağlıq Qarabağ (Yuxarı Qarabağ) bölgəsinin tarixi Azərbaycan kəndləri 589

II.2. Şuşa 595

II.3. Xocalı 665

II.4. Xocavənd 675

II.5. Laçın 683

II.6. Kəlbəcər 701

II.7. Ağdam 713

II.8. Füzuli 739

II.9. Cəbrayıl 747

II.10. Qubadlı 757

II.11 Zəngilan 767

Əlavə III. Beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair qəbul etdiyi sənədlər ... 773

III.1. BMT-nin sənədləri ... 774
III.1.1. BMT Təhlükəsizlik Şurası sədrinin BƏYANATI (12 may 1992-ci il) ... 774
III.1.2. BMT Təhlükəsizlik Şurası sədrinin BƏYANATI (26 avqust 1992-ci il) ... 775
III.1.3. BMT Təhlükəsizlik Şurası sədrinin BƏYANATI (27 oktyabr 1992-ci il) ... 775
III.1.4. BMT Təhlükəsizlik Şurası sədrinin BƏYANATI (29 yanvar 1993-cü il) ... 776
III.1.5. BMT Təhlükəsizlik Şurası sədrinin BƏYANATI (6 aprel 1993-cü il) ... 777
III.1.6. BMT Təhlükəsizlik Şurasının 3505-ci iclası. 822 saylı QƏTNAMƏ (30 aprel 1993-cü il) ... 778
III.1.7. BMT Təhlükəsizlik Şurasının 3259-cu iclası. 853 saylı QƏTNAMƏ (29 iyul 1993-cü il) ... 779
III.1.8. BMT Təhlükəsizlik Şurası sədrinin BƏYANATI (18 avqust 1993-cü il) ... 781
III.1.9. BMT Təhlükəsizlik Şurasının 3292-ci iclası. 874 saylı QƏTNAMƏ (14 oktyabr 1993-cü il) ... 783
III.1.10. BMT Təhlükəsizlik Surasının 3313-cü iclası. 884 saylı QƏTNAMƏ (11 noyabr 1993-cü il) ... 785
III.1.11. BMT Təhlükəsizlik Şurası sədrinin BƏYANATI (26 aprel 1995-ci il) ... 787
III.1.12. BMT Baş Assambleyası 60-cı sessiya, 98-ci plenar iclas, Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət, QƏTNAMƏ (7sentyabr, 2006-cı il) ... 788
III.1.13. BMT Baş Assambleyası 62-ci sessiya, 86-cı plenar iclas, Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət, QƏTNAMƏ (14 mart, 2008-ci il) ... 789

III.2. ATƏM (ATƏT) -in sənədləri ... 792
III.2.1. ATƏM Xarici İşlər Nazirlərinin Helsinkidə keçirilmiş birinci əlavə görüşü. Yekun qərar (Helsinki, 24 mart 1992) ... 792
III.2.2. ATƏM-in Budapeşt Zirvə Toplantısı. Regional məsələlər. Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏM-in fəaliyyətinin intensivləşdirilməsi haqqında (Budapeşt, 5 dekabr 1994-cü il) ... 794
III.2.3. ATƏT-in Nazirlər Şurasının 5-ci görüşü. ATƏT-in Minsk prosesi üzrə QƏRARI (Budapeşt, 8 dekabr 1995-ci il) ... 796
III.2.4. ATƏT-in Lissabon Zirvə Toplantısının sənədlərinə Əlavə 1. ATƏT-in Fəaliyyətdə olan Sədrinin BƏYANATI (Lissabon, 3 dekabr 1996-cı il) ... 797
III.2.5. ATƏT-in Minsk Qrupu həmsədrlərinin irəli sürdükləri təkliflər. ATƏT-in Minsk Qrupunun sədarəti Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair hərtərəfli SAZİŞ (18 iyul 1997-ci il) ... 798
III.2.6. ATƏT-in Minsk Qrupunun sədarəti Dağlıq Qarabağ silahlı münaqişəsinin dayandırılması haqqında SAZİŞ (2 dekabr 1997-ci il) ... 804
III.2.7. Dağlıq Qarabağ silahlı münaqişəsinin hərtərəfli həllinin prinsipləri haqqında (7 noyabr 1998-ci il) ... 810
III.2.8. ATƏT-in İstanbul Zirvə Toplantısının BƏYANNAMƏSİ (İstanbul, 17-19 noyabr, 1999-cu il) ... 818

III.2.9. ATƏT-in Nazirlər Şurasının 9-cu görüşü. Nazirlər Şurasının Bəyanatları QƏRAR № 2. (Buxarest, 4 dekabr 2001-ci il) ... 818
III.2.10. ATƏT-in Nazirlər Şurasının 10-cu görüşü. Nazirlər Şurasının Bəyanatları (Porto,7 dekabr 2002-ci il) ... 819
III.2.11. ATƏT-in Nazirlər Şurasının 12-ci görüşü. Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar BƏYANAT (Sofiya, 6 dekabr 2004) ... 821
III.2.12. ATƏT-in Nazirlər Şurasının 13-cü görüşü. ATƏT-in Minsk Qrupunun məşğul olduğu münaqişə üzrə BƏYANAT (Lyublyana, 6 dekabr 2005-ci il) ... 822
III.2.13. ATƏT-in Nazirlər Şurasının 14-cü görüşü. Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar BƏYANAT (Brüssel, 5 dekabr 2006-cı il) ... 822
III.2.14. ATƏT-in Nazirlər Şurasının 15-ci görüşü. Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar BƏYANAT (Madrid, 29 noyabr 2007-ci il) ... 823
III.2.15. ATƏT-in Nazirlər Şurasının 16-cı görüşü. Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar BƏYANAT (Helsinki,5 dekabr 2008-ci il) ... 824
III.2.16. ATƏT-in Nazirlər Şurasının 17-ci görüşü. Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar BƏYANAT (Afina,1 dekabr 2009-cu il) ... 824

III.3. Avropa Şurasının sənədləri ... 826
III.3.1. Avropa Şurası Nazirlər Komitəsi. Dağlıq Qarabağa dair BƏYANAT (11 mart 1992-ci il) ... 826
III.3.2. Avropa Şurası Nazirlər Komitəsi. Dağlıq Qarabağ münaqişəsinin gərginləşməsinə dair BƏYANAT (15 aprel 1993-cü il) ... 827
III.3.3. Avropa Şurası Parlament Assambleyası. Dağlıq Qarabağ münaqişəsinə dair TÖVSİYƏ 1251 (1994) (Strasburq, 10 noyabr,1994-cü il) ... 828
III.3.4. Avropa Şurası Parlament Assambleyası. Dağlıq Qarabağ münaqişəsinə dair QƏTNAMƏ 1047 (1994) (Strasburq, 10 noyabr,1994-cü il) ... 829
III.3.5. Avropa Şurası Parlament Assambleyası. Ermənistan və Azərbaycanda qaçqın və məcburi köçkünlərin humanitar vəziyyətinə dair TÖVSİYƏ 1263 (1995) (Strasburq, 15 mart 1995-ci il) ... 830
III.3.6. Avropa Şurası Parlament Assambleyası. Ermənistan və Azərbaycanda qaçqın və məcburi köçkünlərin humanitar vəziyyətinə dair QƏTNAMƏ 1059 (1995) (Strasburq, 15 mart 1995-ci il) ... 831
III.3.7. Avropa Şurası Parlament Assambleyası. Zaqafqaziyada münaqişələrə dair QƏTNAMƏ 1119 (1997) (Strasburq , 22 aprel 1997-ci il) ... 833
III.3.8. Avropa Şurası Nazirlər Komitəsi. KOMMÜNİKE (Strasburq , 9 noyabr 2000-ci il) ... 835
III.3.9. Ermənistanda və Dağlıq Qarabağda saxlanılan hərbi əsirlər və girovlar haqqında (Strasburq, 25 aprel 2001-ci il) ... 836
III.3.10. Ermənilərin azərbaycanlılara qarşı soyqırımı siyasətinin tanınması haqqında yazılı bəyannamə (Strasburq, 26 aprel 2001 - ci il) ... 837
III.3.11. Azərbaycanın mədəni irsinin zəbt edilməsi və dağıdılması (Strasburq, 27 iyun 2001-ci il) ... 838

III.3.12. Azərbaycan Respublikasında ekoloji vəziyyət (Dağlıq Qarabağ, Şuşa, Laçın, Qubadlı, Zəngilan, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl). (Strasburq, 27 iyun 2001-ci il).....838
III.3.13. Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində nüvə texhologiyası və nüvə tullantılarının basdırılması barədə (Strasburq, 7 may 2002- ci il).....840
III.3.14. Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində ermənilər tərəfindən dəstəklənən terrorçu təşkilatlar şəbəkəsi barədə (Strasburq, 14 iyun 2002- ci il).....841
III.3.15. Ermənistan Respublikası tərəfindən Naxçıvan Muxtar Respublikasına yönəldilmiş blokada siyasəti təhlükəsinin aradan qaldırılması zərurəti barədə (Strasburq, 14 oktyabr 2002- ci il).....843
III.3.16. Avropa Şurası Parlament Assambleyası. ATƏT-in Minsk Konfransının məşğul olduğu Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə TÖVSİYƏ 1690 (2005) (Strasburq, 25 yanvar 2005-ci il).....844
III.3.17. Avropa Şurası Parlament Assambleyası. ATƏT-in Minsk Konfransının məşğul olduğu Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə QƏTNAMƏ 1416 (2005) (Strasburq, 25 yanvar 2005-ci il).....845

III.4. Avropa İttifaqının sənədləri.....849
III.4.1. Avropa İttifaqı. Dağlıq Qarabağa dair BƏYANAT (Brüssel, 22 may 1992-ci il).....849
III.4.2. Avropa İttifaqı. Dağlıq Qarabağa dair BƏYANAT (Brüssel, 18 iyun 1992-ci il).....850
III.4.3. Avropa İttifaqı. Dağhq Qarabağa dair BƏYANAT (Brüssel, 7 aprel 1993-cü il).....850
III.4.4. Avropa İttifaqı. Dağlıq Qarabağa dair BƏYANAT (Brüssel, 24 iyun 1993-cü il).....851
III.4.5. Avropa İttifaqı. Dağlıq Qarabağa dair BƏYANAT (Brüssel, 3 sentyabr 1993-cü il).....852
III.4.6. Avropa İttifaqı. Dağlıq Qarabağa dair BƏYANAT (Brüssel, 9 noyabr 1993-cü il).....853
III.4.7. Bülleten Aİ 01-1994 (fr): 1.3.7 Xarici siyasət və cəmiyyətin təhlükəsizliyi (7/20) Azərbaycan.....853
III.4.8. Bülleten Aİ 07-1994 Xarici siyasət və cəmiyyətin təhlükəsizliyi (6/24). Dağlıq Qarabağ.....854
III.4.9. Bülleten Aİ 09-1994 Xarici siyasət və cəmiyyətin təhlükəsizliyi (5/6). Dağlıq Qarabağ.....855
III.4.10. Almaniya sədrliyinin Avropa İttifaqı adından Dağlıq Qarabağa dair BƏYANATI (5 avqust, 1994-cü il).....855
III.4.11. İrlandiya sədrliyinin Avropa İttifaqı adından Dağlıq Qarabağda vəziyyət barəsində BƏYANATI, Daimi Şura (Brüssel, 31 oktyabr 1996-cı il).....856
III.4.12. Avropa İttifaqı-Azərbaycan Əməkdaşlıq Komitəsinin üçüncü iclası. (12 iyul 2002-ci il). Gələcək ikitərəfli əməkdaşlığın yekunları və qiymətləndirilməsi. Xarici siyasət.....857
III.4.13. Avropa Parlamentinin Cənubi Qafqaz üçün Avropa İttifaqının strategiyasına ehtiyac üzrə QƏTNAMƏ (20 may 2010-cu il).....858

III.5. İslam Konfransı Təşkilatının sənədləri.....860
III.5.1. İslam Konfransı Təşkilatı Xarici işlər nazirlərinin XXI konfransı. Ermənistan və Azərbaycan arasında münaqişə üzrə QƏTNAMƏ. (Kəraçi, 25-29 aprel 1993-cü il).....860

III.5.2. İslam Konfransı Təşkilatı Xarici işlər nazirlərinin fövqəladə sessiyası. Ermənistan və Azərbaycan arasında münaqişə üzrə QƏTNAMƏ. (İslamabad, sentyabr 1994-cu il).....861
III.5.3. İslam Konfransı Təşkilatı ölkələrinin Dövlət başçılarının VII Zirvə Toplantısı. Ermənistan və Azərbaycan arasında münaqişə üzrə QƏTNAMƏ. (Kasablanka, 13-14 dekabr 1994-cü il).....864
III.5.4. İslam Konfransı Təşkilatı Xarici İşlər Nazirlərinin XXIV konfransı. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında QƏTNAMƏ (Cakarta, 9-13 dekabr 1996-cı il).....866
III.5.5. İslam Konfransı Təşkilatı ölkələrinin Dövlət başçılarının VIII Zirvə Toplantısı. Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzünə dair QƏTNAMƏ (Tehran, 9-11 dekabr 1997-ci il).....868
III.5.6. İslam Konfransı Təşkilatı ölkələrinin Dövlət başçılarının VII Zirvə Toplantısı. Azərbaycan Respublikasına iqtisadi yardım haqqında QƏTNAMƏ (Tehran, 9-11 dekabr 1997-ci il).....871
III.5.7. İslam Konfransı Təşkilatı ölkələrinin Dövlət başçılarının VIII Zirvə Toplantısı. YEKUN BƏYANAT (Tehran, 9-11 dekabr 1997-ci il).....872
III.5.8. İslam Konfransı Təşkilatı ölkələrinin Dövlət başçılarınınVIII Zirvə Toplantısı. TEHRAN BƏYANNAMƏSİ (Tehran, 9-11 dekabr 1997-ci il).....872
III.5.9. İslam Konfransı Təşkilatı Xarici işlər nazirlərinin XXV konfransı. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünə dair QƏTNAMƏ (Doha, 15-17 mart 1998-ci il).....873
III.5.10. İslam Konfransı Təşkilatı Xarici işlər nazirlərinin XXV konfransı. Azərbaycan Respublikasına iqtisadi yardım haqqında QƏTNAMƏ (Doha, 15-17 mart 1998-ci il).....876
III.5.11. İslam Konfransı Təşkilatı Xarici işlər nazirlərinin XXV konfransı. YEKUN BƏYANAT (Doha, 15-17 mart 1998-ci il).....877
III.5.12. İslam Konfransı Təşkilatı Xarici işlər nazirlərinin XXVII Konfransı. Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində İslam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında QƏTNAMƏ (Kuala-Lumpur, 27-30 iyun 2000-ci il).....877
III.5.13. İslam Konfransı Təşkilatı Xarici işlər nazirlərinin XXVII Konfransı. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında QƏTNAMƏ (Kuala-Lumpur, 27-30 iyun 2000-ci il).....880
III.5.14. İslam Konfransı Təşkilatı Xarici işlər nazirlərinin XXX Konfransı. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında QƏTNAMƏ (Tehran, 28-30 may 2003-cü il).....883
III.5.15. İslam Konfransı Təşkilatı Xarici işlər nazirlərinin XXX konfransı. Azərbaycan Respublikasına İqtisadi yardım haqqında QƏTNAMƏ (Tehran, 28-30 may 2003-cü il).....886
III.5.16. İslam Konfransı Təşkilatı Xarici işlər nazirlərinin XXX konfransı. Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində İslam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında QƏTNAMƏ (Tehran, 28-30 may 2003-cü il).....887
III.5.17. İslam Konfransı Təşkilatı Xarici işlər nazirlərinin XXXIII konfransı. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında QƏTNAMƏ (Bakı, 19-21 iyun 2006-cı il).....890

III.5.18. İslam Konfransı Təşkilatı Xarici işlər nazirlərinin XXXVI konfransı. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü üzrə QƏTNAMƏ (Dəməşq, 23-25 may 2009-cu il.....893
III.5.19. İslam Konfransı Təşkilatı Xarici işlər nazirlərinin XXXVI konfransı. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində işğal olunmuş Azərbaycan torpaqlarında islam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında QƏTNAMƏ (Dəməşq, 23-25 may 2009-cu il.....897

III.6. Şimali Atlantika Müqaviləsi Təşkilatının (NATO) sənədləri.....899
III.6.1. Müdafiə Planlaşdırması Komitəsi və Nüvə Planlaşdırması Qrupu. NATO Baş Qərargahı. Yekun Kommünike (Brüssel, 27 may 1992-ci il).....899
III.6.2. Şimali Atlantika Şurası Nazirlərin görüşü. Yekun Kommünike (Oslo, 4 iyun 1992-ci il).....899
III.6.3. Şimali Atlantika Əməkdaşlıq Şurası. BƏYANAT (Oslo, 5 iyun 1992-ci il).....900
III.6.4. Şimali Atlantika Şurası Nazirlərin görüşü. NATO Baş Qərargahı. Yekun Kommünike (Brüssel, 17 dekabr 1992-ci il).....901
III.6.5. Şimali Atlantika Şurası Nazirlərin görüşü. Yekun Kommünike (Afina, 10 iyun 1993-cü il).....901
III.6.6. Şimali Atlantika Əməkdaşlıq Şurası. BƏYANAT (Afina, 11 iyun 1993-cü il).....902
III.6.7. Şimali Atlantika Şurası Nazirlərin görüşü. NATO Baş Qərargahı. Dövlət və Hökumət Başçılarının Bəyannaməsi (Brüssel, 11 yanvar 1994-cü il).....902
III.6.8. Şimali Atlantika Əməkdaşlıq Şurası Nazirlərin görüşü. BƏYANAT (İstanbul, 10 iyun 1994-cü il).....903
III.6.9. Şimali Atlantika Şurası Nazirlərin görüşü. Yekun Kommünike (Brüssel, 1 dekabr 1994-cü il).....904
III.6.10. Şimali Atlantika Şurası Nazirlərin görüşü. Yekun Kommünike (Nordvik, 30 may 1995-ci il).....904
III.6.11. Şimali Atlantika Şurası Nazirlərin görüşü. Yekun Kommünike (Brüssel, 5 dekabr 1995-ci il).....905
III.6.12. Şimali Atlantika Şurası Nazirlərin görüşü. Yekun Kommünike (Berlin, 3 iyun 1996-cı il).....905
III.6.13. Şimali Atlantika Şurası Nazirlərin görüşü. Yekun Kommünike (Brüssel, 10 dekabr 1996-cı il).....905
III.6.14. NATO Zirvə Toplantısının Kommunikesi (İstanbul, 28-29 iyun 2004-cü il).....906
III.6.15. NATO Zirvə Toplantısının BƏYANATI (Riqa, 28-29 noyabr 2006-cı il).....906
III.6.16. NATO Zirvə Toplantısının BƏYANATI (Buxarest, 2-4 aprel 2008 ci il).....907
III.6.17. Şimali Atlantika Şurası Nazirlərin görüşü Yekun Kommünike (Brüssel, 2-3 dekabr 2008).....907
III.6.18. NATO Zirvə Toplantısının BƏYANATI (Strasburg / Kehl , 3-4 aprel 2009).....908
III.6.19. NATO Zirvə Toplantısının Yekun Bəyannaməsi (Lissabon, 19-20 noyabr 2010).....908

MÜƏLLİFDƏN

Son iki əsrdə xalqımıza qarşı erməni millətçiləri tərəfindən müxtəlif vaxtlarda məqsədyönlü şəkildə həyata keçirilən terror, etnik təmizləmə, soyqırım siyasəti Azərbaycan tarixinin faciələrlə müşaiyət olunan çox ağrılı mərhələlərini təşkil etmişdir. Bu millətçi siyasətin əsas məqsədi azərbaycanlıları tarixi torpaqlarından çıxarmaqla əzəli Azərbaycan ərazilərində ermənilərin uydurduqları "Böyük Ermənistan" dövləti yaratmaq olmuşdur. XIX əsrin əvvəllərindən başlayaraq Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsinə İrandan və Türkiyədən çoxlu sayda erməni əhalisinin köçürülməsi nəticəsində onların bu bölgədə süni surətdə çoxaldılması, XX əsrin əvvəllərindən başlayaraq Ermənistanın Azərbaycana qarşı ərazi iddialarının baş qaldırmasına səbəb olmuşdur.

Bu cinayətkar siyasətin davamlılığını sübut edən fakt ondan ibarətdir ki, təkcə XX əsrdə azərbaycanlılar 4 dəfə -- 1905-1907-ci, 1918-1920-ci, 1948-1953-cü və 1988-1993-cü illərdə erməni millətçiləri tərəfindən törədilən soyqırım və etnik təmizləmələrə məruz qalmışdır.

XX əsrin 80-ci illərinin ikinci yarısında SSRİ-nin hakim dairələri tərəfindən himayə edilən və mono-etnik dövlət yaratmağa nail olan Ermənistanın Azərbaycana qarşı açıq-aşkar təcavüzü nəticəsində dinc sakinlər qətlə yetirilmiş, yaşayış məntəqələri dağıdılmış, talan edilmiş və yandırılmışdır. XX əsrin sonunda ermənilərin Xocalıda törətdikləri soyqırım isə bütün insanlığa qarşı yönəldilmiş ən ağır cinayətlərdən biri kimi qiymətləndirilir.

1988-1993-cü illərdə Ermənistan silahlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağ bölgəsi ilə yanaşı, ətraf 7 rayonu (Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan) da işğal etdilər. Eyni zamanda, Ermənistanda yaşayan 250 min nəfər azərbaycanlı öz doğma yurdlarından zorla qovulmuş və bütün bu ərazilər ermənilər tərəfindən etnik təmizləməyə məruz qalmışdır. Ermənistanın hərbi təcavüzü nəticəsində 1 milyondan çox

insan qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş. Azərbaycanın 20 %-dən çox ərazisi işğal edilmişdir.

Ümummilli lider Heydər Əliyev 1993-cü ildə hakimiyyətə yenidən qayıtdıqdan sonra erməni millətçiləri tərəfindən xalqımıza qarşı həyata keçirilən etnik təmizləmə, soyqırım və təcavüzkar siyasətin əsil mahiyyəti açıqlanmış, bu hadisələrə siyasi qiymət verilmişdir. Bundan əlavə, ermənilərin azərbaycanlılara qarşı zaman-zaman törətdikləri soyqırım ilə əlaqədar Prezident Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı Fərmanla 31 mart – Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir. Bu Fərman azərbaycanlılara qarşı müxtəlif vaxtlarda ermənilər tərəfindən həyata keçirilən etnik təmizləmə, soyqırım və işğalçılıq siyasətinin hərtərəfli tədqiq edilməsi, bu cinayətlərə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Son illərdə Ermənistanın Azərbaycana qarşı təcavüzünün nəticələri, Azərbaycanın əzəli torpaqlarında Ermənistan dövlətinin yaradılması, xalqımızın milli mədəniyyət nümunələrinin, toponimlərinin ermənilər tərəfindən özününküləşdirilməsi barədə tarixi faktlara əsaslanan qiymətli əsərlərin yazılaraq çap olunması çox əhəmiyyətlidir. Bu baxımdan bir sıra dəyərli əsərlər yazılmışdır ki, bunun nəticəsində XIX əsrin sonu - XX əsrin əvvəllərinə qədər ermənilərin nəinki Qarabağ, Naxçıvan və Zəngəzurda, hətta İrəvanın özündə də heç vaxt etnik çoxluq təşkil etmədikləri faktlarla sübuta yetirilmişdir. Bundan əlavə, ermənilərin müxtəlif vaxtlarda azərbaycanlılara qarşı törətdikləri soyqırımlar ilə əlaqədar sənədlər və faktlar aşkar edilmişdir. Son vaxtlar Qubada aşkar edilmiş kütləvi məzarlıq buna əyani sübutdur.

Müasir dövrdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə nizama salınmasına dair aparılan danışıqlar, dünya birliyinin göstərdiyi səylər, eləcə də beynəlxalq təşkilatların bu istiqamətdə fəaliyyətinin öyrənilməsi çox mühüm və elmi-siyasi əhəmiyyət kəsb edir. Bu problem alimlər və mütəxəssislər tərəfindən araşdırılmış, bir sıra müxtəlif elmi əsərlər, monoqrafiyalar yazılmışdır.

Hal-hazırda, Ermənistanın ölkəmizə qarşı ərazi iddiaları və işğalçılıq siyasətinin davam etməsi, eləcə də Azərbaycan torpaqlarının

20 %-nin işğal altında olması bu məsələnin tədqiqat obyekti kimi seçilməsini zəruri etmişdir. Ona görə də XX əsrin 80-ci illərinin ikinci yarısında Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və hərbi təcavüzü, eləcə də azərbaycanlılara qarşı həyata keçirdiyi etnik təmizləmə və soyqırım siyasətinin bu günə qədər davam edən mərhələsinin təhlili xronikasının sistemli şəkildə öyrənilməsini çox vacib və əhəmiyyətli hesab edirik.

Monoqrafiyada son 25 il ərzində (1987-2011) Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və işğalçılıq siyasəti ilə yanaşı, dünya birliyinin bu işğalla bağlı mövqeyi, eyni zamanda beynəlxalq təşkilatların münaqişəyə dair qəbul etdiyi sənədlər də təhlil edilir. İşin gedişində bu məsələlər xronoloji ardıcıllıqla təhlil edilməklə yanaşı, həmçinin beynəlxalq təşkilatların fəaliyyətindəki ziddiyyətli cəhətlərə, buraxılan nöqsanlara, eləcə də perspektivdə həlli mümkün və zəruri olan məsələlərə də diqqət yetirilmişdir. Xronoloji ardıcıllıqla təhlil edilən faktlar və hadisələrə dair statistik göstəricilər, Azərbaycan tarixinə dair xəritələr, Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın işğal olunmuş əraziləri haqqında məlumatlar və beynəlxalq təşkilatların münaqişənin nizama salınması istiqamətində qəbul etdiyi sənədlər kitabın əlavələr hissəsində verilmişdir.

Monoqrafiyanın yazılması zamanı istifadə edilmiş sənəd və materialları bir neçə qrupa bölmək olar: a) Ermənistanın etnik təmizləmə, soyqırım və işğalçılıq siyasətinə dair faktlar, sənədlər və arxiv materialları; b) böyük dövlətlər və beynəlxalq təşkilatlar tərəfindən qəbul edilən və onların rəsmi mövqeyini əks etdirən sənədlər (qətnamələr, qərarlar, bəyanatlar və s.); c) dövlətlərin və beynəlxalq təşkilatların rəsmi şəxslərinin dövri mətbuatda çap edilən məruzə, çıxış, müsahibələri və s.

Kitabda Azərbaycan Respublikasının Konstitusiyasına, BMT-nin Nizamnaməsinə, ATƏT-in Yekun Aktına və digər beynəlxalq hüquqi sənədlərə istinad edilmişdir. Araşdırılan problemlə bağlı Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin cari arxivində saxlanılan sənədlərdən (1992-2003) ilkin mənbə kimi istifadə olunmuşdur. Monoqrafiyanın hazırlanması zamanı Azərbaycanda və xaricdə nəşr olunmuş əsərlərdən geniş istifadə edilmiş və yaxud da müəyyən məsələlərə aydınlıq gətirmək üçün onlara müraciət olunmuşdur.

Kitabın mühüm mənbə bazasını dövlət başçılarının, Xarici işlər nazirlərinin qarşılıqlı səfərləri zamanı verdikləri bəyanatlar, məruzə və çıxışlar təşkil edir. Bu cəhətdən ümummilli lider Heydər Əliyevin nitq, məruzə və çıxışlarına dair çoxcildli nəşrlər, həmçinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitq, məruzə, çıxış və müsahibələri xüsusi əhəmiyyət kəsb edir. İşin gedişində beynəlxalq təşkilatlar və böyük dövlətlər tərəfindən qəbul olunan sənədlər təhlil edilərkən, beynəlxalq təşkilatların rəsmi saytlarına da müraciət edilmişdir.

Bundan əlavə, ABŞ-ın Bakıdakı səfirliyinin informasiya xidmətinin materiallarında (USİS) Amerika dövlətinin rəsmi şəxslərinin verdikləri bəyanatlar, onların məruzə və çıxışları Birləşmiş Ştatların Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar mövqeyinin öyrənilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Bu səbəbdən, kitabda ABŞ-ın İnformasiya Agentliyinin (USİA) məlumatlarından (1992-1999) geniş istifadə edilmişdir. Bununla yanaşı, BMT-nin Azərbaycandakı daimi nümayəndəliyinin İctimai İnformasiya Departamentinin materialları (1992-1996) da kitabın yazılması prosesində gərəkli olmuşdur. SSRİ-nin süqutu ərəfəsində sovet rəhbərliyi tərəfindən qəbul edilən və dövlətin rəsmi mövqeyini əks etdirən sənədlər SSRİ rəhbərliyinin münaqişəyə dair mövqeyinin öyrənilməsi baxımından, eləcə də, sovet dövründə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və hərbi təcavüzü zamanı baş verən hadisələrin təhlili zamanı əhəmiyyətli olmuşdur.

Bütün bunlarla yanaşı, problemin öyrənilməsi zamanı Azərbaycanda və xaricdə nəşr olunan dövri mətbuat materiallarından, eləcə də internet resurslarından geniş istifadə edilmişdir ki, bunlar monoqrafiyada ayrıca verilmiş ədəbiyyat siyahısında öz əksini tapmış, eləcə də, bu məsələnin alimlər, mütəxəssislər tərəfindən daha dərindən öyrənilməsi, müxtəlif tədqiqatların aparılması üçün bir sıra mənbə, ədəbiyyat və informasiya resursları da tövsiyə olunaraq göstərilmişdir.

Əlbəttə, biz məsələnin tam təfərrüatı ilə əhatə edildiyi fikrindən uzağıq. Lakin hesab edirik ki, bu gün xalqımız və dövlətimiz üçün çox vacib və aktual olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin öyrənilməsi yalnız Azərbaycan oxucularının deyil, həmçinin demokratik dünyanın da böyük marağına səbəb olacaqdır.

GİRİŞ

Tarixi etnoqrafik əyalət kimi *Qarabağa, Kiçik Qafqaz dağları daxil olmaqla, Kür və Araz çayları arasındakı ərazi daxildir. Bu ərazi sivilizasiyanın ən qədim ocaqlarından biri hesab edilir. Artıq Qarabağda 300-400 min il əvvəl qədim insan məskəninin mövcud olması və burada yaşayan insanların maddi və mənəvi dünyası haqqında dəyərli məlumatlar vardır. Bunu ən qədim insan düşərgələrindən biri olan məşhur Azıx mağarasında aşkar edilmiş arxeoloji materiallar da sübut edir (270, s.5). E.ə. IV minilliyin sonu - I minilliyin əvvəllərində Qarabağın həyatında böyük dəyişikliklər baş vermişdir. Belə ki, Xocalı-Gədəbəy mədəniyyəti (e.ə II minilliyin ikinci yarısı - I minilliyin əvvəlləri) adını almış bu dövrə aid arxeoloji tapıntılar bölgənin Yaxın Şərqlə ticarət və mədəni əlaqələrinin olduğunu təsdiq edir.*

Tarixi mənbələr göstərir ki, qədim dövrlərdə bu region Qafqaz Albaniyasına daxil olmuşdur. Antik müəlliflərdən Strabon da təsdiq edir ki, Kür çayı Albaniyadan keçir və alban tayfaları hər iki sahildə məskunlaşmışlar (270, s.19). Albaniya sərhədlərinin Kür çayı boyunca keçməsi, Kürün sağ sahil torpaqlarının "əzəli erməni torpaqları" olması haqqında iddiaların əsassız olduğunu VII-VIII əsrlər alban tarixçisi Musa Kalankatlının əsərlərində də görmək olar. Musa Kalankatlının məlumatlarına görə, eramızın I əsrində Albaniyanın cənub sərhədi Araz çayı boyunca keçirdi. Alban tarixçisi qeyd edir ki, Albaniyanın hüdudları eramızın VII-VIII əsrlərinə qədər dəyişməz qalmışdır (432, s.105).

Albaniyanın cənub sərhədlərinin Kür çayı boyunca keçməsi haqqındakı erməni iddialarının meydana gəlməsinin səbəbini erməni hökmdarlarının təcavüzkar siyasəti ilə əlaqələndirmək lazımdır. E.ə. II-I əsrlərdə müxtəlif vaxtlarda Kürün sağ sahilində yaşamış alban tayfalarının ərazisi də ermənilərin təcavüzünə məruz qalmışdır. Ancaq ermənilərin ilk dəfə Cənubi Qafqaza gəlmələri təxminən e.ə. II əsrdən sonraya təsadüf etmişdir. Bununla da, onların yerli dövlətlərə və xalqlara qarşı təcavüzkar

fəaliyyətləri də başlanır. Bu dövrdə ermənilər Kiçik Asiyanın şərqindəki erməni çarlığını qondarma "Böyük Ermənistan" adlandırır və köçüb məskən saldıqları bütün əraziləri erməni torpaqları elan etməyə cəhd edirdilər. Roma imperiyasının e.ə. 66-cı ildə II Tiqranı darmadağın etməsi ilə uydurma "Böyük Ermənistan" əfsanəsi puça çıxmış və onlar Romanın vassalına çevrilmişlər. Bu vəziyyət IV əsrədək davam etmişdir (408, s.18-19). Belə olduğu halda ermənilərin Albaniyanın tarixi torpaqlarını Ermənistanın tərkib hissəsi kimi təqdim etməsi heç bir elmi əsasa malik deyildir. Halbuki, ermənilərdən fərqli olaraq Albaniya – Azərbaycan dövləti müstəqil siyasət yeritməkdə davam edirdi və Qarabağın tarixi vilayətləri onun tərkibinə daxil olmuşdur.

Albaniya dövləti təxminən b.e.ə. IV- b.e. VIII əsrlərində mövcud olaraq 1200 ilə yaxın dövr ərzində Azərbaycan tarixində böyük rol oynamışdır. Qarabağ Azərbaycan Albaniya dövlətinə məxsus olduğu kimi, burada yaşayan etnoslar – uti, sovdey, qarqar və başqaları da alban tayfaları olmuşlar. Albaniya dövləti dövründə Qarabağın dağlıq hissəsi Arsax adlanmışdır.

Azərbaycan alimləri Z.Bünyadov, F.Məmmədova, R.Göyüşov və başqaları öz əsərlərində göstərirlər ki, Arsax I-VI əsrlərdə alban çarları Arşakilərin, VII- VIII əsrlərdə isə Mehrani knyazlarının hakimiyyəti altında olmuşdur. Erməni mənbələrində tez-tez qeyd edilir ki, Albaniyanın cənub sərhədləri Kür çayı boyunca keçirdi və Kürün arxasından isə guya "Böyük Ermənistan" torpaqları başlanırdı. Lakin tədqiqatçılar b.e.ə. III əsrdən - b.e. IV yüzilliyinə qədər Albaniya ərazisinin Kür çayı boyunca keçdiyini, yəni Kür və Araz çayları arasında yerləşdiyini, Arsax, Uti və Kaspiana (Paytakaran) vilayətinin isə Ermənistan torpağı sayıldığını iddia edən erməni konsepsiyasının tamamilə əsassız və qeyri-elmi olduğunu sübut etmişlər.

Bütün tarixi faktlar göstərir ki, Xilafət hökmdarlığı dağıldıqdan, xüsusilə Azərbaycan Atabəylər dövləti yarandıqdan sonra da Qarabağ məhz Azərbaycanın dövlət-ərazi bölgüsü içərisində yerləşmişdir. XII-XIV əsr mənbələrində də "Dağlıq Qarabağ" terminina təsadüf olunmur. Qarabağın tarixən bir-biri ilə sıx iqtisadi və mədəni əlaqədə olmuş dağlıq və düzən əraziləri coğrafi baxımdan daha geniş ərazini əhatə edən Arranın

13960

(Albaniyanın) tərkib hissəsi idi. Orta əsr mənbələrinin məlumatlarına görə, XIII-XIV əsrlərdə Qarabağ əhalisinin əsas tərkibi türklərdən ibarət olmuşdur (145, s.164-175).

Ümumiyyətlə, Qarabağ tarixi-etnoqrafik əyalət kimi əvvəlcə Albaniya dövlətinin tərkibinə daxil olmuş, sonra bütün Azərbaycanla birlikdə Ərəb xilafətinin əsarəti altına düşmüş, ərəb imperiyasının süqutundan sonra isə IX-X əsrlərdə Sacilər, X əsrdə Salarilər, XI-XII əsrlərdə Şəddadilər, XII-XIII əsrlərdə Atabəy İldənizlər, XIII əsrin ikinci yarısından XIV əsrə qədər Hülakülər (Elxanilər), XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibinə daxil olmuşdur. XII-XIV əsrlərin dövlət-ərazi bölgüsü ənənələrinə uyğun olaraq Səfəvilər dövləti (1501-1736) tərkibində mərkəzi Gəncə şəhəri olan Qarabağ bəylərbəyliyi yaranmış və bu böyük ərazi iki yüz otuz ildən artıq zamanda Azərbaycan tarixinin mühüm inzibati-siyasi vahidlərindən biri olmuşdur (333, s.8).

XVIII əsrin ikinci yarısında müstəqil Qarabağ xanlığı Kür və Araz çayları arasında olan bütün torpaqları əhatə edən Azərbaycan dövləti idi. Qarabağ xanlığının əsasını birləşmiş qədim Azərbaycan etnosları təşkil etmişlər. Qarabağın aran hissəsində yaşayan Otuzikilər, Cavanşir və Kəbirli tayfaları Qarabağın köklü elatları idilər. Qarabağ xanlığının banisi Cavanşir nəslinin Sarıcalı oymağından olan Pənahəli xan, Otuzikilər tayfasının başçısı, Cavanşir və Qazaxın 20 min heyətinin əmiri idi.

Bu tayfa Qarabağın qədim sakinlərindən olmuş və uzun müddət bölgənin ictimai-siyasi həyatında mühüm rol oynamışdır. Eyni zamanda, Qarabağ xanlığı mövcud olduğu illərdə (1747-1805) öz istiqlaliyyəti və suverenliyi uğrunda xarici müdaxiləçilərə qarşı uğurlu mübarizə aparmışdır. Xanlığın paytaxtı Şuşa qalası (Pənahabad) yarım əsrdən çox Azərbaycanın xarici istilalardan mühafizəsində əsas dayaq mərkəzi olmuşdur. XVIII əsrin ikinci yarısında Şuşa memarlıq abidələri baxımından zəngin olan və şəhərsalma mədəniyyətinin geniş inkişaf etdiyi Azərbaycanın paytaxt şəhərlərindən biri sayılırdı. Şanlı tarixi keçmişə malik bu qədim Azərbaycan şəhəri siyasi mərkəz olmaqla yanaşı, eləcə də ən mühüm sənətkarlıq, ticarət və mədəniyyət mərkəzlərindən birinə çevrilmişdir (406, s.8).

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

XVIII əsrin əvvəllərindən çar Rusiyasının xarici siyasətində Qafqaz mühüm rol oynamağa başlamış və çarizm bu dövrdən etibarən cənubda öz strateji mövqelərini möhkəmləndirməyə çalışmışdır. Tarixi faktlar göstərir ki, Qafqaz həm siyasi, həm də iqtisadi mənafe baxımından, Rusiyanın daim diqqət mərkəzində olmuş və bu dövrdə çar Rusiyası Azərbaycanı işğal etmək, burada özünə dayaq yaratmaq məqsədilə ermənilərdən məharətlə istifadə etmişdir. Belə ki, çar Rusiyasının regiona müdaxiləsi ermənilərin digər ölkələrdən Cənubi Qafqaza, o cümlədən Azərbaycana köçürülüb gətirilməsi burada erməni amilinin gücləndirilməsinə kömək etmişdir.

Ermənilər də Rusiya imperiyasının onlara arxa duracaqlarına ümid bəsləyərək çarizmin Qafqazı işğal etməsinə köməklik göstərməklə öz məkrli siyasətlərini həyata keçirmək niyyətində olmuşlar. Çar Rusiyası onunla əlaqə saxlayan ermənilərdən öz gələcək işğalçılıq planlarının həyata keçirilməsi üçün bir vasitə kimi istifadə etmişdir. XVIII əsrin birinci rübündə Rusiya imperatoru tərəfindən ermənilərə diqqət göstərilməsi, himayədarlıq edilməsi yalnız çar Rusiyasının mənafeyi naminə edilirdi və bu siyasət sonrakı dövrlərdə də davam etdirilmişdir.

Ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi. *Tarixi faktlar göstərir ki, strateji baxımdan mühüm əhəmiyyətə malik olan Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsinə İrandan və Türkiyədən çoxlu sayda erməni əhalisinin köçürülməsinə XIX əsrin əvvəllərində başlanmışdır. Bu dövrdə regionun zəngin təbii sərvətləri üzərində nəzarəti ələ keçirmək istəyən çar Rusiyası XVIII əsrin sonu - XIX əsrin əvvəllərində Türkiyə və İrana qarşı müharibə apararkən "erməni amili"ndən siyasi alət kimi istifadə etməklə, əhalinin ermənilaşdirilməsi siyasətini də həyata keçirmişdir.*

Bu zaman ermənilərin köçürülməsinin əsas istiqamətlərindən biri məhz mühüm strateji əhəmiyyət kəsb edən Qarabağ ərazisi olmuş, bu bölgəyə çarizm tərəfindən xüsusi diqqət yetirilmişdir. Belə ki, XIX əsrin əvvəllərində Qafqaz qoşunlarının baş komandanı P.D.Sisianov Gəncəni tutduqdan sonra 1805-ci il 22 may 19 №-li raportunda yazırdı ki, Qarabağ özünün coğrafi mövqeyinə görə Azərbaycanın, eləcə də İranın qapısı hesab edilir, buna görə də onu itaətdə saxlamalı və burada mövqeyimizi möhkəmlətməyə daha çox cəhd göstərməliyik (333, s.16).

Belə bir məqsəd tezliklə həyata keçirildi. 1805-ci il mayın 14-də Qarabağ xanı İbrahim xanla general Sisianov arasında müqavilə imzalandı (145, s.271-272; 333, s.16; 400, s.365-376). Qarabağ xanlığı Rusiyanın tərkibinə daxil olan kimi P.D.Sisianov dərhal Qarabağda çarizmin mövqeyini möhkəmlətmək üçün Cənubi Qafqazın digər əyalətlərindən ermənilər bura köçürməyə başladı.

1822-ci ildə Qarabağ xanlığı ləğv edilərək əvəzində eyni adlı əyalət yaradıldı ki, bu əyalət də 1840-cı ildə Şuşa qəzası adı altında Kaspi (Xəzər) vilayətinə daxil edildi. 1868-ci ildə Yelizavetpol (Gəncə) quberniyası yaradılarkən Şuşa və Zəngəzur qəzaları bu quberniyanın tərkibinə verildi, daha sonra 1883-cü ildə Yelizavetpol (Gəncə) quberniyasının tərkibində Cavanşir və Cəbrayıl qəzaları təşkil olundu. 1917-ci ildə Şuşa qəzası Müvəqqəti hökumət vaxtında Xüsusi Zaqafqaziya komitəsinə tabe olan Yelizavetpol quberniyasına, 1918-1920-ci illərdə isə Azərbaycan Xalq Cümhuriyyəti tərkibində Gəncə quberniyasına daxil olmuş və Qarabağın bu inzibati bölgüsü 1921-ci ilə qədər davam etmişdir (145, s.276).

Qarabağ əhalisinin sayı və etnik tərkibi haqqında ətraflı məlumat verən, eləcə də mühüm sənəd hesab edilən çar məmurları Yermolov və Mogilyovski tərəfindən tərtib edilmiş "Qarabağ əyalətinin təsviri"nə görə, 1823-cü ildə Qarabağ əyalətində 20 min 95 ailə, o cümlədən 15 min 729 azərbaycanlı və 4 min 366 erməni ailəsi olmuşdur. Yəni hələ 1823-cü ilə qədər Qarabağa köçürülən ermənilərin hesabına əyalətdə onların sayı artıb 4 min 366-ya çatmışdır (333, s.17).

Qarabağın dağlıq hissəsində erməni əhalisinin xeyli dərəcədə çoxaldılması XIX əsrin 20-ci illərində, xüsusilə, Cənubi Qafqazın Rusiya tərəfindən işğal edilməsindən sonra baş vermişdir. 1804-1813-cü, 1826-1828-ci illər Rusiya-İran və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələrinin gedişində, həm də sonralar ermənilərin İran və Türkiyədən kütləvi surətdə Cənubi Qafqaza, o cümlədən Qarabağa köçürülməsi nəticəsində burada onların sayı ilbəil artmağa başladı.

Azərbaycanın bölüşdürülməsi haqqında Rusiya ilə İran arasında bağlanmış Türkmənçay sülh müqaviləsinin şahidi, ermənilərin İrandan Qafqaza, o cümlədən Azərbaycan torpaqlarına köçürülməsinin iştirakçısı, o vaxt Rusiyanın İrandakı səfiri olan rus yazıçısı A.Qriboyedov yazır ki,

köçürülmüş ermənilərin əksəriyyəti müsəlman (azərbaycanlılar nəzərdə tutulur – müəllif) mülkədarlarının torpaqlarında yerləşdirilmişdir. Yayda buna yol vermək olardı. Çünki torpaq sahibləri olan müsəlmanların əksəriyyəti yaylaqda olurdular və başqa dindən olan gəlmələrlə az-az görüşürdülər. Bundan başqa müsəlmanlar hesab edirdilər ki, ermənilər köçürüldükləri torpaqlara həmişəlik yiyələnəcəklər (774, s.57). Buradan açıq-aydın görünür ki, ermənilərin bu torpaqlarda yerləşdirilməsi müsəlmanları çox narahat etmişdir. Daha sonra müəllif yazır: ".. Biz müsəlmanları düşdükləri bu çətin vəziyyətlə razılaşdırmalı, ermənilərin burada müvəqqəti qalacaqlarına inandırmalıyıq ki, onlar ermənilərin ilk dəfə buraxıldıqları torpaqlara həmişəlik yiyələnmək fikrindən daşınsınlar" (774, s. 58-59).

XIX əsrin əvvəllərində çar Rusiyasının Qafqazı işğal etməsini N.Şavrov da açıq söyləyir və bu məqsədlə həmin əraziyə ilk dəfə başqa millətlərin köçürülməsini yazırdı: "Biz müstəmləkəçilik fəaliyyətimizə Qafqaza rus əhalisinin deyil, xaricilərin köçürülməsindən başladıq. Vətəndə arzuedilməz ünsürlər sayılan bu kolonistlərdən Tiflis və Yelizavetpol (Gəncə) quberniyalarında koloniyalar yaratdıq. Onlara ən yaxşı torpaqlar ayrıldı və müxtəlif imtiyazlar verildi" (936, s.63).

Qarabağın dağlıq hissəsinə əvvəlcə rəsmən 124 min, daha sonra isə qeyri-rəsmi olaraq xeyli erməni köçürülmüşdür. Ümumiyyətlə, 1828-1830-cu illər ərzində Qarabağın dağlıq hissəsinə 200 min erməni köçürülmüşdür. Bu faktları N.Şavrov belə təsvir edir: "1826-1828-cu illər müharibəsi qurtardıqdan sonra biz iki il ərzində – 1828-ci ildən 1830-cu ilə qədər 40 mindən çox İran və 84 min Türkiyə ermənisi köçürüb, onları demək olar ki, ermənilər yaşamayan Yelizavetpol və İrəvan quberniyalarında, Tiflis, Borçalı, Axalsıx, Axalkələk qəzalarının ən yaxşı dövlət torpaqlarında yerləşdirdik. Onların məskunlaşması üçün 200.000 desyatindən çox xəzinə torpağı ayrılmış və onlar üçün müsəlmanlardan 2 milyon manatlıqdan çox xüsusi sahibkar torpağı satın alınmışdı. Həmin ermənilər Yelizavetpol quberniyasının dağlıq hissəsi (Qarabağın dağlıq hissəsi nəzərdə tutulur – müəllif) və Göyçə gölünün sahillərində məskunlaşdırıldılar. Bunu da nəzərə almaq lazımdır ki, rəsmi olaraq köçürülən 124 min ermənidən başqa buraya qeyri-rəsmi köçənlərlə birlikdə

onların sayı 200 min nəfərdən çoxdur" (936, s.63). Bu fakt onu göstərir ki, köçürülən ermənilər, əsasən, ermənilər yaşamayan ərazilərdə yerləşdirilmişdilər.

Ermənilərin kütləvi şəkildə Qarabağa köçürülməsi nəticəsində burada yeni erməni kəndləri – Marağalı, Canyataq, Yuxarı Çaylı, Aşağı Çaylı və s. kəndlər salınmışdı. Cənubi Azərbaycanın Marağa şəhərindən Qarabağın dağlıq hissəsinə köçürülərək orada məskunlaşan ermənilər 1828-ci ildən 150 il sonra, yəni 1978-ci ildə sovet dövründə, Ağdərə rayonunda həmin köçürülmənin şərəfinə abidə ucaltmış (abidənin üzərində ermənicə "Marağa-150" sözləri yazılmışdı), lakin XX əsrin 80-ci illərinin sonunda, yəni Azərbaycana qarşı ərazi iddiaları qaldırdıqları zaman həmin abidəni özləri məqsədyönlü şəkildə dağıtmışlar (574, s.9; 655, s.22).

Beləliklə, Türkmənçay müqaviləsindən sonrakı iki ildə çar Rusiyasının himayədarlığı nəticəsində ermənilər Azərbaycanın müxtəlif yerlərində, o cümlədən Qarabağın dağlıq hissəsində məskunlaşmağa nail oldular. Çarizmin ermənilərə olan bu diqqəti və himayədarlığı sonrakı illərdə də özünü göstərirdi. Belə ki, 1829-cu il Ədirnə müqaviləsi ilə Osmanlı imperiyasından da ermənilərin yenicə işğal olunmuş Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirilməyə başlanıldı. Bu köçürülmə prosesinin davamı olaraq 1877-1879-cu illər Rusiya-Türkiyə müharibəsi illərində də Türkiyədən Cənubi Qafqaza daha 85 min erməni köçürülmüşdür (333, s.18).

XIX əsrin sonu - XX əsrin əvvələrində Cənubi Qafqaza ermənilərin köçürülməsi daha geniş vüsət aldı. Belə ki, təkcə 1896-cı ildən 1908-ci ilə kimi keçən 13 ildə bu regiona 400 min erməni köçürülmüşdü. Bu barədə N.Şavrov yazır: "1896-cı ildə general-adyutant Şeremetyev Zaqafqaziyada yaşayan ermənilər haqqında məlumatında onların sayının 900 min nəfər olduğunu göstərmişdir. 1908-ci ildə isə onların sayı 1 milyon 300 min nəfərə çatmışdır, yəni bu müddət ərzində ermənilər 400 min nəfərdən artıq çoxalmışlar. Hal-hazırda Zaqafqaziyada yaşayan 1 milyon 300 min ermənidən 1 milyon nəfəri diyarın köklü sakinləri deyillər və onlar buraya bizim tərəfimizdən köçürmüşlər" (936, s.64).

Nəticədə, Qarabağın dağlıq hissəsinə ermənilərin kütləvi şəkildə köçürülməsi bölgədə demoqrafik vəziyyətə ciddi təsir göstərmişdir. Belə ki,

1897-ci ildə əhalinin siyahıya alınması zamanı Qarabağda yaşayan 54 min 841 ailədən 29 min 350-nin azərbaycanlı, 18 min 616-nın isə erməni ailəsi olduğu bildirilir. 1917-ci ildə isə Qarabağda ermənilərin sayı gəlmələrin hesabına artaraq ümumi əhalinin 46%-ni, azərbaycanlılar isə 51 %-ni təşkil etmişdir (333, s.19).

1917-ci ilin "Kavkazski kalendar" məcmuəsinin yazdığına görə, Qarabağda 199 min azərbaycanlı (58,3%) və 142 min erməni (41,7%) yaşayırdı. Göründüyü kimi, çar Rusiyasının himayəsi sayəsində süni surətdə ermənilərin mərhələ-mərhələ köçürülüb Qarabağda yerləşdirilməsinə baxmayaraq azərbaycanlılar həmin torpaqların əzəli sakinləri olmaqla bütün dövrlərdə çoxluq təşkil etmişlər.

"Kavkazski kalendar"ın salnamələrində verilən statistik məlumatlar sübut edir ki, indiki Ermənistan Respublikasının ərazisində də əvvəllər azərbaycanlılar ermənilərdən xeyli çox olmuşdur. Məsələn, 1886-cı ildə Gəncə (Yelizavetpol) quberniyasının Zəngəzur qəzasındakı 326 kənddən 154-ü azərbaycanlı kəndi (45,7 %), 91-i kürd kəndi (27,8%) və yalnız 81-i erməni kəndi (24,8%) olmuşdur. 1889-cu ildə Zəngəzur qəzasının azərbaycanlı əhalisi ermənilərdən 1500 nəfər çox olmuşdur. 1897-ci ildə isə Zəngəzurun əhalisi 142 min nəfər olmuşdur ki, onlardan 71,2 mini (50,1%) azərbaycanlı, 63,6 min nəfəri isə (44,8%) erməni olmuşdur (425, s.23).

Ermənistan SSR-in Mərkəzi Statistika İdarəsinin 1962-ci ildə nəşr olunmuş statistik məcmuəsində göstərilir ki, 1831-ci ildə İrəvan şəhərinin 18 min 766 nəfər əhalisinin 15 min 992 nəfəri, 1866-cı ildə isə 27 min 246 nəfərdən 23 min 627 nəfəri azərbaycanlı olmuşdur (yəni əhalinin 85,2%-i) (423, s.25). Z.Korkodyanın 1932-ci ildə İrəvanda nəşr olunmuş "Sovet Ermənistanının əhalisi 1831-1931" kitabında da qeyd edilir ki, İrəvan quberniyasının İrəvan, Eçmiədzin, Yeni Bəyazid, Aleksandropol qəzalarında, Yelizavetpol (Gəncə) quberniyasının Zəngəzur və Qazax-Dilican qəzalarında, Tiflis quberniyasının Lori-Pəmbək (Borçalı mahalı) qəzasında 2310 yaşayış məntəqəsindən 2000-i azərbaycanlılara məxsus olmuşdur (425, s.22). İrəvanda yaşayan 10 min nəfər əhalinin 7 min nəfəri azərbaycanlı olmaqla yanaşı, eləcə də xanlığı idarə edən 40 nəfərin hamısı azərbaycanlılar olmuşlar (423, s.22). 1920-ci ilədək İrəvan quberniyasında, xüsusilə İrəvan qəzasında azərbaycanlı əhalinin sayı xeyli

çox olmuş, yəni qəzada olan 99 min nəfər əhalinin 62,6 min nəfəri (66%) azərbaycanlı, 36,4 min nəfəri (34%) isə erməni olmuşdur (425, s.23).

Erməni millətçiləri XIX əsrin sonunda – 1885-ci ildə Marseldə "Armenakan", 1887-ci ildə Cenevrədə "Hnçaq", 1890-cı ildə isə Tiflisdə "Daşnaksütyun" partiyalarını yaratdılar. Bundan sonra, ermənilərin "Böyük Ermənistan" yaratmaq iddiaları yeni mərhələyə qədəm qoydu. "Böyük Ermənistan" ideyası ilə yaşayan ermənilər öz məqsədlərinə çatmaq üçün xarici himayədarların köməyi ilə müxtəlif vaxtlarda türk-müsəlman əhalisinə qarşı dəhşətli terror və soyqırım həyata keçirməklə etnik təmizləmə siyasəti aparmışlar. Yəni Azərbaycan xalqı son 200 il ərzində erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə, soyqırım və təcavüzkar siyasətinə məruz qalaraq öz tarixi torpaqlarından didərgin salınmış, qaçqın və məcburi köçkünə çevrilmişlər.

XX əsrin əvvəllərində ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırım siyasəti. *XX əsrin əvvəllərində erməni millətçiləri "Daşnaksütyun" partiyasının proqramında qarşıya qoyduqları "Böyük Ermənistan" ideyasını reallaşdırmaq istiqamətində fəaliyyətlərini genişləndirərək öz tarixi torpaqlarında yaşayan azərbaycanlıları planlı surətdə doğma yurdlarından qovmaqla etnik təmizləmə və soyqırım siyasətini həyata keçirməyə başladılar.*

Belə ki, 1905-1907-ci illərdə ermənilər Bakıda, Gəncədə, Qarabağda, İrəvanda, Naxçıvanda, Ordubadda, Şərur-Dərələyəzdə, Tiflisdə, Zəngəzurda, Qazaxda və başqa yerlərdə dinc azərbaycanlılara qarşı qırğınlar törətmiş, əhali amansızlıqla qətlə yetirilmiş, şəhər və kəndlər yandırılmış və dağıdılmışdır. Erməni silahlı dəstələri Şuşa, Zəngəzur və Cəbrayıl qəzalarında, İrəvan və Gəncə quberniyalarında azərbaycanlılar yaşayan 200-dən artıq yaşayış məntəqələrini viran qoymuş, on minlərlə soydaşımız öz doğma yurdlarından qaçqın və məcburi köçkün düşmüşlər (167, s. 6,14). Ermənilər 200 mindən artıq azərbaycanlını (uşaq, qadın, qoca) fərq qoymadan qətlə yetirməklə həmin ərazilərdə çar Rusiyasının onlara vəd etdiyi "Ermənistan dövləti"ni qurmaq üçün etnik təmizləmə aparmışlar. Belə ki, birinci dünya müharibəsi illərində də çarizmin himayəsinə sığınan ermənilər azərbaycanlılara qarşı qırğınları davam etdirməyə başladılar.

1917-ci ildə Rusiyada baş verən fevral və oktyabr hadisələrindən sonra "Daşnaksütyun" partiyası və Erməni Milli Konqresi daha geniş fəaliyyətə başladı. Eyni zamanda, V.Lenin tərəfindən 1917-ci ilin dekabrında Qafqaz işləri üzrə müvəqqəti fövqəladə komissar təyin edilən S.Şaumyan azərbaycanlıların kütləvi qırğınının təşkilatçısı və rəhbərinə çevrildi.

1918-ci ilin əvvəllərində, yəni mart qırğını ərəfəsində bilavasitə Şaumyana tabe olan erməni silahlı qüvvələrinin sayı 10 minə yaxın idi. Şaumyanın başçılığı ilə 1918-ci ilin yazında ermənilər tərəfindən azərbaycanlılara qarşı əsl soyqırım törədildi. Belə ki, həmin il martın 30-da silahlı daşnaklar azərbaycanlıların evlərinə hücum edərək amansız qətllər törətdilər. Martın 31-də və aprelin ilk günlərində qırğınlar kütləvi xarakter aldı. Minlərlə dinc azərbaycanlı yalnız milli mənsubiyyətinə görə məhv edildi. Həmin günlərdə erməni-bolşevik birləşmələri Bakıda 12 min dinc azərbaycanlını qətlə yetirdilər (26, s.176). Bu qanlı hadisələr zamanı insanlar evlərində diri-diri yandırılmış, eləcə də xüsusi işgəncələrlə və amansızlıqla öldürülmüşlər.

Ermənilərin silahlı hücumu nəticəsində 1918-ci ilin ilk beş ayı ərzində Quba qəzasında 16 mindən çox insan xüsusi qəddarlıqla qətlə yetirilmiş, 167 kənd dağıdılmışdır ki, onlardan 35-i hal-hazırda mövcud deyil (423, s.47; 349, s.123-124). Erməni-daşnak dəstələrinin Quba qəzasında azərbaycanlıların kütləvi şəkildə qətlə yetirilmələrinə dair aşkar edilmiş faktlar son vaxtlar bir daha sübuta yetirilmişdir. Belə ki, 2007-ci ildə Quba şəhərində kütləvi məzarlıqların aşkar edilməsi erməni vandalizmini təsdiqləyən faktlardır. Məzarlığın tədqiqi zamanı 1918-ci ildə erməni silahlı birləşmələrinin Qubaya hücumu zamanı insanların hər cür zorakılığa məruz qalaraq qəddarlıqla qətlə yetirilməsi və sonradan kütləvi şəkildə basdırılmış yerli sakinlərə məxsus olduğu müəyyən edilmişdir. Onu da qeyd emək lazımdır ki, Amazaspın rəhbərliyi ilə erməni hərbi birləşmələri Qubada türk-müsəlman əhalisi ilə yanaşı, yəhudilərə qarşı da qırğınlar törətmişlər. Aparılan tədqiqatlar nəticəsində məlum olmuşdur ki, 1918-1919-cu illərdə Qubada ermənilər tərəfindən 3 min nəfərə qədər yəhudi qətlə yetirilmişdir (834, s.26).

Erməni daşnakları tərəfindən 1918-ci ilin mart-aprel aylarında Bakıda və digər Azərbaycan ərazilərində 50 minə yaxın insan xüsusi işgəncələrlə qətlə yetirilmişdir (167, s.14). Eyni zamanda Zəngəzur qəzasında 10 mindən çox, Şamaxı qəzasında 10 min 270 nəfər, şəhərlə birlikdə isə 18 min 270 nəfər azərbaycanlı amansızlıqla öldürülmüşdür.

1918-1920-ci illərdə indiki Ermənistan Respublikasının ərazisində yaşamış 575 min azərbaycanlının 565 min nəfəri öldürülmüş və yaxud doğma torpağından didərgin düşmüşdür. Bu rəqəmi Z.Korkodyan özünün "Sovet Ermənistanının əhalisi 1831-1931" kitabında təsdiq edərək yazır: "1920-ci ildə sovet hökumətinə daşnaklardan cəmi 10 min nəfərdən bir qədər artıq türk (azərbaycanlı) əhali qalmışdır. 1922-ci ildə 60 min qaçqın geri qayıtdıqdan sonra azərbaycanlılar burada 72 min 596 nəfər, 1931-ci ildə isə 105 min 838 nəfər olmuşdur" (425, s.33).

Bundan əlavə, ermənilər tərəfindən Azərbaycanın yüzlərlə yaşayış məntəqəsi, o cümlədən Qarabağda 157 kənd dağıdılmış və yandırılmış, eləcə də Şuşada azərbaycanlılara qarşı amansız qırğınlar törədilmişdir. Bu dövrdə Quba qəzasında 167, Şamaxı qəzasında 110, Zəngəzur qəzasında 115, İrəvan quberniyasında 211, Qars vilayətində 92 yaşayış məntəqəsi yandırılmış, dağıdılmış və talan edilmişdir (423, s.35;167, s.14-15). 1919-cu ilin son iki ayında İrəvan quberniyasının Eçmiədzin və Sürməli qəzalarında 96 kənd, İrəvan qəzasının isə bütün kəndləri məhv edilmiş, İrəvan quberniyasında 132 min azərbaycanlı qətlə yetirilmişdir (425, s.44; 167, s.14-15).

Ümumilikdə, 1918-1920-ci illərdə ermənilər tərəfindən törədilmiş kütləvi qırğınların Bakı, Quba, Şamaxı, Kürdəmir, Lənkəranla yanaşı, Şuşada, İrəvan quberniyası ərazisində, Zəngəzurda, Naxçıvanda, Şərurda, Ordubadda, Qarsda və başqa bölgələrdə amansız şəkildə davam etdirilməsi nəticəsində minlərlə azərbaycanlı ən qəddar üsullarla qətlə yetirilmiş, bir milyondan çox əhali öz doğma torpaqlarından didərgin salınmışdır. Tarixi Azərbaycan torpaqlarında ermənilər tərəfindən bu vəhşiliklər törədilərkən məktəblər, məscidlər yandırılmış, maddi-mədəniyyət nümunələri məhv edilmişdir.

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra Fövqəladə Təhqiqat Komissiyası yaradılmış və ermənilərin

törətdikləri cinayətlər araşdırılmağa başlanmışdır. Hökumətin qərarı ilə hər il (1919 və 1920-ci il martın 31-də iki dəfə ümummilli matəm günü kimi qeyd edilmişdir) mart ayının 31-i matəm günü kimi qeyd edilməsi qərara alınmışdı. Lakin Azərbaycan Xalq Cümhuriyyətinin süqutu bu işi başa çatdırmağa imkan vermədi (167, s.8).

Azərbaycan Xalq Cümhuriyyəti yaradılarkən regionda mövcud olan geosiyasi vəziyyət 1918-ci il mayın 29-da İrəvan şəhərinin ermənilərə siyasi mərkəz kimi verilməsinə səbəb oldu. Beləliklə, 1918-ci ildə Azərbaycan torpaqlarında – keçmiş İrəvan xanlığının ərazisində Ermənistan Respublikası yaradıldı.

Çar Rusiyasının müstəmləkəçilik siyasətinin tərkib hissəsi olan və bütün XIX əsr boyunca davam etdirilmiş köçürülmə prosesi nəticəsində ermənilərin Qarabağın dağlıq hissəsində süni surətdə çoxaldılması onların XX əsrin əvvəllərindən başlayaraq Azərbaycana qarşı ərazi iddiaları və təcavüzkarlıq siyasətinin baş qaldırmasına səbəb olmuşdur. Belə ki, 1918-ci ildə Azərbaycan və Ermənistan Respublikaları yaranan kimi Qarabağın dağlıq hissəsinə XIX əsrdə köçürülmüş ermənilər Azərbaycan Respublikasının hakimiyyətini tanımaqdan imtina etdilər. Qarabağ ermənilərinin 1918-ci ilin iyulunda keçirilən birinci qurultayı Dağlıq Qarabağı müstəqil elan etdi. Ermənistan (Ararat) Respublikasının tərkibinə daxil olmaq məsələsi hələ qaldırılmamışdı. Lakin ermənilərin ən böyük iddiası Qarabağı və Zəngəzuru ələ keçirmək idi. Ermənistan hökuməti işğal planlarını həyata keçirmək məqsədilə oraya silahlı qüvvələr göndərdi. Nəticədə, Qarabağ torpaqlarını ələ keçirməyə can atan erməni silahlı qüvvələri yüzlərcə yaşayış məntəqəsini dağıtmış, minlərlə dinc azərbaycanlı əhalisini qəddarcasına məhv etmişdilər.

1919-cu ilin yanvarında daşnak Ermənistan hökuməti Qarabağla əlaqədar Azərbaycana qarşı ərazi iddiası irəli sürdü. Bununla da, Qarabağın dağlıq hissəsinin Ermənistana birləşdirilməsi üçün ilk rəsmi cəhd edildi. Problemi dinc vasitələrlə həll etmək üçün Azərbaycan hökuməti dəfələrlə təkliflərlə çıxış etsə də, daşnakların tutduğu mövqe bu təkliflərin həyata keçməsinə maneçilik törətdi.

Ərazi bütövlüyünü qoruyub saxlamağı və öz vətəndaşlarının təhlükəsizliyini təmin etməyi özünün başlıca vəzifəsi hesab edən Azərbaycan

Xalq Cümhuriyyəti Ermənistan Respublikasının ərazi iddialarını qəti şəkildə rədd etdi. Azərbaycan Parlamenti "Qarabağ" məsələsini müzakirə edərək separatçılıq hərəkatının qarşısını almaq üçün əməli tədbirlər həyata keçirməyə başladı. Bu məqsədlə Azərbaycan hökuməti 1919-cu il yanvarın 15-də Şuşa, Cəbrayıl, Cavanşir və Zəngəzur qəzalarını Gəncə quberniyasından ayırıb, mərkəzi Şuşa şəhəri olmaqla həmin qəzalardan ibarət Qarabağ general-qubernatorluğunu yaratdı və Xosrov bəy Sultanov general-qubernator təyin edildi (313, s.322). Azərbaycan hökuməti ona tapşırdı ki, orada qayda-qanun yaratsın və yerli hakimiyyət təşkil etsin.

Azərbaycan hökumətinin gərgin səyi nəticəsində 1919-cu il noyabrın 23-də Tiflisdə ABŞ nümayəndəliyinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan respublikaları arasında müqavilə imzalandı (458, s.46). İmzalanan müqaviləyə görə, toqquşmalar dayandırılmalı, mübahisəli məsələlər, o cümlədən də sərhəd məsələləri danışıqlar yolu ilə həll edilməli idi. Lakin Ermənistan tərəfi bu sazişi kobud surətdə pozmuş və Azərbaycan ərazilərinə öz qoşunlarını göndərərək azərbaycanlılara qarşı dəhşətli qırğınlar törətmişdir. Bütün bunlara baxmayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu dövrdə Ermənistanın Qarabağı diplomatik və hərbi vasitələrlə ələ keçirmək cəhdlərinin qarşısı qətiyyətlə alındı. Lakin Xalq Cümhuriyyətinin süqutunda da az rol oynamayan daşnakların bu ərazi iddiaları Azərbaycan sovetləşəndən sonra yenidən ortaya atıldı.

Sovet dövründə Azərbaycanın inzibati-ərazi bölgüsünün pozulması və DQMV-nin yaradılması. Cənubi Qafqazın sovetləşməsindən öz məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSR-yə daxil etməyə nail oldular. Bununla Naxçıvanın Azərbaycandan ayrı salınması və quru əlaqələrin kəsilməsi baş vermişdir. Sonrakı dövrlərdə isə ermənilər Ermənistana verilmiş Zəngəzurda və digər ərazilərdə də tarixən yaşamış azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirdilər.

Cənubi Qafqaz respublikalarının müstəqilliyinin itirilməsi ərazi-sərhəd məsələlərinin qoyuluşundakı ərazilərinin müqəddəratını əhəmiyyətsiz etsə də, sovetləşmənin ilk illərində sovet Rusiyasının Azərbaycana münasibəti daha çox qərəzli məzmun daşıyırdı.

Sovet Rusiyasının rəhbər dairələri Qafqaz siyasətini əsasən

Q.Orconikidze və S. Kirov vasitəsilə həyata keçirirdilər. Artıq may ayında V.Lenin "Azərbaycana rəhbərliyi" Orconikidzeyə rəsmi həvalə etmişdi. Çox hallarda Orconikidze iradəsini Azərbaycan rəhbərliyinə diktə edir, prinsipial məsələlərə qeyri-ciddi yanaşaraq, ardıcıl mövqe göstərmirdi. Məşhur azərbaycanşünas Odri L.Alstadt yazır: "Lenin Orconikidzeyə fəaliyyət üçün tam səlahiyyət vermişdi ki, Azərbaycanın daxili və xarici siyasətini bütünlüklə istiqamətləndirsin"(473). Bir sözlə, Q.Orconikidze Qafqaz bürosu vasitəsilə Qafqaza tam nəzarət edirdi.

1920-ci il iyunun 19-da Q.Orconikidze Vladiqafqazdan V.Leninə və G.Çiçerinə göndərdiyi teleqramda bildirirdi: "Qarabağda və Zəngəzurda Sovet hakimiyyəti elan edilmişdir və adı çəkilən hər iki ərazi özünü Azərbaycan Sovet Respublikasının ayrılmaz hissəsi hesab edir" (802, s.49-50). Bu fikri Q.Orconikidze V.Leninə, İ.Stalinə və G.Çiçerinə göndərdiyi sonrakı teleqramlarda da təkrar edirdi. Ümumiyyətlə, iyun-iyul aylarında Dağlıq Qarabağ məsələsi dəfələrlə Rusiya Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin (bundan sonra – RK(b)P MK) Qafqaz Bürosunda, RK(b)P Zaqafqaziya Diyar Komitəsində, həmçinin, Azərbaycan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsində (bundan sonra – AK(b)P MK) müzakirə edilmişdi.

Azərbaycana qarşı ərazi iddialarından əl çəkməyən erməni millətçilərinin "Böyük Ermənistan" yaratmaq iddiası sovetləşmədən sonra davam etdirildi ki, bu da məhz sovet Rusiyasının himayədarlığı və bilavasitə iştirakı ilə həyata keçirildi. Belə ki, Ermənistanda sovet hakimiyyətinin elan edilməsindən sonra ermənilər Dağlıq Qarabağ məsələsini yenidən ortaya atdılar. Bu azmış kimi, 1921-ci il iyunun 12-də Ermənistan hökuməti Dağlıq Qarabağın "Ermənistan Sovet Sosialist Respublikasının bir hissəsi" kimi elan olunduğu haqqında dekret qəbul etdi. Bir qədər sonra onlar qətnaməni ləğv etmədən Dağlıq Qarabağ və digər mübahisəli hesab etdikləri ərazilər üzrə komissiya yaratmaq təklifini irəli sürdülər.

Bundan sonra Dağlıq Qarabağ haqqında məsələ 1921-ci il iyunun 27-də AK(b)P MK-nın Siyasi və Təşkilat bürosunda da nəzərdən keçirilmiş və göstərilmişdi ki, bu məsələ Dağlıq Qarabağın Azərbaycana qəti iqtisadi meylinin nəzərə alınması ilə həll edilə bilər. Eyni zamanda qeyd edilmişdi ki, erməni və azərbaycanlı əhalisi olan ərazilərin ayrılıb Ermənistana və

Azərbaycana verilməsi təklifi inzibati və iqtisadi əlverişlilik nöqteyi-nəzərindən qəbul edilə bilməz (802, s.86-88). İyun ayının 28-də N.Nərimanovun sədrliyi ilə Azərbaycan Xalq Komissarları Sovetinin (bundan sonra – Azərbaycan XKS) yeni iclası çağırıldı və A.Myasnikovun (Myasnikyan) Dağlıq Qarabağı "Ermənistan Sovet Sosialist Respublikasının bir hissəsi" kimi elan edən bəyanatı rədd edildi. Eyni zamanda, həmin iclasda Azərbaycan XKS-in rəyi olmadan təyin edilmiş A.Mravyanın geri çağırılması məsələsi qoyuldu (316, s.201).

Bununla da, iki sovet respublikası arasında ixtilaflar artdığından, 1921-ci il iyulun 4-5-də RK(b)P MK-nın Qafqaz bürosunun plenumu məsələni müzakirə etməli oldu. Məsələnin müzakirəsində RK(b)P MK üzvü Stalin, RK(b)P Qafqaz bürosunun üzvləri Q.Orconikidze, S.Kirov, A.Myasnikov, F.Maxaradze, N.Nərimanov, A.Nazaretyan, Y.Fiqatner, İ.Oraxelaşvili və başqaları iştirak etdilər. Bu zaman iki nöqteyi-nəzər ortaya çıxmışdı. S.Kirovun təklifinə görə, Qarabağın dağlıq hissəsi Azərbaycandan alınaraq Ermənistan SSR-ə verilməli idi. Ancaq N.Nərimanov qətiyyətlə buna etiraz etmiş və bildirmişdi ki, Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir. Qarabağın Ermənistanın tərkibinə daxil edilməsi tələbi bu iclasda ilk dəfə məhz Kirov tərəfindən ortaya atılmışdı. İyulun 4-də axşam iclasında Kirov-Myasnikov qruplaşmasının (S.Kirov, A.Myasnikov, Q.Orconikidze, Y.Fiqatner) təklifi ilə Dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil edilməsi haqqında əsassız və qərəzli qərar qəbul edildi (802, s. 90-91).

Məsələnin belə bir ciddi xarakter aldığını görən N.Nərimanov Qarabağın dağlıq hissəsinin Ermənistan SSR-ə verilib-verilməməsi barədə bütün Qarabağ əhalisi arasında rəy sorğusu keçirməyi təklif etdi. N.Nərimanovun bu təklifinə qarşı Kirov-Myasnikov qruplaşması bildirdi ki, rəy sorğusu bütün Qarabağda deyil, yalnız Qarabağın dağlıq hissəsində yaşayan ermənilər arasında keçirilsin. Bu məsələ üzrə səsvermədə də Kirov-Myasnikov qruplaşması qalib gəldi. İclasda Qarabağın Azərbaycan hüdudlarında saxlanılması lehinə N.Nərimanov, F.Maxaradze, A.Nazaretyan, əleyhinə Q.Orconikidze, A.Myasnikov, S.Kirov, Y.Fiqatner səs verdilər. Qarabağın dağlıq hissəsinin Ermənistanın tərkibinə verilməsi və rəy sorğusunun yalnız ermənilər arasında keçirilməsi lehinə Orconikidze,

Y.Fiqatner, S.Kirov, A.Myasnikov, A.Nazaretyan səs verdilər (802, s.90-91). İclasın sonunda N.Nərimanovun təkidi ilə Qarabağ məsələsinin Azərbaycan üçün böyük əhəmiyyətə malik olduğunu nəzərə alaraq RK(b)P MK-nın Qafqaz bürosu bu məsələ barədə RK(b)P MK-nın qəti qərarının çıxarılmasını zəruri saydı (802, s.91).

Beləliklə, N.Nərimanovun ciddi müqavimətindən sonra, iyulun 5-də plenumun səhər iclasında Qarabağ məsələsinə yenidən baxıldı. Plenum RK(b)P MK-nın rəyini nəzərə alaraq yeni qərar qəbul etdi: "Müsəlmanlarla ermənilər arasında milli barışığın zəruriliyini, yuxarı və aşağı Qarabağın iqtisadi əlaqələri və daim Azərbaycanla sıx əlaqədə olmasını nəzərə alaraq Dağlıq Qarabağ Azərbaycan SSR-in hüdudlarında saxlanılsın, muxtar vilayətin tərkibinə daxil olan Şuşa şəhəri inzibati mərkəz olmaqla, ona geniş vilayət muxtariyyəti verilsin"(802, s.92). Qərarda, həmçinin, göstərilirdi ki, Azərbaycan K(b)P MK-ya tapşırılsın ki, muxtar vilayətin sərhəddini, ərazisinin həcmini müəyyən etsin və onu RK(b)P MK Qafqaz bürosunun təsdiqinə təqdim etsin.

Nəticədə, Kirov-Myasnikov qruplaşması məqsədinə çata bilməsə də, DQMV-nin əsasının qoyulması barədə qərarın qəbul edilməsinə nail oldu. AK(b)P MK-nın Siyasi və Təşkilat bürosunun 1921-ci il 26 sentyabr tarixli iclasında həmin məsələyə baxıldı və səs çoxluğu ilə qərara alındı ki, Qafqaz bürosundan xahiş edilsin ki, Dağlıq Qarabağın Muxtar vahidə ayrılması haqqında öz qərarına yenidən baxsın və buna qədər muxtariyyət elan edilməsin (802, s. 96-97; 316, s.214).

Dağlıq Qarabağ muxtariyyətinin yaradılması haqqında məsələyə RK(b)P MK Zaqafqaziya Diyar Komitəsinin 1922-ci il dekabrın 14-də keçirilən iclasında da baxıldı və bir sıra nümayəndələrin etirazına baxmayaraq, Zaqafqaziya Diyar Komitəsi RK(b)P MK Qafqaz bürosunun 5 iyul 1921-ci il tarixli qərarına əsasən, Azərbaycan Xalq Komissarları Soveti nəzdində AK(b)P MK-ya bilavasitə müraciət etmək hüququ olan Dağlıq Qarabağ işləri üzrə xüsusi komitə yaradılmasını qərara aldı. Xüsusi komitənin Şuşada da yaradılması nəzərdə tutulmuşdu (316, s.217).

Dağlıq Qarabağa muxtariyyətin verilməsi Zaqafqaziya federasiyası və SSRİ-nin yaradılması prosesləri ilə paralel gedirdi. Buna baxmayaraq, onun həyata keçirilməsindəki problemlərə AK(b)P-nin irəli sürdüyü şəkildə

yenidən baxılmadı. Davam edən təzyiqlər nəticəsində, 1922-ci il dekabrın 15-də AK(b)P MK Rəyasət Heyəti Zaqafqaziya Diyar komitəsinin DQMV haqqında qərarını müzakirə edərək Karakozovun sədrliyi ilə Kirov və Mirzəbekyans da daxil olmaqla Dağlıq Qarabağ məsələsi üzrə 3 nəfərdən ibarət Mərkəzi Komissiya yaratdı. Eyni zamanda, Rəyasət Heyəti Karakozovun sədrliyi ilə Qarabağın dağlıq hissəsində muxtar vilayət yaratmağın mümkünlüyünü öyrənmək üçün 7 nəfərlik bir Komitə formalaşdırdı (802, s.132-133; 316, s.217-218; 408, s.59).

SSRİ-nin yaradılmasından sonra isə, Zaqafqaziya Diyar komitəsinin tələbləri daha sərt şəkil aldı və 1923-cü ilin mayında Qarabağ Komitəsinin məruzəsi Zaqafqaziya Diyar komitəsi plenumunun gündəliyinə salındı. Beləliklə, qeyri-azərbaycanlılardan yaradılan komissiya Azərbaycanın bir hissəsinin taleyini həll etməli idi. Xüsusi komitə Karakozovun sədrliyi altında 6 ay yerlərdə bu məsələnin "öyrənilməsi" ilə məşğul olduqdan sonra "Qarabağ məsələsinin həlli layihəsi" adlı təklifini təqdim etdi (316, s.219). 1923-cü il iyunun 1-də AK(b)P MK-nın Rəyasət Heyəti muxtariyyətin dekretləşdirilməsi və onun layihəsinin üç gün ərzində Mərkəzi Komitəyə təqdim olunması barədə qərar qəbul etdi (802, s.148; 408, s.59).

1923-cü il iyunun 27-də Ümumittifaq Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin (bundan sonra – ÜİK(b)P) Zaqafqaziya Diyar Komitəsinin plenumu Şadunts və Karakozovun məruzəsi əsasında Qarabağ məsələsini yenidən müzakirə edərək Dağlıq Qarabağa bir ay müddətində muxtar vilayət statusunun verilməsinin təmin olunmasını AK(b)P MK-ya tapşırdı (802, s.149).

1923-cü il iyulun 1-də AK(b)P MK Rəyasət Heyətinin iclası Kirovun sədrliyi ilə Qarabağ haqqında məsələni dinləyərək 6 bənddən ibarət qərar qəbul etdi. (802, s.149-150). Qərarda göstərilirdi ki, Azərbaycan MİK-ə təklif olunsun ki, Dağlıq Qarabağa muxtariyyət verilməsi haqqında Rəyasət Heyətinin adından dekret verilsin və mərkəzi Xankəndi olmaqla İcraiyyə Komitəsinin rəhbərliyi ilə "Qarabağ Muxtar Vilayəti" yaradılsın.

Həmin il iyulun 4-də Azərbaycan MİK də, eyni məzmunlu qərar qəbul etdi. Bu qərara əsasən, 1923-cü il iyulun 7-də Azərbaycan MİK-in "Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında" dekreti verildi (802, s.152-153). Qəbul edilən bu dekretin adı ilə Azərbaycan MİK-in qəbul

etdiyi qərarın adı arasında fərq olduğu görünür. Yəni Dağlıq Qarabağa muxtariyyət verilməsi zərurəti əsaslandırılmayan bu dekretdə Qarabağın aran və dağlıq hissəsini bir yerdə ayırmaq əvəzinə yalnız Dağlıq Qarabağı ayırmaq qərara alınmışdı. Yəni dörd bənddən ibarət dekretin əvvəlində deyilirdi: "Dağlıq Qarabağın erməni hissəsindən Azərbaycan SSR-in tərkib hissəsi kimi Xankəndi adlanan yer mərkəz olmaqla muxtar vilayət yaradılsın"(802, s.151-153). Belə ki, Azərbaycan torpaqlarında Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması elə dekretin birinci bəndində hüquqi-siyasi cəhətdən təhrif edilərək "Dağlıq Qarabağın erməni hissəsi" (yəni ermənilər yaşayan) ifadəsi ön plana çəkilir, ancaq bu bölgənin tarixən Azərbaycana məxsus olması göstərilmirdi. Buna baxmayaraq, bu ifadə Qarabağın dağlıq hissəsinin ancaq bir hissəsində ermənilərin məskunlaşıb yaşadıqlarını təsdiqləyirdi. Yəni bu bölgədə ancaq ermənilərin deyil, çoxluq təşkil edən aborigen əhali kimi azərbaycanlıların da yaşadıqları təkzibolunmaz faktdır.

Dekretdən 10 gün sonra AK(b)P MK Rəyasət Heyətinin 16 iyul tarixli iclasının qərarı ilə Şuşa şəhəri DQMV-nin tərkibinə daxil edildi (802, s.154). Bununla yanaşı, DQMV üçün quberniya icraiyyə komitələri haqqında 1923-cü il Əsasnaməsi qəbul və tətbiq edildi. 1924-cü il noyabrın 26-da Azərbaycan, erməni və rus dillərində mətbuatda dərc edilən "DQMV haqqında Əsasnamə" də göstərilirdi ki, "DQMV Azərbaycan SSR-in tərkib hissəsidir. DQMV-də bütün kargüzarlıq, məhkəmə və məktəblərdə tədris ana dilində aparılır". Bununla yanaşı, DQMV yaradılan zaman Azərbaycanın 1923-cü ilə qədərki inzibati-ərazi bölgüsü kobudcasına pozulmuş və qəbul edilən qərara görə, Cavanşir, Qubadlı, Şuşa qəzalarının əraziləri bölünüb DQMV yaradılmışdır. "Əsasnamə"yə görə, Şuşa qəzasından Şuşa, Xankəndi və 115 kənd, Cavanşir qəzasından 52 kənd, Qaryagin qəzasından 30 kənd, Qubadlı qəzasından isə Qaladərəsi DQMV-yə verilmişdir (802, s.268-269).

Nəticədə, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağ süni şəkildə aran və dağlıq hissələrinə bölünmüş və Azərbaycan rəhbərliyi Qarabağın dağlıq hissəsində sonradan məskunlaşmış ermənilərə muxtariyyət statusu verməyə məcbur edilmişdi. Eyni zamanda, bu muxtariyyət statusu Dağlıq Qarabağda tarixən yaşayan azərbaycanlıların

rəyi nəzərə alınmadan və onların hüquqları kobudcasına pozularaq həyata keçirilmişdi.

Beləliklə, Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsinə XIX əsrdə köçürülən ermənilərə 1923-cü il iyulun 7-də muxtar vilayət statusu verildi ki, bu da sovet Rusiyasının himayəsi və iştirakı ilə həyata keçirildi. Halbuki, keçmiş SSRİ məkanındakı digər respublikalarda Qarabağda yaşayan ermənilərdən daha çox erməni yaşayırdı. Bundan başqa, Ermənistanda tarixən yaşayan azərbaycanlıların sayının Qarabağ ermənilərindən çox olmasına baxmayaraq, Azərbaycan onlar üçün Ermənistandan milli-dövlət qurumu yaradılmasını heç vaxt tələb etməmişdi.

Bu hadisə təkcə Azərbaycanın inzibati-ərazi bölgüsünün pozulması deyil, həm də ermənilərin ölkəmizə qarşı gələcək ərazi iddiaları üçün bir vasitə olmuş və elə o vaxtdan da Dağlıq Qarabağ termini meydana çıxmışdır. Muxtariyyətin yaradılması haqqında qəbul edilən dekretdə vilayət mərkəzinin Xankəndi olması göstərilsə də, az sonra 1923-cü il sentyabrın 18-də Dağlıq Qarabağ vilayət partiya komitəsinin qərarı ilə Xankəndinin adı dəyişdirilib S.Şaumyanın şərəfinə Stepanakert adlandırıldı (802, s.187-188). Bununla da, Qarabağda Azərbaycanın tarixi yerlərinin, mahal, rayon və kənd adlarının dəyişdirilməsinin təməli qoyuldu.

1923-cü ildə Şuşanın Xankəndi, Xocalı, Kərkicahan, Ulubab, Pircamal, Cəmilli, Aranzəmi, Ballıca, Dəmirçilər, Sığnağ, Qarabulaq, Muxtarkənd, Dağdağan, Şuşakənd, Daşbaşı kimi onlarla kəndi alınıb, Xankəndinə (Stepanakert) verilmiş və həmin torpaqlar hesabına Əsgəran rayonu yaradılmışdır. Sonradan yaradılan Stepanakert (Xankəndi) və Əsgəran rayonları bütünlüklə Şuşa qəzasının, əvvəllər Qaryagin (Füzuli) rayonunun bir kəndi hesab edilən Hadrut rayonu isə Füzuli rayonunun ərazisi hesabına yaradılmşdır (412, s.63-64).

Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldıqdan sonra onun tərkibinə verilmiş yaşayış məskənləri rayon-nahiyə-kənd pillələri əsasında inzibati baxımdan aşağıdakı kimi bölünmüşdü:

1.Dizaq rayonu. Bu rayonun tərkibində 5 nahiyə (Hadrut, Tuğ, Xozabyurd, Arakül, Edilli) və 48 kənd var idi;

2.Vərəndə rayonu. Bu rayonun tərkibində 4 nahiyə (Tağavert, Sus, Çartaz, Noraşen) və 46 kənd var idi;

3.Şuşa rayonu. Şuşa şəhəri və Malıbəyli nahiyəsindən (12 kənd) ibarət idi;

4.Xaçın rayonu. Bu rayonun tərkibində 4 nahiyə (Daşbulaq, Əsgəran, Krasnoselsk, Qala dərəsi) və 53 kənd var idi.

5.Ceraberd rayonu. Bu rayonun tərkibində 4 nahiyə (Marquşevan, Orataq, Dovşanlı, Aterk) və 53 kənd var idi (412, s.64).

Daha sonra Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati-ərazi bölgüsündə yeni dəyişiklik baş vermiş və 1930-cu ilin avqustunda DQMV-nin ərazisi yenə də 5 rayona bölünmüşdür:

1. Ceraberd, 2. Martuni, 3. Stepanakert, 4. Dizaq, 5. Şuşa.

Bu bölgüdə artıq Vərəndə rayonu Martuni, Xaçın rayonunun ərazisi Stepanakert, 1939-cu il avqustun 17-də Ceraberd rayonu Mardakert, Dizaq rayonu isə Hadrut adlandırılmışdır. Lakin bu da Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati-ərazi bölgüsündə edilən son dəyişiklik olmamışdır. Belə ki, 1960-cı illərin əvvəllərində rayonların iriləşdirilməsi siyasəti həyata keçirilərkən əsas zərbə əhalisinin böyük əksəriyyəti azərbaycanlılar olan Şuşaya dəymişdir. Yəni 1963-cü il yanvarın 4-də Şuşa rayonu ləğv edilmiş, onun ərazisi Stepanakert rayonuna verilmişdir. Lakin sonradan inzibati-ərazi bölgüsündə yeni dəyişiklik baş vermiş və 1965-ci il yanvarın 6-da Şuşa rayonu yenidən təşkil olunmuşdur. 1978-ci ildə Heydər Əliyevin qətiyyəti sayəsində Stepanakert rayonu əsasında Əsgəran rayonu yaradılmışdır (412, s. 64). SSRİ-nin süqutunadək olan dövrdə Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati-ərazi bölgüsü belə qalmış və 5 rayondan ibarət olmuşdur: 1.Şuşa. 2.Mardakert. 3.Martuni. 4. Hadrut. 5.Əsgəran.

Sovet dövründə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və etnik təmizləmə siyasəti. *Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsində yaşayan ermənilər sovet dövründə bütün siyasi, iqtisadi, sosial və mədəni məsələləri əhatə edən muxtariyyətə malik olsa da, Ermənistan bu bölgəyə qarşı öz ərazi iddialarını bir neçə dəfə ortaya atmış, ancaq istəyinə nail ola bilməmişdir.*

Ümumiyyətlə, ikinci dünya müharibəsindən sonra erməni millətçiləri bir neçə istiqamətdə fəaliyyət göstərməyə başladılar. Onlar sovet rəhbərliyinin göstərişi ilə Türkiyəyə qarşı ərazi iddiaları irəli sürmüş, ancaq

buna nail ola bilməmişlər. Daha sonra isə Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə qarşı ərazi iddiaları irəli sürdülər, eləcə də xaricdən ermənilərin Ermənistana köçürülməsini yenidən (Sovet dövründə ermənilərin Cənubi Qafqaza gətirilərək azərbaycanlılara məxsus ərazilərdə yerləşdirilməsinə artıq XX əsrin 30-cu illərində başlanılmışdı) tələb etdilər.

Belə ki, 1945-ci ilin noyabr ayında o zaman Ermənistan Kommunist (bolşeviklər) Partiyası Mərkəzi Komitəsinin (bundan sonra – Ermənistan K(b)P MK) birinci katibi Q.Arutinov Dağlıq Qarabağın Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında təklifi ÜİK(b)P MK-nın sərəncamına göndərdi. Məktubda deyilirdi: "Ermənistan ərazisinə bitişik olan Dağlıq Qarabağ Muxtar Vilayəti 1923-cü ildən Azərbaycan SSR-in tərkibindədir. Vilayətin əhalisi əsasən ermənilərdir. Dağlıq Qarabağın Ermənistanın tərkibinə daxil olması onun inkişafına xeyli təsir göstərər və təsərrüfatın idarə edilməsini yaxşılaşdıra bilərdi; Ermənistan respublika orqanlarının rəhbərliyi sayəsində əhaliyə ana dilində kütləvi-mədəni və siyasi xidmət güclənərdi; Dağlıq Qarabağ vilayətinin Ermənistanın tərkibinə daxil edilməsi yerli kadrlara öz təhsillərini Ermənistanın ali məktəblərində ana dilində almağa imkan vermiş olardı; digər tərəfdən, Ermənistan SSR Dağlıq Qarabağ vilayətindən öz işgüzarlığı ilə fərqlənən və hazırda təbii olaraq Azərbaycanda istifadə edilməyən əlavə milli kadrlar alardı". Məktubun sonunda Q.Arutinov bildirirdi ki, Dağlıq Qarabağ əhalisinin arzusunu nəzərə alaraq Ermənistan Mərkəzi Komitəsi və Xalq Komissarları Soveti Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətini Qarabağ vilayəti olaraq Ermənistan SSR tərkibinə daxil etmək haqqında məsələyə baxmağı ÜİK(b)P MK və İttifaq hökumətinə təklif edirlər (378, s.52).

Ancaq Dağlıq Qarabağın Ermənistan SSR-in tərkibinə daxil edilməsi üçün məktubda gətirilən dəlillər tamamilə əsassız idi. Əvvəla, Dağlıq Qarabağ 1923-cü ildən deyil, tarixən Azərbaycan ərazisi olmuşdur. 1921-ci ildə Qarabağın dağlıq hissəsinin Ermənistan SSR-ə verilməsi üçün cəhd edilərkən məsələnin müzakirəsindən sonra RK(b)P MK Qafqaz bürosunda iyul ayının 5-də qəbul edilən qərarda aydın yazılmışdı ki, "Dağlıq Qarabağ Azərbaycan SSR-in hüdudlarında saxlanılsın". Əgər Q.Arutinovun iddia etdiyi kimi olsaydı, onda qərarda "Azərbaycan SSR-in tərkibinə verilsin" sözləri yazılardı. Digər iddiaya gəldikdə isə, yaradılmış vilayətdə ana

dilində məktəblərin olmasına baxmayaraq, ermənilər istənilən vaxt sərbəst surətdə gedib həm Ermənistan Respublikasında, həm də ölkənin digər ali məktəblərində ali təhsil alırdılar. Əhalinin "arzusunun nəzərə alınması" məsələsinə gəldikdə isə, əhali bu məktubun mətnindən tamamilə xəbərsiz idi. Nə rəy sorğusu keçirilmişdi, nə də vilayətin yerli partiya və sovet orqanları bu məsələ barəsində heç bir qərar qəbul etməmişdilər (362, s.200-202).

ÜK(b)P MK-nın katibi G.Malenkov məktubu 1945-ci il noyabrın 28-də AK(b)P MK-nın birinci katibi M.C.Bağırova göndərərək xahiş etmişdi ki, Ermənistan K(b)P MK-nın təklifi barədə öz rəyini bildirsin. M.C.Bağırov həmin il dekabrın 10-da Ermənistan K(b)P MK-nın məktubuna cavab olaraq Azərbaycanın 1918-ci il xəritəsini və müvafiq məktubu ÜİK (b)P MK-ya göndərdi (408, s.71-74). M.C.Bağırov məktubunda Ermənistan SSR-in rəhbərliyi tərəfindən Dağlıq Qarabağ haqqında irəli sürülmüş bütün iddiaların əsassız olduğunu göstərmişdi. Bununla yanaşı o, DQMV-nin, Şuşa rayonu istisna olmaqla Ermənistana verilməsinə belə bir şərtlə razı olduğunu bildirir ki, Ermənistan SSR-in Azərbaycana bitişik və tarixən azərbaycanlıların sakin olub kompakt yaşadıqları Göyçə və Zəngəzur qəzaları Azərbaycan SSR-in tərkibinə daxil edilsin. Eyni zamanda, M.C.Bağırov Azərbaycandan alınaraq başqa sovet respublikalarına verilmiş digər ərazilər barədə də təklif irəli sürmüşdür (901, s.65; 408, s.71-74; 378, s.52-53).

Bu cavab məktubundan sonra Qarabağ məsələsi müvəqqəti olaraq yatırıldı. Ancaq bunun əvəzini çıxmaq üçün ermənilər yeni vasitələrə əl atdılar. Azərbaycandan Dağlıq Qarabağı ala bilməyən Ermənistan rəhbərliyi xarici ölkələrdən ermənilərin repatriasiyası məsələsini sovet hökuməti qarşısında yenidən qaldırdı və həmin təklif bəyənildi. Ancaq repatriasiya edilən ermənilərin yerləşdirilməsi üçün guya Ermənistanda lazımi şərait mövcud deyildi. Bunu bəhanə edərək Ermənistan SSR-də yaşayan azərbaycanlı əhalinin Azərbaycan SSR-nin əhalisi az olan pambıqçılıq rayonlarına köçürülməsi, eləcə də boşalan torpaqlar və mənzillərdən xarici ölkələrdən Ermənistan SSR-ə gələn ermənilərin qəbulu və yerləşdirilməsi üçün istifadə edilməsi təklifi irəli sürüldü.

SSRİ Nazirlər Sovetinin 1947-ci il dekabrın 23-də və 1948-ci il martın 10-da qəbul etdiyi "Ermənistan SSR-dən kolxozçu və digər

azərbaycanlı əhalinin Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülməsi haqqında" qərarlarına əsasən, 1948-53-cü illərdə azərbaycanlıların tarixi torpaqlarından, xüsusilə də İrəvan və onun ətraf rayonlarından kütləvi şəkildə deportasiya olunması nəticəsində 100 mindən artıq soydaşımız zorakılıqla Azərbaycanın aran rayonlarına köçürülmüşdür (880; 881).

Nəticədə, Ermənistan SSR hökuməti SSRİ rəhbərliyindəki himayədarlarının köməkliyi sayəsində 1948-1953-cü illərdə Ermənistan SSR ərazisində yaşayan azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldu. Xaricdən gətirilən ermənilər isə Ermənistan SSR-dən deportasiya edilən azərbaycanlıların yaşayış üçün hər cür şəraiti olan evlərində yerləşdirildilər (425, s.49; 378, s.54). Sonrakı illərdə də, ermənilərin repatriasiyası davam etdirilmiş və xarici ölkələrdən Ermənistana 1961-ci ilin ortaları üçün 200 min, 1962-1973-cü illərdə isə 26 min 100 nəfərdən çox erməni gətirilmişdi (609, s.10). Onlar Cənubi Qafqazda qatı millətçilik hisslərini qızışdıraraq, düşmənçilik hərəkətlərini genişləndirdilər.

Bununla yanaşı, Ermənistan öz ərazi iddialarını və təcavüzkar siyasətini davam etdirərək yenidən Dağlıq Qarabağın Ermənistan SSR-in tərkibinə verilməsi məsələsini qaldırdı. 1948-ci ilin mart ayında DQMV-nin Ermənistana birləşdirilməsi haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri N.Şvernikin imzası ilə qərar layihəsi tərtib edilmişdi. Bu sənədə Azərbaycanın sərhədlərinin dəyişdirilmiş xəritəsi əlavə olunmuşdu. Ancaq bu cəhdin qarşısı da qəti şəkildə alınmışdı (3, s.75).

Daha sonra, XX əsrin 60-cı illərində də, Dağlıq Qarabağ məsələsi bir neçə dəfə ortaya atıldı. 1960-cı ilin noyabrında A.Mikoyanın təşəbbüsü ilə DQMV-nin Ermənistan SSR-in tərkibinə verilməsi haqqında hazırlanmış anəd Sov.İKP MK Rəyasət Heyətinin iclasında müzakirə edilməli idi. Ermənilərin bu məsələ ilə əlaqədar çox ciddi hazırlıq işi aparmalarına baxmayaraq, iclasdan əvvəl keçirilən müşavirədə o zaman Azərbaycan KP MK katibi işləyən N.Hacıyevin məruzəsindən sonra hazırlanmış qərar layihəsi rədd edilmişdi (3, s.76). Bundan sonra isə A.Mikoyan SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri vəzifəsində olarkən Krımın uğurla Ukraynaya verilməsindən ruhlanaraq, 1964-cü ilin əvvəlində DQMV-nin Ermənistana birləşdirilməsi məsələsini N.Xruşova təklif etdi. N.Xruşov onun

təklifinə çox maraqlı bir cavab vermişdi: "Mən Dağlıq Qarabağ ermənilərinin Ermənistana bir sutka ərzində köçürülməsini təmin etmək üçün 12 min hərbi yük maşını ayrılmasını təqdim etməyə hazıram"(870, s.19-20).

Sovet dövründə ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi zamanda (1969-1982) Qarabağa çox böyük diqqət və qayğı göstərmiş, eləcə də erməni iddiaları hər zaman iflasa uğramışdı. Bu dövrdə erməni milllətçiləri imkan düşdükcə Azərbaycan torpaqlarına olan əsassız iddialar irəli sürürdülər. Ancaq Heydər Əliyev Dağlıq Qarabağın tarixini, coğrafiyasını, iqtisadiyyatını, orada yaşayanların düşüncələrini gözəl bilirdi. Hələ Azərbaycan SSR DTK-nın sədri olarkən erməni millətçilərinin əsassız ərazi iddialarının qarşısı qətiyyətlə alınmışdı. Belə ki, Heydər Əliyev 1967-ci il iyun ayının 26-da Azərbaycan KP MK-nın birinci katibi V.Axundova məktubunda yazırdı ki, iyun ayının 23-dən 24-ə keçən gecə Xankəndində bəzi küçələrdə erməni dilində 8 x 9 sm. ölçüdə 300 vərəqə yayılmışdır (380, s.328). Həmin vərəqələrdə ermənilər tərəfindən Dağlıq Qarabağın Ermənistan SSR-ə birləşdirilməsi tələb edilir və millətçi fikirlər irəli sürülürdü. Məktubda qeyd edilirdi ki, vərəqənin müəlliflərini axtarıb tapmaq, eləcə də digər lazımi tədbirləri görmək üçün Xankəndinə əməliyyat qrupu göndərilmiş və təqsirkarlar ciddi cəzalandırılmışlar.

Bu hadisədən bir neçə gün sonra, yəni iyul ayının 3-də Dağlıq Qarabağda erməni millətçiləri 3 nəfər azərbaycanlını vəhşicəsinə öldürmüşdülər. Həmin məsələni dərindən araşdırmaq üçün Heydər Əliyev 15 gün Dağlıq Qarabağda olmuş, eləcə də, Şuşaya getmişdi. Şuşada olarkən 1905-1907, 1918-1920-ci illərdə ermənilərin təcavüzü nəticəsində dağıdılmış və yandırılmış evlərin hələ də bərpa edilmədiyini görmüşdü. O, Şuşa şəhərinin Azərbaycan xalqının böyük bir tarixi abidəsi, incisi kimi bərpa etdirilməsinin zəruriliyi qənaətinə gəlmiş və Bakıya qayıtdıqdan sonra şəhərin belə vəziyyətdə saxlanılmasının mümkünsüzlüyü barədə mülahizələrini Azərbaycan rəhbərlərinə söyləmişdi (380, s.330).

Bundan sonra, 1969-cu ildə Heydər Əliyev hakimiyyətə gəlməmişdən az əvvəl Ermənistan Azərbaycanla sərhəd olan bəzi əraziləri ələ keçirmək istəyirdi. Erməni rəsmi dairələri və alimləri, hətta XX əsrin 20-ci illərinin

xəritələrini ortaya çıxarmış və ərazi məsələsinə dair danışıqlar artıq müzakirə obyektinə çevrilmişdi. Azərbaycan KP MK bürosunun 1969-cu il mayın 21-də keçirilən iclasında iki respublika arasında sərhədlərin coğrafi təsvirini təsdiq etməyə dair Azərbaycan Ali Sovetinin qərar layihəsi bəyənildi (380, s.326).

Heç şübhəsiz, bu qərarın qəbul edilməsinə Moskvadan edilən təzyiqlər də böyük təsir göstərmişdi. Ümummilli lider Heydər Əliyev həmin il iyulun 14-də Azərbaycan KP MK-nın birinci katibi seçilən kimi bu məsələni ön plana çəkdi. Heç şübhəsiz ki, Azərbaycan xalqının mənafeyini hər şeydən üstün tutan Heydər Əliyev təzyiqləri rədd edərək prinsipial mövqe göstərmiş, erməni millətçilərinin qarşısını qətiyyətlə almışdı. Moskvadakı bəzi qüvvələr və Ermənistan SSR-in rəhbərləri qərarın həyata keçirilməsinə çox cəhd etsələr də, Heydər Əliyev buna imkan verməmişdi.

1970-ci illərdə ermənilər Dağlıq Qarabağ məsələsini yenidən ortaya atsalar da, onların bu istəklərinin qarşısı qətiyyətlə alınmış və ümummilli lider Heydər Əliyev Azərbaycan rəhbəri kimi bu istiqamətdə sistemli və məqsədyönlü şəkildə fəaliyyət göstərmişdir. Hər şeydən əvvəl Qarabağın tarixini mükəmməl bilən Heydər Əliyev bu məsələyə çox həssaslıqla yanaşırdı. 1977-ci ildə SSRİ Konstitusiyası, 1978-ci ildə isə Azərbaycan Konstitusiyası qəbul edilərkən ermənilər müxtəlif mərkəzi orqanlara müraciət edərək Dağlıq Qarabağ məsələsini yenidən qaldırdılar. Lakin Heydər Əliyev bu zaman Sov.İKP MK-nın Baş katibi L.Brejnevlə görüşmüş və məsələni qəti həll edərək erməni millətçilərinin iddialarını puça çıxarmışdı (380, s.330).

Azərbaycanın qədim mədəniyyət mərkəzi kimi Şuşa şəhərinin tarixi keçmişini yaxşı bilən Heydər Əliyev həmin illərdə şəhərə çox böyük qayğı göstərərək onun inkişafına çalışırdı. Bununla yanaşı, ümummilli lider Şuşaya adi bir şəhər deyil, zəngin tarixi abidə, Azərbaycan xalqının qəhrəmanlıq rəmzi kimi baxırdı. 1969-cu ildə Azərbaycana rəhbər seçiləndən sonra Heydər Əliyev Şuşanı abadlaşdırmaq, dağıdılmış, yandırılmış evləri bərpa etmək, eyni zamanda tarixi abidələri qoruyub saxlamaq və böyük bir muzeyə çevirmək üçün əhəmiyyətli işlər görmüşdür.

Belə ki, 1970-ci illərin ikinci yarısında Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə Şuşa şəhərinin inkişaf etdirilməsi məqsədilə bir

neçə xüsusi qərar qəbul edilmişdi. Qərarlara uyğun olaraq keçmişdə tikilmiş binalar, tarixi abidələr bərpa edilmiş, şəhərdə yeni çoxmərtəbəli yaşayış binaları, böyük mehmanxana kompleksləri, ayrı-ayrı inzibati binalar tikilmişdi. Eyni zamanda, Şuşanın statusu qaldırılaraq ümumittifaq səviyyəli kurort şəhərinə çevrilmişdi. Heç şübhəsiz ki, həmin qərarların yerinə yetirilməsinin çox böyük tarixi-siyasi əhəmiyyəti var idi.

Bütün bunlarla yanaşı, Heydər Əliyev Qarabağın dağlıq və aran hissələrinin təsərrüfat, iqtisadi cəhətdən daha sıx birləşdirilməsinə çalışırdı. Çünki erməni millətçiləri hər zaman Dağlıq Qarabağın Azərbaycanın digər rayonları ilə guya iqtisadi və təsərrüfat əlaqələrinin olmadığını, əhalinin ümumi sayında ermənilərin çoxluğunu əsas gətirərək vilayətin Ermənistana birləşdirilməsini tələb edirdilər.

Ancaq Heydər Əliyev onların bu niyyətlərinin qarşısını qətiyyətlə aldı. Yuxarı Qarabağın Aran Qarabağla və digər rayonlarla əlaqəsini daha da sıxlaşdırmaq, strateji əhəmiyyətli kommunikasiyaların sayını artırmaq məqsədilə "Ağdam - Xankəndi (Stepanakert)" dəmiryolu çəkildi və 1979-cu il yanvarın 12-də ümummilli liderin özünün iştirakı ilə istifadəyə verildi (380, s.333). Nəticədə, dəmiryol xəttinin işə düşməsi ilə muxtar vilayətin iqtisadi cəhətdən Azərbaycanın digər rayonları ilə daha sıx əlaqəsi yaradıldı. Bu, Heydər Əliyevin Qarabağın dağlıq və aran hissələrinin, Azərbaycanın digər rayonlarının təsərrüfat və iqtisadi cəhətdən birləşdirilməsi baxımından strateji addımı və böyük tarixi xidməti idi.

Dəfələrlə məqsədlərinə nail olmayan Ermənistan Respublikasının rəhbərliyi və erməni lobbisi bir qədər sakitləşsə də, müəyyən bir məqam gözləyirdilər ki, bu şərait də 1980-ci illərin ikinci yarısında yetişdi.

XX əsrin sonunda Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları, hərbi təcavüzü və işğalçılıq siyasəti. XX əsrin 80-ci illərinin ikinci yarısında ermənilər özlərinin yaxın və uzaq xaricdəki himayədarlarının köməkliyi ilə SSRİ-də yaranmış aşkarlıq və demokratiya şəraitindən istifadə edərək yenidən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə dair ərazi iddiaları irəli sürdülər.

XIX əsrin əvvəllərində Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsinə köçürülmüş ermənilər Sovet dövründə bütün siyasi, iqtisadi, sosial və mədəni məsələləri əhatə edən muxtariyyətə malik olsa da, Ermənistan öz

ərazi iddialarını bir neçə dəfə ortaya atmış, ancaq istəyinə nail ola bilməmişdir. Lakin SSRİ-nin süqutu ərəfəsində Dağlıq Qarabağ bölgəsində yaşayan ermənilərə Azərbaycandan ayrılaraq Ermənistanla birləşməyin zəruriliyinə nail olmaq ideyasını süni surətdə qəbul etdirən təcavüzkar dövlət buna nail olmaq üçün Dağlıq Qarabağdan 50 min azərbaycanlını soyqırım və təcavüzə məruz qoyub didərgin salmış, eləcə də Ermənistandan 250 min azərbaycanlını tarixən yaşadığı torpaqlardan zorakılıqla deportasiya etmişdir.

Ümumiyyətlə, 1988-1991-ci illərdə, yəni hadisələrin başlanğıcından SSRİ-nin süqutuna qədər olan dövrdə İttifaqın hakim dairələri tərəfindən himayə edilən və mono-etnik dövlət yaratmağa nail olan Ermənistan Respublikası Azərbaycana qarşı açıq-aşkar işğalçılıq siyasəti yeritmiş, nəticədə dinc sakinlər qətlə yetirilmiş, yaşayış məntəqələri dağıdılmış, talan edilmiş və yandırılmışdır.

XX əsrin sonunda ermənilərin Xocalıda törətdikləri soyqırım bütün insanlığa və bəşəriyyətə qarşı yönəldilmiş ən ağır cinayətlərdən biri kimi qiymətləndirilir. Dünya tarixində Xocalı soyqırımı tarixi yaddaşlardan heç vaxt silinməyən Xatın, Xirosima, Naqasaki, Sonqmi, Ruanda, Srebrenitsa və Xolokost kimi dəhşətli faciələrdən heç də geri qalmır. Adı çəkilən hadisələr müharibələr tarixinə dinc əhalinin soyqırımı olaraq daxil olmuş və dünyada geniş əks-səda doğurmuşdur.

Bütün dünyanın gözü qarşısında baş verən bu dəhşətli soyqırımın əsl mahiyyəti yalnız ümummilli lider Heydər Əliyev 1993-cü ildə hakimiyyətə yenidən qayıtdıqdan sonra açıqlanmış, 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət vermişdir. Bundan əlavə, ermənilərin azərbaycanlılara qarşı zaman-zaman törətdikləri soyqırım ilə əlaqədar ümummilli lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı Fərmanla 31 mart – Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir (52).

Bununla yanaşı, ümummilli liderin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" 1997-ci il 18 dekabr tarixli Fərmanı Ermənistan SSR ərazisindən azərbaycanlıların deportasiyasının hərtərəfli tədqiq edilməsi, bu cinayətə hüquqi-siyasi qiymət verilməsi və

onun beynəlxalq ictimaiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Bu fərmanlar təkcə tariximizin qanlı səhifələrinin öyrənilməsi və yaddaşlarda həkk olunması deyil, eləcə də erməni millətçiliyinin və terrorizminin ifşa olunması baxımından da əhəmiyyətlidir.

ERMƏNİSTANIN AZƏRBAYCANA TƏCAVÜZÜ:
Təhlili xronika
(1987-2011)

1984

Azərbaycan xalqının əleyhinə və erməni millətçiliyi ruhunda yazılmış Z.Balayanın Yerevanda "Sovetakan qrox" nəşriyyatında 100 min tirajla çap olunan və SSRİ məkanında geniş yayılan "Oçaq" (Yurd) kitabı Ermənistanda Dağlıq Qarabağı ələ keçirmək üçün aparılan təbliğat işini daha da gücləndirdi.

1985

21 fevral - Ermənistan KP MK-nın sovet rəhbərliyinə 24 aprel gününün "Soyqırım qurbanlarının xatirə günü" kimi qeyd edilməsi haqqında müraciəti Sov.İKP MK Siyasi bürosunun iclasının gündəliyinə daxil edildi.

20 iyun - SSRİ Nazirlər Soveti "1985-1986-cı illərdə xarici ölkələrdən ermənilərin SSRİ-yə repatriasiyasının davam etdirilməsi haqqında" qərar qəbul etdi. Həmin qərarın yerinə yetirilməsi nəticəsində Ermənistana xarici ölkələrdən çoxlu sayda erməni köçürüldü. Onlar özləri ilə qatı erməni millətçiliyi gətirərək azərbaycanlılara qarşı düşmənçiliyi qızışdırır və bu istiqamətdə təbliğat aparırdılar.

Dekabr - "Daşnaksütyun" partiyasının Afinada keçirilən XXII qurultayı "Böyük Ermənistan" uğrunda mübarizəni yenidən genişləndirmək haqqında qərar qəbul etdi.

1986

Fevral - Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətində (DQMV) daş və mərmər karxanalarına müdir təyin edilmiş, millətçi kimi tanınan Arkadi Manuçarov SSRİ-də irəli sürülən "aşkarlıq" və "demokratiya" ideyalarından istifadə edərək Xankəndində tarix və mədəniyyət abidələrini qoruyan "Krunk" adlı təşkilat yaratdı. "Krunk" sözü erməni dilində durna deməkdir. Ancaq sonradan məlum oldu ki, "Krunk" sözü rus dilində "Комитет Революционного Управления Нагорного Карабаха" sözlərinin baş hərflərindən yaranmışdı. Təşkilatın əsas məqsədi

isə tarixi abidələri qorumaq deyil, DQMV-ni Ermənistana birləşdirməyə nail olmaq idi.

Noyabr - Ermənistan KP MK-nın I katibi K.Dəmirçiyanın Sov.İKP MK-ya yazdığı məxfi məktubda göstərilirdi ki, Ermənistanda sovet hakimiyyəti qurulduğu ilk illərdən Sov.İKP MK-nın qərarları ilə müxtəlif xarici ölkələrdən ermənilərin repatriasiyası həyata keçirilmiş və sovet dövründə Ermənistan SSR-ə xaricdən 230 min nəfərdən çox erməni gətirilmişdir.

Eyni zamanda məktubda göstərilirdi ki, Yaxın və Orta Şərq ölkələrində (Suriya, Livan, İran, İraq, İordaniya) yaşayan ermənilər içərisində Ermənistan SSR-də daimi yaşamaq üçün gəlmək istəyənlər də vardır. Məktubun sonunda repatriasiyanın mühüm siyasi əhəmiyyətini nəzərə alaraq Ermənistan KP MK və SSRİ Nazirlər Sovetinin "1985-1986-cı illərdə xarici ölkələrdən ermənilərin SSRİ-yə repatriasiyasının davam etdirilməsi haqqında" 1985-ci ildə qəbul edilmiş müvafiq qərarın fəaliyyət müddətinin 1990-cı ilin sonunadək uzadılması xahiş edilirdi.

1987

İyun-iyul - Ermənilər Xankəndinin (tarixən Şuşanın bir kəndi olan Xankəndi 1923-cü il avqustun 18-dən 1991-ci il noyabrın 26-dək Stepanakert adlandırılmışdır – müəllif) küçələrində Dağlıq Qarabağı Ermənistana birləşdirmək üçün təbliğat apararaq bu istiqamətdə vərəqələr yayırdılar. Ayrı-ayrı adamların Moskvaya yazdıqları məktublar artıq bu dövrdə müxtəlif kollektivlərdən imzalar toplanması kompaniyasına çevrildi və ərazi iddialarının yeni mərhələsinin təməli qoyuldu. Bu hərəkatın əsas aparıcı qüvvəsi olan "Krunk" təşkilatı da gizli fəaliyyət göstərirdi.

İlin ikinci yarısında - Yerevandan müntəzəm olaraq Xankəndinə gələn emissarlar ermənilər arasında fəal iş apararaq xüsusi imzalar toplamaqla Dağlıq Qarabağın Azərbaycandan ayrılaraq Ermənistana birləşmək ideyasını təbliğ edirdilər.

17 iyul - Avropa Parlamenti saxta "erməni soyqırımı" iddialarını tanıdı və "soyqırım qurbanlarına" xatirə günü təsis etdi.

21 oktyabr - Sov.İKP MK Siyasi Bürosunun üzvü, SSRİ Nazirlər Soveti sədrinin I müavini Heydər Əliyev Sov.İKP plenumunda vəzifəsindən azad edildikdən bir neçə gün sonra Sov.İKP MK-nın baş katibi Mixail Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri A.Aqanbekyan Parisdə "İnterkontinental" hotelində müsahibəsində DQMV-nin Ermənistana birləşdirilməsinin iqtisadi cəhətdən daha sərfəli olmasını və bu məsələ üzərində xüsusi komissiyanın işlədiyini bəyan edərək Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi ideyasını irəli sürdü.

Oktyabr - Yerevanda Puşkin adma parkda "Qarabağ" komitəsinin ilk mitinqi keçirildi ki, bu da ermənilərin ərazi iddialarının həyata keçirilməsi yolunda atılan ilk addım oldu.

18 noyabr - A.Aqanbekyanm Parisdə verdiyi müsahibə "L'Humanite" qəzetində çap olundu. Bu müsahibə ermənilərin Dağlıq Qarabağa dair ərazi iddialarının başlanması üçün bir siqnal rolunu oynadı.

Noyabr - Moskvada ermənilər Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında əsassız tələblərini irəli sürdülər.

Noyabr - Ermənistan SSR-in Qafan və Mehri rayonlarmda azərbaycanlılara qarşı hücumlar edilərək, onların Azərbaycana deportasiyasına başlanıldı.

Noyabr-dekabr - Yerevanda Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar vilayətinin Ermənistan SSR-ə birləşdirilməsi tələbi ilə nümayişlər keçirildi.

1 dekabr - Dağlıq Qarabağ ermənilərinin nümayəndələri muxtar vilayətin Azərbaycanın tərkibindən çıxarılıb, Ermənistanın tərkibinə verilməsi haqqında hazırlanmış müraciəti Sov. İKP MK-ya təqdim etdilər.

1987-ci il ərzində - S.Ayvazyanın tərtib etdiyi "Böyük Ermənistan" xəritəsi kiçik formatda DQMV-də geniş yayılmağa başladı. Bu xəritənin sərhədləri 3 dənizin (Aralıq, Xəzər və Qara dənizinin) sahillərini əhatə edirdi.

1988

8 yanvar - Ermənistandan nümayəndələr Moskvaya səfər edərək DQMV-nin Azərbaycanın tərkibindən çıxarılıb Ermənistanın tərkibinə

verilməsi haqqında hazırlanmış daha bir müraciəti və toplanmış imzaları SSRİ Ali Soveti sədrinin müavini P.Demiçevə təqdim etdilər.

25 yanvar - Ermənilərin azərbaycanlı yaşayış məntəqələrinə basqınları nəticəsində Ermənistan SSR-in Qafan və Mehri rayonlarından qovulmuş və didərgin salınmış ilk yüzlərlə azərbaycanlı qaçqınlar Azərbaycana gəlmişdir.

Yanvar-fevral - Ermənistan SSR-dən zorla qovulmuş 4 min nəfərdən çox azərbaycanlı Azərbaycana gələrək, əsasən, Sumqayıtda məskunlaşdılar.

8 fevral - Erməni millətçiləri Xankəndində DQMV-nin Azərbaycan SSR-dən Ermənistan SSR-in tərkibinə verilməsi tələbi ilə yeni imza toplanması kampaniyasına başladılar.

12 fevral - DQMV-də gizli fəaliyyət göstərən millətçi "Krunk"un təşkilatçılığı ilə ermənilər DQMV-nin Ermənistana birləşdirilməsi tələbi ilə Xankəndində ilk mitinq keçirdilər.

18 fevral - Ermənistandan azərbaycanlıların qovulması artıq kütləvi hala çevrildi.

20 fevral - DQMV xalq deputatları Sovetinin XX çağırış növbədənkənar sessiyası "DQMV-nin Azərbaycan SSR tərkibindən Ermənistan SSR tərkibinə verilməsi haqqında Azərbaycan SSR və Ermənistan SSR Ali Sovetləri qarşısında vəsadət qaldırmaq barəsində" qərar qəbul etdi.

21 fevral - Ermənilər tərəfindən Yerevanda qalmış son məscid də dağıdıldı.

21 fevral - Sov. İKP MK-nın Siyasi Bürosu Dağlıq Qarabağda vəziyyətlə bağlı məsələni müzakirə etmiş, Azərbaycan və Ermənistan kommunist partiyaları mərkəzi komitələrinə vəziyyəti normallaşdırmaq tapşırılmışdır.

22 fevral - DQMV partiya fəallarının yığıncağında Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Sov. İKP MK katibi G.P.Razumovski öz çıxışında hadisələri qiymətləndirərək bildirmişdi ki: "Son vaxtlar Sov. İKP MK-nın, SSRİ Ali Soveti Rəyasət Heyətinin və digər mərkəzi orqanların ünvanına DQMV-nin erməni əhalisinin göndərdiyi məktublarda, ərizələrdə vilayəti Ermənistan SSR-lə birləşdirmək xahiş olunur. Dağlıq Qarabağda

olan çıxışlarda da bu tələblər irəli sürülür. Sov. İKP MK mövcud milli-ərazi quruluşunu dəyişdirmək məqsədi güdən hərəkətləri və tələbləri Azərbaycan SSR və Ermənistan SSR zəhmətkeşlərinin mənafelərinə zidd hərəkətlər və tələblər kimi qiymətləndirir. Belə hərəkətlər və tələblər onların millətlərarası münasibətlərinə ziyan vurur, əgər indi məsul tədbirlər görülməsə, ciddi nəticələrə gətirib çıxara bilər". Yığıncaq elə bu məzmunda qərar qəbul etsə də, təəssüf ki, bütün bu deyilənlər yalnız kağız üzərində qaldı.

22-23 fevral - "DQMV Azərbaycanın ayrılmaz tərkib hissəsidir" şüarları ilə Bakıda və Sumqayıtda ilk mitinqlər keçirildi.

23 fevral - Etnik təmizləmə siyasəti həyata keçirmək məqsədilə ermənilər Ermənistan SSR-in Qafan rayonunun azərbaycanhlar yaşayan kəndlərinə kütləvi basqınlar təşkil etdilər.

24 fevral - Ermənilər Əsgəran rayonunda 2 nəfər azərbaycanlı gənci qətlə yetirdikdən sonra Ağdam rayonunun sakinləri ilə Əsgəran sakinləri arasında Xankəndi-Ağdam yolunda qarşıdurma olmuş, 19 nəfər yaralanmışdır.

26 fevral - Sov. İKP MK Baş Katibi M.S.Qorbaçovun Azərbaycan və Ermənistan zəhmətkeşlərinə müraciəti münaqişənin tezliklə həll olunacağına olan ümidləri bir qədər də azaltdı. Müraciətdə deyilirdi: "Bu Muxtar Vilayətin Azərbaycan SSR-in tərkibindən Ermənistan SSR-in tərkibinə keçməsi məsələsi qaldırılmışdır... Biz müxtəlif ideyaların və təkliflərin açıq müzakirəsindən boyun qaçırmağın tərəfdarı deyilik". Müraciətdə ermənilərlə yanaşı azərbaycanlılar da şüurlu və məsuliyyətli olmağa çağırılırdı.

Belə ki, hadisələrin başlanğıcında Mərkəzi hakimiyyətin hadisələrə prinsipial qiymət verməməsi, ermənilərin ərazi iddialarının əsassız olmasının göstərilməməsi ermənilər tərəfindən Əsgəran və xüsusi plan əsasında hazırlanmış Sumqayıtda faciəli hadisələrin baş verməsinə gətirib çıxartdı. SSRİ rəhbərinin ədalətsiz və ermənipərəst mövqeyi sonralar münaqişənin müxtəlif mərhələlərində də özünü göstərdi.

Nəticədə, təcavüzkarlarla təcavüzə məruz qalanların eyni tutulması ilə əslində bu günədək davam edən münaqişənin əsası qoyuldu və həmin dövrdə SSRİ məkanında millətlərarası münasibətləri daim gərginləşdirən tarixi bir səhvə yol verildi.

26 fevral - Sov.İKP MK-nın baş katibi M.S.Qorbaçov Azərbaycan və Ermənistan xalqlarına və zəhmətkeşlərinə televiziya ilə müraciət etdiyi bir vaxtda Sov. İKP MK-nın beynəlxalq əlaqələr şöbəsi müdirinin birinci müavini Karen Brutens Bakıda olarkən İttifaq respublikaları arasında sərhədlərin dəyişdirilməsinin yolverilməzliyini bildirdi.

28 fevral - Ermənilər tərəfindən qabaqcadan hazırlanmış plan əsasında və onların bilavasitə iştirakı ilə Sumqayıtda baş verən kütləvi iğtişaşlar nəticəsində 26 erməni, 6 azərbaycanlı qətlə yetirildi. Sonradan istintaqla müəyyən edilmişdir ki, iğtişaşların təşkilatçılarından biri milliyyətcə erməni Eduard Qriqoryan olmuşdur. Belə ki, o, iğtişaşlar zamanı daha çox qəddarlıq edərək 6 ermənini qətlə yetirmişdir.

Fevral - mart - Quqark (Böyük Qarakilsə) rayonunda 100 nəfər azərbaycanlı qətlə yetirildi. Sovet ordusunun 13 min hərbi qulluqçusu əlavə olaraq Azərbaycana gətirildi.

2 mart – Ermənilər "Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi uğrunda mübarizə komitəsi" – iri müəssisə rəhbərlərini birləşdirən 55-lər komitəsini yaratdılar. Bundan əvvəl isə artıq Moskvada ermənilərin "Milli müqəddəratı müstəqil təyin edilməsi birliyi" və "Siyasi məhbusların müdafiəsi üzrə erməni komitəsi", Yerevanda "Qarabağ" komitəsi və onun Dağlıq Qarabağda uzun müddət gizli fəaliyyət göstərən yerli təşkilatı olan "Krunk" açıq fəal mübarizəyə başlamış, "Miatsum" ("Birləşmə") hərəkatı geniş vüsət almışdı.

2 mart - Ermənistandakı tarixən yaşadıqları torpaqlardan azərbaycanlıların yeni kütləvi deportasiyası başlandı. Ermənistanın kəndlərindən zorakılıqla qovulmuş bir çox ailələr Azərbaycanın Zəngilan və ona qonşu rayonlarına gəldilər.

9 mart - Sov. İKP MK-da bu məsələ ilə əlaqədar keçirilmiş müşavirədəki çıxışında da Sov.İKP MK-nın baş katibi M.S.Qorbaçov ermənilərin ərazi iddialarının əsassız və sərhədlərin dəyişdirilməsinin SSRİ Konstitusiyasına zidd olması barədə heç nə demədi. Halbuki, SSRİ Konstitusiyasından əlavə, respublikaların sərhədlərinin dəyişdirilməsi məsələsinin qoyuluşunun özü tamamilə qanuna zidd idi, çünki Azərbaycan 1922-ci ildə bağlanmış İttifaq müqaviləsinə görə də, SSRİ-nin tərkibinə mövcud ərazisi və sərhədləri ilə daxil olmuşdu.

DQMV-nin Azərbaycan SSR daxilində hüquqi statusu SSRİ Konstitusiyasının 86-cı maddəsinin, Azərbaycan SSR Konstitusiyasının 83-84-cü maddələrinin və DQMV haqqında 1981-ci il iyulun 16-da Azərbaycan SSR Ali Soveti tərəfindən qəbul edilmiş Qanunun əsasında müəyyən edilmişdi. Bu qanun DQMV orqanlarının təşkilini və fəaliyyətini, onların səlahiyyətlərini, respublika və ittifaq orqanları ilə qarşılıqlı münasibətlərini müəyyən edirdi.

Azərbaycan SSR Konstitusiyasının 138-ci maddəsinə və DQMV haqqında Qanunun 41-ci maddəsinə görə, DQMV-nin Xalq Deputatları Soveti yerli hakimiyyət orqanı hesab olunur və öz ərazisində sosial-iqtisadi və təsərrüfat quruculuğuna rəhbərlik edə bilər, büdcəni və vilayətin xalq təsərrüfat planını təsdiq edə, dövlət qayda-qanununu və vətəndaşların hüquqlarının qorunmasını, qanunlara əməl edilməsini təmin edə bilərdi. Bundan başqa, SSRİ Konstitusiyasına və Azərbaycan SSR Konstitusiyasına uyğun olaraq, Xalq Deputatları Soveti öz sessiyalarında respublikada ərazi dəyişiklikləri məsələsinə baxmaq hüququna malik deyildi. Həmçinin, milli-ərazi dəyişikliyi məsələsi müttəfiq respublikanın suveren hüququ sayılırdı.

SSRİ Konstitusiyasının 78-ci maddəsində isə deyilirdi ki, müttəfiq respublikanın ərazisi onun razılığı olmadan dəyişdirilə bilməz və müttəfiq respublikalar arasında sərhədlər müvafiq respublikaların qarşılıqlı razılığı əsasında dəyişdirilə bilər ki, bu da SSRİ tərəfindən təsdiq olunmalıdır.

Ümumiyyətlə, SSRİ Konstitusiyasının 81-ci maddəsinə görə, SSRİ yaradılarkən dövlətin tərkibinə daxil olan müttəfiq respublikaların suveren hüquqlarını müdafiə etmək təhəddüdünü SSRİ öz üzərinə götürmüşdü.

Beləliklə, yuxarıda deyilənlərə əsasən, belə bir nəticəyə gəlmək olar ki, DQMV Xalq Deputatları Sovetinin vilayətin Azərbaycan SSR tərkibindən çıxması və Ermənistan SSR tərkibinə daxil edilməsi haqqındakı qərarı hüquqa zidd və Konstitusiya əleyhinə bir qərar idi. Respublikaların sərhədlərinin dəyişdirilməsi cəhdləri Konstitusiyaya zidd olduğundan, buna heç cür haqq qazandırıla bilməzdi və bu Azərbaycan SSR-in dövlət suverenliyinin pozulması demək idi.

10 mart - Yerevan ətrafında 10 nəfər azərbaycanlı ermənilər tərəfindən vəhşicəsinə qətlə yetirildi. Elə həmin gün Masis (Zəngibasar) rayonunun Mehmandar kəndində ermənilər 5 nəfər azərbaycanlını vəhşicəsinə qətlə yetirdilər.

13 mart - Ali erməni kilsəsi rəhbərliyinin çağırışı ilə Nyu-Yorkda ermənilərin Dağlıq Qarabağ ermənilərini müdafiə edən mitinqi keçirilmişdir.

22 mart - RSFSR, Ukrayna, Gürcüstan, Belarusiya, Özbəkistan, Qazaxıstan, Litva, Moldaviya, Latviya, Qırğızıstan, Tacikistan, Türkmənistan və Estoniya müttəfiq respublikaların Ali Sovetləri rəyasət heyətlərinin iclasları keçirilərək burada Dağlıq Qarabağla bağlı qətiyyətli tədbirlər görmək haqqında qərar qəbul etdilər.

23 mart - SSRİ Ali Sovetinin Rəyasət Heyətinin iclasında Dağlıq Qarabağda, Azərbaycan SSR-də və Ermənistan SSR-də hadisələr barədə müttəfiq respublikaların müraciətləri ilə əlaqədar tədbirlər haqqında məsələ müzakirə olundu və müvafiq qərar qəbul edildi. Qərarda deyilirdi: "Mürəkkəb milli-ərazi məsələlərini dövlət hakimiyyət orqanlarına təzyiq yolu ilə, emosiyaların və ehtirasların qızışdırılması, SSRİ Konstitusiyasında təsbit olunmuş milli dövlət sərhədlərini və milli inzibati sərhədləri dəyişdirmək uğrunda çıxış edən cürbəcür özbaşına qurumlar yaradılması şəraitində həll etməyə cəhd göstərmək yolverilməz sayılsın, çünki belə cəhdlər gözlənilməz nəticələr verə bilər...".

Qəbul edilən qərar tam ədalətli olmasa da, güman etmək olardı ki, İttifaq orqanları münaqişəni nizama salmaq üçün bütün qüvvələri qərarın yerinə yetirilməsinə yönəldəcəklər. Lakin təəssüf ki, belə olmadı, ermənilər bu qərarın əleyhinə gedərək onu yerinə yetirməkdən boyun qaçırdılar və bildirdilər ki, vəziyyəti nizama salmağın yeganə yolu Dağlıq Qarabağın Ermənistana birləşdirilməsidir.

24 mart - Xankəndi şəhər İcraiyyə Komitəsi "Krunk" təşkilatını rəsmi olaraq Dağlıq Qarabağı Ermənistana birləşdirici komitə kimi tanımışdır. Qeyd olunan tarixdə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin qərarı ilə həmin komitə ləğv edilsə də, o, öz fəaliyyətini dayandırmadı.

24 mart - Sov. İKP MK və SSRİ Nazirlər Soveti „1988-1995-ci illərdə Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətinin sosial-iqtisadi inkişafının sürətləndirilməsi tədbirləri haqqında" qərar qəbul etdi. Qərarda

göstərilirdi ki, vilayətdə sosial-iqtisadi vəziyyətin daha da yaxşılaşdırılması məqsədi ilə 500 milyon manat vəsait ayrılmışdır.

Lakin qərar regionda sosial-iqtisadi inkişafın respublika vəziyyətindən doğmur, onun qəbul edilməsinə xüsusi ehtiyac duyulmurdu. Bu addım ermənilərin iqtisadi vəziyyətinin ön plana çəkilməsi haqqında ittifaq məkanında belə bir rəy yaradırdı ki, bundan da istifadə edən erməni siyasətçiləri bu qərarın qəbul edilməsi ilə bütün dünyaya sübut etmək istəyirdilər ki, Dağlıq Qarabağ ermənilərinin vəziyyəti o qədər ağırdır ki, SSRİ hökuməti belə bir xüsusi qərar qəbul etmişdir. Lakin baş verən sonrakı hadisələr DQMV-nin sosial-iqtisadi geriliyi barədə erməni siyasətçiləri və onların mərkəzdəki himayədarlarının irəli sürdükləri bu saxta tezisin yalnız bəhanə, əsas məqsədin isə Ermənistanın Azərbaycana qarşı ərazi iddiasında olduğunu göstərdi.

25 mart - SSRİ Nazirlər Sovetinin sosial inkişaf üzrə Şurası Bürosu sədrinin birinci müavini V.P.Laxtin "İzvestiya" qəzetində bildirmişdi ki, Dağlıq Qarabağ Muxtar Vilayəti mənzillə təminat sahəsində Azərbaycanın digər bölgələrini orta hesabla 1,4 dəfə geridə qoyur. Bir sıra başqa göstəricilər üzrə də vilayətdəki vəziyyət hər iki müttəfiq respublikadakından yaxşıdır.

Ümumiyyətlə, ermənilərin ərazi iddiaları başladığı ilk vaxtlarda vəziyyəti son dərəcə gərginləşdirməyə, ictimai rəyi öz tərəflərinə çəkməyə çalışan erməni siyasətçiləri və onların mərkəzi ittifaqdakı himayədarları tərəfindən vilayətin iqtisadi geriliyi pərdəsi altında Dağlıq Qarabağı Ermənistana birləşdirmək üçün uzun müddətdən bəri hazırlanmış plan üzrə Xankəndində və Yerevanda müəssisələrin fəaliyyəti dayandırılır, kütləvi tətillər keçirilir və davamlı mitinqlər təşkil edilirdi. Yəni, ermənilər hadisələr başladığı ilk vaxtlarda əsas diqqəti ona yönəltdilər ki, guya Azərbaycan rəhbərliyinin qərəzli siyasəti nəticəsində Dağlıq Qarabağın iqtisadi inkişaf səviyyəsi bütün respublikada olduğundan xeyli aşağıdır.

Lakin onu qeyd etmək vacibdir ki, erməni siyasətçilərinin iddia etdiyi bu saxta tezis ortaya atılana qədər DQMV-yə rəhbərlik edənlərdən heç biri DQMV iqtisadiyyatının Ermənistandan asılılığından, vilayətin geriliyindən danışmamış, əksinə, vilayətin sosial-iqtisadi inkişafının Azərbaycanın başqa bölgələrinə, hətta, Ermənistanın özünə nisbətən sürətlə

irəli getdiyini daim qeyd edirdilər.

Azərbaycana qarşı açıq-aşkar ərazi iddialarını pərdələyərək, münaqişənin əsas səbəbinin guya DQMV-nin sosial-iqtisadi problemlərinin olması barədə erməni siyasətçiləri və onların arxasında dayananların bu tezisinin əsassızlığı konkret faktlar və rəqəmlərlə ifşa olunmuşdur. DQMV-nin sosial-iqtisadi və demoqrafik vəziyyətinə dair aparılan tədqiqatlarda göstərilir ki, 1986-cı ildə sənaye məhsullarının istehsalının ümumi həcmi vilayətdə 60 faiz təşkil edirdi, halbuki, 10 il əvvəl bu rəqəm 53 faiz idi. Bu müddət ərzində sənaye məhsulları istehsalının inkişaf sürətinə görə DQMV orta respublika göstəricisindən (178,7 faizə qarşı 183 faiz) qabaqda idi. Adambaşına düşən sənaye məhsullarının həcminə görə isə DQMV respublikanın digər regionları arasında birinci yerə çıxmışdı.

Azərbaycan SSR Dövlət Statistika İdarəsinin 1988-ci ilin əvvəllərinədək olan vəziyyəti əks etdirən rəqəmlərə nəzər saldıqda, doğrudan da, sosial-iqtisadi inkişafın bir sıra sahələrində DQMV nəinki Azərbaycanı, hətta Ermənistanı da qabaqlayırdı.

Ermənilərin Dağlıq Qarabağın sosial-iqtisadi geriliyi barədə iddiaları ilə yanaşı, DQMV əhalisinin guya "azərbaycanlılaşdırılması", erməni əhalisinin isə sayının guya azaldılması, ağır iqtisadi şərait ucbatından ermənilərin vilayətdən çıxıb getmələri və başqa uydurmaları da konkret faktlarla təkzib olunur.

Belə ki, sovet dövründə vilayətin əhalisi başdan-başa savadlı olmuşdur. Vilayətdə 193 ümumtəhsil məktəbi, o cümlədən 147 erməni məktəbi fəaliyyət göstərirdi. Xankəndi Pedaqoji İnstitutunda dərslər azərbaycan, rus və erməni dillərində keçirilirdi. Vilayətdəki 5 texnikumdan və 5 texniki-peşə təhsili məktəbindən 4-də dərslər erməni dilində keçirilirdi. Burada kitab fondu 1,5 mln. olan 196 kütləvi kitabxana, 202 klub, mədəniyyət evi, 195 kinoteatr və kinoqurğusu, M.Qorki adına Xankəndi şəhər dram teatrı, mahnı və rəqs ansamblı, erməni dilində "Sovetakan Karabax" qəzeti (rus dilində dublyajı nəşr olunan "Sovetskiy Karabax"), 5 rayon qəzeti (4-ü erməni dilində, 1-i azərbaycan dilində) var idi. Vilayətdə 2,5 saat yayımlanan radio verilişlərindən 2 saatdan çoxu erməni dilində idi.

Erməni millətçilərinin düşmənçilik hisslərini qızışdırmaq cəhdlərinə baxmayaraq, Azərbaycan hökuməti Dağlıq Qarabağ bölgəsinin

sosial-iqtisadi və mədəni inkişafına daim xüsusi diqqət və qayğı göstərmişdir. Eyni zamanda, sovet dövründə DQMV özünü idarəetmənin bütün əsas elementlərinə malik olaraq Dağlıq Qarabağın Azərbaycan SSR-in tərkibində muxtar vilayət statusu 1936 və 1977-ci illər SSRİ Konstitusiyalarında təsbit edilmişdi. SSRİ və Azərbaycan SSR Konstitusiyalarına əsasən DQMV-nin hüquqi statusu DQMV Xalq Deputatları Soveti tərəfindən Azərbaycan SSR Ali Sovetinə təqdim edilmiş və 1981-ci il iyunun 16-da qəbul edilmiş "Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında" qanunla tənzimlənirdi.

Milli ərazi vahidi kimi DQMV inzibati muxtariyyət formasına və əhalisinin xüsusi tələbatlarının həyata keçirilməsini təmin edən bir sıra hüquqlara malik idi. SSRİ Konstitusiyasına uyğun olaraq DQMV SSRİ Ali Sovetinin Millətlər Sovetində 5, Azərbaycan SSR Ali Sovetində isə 12 deputatla təmsil olunurdu. DQMV-nin hakimiyyət orqanı olan Xalq Deputatları Soveti geniş səlahiyyətlərə malik idi, milli və digər xüsusiyyətləri nəzərə alaraq, vilayətdə yaşayan vətəndaşların maraqları əsasında bütün yerli məsələləri həll edirdi. Muxtariyyət forması əhalinin özünəməxsus iqtisadi, sosial, mədəni, milli xüsusiyyətlərini və muxtar regionda həyat tərzini tam şəkildə əks etdirirdi.

Bununla yanaşı, əhalinin etnik tərkibinə gəldikdə isə, DQMV-nin əhalisi 1979-cu il ümumittifaq siyahıya alınması zamanı 162 min 181 nəfər olmuşdur. Bunun 123 min 76 nəfərinin erməni (76%), 37 min 264 nəfərinin (23%) isə azərbaycanlı olduğu göstərilirdi. Belə ki, əhalinin bu siyahıya alınmasının məlumatına görə respublikada yaşayan ermənilərin ümumi sayının 25,9 faizi DQMV-nin payına düşürdü.

25 mart - Ermənistan SSR Ararat rayonunun azərbaycanlılar yaşayan kəndində 100-dən çox ev talan edildi, yandırıldı, əhalisi öz yurdlarından qovuldu.

24 aprel - Xankəndi şəhər İcraiyyə Komitəsinin qərarı ilə ilk dəfə olaraq uydurma "erməni soyqırımı"nı anma mərasimi keçirildi.

1 may - Ermənistandan 2 mindən çox azərbaycanlı deportasiya olundu.

3 may - Ermənilər Hadrut rayonunun Tuğ kəndində Ermənistan SSR-in bayrağını qaldıraraq iğtişaşlar törətdilər.

13 may - Ermənilərin Xankəndində azərbaycanlıların yaşadıqları məhəllələrə hücumu nəticəsində 6 nəfər yaralanmışdır.

15 may - Ermənilərin silahlı hücumu nəticəsində Kəlbəcər rayonunun Kapalı kəndində bir ev partladılmış, 3 nəfər həlak olmuşdur.

16 may - Bakıda tələbələrin və ziyahların nümayəndələrinin Dağlıq Qarabağda baş verən hadisələrə qarşı izdihamlı etiraz mitinqi keçirildi.

18 may - Bakıda Azadlıq (keçmiş Lenin) meydanında Dağlıq Qarabağda baş verən hadisələrə və azərbaycanlıların Ermənistandan qovulmasına qarşı izdihamlı etiraz mitinqi keçirildi.

12 iyun - DQMV Xalq Deputatları Soveti muxtar vilayətin Azərbaycan SSR tərkibindən Ermənistan SSR-in tərkibinə qatılması haqqında qərar qəbul etdi.

14 iyun - Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatına görə, Azərbaycana Ermənistandan daha 4 min azərbaycanlı qaçqın gəlmişdir. Beləliklə, Respublika Statistika İdarəsinin məlumatına əsasən bu tarixə qədər Ermənistandan Azərbaycana 17 min 256 nəfər qaçqın gəlməsi göstərilir.

15 iyun - Ermənistan SSR Ali Soveti DQMV Xalq Deputatları Sovetinin DQMV-nin Azərbaycan SSR-nin tərkibindən çıxarılıb Ermənistan SSR-in tərkibinə qəbul edilməsi xahişi ilə bağlı müraciətinə müsbət cavab vermək haqqında qərar qəbul etmişdir.

17-20 iyun - Yerevanda teatr meydanında müxtəlif ağır və soyuq silahlı alətlərlə erməni dəstələrinin avtobuslarla Masis rayonunun mərkəzinə və Zəngilər, Zəhmət, Dəmirçi, Dostluq, Nizami, Sarvanlar kəndlərinə basqını nəticəsində 20-dən çox azərbaycanlı yaralandı, Masis rayonundan 3 mindən çox soydaşımız evlərindən qovuldu, 10 mindən çoxu isə SSRİ-Türkiyə sərhəddinə toplaşaraq, orada gecələməyə məcbur oldular.

17 iyun - Azərbaycan SSR Ali Sovetinin qəbul etdiyi qərarda deyilirdi ki, Azərbaycan SSR Ali Soveti Ermənistan SSR Ali Sovetinin müraciətinə cavab olaraq, ölkənin təşəkkül tapmış və SSRİ Konstitusiyası ilə təsbit edilmiş milli-ərazi quruluşunu qoruyub saxlamaq mənafeyini əsas götürərək DQMV-nin Azərbaycan SSR-nin tərkibindən Ermənistan SSR-ə verilməsini mümkün hesab etmir.

4 iyul - DQMV İcraiyyə Komitəsi heç bir hüquqi əsası olmadan Ermənistandan gələn azərbaycanlı qaçqınların Şuşada və onun ətraf kəndlərində yerləşdirmələrini qadağan edən qeyri-qanuni qərar qəbul etdi.

12 iyul - DQMV Xalq Deputatları Sovetinin sessiyası muxtar vilayətin Azərbaycan SSR-in tərkibindən çıxması haqqında qərar qəbul etdi.

13 iyul - Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti DQMV Xalq Deputatları Soveti sessiyasının 12 iyul 1988-ci il tarixli qərarını qeyri-qanuni hesab etdi.

18 iyul - SSRİ Ali Sovetinin Rəyasət Heyəti respublikaların hər ikisində yaranmış vəziyyəti və Ermənistan SSR və Azərbaycan SSR Ali Sovetlərinin Dağlıq Qarabağ haqqında qərarları barəsində məsələni müzakirə edərək qəbul etdiyi qərarda göstərilirdi: "DQMV Xalq Deputatları Sovetinin xahişi ilə əlaqədar DQMV-nin Ermənistan SSR-in tərkibinə keçməsi haqqında Ermənistan SSR Ali Sovetinin 15 iyul tarixli xahişini və DQMV-nin Ermənistan SSR-ə verilməsinin qəbuledilməzliyi haqqında Azərbaycan SSR Ali Sovetinin 1988-ci il 17 iyul tarixli qərarını müzakirə edərək, Azərbaycan SSR və Ermənistan SSR-in sərhədlərinin və Konstitusiya əsasında müəyyənləşdirilmiş milli-ərazi bölgüsünün dəyişdirilməsini qeyri-mümkün hesab edir. SSRİ Ali Sovetinin Rəyasət Heyəti belə bir qərar qəbul edərkən SSRİ Konstitusiyasının 78-ci maddəsini əsas tutur ki, müttəfiq respublikanın ərazisi onun razılığı olmadan dəyişdirilə bilməz".

19 iyul - DQMV Xalq Deputatları Sovetinin sessiyası növbəti dəfə DQMV-nin Azərbaycanın tərkibindən çıxması barədə qeyri-qanuni qərar qəbul etdi.

20 avqust - Xankəndi şəhər meydanında keçirilən mitinqdə Ermənistandan gələn azərbaycanlı qaçqınların muxtar vilayətin ərazisindən çıxarılmaları tələbi irəli sürülmüşdür.

24 avqust - DQMV Xalq Deputatları Sovetinin sessiyası bir daha DQMV-nin Azərbaycanın inzibati tabeçiliyindən çıxarılaraq Ermənistana tabe etdirilməsi barədə qəbul edilmiş qərarı müdafiə etdiyini bəyan etmişdir.

3 sentyabr - Ermənilər azərbaycanlılar yaşayan Kərkicahan kəndinə silahlı hücum etdilər.

18 sentyabr - Xankəndi şəhərində keçirilən mitinqdən ayrılan 5 min nəfərədək erməni azərbaycanlılar yaşayan Xocalı şəhərinə hücum etdilər. Atışma nəticəsində 1 nəfər azərbaycanlı həlak oldu, bir neçə nəfər isə yaralandı.

18-21 sentyabr - Ermənilər tərəfindən Xankəndi şəhərində azərbaycanlıların mənzillərinə basqınlar edilmiş, 850-dən çox ailənin evi yandırılmış və ya dağıdılmışdır. Nəticədə, şəhəri tərk etməyə məcbur edilmiş 15 mindən çox azərbaycanlı əhalinin xeyli hissəsi Şuşa, Xocalı və Ağdam şəhərlərində məskunlaşmağa məcbur olmuşdur.

21 sentyabr - DQMV ərazisində və Ağdam rayonunda xüsusi vəziyyət və komendant saatı tətbiq edildi.

16 noyabr - Ermənilər Şuşa şəhərinin yaxınlığındakı Topxana meşəsində qanunsuz olaraq meşəni qırıb yerində Yerevandakı Kənəkert alüminium zavodunun sexinin və istirahət kompleksinin tikintisinə başladılar.

17 noyabr - 5 dekabr - Bakıdakı Azadlıq meydanında SSRİ rəhbərliyinin Dağlıq Qarabağ məsələsində tutduğu ikili (ermənipərəst) mövqeyinə, azərbaycanlıların Ermənistandan deportasiyasına etiraz əlaməti olaraq davamlı mitinqlər keçirilmişdir.

22 noyabr - Ermənilər son iki həftə ərzində Ermənistanda genişmiqyaslı etnik təmizləmə – azərbaycanlılardan təmizləmək aksiyasını həyata keçirdilər. Belə ki, 1988-ci il noyabrın 22-dən dekabrın 7-dək olan müddət ərzində azərbaycanlılar yaşayan 22 rayonda 170 sırf və 94 qarışıq (ermənilərlə) yaşayış məskənləri boşaldılmış, nəticədə 200 mindən artıq azərbaycanlı əhali Azərbaycana qovulmuşdur. Həmin vaxt 216 azərbaycanlı, o cümlədən 57 qadın, körpə və 18 uşaq qətlə yetirilmişdir.

24 noyabr - Bakı, Naxçıvan və Gəncə şəhərlərində xüsusi vəziyyət və komendant saatı tətbiq edilmişdir. Ermənistan ərazisindən Qubadlı rayonunun Eyvazlı, Qədirli, Davudlu kəndlərinə hücum edilmiş, eləcə də Eyvazlı kəndi tamamilə yandırılmışdır.

26-27 noyabr - Ermənistanın Vartanlı kəndində 14 nəfər azərbaycanlı vəhşicəsinə öldürülərək yandırılmışdır.

Noyabr-dekabr - Erməni millətçiləri Quqark rayonunda 70 nəfər azərbaycanlım qətlə yetirdilər. Rayonun təkcə Gözəldərə kəndində 21 nəfər, onlardan 12 kişi, 6 qadın, 3 körpə olmaqla öldürülmüşdür.

1 dekabr - Ermənistanın Quqark rayonunda azərbaycanlılarla dolu olan avtobusun ermənilər tərəfindən atəşə tutulması nəticəsində 3 nəfər həlak olmuş, 7 nəfər isə ağır yaralanmışdır.

10 dekabr - Zəlzələ ilə əlaqədar olaraq keçmiş Yuqoslaviyadan göndərilən təyyarə Belqrad-Ankara-Yerevan marşrutu ilə Ermənistana uçarkən Ankara istiqamətindən gəldiyi üçün ermənilər onu türk təyyarəsi hesab edərək vurub qəzaya uğratdılar. Sonralar günahlarını yumaq üçün təyyarənin 6 nəfərlik şəxsi heyətinə abidə qoyuldu.

11 dekabr - Respublika Hərbi Komissarlığının və Mülki Müdafiə Qərargahının zəlzələdən zərər çəkənlərə yardım etmək üçün səfərbər edib Gümrüyə (Leninakana) göndərdiyi, içərisində müxtəlif peşə sahibləri (69 sərnişin, 9 ekipaj) olan "İL-76" təyyarəsi Gümrü yaxınlığında qəsdən qəzaya uğradıldı. Qəzadan yalnız bir nəfər sağ çıxdı. Lakin həmin qəzanın səbəblərini araşdırmaq üçün heç bir komissiya yaradılmadı.

Dekabr - Moskvada "Erməni birliyi" adlanan təşkilat yaradılmışdır. "ASALA" ilə sıx əlaqələri olan və keçmiş sovet məkanında terrorçuların fəaliyyəti üçün onları saxta sənədlərlə təmin edən bu terrrorçu qurum Dağlıq Qarabağa silah və muzdluların göndərilməsində iştirak etmişdir.

1989

12 yanvar - SSRİ Ali Soveti Rəyasət Heyəti DQMV-də və onun ətrafında millətlərarası münasibətlərin gərginliyinin davam etməsi ilə əlaqədar olaraq Dağlıq Qarabağın Azərbaycan SSR tərkibində Muxtar Vilayət statusunu saxlamaqla DQMV-də xüsusi idarə formasınm tətbiq edilməsi haqqında fərman qəbul etdi. Həmin fərmanla DQMV-də bilavasitə SSRİ-nin ali dövlət hakimiyyəti və idarə orqanlarına tabe olan Xüsusi İdarə Komitəsi yaradıldı. Komitənin tərkibi 5 nəfər rus, 2 nəfər erməni, 1 nəfər azərbaycanlıdan ibarət olmuşdur.

SSRİ rəhbərliyi tərəfindən guya vəziyyəti sabitləşdirmək üçün A.Volski başda olmaqla DQMV-də yaradılan bu komitə millətlərarası

münasibətlərin kəskinləşməsinin qarşısını almaq və regionda vəziyyəti sabitləşdirmək adı altında yaradılsa da, fərmanda göstərilənlərin əksinə olaraq Xüsusi İdarə Komitəsinin fəaliyyət göstərdiyi müddətdə DQMV-də vəziyyət daha da kəskinləşdi. Komitənin sədri A.Volski vəziyyəti sabitləşdirmək deyil, əksinə gərginləşdirmək siyasəti yürütdü. Onun fəal "səyləri" nəticəsində az müddət ərzində vilayətin idarə və müəssisələrinin demək olar ki, hamısı Azərbaycan tabeliyindən İttifaqın tabeliyinə keçirildi. Bütün sənədlərdə DQMV Azərbaycanın tərkibindən çıxarılmışdı.

Belə ki, o dövrdə SSRİ Plan Komitəsinin Hesabat sənədlərində Dağlıq Qarabağ əslində on altıncı müttəfiq respublika kimi əlahiddə göstərilirdi. Vilayət İcraiyyə Komitəsinin binasının üzərində dalğalanan Azərbaycan bayrağı çıxarılıb, Ermənistanın bayrağı sancılmışdı. Hər gün Xankəndi-Yerevan marşrutu üzrə təyyarələr 22 dəfə reysə çıxırdı.

Nəticədə, Xüsusi İdarə Komitəsinin fəaliyyət göstərdiyi dövrdə Xankəndindən qovulmuş azərbaycanlıların öz doğma ev-eşiklərinə qayıtmasına nəinki təminat yaradılmadı, əksinə vilayətin azərbaycanlılar yaşayan bir sıra kəndləri də komitənin "köməkliyi" ilə məqsədəuyğun şəkildə boşaldıldı. Vilayətin yaşayış məntəqələrindən qovulmuş azərbaycanhların bir qismi Şuşaya pənah gətirirdilər. Ümumiyyətlə, A.İ.Volskinin "ciddi qayğısı" sayəsində vilayət demək olar ki, Azərbaycan hökumətinin nəzarətindən çıxmışdı.

Yanvar - SSRİ-də keçirilmiş əhalinin ümumittifaq siyahıya alınması zamanı DQMV-nin 189 min 29 nəfər əhalisinin 145 min 450 nəfərinin (77%) erməni, 40 min 632 nəfərinin (21%) isə azərbaycanlı olduğu göstərilirdi. Lakin ümumittifaq siyahıya alınmasının bu məlumatlarını düzgün və obyektiv saymaq olmazdı. Ona görə ki, bu dövrdə DQMV-nin əhalisi siyahıya alınarkən burada yaşayan ermənilərlə əlaqədar şişirdilmiş rəqəmlər əsas götürülmüşdür. Yəni rəsmən vilayətdə qeydiyyatda qalan, lakin Ermənistan SSR-də, yaxud SSRİ-nin başqa şəhərlərində daimi yaşayan və işləyən ermənilər (15-20%) vilayətin sakini kimi qələmə verilmişdilər.

Bununla yanaşı, Dağlıq Qarabağ bölgəsində tarixən yaşamış azərbaycanlılar isə siyahıya alınarkən artıq 1988-ci il sentyabrın 18-də Xankəndindən (15 min nəfərdən çox), eləcə də müxtəlif vaxtlarda vilayətin

bəzi azərbaycanlılar yaşayan kəndlərindən qovulmuş və siyahıya alma zamanı bu faktlar bilərəkdən nəzərə alınmamışdı. Demoqrafik göstəricilərin təhlili bir daha sübut edir ki, erməni siyasətçiləri və onların himayədarları Azərbaycan xalqına qarşı uzun müddət hazırladıqları proqramı məqsədyönlü və ardıcıl şəkildə həyata keçirməyi özlərinin ali məqsədi saymışlar.

Mart-may - Erməni silahlı dəstələri azərbaycanlıların Dağlıq Qarabağdan sıxışdırılıb çıxarılması kampaniyasını genişləndirdilər. Bununla da, DQMV-də hadisələr kəskinləşərək yeni mərhələyə qədəm qoydu.

6 may - SSRİ Nazirlər Sovetinin qərarı ilə DQMV-dəki idarə və müəssisələr Azərbaycan SSR-in tabeliyindən çıxarıldı.

2 iyun - Ermənistan KP MK-nın I katibi S.Arutyunyan Moskvada çıxışında bildirdi ki, 1989-cu il iyunun 1-nə Ermənistanda bir dənə də olsun azərbaycanlı ailəsi qalmamışdır, halbuki hələ də Azərbaycanda 450 min erməni yaşayır.

13 iyundan etibarən - Xüsusi İdarə Komitəsinin ermənipərəst mövqeyi sayəsində DQMV-dəki azərbaycanlıların yaşayış məntəqələri blokada vəziyyətinə düşdü.

28 iyun - Ermənilər tərəfindən Bədərə kəndindən Meşəliyə gedən şosse yoluna qoyulmuş partlayıcı qurğunun işə düşməsi nəticəsində maşındakı 6 nəfər mülki azərbaycanlı ağır yaralanmışlar.

7 iyul - Ermənilər Xankəndi yaxınlığındakı azərbaycanlılar yaşayan Kərkicahan kəndinə silahlı hücum edərək kəndi yandırdılar.

8 iyul - Sonralar Ermənistan Respublikasının prezidenti olmuş Robert Koçaryanın rəhbərliyi altında Xankəndində "Arsax Erməni Xalq Hərəkatı" – "Miasum" ("Birləşmə") hərəkatının təsis konfransı keçirilmişdir.

11 iyul - Xankəndində ermənilər tərəfindən 3 nəfər azərbaycanlıya hücum edilmiş, onlardan 2 nəfəri öldürülmüş, 1nəfəri isə ağır yaralanmışdır.

19 iyul - ABŞ Senatı erməni lobbisinin təsiri və təzyiqi ilə Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində vəziyyət barəsində qətnamə qəbul etdi. Erməniləri müdafiə məqsədilə ABŞ Senatının Azərbaycan əleyhinə kobud böhtanlarla dolu bu qətnaməsi Azərbaycanda çox narazılıqla qarşılandı.

22 iyul - Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti ABŞ Senatının erməniləri müdafiə məqsədi ilə qəbul edilmiş 19 iyul tarixli qətnaməsinə qarşı etiraz bəyanatı qəbul edərək Birləşmiş Ştatların rəsmi dövlət hakimiyyət orqanları tərəfindən belə hərəkətlərə son qoyulmasını tələb etmişdir.

29 iyul - Azərbaycandan Ermənistana gedən qatarlar Ermənistan ərazisində hücumlara məruz qaldığına görə onların hərəkəti dayandırıldı. Azərbaycanın Naxçıvan Muxtar Respublikası Ermənistan tərəfindən blokada vəziyyətinə düşdü.

6 avqust - Əsgəran rayonunun Meşəli kəndində 1 nəfər azərbaycanlı ermənilər tərəfindən qətlə yetirildi.

16 avqust - Xankəndində "DQMV əhalisinin səlahiyyətli nümayəndələrinin qurultayı" keçirilmişdir. Qurultayda DQMV müstəqil İttifaq ərazisi elan edildi. Bununla da, vilayətdə hakimiyyət Milli Şura adlanan qeyri-qanuni qurum tərəfindən mənimsənilmişdir.

DQMV-nin yalnız erməni əhalisini təmsil edən "səlahiyyətli xalq nümayəndələri qurultayı"nın çağırılması və "Milli Şura"nın yaradılması isə xüsusi idarə forması ideyasının tam iflasa uğradığını göstərdi. Qurultay Azərbaycan SSR-in tərkibində muxtar vilayət kimi Dağlıq Qarabağın statusunu tanımaqdan imtina etdiyini bildirmiş, vilayəti Azərbaycan SSR Konstitusiyasının və respublikanın digər qanunlarının icrasının dayandırıldığı "müstəqil ittifaq ərazisi" elan etmişdi. "Milli şura" DQMV-də yeganə xalq hakimiyyəti elan edilmişdi ki, bu da əslində Xüsusi İdarə Komitəsini səlahiyyətdən məhrum etmək, əslində vilayətdə Sovet hakimiyyətini devirmək cəhdi idi.

26 avqust - Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti "qurultay"ın bu qərarlarını və DQMV-də "Milli Şura" yaradılmasını qanuna, Konstitusiyaya zidd hərəkətlər kimi qiymətləndirərək bu barədə qərar qəbul etdi.

28 avqust - Şuşadan Bakıya, Ağdama və respublikanın digər rayonlarına gedən 9 avtobus və 1 yük maşını karvanı ermənilərin hücumuna məruz qalmış, nəticədə 200-ə qədər adam yaralanmışdır.

15 sentyabr - Azərbaycan SSR Ali Sovetinin qərarı ilə DQMV-dəki Xüsusi İdarə Komitəsi ləğv olundu.

16 sentyabr - Tbilisi-Bakı marşrutu ilə hərəkət edən sərnişin avtobusu ermənilər tərəfindən partladılmış və bu terror aksiyası nəticəsində 5 nəfər həlak olmuş, 25 nəfər yaralanmışdır.

20 sentyabr - Ermənilər Zod mədəninin Kəlbəcər rayonu Söyüdlü yaylağında yerləşən sahəsinə partlayıcı qurğu qoyaraq partlatmış, nəticədə 1 nəfər yaralanmış və həmin dövrdə dövlətə 28 min 929 manat ziyan vurulmuşdur.

7 oktyabr - Şuşa şəhərini Ağdam şosse yolu ilə bağlayan Xəlfəliçay üzərindəki körpü partladılmışdır. Bununla da, Şuşa rayonu faktiki olaraq blokada vəziyyətinə düşmüşdür. Cinayəti törətmiş Abramyan Artur həbs olunmuş və 1992-ci il aprelin 29-da 15 il müddətinə azadhqdan məhrum edilmişdir.

16 oktyabr - Ermənilər tərəfindən 2 nəfər Kərkicahan qəsəbə sakini qətlə yetirilmişdir.

19 oktyabr - Culfa rayonunun Ərəfsə kəndi yaxınlığında 2 nəfər yerli sakin ermənilər tərəfindən qətlə yetirilmişdir.

Oktyabr - Laçın yolunun Qala dərəsi ərazisində ermənilər tərəfindən açılan atəş nəticəsində 1 nəfər azərbaycanlı öldürülmüşdür.

6 noyabr - Ermənilər tərəfindən gecə Ağdam-Şuşa avtomobil yolunda Ağa körpüsünün partladılması nəticəsində Şuşanın ətraf rayonlarla əlaqəsi kəsildi və şəhər blokada vəziyyətinə düşdü. Həmin gün ermənilər Ağdam rayonunda Qarqar çayı üzərindəki körpünü və eləcə də Ağdərə rayonu ərazisində bir körpünü də partlatdılar.

14 noyabr - Ermənilərin silahlı hücumu nəticəsində Qubadlı rayonunun Seytas kəndi yaxınlığında 1 nəfər qətlə yetirilmiş, 1 nəfər azyaşlı uşaq yaralanmışdır.

17 noyabr - Hadrut rayonunun Tuğ kəndində ermənilər tərəfindən 1 nəfər kənd sakini qətlə yetirilmişdir.

17 noyabr - ABŞ Senatının Xarici İşlər üzrə Komitəsi yenidən Azərbaycanın daxili işlərinə kobud müdaxilə edərək Dağlıq Qarabağ barədə qətnamə qəbul etdi. Bu qətnamə "Dağlıq Qarabağ xalqının mübarizəsinin ABŞ tərəfindən müdafiə olunmasının ifadəsi" kimi qələmə verilsə də, qətnamənin mətnindən aydın olurdu ki, "Dağhq Qarabağ xalqı" ifadəsi altında yalnız ermənilər nəzərdə tutulurdu.

24 noyabr - Ermənilər tərəfindən 3 nəfər Qaradağlı kənd sakini qətlə yetirilmişdir.

28 noyabr - SSRİ Ali Soveti "Dağlıq Qarabağ Muxtar Vilayətində vəziyyəti normal hala salmaq tədbirləri haqqında" qərar qəbul etdi. Qərarda göstərilirdi ki, SSRİ Ali Soveti Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin xahişini nəzərə alaraq DQMV üzrə respublika təşkilat komitəsi yaradılsın və 20-ci çağırış DQMV Xalq Deputatları Sovetinin və onun icraiyyə komitəsinin 12 yanvar 1989-cu ildə dayandırılmış səlahiyyətləri bərpa edilsin.

28 noyabr - Ermənilərin açdığı atəş nəticəsində Qubadlı ərazisində 2 nəfər azərbaycanlı öldürüldü.

29 noyabr - Ermənilərin silahlı hücumu nəticəsində Qubadlı rayonunda 3 nəfər qətlə yetirilmişdir.

Noyabr - Ermənistanda qalmış 30 nəfər azərbaycanlı kütləvi şəkildə öldürüldü.

1 dekabr - Ermənistan SSR Ali Soveti Azərbaycanın suverenliyini kobud surətdə pozaraq, DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsi haqqında Konstitusiyaya zidd qərar qəbul etdi. 42 gün ərzində DQMV-nin müəssisələri Ermənistanın müvafiq nazirlik və idarələrinin tabeliyinə verildi. Birbaşa mərkəzin fəaliyyətsizliyi, bəzən isə açıq himayədarlığı sayəsində DQMV iqtisadiyyatının və digər sahələrinin faktiki olaraq Azərbaycandan ayrılması və Ermənistana istiqamətləndirilməsi baş verdi. Bütün rayon partiya komitələri Ermənistan KP-nın tərkibinə daxil oldu. Azərbaycanın bütün dövlət atributları (bayrağı, gerbi, himni və s.) dəyişdirildi və DQMV ərazisində Ermənistamn bayrağı və gerbi asıldı. Bununla da, Ermənistan beynəlxalq hüququn əsas norma və prinsiplərini pozaraq Azərbaycanın ərazi bütövlüyünə qarşı iddialarını rəsmən elan etdi.

Beləliklə, Ermənistan rəhbərliyi və erməni millətçiləri mərkəzin bəzi dairələrinin köməkliyi ilə vilayətdə əsl mənada Dağlıq Qarabağın iqtisadi, ictimai-siyasi və mədəni cəhətdən mənimsənilməsi prosesi aparırdılar.

6 dekabr - Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti Ermənistan SSR Ali Sovetinin qəbul etdiyi 1 dekabr tarixli qərarı Azərbaycan SSR-in suverenliyinə yolverilməz müdaxilə, onun ərazi bütövlüyünə qəsd, regionda

vəziyyətin sabitləşməsinə, normal münasibətlərin bərpasına kömək etməyən tədbir kimi qiymətləndirərək bu barədə qərar qəbul etdi.

1990

4 yanvar - Ermənilərin terrorçu qrupu tərəfindən Əsgəran-Ağdam yolunda körpü partladılmışdır. Həmin qrup 1991-ci il aprelin 18-də Xocavənd rayonunda Amaras kilsəsi yaxınlığında 3 nəfər azərbaycanlı polis əməkdaşını da qətlə yetirmişdir.

5 yanvar - Erməni terrorçuları Şuşa şəhərini su ilə təmin edən boru kəmərini partlatdılar.

6 yanvar - Erməni terrorçuları Ağdam şəhərində yeni istifadəyə verilmiş avtovağzal binasını partlatmış, nəticədə 2 nəfər həlak olmuşdur.

9 yanvar - Ermənilər tərəfindən Xocavənd rayonunun Qaradağlı kəndində 1 nəfər qətlə yetirilmişdir.

9 yanvar - Ermənistan SSR Ali Soveti özünün növbədənkənar iclasında "DQMV-nin 1990-cı il üçün sosial-iqtisadi inkişaf planının Ermənistan SSR-in 1990-cı il üçün sosial-iqtisadi inkişafı haqqında Dövlət planına daxil edilməsi" barədə Azərbaycana qarşı daha bir qeyri-qanuni qərar qəbul etdi.

9 yanvar - Sov. İKP MK katibi A.N.Girenko və SSRİ Millətlər Sovetinin sədri R.P.Nişanov Xankəndinə buraxılmadılar, ermənilər onları müşayiət edən daxili qoşunlara atəş açdılar.

10 yanvar - SSRİ Ali Soveti Rəyasət Heyəti Ermənistan SSR Ali Soveti tərəfindən "Dağlıq Qarabağa dair SSRİ Konstitusiyasına uyğun olmayan 1989-cu il 1 dekabr və 1990-cı il 9 yanvar tarixli aktları" barədə qərar qəbul etdi.

Qərarda göstərilirdi: "Ermənistan SSR-in qəbul etdiyi bu qərarlar Azərbaycan SSR-in suveren hüquqlarının pozulması ilə bərabər, SSRİ Konstitusiyasının 74-cü maddəsinə əsasən heç bir hüquqi qüvvəyə malik deyil". Lakin Ermənistan Moskva tərəfindən qəbul edilən bütün bu qərarların heç birinə əhəmiyyət vermədi və bunlar hamısı kağız üzərində qaldı. Eyni zamanda, Ermənistandan daim hərbi yardım alan ermənilər Azərbaycan ərazisinə hücumlarını davam etdirərək bir sıra qanlı hadisələr

törətdilər.

11 yanvar - Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti Ermənistan SSR Ali Sovetinin sessiyasının 9 yanvar tarixli qərarını respublikanın suverenliyinin kobudcasına pozulması kimi qiymətləndirdi.

12 yanvar - Ermənilər tərəfindən Todan kəndinə silahlı hücum nəticəsində 4 nəfər azərbaycanlı öldürülmüşdür.

15 yanvar - SSRİ Ali Sovetinin Rəyasət Heyətinin sədri M.Qorbaçov "DQMV və bəzi başqa rayonlarda fövqəladə vəziyyət elan edilməsi haqqında" fərman imzaladı. Azərbaycan SSR Ali Sovetinə təklif edildi ki, Bakı və Gəncə şəhərlərində və başqa yaşayış məntəqələrində qadağan saatlarının tətbiq edilməsi də daxil olmaqla, lazımi tədbirlər görülsün.

15 yanvar - Ermənilərin silahlı hücumu nəticəsində Todan kəndində 2 nəfər, Kərkicahanda isə 3 nəfər öldürülmüşdür.

16 yanvar - Ermənilərin silahlı hücumu nəticəsində Xanlar rayonunun Şəfəq kəndində bir nəfər, Laçın rayonunun Hacılar kəndində bir nəfər azərbaycanlı öldürülmüşdür.

18-19 yanvar - Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Kərki kəndi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. 1920-ci illərdə Naxçıvan ərazisinin bir hissəsinin Ermənistana verilməsi nəticəsində Kərki kəndi Ermənistan ərazisində anklav vəziyyətində qalmışdı. Kərki kəndinin işğal olunmasında Ermənistan ərazisindəki dislokasiya olunmuş SSRİ Müdafiə Nazirliyi 7-ci ordusunun hərbçiləri də yaxından iştirak etmişdilər. Kərki kəndi hal-hazırda işğal altındadır.

19 yanvar - Naxçıvan MSSR Ali Soveti Muxtar Respublikanın SSRİ-nin tərkibindən çıxması haqqında qərar qəbul etdi.

19-20 yanvar - Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Naxçıvanın Sədərək rayonunda 10 nəfər azərbaycanlı xüsusi qəddarlıqla öldürüldü. Həlak olanlar arasında 4 və 6 yaşlı körpələr də var idi.

19 yanvar - SSRİ DTK-nın "Alfa" qrupu tərəfindən yanvarın 19-da saat 19:27-də Azərbaycan televiziyasının enerji bloku partladıldı, respublikada televiziya verilişləri dayandırıldı. Məqsəd fövqəladə vəziyyət rejiminin tətbiq edilməsi haqqında fərmanın əhaliyə çatdırılmasının qarşısını

almaq və baş verəcək qırğınların miqyasının daha böyük olmasına rəvac verməkdən ibarət idi. Saat 21:00-dan etibarən SSRİ müdafiə naziri Dmitri Yazovun rəhbərliyi altında qoşun hissələri müxtəlif istiqamətlərdən barrikadaları dağıdaraq, əliyalın əhaliyə ağır texnikadan və müxtəlif tipli silahlardan atəş açaraq, şəhərə daxil oldular.

20 yanvar - SSRİ Ali Sovetinin Rəyasət Heyəti Azərbaycan SSR Ali Sovetinin razılığı olmadan gecə saat 00:00-dan "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman verdi. Bu fərman səhər saat 7-də radio ilə elan olundu. Həmin vaxtadək 100-dən artıq dinc sakin qətlə yetirilmiş, yüzlərlə dinc sakin yaralanmışdı. Fövqəladə vəziyyət elan ediləndən sonra isə 21 nəfər qətlə yetirilmişdi.

Həmin dövrdə Sov. İKP MK-nın Baş Katibi, SSRİ Ali Sovetinin sədri M.S.Qorbaçovun imzaladığı fərmanla SSRİ Müdafiə Nazirliyinin, SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin və SSRİ Daxili İşlər Nazirliyinin qoşun hissələri Bakıya yeridilmiş, dinc əhaliyə amansız divan tutulmuş, günahsız insanlar qətlə yetirilmişdir. Bu qanlı hadisə nəticəsində 131 nəfər öldürülmüşdür ki, onlardan 117-si azərbaycanlı, 6-sı rus, 3-ü yəhudi, 3-ü tatar; 744 nəfər ağır xəsarət almış; 4 nəfər itkin düşmüş; 400 nəfər isə həbs edilmişdir.

25-26 yanvar - Sovet qoşunları fövqəladə vəziyyət elan olunmayan rayonlara - yanvarın 25-də Neftçalaya, bir gün sonra isə Lənkərana yeridilmiş, nəticədə hər iki rayonda ümumilikdə 26 nəfər öldürülmüşdür. Beləliklə, sovet qoşunlarının Bakıya və Azərbaycanın digər rayonlarına hərbi müdaxiləsi nəticəsində öldürülən insanların sayı rəsmi olaraq 147-ə çatmışdı.

31 yanvar - Ermənilərin silahlı hücumu nəticəsində Gədəbəy rayonunda 6 nəfər azərbaycanlı qətlə yetirilmişdir.

Yanvarın sonu - Ermənilər tərəfindən Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Sədərək qəsəbəsində şərab zavodu partladılmış, 5 yaşayış evi dağıdılmış, 6 nəfər qətlə yetirilmiş, 23 nəfər yaralanmışdır.

18 fevral - Yevlax-Laçın yolunun 105-ci kilometrliyində ermənilər tərəfindən Şuşa-Bakı sərnişin avtobusunun partladılması nəticəsində 6 nəfər həlak olmuş, 15 nəfər yaralanmışdır.

4 mart - Ermənilərin silahlı hücumu nəticəsində Qazax rayonunun Bağanıs-Ayrım kəndində 7 nəfər dinc sakin diri-diri yandırılmış, 1 nəfər yaralanmış, 13 yaşayış evi partladılmışdır.

5 mart - Qanlı yanvar hadisəsindən sonra iki respublika arasında olan münaqişəni nizama salmaq məqsədilə SSRİ Ali Sovetinin qərarı qəbul edildi. Qərarda əllərdə toplanmış guya qanunsuz silahların yığılması məsələsi ön plana çəkildi. Bu məqsədlə SSRİ baş prokuroru və SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinə tapşırıldı ki, iki ay müddətində SSRİ Ali Sovetinə müvafiq məlumatlar təqdim etsinlər.

8 mart - Ermənilər tərəfindən 2 nəfər Xocavənd rayonunun Qaradağlı kənd sakini Vərəndəli fermasında qətlə yetirilmişdir.

24 mart - Bakı şəhərindən Bağanis-Ayrım kəndinə gedərkən Qazax rayonunun Çaylı kənd sakinləri olan 3 nəfər mülki şəxs ermənilər tərəfindən qətlə yetirilmişdir.

24 mart - Qazax rayonunun Bağanis-Ayrım kəndi erməni terorçu dəstələrinin silahlı hücumuna məruz qalmış, ermənilər tərəfindən kəndin günahsız mülki əhalisinə qarşı görünməmiş vəhşiliklər edilmişdir. Erməni silahlı qruplarının bu genişmiqyaslı hücumu nəticəsində kənd işğal olunmuşdur. İşğal zamanı Bağanis-Ayrım kəndində 100-dən çox ev talan edilmiş və yandırılmış, nəticədə 10 nəfər həlak olmuş, 15 nəfərdən çox insan yaralanmışdır. Xüsusu strateji əhəmiyyətli Bağanis-Ayrım kəndi İcevan-Noyamberyan avtomobil yolu üzərində yerləşdiyindən ermənilər tərəfindən bu kəndin işğalı xüsusi plan əsasında həyata keçirilmişdir. Bununla da 600 nəfərdən çox əhalisi və Qazax rayonunun Aşağı Əskipara, Quşçu Ayrım, Xeyrimli və Məzəm kəndləri ilə həmsərhəd, eləcə də Dağlıq Qarabağdan xeyli kənarda yerləşən Bağanis-Ayrım kəndi ermənilərin işğalçılıq siyasəti nəticəsində zəbt olunmuşdur.

24 mart - "Noraşen-Bakı" yolunun 364-cü kilometrliyində dəmir yolunun partladılması nəticəsində teplovoz və 3 vaqon, 150 metrdən çox dəmir yolu xətti yararsız hala düşmüşdür.

27 mart - Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Şada kəndində ermənilərin silahlı hücumu zamanı 6 nəfər yaralanmışdır.

28 mart - Ermənilər tərəfindən Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda 1 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

28 mart - Babək rayonunun Kərməçataq kəndində bir neçə yaşayış evi yandırılmış, 1 nəfər qətlə yetirilmişdir.

29 mart - Tovuz rayonunun Əlibəyli kəndinə ermənilərin silahlı hücumu nəticəsində 3 nəfər yaralanmışdır.

29 mart - Ermənilərin silahlı hücumu nəticəsində Babək rayonunun Kərməçataq kəndində 1 nəfər öldürülmüşdür.

Mart - Ermənilər tərəfindən Qazax rayonunda 1 nəfər, Bağanis-Ayrım kəndində isə bir ailənin 5 nəfər üzvü vəhşicəsinə öldürüldü.

9 aprel - Ermənilər tərəfindən Qubadlı rayonunun Çayzəmi kəndində "UAZ-462" markalı 96-92 AQD dövlət nömrə nişanlı avtomobil partladılmış, nəticədə 1 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

Aprel - Ermənilərin təcavüzü nəticəsində Gürcüstanda yaşayan 1 nəfər azərbaycanlı öldürülmüşdür.

19 may - Ermənilərin silahlı hücumu nəticəsində Naxçıvanın Yaycı kəndində 1 nəfər azərbaycanlı vəhşicəsinə qətlə yetirildi.

11 iyun - Ermənilərin silahlı hücumu nəticəsində Xankəndində 1 nəfər azərbaycanlı öldürüldü. Həmin gün Kəlbəcərdə də ermənilər tərəfindən 1 nəfər qətlə yetirildi.

21 iyun - Erməni təcavüzü nəticəsində Laçın rayonunun Köhnəkənd kəndində 2 qardaş xüsusi qəddarlıqla öldürüldü.

26 iyun - Ermənilərin silahlı hücumu nəticəsində Gədəbəy rayonunun Göyəli adlanan ərazisində 3 nəfər qətlə yetirilmişdir.

11 iyul - Tərtərdən Kəlbəcərə hərbçilərin müşayiəti ilə gedən maşın karvanma erməni terrorçularınm silahlı hücumu nəticəsində 14 nəfər həlak olmuş, 35 nəfər yaralanmışdır.

21 iyul - Ağdərə-Kəlbəcər yolunda ermənilər tərəfindən sərnişin avtobusunun atəşə tutulması nəticəsində 3 nəfər həlak olmuş, onlarca azərbaycanlı yaralanmışdır.

25 iyul - Qanunsuz yaradılmış silahlı dəstələrin tərksilah edilməsi haqqmda SSRİ prezidentinin "SSRİ qanunvericiliyi ilə nəzərdə tutulmamış silahlı dəstələr yaradılmasmı qadağan etmək və silah qanunsuz saxlandığı hallarda onu geri almaq haqqında" fərmanı qəbul edildi.

SSRİ prezidentinin bu fərmanı da Ermənistan rəhbərliyi tərəfindən qəbul edilmədi və yeni seçilmiş parlament elan etdi ki, fərman Ermənistan,

həmçinin Dağlıq Qarabağ ərazisində hüquqi qüvvəyə malik deyil. Ermənistan rəhbərliyi SSRİ prezidentinin fərmanına cavab olaraq bildirdi ki, erməni silahlı qüvvələri silahları təhvil verməyəcəklər. Artıq Ermənistan təkcə Azərbaycana deyil, eyni zamanda SSRİ-yə qarşı müharibə vəziyyətində idi. Lakin mərkəzin laqeydliyi və bir çox hallarda bilərəkdən hadisələrə prinsipial yanaşmaması ermənilər bir qədər də ruhlandırdı və daha böyük cinayətlərə sövq etdi.

Bununla yanaşı, ermənilərin sovet ordusunun hərbi hissələrinə hücumu zamanı çox asanlıqla və maneəsiz olaraq silahları ələ keçirmələri onu göstərirdi ki, həmin silahlar onlara satılmışdı. Artıq mütəmadi hal alan hücum və basqınlarla silahların ələ keçirilməsinə mərkəzi hakimiyyət tərəfindən etinasızlıq göstərilir və bilərəkdən göz yumulurdu. Azərbaycanda isə əksinə, yanvar ayından fövqəladə vəziyyət tətbiq olunmuş və əhalidə olan quş tüfəngləri belə yığılmışdı.

İyul - Ermənilər Gürcüstanda yaşayan azərbaycanlılardan 1 nəfəri öldürdülər.

8 avqust - Ermənilər tərəfindən Laçın rayonunun ərazisində "QAZ-53" markalı avtomaşın partladılmış, nəticədə 2 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

10 avqust - Ermənilər tərəfindən "Şamxor-Gəncə" avtomobil yolunda Xanlar rayonunun Nadel kəndi yaxınlığında "LAZ" markalı 43-80 AQF nömrəli avtobus partladılmış, nəticədə 17 nəfər həlak olmuş, 26 nəfər yaralanmışdır.

10 avqust - Tbilisi-Ağdam marşrutu ilə hərəkət edən sərnişin avtobusu partladılmış, 20 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır. Cinayəti törətmiş erməni terrorçuları A. Avanesyan və M. Tatevosov həbs olunaraq cinayət məsuliyyətinə cəlb olunmuşlar.

İstintaq zamanı məlum olmuşdur ki, cinayətkarlar 1991-ci ilin iyulun 17-də Ağdam-Tbilisi marşrutu ilə hərəkət edən sərnişin avtobusunu da partlatmağı planlaşdırmış, lakin özlərindən asılı olmayan səbəblərdən aksiyanı həyata keçirə bilməmişlər.

17-21 avqust - Ermənilər tərəfindən Qazax rayonunda 3 nəfər azərbaycanlı vəhşicəsinə qətlə yetirildi.

Avqust - Ermənilər Gürcüstanda yaşayan azərbaycanlılardan 1 nəfəri öldürdülər.

8 sentyabr - Ermənilərin silahlı təcavüzü nəticəsində Laçın rayonunda 2 nəfər vəhşicəsinə öldürüldü.

13 sentyabr - Ermənilərin silahlı hücumu nəticəsində Ağdam rayonunda 1 nəfər öldürüldü.

15 sentyabr - Ermənilər tərəfindən Xankəndi şəhərində DQMV radio-televiziya mərkəzinin partladılması nəticəsində 2 nəfər yaralanmışdır.

21 oktyabr - Ermənilərin silahlı hücumu nəticəsində Laçın rayonunda 1 nəfər qətlə yetirildi.

3 noyabr - Ermənilərin silahlı hücumu nəticəsində Laçın rayonunun Zabux kəndində 3 nəfər öldürüldü.

24 noyabr - Ermənilərin hücumu nəticəsində Xocavənd rayonunun Qaradağlı kəndində 3 nəfər vəhşicəsinə qətlə yetirildi.

30 noyabr - Ermənilər tərəfindən Xanlar rayonunun Matunaşen kəndində 5 nəfər polis işçisi qətlə yetirildi.

30 noyabr - Xocalı aeroportunun yaxınlığında ermənilər tərəfindən sərnişin avtobusunun partladılması nəticəsində 2 nəfər həlak olmuş, 11 nəfər yaralanmışdır.

30 noyabr - Əsgəran-Xankəndi yolunda Ağa körpüsü adlanan ərazidə Azərbaycan SSR DİN-nin əməkdaşlarını Şuşadan Xocalı aeroportuna aparan avtobus ermənilər tərəfindən partladılmış, nəticədə 2 milis işçisi yaralanmışdır.

14 dekabr - Ermənilərin silahlı hücumu nəticəsində Ağdərə rayonunda 1 nəfər öldürüldü.

15 dekabr - Ermənilər tərəfindən Əsgəran rayonunun Cəmilli kəndində 3 nəfər qəddarlıqla qətlə yetirildi.

17 dekabr - Erməni təcavüzü nəticəsində Şərur rayonunda 2 nəfər öldürülmüşdür.

İlin sonunda - Məşhur terrorçu, Suriya mənşəli ABŞ vətəndaşı, 1957-ci ildə Kaliforniya ştatında anadan olmuş, Qərbi Avropada "ASALA-nın inqilabi hərəkatı" adlı qruplaşmanın rəhbəri, uzun illər axtarışda olan Monte Melkonyan 1985-ci il noyabrın 28-də 6 il müddətinə həbs olunmuş, lakin erməni lobbisi, eləcə də erməni terror təşkilatlarının

təzyiqi nəticəsində Fransa həbsxanasından buraxılaraq, Ermənistana gəlmiş və terror fəaliyyətini davam etdirmək üçün buradan Dağlıq Qarabağa göndərilmişdir.

O, Avropada, xüsusilə Fransada neçə illər ərzində türk diplomatlarına, Türk Kültür Ocaqlarına qarşı həyata keçirilən terror aktlarına birbaşa başçılıq etmişdir. Beynəlxalq terrorçu M.Melkonyan Azərbaycanın Xocavənd rayonunun işğalı zamanı erməni terror dəstəsinin komandiri olmuşdur. O, xüsusilə 1992-ci ildə Xocavənd rayonunun Qaradağlı kəndində, Xocalıda azərbaycanlıların xüsusi qəddarlıqla qətlə yetirilməsinə başçılıq edənlərdən biri olmuşdur.

1993-cü il iyunun 12-də Dağlıq Qarabağda öldürülən "Avo" ləqəbli bu beynəlxalq terrorçunun Yerevanda keçirilən dəfn mərasimində rəsmi şəxslər, o cümlədən Ermənistan prezidenti də iştirak etmişdir. Ermənistanın milli qəhrəmanı elan olunmuş terrorçunun adı Müdafiə Nazirliyinin diversiya mərkəzlərindən birinə verilmiş, eləcə də onun Xankəndi və Yerevanda heykəli qoyulmuşdur.

1991

9 yanvar - Laçın-Şuşa yolunun 5-ci kilometrliyində "Molodyoj Azerbaydjana" qəzetinin müxbiri Salatın Əsgərova və hərbi qulluqçular – podpolkovnik S.Larionov, mayor İ.İvanov və serjant İ.Qoekinin hərəkət etdiyi avtomobilin erməni terror qrupu tərəfindən atəşə tutulması nəticəsində onların 4-ü də (müxbir və hərbi qulluqçular) qətlə yetirilmişdir. Cinayətkarlar – A.Mkrtçyan, Q.Petrosyan, A.Manqasaryan, A.Arustamyan və terrorçu qrupun daha 5 üzvü həbs olunaraq cinayət məsuliyyətinə cəlb olunmuşlar.

9 yanvar - Xankəndi şəhərində ermənilər tərəfindən DQMV Daxili işlər idarəsinin rəisi general-mayor V.Kavalyovun həyatına sui-qəsd edilmişdir.

9 yanvar - Xocavənd rayonunun Qaradağlı kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

12 yanvar - "Yevlax-Laçın" avtomobil yolunun 13-cü kilometrliyində 547 saylı hərbi hissəyə məxsus "UAZ" markalı avtomaşına

ermənilərin silahlı hücumu nəticəsində, SSRİ Daxili İşlər Nazirliyinin polkovniki V.Qriqoryev həlak olmuş, 1 əsgər isə yaralanmışdır.

27 yanvar - Ermənilər tərəfindən Xanlar rayonunun Dozular kəndi yaxınlığında "VAZ-2106" markalı S 25-10 AQ və "QAZ-52" markalı 59-07 AQN dövlət nömrəli avtomaşınlar partladılmış, nəticədə 3 nəfər həlak olmuş, 2 nəfər ağır yaralanmışdır.

20 fevral - Xanlar rayonunun Dozular kəndi yaxınlığında "UAZ-469" markalı 27-29 AQD dövlət nömrəli avtomaşmın ermənilər tərəfindən partladılması nəticəsində 2 nəfər həlak olmuşdur.

24 fevral - Ermənilər tərəfindən Xankəndi yaxınlığında Şuşadan Ağdama gedən "PAZ-32-05" markalı dövlət nömrəli avtobus partladılmış, nəticədə 7 nəfər yaralanmışdır.

24 fevral - Ermənilərin silahlı hücumu nəticəsində Əsgəran rayonunun Cəmilli kəndində 1 nəfər həlak olmuşdur.

25 fevral - Ağdam rayonunun Gülablı kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

Fevral - Moskvada yaradılmış yazıçıların "Aprel" təşkilatı (assosiasiyası) Yerevan və Xankəndində səfərdə olduqdan sonra "Aprel"in üzvlərindən T.Qaydar, A.Nuykin, V.Oskotski, Y.Çerniçenko ermənilərin mövqeyini müdafiə edən çıxışlarla onların təəssübkeşlərinə çevrildilər. "Aprel" təşkilatı yarandığı vaxtdan onun üzvləri öz işində humanizmi əsas tutaraq SSRİ məkanında baş verən hadisələrə münasibətlərini bildirirdilər. Bu dövrdə Moskvadakı erməni dairələri "Aprel"ə ciddi maraq göstərir və bu məşhur təşkilatdan öz təbliğat işlərində geniş istifadə edirdilər.

9 mart - Ermənilərin silahlı hücumu nəticəsində Xocavənd rayonunun Qaradağlı kəndində 2 nəfər qətlə yetirilmişdir.

14 mart - "Ağdam-Şuşa" marşrutu üzrə hərəkət edən səmişin avtobusunun Ağdamla Əsgəran arasında ermənilər tərəfindən avtomat silahlardan atəşə tutulması nəticəsində 3 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

20 mart - Moskvada yazıçıların "Aprel" təşkilatının iclasında "Rusiya ziyalılarının Qarabağ Komitəsi" adlanan qondarma qurum yaradan „Aprel"çilər Dağlıq Qarabağ məsələsinə münasibətdə qeyri-prinsipial mövqe tutaraq hadisələrə birtərəfli mövqedən çıxış edirdilər.

1-2 aprel - Əsgəran rayonunun Daşbulaq kəndindən Xocalı şəhərinə silahlı hücum zamanı ermənilər raketlərdən, qumbaraatanlardan istifadə edərək xeyli evi dağıtmış və yandırmışlar.

Aprelin əvvəllərində - Türkiyə Respublikasının SSRİ-dəki səfiri Volkan Vural Yerevana səfəri zamanı çıxışlarında qeyd etmişdi ki, nə vaxta qədər Azərbaycanın ərazi bütövlüyü və təhlükəsizliyinin təminatı gözlənilmir, Dağlıq Qarabağ məsələsi əsas problem kimi qalır, Türkiyə ilə Ermənistan arasında münasibətlər yaxşılığa doğru irəliləyə bilməz.

7 aprel - Qubadlı rayonunun Yuxarı Cibikli kəndinin ermənilər tərəfindən atəşə tutulması nəticəsində 1 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

8 aprel - Ermənilər tərəfindən SSRİ DİN-nin Daxili Qoşunlarının Zaqafqaziya və Şimali Qafqaz üzrə idarəsinin rəis müavini polkovnik V.Blaxotin qətlə yetirilmişdir.

16 aprel - Ağdamdan Füzuli rayonuna gedən "Moskviç-412" markalı 93-69 AQZ dövlət nömrəli avtomaşın ermənilər tərəfmdən Xocavənd rayonu ərazisində partladılmış, nəticədə 2 nəfər həlak olmuş, 2 nəfər ağır yaralanmışdır.

16 aprel - Goranboy rayonunun Zeyvə kəndinin otlaq sahəsində sovxozda işləyən 2 nəfər fəhlə ermənilər tərəfindən qətlə yetirilmişdir.

18 aprel - Ermənilərin silahlı hücumu nəticəsində Füzuli rayonunun Aşağı Divanalılar kəndində 3 nəfər qətlə yetirilmiş, 2 nəfər ağır yaralanmışdır.

18 aprel - Xocavənd rayonunda 3 azərbaycanlı milis işçisi ermənilər tərəfindən öldürülmüşdür.

20 aprel - Goranboy rayonunun Gürzəlilər kəndində 1 nəfər milis işçisi ermənilər tərəfindən qətlə yetirilmiş, 2 nəfər ağır yaralanmışdır.

20 aprel - SSRİ Daxili İşlər Nazirliyi daxili qoşunlar komandam, general-polkovnik Y.Şatalinin Ermənistan Ali Sovetinin sədri L.Ter-Petrosyana göndərdiyi məktubda göstərilirdi ki, Dağlıq Qarabağ və ona bitişik rayonlarda münaqişənin gedişində ermənilər tərəfindən daxili qoşunların 19 hərbi qulluqçusu öldürülmüş (onlardan 6 nəfəri – 1991-ci ilin yanvar-mart aylarında), yüzlərlə hərbi qulluqçusu isə yaralanmışdır.

25 aprel - Ermənistan Respublikasının Ali Soveti Dağlıq Qarabağda və Azərbaycanla həmsərhəd bölgələrdə yaranmış vəziyyətin müzakirəsi üçün SSRİ Ali Soveti qarşısında SSRİ xalq deputatları qurultayının çağırılması məsələsini qaldırdı.

28 aprel - Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda partlayış nəticəsində 14 nəfər ağır yaralanmışdır.

28 aprel - Ermənilərin ağır artilleriyadan açdığı atəş nəticəsində Şuşa şəhərində 2 beş mərtəbəli bina dağıdılmış, nəticədə 3 nəfər yaralanmışdır.

29 aprel - Ermənilərin silahlı hücumu nəticəsində Qazax rayonunda 3 nəfər ağır yaralanmışdır.

1 may - Hadrut rayonunun Tuğ kənd orta məktəbinə məxsus "UA2-469" markalı maşın ermənilər tərəfindən partladılmış, nəticədə 3 nəfər həlak olmuşdur.

2 may - Füzuli rayonundan Hadrut rayonunun Tuğ kəndinə gedən "UAZ-469" markalı 30-78 AQD dövlət nömrə nişanlı avtomaşın ermənilər tərəfindən partladılmış, nəticədə 1 nəfər ağır yaralanmışdır.

2 may - Ağdam rayonunun Gülablı kəndinə ermənilərin hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

3 may - Ermənilərin silahlı hücumu nəticəsində Hadrut rayonunun Yuxarı Fərəcli kəndinin kənarında yerləşən mühafizə postunda 1 nəfər qətlə yetirilmiş, 2 nəfər ağır yaralanmışdır.

3 may - Ermənilərin açdığı atəş nəticəsində Qazax rayonunda 2 nəfər qətlə yetirilmiş, 2 nəfər ağır yaralanmışdır.

9 may - DQMV təşkilat komitəsinin rəhbəri V.P.Polyaniçkoya ermənilər Xankəndində sui-qəsd təşkil etmiş, lakin bu baş tutmamış, ancaq o, 1991-ci il avqustun 1-də Şimali Osetiyada "naməlum" terrorçu tərəfindən öldürülmüşdür.

15 may - Ermənilərin silahlı hücumu nəticəsində Kəlbəcər rayonunun Yelican kəndi yaxınhğında 1 nəfər qətlə yetirilmişdir.

23 may - Hadrut rayonunun Arpagədik kəndi yaxınlığında SSRİ Daxili İşlər Nazirliyininin Daxili Qoşunlarının 5460 saylı hərbi hissəsinin giziri ermənilər tərəfindən qətlə yetirilmişdir.

26 may - Ermənilərin hücumu nəticəsində Ağdərə rayonunun Umudlu kəndində 1 nəfər qətlə yetirilmişdir.

30 may - Erməni terrorçuları tərəfindən Dağıstanın Xasavyurd stansiyası yaxınlığında "Moskva-Bakı" sərnişin qatarı partladılmış, nəticədə 11 nəfər həlak olmuş, 22 nəfər ağır yaralanmışdır.

May - Laçın rayonunun Ermənistanla həmsərhəd olan Sadıllar kəndində yerləşən mühafizə postunda Laçın rayon daxili işlər şöbəsinin 4 nəfər milis işçisi ermənilər tərəfindən qətlə yetirilmişdir.

May - Ermənilərin silahlı hücumu nəticəsində Hadrut rayonunun Dolanlar kəndində 1 nəfər qətlə yetirilmiş, 1 nəfər ağır yaralanmışdır.

2 iyun - Ermənilərin açdığı atəş nəticəsində Qubadlı rayonunun Yuxarı Çibikli kəndində 1 nəfər hərbi qulluqçu qətlə yetirilmişdir.

9 iyun - Ermənilərin hücumu nəticəsində Tərtər rayonunun Qapanlı kəndində 2 nəfər qətlə yetirilmiş, 2 nəfər ağır yaralanmışdır.

19 iyun - Ermənilər tərəfindən "Yevlax-Laçın" avtomobil yolunun 106-cı kilometrliyində 5459 saylı hərbi hissəyə məxsus "UAZ-469" markalı avtomaşın partladılmış, 3 nəfər həlak olmuş, 3 nəfər ağır yaralanmışdır.

22 iyun - Ağdərə rayonunun Baş Göytəpə kəndi yaxınlığında ermənilərin hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

22 iyun - Ermənilər tərəfindən Ağdərə rayonunun Çərəkdar kəndi yaxınlığında 1 nəfər qətlə yetirilmişdir.

25 iyun - Ağdərə rayonunun Vaqbaş kəndində ermənilər tərəfindən 1 nəfər xüsusi amansızlıqla qətlə yetirilmişdir.

26 iyun - Ermənilərin silahlı hücumu nəticəsində Ağdərə rayonunun İmarət-Qərvənd kəndinin 2 sakini qətlə yetirmişdir.

27-28 iyun - Xocavənd rayonunda ermənilərin "Qarabağ" terror təşkilatının üzvləri Qaradağlı kəndinə hücum edərək Vərəndəli fermasında 6 nəfər kənd sakinini (3 nəfər qadın olmaqla) diri-diri yandırmışlar.

28 iyun - Xocavənd rayonunun Kəndxurd kəndində ermənilər tərəfindən 6 nəfər dinc sakin xüsusi qəddarlıqla qətlə yetirilmiş, 3 nəfər ağır yaralanmışdır.

İyun - Ermənilər tərəfindən Xankəndi-Şuşa avtomobil yolunda SSRİ DİN-nin Daxili Qoşunlarının mayoru Xomiç qətlə yetirilmişdir.

3 iyul - Ermənilərin silahlı hücumu nəticəsində Ağdərə rayonunun Umudlu kəndində 1 nəfər qətlə yetirilmişdir.

6 iyul - Goranboy rayonunun Erkec, Monaşit və Buzluq kəndlərində 3 milis işçisi ermənilər tərəfindən qətlə yetirilmiş, 12 nəfər ağır yaralanmışdır.

7 iyul - Ağdərə rayonunun Sırxavənd kəndi yaxınlığındakı Ulbab adlanan ərazidə 4 nəfər kənd sakini ermənilər tərəfindən qətlə yetirilmişdir.

17 iyul - Ermənilərin silahlı hücumu nəticəsində Kəlbəcər rayonunun Xanımdərəsi və Uzungöl yaşayış məntəqələrində 2 nəfər qətlə yetirilmiş, 1 nəfər ağır yaralanmışdır.

20 iyul - Erməni lobbisinin təsiri və köməyi sayəsində ABŞ Senatı tərəfindən Ermənistana iqtisadi yardım göstərmək barədə qərar qəbul olundu.

20 iyul - Ermənilərin silahlı hücumu nəticəsində Goranboy rayonunun Todan kəndində 2 nəfər qətlə yetirilmiş, 8 nəfər ağır yaralanmışdır.

21 iyul - Laçın rayonunun Ərimәz yaylağında ermənilərin silahlı hücumu nəticəsində 9 nəfər xüsusi amansızlıqla qətlə yetirilmiş, 3 nəfər ağır yaralanmışdır.

23 iyul - Hadrut rayonunun Tuğ kəndi yaxınhğında Tuğ milis bölməsinin 1 nəfər əməkdaşı və 1 nəfər yerli sakin ermənilər tərəfindən qətlə yetirilmişdir.

26 iyul - ABŞ Senatı əksər səslə Azərbaycan ərazisindən ermənilərin guya zorla köçürülməsini pisləyən qətnaməsini qəbul etdi. Qətnamədə heç bir əsaslı fakt olmadan Azərbaycanın DQMV bölgəsində və digər yerlərində yaşayan ermənilərə qarşı sovet ordusunun və Azərbaycanın hərəkətləri pislənilirdi.

30 iyul - Hadrut rayonunun 2 nəfər Zəncur kənd sakinləri ermənilərin silahlı hücumu nəticəsində xüsusi qəddarlıqla qətlə yetirilmişdir.

31 iyul - Ermənilər tərəfindən Ağdərə rayonunun Dronbon kəndi yaxınlığmda avtomobil yolunun partladılması nəticəsində, SSRİ DİN-nin Daxili Qoşunlarının 5 nəfər hərbi qulluqçusu yaralanmışdır.

31 iyul - Dağıstan Respublikasının Temirtau stansiyasının yaxınlığında erməni terror qrupu tərəfindən "Moskva-Bakı" sərnişin qatarının partladılması nəticəsində 16 nəfər həlak olmuş, 20 nəfər ağır yaralanmışdır.

2 avqust - Hadrut rayonunun Dolanlar kəndində ermənilər tərəfindən "QAZ-53" markalı avtomaşınm partladılması nəticəsində 3 nəfər həlak olmuş, 8 nəfər ağır yaralanmışdır.

8 avqust - Bir gün ərzində rus əsgərlərinin köməyi ilə Ermənistanın Nüvədi kəndinin azərbaycanlı əhalisi zorakılıqla Ermənistandan qovuldular.

10 avqust - Naxçıvan Muxtar Respublikası Culfa rayonunun Laketdağ kəndində ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

12 avqust - Ermənilərin açdığı atəş nəticəsində Kəlbəcər rayonunun Sarıyel adlanan otlaq sahəsində 1 nəfər qətlə yetirilmiş, 2 nəfər yaralanmışdır.

18-22 avqust - Erməni hərbi hissələri vertolyotlar və ağır texnikadan istifadə etməklə Qazax rayonuna hücuma keçdilər. Nəticədə, Bağanis-Ayrım kəndi ermənilər tərəfindən dağıdılmış, dinc əhali isə işgəncələr verilərək qətlə yetirilmişdir.

21 avqust - Hadrut rayonunun Şadaxt kəndi yaxınlığında "KaMAZ" markalı 70-30 AQO dövlət nömrə nişanlı avtobusun ermənilər tərəfindən partladılması nəticəsində 2 nəfər həlak olmuş, 10 nəfər ağır yaralanmışdır.

23 avqust - Şuşa-Cəmilli yolunda hərəkət edən avtomaşının ermənilər tərəfindən atəşə tutulması nəticəsində 4 nəfər həlak olmuş, 16 nəfər yaralanmışdır.

29 avqust - Goranboy rayonunun Şəfəq kəndində ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

2 sentyabr - Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində ermənilər qeyri-qanuni olaraq Dağlıq Qarabağ Respublikasının yaradılmasını elan etdilər.

7 sentyabr - Hadrut rayonunun Tuğ kəndində ermənilər tərəfindən 2 nəfər kənd sakini qətlə yetirilmişdir.

7 sentyabr - Ermənilərin açdığı atəş nəticəsində Qazax rayonunun Bağanis-Ayrım kəndində 1 nəfər yerli sakin ağır yaralanmışdır.

8 sentyabr - "Ağdam-Xocavənd" avtobusunun ermənilər tərəfindən atəşə tutulması nəticəsində 5 nəfər qətlə yetirilmiş, 34 nəfər yaralanmışdır.

8 sentyabr - "Ağdam-Qaradağlı" marşrutu ilə işləyən avtobusun ermənilər tərəfindən atəşə tutulması nəticəsində 8 nəfər həlak olmuş, 42 nəfər yaralanmışdır.

8 sentyabr - Ermənilər Qaradağlı kəndində 3 nəfər kənd sakininin üzərinə dizel yanacağı tökərək yandırmış, 2 nəfərin isə başını kəsmişlər.

9 sentyabr - Ermənilərin silahlı hücumu nəticəsində Qazax rayonunun Barxudarlı dəmir yol stansiyasında 1 nəfər ağır yaralanmışdır.

10 sentyabr - Ermənilər tərəfindən Xocalı şəhərində 2 nəfər qətlə yetirilmiş, 5 nəfər ağır yaralanmışdır.

14 sentyabr - Hadrut rayonunun Zəmzur kəndi yaxınlığında "UAZ" markalı avtomaşın ermənilər tərəfindən partladılmış, nəticədə 2 nəfər həlak olmuş, 1 nəfər ağır yaralanmışdır.

14 sentyabr - Ermənilərin silahlı hücumu nəticəsində Ordubad rayonunun Qaranquş adlanan ərazisində 2 mülki şəxs xüsusi qəddarlıqla qətlə yetirilmişdir.

17 sentyabr - Ermənilər tərəfindən Goranboy rayonunun Şəfəq kəndi yaxınlığında "Russkie borisi" kolxozuna məxsus "MAZ" markalı avtomaşının partladılması nəticəsində 1 nəfər həlak olmuşdur.

17 sentyabr - Ermənilərin silahlı hücumu nəticəsində Goranboy rayonunun Şəfəq və Zeyvə kəndlərində 2 nəfər qətlə yetirilmişdir.

18 sentyabr - Ağdərə rayonunun Metşen kəndi yaxınlığında ermənilərin silahlı hücumu nəticəsində "ZİL-131" markalı avtomaşın partladılmış, nəticədə 1 nəfər həlak olmuş və 1 nəfər ağır yaralanmışdır.

19 sentyabr - Ağdərə rayonunun İmarət-Qərvənd kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

20 sentyabr - Goranboy rayonunun Şəfəq, Todan, Erkec, Zeyvə kəndlərində ermənilərin açdığı atəş nəticəsində 2 nəfər qətlə yetirilmişdir.

20-23 sentyabr - Azərbaycan və Ermənistan tərəfinin razılığı ilə Rusiya Federasiyasının Prezidenti B.Yeltsinin və Qazaxıstan Respublikasının Prezidenti N.Nazarbayevin başçılıq etdikləri vasitəçilik missiyası münaqişə regionuna səfər etdi.

23 sentyabr - Ağdərə rayonunun İmarət-Qərvənd kəndində ermənilər tərəfindən 6 nəfər qətlə yetirilmiş, 3 nəfər ağır yaralanmışdır.

24 sentyabr - Vasitəçilik səylərinin gedişində münaqişənin mərhələlərlə aradan qaldırılmasının bəzi məsələləri müzakirə olunaraq Mineralnıye Vodı yaxınlığındakı Jeleznovodsk şəhərində Rusiya, Qazaxıstan, Azərbaycan və Ermənistan rəhbərləri tərəfindən birgə kommunike imzalandı.

İmzalanan sənəddə atəşin dayandırılması, 1992-ci il yanvarın 1-dək DQMV barəsində Azərbaycan və Ermənistanın Konstitusiyaya uyğun gəlməyən bütün aktlarının ləğv edilməsi, qanuni hakimiyyət orqanlarının səlahiyyətlərinin təsdiq edilməsi, ittifaq qoşunlarından başqa bütün silahlı birləşmələrin münaqişə bölgəsindən çıxarılması nəzərdə tutulurdu. Sənədin bir sıra nöqsanlarına, qeyri-müəyyən müddəalarının olmasına baxmayaraq, kommunike qan tökülməsinin qarşısının alınması istiqamətində atılan bir addım idi. Lakin Ermənistan tərəfi götürdüyü öhdəliyə əməl etməyərək Azərbaycana qarşı silahlı təcavüzünü daha da genişləndirdi. Belə ki, Jeleznovodskda sənəd imzalanan zaman DQMV və ona bitişik bölgələrdə erməni silahlı birləşmələrinin hücumunun güclənməsi və genişmiqyaslı döyüşlərin getməsi onu göstərirdi ki, Ermənistan Dağlıq Qarabağdakı silahlı qüvvələrə nəinki nəzarət edə bilmir, əksinə buna rəvac verirdi. Nəticədə, sənəd imzalandığı andan kobud surətdə pozularaq, Ermənistanın təcavüzkarlıq siyasəti ucbatından yerinə yetirilmədi.

24 sentyabr - Ağdam rayonu Abdal-Gülablı kəndi yaxınlığında "UAZ" markalı avtomaşının ermənilər tərəfindən partladılması nəticəsində 1 nəfər həlak olmuş, 1 nəfər ağır yaralanmışdır.

24 sentyabr - Əsgəran rayonunun Ağbulaq kəndi yaxınlığında milis işçilərini aparan maşının ermənilər tərəfmdən atəşə tutulması nəticəsində 1 nəfər həlak olmuş, 1 nəfər ağır yaralanmışdır.

25 sentyabr - Ermənilər tərəfindən Xankəndi şəhəri yaxınlığında "UAZ" markalı avtomaşının partladılması nəticəsində 1 nəfər milis işçisi həlak olmuş, 1 nəfər isə ağır yaralanmışdır.

26 sentyabr - Ermənilər tərəfindən "Yevlax-Laçın" yolunda "VAZ-2106" markalı 72-07 AQD nömrə nişanlı avtomaşının partladılması nəticəsində 2 nəfər həlak olmuş, 14 nəfər yaralanmışdır.

26 sentyabr - Ermənilərin ağır artilleriyadan açdığı atəş nəticəsində Şuşa şəhərində 1 nəfər qətlə yetirilmiş, 6 nəfər ağır yaralanmışdır.

28 sentyabr - Xocavənd rayonunun Muğanlı kəndində ermənilər tərəfindən 1 nəfər qətlə yetirilmişdir.

29 sentyabr - Goranboy rayonunun Şəfəq və Zeyvə kəndlərinə ermənilərin hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

1 oktyabr - Ermənilərin silahlı hücumu nəticəsində Goranboy rayonunun Şəfəq və Zeyvə kəndlərində 1 nəfər qətlə yetirilmişdir.

3 oktyabr - Xocavənd rayonunda ermənilər tərəfindən "UAZ" markalı avtomobilin partladılması nəticəsində 2 milis işçisi həlak olmuş, 2 nəfər ağır yaralanmışdır,

6 oktyabr - Qazax rayonunun Xeyrimli kəndində ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər qətlə yetirilmişdir.

8 oktyabr - Ermənilər tərəfindən Xocalı yaxınlığında 1 nəfər qətlə yetirilmişdir.

9 oktyabr - Ermənilərin silahlı təcavüzü nəticəsində Kərkicahan qəsəbəsində 1 nəfər qətlə yetirilmiş, 1 nəfər ağır yaralanmışdır.

11 oktyabr - Ermənilər tərəfindən Şuşa rayonunun Nəbilər kəndi yaxınlığında Şuşa şəhərini içməli su ilə təchiz edən kəmər partladılmışdır.

Oktyabrın ortaları - Ağdərə rayonunun İmarət-Qərvənd kəndi erməni silahlı dəstələri tərəfindən tamamilə yandırılmış, onlarla dinc sakin həlak olmuşdur.

17 oktyabr - Ağdərə rayonunun Baş Güneypəyə kəndində ermənilərin hücumu nəticəsində 1 nəfər qətlə yetirilmiş, 1 nəfər ağır yaralanmışdır.

18 oktyabr - "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının qəbul olunması ilə Azərbaycan xalqı 1920-ci ildə itirilmiş müstəqilliyini bərpa edərək tarixinin yeni mərhələsinin başlanğıcına qədəm qoydu.

18 oktyabr - Şuşa rayonunun Qaladərəsi kəndində ermənilər tərəfindən 1 nəfər qətlə yetirilmişdir.

18 oktyabr - Xocavənd rayonunun Qaradağlı kəndində ermənilər tərəfindən 1 nəfər qətlə yetirilmişdir.

19 oktyabr - Ağdərə rayonunun Sırxavənd kəndi yaxınlığında ermənilər tərəfindən "UAZ-469" markalı avtomaşın partladılmış, nəticədə 3 nəfər həlak olmuş, 2 nəfər ağır yaralanmışdır.

22 oktyabr - Ağdərə rayonunun Baş Güneypəyə, Sırxavənd və Orta Güneypəyə kəndlərində ermənilər tərəfindən 1 nəfər qətlə yetirilmiş, 1 nəfər yaralanmışdır.

26 oktyabr - Ermənilərin silahlı hücumu nəticəsində Qazax rayonunun Məzən kəndində 1 nəfər qətlə yetirilmişdir.

27 oktyabr - Goranboyun Todan kəndinə ermənilərin hücumu zamanı 1 nəfər milis işçisi həlak olmuşdur.

28 oktyabr - Xocavənd rayonunun Xocavənd kəndində ermənilər tərəfindən 3 nəfər qətlə yetirilmiş, 3 nəfər ağır yaralanmışdır.

29 oktyabr - Xocalıdan Yevlaxa uçan "AN-2" təyyarəsi Əsgəran rayonu ərazisində ermənilər tərəfindən vurulmuş, bütün heyət həlak olmuşdur. Ermənilər təyyarəni və meyitləri yandırmışlar.

29 oktyabr - Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra BMT və dünya dövlətlərinə müraciət etdi. Müraciətdə Azərbaycan dövlət müstəqilliyinin bərpasını elan edərək, demokratiya, azadlıq və bərabərlik yolu ilə getmək əzmini əsas tutaraq, dünya birliyində layiqli yer tutmağı, beynəlxalq təhlükəsizliyin və əməkdaşlığın möhkəmləndirilməsi işinə kömək göstərməyi arzulayaraq, BMT Nizamnaməsinə sadiq qalacağını və ondan irəli gələn öhdəlikləri yerinə yetirməyə hazır olduğunu bildirərək BMT üzvlərindən xahiş etdi ki, təşkilatın üzvlüyünə qəbul olunmaq məsələsi nəzərdən keçirilsin.

30-31 oktyabr - Erməni silahlı birləşmələri Tuğ və Salakətin kəndlərini işğal etdilər. 230-dan artıq evi və ictimai binanı yandıran ermənilər azərbaycanlı əhalini təcavüzə məruz qoyaraq zorakılıqla öz doğma torpaqlarından didərgin saldılar.

1 noyabr - Ermənilər tərəfindən Əsgəran rayonunun mərkəzində "UAZ-469" markalı 30-76 AQD nömrəli avtomaşın partladılmış, 1 nəfər həlak olmuş, 1 nəfər ağır yaralanmışdır.

5 noyabr - Qazax rayonunun Xeyrimli və Aşağı Əskipara kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər qətlə yetirilmiş, 4 nəfər isə ağır yaralanmışdır.

5 noyabr - Şuşa rayonunun Nəbilər kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmiş, 1 nəfər yaralanmışdır.

7 noyabr - Ermənilərin hücumu nəticəsində Hadrut rayonunun Xələfşə kəndində 2 nəfər qətlə yetirilmiş, 3 nəfər ağır yaralanmışdır.

11 noyabr - Qazaxın Xeyrimli kəndinin ermənilər tərəfindən top atəşinə tutulması nəticəsində 2 nəfər həlak olmuş, 1 nəfər kənd sakini isə yaralanmışdır.

12 noyabr - Xocalıdan Ağdama gələn "UAZ" markalı avtomobilin Əsgəran rayonunun Noraguh kəndi yaxınlığında ermənilər tərəfindən atəşə tutulması nəticəsində 1 nəfər həlak olmuşdur.

12 noyabr - Goranboy rayonunun Todan kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmiş, 12 nəfər yaralanmışdır.

14 noyabr - Ermənilərin silahlı hücumu nəticəsində Ağdam rayonunun Əhmədavar kəndində 1 nəfər qətlə yetirilmişdir.

15 noyabr - Hadrut rayonunun Zəmzur və Lah kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 8 nəfər qətlə yetirilmiş, 4 nəfər yaralanmışdır.

16 noyabr - Ermənilərin silahlı hücumu nəticəsində Xocavənd rayonunun Xocavənd kəndində 2 nəfər qətlə yetirilmiş, 2 nəfər ağır yaralanmışdır.

19 noyabr - Xocavənd rayonunun Xocavənd kəndinə erməni hərbi birləşmələrinin hücumu nəticəsində 4 kənd sakini həlak olmuş, 27 nəfər itkin düşmüş, 32 ev yandırılmışdır.

20 noyabr - Agdam rayonunun Əliağalı kəndində ermənilər tərəfindən 1 nəfər qətlə yetirilmişdir.

20 noyabr - Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında erməni terrorçuları tərəfindən Mİ-8 tipli mülki vertolyot vurulmuşdur. Nəticədə Xankəndinə sülhməramlı missiya ilə səfər edən 22 nəfər – Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Dövlət katibi T.İsmayılov, Baş nazirin müavini, millət vəkili Z.Hacıyev, Dövlət müşaviri, millət vəkili, Daxili işlər naziri M.Əsədov, Baş Prokuror İ.Qayıbov, millət vəkilləri V.Cəfərov və V.Məmmədov, Azərbaycan Respublikası Prezident Aparatının şöbə müdiri O.Mirzəyev, Meliorasiya və su təsərrüfat nazirinin birinci müavini Q.Namazəliyev, Dağlıq Qarabağ Muxtar Vilayətinin prokuroru İ.Plavski, MTN-in DQMV üzrə idarəsinin şöbə rəisi S.İvanov, DQMV Daxili işlər idarəsinin rəisi V.Kovalyov, DQMV Fövqəladə vəziyyət rayonunun komendantı N.Jinkin, Azərbaycan Respublikası Dövlət katibinin köməkçisi R.Məmmədov, Azərbaycan Respublikası Dövlət Teleradio Şirkətinin əməkdaşları, A.Mustafayev, A.Hüseynzadə və F.Şahbazov, Rusiya Federasiyasından olan müşahidəçilər general-mayor M.Lukaşov və podpolkovnik V.Koçaryov, Qazaxıstan Respublikasının Daxili İşlər Nazirinin birinci müavini S.Serikov və 3 nəfər ekipaj üzvü həlak olmuşdur.

Bu hadisə Jeleznovodskda Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinə yönəldilən ilk cəhdin sonu oldu və bu da erməni təcavüzünün daha da genişlənməsinə təkan verdi.

22 noyabr - Ermənilərin Əsgəran rayonunun Ağbulaq kəndi tərəfdən Ağdam rayonunun Abdal və Gülablı kəndlərini atəşə tutması nəticəsində 1 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

24 noyabr - Şuşanın Xankəndindən keçən telefon-rabitə xətləri kəsilmiş, şəhər və digər azərbaycanlılar yaşayan kəndlər tamamilə ətraf aləmdən təcrid olunmuşdur. Nəticədə, Xocalı və Şuşa mühasirə vəziyyətinə düşmüşdür.

26 noyabr - Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında Dağlıq Qarabağın muxtariyyət statusu qanuni və haqlı olaraq ləğv edildi. Halbuki, Dağlıq Qarabağda yaşayan erməni əhalisinin Azərbaycan Respublikasının Konstitusiyasına tabe olmaması 1988-ci ildən belə bir addımın atılması üçün labüd idi. Təəssüf ki, hadisələrin başlanğıcında muxtariyyətin ləğv olunmaması, erməni millətçilərinin qarşısının alınmaması vəziyyəti get-gedə kəskinləşdirirdi. Nəticədə, Azərbaycan hökuməti tərəfindən nəzarət olunmayan vilayətdə ermənilər Ermənistandan göndərilən silahlı dəstələr və hərbi texnikanın köməyi ilə

azərbaycanlılara qarşı daha qanlı cinayətlər törətdilər ki, bu da münaqişənin böyüyüb iri miqyaslı müharibəyə çevrilməsinə səbəb oldu.

27 noyabr - SSRİ Dövlət Şurası "DQMV-də, Azərbaycan və Ermənistan respublikalarının sərhədyanı rayonlarında vəziyyəti sabitləşdirmək tədbirləri haqqında" qərar qəbul etdi. Qərarda Azərbaycan və Ermənistan Ali Sovetlərinə təklif olunurdu ki, DQMV-nin hüquqi statusunun dəyişdirilməsinə yönələn bütün qərarları ləğv etsin, münaqişənin siyasi yolla nizama salınmasına şərait yaratmaq üçün dövlət başçıları səviyyəsində birbaşa danışıqları davam etdirsinlər.

Eyni zamanda, sənəddə hər iki respublika prezidentinə tövsiyyə edilirdi ki, atəşin dayandırılmasını, münaqişə bölgəsindən bütün qanunsuz silahlı birləşmələrin çıxarılmasını təmin etsinlər. Qərarın sonunda SSRİ Dövlət Şurası Azərbaycanın Ali Sovetinə müraciət edərək vəziyyətin bütün kəskinliyinə baxmayaraq, Ermənistanın dəmir yolu və qaz blokadasını dərhal aradan qaldırmağa çağırırdı.

Sənəddə Azərbaycanla Ermənistanın eyniləşdirilməsi xətti özünü onda göstərirdi ki, 1988-ci ildən keçən 4 il müddətində Ermənistanın ərazi iddiaları və 1989-cu il 1 dekabr tarixli DQMV-nin Ermənistana birləşdirilməsi haqqında Konstitusiyaya zidd qərarı ilə Dövlət Şurasının qərarından bir neçə gün əvvəl, Azərbaycan parlamentinin DQMV-nin hüquqi statusunu ləğv etməsi haqqındakı qərarı bərabər tutulurdu. Lakin dağılmaqda olan İttifaqın qəbul etdiyi bu sənədi hazırlayanlar yeni yaradılması nəzərdə tutulan Müstəqil Dövlətlər Birliyi haqqında müqavilə layihəsində suveren respublikalara özlərinin milli-dövlət və inzibati-ərazi quruluşunu müstəqil surətdə müəyyənləşdirmək hüququnun üzərindən tamamilə yan keçirdilər. Qərarda münaqişənin SSRİ Konstitusiyasına uyğun surətdə siyasi yolla həll edilməsi ön plana çəkilirdi. Lakin məhz bu Konstitusiya, süqutuna yaxınlaşan bir dövlətin Əsas Qanunu keçən 4 il ərzində mərkəz və Ermənistan tərəfindən dəfələrlə pozulmuşdu.

Sənəddə münaqişənin genişlənməsinin qarşısını almağa çağırış səslənsə də, Ermənistan tərəfindən hiddətlə qarşılanan və rədd edilən SSRİ prezidentinin tərksilah haqqında fərmanı heç yada belə düşmədi. Qərarda münaqişə başlayandan Ermənistan tərəfindən Azərbaycan xalqına qarşı törədilən qanlı hadisələr, terror aktları barədə bir söz deyilmir, ancaq

Ermənistanın nəqliyyat və qaz blokadasının götürülməsi bildirilirdi.

28 noyabr - Qazax rayonunun Aşağı Əskipara kəndində ermənilərin hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

Oktyabr-noyabr - Atəşkəs haqqında əldə edilmiş razılığa baxmayaraq, erməni silahlı qüvvələri Dağlıq Qarabağın Xocavənd və Hadrut rayonlarının azərbaycanlı əhalisinə qarşı kütləvi hücumlara başladı. 30-a yaxın kənd işğal olunaraq dağıdıldı və yandırıldı. Dinc sakinlər təcavüzə məruz qalaraq öz evlərindən didərgin salındı.

1 dekabr - Ermənilər rus əsgərlərinin köməyi ilə Kərkicahan qəsəbəsinə hücum edərək qəsəbə əhalisini qrantomyot, minamyot, raket və BMP ilə atəşə tutmuşlar. Nəticədə, 1 milis işçisi həlak olmuş, 3 nəfər qəsəbə sakini itkin düşmüş, 5 nəfər yaralanmış, 21 ev yandırılmışdır.

2 dekabr - Əsasən rus hərbçilərinin idarə etdiyi zirehli texnika növləri, o cümlədən döyüş maşınları ilə təmin olunmuş Ermənistan ordusu Xankəndi tərəfdən Kərkicahan qəsəbəsinə hücum edərək oranın bir hissəsini işğal etdi. Şuşadan qəsəbəyə əlavə kömək göndərmək qeyri-mümkün idi. Çünki rus hərbçiləri Şuşadan Kərkicahana gedən yolu bağlamışdılar. Eyni zamanda, Şuşa şəhərinin özü də hər gün erməni mövqelərindən intensiv top və raket atəşinə tutulurdu.

7 dekabr - Füzuli rayonunun Yuxarı Divanalılar kəndi erməni ordusu tərəfindən işğal edildi. Hərbi texnika ilə hücuma keçən ermənilər kəndin bütün evlərini yandırmış, 12 nəfər kənd sakinini isə əsir götürmüşlər.

8 dekabr - Dağlıq Qarabağ ermənilər öz müstəqilliklərinə dair qeyri-qanuni referendum keçirdilər. Lakin Azərbaycan əhalisi buna etiraz edərək referendumda iştirak etməmiş və nəticələrini tanımamışdır.

8 dekabr - Azərbaycan Respublikası İslam Konfransı Təşkilatının (İKT) Dakarda keçirilən dövlət və hökumət başçılarının V konfransında 46-cı tamhüquqlu üzv kimi təşkilata qəbul olunmuşdur. İKT Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra beynəlxalq hüququn subyekti kimi qəbul olduğu ilk beynəlxalq təşkilatdır.

Həmin dövrdə Azərbaycanın İKT-yə üzv qəbul olunması həm Ermənistanın təcavüzünə məruz qalmış, eləcə də informasiya təbliğat imkanları zəif olan ölkəmizin öz haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılması, həm də təşkilatın Ermənistan-Azərbaycan münaqişəsinə

münasibət bildirməsi üçün əsas verməklə yanaşı, islam dövlətləri tərəfindən dəstəklənməsi üçün çox zəruri idi.

Buna görə də təşkilata üzv qəbul edildikdən üç ay sonra Azərbaycanın müraciətinə cavab olaraq İKT-nin Baş Katibi Həmid əl-Qabid öz müavini Məhəmməd Möhsinin rəhbərlik etdiyi nümayəndə heyətini ölkəmizdəki ictimai-siyasi vəziyyət və Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll edilməsi üçün mövcud imkanlarla tanış olmaq üçün regiona göndərdi.

10 dekabr - Kərkicahan qəsəbəsinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 14 nəfər yaralanmışdır.

11 dekabr - Şuşa şəhəri və Kərkicahan qəsəbəsinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

12 dekabr - Ağdam rayonunun Çuxurməhlə, Əhmədavar, Xıdırlı, Çinli, Şelli, Qalayçılar kəndlərinin ermənilər tərəfindən atəşə tutulması nəticəsində 1 nəfər həlak olmuş, 5 nəfər ağır yaralanmışdır.

13 dekabr - Xocavənd rayonunun Qaradağlı kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

14 dekabr - Ermənilər tərəfindən Kərkicahan qəsəbəsində 1 nəfər qətlə yetirilmişdir.

15 dekabr - Erməni silahlı birləşmələrinin Əsgəran rayonunun Cəmilli kəndinə hücumu nəticəsində 15 nəfər azərbaycanlı həlak olmuş, onlarla adam yaralanmışdır. Əhali doğma kənddən zorakılıqla qovulmuşdur.

15 dekabr - Ermənilərin silahlı hücumu nəticəsində Xocalı şəhərində 1 nəfər qətlə yetirilmiş, 2 nəfər ağır yaralanmışdır.

16 dekabr - Ermənilər tərəfindən Kərkicahan qəsəbəsinə silahlı hücum nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

19 dekabr - Ermənilər tərəfindən Füzuli rayonunun Qaradağlı kəndinə silahlı hücum nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

20 dekabr - Ağdam rayonunun Sırxavənd kəndində ermənilər tərəfindən 1 nəfər xüsusi amansızlıqla qətlə yetirilmişdir.

20 dekabr - Ermənilərin silahlı hücumu nəticəsində Kərkicahan qəsəbəsində 1 nəfər qətlə yetirilmişdir.

20 dekabr - Ağdərə rayonunun Umudlu kəndinə ermənilər tərəfindən silahlı hücum nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

23 dekabr - Şuşa rayonunun Malıbəyli kəndinə ermənilərin hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

23 dekabr - Cəbrayıl rayonunun Daşbaşı və Banazur kəndinə ermənilərin hücumu nəticəsində 2 nəfər qətlə yetirilmişdir.

23 dekabr - "Qarabağ" terror təşkilatının üzvlərinin böyük silahlı qüvvə ilə Əsgəran rayonunun Meşəli kəndinə hücumu nəticəsində 27 nəfər kənd sakini qəddarlıqla öldürülmüş, 15 nəfər isə yaralanmışdır. Bu hərbi həcavüz zamanı kənd sakinlərindən 3 nəfərin ailəsindən heç kəs salamat çıxa bilmədi. 12 nəfər – qadın, uşaq, qoca ermənilər tərəfindən diri-diri yandırıldı. Meşəli faciəsi zamanı kənddə digər ərazilərdən gələn müdafiəçilərlə birlikdə ümumilikdə 48 nəfər azərbaycanlı həlak oldu, 41 nəfər isə yaralandı.

Qarabağ silsiləsində, Qırxqız dağlarmm ətəklərində yerləşən və münaqişə başlayandan ermənilərin hücümlarna qarşı mərdliklə dayanan Meşəli kəndi erməni hərbi birləşmələri, xüsusilə "Qarabağ" terror təşkilatının silahlı hücumu nəticəsində işğal edilərək yandırılıb dağıdıldı. Bu kənddə ermənilər tərəfindən azərbaycanlı əhaliyə qarşı əsil soyqırım törədildi.

24 dekabr - Füzuli rayonunun Arış, Çuvarlı, Qovğa, Çiman kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər qətlə yetirilmişdir.

25 dekabr - Füzuli rayonunun Qaradağlı, Arış, Xatınbulaq, Çuvarlı kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmiş, 4 nəfər ağır yaralanmışdır.

26 dekabr - Şuşa-Laçın yolunun 4-cü kilometrliyində "ZİL-130" maşınının ermənilər tərəfindən partladılması nəticəsində 1 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

26 dekabr - Erməni terrorçuları "Moskviç" maşınında Bakıdan Şuşaya gələn 5 nəfər Şuşa sakinini Şuşa-Laçın yolunda güllələmişlər.

26 dekabr - Erməni silahlı birləşmələrinin Kərkicahan qəsəbəsinə hücumu nəticəsində "Mayak" radiostansiyasının xüsusi müxbiri L.Lazareviç həlak olmuş, 1 nəfər milis əməkdaşı isə yaralanmışdır. Qəsəbədə 50-yə qədər ev yandırılmışdır.

27 dekabr - Erməni silahlı birləşmələrinin ağır texnika ilə hücumu nəticəsində Kərkicahan qəsəbəsində 1 nəfər qətlə yetirilmiş, 1 nəfər yaralanmışdır.

28 dekabr - Erməni silahlı dəstələrinin böyük qüvvə ilə Xankəndi şəhərinin Kərkicahan qəsəbəsinə hücumu nəticəsində 34 nəfər həlak olmuş, 4 nəfər itkin düşmüş, 150 nəfərdən artıq dinc sakin yaralanmışdır. Nəticədə, strateji əhəmiyyətli Kərkicahan qəsəbəsinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi ilə Xankəndi şəhəri bütünlüklə zəbt olundu.

29 dekabr - Ermənilərin silahlı hücumu nəticəsində Şuşa rayonunun Malıbəyli, Kosalar, Qeybalı kəndlərində 16 nəfər dinc sakin qətlə yetirilmişdir.

29 dekabr - Ağdam rayonunun Sırxavənd kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər xüsusi amansızlıqla qətlə yetirilmişdir.

1991 - Fransada "Erməni azadlıq hərəkatı" adlı terrorçu təşkilat yaradılmışdır. Bu qrup terror fəaliyyətini ASALA ilə sıx əlaqədə həyata keçirirdi.

İyun-dekabr - Qarabağın dağlıq hissəsindəki 30-dan çox yaşayış məntəqəsi, o cümlədən Meşəli, Cəmilli, Tuğ, İmarət-Qərvənd, Sırxavənd, Umudlu, Qaradağlı, Kərkicahan və s. bu kimi digər strateji əhəmiyyətə malik azərbaycanlıların yaşadığı kəndlər erməni terror qrupları tərəfindən yandırıldı, dağıdıldı və talan edildi. Bu dövrdə Ermənistan silahlı qüvvələrinin hücumu nəticəsində yüzlərlə azərbaycanlı öldürüldü, əsir götürüldü və yaralandı.

1988-91-ci illər - Bu dövrdə etnik təmizləmə nəticəsində Ermənistandakı 185 azərbaycanlı kəndindən 250 min nəfərə qədər azərbaycanlı qovuldu. Onlara məxsus 51 min ev, 165 sovxoz və kolxoz əmlakı, çoxlu mal-qara talanmışdır.

Ermənilər tərəfindən 217 azərbaycanlı qətlə yetirilmişdir. Bunlardan 49 nəfəri ermənilərin əlindən qaçarkən dağlarda donmuş, 41 nəfər qəddarlıqla döyülərək qətlə yetirilmiş, 35 nəfər işgəncələrlə qətlə yetirilmiş, 115 nəfər yandırılmış, 16-sı güllələnmiş, 10 nəfər əzab və işgəncələrə dözməyərək infarktdan ölmüş, 2 nəfər xəstəxanada həkimlər tərəfindən öldürülmüş, digərləri isə suda boğularaq, asılaraq, elektrik

cərayanına verilərək, başları kəsilərək qətlə yetirilmişdir. Bu illərdə 1154 nəfər yaralandı, yüzlərlə adama işgəncələr verildi.

Qeyd olunan illər ərzində Dağlıq Qarabağda ermənilər tərəfindən törədilmiş 2559 toqquşma, 315 silahlı basqın, 1388 atəşətutma halları qeydə alınmışdır ki, bunların da nəticəsində 514 nəfər həlak olmuş, 1318 nəfər yaralanmışdır. 119 obyekt və 1134 azərbaycanlı evi ermənilər tərəfindən dağıdılmışdır.

1988-1991-ci illərdə, yəni hadisələrin başlanğıcından SSRİ-nin süqutuna qədər keçən dövr ərzində get-gedə kəskinləşən münaqişəni nizama salmaq mümkün olmadı. Əksinə, İttifaqın müəyyən dairələri tərəfindən himayə edilən ermənilər Azərbaycana qarşı ərazi iddialarını irəli sürərək açıq-aşkar işğalçılıq siyasəti yeritmiş, nəticədə dinc sakinlər həlak olmuş, yaşayış məntəqələri dağıdılmış, talan edilmiş və yandırılmışdır.

Bu dövrdə SSRİ-nin mərkəzi hakimiyyət orqanları regionda vəziyyəti sabitləşdirmək üçün səmərəli tədbirlər hazırlamaq və onları həyata keçirmək iqtidarında olmadılar. SSRİ rəhbərliyi tərəfindən çox kobud və bağışlanılmaz səhvlərə yol verilmiş, tərəflərin qarşıdurması kəskinləşmiş, nəticədə münaqişəyə zorla cəlb olunan Azərbaycan Ermənistan tərəfindən təcavüzə məruz qalmış və bu da İttifaq orqanlarına etimadsızlığı daha da gücləndirmişdi.

1988-ci il hadisələri başlayan gündən Dağlıq Qarabağ məsələsi mərkəzi mətbuatının səhifələrində geniş şərh olunur, informasiya blokadası Azərbaycanın mövqeyini görünməyə qoymur, mərkəzin təbliğat maşını hadisələri birtərəfli işıqlandırmaqda davam edirdi. Münaqişə başlayandan İttifaq orqanlarının birtərəfli mövqeyi (kütləvi informasiya vasitələri və mərkəzi mətbuatın ermənipərəst çıxışları) özünü açıq-aşkar göstərirdi. Ermənilərin mərkəzi mətbuat vasitəsilə Azərbaycana qarşı apardıqları yalan və böhtan kampaniyası münaqişənin gedişində də öz təsirini göstərirdi. Erməni lobbisinin təsiri altında olan mərkəzi mətbuatdakı yazıların bir çoxunda belə bir fikir vardı ki, Dağlıq Qarabağ barədə ərazi iddialarının həllində ermənilərin marağı nəzərə alınmalıdır. Bu işdə ermənilərin siyasi mənafelərini təmsil edən bir sıra rəsmi və qeyri-rəsmi şəxslər xüsusilə canfəşanlıq göstərirdilər.

Mərkəzin himayədarlığı ilə Azərbaycana qarşı ərazi iddialarını və təcavüzünü davam etdirən ermənilər SSRİ-nin süqutu ərəfəsində məsələni beynəlxalq səviyyəyə çıxarmağa səy göstərirdilər. Erməni siyasətçiləri və kilsə xadimləri dünyanın müxtəlif ölkələrinə səfərlər edərək öz iddialarını həyata keçirmək üçün problemi Avropa Şurası və Avropa Parlamenti səviyyəsinə qaldırmağa çalışır, bu işdə müxtəlif bəhanələr altında geniş kampaniya aparırdılar. SSRİ-nin mövcud olduğu dövrdə öz məqsədlərinə müəyyən qədər nail olan ermənilər insan hüquqlarının müdafiəsi pərdəsi altında Dağlıq Qarabağa BMT qoşunları yeritmək və bütün bunlara beynəlxalq xarakter verməyə cəhd göstərirdilər.

Beləliklə, SSRİ süqut etdikdən sonra ermənilər tərəfindən Qarabağ münaqişəsinin beynəlxalq əhəmiyyətli problemə çevirməsi üçün geniş miqyaslı kampaniyanın yeni mərhələsi başlandı.

1992

1 yanvar - Çexoslovakiya (Xarici işlər naziri İrji Dinstbir, daha sonra isə Y.Moravçik) Almaniyanı ATƏM-in fəaliyyətdə olan sədri qismində əvəz etmişdir.

1 yanvar - Ermənilərin Ağdamın Çuxurməhlə kəndinə silahlı hücumu nəticəsində 4 nəfər həlak olmuş, 28 nəfər yaralanmışdır.

5 yanvar - Kərkicahan qəsəbəsində ermənilər tərəfindən 2 nəfər qətlə yetirilmişdir.

5 yanvar - Ermənilərin silahlı hücumu nəticəsində Hadrut rayonunun Axullu kəndində 1 nəfər qətlə yetirilmişdir.

6 yanvar - Erməni silahlı dəstələri İmarət-Qərvənd kəndinin Murovdağ yaylağmda Humaylar adlanan çoban alaçığına hücum edərək 2 nəfər azərbaycanlım yaralamışlar.

6 yanvar - Goranboy rayonunun Böyük və Kiçik Çanabazar adlanan ərazisində ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmiş, 7 nəfər ağır yaralanmışdır.

7 yanvar - Ermənilərin silahlı hücumu nəticəsində Füzuli rayonunun Yuxarı Veysəlli kəndində 1 nəfər qətlə yetirilmiş, 3 nəfər yaralanmışdır.

8 yanvar - Xocavənd rayonunun Qaradağlı kəndində ermənilərin silahlı hücumu nəticəsində 8 nəfər yaralanmışdır.

8 yanvar - Ermənilər tərəfindən "Krasnovodsk-Bakı" sərnişin bərəsinin partladılması nəticəsində 25 nəfər həlak olmuş, 88 nəfər ağır yaralanmışdır.

9 yanvar - Ermənilərin silahlı hücumu nəticəsində Füzuli rayonunun Qaradağlı, Cuvarlı, Arış və Hadrut rayonunun Axurlu kəndində 2 nəfər milis işçisi və 3 nəfər yerli sakin qətlə yetirilmiş, 5 nəfər yaralanmışdır.

10 yanvar - Ermənilərin açdığı atəş nəticəsində Kəlbəcər rayonunun Ağdaban kəndində 1 nəfər qətlə yetirilmişdir.

13 yanvar - Füzuli rayonunun Yuxarı Veysəlli, Arış, Ağbulaq kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

13 yanvar - Ermənilərin Kərkicahan qəsəbəsinə silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

13 yanvar - Xocavənd rayonunun Əmiralılar kəndinə ermənilərin silahlı hücumu nəticəsində 4 nəfər qətlə yetirilmişdir.

15 yanvar - Ermənilər tərəfindən Naxçıvanın Culfa rayonunun Əylis kəndi yaxınlığında yerləşən hərbi postun atəşə tutulması nəticəsində 2 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

17 yanvar - Şuşa rayonunun Kosalar və Malıbəyli kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

18 yanvar - Erməni silahlı dəstələri Şuşa rayonunun Nəbilər kəndinə hücum edərək oranı ələ keçirmiş və kəndi yandırmışlar.

20 yanvar - Ağdam rayonunun Qərvənd kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

21 yanvar - Ermənilərin Ağdam rayonunun Xıdırlı kəndinə silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

22 yanvar - Ağdam rayonunun Çinli kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

25 yanvar - Şuşa rayonunun Xəlfəli və Malıbəyli kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 4 nəfər qətlə yetirilmişdir.

25 yanvar - Ağdam rayonunun ermənilər tərəfindən müxtəlif silahlardan atəşə tutulması nəticəsində 1 nəfər həlak olmuş, 6 nəfər yaralanmışdır.

25 yanvar - Xocavənd rayonunun Əmrallılar kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmiş, 2 nəfər yaralanmışdır.

26 yanvar - Goranboy rayonunun Şəfəq kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

28 yanvar - Ağdamdan Şuşaya uçan 27137 saylı, Mİ-8 vertolyot şəhərə çatmamış, yəni, Xəlfəli kəndinin üzərində Xankəndi istiqamətindən ermənilərin raket atəşi ilə partladılmış, nəticədə vertolyotda olan 3 nəfər heyət üzvü və 41 sərnişin faciəli şəkildə həlak olmuşlar.

29 yanvar - Ağdam rayonunun Şelli və Əhmədavar kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuşdur.

30-31 yanvar - Praqada Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Müşavirənin (ATƏM) Nazirlər Şurasının ikinci görüşündə Azərbaycan Respublikası ATƏM-ə üzv qəbul edildi, o cümlədən Dağlıq Qarabağ bölgəsinə ATƏM-in məruzəçi missiyasının göndərilməsi haqqında qərar qəbul olundu.

Fevralın əvvəli - Ermənistan ordusu bir-birinin ardınca Yuxarı Qarabağda azərbaycanlılar yaşayan sonuncu yaşayış məntəqələrini də işğal etmək məqsədilə genişmiqyaslı hücuma başladılar.

1 fevral - Ermənilərin Goranboy rayonunun Tapqaraqoyunlu kəndinə silahlı hücumu nəticəsində 3 nəfər qətlə yetirilmişdir.

1 fevral - Xocalı rayonunun Fərrux kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

5 fevral - Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) üzvü olmayan Avropa ölkələri ilə əlaqələr Komitəsi Dağlıq Qarabağa dair ilk bəyanat qəbul etdi. Bəyanatda deyilirdi ki, Komitə Dağhq Qarabağda vəziyyətin pisləşməsi ilə əlaqədar atəşin dayandırılması məqsədilə Ermənistan və Azərbaycan tərəfinə müraciət edərək hər iki maraqlı tərəfi münaqişənin sülh yolu ilə həll edilməsinə çağırır. Sənəddə Azərbaycanın mənafeyinə zidd olaraq BMT Təhlükəsizlik Şurasından Ermənistanın tələbi ilə Dağlıq Qarabağa BMT qüvvələrinin gətirilməsi xahiş olunurdu.

5 fevral - Xocavənd rayonunun Günəşli kəndi ermənilər tərəfindən işğal edildi.

7 fevral - Ağdam rayonunun Sırxavənd kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər qətlə yetirilmişdir.

11-12 fevral - Şuşanın Malıbəyli və Quşçular kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən zəbt olundu. Hücum zamanı 30-dan çox azərbaycanlı öldürülmüş, 140-dan çoxu yaralanmış və əsir götürülmüşdür. Bu qanlı hadisələr keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının iştirakı ilə həyata keçirilmişdir.

12-18 fevral - ATƏM-in xüsusi missiyası ilk dəfə Azərbaycanda oldu.

14 fevral - Azərbaycanın müraciətini müzakirə edən BMT Təhlükəsizlik Şurası ölkəmizin bu təşkilata üzv qəbul olunmasını tövsiyə etdi.

13-17 fevral - Erməni silahlı dəstələrinin Xocavənd rayonunun Qaradağlı kəndinə silahlı hücumu zamanı 118 nəfər (uşaq, qadın, qoca) əsir götürülmüş, 33 nəfər ermənilər tərəfindən güllələnmiş, eyni zamanda öldürülən və yaralı halda olanları bir yerdə təsərrüfat quyusuna tökərək basdırmışlar. Əsir götürülənlərdən 68 nəfəri amansızlıqla öldürülmüş, 50 nəfəri isə böyük çətinliklə əsirlikdən azad edilmişdir. Azad olunanların 18 nəfəri aldıqları sağalmaz yaralardan sonra vəfat etmişlər. Əsrlikdə saxlanılanlara qarşı vəhşi, vandalizm hərəkətləri ilə davranılması, insanların başlarının kəsilməsi, diri-diri basdırılması, dişlərinin zorla çıxardılması, ac-susuz saxlanılması, işgəncə verilərək öldürülməsi insanlığa qarşı törədilmiş ən ağır cinayət hadisəsi idi. Qaradağlı kəndində 2 ailənin hər birindən 4 nəfər öldürülmüş, 42 ailə öz başçısını itirmiş, 140-a yaxın uşaq yetim qalmışdır. Ümumilikdə, əhalisi ermənilər tərəfindən əsl soyqırıma məruz qalmış bu kənddə 91 nəfər, yəni kənd sakinlərinin hər 10 nəfərindən biri qətlə yetirilmişdir.

22 fevral - Ermənilərin Füzuli rayonunun Yuxarı Veysəlli kəndinə silahlı hücumu nəticəsində 3 nəfər qətlə yetirilmiş, 3 nəfər itkin düşmüş, 12 nəfər ağır yaralanmışdır.

22 fevral - Qubadlı rayonunun Məlikməhəmmədli kəndinə ermənilərin silahlı hücumu nəticəsində 3 nəfər qətlə yetirilmişdir.

23 fevral - Ermənilər tərəfindən Şuşa rayonunun mərkəzi raket və top atəşinə tutulmuş, nəticədə 1 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

24 fevral - İran İslam Respublikasının Xarici işlər naziri Əli Əkbər Vilayətinin münaqişə regionuna səfəri olmuşdur.

26 fevral - Ermənilər tərəfindən Tərtər rayonunun mərkəzinin raket və top atəşinə tutulması nəticəsində 4 nəfər həlak olmuş, 9 nəfər yaralanmışdır.

25-26 fevral - Ermənistan silahlı qüvvələri Xankəndində yerləşən keçmiş SSRİ-nin 4-cü ordusunun 23-cü diviziyasına daxil olan 366-cı motoatıcı alayın 10 tankı, 16 zirehli transpartyoru, 9 piyadaların döyüş maşını, 180 nəfər hərbi mütəxəssisi və xeyli canlı qüvvəsi ilə Xocalını mühasirəyə aldı. Ermənilər ən müasir silahlarla Xocalı şəhərinə hücum edərək şəhəri yerlə-yeksan etdilər. Çoxsaylı ağır texnika ilə şəhər tamamilə dağıdılmış, yandırılmış və insanlar xüsusi qəddarlıqla qətlə yetirilmişdilər. Onların içərisində başları kəsilən, gözləri çıxarılan, dərisi soyulan, diri-diri yandırılan və digər şəklə salmanlar çoxluq təşkil edirdi.

Bu soyqırım nəticəsində, rəsmi rəqəmlərə görə, 613 nəfər öldürülmüşdür ki, onlardan 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri isə qocalar idi. Bunların içərisində

- 8 ailə tamamilə məhv edilmişdir;
- 56 insan işgəncə ilə öldürülmüşdür;
- 27 ailənin yalnız 1 üzvü qalmışdır;
- 25 uşaq hər iki valideynini itirmişdir;
- 130 uşaq valideynlərindən birini itirmişdir;
- 230 ailə öz başçısını itirmişdir;
- 487 insan şikəst olmuşdur (onlardan 76 nəfər həddi-buluğa çatmamışlardır);
- 1275 insan əsir götürülmüşdür;
- 1165 insan girovluqdan azad edilmişdir;
- 150 nəfər itkin düşmüşdür.

Qüvvələr nisbəti qeyri-bərabər olan döyüşlərdən sonra Xocalıda olan özünümüdafiə qüvvələri son nəfərinə qədər vuruşaraq düşmənə çox ciddi müqavimət göstərdilər. Bunun özü də o dövrdə şəhəri müdafiə edən insanların göstərdiyi ən böyük qəhrəmanlıq nümunəsi idi. Xocalıya hücum

zamanı mühasirədə qalmış şəhərin 3000 nəfərədək silahsız mülki əhalisi düşməndən xilas olmaq üçün şəhəri tərk etdi. Çox təəssüf ki, o dövrdə Xocalıya heç bir kömək olmadığından həmin əhalinin demək olar ki, böyük bir hissəsi erməni vəhşiliyindən xilas ola bilmədi.

İstintaq materiallarından məlum olur ki, hücuma rəhbərlik edən və hazırda Ermənistanın müdafiə naziri olan Seyran Ohanyanın, eləcə də 366-cı alayın 3-cü batalyonunun komandiri Yevqeniy Nabokixinin komandasında əlavə olaraq 50-dən çox erməni zabiti və gizirləri iştirak etmişlər.

Rus zabiti mayor Yuriy Girçenko gündəliyində yazır: "Xocalıya hücum planı çox məxfi hazırlanmışdı. Əvvəlcə şəhər mühasirəyə alındı. Burada xeyli silahlı OMON-çular da var idi. Odur ki, Ağdam istiqamətində bir koridor açıldı və səsucaldanla silahsız çıxmaq şərti ilə OMON-çulara getmək icazəsi verildi. Koridorla OMON-çularla bərabər əhali də çıxmağa başladı. Onlar koridorun sonuna çatdıqda əsl qırğın başladı. OMON-çular qırıldıqdan sonra uşaq, qadın, qoca olmasından asılı olmayaraq, bütün tutulanların diri-diri gözləri çıxarılır, qulaqları kəsilir, dərisi soyulurdu. Qaçanları isə, Gülablı kəndinə qədər təqib edib qırdılar. Koridorda 200-dən çox, şəhərdə isə 300-dən çox azərbaycanlı əsir götürüldü".

Ermənilərin Xocalıda törətdikləri vəhşilikləri faktlarla sübut edən Rusiyanın "Memorial" Hüquq-Müdafiə Mərkəzinin məlumatında hətta, diri adamın başının dərisinin soyulması faktı da qeydə alınmışdır.

Həmin silahlı birləşmələr Xocalı sakinlərinə qarşı soyqırım törədərkən 111 nəfəri Xocalıda, mühasirədən çıxıb qaçmağa müvəffəq olmuş Xocalı sakinlərini təqib edərək 16 nəfəri Kətik meşəsində, 130 nəfəri Naxçıvanik yolunda, 23 nəfəri Qaraqaya ətrafında, 23 nəfəri Dəhraz kəndi yaxınlığında, 8 nəfəri Şelli istiqamətində, 6 nəfəri Əsgəran asfalt yolunun 86-cı kilometrində və s. yerlərdə, əsir götürülənlərdən 18 nəfərini isə Əsgəran Rayon Daxili İşlər Şöbəsində işgəncə verərək xüsusi amansızlıqla qətlə yetirmişlər. Meyitlərin xarici müayinəsi, məhkəmə-tibb ekspertizalarının rəyləri, mühasirədən çıxmağa müvəffəq olmuş Xocalı sakinlərinin ifadələri ilə ermənilərin və 366-cı alayın hərbi qulluqçularının azərbaycanlılara qarşı törətdikləri ağlasığmaz işgəncə, vəhşilik faktları müəyyən edilmişdir.

İstintaqla müəyyən edilmişdir ki, Ermənistan silahlı qüvvələri və keçmiş SSRİ-nin Xankəndində dislokasiya olunmuş 366-cı alayının hərbçiləri ilə birlikdə törətdikləri bu əməldə Birləşmiş Millətlər Təşkilatının Baş Məclisinin "Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" 1948-ci il 9 dekabr tarixli konvensiyasında və Azərbaycan Respublikası CM-in 103-cü maddəsində nəzərdə tutulmuş soyqırım cinayətinin tərkibi vardır.

Həmçinin cinayət işi öyrənilərkən müəyyən edilmişdir ki, Xocalı soyqırımım həyata keçirən Ermənistanın hərbi birləşmələri, Dağlıq Qarabağdakı silahlı birləşmələr və keçmiş sovet ordusunun Xankəndində yerləşən 366-cı alayının hərbçiləri tərəfindən dünya dövlətlərinin qəbul etdiyi beynəlxalq hüquq normalarına da riayət edilməmiş, 1949-cu il 12 avqust tarixli "Döyüşən silahlı qüvvələrdə yaralıların və xəstələrin vəziyyətinin yaxşılaşdırılması haqqında", "Hərbi əsirlərlə rəftar haqqında" və "Müharibə zamanı mülki əhalinin qorunması haqqında" Cenevrə Konvensiyalarının müvafiq maddələrində nəzərdə tutulan – döyüş əməliyyatlarında bilavasitə iştirak etməyən şəxslərə qarşı onların həyatına və şəxsiyyətinə qəsd etmək, o cümlədən hər hansı şəraitdə öldürmək, şikəst etmək, qəddarcasına rəftar etmək və işgəncə vermək, girov götürmək, insan ləyaqətinə toxunmaq, o cümlədən təhqiramiz və alçaldıcı tərzdə rəftar edilməsi kimi hərəkətlərin qadağan olunması barədə tələblər kobud surətdə pozulmuşdur.

Hazırda aşağıda göstərilən 38 nəfərin – 366-cı alayın hərbi qulluqçuları və digər şəxslərin Xocalı soyqırımında iştirakı tam sübuta yetirilmiş və onların Azərbaycan Respublikası CM-in soyqırıma görə məsuliyyət nəzərdə tutan 103-cü maddəsi, habelə sülh və insanlıq əleyhinə, müharibə cinayətlərinə görə məsuliyyət nəzərdə tutan CM-in 107-ci (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 113-cü (işgəncə), 115.4-cü (müharibə qanunlarını və adətlərini pozma) maddələri ilə nəzərdə tutulan cinayəti etməkdə təqsirləndirilən şəxs kimi cəlb olunmaları barədə qərarlar çıxarılmış, barələrində məhkəmələr tərəfindən həbs qəti imkan tədbiri seçilmiş və beynəlxalq axtarışlarmm həyata keçirilməsi üçün müvafiq sənədlər İnterpolun Azərbaycan Respublikası Milli Bürosuna göndərilmişdir:

1. Zarviqorov Yuri Yuriyeviç – 366-cı alayın komandiri
2. Çitçyan Valeri İsaakoviç – 366-cı alayın 1-ci batalyonunun qərargah rəisi
3. Ayriyan Vaçaqan Qriqoryeviç – 366-cı alayın kəşfiyyat rəisi
4. Akopyan Movses Qrantoviç – 366-cı alayın 1-ci batalyonunun 2-ci rotasınm komandiri
5. Abramyan Poqos Qarnuşeviç – Xankəndində 11-ci alayın komandiri
6. Kisebekyan Qriqoriy Akopoviç – 366-cı alayın rabitə rotasının komandiri
7. Arutyunyan Slavik Vadimoviç – 366-cı alayın 5-ci rotasının komandiri
8. İşxanyan Andrey Artyuşeviç – 366-cı alayın 1-ci rota təchizat vzvodunun komandiri
9. Beqlaryan Sergey Yurikoviç – 366-cı alayın 2-ci batalyonu, vzvod komandiri
10. Arutyunyan Kamo Rafaeloviç – 366-cı alayın təmir rotasının vzvod komandiri
11. Danielyan Armen Borikoviç – 366-cı alayın təmir rotasının vzvod komandiri
12. Qarmaş Viktor Anatolyeviç – 366-cı alayın zabiti
13. Smaqin Aleksandr Vladimiroviç – 366-cı alayın zabiti
14. Balyazin Oleq Viktoroviç – 366-cı alayın zabiti
15. Beqlaryan Armen Volodiyeviç – 366-cı alayın 1-ci rotasının baş texniki
16. Ayrapetyan Aleksandr Aleksandroviç – 366-cı alayın giziri
17. Mirzoyan Vaçik Qrantoviç – 366-cı alayın 2-ci rotasının starşinası
18. Ayrapetyan Vaçik Qurqenoviç – 366-cı alayın 3-cü rotasının starşinası
19. Abramyan Armo Aramoviç – Xankəndi şəhər DİŞ-nin rəisi
20. Qukasyan Mavrik Araratoviç – Əsgəran RDİŞ-nin rəisi
21. Aqacanyan Karlen Levonoviç – Əsgəran RDİŞ-nin sabiq rəisi

22. Barseqyan Şaqen Semyonoviç – Əsgəran rayon DİŞ-nin rəis müavini

23. Petrosyan Karo Vaniyeviç – Əsgəran RDİŞ yanğın təhlükəsizliyi bölməsinin rəisi

24. Koçaryan Serjik Sumbatoviç – Xankəndi şəhər həbsxanasının rəisi

25. Ayriyan Samvel Samurkayeviç – Əsgəran RDİŞ-də müfəttiş

26. Qriqoryan Edik Emirvaroviç – Əsgəran RDİŞ-nin əməkdaşı

27. Qriqoryan Ararat Rantikoviç – Əsgəran RDİŞ-nin əməkdaşı

28. Akopyan Oleq Nikolayeviç – Həsənabad kənd sovxozunun üzvü

29. Tumasyan Seyran Aprakoviç – Xasq kəndində sürücü

30. Babayan Georgi Ginikoroviç – Həsənabad kənd sovxozunda sürücü

31. Qriqoryan Valerik Sergeyeviç – Həsənabad kənd sovxozunun üzvü

32. Balasanyan Vitaliy Mixayloviç – DQMV erməni xalq cəbhəsinin sədri

33. Mirzoyan Maksim Mixayloviç – Stepanakert şəhəri 2718 saylı avtobazanın rəisi

34. Babayan Bahadur Giniqoroviç – Əvvəllər Xocalıda yaşamışdır

35. Manqasaryan Artik Qurgenoviç – Əsgəran rayonu, Daşbulaq kənd sakini

36. Kaqramanyan Hamlet Asriyeviç – Əsgəran rayonu, Daşbulaq kənd sakini

37. Qriqoryan Canpolad Xanlaroviç – Əvvəllər Xocalıda yaşamışdır

38. İşxanyan Yura Georgiyeviç – Əsgəran rayonunda yeməkxana müdiri işləmişdir

İstintaq zamanı Xocalı soyqırımı ilə bağlı 2213 nəfər şahid və zərərçəkmiş şəxs qismində dindirilmiş, 800-dən artıq ekspertizalar keçirilmişdir.

366-cı alayın həlak olmuş və yaralanmış hərbi qulluqçularının siyahısının təqdim edilməsi, hərbi texnikasının ermənilər tərəfindən ələ

keçirilməsi və ya onlara verilməsi, habelə azərbaycanlıların yaşayış məntəqələrinin 366-cı alaya məxsus hərbi texnika ilə atəşə tutulması ilə əlaqədar məlumatların alınması və digər xüsusatlarla bağlı Rusiya Federasiyası, Özbəkistan və Qazaxıstan Respublikaları Baş prokurorluqlarına hüquqi yardım göstərilməsi barədə təqdimatlar göndərilmişdir.

Xocalı soyqırımının törədilməsində iştirak etmiş 366-cı alayın 2-ci batalyonunun komandiri olmuş mayor Ohanyan Seyran Muşeqoviçin, 366-cı alayın 3-cü batalyonunun komandiri olmuş Nabokix Yevgeni Aleksandroviçin və qeyrilərinin iştiraklarını sübuta yetirən materialların toplanması və Azərbaycan Respublikası CM-in müvafiq maddələri ilə nəzərdə tutulan cinayətləri törətməkdə təqsirləndirilən şəxslər kimi cəlb olunmaları, eləcə də əsir və girovlarla amansız rəftar edərək onlara işgəncələr verməklə qəddarlıqla qətlə yetirmiş, habelə Meşəlidə, Qaradağlıda, Bağanis-Ayrımda və digər yaşayış məntəqələrində soyqırım, həmçinin Azərbaycan millətindən olan yerli əhalinin qanuni yaşadığı yerlərdən məcburi surətdə didərgin salınaraq deportasiya etməklə, xüsusilə ağır cinayətləri törətmiş şəxslərin müəyyən edilməsi istiqamətində istintaq-əməliyyat tədbirləri davam etdirilir.

27-28 fevral - ATƏM-in Yüksək Vəzifəli Şəxslər Komitəsinin (YVŞK) Praqada keçirilən 7-ci iclasında münaqişə bölgəsində olan missiyanın məruzəsi dinlənildi. Dağlıq Qarabağın Azərbaycan Respublikasına mənsub olmasını təsdiq edən sənəddə sərhədlərin dəyişdirilməməsi şərti ilə, münaqişənin sülh yolu ilə həllinə çağırış öz əksini tapdı.

Fevralın sonu - Keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının Xankəndindən Rusiyaya köçürülməsi zamanı 25 tank, 87 zirehli döyüş maşını, 28 piyada döyüş maşını, 45 artilleriya top sistemi ermənilərə qanunsuz verilmişdir.

2 mart - Xocalı soyqırımında izləri itirmək üçün 366-cı motoatıcı alay Gürcüstanın Vaziani şəhərinə köçürülmüşdür.

2 mart - BMT Baş Məclisinin 46-cı sessiyasında Azərbaycan Respulikasının BMT üzvlüyünə qəbul olması barədə qətnamə qəbul edildi.

5 mart - Dağlıq Qarabağdakı vəziyyətlə bağlı Rusiya Prezidenti bəyanat vermişdir.

6 mart - Nyu-Yorkda Azərbaycanın BMT yanında daimi nümayəndəliyi fəaliyyətə başladı. Bu dövrdə Azərbaycanın BMT ilə siyasi sahədə əməkdaşlığının əsas məqsədi Ermənistanın ölkəmizə qarşı təcavüzünün genişləndiyi bir vaxtda beynəlxalq birliyin diqqətini münaqişə bölgəsində baş verən hadisələrə cəlb etmək və dünya ictimaiyyətində obyektiv rəy formalaşdırmaq idi.

8 mart - Ağdam rayonunun Şelli kəndi ermənilərin silahlı hücumuna məruz qalmış, nəticədə 2 nəfər həlak olmuş, 6 nəfər ağır yaralanmışdır.

10 mart - Marşal Şapoşnikovun əmri ilə 366-cı alay ləğv edilərək tərkibi başqa alaylara paylanmışdır.

12 mart - Avropa Şurası Nazirlər Komitəsi Dağlıq Qarabağa dair bəyanat qəbul etmişdir. Bəyanatda deyilirdi ki, Komitə Dağlıq Qarabağ hadisələri ilə əlaqədar dərin təşviş hissi keçirdiyini bildirir və Azərbaycanın Dağlıq Qarabağ vilayətinin dinc əhalisi barədə zorakılığı pisləyir. Sənəddə göstərilirdi ki, Beynəlxalq birlik Dağlıq Qarabağda münaqişənin zor gücünə aradan qaldırılmasına razı ola bilməz və bütün sərhədlərin toxunulmazlığı prinsipləri gözlənilməlidir. Bununla yanaşı, qeyd olunurdu ki, sərhədlər yalnız dinc yolla və qarşılıqlı razılıq əsasında dəyişdirilə bilər.

13-14 mart - ATƏM-in YVŞK-nin Helsinkidə keçirilən 8-ci iclasında Dağlıq Qarabağ münaqişəsinin davam etməsi və onun dinc siyasi vasitələrlə aradan qaldırılması yolları müzakirə olunmuş və Dağlıq Qarabağla bağlı ATƏM-in Nazirlər Şurasının növbəlidə sessiyasının çağırılması haqqında qərar qəbul edilmişdir.

Martın ortaları - BMT Baş Katibinin xüsusi nümayəndəsi, ABŞ-ın keçmiş dövlət katibi Sayrus Vensin başçılıq etdiyi nümayəndə heyəti Bakıda, Dağlıq Qarabağda və Yerevanda səfərdə olduqdan sonra bu səfərin yekunları barədə BMT Təhlükəsizlik Şurasına məlumat verdi. BMT Baş Katibi Dağlıq Qarabağ probleminin həlli sahəsində ATƏM-in səylərini müdafiə etdiyini bildirdi. Onun vəziyyətə verdiyi qiymətdən aydın oldu ki, münaqişənin həlli yolunda regional təşkilatlar, xüsusən ATƏM əsas rol oynayır. BMT yalnız ekspertlər göndərməklə onlara kömək, habelə

humanitar sahədə yardım göstərə bilər. BMT Təhlükəsizlik Şurasının sədri də S.Vensin səfərinin yekunlarını müsbət qiymətləndirərək, münaqişənin aradan qaldırılmasında Təhlükəsizlik Şurasının ATƏM-ə məsləhətlər verəcəyini bildirməklə kifayətləndi.

16 mart - Tehranda bir həftə ərzində atəşkəsin əldə olunması haqqında üçtərəfli (İran, Ermənistan, Azərbaycan) kommünike imzalanmış, lakin həyata keçirilməmişdir.

16 mart - Ermənilər tərəfindən Füzuli rayonunun mərkəzinin raket atəşinə tutulması nəticəsində 4 nəfər həlak olmuş, 12 nəfər ağır yaralanmışdır.

18 mart - Ağdərə rayonunun Leninavan qəsəbəsindəki erməni mövqelərindən Tərtər şəhəri, habelə Qapanlı və Qaradağlı kəndlərinin intensiv raket, artilleriya atəşinə tutulması nəticəsində 3 nəfər həlak olmuşdur.

18 mart - Ermənilər tərəfindən Tərtər rayonunun mərkəzi raket atəşinə tutulmuş, nəticədə 3 nəfər həlak olmuş, 15 nəfər yaralanmışdır.

19 mart - ABŞ Dövlət Departamentinin rəsmi nümayəndəsi Marqaret Tatuayler bildirmişdir ki, Amerika hökuməti Dağlıq Qarabağ və Naxçıvanda döyüş əməliyyatlarının güclənməsini qətiyyətlə pisləyərək bu və ya hər hansı bir digər ərazinin statusunun hərbi və zorakılıq yolu ilə birtərəfli şəkildə hər hansı formada dəyişdirilməsi ilə razılaşmayacaqdır.

Bu mövqe Birləşmiş Ştatların regionda baş verən hadisələrə qeyri-obyektiv, daha doğrusu ermənipərəst siyasətinin təzahürü kimi qiymətləndirildi.

21 mart - Qazax rayonunun Aşağı Əskipara və Məzəm kəndlərinin ermənilər tərəfindən raket atəşinə tutulması nəticəsində 4 nəfər həlak olmuş, 5 nəfər ağır yaralanmışdır.

22 mart - Ermənilər tərəfindən Qazax rayonunun Quşçu Ayrım kəndinin raket atəşinə tutulması nəticəsində 1 nəfər həlak olmuşdur.

22 mart - Ermənilər tərəfindən "UAZ-469" markalı 60-25 AZU dövlət nişanlı avtomaşın Qazax rayonunun Sofulu-Cəfərli yolunda partladılmış, nəticədə 2 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

22 mart - Ağdam rayonunun Muğanlı kəndi ermənilərin silahlı hücumuna məruz qalmış, nəticədə 1 nəfər həlak olmuşdur.

19-23 mart - ATƏM-in YVŞK-nın fəaliyyətdə olan sədri Yan Kubişin başçılıq etdiyi nümayəndə heyəti ikinci dəfə münaqişə bölgəsinə səfər etmişdir.

22 mart - Erməni terrorçuları tərəfindən "UAZ-469" markalı 60-25 AZU dövlət nişanlı avtomaşının Qazax rayonu ərazisində partladılması nəticəsində 3 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

23-24 mart - Helsinkidə ATƏM-in YVŞK-nın 9-cu iclasında münaqişə bölgəsində atəşi dərhal dayandırmaq və münaqişə edən bütün tərəfləri ATƏM çərçivəsində Dağlıq Qarabağa dair sülh konfransının tezliklə keçirilməsi üçün hər cür şərait yaratmağa çağırdılar.

24 mart - ATƏM-in Xarici İşlər Nazirləri Şurasının Helsinkidə keçirilən birinci əlavə görüşündə Dağlıq Qarabağda vəziyyət müzakirə olundu. Nazirlər Şurası YVŞK-nın zəmanəti əsasında münaqişənin sülh yolu ilə nizamlanması istiqamətində aparılan danışıqların səmərəliliyini təmin etmək üçün ATƏM-in Dağlıq Qarabağa dair sülh konfransının çağırılması haqqında qərar qəbul etdi. Nazirlər razılaşdılar ki, Minskdə çağırılacaq konfrans 11 ölkənin - ABŞ, Rusiya, Türkiyə, Fransa, İtaliya, Almaniya, Çex və Slovak Federativ Respublikası, Belarus, İsveç, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə keçirilsin. Qərara alındı ki, konfransın sədri iştirakçı dövlətlərlə məsləhətləşdikdən sonra Dağlıq Qarabağın seçilən və digər nümayəndələrini maraqlı tərəflər kimi konfransa dəvət etsin. ATƏM-in fəaliyyətdə olan sədri İrji Dinstbirə tapşırıldı ki, atəşin səmərəli şəkildə dayandırılmasına və yenidən başlanılmamasına, habelə vəziyyətin dinc yolla hərtərəfli nizama salınmasına şərait yaradılması məqsədilə yaxın vaxtlarda münaqişə bölgəsinə getsin.

28 mart - Ermənilər tərəfindən "KamAZ-5410" markalı 40-53 AQS dövlət nişanlı avtomaşın partladılmış, nəticədə 2 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

30 mart - 3 aprel - ATƏM-in fəaliyyətdə olan sədri İrji Dinstbirin münaqişə regionuna səfəri olmuşdur.

31 mart - İslam Konfransı Təşkilatının Baş katibi Dağlıq Qarabağda vəziyyətlə əlaqədar bəyanatla çıxış etmiş və Azərbaycanın bu bölgəsində münaqişə ilə əlaqədar dərin narahatlıq keçirdiyini ifadə etmiş,

üzv dövlətlərə, humanitar təşkilatlara Dağlıq Qarabağa yardım göstərilməsi ilə bağlı müraciət etmişdir.

31 mart - Ermənilərin Hoğa kəndinə silahlı hücumu nəticəsində 6 nəfər qətlə yetirilmiş, 3 nəfər ağır yaralanmışdır.

Aprelin əvvəli - İranın Xarici işlər nazirinin müavini M.Vayazinin münaqişə regionuna səfəri olmuşdur.

1 aprel - Füzuli rayonunun Günəşli kəndi ermənilər tərəfindən top atəşinə tutulmuş, nəticədə 3 nəfər həlak olmuşdur.

6 aprel - Tovuz rayonunun Əlibəyli kəndi ermənilər tərəfindən top atəşinə tutulmuş, nəticədə 2 nəfər həlak olmuş, 16 nəfər ağır yaralanmışdır.

7 aprel - ATƏM-in fəaliyyətdə olan sədri İrji Dinstbir, Mario Raffaellini (İtaliya) Minsk Konfransının sədri təyin etmişdir.

8 aprel - Ermənilərin Ağdərə rayonunun Capar kəndi istiqamətindən Kəlbəcər rayonunun Çayqovuşan və Ağdaban kəndlərinə silahlı hücumu nəticəsində Kəlbəcər rayonunun 130 evdən ibarət Ağdaban kəndi tamamilə yandırılmış, 779 nəfər dinc sakininə amansız işgəncələr verilmişdir. Ağdaban kəndində ermənilərin həyata keçirdikləri soyqırım nəticəsində 33 nəfər xüsusi qəddarlıqla qətlə yetirilmişdir. Onların arasında 8 nəfər 90-100 yaşlı qoca, 2 azyaşlı uşaq, 7 qadın diri-diri odda yandırılmış, 2 nəfər itgin düşmüş, 12 nəfərə ağır bədən xəsarəti yetirilmişdir. Ermənilər tərəfindən tarixi, memarlıq və mədəniyyət abidələri dağıdılmış, talanmış və məhv edilmişdir. Azərbaycanın klassik aşıq şeirinin ustadı Aşıq Qurbanın və oğlu Aşıq Şəmşirin əlyazmaları yandırılmış və məhv edilmişdir.

9 aprel - Şuşa şəhərinin mərkəzi ermənilər tərəfindən top atəşinə tutulmuş, nəticədə 1 nəfər həlak olmuşdur.

13 aprel - Rusiya Dağlıq Qarabağ münaqişəsinə dair nizamlanmanın ikimərhələli sxemini təklif etmişdir.

13 aprel – ATƏM-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin rəhbərliyi altında xüsusi missiyanın münaqişə regionuna səfəri olmuşdur.

13 aprel - Qazax rayonunun Quşçu Ayrım kəndi ermənilər tərəfindən top atəşinə tutulmuş, nəticədə 1 nəfər həlak olmuş, 11 nəfər yaralanmışdır.

18 aprel - Qazax-Cəfərli yolunun 10-cu kilometrliyində VAZ markalı maşına ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər ağır yaralanmışdır.

23-27 aprel - Qazağın Barxudarlı və Soflu kəndlərinə erməni silahlı dəstələrinin hücumu nəticəsində 230 evin hamısı talan edilərək yandırılmışdır. Qazax rayonundan bu kəndlərə gələn dəmir yolu xətti ermənilər tərəfindən partladılmış, Soflu və Barxudarlı kəndləri yalnız 4 gün mühasirədə saxlanıldıqdan sonra işğal edilmiş və nəticədə 530 nəfər öz evlərini məcburi şəkildə tərk etməli olmuşdur. Hazırda Barxudarlı və Soflu kəndlərindən olan məcburi köçkünlərin 85 faizə qədəri Qazax şəhərinin mərkəzində, digərləri isə rayonun müxtəlif ərazilərində məskunlaşmışlar.

25 aprel - Ağstafa rayonunun Köhnə Qışlaq kəndinə ermənilərin silahlı hücumu nəticəsində 5 nəfər ağır yaralanmış, 3 nəfər itkin düşmüşdür.

25 aprel - Ağdam rayonunun Şelli, Papravənd, Abdal kəndlərinin ermənilər tərəfindən raket və top atəşinə tutulması nəticəsində 2 nəfər mülki vətəndaş həlak olmuş, 1 nəfər yaralanmışdır.

29 aprel - Kəlbəcər rayonunun Narıclılar kəndinə ermənilərin silahlı hücumu nəticəsində 6 nəfər həlak olmuş, 2 nəfər ağır yaralanmış, 2 nəfər itkin düşmüşdür.

29 aprel - Ermənilərin Şuşa ətrafında Hacı talası və Daşaşıran adlanan ərazilərə güclü hücumu nəticəsində 4 nəfər həlak olmuş, 15 nəfər yaralanmışdır.

1 may - ATƏM-in YVŞK-nin Helsinkidə keçirilən 10-cu iclasında Dağlıq Qarabağa dair konfransın təşkili, iclasların keçirilməsi şərtləri, sədrin səlahiyyətləri və s. haqqında YVŞK-nin qərarı qəbul edildi. Minsk Konfransının reallaşması üçün yaradılan eyni adlı qrup (ATƏM-in Minsk qrupu nəzərdə tutulur – müəllif) münaqişənin nizamlanması istiqamətində fəaliyyət göstərməli, münaqişə həll ediləndən sonra isə məsələnin həllində neytral, regionda maraqlı dövlət olmadığım nəzərə alaraq Belarusun paytaxtı Minsk şəhərində konfransa üzv olan dövlətlər toplanmalı və Yekun sənədi qəbul etməli idilər. ATƏM-in Xarici İşlər Nazirləri Şurası Minskdə keçiriləcək konfransa hazırlıq məqsədilə Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar görüş keçirmək və məsələni həll etmək barədə M.Rafaelliyə mandat verdi.

2 may - Xanlar rayonunun Dosular kəndinə ermənilərin silahlı hücumu nəticəsində 4 nəfər həlak olmuş, 8 nəfər yaralanmışdır.

2 may - Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Havış kəndinin ermənilər tərəfindən top atəşinə tutulması nəticəsində 1 nəfər həlak olmuş, 11 nəfər yaralanmışdır.

5 may - Goranboy rayonunun Tapqaraqoyunlu kəndinə ermənilərin silahlı hücumu nəticəsində 6 nəfər həlak olmuş, 8 nəfər yaralanmışdır.

5 may - Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Havış və Günnüd kəndləri ermənilər tərəfindən müxtəlif silahlardan atəşə tutulmuş, nəticədə 1 nəfər həlak olmuş, 8 nəfər yaralanmışdır.

6 may - Ermənilər tərəfindən Füzulinin Qacar və Divanlılar kəndiləri zirehli maşmlardan, rayon mərkəzi isə toplardan atəşə tutulmuşdur. Hoğa kəndinə edilən hücum zamanı 2 nəfər həlak olmuş, 5 nəfər yaralanmışdır.

7 may - ATƏM-in Dağlıq Qarabağa dair Minsk Konfransının sədri M.Rafaelli başda olmaqla ATƏM-in nümayəndə heyəti Azərbaycanda səfərdə oldu. Səfər zamanı o bildirdi ki, regionda sülhün tezliklə bərqərar olması üçün atəş uzun müddətə kəsilməli, iyunun ortalarında keçiriləcək konfransın çağırılması şərtləri və subyektləri müəyyənləşdirilməlidir.

7-8 may - İranın təşəbbüsü ilə Tehranda Azərbaycan və Ermənistan rəhbərləri arasında üçtərəfli görüş keçirildi. Münaqişənin nizama salınmasına dair üçtərəfli danışıqların yekunlarına əsasən, tərəflər Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair birgə sənəd imzalamışlar. Sənəddə problemin mərhələ-mərhələ həll edilməsi, o cümlədən atəşin dayandırılması, münaqişə zonasında xarici müşahidəçilərin yerləşdirilməsi, nəqliyyat yollarının açılması, əsirlərin dəyişdirilməsi, habelə Ermənistan ilə Azərbaycan arasında ikitərəfli münasibətlərin yaxşılaşdırılması nəzərdə tutulmuşdur. Sonralar aydın oldu ki, görüş zamanı Azərbaycan-Ermənistan sərhədi boyu və Qarabağın dağlıq hissəsində atəşin dayandırılmasından erməni tərəfi əslində başqa məqsəd güdürmüş. Məhz bu görüş Ermənistana beynəlxalq ictimaiyyətdən öz niyyətlərini gizlətmək üçün lazım imiş. Heç şübhəsiz ki, Ermənistan rəhbərliyi elə həmin gün Şuşaya ediləcək hücum əməliyyatından və hazırlanmış plandan əvvəlcədən xəbərdar olmuşdur. Çünki Şuşanın işğalı Ermənistan rəhbərliyinin Tehranda danışıqlar apardığı,

atəşi dayandırmağın tələb edildiyi vaxtla üst-üstə düşür və bağlanan sülh müqaviləsi mürəkkəbin quruduğu ana qədər qüvvədə qalmışdır. Bununla yanaşı, ermənilər həmişə olduğu kimi, hücum ərəfəsində bütün dünyaya Şuşadan Xankəndinə güclü hücumlar edilməsi barədə dezinformasiya yaymışdılar.

8 may - Azərbaycanın qədim musiqi və mədəniyyət mərkəzi olan Şuşa şəhərini ələ keçirməklə, Ermənistan ordusu tərəfindən bütün Yuxarı Qarabağ işğal edildi. Ermənilərin öz məlumatlarına görə, Şuşaya hücumda 100-ə qədər zirehli maşın və tank, 11 min nəfər canlı qüvvə iştirak etmişdi. Ermənilərin tərəfində xaricdən gətirilmiş muzdlular da döyüşürdülər.

Nəticədə, 289 km² ərazisi, 24 min nəfər əhalisi, 1 şəhər və 30 kənddən ibarət olan Şuşa rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Şuşa uğrunda döyüşlərdə 195 nəfər şəhid oldu, 165 nəfər yaralandı, 58 nəfər isə itkin düşdü. Ermənilər tərəfindən əsir götürülmüş və Şuşa türməsində saxlamlan 114 nəfər azərbaycanlı sonradan xüsusi qəddarlıqla qətlə yetirildi.

Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində Şuşanın 25 məktəbi, 31 kitabxanası, 17 klubu, 8 mədəniyyət evi, 4 texnikumu, 2 institut filialı, 30 səhiyyə müəssisəsi, 7 uşaq bağçası, 4 kinoteatrı, 5 mədəniyyət və istirahət parkı, 2 sanatoriya, turist bazası, 2 mehmanxana, Azərbaycan Xalçası Dövlət Muzeyinin filialı, Şuşa Dövlət Dram Teatrı, Şuşa Televiziyası, Şərq musiqi alətləri fabriki, Dövlət Rəsm Qalereyası, Uşaq sağlamlıq məktəbi talan edilmiş, yandırılmış və dağıdılmışdır.

Bütün bunlarla yanaşı, işğala qədər Şuşada memarlıq abidəsi sayılan 170-dən çox yaşayış binası və 160-dək mədəniyyət və tarixi abidə var idi. Bunların içərisində XVIII əsrə aid Şuşa qalasının divarları, Gəncə qapısı, Pənah xanın sarayı, İbrahim xanın bürcü və qəsri, Xan sarayı və karvansaray, M.P.Vaqifin mədrəsəsi və türbəsi, Yuxarı məscid mədrəsəsi, Hacıqulların malikanəsi, İkimərtəbəli karvansaray, Mehmandarovların malikanə kompleksi, Gövhər ağa, Xoca Mərcanlı, Hacı Abbas, Mərdinli, Saatlı, Köçərli məscidləri, Xurşidbanu Natəvanın evi və bulağı, Ə.B. Haqverdiyevin, Q.B.Zakirin, M.M.Nəvvabın, S.S.Axundovun, N.B.Vəzirovun, Y.V.Çəmənzəminlinin evləri, Mamay bəyin evi, məscidi və bulağı, Üzeyir bəy Hacıbəyovun, Bülbülün ev muzeyləri, Xan Şuşinskinin,

Tarzən Sadıqcanın evləri, Realni məktəbinin binası, Qız məktəbi, Şirin su hamamı, Meydan bulağı, İsa bulağı və s. tarixi mədəniyyət nümunəsi ermənilər tərəfindən vəhşiçəsinə dağıdılmış, təhqirlərə məruz qalmış, çox sayda nadir əlyazma nümunələri məhv edilmişdir.

Hazırda Şuşa rayonunun 30 min 690 nəfər əhalisi Azərbaycanın 55 rayonunda müvəqqəti məskunlaşmışdır.

8 may - Tərtər rayonunun Seyidimli kəndinin ermənilər tərəfindən raket atəşinə tutulması nəticəsində 1 nəfər həlak olmuşdur.

9 may - Ermənilər tərəfindən Laçın rayonu güclü top atəşinə tutulmuş, nəticədə 7 nəfər həlak olmuşdur.

9 may - Azərbaycanın BMT yanında daimi nümayəndəliyinin təklifi ilə BMT Təhlükəsizlik Şurası Dağlıq Qarabağdakı vəziyyətlə əlaqədar məsləhətləşmələr keçirdi. Azərbaycanın BMT yanında daimi nümayəndəsinin Təhlükəsizlik Şurasının sədrinə məktubu BMT-nin qərargah-mənzilində Təhlükəsizlik Şurasmın rəsmi sənədi kimi yayıldı. Sənəddə Ermənistanın hərəkətləri suveren dövlətin ərazi bütövlüyünü pozmaq kimi qiymətləndirilir, dünya birliyindən Ermənistanın Azərbaycana qarşı təcavüzü faktının etiraf edilməsi tələb olunurdu. Türkiyə dövləti də Dağlıq Qarabağda vəziyyətin kəskinləşməsi ilə əlaqədar təcili olaraq BMT Təhlükəsizlik Şurasınm çağırılmasını xahiş etdi.

11 may - Ağdam rayonunun Şelli kəndinin ermənilər tərəfindən atəşə tutulması nəticəsində 1 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

12 may - Azərbaycanın BMT yanında daimi nümayəndəliyinin təklifi ilə BMT Təhlükəsizlik Şurası Dağlıq Qarabağdakı vəziyyətlə əlaqədar məsləhətləşmələr keçirdi. BMT Təhlükəsizlik Şurasının 3072-ci iclasında Dağlıq Qarabağda vəziyyət müzakirə edildi və Şuranın sədri Peter Xoenfellner (Avstriya) bəyanat verdi. BMT Təhlükəsizlik Şurası sədrinin bəyanatında iki məsələ öz əksini tapdı: son hadisələrin baş verdiyi münaqişə bölgəsində vəziyyəti yerində öyrənmək üçün BMT-nin xüsusi missiyasının dərhal göndərilməsi və beynəlxalq birliyin qaçqınlara humanitar yardım göstərməsi haqqında.

Təhlükəsizlik Şurasının üzvləri bütün əlaqədar tərəfləri zorakılığa son qoymaq, Baş Katibin missiyasının işini asanlaşdırmaq və onun üzvlərinin təhlükəsizliyini təmin etmək üçün hər cür lazımi tədbirlər

görməyə çağırdılar. Həmin gün Azərbaycan Respublikası BMT Təhlükəsizlik Şurasının sədrindən xahiş etdi ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə əlaqədar olaraq Təhlükəsizlik Şurasının xüsusi iclası çağırılsın.

13 may - Ermənilər tərəfindən Bərdə rayonunun top atəşinə tutulması nəticəsində 5 nəfər həlak olmuş, 3 yaşayış binası dağıdılmışdır.

14 may - Tovuz rayonunun Əlibəyli kəndi ermənilər tərəfindən müxtəlif silahlardan atəşə tutulmuş, nəticədə 1 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

17 may - Azərbaycanın Şuşa şəhərinin işğalından sonra erməni hərbi qüvvələrinin qarşısında duran vəzifə işğal etdikləri Azərbaycan torpaqlarında möhkəmlənmək, Qarabağın dağlıq hissəsini Ermənistan Respublikasına birləşdirmək üçün onların arasında dəhliz açmaq idi. Bu yolda qədim Azərbaycan şəhəri Laçın yerləşirdi. Dağlıq Qarabağdan kənarda, Azərbaycanın cənub-qərbində yerləşən Laçın rayonuna Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı hücumu nəticəsində "dəhliz" adlandırılan, əslində isə böyük bir rayon qısa müddət ərzində işğal olundu.

Beləliklə, "öz müqəddəratını təyin etmək" ideyasını reallaşdırmaq məqsədilə Azərbaycanın Dağlıq Qarabağ bölgəsini Ermənistanla birləşdirən "dəhliz" silah gücünəələ keçirildi. Laçının işğalı müharibənin Dağlıq Qarabağ sərhədlərindən çıxdığını və Ermənistanın hərbi işğalçılıq niyyətinin böyük olduğunu göstərdi. Ermənilərin "humanitar dəhliz" adlandırdığı bu yol ilə Dağlıq Qarabağa külli miqdarda silah, döyüş sursatı və hərbi qüvvə gətirildi.

18 may - Helsinkidə ATƏM-in yüksək vəzifəli rəsmiləri ilə görüşdə münaqişənin sülh yolu ilə həllinə dair müzakirələrin aparıldığı zaman Ermənistan silahlı qüvvələri 1385 km² ərazisi, 71 000 nəfər əhalisi və 120 kəndi olan Laçın rayonunu bütünlüklə işğal etdilər. Beynəlxalq təzyiqlər olmasın deyə, bu işğal ermənilər tərəfindən "humanitar dəhliz" açmaq adı altında həyata keçirildi.

18 may - Ağdam rayonunun ermənilər tərəfindən top atəşinə tutulması nəticəsində 3 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

18 may - Naxçıvan Muxtar Respublikası Sədərək rayonuna ermənilərin silahlı hücumu nəticəsində 5 nəfər həlak olmuş, 51 nəfər yaralanmışdır.

18-21 may - Helsinkidə ATƏM-in Yüksək Vəzifəli Şəxslər Komitəsinin 11-ci görüşü keçirildi. Görüşdə Türkiyə, Azərbaycan, Ermənistan nümayəndə heyətləri bəyanatla çıxış etdilər. Azərbaycan təcavüzkarın pislənməsini və Ermənistana qarşı ciddi sanksiyaların tətbiq olunmasını tələb etdi. Ermənistanın mövqeyindən məlum oldu ki, o, öz təcavüzkar hərəkətlərindən əl çəkmək niyyətində deyildir. Belə ki, Ermənistan ATƏM çərçivəsində aparılan danışıqların pozulmasında bütün məsuliyyəti Azərbaycanın üzərinə atdı.

20 may - Zəngilan rayonunun Qazançı kəndi yaxınlığında "UAZ-469" markalı 80-33 AQD dövlət nömrə nişanlı avtomaşına ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

22 may - Avropa Birliyi Dağlıq Qarabağa dair bəyanat vermişdir. Bəyanatda deyilirdi ki, Birlik və ona üzv olan dövlətlər Dağlıq Qarabağ regionunda döyüşlərin son vaxtlar intensivləşməsi ilə bağlı dərin narahatlığını bildirir və hər hansı bir tərəfdən güc tətbiq edilməsini qəti şəkildə pisləyir. Sənəddə göstərilirdi ki, Birlik və ona üzv olan dövlətlər davamlı döyüşlər nəticəsində əhalinin yenidən üzləşdiyi əzab-əziyyətdən və insan tələfatından təəssüflənirlər.

23 may - Naxçıvan Muxtar Respublikası Sədərək rayonuna ermənilərin silahlı hücumu nəticəsində 19 nəfər həlak olmuş, 23 nəfər yaralanmışdır.

25 may - Naxçıvan Muxtar Respublikası Ordubad rayonunun Soyuq kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

26 may - Tovuz rayonunun Əlibəyli, Ağdam kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

27 may - Şimali Atlantika Müqaviləsi Təşkilatının (NATO) Müdafiə Planlaşdırması Komitəsi və Nüvə Planlaşdırması Qrupunun Yekun kommünikesi qəbul edilmişdir. Kommünikedə qeyd edilirdi:

"Müzakirələrimiz zamanı biz keçmiş Yuqoslaviyada, Naxçıvan da daxil olmaqla Dağlıq Qarabağ və onun ətrafında mövcud olan münaqişələrlə bağlı dərin narahatlığımızı bildirmişik. Biz hərbi əməliyyatların dayandırılması və məsələlərin sülh yolu ilə nizamlanması istiqamətində BMT, ATƏM və Avropa İttifaqı tərəfindən edilən müxtəlif səyləri tamamilə dəstəkləyirik. Biz aidiyyəti olan tərəfləri münaqişələrə son qoymağa çağırırıq".

1 iyun - Kəlbəcər rayonunun Alqaya kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

1 iyun - Ermənilər tərəfindən Qubadlı rayonunun mərkəzinin müxtəlif növ silahlardan atəşə tutulması nəticəsində 1 nəfər həlak olmuş, 29 nəfər yaralanmışdır.

1 iyun - Füzuli rayonunun Gövşadlı kəndinin ermənilər tərəfindən atəşə tutulması nəticəsində 3 nəfər mülki şəxs həlak olmuşdur.

1-5 iyun - Romada Minsk qrupunun danışıqları seriyasından ilk mərhələ başlandı. Romada 11 ölkənin – ABŞ, Türkiyə, Rusiya, İtaliya, Fransa, Almaniya, İsveç, Çex və Slovak Federativ Respublikası, Belarus, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə keçirilən görüş iyunun 23-də Minskdə açılması nəzərdə tutulan beynəlxalq konfransa hazırlıq məqsədi daşıyırdı. Azərbaycan tərəfi həmin görüşdə iştirak etməklə yanaşı Dağlıq Qarabağın azərbaycan və erməni icmasının iştirakına da razılıq verdi. Lakin Dağlıq Qarabağın erməni nümayəndələri görüşə gəlməmişdilər. Onlar müşahidəçi statusu ilə razılaşmayıb müşavirədə "muxtar respublika"nı təmsil edən tam hüquqlu iştirakçı kimi qəbul olunmalarını tələb edirdilər. Azərbaycan tərəfi Laçın və Şuşanın geri qaytarılması, onun dövlət sərhədlərinə Ermənistanın hörmətlə yanaşması tələblərinə əməl olunduqdan sonra Dağlıq Qarabağla hər hansı danışıqlara qoşula biləcəyini bildirmişdi.

Roma görüşündə Minsk Konfransının keçirilməsinə əngəl törədən erməni təcavüzü barədə məsələ müzakirə olundu. Konfransın qəbul edilməmiş sənədlərində "Laçından hərbi hissələrin çıxarılması", "Qaçqınların Laçına qaytarılması", "Şuşadan qoşunların çıxarılması", "Bu məsələlərin icrasına nəzarət etmək üçün beynəlxalq müşahidəçilərin yerləşdirilməsi" və s. kimi bəndlər var idi. Təklif edilmişdi ki, ATƏM-in Minsk Konfransı ərəfəsində, bu konfransın çağırılması haqqında qərar qəbul

edilərkən mövcud olan, yəni Laçının tutulmasından əvvəlki vəziyyətə qayıtmaq lazımdır. Ancaq Ermənistan nümayəndələrinin buna razılıq verməməsi nəticəsində həmin sənəd qəbul edilmədi.

3 iyun - Ağdam rayonunun Papravənd kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

3 iyun - Cəbrayıl rayonunun Şuşaqax kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuşdur.

4 iyun - Şimali Atlantika Şurası Nazirlərinin Osloda keçirilən görüşündə yekun kommünike qəbul edilmişdir. Kommünikedə bildirilirdi: "Biz Avro-Atlantika regionunun müxtəlif yerlərində davam edən zorakılıq və dağıntılarla bağlı dərin narahatlığımızı bildiririk. Bu, bizim bütün Avro-Atlantika regionunda sadiq olduğumuz sülh və sabitliyə tamamilə ziddir. Biz Avropada sülh və əməkdaşlığa əsaslanan qaydanın bərqərar edilməsi istiqamətində səylərimizə maneələrin olmaması üçün azğın milliyyətçilik və mübahisələrin zor yolu ilə həll edilməsi cəhdlərinin qarşısının alınması məqsədilə əlimizdən gələni edəcəyik. Biz keçmiş Yuqoslaviya ərazisində mövcud olan və Dağlıq Qarabağda mərkəzləşən münaqişələrlə bağlı narahatlığımızı ifadə edən ayrıca bəyanatlar vermişik".

5 iyun - Şimali Atlantika Əməkdaşlıq Şurası adından bəyanat verilmişdir. Bəyanatda bildirilirdi: "Biz, həmçinin, Dağlıq Qarabağ və onun kənarlarında olan böhranın gedişində döyüşlərin intensivləşməsi, insan tələfatının, iztirabların və dağıntıların artması ilə bağlı dərin narahatlıq hissi keçiririk. Biz Minskdə ATƏM-in Konfransının çağırılması qərarını, bu konfransın uğurla nəticələnməsi üçün Romada ilkin toplantının keçirilməsi kimi addımları və bu münaqişənin sülh yolu ilə nizamlanması ilə bağlı ATƏM çərçivəsində görülən bütün tədbirləri alqışlayırıq. Bu məqsədə nail olmaq üçün öz töhfəmizi verəcəyik və aidiyyəti olan tərəfləri də eyni tədbiri görməyə çağırırıq. Biz sülh prosesinə töhfə vermək məqsədilə ATƏM çərçivəsində regiona vaxtlı-vaxtında müşahidəçilərin yerləşdirilməsinə dair razılıq əldə edilməsi istiqamətindəki səyləri dəstəkləyir və Şuramızın üzvlərinin həmin missiyanın işində iştirak etməyə hazır olduğunu bildiririk.

Bununla yanaşı, sənəddə göstərilirdi: "Biz aidiyyəti olan bütün tərəfləri sülh yolu ilə nizamlanma danışıqlarına mühüm töhfə verən səmərəli atəşkəs əldə etməyə çağırırıq. Biz eyni zamanda, tərəfləri hər iki

münaqişənin qurbanları üçün təcili tələb olunan humanitar yardımın çatdırılması üçün müvafiq şəraiti təmin etməyə çağırırıq. Biz güc işlədilməsi vasitəsilə ərazilərin əldə edilməsi, sərhədlərin dəyişdirilməsi və ya siyasi məqsədlərə nail olunması üçün hər hansı cəhdin qəbuledilməz olduğunu və bu cəhdin əhəmiyyətli olan uzunmüddətli, danışıqlara və dinc nizamlanmaya əsaslanan səylərə yalnız xələl gətirdiyini xüsusilə vurğulayırıq".

5 iyun - Tərtər rayonunun Seyidimli kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 3 nəfər ağır yaralanmışdır.

8 iyun - Tovuz rayonunun Əlibəyli və Böyükqışlaq kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuş, 6 nəfər yaralanmışdır.

10 iyun - Kəlbəcər rayonunun Ağdaban kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 15 nəfər yaralanmışdır.

12 iyun - Füzuli rayonunun Cuvarlı kəndində ermənilər tərəfindən yük maşınının partladılması nəticəsində 1 nəfər yerli sakin həlak olmuşdur.

13 iyun - Goranboy rayonunun Tapqaraqoyunlu kəndinə ermənilərin silahlı hücumu nəticəsində 6 nəfər həlak olmuş, 18 nəfər yaralanmışdır.

13 iyun - Qazax rayonunun Fərəhli kəndinə ermənilərin silahh hücumu nəticəsində 1 nəfər həlak olmuşdur.

13 iyun - Tərtər rayonunun Cəmilli və Seyidimli kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuş, 19 nəfər yaralanmışdır.

14 iyun - Qazax rayonunun Məzən və Fərəhli kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 5 nəfər həlak olmuş, 14 nəfər yaralanmışdır.

15-20 iyun - Romada keçirilən Minsk qrupunun damşıqlarının ikinci mərhələsində erməni tərəfi konfransın Laçın və Şuşanın işğalı ilə bağlı əvvəlki dörd bəndlik sənədinə Goranboy və Ağdərənin adlarını əlavə etməyi tələb etdilər. Ancaq Azərbaycan nümayəndə heyəti buna razılıq vermədi. Ermənistan ATƏM-in Dağlıq Qarabağ münaqişəsi ilə bağlı keçirilən görüşlərində Türkiyənin ümumiyyətlə iştirak etməməsini tələb etdi. Nəticədə danışıqlar uğursuzluqla qurtardı.

16 iyun - Tovuz rayonunun Əlibəyli və Ağdam kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 4 nəfər həlak olmuş, 6 nəfər yaralanmışdır.

18 iyun - Avropa Birliyi Dağlıq Qarabağa dair bəyanat vermişdir. Bəyanatda deyilirdi ki, Birlik və ona üzv olan dövlətlər Dağlıq Qarabağda davam edən döyüşlər ilə bağlı dərin narahatlığını bildirir. Sənəddə qeyd edilirdi ki, Birlik və ona üzv olan dövlətlər böhranın həllinə qətiyyən kömək etməyən hər hansı gücün tətbiq edilməsini ciddi şəkildə pisləyirlər.

22 iyun - Füzuli rayonunun Qaradağlı və Korazilli kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

22 iyun - Naxçıvan Muxtar Respublikasmın Sədərək rayonuna ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuşdur.

22 iyun - Füzuli rayonunun Yuxarı Yağlıvənd kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

27 iyun - Füzuli rayonunun Dövlətyarlı kəndinə ermənilərin silahlı hücumu nəticəsində 4 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

29 iyun - 7 iyul - Romada ATƏM-in Minsk qrupu çərçivəsində görüşlərin üçüncü mərhələsində Rusiyanın təşəbbüsü ilə 1992-ci il iyulun 8-dən, yəni ATƏM-in sammitinin açılış günündən etibarən tərəflərə 30 günlük hərbi əməliyyatların dayandırılması haqqında çağırış edilmişdir. Bu təklifə yalnız Azərbaycan tərəfi razılıq vermiş, Ermənistan və Dağlıq Qarabağ isə cavab verməmişlər.

1 iyul - Füzuli rayonunun Gövşadh və Zərgərli kəndlərinin ermənilər tərəfindən "Qrad" tipli raketlərdən atəşə tutulması nəticəsində 3 nəfər həlak olmuşdur.

1 iyul - Qubadlı rayonunun mərkəzinin ermənilər tərəfindən "Qrad" tipli raketlərdən atəşə tutulması nəticəsində 1 nəfər həlak olmuş, 27 nəfər yaralanmışdır.

3 iyul - Cəbrayıl rayonunun mərkəzinin ermənilər tərəfindən toplardan atəşə tutulması nəticəsində 1 nəfər həlak olmuşdur.

4 iyul - Goranboy rayonunun Gülüstan kəndinə ermənilərin silahlı hücumu nəticəsində 4 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

5 iyul - Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun müxtəlif növ silahlardan atəşə tutulması nəticəsində 1 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

7 iyul - Ağdam rayonunun Şelli kəndinin ermənilər tərəfindən vertolyotlardan atəşə tutulması nəticəsində 1 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

8-10 iyul - ATƏM-in Helsinkidə keçirilən Zirvə toplantısında Azərbaycan Respublikası təşkilatm Yekun Aktını imzalamışdır.

8 iyul - Füzuli rayonunun Qacar kəndinin ermənilər tərəfindən top atəşinə tutulması nəticəsində 2 nəfər həlak olmuşdur.

17-21 iyul - Romada ATƏT-in Minsk qrupunun 8 "neytral" dövlətinin məsləhətləşmələri keçirilmişdir.

20 iyul - Ağstafa rayonunun Köhnə Qışlaq, Yaradullu və Tatlı kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

22 iyul - Füzuli rayonunun Yuxarı Yağlıvənd kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

27 iyul - Füzuli rayonunun Xatınbulaq kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuşdur.

27 iyul - Ermənilər tərəfindən Qazax rayonunun Şıxlı kəndinə silahlı hücum nəticəsində 1 nəfər həlak olmuşdur.

30 iyul - Ağdərə rayonunun Aşağı Moxradağ kəndinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuş, 41 nəfər yaralanmışdır.

31 iyul - Ermənilər tərəfindən Kəlbəcər rayonunun Ağdaban kəndinə silahlı hücum nəticəsində 4 nəfər həlak olmuş, 12 nəfər yaralanmışdır.

31 iyul - Ağdərə rayonuna ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 9 nəfər yaralanmışdır.

31 iyul - 5 avqust - Romada Minsk qrupu çərçivəsində görüşlərin dördüncü mərhələsində Rusiyanm təşəbbüsü ilə avqustun 5-dən etibarən 60 günlük hərbi əməliyyatların dayandırılması haqqında münaqişə tərəflərinə çağırış edilmişdir.

1 avqust - Tovuz rayon mərkəzinin ermənilər tərəfindən toplardan atəşə tutulması nəticəsində 2 nəfər həlak olmuş, 5 nəfər yaralanmışdır.

1 avqust - Gədəbəy rayonunun Şınıx və Novoivanovka kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 3 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

3 avqust - Ermənilər tərəfindən Naxçıvan Muxtar Respublikası Babək rayonunun Gərməçataq kəndinə silahlı hücum nəticəsində 1 nəfər həlak olmuş, 5 nəfər yaralanmışdır.

5 avqust - Laçın rayonunun Güləbird kəndinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır.

6 avqust - Gədəbəy rayonunun Şınıx və Novosaratovka kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuş, 6 nəfər yaralanmışdır.

7 avqust - Ermənilər tərəfindən Ağstafa rayonunun Köhnə Qışlaq kəndinə silahlı hücum nəticəsində 3 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

8 avqust - Qubadlı rayon mərkəzinin ermənilər tərəfindən "Qrad" tipli raketlərdən atəşə tutulması nəticəsində 3 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

8 avqust - Gədəbəy rayonunun Şınıx və Novoivanovka kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 3 nəfər həlak olmuşdur.

10 avqust - Gədəbəy rayonunun İnəkboğan kəndinə ermənilərin silahlı hücumu nəticəsində 3 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

10 avqust - Tovuz rayonunun Böyükqışlaq kəndinə ermənilər tərəfindən silahlı hücum nəticəsində 4 nəfər həlak olmuş, 11 nəfər yaralanmışdır.

12 avqust - Gədəbəy rayon mərkəzinin ermənilər tərəfindən atəşə tutulması nəticəsində 3 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

15 avqust - Cəbrayıl rayonunun ermənilər tərəfindən raket və top atəşinə tutulması nəticəsində 5 nəfər həlak olmuşdur.

17 avqust - Ermənilər tərəfindən Ağdam rayonunun Gülablı kəndinə silahlı hücum nəticəsində 6 nəfər həlak olmuş, 6 nəfər ağır yaralanmışdır.

24-26 avqust - ATƏM-in Minsk Konfransının sədri M.Raffaellinin "Hərbi əməliyyatların 60 günlük dayandırılması haqqında çağırış"ın tərəflərə şəxsən təqdim olunması üçün Bakı, Yerevan və Xankəndinə səfəri

oldu. Səfər zamanı münaqişədə iştirak edən tərəflərə hərbi əməliyyatları 60 gün müddətinə dayandırmaq haqqında təklif rəsmən təqdim olundu. M.Rafaelli Azərbaycanda olarkən bildirdi ki, Minsk Konfransının çağırılmasına nail olmaq üçün atəşin dayandırılması haqda Minsk qrupunun müraciətinə tərəflər müsbət cavab verməli, atəş dayandırılmalı və müşahidəçilərin ilk dəstəsi yerləşdirilməlidir.

26 avqust - Zəngilan rayon mərkəzinin ermənilər tərəfindən raket və top atəşinə tutulması nəticəsində 7 nəfər həlak olmuş, 11 nəfər yaralanmışdır.

26 avqust - BMT Təhlükəsizlik Şurasında keçirilən müzakirələrdən sonra Şuranın sədri Li Daoyuy "Dağlıq Qarabağda vəziyyətə dair" adlı bəyanat vermişdir. Bəyanatda bildirilirdi ki, Dağlıq Qarabağda vəziyyətin pisləşməsi, çoxlu insan tələfatına və geniş miqyasda maddi zərərə səbəb olması haqqında məlumatlar Təhlükəsizlik Şurasının üzvlərini dərindən narahat etmişdir.

Bununla yanaşı, sənəddə qeyd edilirdi ki, Təhlükəsizlik Şurasının üzvləri bütün tərəfləri atəşi dərhal dayandırmağa və ATƏM çərçivəsində Dağlıq Qarabağ məsələsinə dair Minsk Konfransının səylərinə, habelə Romada keçirilən hazırlıq danışıqlarına yardım göstərməyə çağırırlar.

27 avqust - Alma-Atada Qazaxıstan Prezidentinin təşəbbüsü ilə Azərbaycan və Ermənistan Xarici işlər nazirlərinin görüşü keçirilmişdir. Qazaxıstan Respublikasının təşəbbüsü ilə ATƏM-in Minsk qrupunun müraciətinə cavab olaraq Azərbaycan, Ermənistan və Qazaxıstan nümayəndələri birgə memorandum imzaladılar. İmzalanan Alma-Ata birgə memorandumuna görə, münaqişə edən tərəflər sentyabrın 1-dən hərbi əməliyyatları dayandırmağa hazır olduqlarını bildirdilər. Bu sənədin yerinə yetirilməsinə dair sentyabrın 3-də İcevan protokolu imzalandı. Ancaq Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı hücumu nəticəsində bütün bunlar kağız üzğrində qaldı. Ermənistan tərəfi beynəlxalq vasitəçilərin səylərinə heç bir əhəmiyyət verməyərək Azərbaycana qarşı təcavüzünü davam etdirdi.

28 avqust - Goranboy rayonunun Balıqçaya kəndinə ermənilər tərəfindən silahlı hücum nəticəsində 24 nəfər qətlə yetirilmiş, 6 nəfər ağır yaralanmışdır.

29 avqust - Cəbrayıl rayon mərkəzinin ermənilər tərəfindən müxtəlif silahlardan atəşə tutulması nəticəsində 2 nəfər həlak olmuş, 6 nəfər yaralanmışdır.

4 sentyabr - Füzuli rayonunun Qaçaq kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

6 sentyabr - Ağdam rayonunun Əhmədavar kəndinə ermənilərin silahlı hücumu nəticəsində 4 nəfər həlak olmuş, 6 nəfər yaralanmışdır.

7 sentyabr - Füzuli rayonunun Qaravəllər kəndinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

7 sentyabr - Füzuli rayonunun Zərgər kəndinə ermənilərin silahlı hücumu nəticəsində 6 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

7-10 sentyabr - ATƏM-in Minsk qrupu çərçivəsində görüşlərin beşinci mərhələsi keçirilmişdir.

9 sentyabr - Tovuz rayonunun Əlibəyli və Ağdam kəndlərinə ermənilər tərəfindən silahlı hücum nəticəsində 2 nəfər həlak olmuş, 15 nəfər yaralanmışdır.

11 sentyabr - Ağdam rayonunun Sarıcallı kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

14 sentyabr - Ağdam rayonunun Muğanlı kəndinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuşdur.

14-16 sentyabr - Alma-Atada Azərbaycan və Ermənistan işçi qrupları arasında keçirilən ikitərəfli danışıqlar nəticəsiz başa çatdı. Ermənistan nümayəndələri Azərbaycan və Qazaxıstan nümayəndə heyətlərinin qəbul etdikləri bəyannamə layihəsini rədd etdilər.

ATƏM-in Minsk qrupunun sentyabrda Romada keçirilən görüşü erməni tərəfinin kompromisə gəlməyə heç bir imkan verməyən tələbləri ucbatından müvəffəqiyyətsizliyə uğradı. M.Rafaellinin sentyabrda hərbi əməliyyatları dayandırmaq üçün konkret müddətin müəyyənləşdirilməsi sahəsində göstərdiyi cəhdlər də nəticəsiz qaldı.

15 sentyabr - Naxçıvan Muxtar Respublikası, Şahbuz rayonunun Biçənək kəndinə ermənilər tərəfindən silahlı hücum nəticəsində 3 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

18 sentyabr - Naxçıvan Muxtar Respublikasının Sədərək rayonuna ermənilər tərəfindən silahlı hücum nəticəsində 3 nəfər həlak olmuş, 5 nəfər yaralanmışdır.

19 sentyabr - Soçidə Rusiya, Gürcüstan tərəflərinin iştirakı ilə Azərbaycan və Ermənistan müdafiə nazirləri səviyyəsində 8 maddədən ibarət saziş imzalandı. Sənəddə Azərbaycanla Ermənistan arasında dövlət sərhədində, eləcə də Dağlıq Qarabağ bölgəsində sülhü bərqərar etmək üçün silahlı əməliyyatların iki ay ərzində (müddətin daha sonra uzadılması şərtilə) dayandırılması, silahlı qüvvələrin regiondan çıxarılması, MDB ölkələrindən müşahidəçilərin və sülhməramlı qüvvələrin yerləşdirilməsi nəzərdə tutulurdu. Sazişdən sonra Moskvada "Silahlı qüvvələri geri çəkmək haqqında" protokol imzalandı. Lakin bunların heç biri Ermənistanın qeyri-konstruktiv mövqe tutması və Azərbaycana təcavüzünün genişlənməsi ucbatından yerinə yetirilmədi.

19 sentyabr - Goranboy rayonunun Gülüstan kəndinə ermənilərin silahlı hücumu nəticəsində 22 nəfər həlak olmuş, 8 nəfər yaralanmışdır.

23 sentyabr - ATƏM-in Minsk Konfransının sədri M.Raffaelli ATƏM-in fəaliyyətdə olan sədrindən Minsk Konfransının mandatının dəqiqləşdirilməsini istəmişdir.

30 sentyabr - Zəngilan rayonunun Ermənistanla həmsərhəd kəndlərinə ermənilər tərəfindən silahlı hücum nəticəsində 2 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

30 sentyabr - Ağdərə rayonunun Ketavan kəndi yaxınlığında ermənilər tərəfindən "QAZ-53" markalı maşının partladılması nəticəsində 2 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

Sentyabr - Nyu-Yorkda BMT Baş Məclisinin sessiyası zamanı İKT üzvü olan dövlətlərin Xarici işlər nazirlərinin əlaqələndirmə toplantısında qəbul edilmiş yekun sənədə Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar bir maddə salınmışdır.

Sentyabr - Dağlıq Qarabağda R.Koçaryanın başçılığı ilə "Dövlət müdafiə komitəsi" yaradıldı. Bu komitə 18 yaşından 45 yaşına qədər bütün kişiləri Azərbaycana qarşı müharibəyə cəlb etdi. Hava hücumundan müdafiə məqsədi ilə Dağlıq Qarabağa Ermənistandan müasir texnika göndərildi.

5 oktyabr - Ağdam rayonunun Seyidli kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

8 oktyabr - Füzuli rayonunun Divanalılar kəndinə ermənilərin silahlı hücumu nəticəsində 11 nəfər həlak olmuş, 60 nəfər yaralanmışdır.

12 oktyabr - Qubadlı rayonunun Balard kəndinə ermənilər tərəfindən silahlı hücum nəticəsində 3 nəfər həlak olmuş, 4 nəfər yaralanmış, 2 nəfər itkin düşmüşdür.

13 oktyabr - Ağdam rayonunun Şelli və Əhmədavar kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuş, 25 nəfər yaralanmışdır.

13 oktyabr - Naxçıvan Muxtar Respublikası, Şərur rayonunun Ermənistanla həmsərhəd kəndlərinə ermənilər tərəfindən silahlı hücum nəticəsində 3 nəfər həlak olmuş, 7 nəfər yaralanmışdır.

Oktyabrın ortaları - Dağlıq Qarabağa dair danışıqlarda Minsk qrupunda ABŞ-ın nümayəndə heyətini təmsil edən Con Mareska yeni təşəbbüslə çıxış edərək bildirdi ki, beş dövlət – ABŞ, Türkiyə, Rusiya, Azərbaycan və Ermənistan nümayəndələri noyabrın 12-13-də Cenevrədə toplanmalı və Minsk Konfransının başlanması üçün danışıqlar bərpa olunmalı idi. Lakin Dağlıq Qarabağın erməni icmasının danışıqlarda xüsusi status istəməsindən sonra bu danışıqlar dayandırılmışdır.

21 oktyabr - Tərtər rayonu ilə Kəlbəcər arasında, Sərsəng su anbarının 1,5 kilometrliyində hərəkət edən xalq təsərrüfatı malları daşıyan 4 maşın ermənilər tərəfindən qumbara atanlar vasitəsilə atəşə tutulmuş və nəticədə 6 nəfər mülki şəxs həlak olmuşdur.

24 oktyabr - ABŞ Konqresinin 102-ci çağırışının 2-ci sessiyasında keçmiş SSRİ-nin Azərbaycandan başqa digər 11 respublikasına (Ermənistan, Belorus, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna və Özbəkistan) demokratiyanın inkişafı və bazar iqtisadiyyatına keçid məqsədilə 460 milyon dollar həcmində yardımı nəzərdə tutan "Azadlığı Müdafiə Aktı" və ona 907-ci düzəliş qəbul edildi. Bu sənədin qəbul edilməsi yeni qurulmuş Azərbaycan-ABŞ münasibətlərini bir qədər də soyudaraq ikitərəfli münasibətlərdə daim müzakirə obyektinə çevrilən problem yaratdı.

Azərbaycana qarşı iqtisadi yardıma qadağa qoyan bu qərarda

göstərilirdi: "Birləşmiş Ştatların Azərbaycana yardımı o vaxta qədər mümkün olmayacaq ki, ABŞ prezidenti müəyyənləşdirib konqresə məlumat versin ki, Azərbaycan hökuməti bütün blokadaları, həmçinin Ermənistan və Dağlıq Qarabağa qarşı zor gücündən istifadəsini dayandırmaq üçün əməli iş görür". Qəbul edilən bu 907-ci düzəlişin mətnində açıq-aşkar görünürdü ki, bu qərar regiondakı real vəziyyətin təhlilindən deyil, yalnız münaqişə tərəflərindən biri olan Ermənistanın mənafeyi və nöqteyi-nəzərindən qəbul edilmişdi.

Sənədin qəbul edilməsində, heç şübhəsiz, konqresə böyük təsir gücünə malik erməni lobbisinin əsas rolu olmuşdur. Eyni zamanda, ABŞ-da Azərbaycan haqqında məlumatların azlığı respublikamız barəsində əsil həqiqətin üzə çıxmasına imkan vermirdi. Çünki 1988-1991-ci illərdə Azərbaycan daim informasiya blokadasında olduğundan regionda, xüsusilə münaqişə bölgəsində baş verən hadisələr dünyaya birtərəfli, bilərəkdən təhrif olunmuş məlumatlar şəklində yayılırdı.

25 oktyabr - Qazax rayonunun Fərəhli kəndinə ermənilər tərəfindən silahlı hücum nəticəsində 1 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

27 oktyabr - BMT Təhlükəsizlik Şurasının sədri Şuranın 3127-ci iclasında "Dağlıq Qarabağda vəziyyətə dair" bəyanat vermişdir. Bəyanatda deyilirdi ki, Təhlükəsizlik Şurası 1992-ci il sentyabrın 21-də Soçidə atəşkəs barədə sazişin bağlanılmasına baxmayaraq, Dağlıq Qarabağda və onun ətrafında ciddi vəziyyətin qalmasından, eləcə də bununla əlaqədar insan tələfatı və maddi itkilər olmasından dərin narahatdır. Bu bəyanatda Təhlükəsizlik Şurası əvvəlki bəyanatların məzmununu bir daha təsdiq edərək, münaqişənin ATƏM-in Minsk prosesi çərçivəsində həllinə tərəfdar olduğunu bildirdi.

1 noyabr - Qubadlı rayonunun Muradxanlı kəndinə ermənilərin silahlı hücumu nəticəsində 5 nəfər həlak olmuş, 8 nəfər yaralanmışdır.

5 noyabr - Zəngilan rayonunun Seyidlər kəndinə ermənilər tərəfindən silahlı hücum nəticəsində 1 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

5-7 noyabr – YVŞK-nin 17-ci iclasında ATƏM-in fəaliyyətdə olan sədrinə münaqişə bölgəsinə beynəlxalq müşahidəçilərin göndərilməsi

səlahiyyəti verilmiş, eyni zamanda Rusiya tərəfi MDB müşahidəçilərinin ATƏM-in müşahidəçi qrupunun tərkibində olmasını müdafiə etmişdir.

6 noyabr - Ağdam rayon mərkəzinin ermənilər tərəfindən atəşə tutulması nəticəsində 6 nəfər həlak olmuşdur.

11 noyabr - Goranboy rayonunun Aşağı Ağcakənd kəndinə ermənilərin silahlı hücumu nəticəsində 3 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

17 noyabr - Füzuli rayonunun Aşağı Divanlılar kəndinə ermənilərin silahlı hücumu nəticəsində 5 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

19 noyabr - Qubadlı rayonunun Əliquluşağı kəndinə ermənilərin silahlı hücumu nəticəsində 4 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

26 noyabr - 1 dekabr - Vyanada Müşahidəçi Qrup mandatı ilə ATƏM-in xüsusi qrupunun görüşü olmuşdur.

8 dekabr - Ağdam rayonunun Novruzlu kəndinə ermənilərin silahlı hücumu nəticəsində 4 nəfər həlak olmuşdur.

7-9 dekabr - Cenevrədə Azərbaycan, Ermənistan, Rusiya, ABŞ və Türkiyə prezidentlərinin nümayəndələrinin (beşlik formatda) qeyri-formal görüşü olmuşdur.

9-12 dekabr - Soçidə əldə edilən razılığı pozaraq, Ermənistan silahlı qüvvələri Azərbaycanın Zəngilan rayonunun 8 kəndini işğal etdilər.

10 dekabr - Zəngilan rayon mərkəzinin ermənilər tərəfindən müxtəlif silahlardan atəşə tutulması nəticəsində 7 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır.

11-13 dekabr - ATƏM-in Nazirlər Şurasının görüşünə hazırlıq məqsədilə Stokholmda YVŞK-nin 18-ci iclası keçirildi.

17 dekabr - Şimali Atlantika Şurası Nazirlərinin görüşündə Yekun Kommünike qəbul edilmişdir. Sənəddə deyilirdi: "Biz Dağlıq Qarabağ və onun ətrafında cərəyan edən döyüş əməliyyatları ilə əlaqədar dərindən təəssüflənirik. Biz aidiyyəti olan tərəfləri səmərəli atəşkəsə nail olmağa çağırırıq. Biz BMT və ATƏM-in prinsiplərini, habelə hazırki münaqişə ilə əlaqədar ATƏM-in addım və qərarlarını tam şəkildə dəstəkləyirik. Biz hesab edirik ki, Minskdə keçirilməsi təklif edilən ATƏM-in Konfransı bu münaqişənin sülh yolu ilə nizamlanması üçün bilavasitə imkan yaradır və

biz Roma görüşü çərçivəsində başlanmış işin davam etdirilməsi əsasında konfransın çağırılması ilə bağlı səyləri dəstəkləyirik".

1990-1992-ci illərdə - Azərbaycanın Dağlıq Qarabağ bölgəsi (4,4 min km²) Ermənistan silahlı qüvvələri tərəfindən bütünlüklə işğal edildi. Bununla yanaşı, bu dövrdə Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində Qazax rayonunun Bağanıs-Ayrım, Yuxarı Əskipara, Aşağı Əskipara, Xeyrımlı, Qızıl Hacılı, Sofulu, Barxudarlı kəndləri Ermənistan silahlı qüvvələri tərəfindən yandırılmış, talan edilmiş və dağıdılmışdır. İşğal olunmuş ərazilərdən 6.500 nəfər məcburən köçkün düşmüşdür. Hazırda 699 kv.km ərazisi olan Qazax rayonunun 75 yaşayış məntəqəsinin təxminən 8%-i işğal olunmuşdur.

Bu gün hələ də işğal altında olan Qazax rayonunun Bağanis-Ayrım, Yuxarı Əskipara, Aşağı Əskipara, Xeyrımlı, Qızıl Hacılı, Sofulu, Barxudarlı kəndlərinin işğal edilməsi nəticəsində maddi-mədəniyyət nümunələri talanmış, dağıdılmış və yandırılmışdır. Belə ki, Yuxarı Əskipara kəndində V-VIII əsrlərə aid qala, X əsrə aid Şəkərqala məbədi kompleksi, XVII əsrə aid Bürc, Qatır körpüsü, Kazım körpüsü və s. memarlıq abidələri, eləcə də XIV əsrə aid yeraltı yol, səkkizillik məktəb, tibb məntəqəsi, klub və 10048 nüsxə kitab fondu olan kitabxana dağıdılıb məhv edilmişdir. Aşağı Əskipara kəndində 1 orta məktəb, xəstəxana, mədəniyyət evi, 6850 və 9980 nüsxə kitab fondları olan 2 kitabxana da dağıdılaraq məhv edilmişdir. Bununla yanaşı, 8512 nüsxə kitab fondu olan Xeyrimli, 10335 nüsxə kitab fondu olan Qızılhacılı, 14829 nüsxə kitab fondu olan Sofulu, 16105 nüsxə kitab fondu olan Barxudarlı kənd kitabxanaları, eləcə də ictimai-iaşə obyektləri, məktəblər, xəstəxanalar dağıdılmış və məhv edilmişdir.

Bundan əlavə, bu dövrdə ərazisi 5.368 kv.km olan Naxçıvan Muxtar Respublikasının 221 yaşayış məntəqəsindən 1-i, Sədərək rayonunun ərazisinin bir hissəsi (0,5%) Kərki kəndi zəbt olunmuşdur. İşğal olunmuş ərazilərdən məcburən köçkün düşmüş insanların sayı 347 nəfərdir.

1993

5-8 yanvar - Moskvada Azərbaycan, Ermənistan, Rusiya, Türkiyə və ABŞ prezidentləri şəxsi nümayəndələrinin və ATƏT-in Minsk qrupu sədrinin (5+1 formatlı) görüşü keçirilmişdir. Rusiyanın "nizamlanma təqvimi" ideyası təklifi qəbul olunmuş və hərbi əməliyyatların dayandırılması məzmunlu sənədlər hazırlanmışdır.

Yanvarın əvvəlləri - Dövlət başçıları səviyyəsində keçirilən Rusiya-Amerika görüşündə prezidentlər B.Yeltsin və C.Buş Dağlıq Qarabağa dair birgə bəyanatla çıxış etdilər. Bəyanatda hər iki dövlətin başçısı Dağlıq Qarabağ bölgəsində və Ermənistan ilə Azərbaycan arasındakı sərhəddə yaranmış vəziyyətdən narahat olduqlarını bildirdilər. Bəyanatda Dağlıq Qarabağ Azərbaycandan ayrı bir bölgə kimi göstərilirdi.

16 yanvar - Zəngilan rayonunun Şotariz və Keçili kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

18-24 yanvar - ATƏM-in Minsk Konfransının sədri M.Raffaellinin Bakı, Yerevan və Xankəndinə səfəri olmuşdur.

19 yanvar - Ağdam rayon mərkəzinin ermənilər tərəfindən müxtəlif silahlardan atəşə tutulması nəticəsində 10 nəfər həlak olmuşdur.

27 yanvar - Ağdərə rayonunun Umudlu kəndində ermənilər tərəfindən "QAZ-69" markalı avtomaşının partladılması nəticəsində 1 nəfər həlak olmuşdur.

27 yanvar - Ağdərə rayonunun Dəstəgül kəndində ermənilər tərəfindən "QAZ-53" markalı avtomaşının partladılması nəticəsində 3 nəfər həlak olmuşdur.

29 yanvar - BMT Təhlükəsizlik Şurasının sədri Dağlıq Qarabağla əlaqədar bəyanat vermişdir. Bəyanatda deyilirdi ki, Ermənistana və Azərbaycanın Naxçıvan Muxtar Respublikasına malların və materialların göndərilməsi, xüsusilə elektrik enerjisi verilməsindəki fasilələrin dağıdıcı nəticələri ilə əlaqədar Təhlükəsizlik Şurasının üzvləri dərin narahatlıq keçirirlər. Eyni zamanda sənəddə qeyd edilirdi ki, qeyri-adi dərəcədə sərt qışın genişləndirdiyi bu fasilələr həmin bölgələrin iqtisadiyyatını və

infrastrukturunu iflas həddinə gətirib çıxarmış və real aclıq təhlükəsi yaratmışdır.

3 fevral - Ağdərə rayonunun Ergi otlaq sahəsinə ermənilərin silahlı hücumu nəticəsində 21 nəfər həlak olmuşdur.

6 fevral - Qazax rayon mərkəzinin ermənilər tərəfindən müxtəlif silahlardan atəşə tutulması nəticəsində 3 nəfər həlak olmuş, 10 nəfər yaralanmışdır.

12 fevral - Ağdərə rayonunun Baquas kəndinə ermənilərin silahlı hücumu nəticəsində 70 nəfər həlak olmuşdur.

17 fevral - ABŞ Konqresinin Nümayəndələr palatası konqresmen D.Boniyenin təklifi ilə "Dağlıq Qarabağ ətrafında mübahisələrə dair" adlı 86 saylı qətnamə qəbul etdi. Qətnamədə "Ermənistana yanacaq və humanitar yardımın davam etdirilməsi" göstərilirdi.

Eyni zamanda münaqişə ilə əlaqədar bütün danışıqlarda Dağlıq Qarabağ nümayəndələrinin tam iştirakının təmin edilməsinə kömək göstərilməsi, Ermənistan və Dağlıq Qarabağın blokadasının davam etdirilməsinin beynəlxalq hüququn pozulması kimi pislənməsi, tezliklə blokadanın götürülməsi və Ermənistana yardımın çatdırılması üçün humanitar dəhlizin açılması, "Azadlığı Müdafiə Aktı"na uyğun olaraq Birləşmiş Ştatların Azərbaycana qarşı məhdudiyyətlərinin davam etdirilməsi ABŞ hökumətindən tələb olunurdu.

26 fevral - 1 mart - ATƏM çərçivəsində M.Rafaellinin başçılığı altında 11 dövlətin iştirakı ilə Romada Minsk qrupu çərçivəsində Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair danışıqların növbəti mərhələsində tərəflər münaqişə bölgəsinə müşahidəçilər qrupunun göndərilməsi haqqında razılığa gəldilər. Rusiya tərəfi "Qarabağ nizamlanmasının operativ qaydaları" layihəsini və "Birgə Koordinasiya Komissiyası" (BKK) yaradılması təklifini irəli sürmüşdür. ATƏM-in müşahidəçi missiyasının mandatının layihəsi bəyənilmişdir.

Çox gərgin keçən danışıqlardan sonra tərəflər arasında saziş imzalandı. Qərara alındı ki, atəşin dayandırılması müddətləri, ATƏM-in atəşin dayandırılması üzrə müşahidəçilər missiyasının işə başlaması və Minsk Konfransının rəsmən açılması ilə bağlı maddələr də daxil olmaqla sülh danışıqları prosesinin konkret sənədləri barədə saziş imzalamaq üçün

1993-cü ilin aprel ayında Minsk qrupunun daha bir görüşü keçirilsin. İmzalanan saziş aprelin 26-da keçiriləcək ATƏM-in YVŞK-nin iclasında bəyənilməli idi.

28 fevral - Dağıstan Respublikası ərazisində, Qudermes stansiyası yaxınlığında ermənilər tərəfindən "Kislovodsk-Bakı" sərnişin qatarının partladılması nəticəsində 11 nəfər həlak olmuş, 18 nəfər yaralanmışdır.

28 fevral - Tovuz rayonunun Əlibəyli kəndinə ermənilərin silahlı hücumu nəticəsində 3 nəfər həlak olmuşdur.

2 mart - Tovuz rayonunun Bozalqanlı kəndinə ermənilərin silahlı hücumu nəticəsində 3 nəfər həlak olmuş, 7 nəfər yaralanmışdır.

8 mart - Dağlıq Qarabağ üzrə damşıqların növbəti mərhələsi başa çatdıqdan sonra ABŞ-ın Roma görüşlərində səlahiyyətli nümayəndəsi Con Mareska ABŞ konqresinin ATƏM üzrə komissiyasının iclasında bildirdi ki, Minsk qrupuna cəlb olunan tərəflər ortaq bir rəyə yaxınlaşsalar da, beynəlxalq müşahidəçilərin nəzarəti altında atəşin tam dayandırılması və Minsk Konfransının rəsmən açılması barədə hələlik razılığa gələ bilməmişlər.

12 mart - Gədəbəy rayonunun Mormor kəndinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuşdur.

17-21 mart - Cenevrədə 5+1 formatında keçirilən yeni görüşdə Rusiyanın "nizamlama təqvimi"nin müzakirəsi olmuşdur.

18 mart - Ağdərə rayon mərkəzinin ermənilər tərəfindən "Qrad" qurğularından atəşə tutulması nəticəsində 5 nəfər həlak olmuşdur.

21 mart - Zəngilan rayonunun Şotariz kəndinə ermənilərin silahlı hücumu nəticəsində 3 nəfər həlak olmuş, 17 nəfər yaralanmışdır.

27 mart - Kəlbəcər rayonunun Narclılar və Çıraqlı kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 11 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

27 mart - 3 aprel - Cenevrədə aparılan sülh danışıqları ilə eyni vaxtda Ermənistan silahlı qüvvələrinin geniş miqyaslı hücumu nəticəsində 1936 km² sahəsi, 74 min nəfər əhalisi, 1 şəhər, 1 qəsəbə və 122 kənddən ibarət olan Kəlbəcər rayonu zəbt olundu. Azərbaycanın Kəlbəcər rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalı artıq münaqişəni mahiyyətcə yeni – işğalçılıq səviyyəsinə keçirdi.

30 mart - Ağstafa rayonunun Aşağı Kəsəmən kəndinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

31 mart - Kəlbəcər rayonunu məcburi tərk etmiş mülki şəxslərin rayonun Tunel adlanan ərazisində erməni silahlı dəstələri tərəfindən atəşə tutulması nəticəsində 3 yaşlı qız uşağı həlak olmuş, bir nəfər isə ağır yaralanmışdır.

31 mart - 6 aprel - Cenevrədə 5+1 formatlı görüş davam etdirilmişdir.

Aprelin əvvəlləri - Ermənistanın hərbi təcavüzünün daha da genişlənməsi və Kəlbəcər rayonunun işğalı ilə əlaqədar Türkiyə Xarici İşlər Nazirliyi bəyanatla çıxış etməklə yanaşı, Türkiyə hökuməti BMT Təhlükəsizlik Şurasından təcili iclasının çağırılmasını da xahiş etmişdir. O zaman Türkiyə Respublikasının Prezidenti Turqut Özal Azərbaycanı dəstəkləyərək Ermənistanın işğalçılıq siyasətinə son qoymasını tələb etmiş və Türkiyə dövləti məhz bu işğalın davam etməsi səbəbindən Ermənistanla sərhədini bağlamışdır.

Aprelin əvvəlləri - Tovuz rayonunun Əlibəyli kəndinə ermənilərin silahlı hücumu nəticəsində 6 nəfər həlak olmuşdur.

3 aprel - Gədəbəy rayonunun Novoivanovka kəndinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

6 aprel - ABŞ Dövlət Departamenti bəyanatla çıxış etdi. Bəyanatda "etnik erməni qüvvələrinin Kəlbəcər rayonuna hücumu" pislənilməklə yanaşı, deyilirdi: "ABŞ hökuməti bu hücumla əlaqədar dərin narahatlığını Ermənistanın yüksək səviyyəli hökumət rəhbərlərinə və Dağlıq Qarabağ ermənilərinin nümayəndələrinə bildirmişdir".

6 aprel - BMT Təhlükəsizlik Şurasının 3194-cü iclasında Təhlükəsizlik Şurası sədrinin bəyanatı qəbul olundu. Bəyanatda Kəlbəcərə hücum faktı təsdiq olunmaqla yanaşı, qoşunlarm dərhal çıxarılması tələbi də öz əksini tapdı. Bəyanatda göstərilirdi ki, Təhlükəsizlik Şurası bölgənin bütün dövlətlərinin suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını təsdiq edir.

Təhlükəsizlik Şurası sədrinin bəyanatında bir sıra qüsurlar da var idi. Qəbul edilmiş sənəddə Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasmdakı münasibətlərin pisləşməsi və Dağlıq Qarabağ

münaqişəsində düşmənçilik hərəkətlərinin artması, xüsusən yerli erməni qüvvələrinin Azərbaycan Respublikasının Kəlbəcər rayonuna müdaxiləsi kimi göstərilirdi ki, bu da Ermənistanın Azərbaycan ərazilərinin işğalında iştirakını heçə endirirdi.

6 aprel - BMT Təhlükəsizlik Şurasında aparılan müzakirələr zamanı Türkiyənin BMT-dəki daimi nümayəndəsi Mustafa Akşin bildirmişdi ki, Türkiyə Azərbaycanın hər hansı bir güc tərəfindən işğalına heç vaxt biganə qalmayacaqdır.

7 aprel - Ağdam rayonunun Papravənd kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuşdur.

7 aprel - Avropa Birliyi Dağlıq Qarabağa dair bəyanat vermişdir. Bəyanatda deyilirdi ki, Birlik və ona üzv olan dövlətlər Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Ermənistan Respublikası və Azərbaycan Respublikası arasında münasibətlərin son zamanlarda kəskin şəkildə pisləşməsindən dərin narahatlıq keçirir. Birlik və ona üzv olan dövlətlər hərbi əməliyyatların Kəlbəcər və Füzuli rayonları ərazisinə yayılmasından təəssüfləndiyini bildirir. Azərbaycan ərazilərinin dərhal azad edilməsi və bu ərazilərdə döyüşlərin dayandırılması məqsədilə Ermənistan hökuməti Dağlıq Qarabağın hərbi birləşmələri üzərində olan təsirindən istifadə etməyə qətiyyətlə çağırılır. Cərəyan edən son hadisələrə baxmayaraq, bütün tərəflərdən ATƏM-in Minsk qrupunda aparılan danışıqları tərk etməmək xahiş edilirdi.

15 aprel - Qubadlı rayonunun Muradxanlı kəndinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuşdur.

15 aprel - Avropa Şurası Nazirlər Komitəsi Dağlıq Qarabağ münaqişəsinin dərinləşməsi barədə bəyanat verdi. Sənəddə Nazirlər Komitəsi münaqişənin dərinləşməsi, xüsusilə, döyüş zonasının Azərbaycanın Kəlbəcər rayonuna kimi genişlənməsi ilə bağlı ciddi narahatlığını bildirirdi. Bununla yanaşı, Nazirlər Komitəsi BMT Təhlükəsizlik Şurası sədrinin dərhal bütün hərbi əməliyyatları dayandırmaq tələbini, regionda sülhə və sabitliyə təhlükə törədən bütün qüvvələrin çıxarılmasına dair çağırışlarını dəstəkləyirdi.

16 aprel - Tovuz rayonunun Ağdam və Əlibəyli kəndlərinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuş, 6 nəfər yaralanmışdır.

17 aprel - Goranboy rayonunun Tapqaraqoyunlu kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuşdur.

19 aprel - Tovuz rayonunun Koxanəbi kəndinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuşdur.

19 aprel - Gədəbəy rayonunun Göyəli kəndinə ermənilərin silahlı hücumu nəticəsində 5 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

25-29 aprel - Pakistan İslam Respublikasının Kəraçi şəhərində keçirilmiş İKT Xarici işlər nazirlərinin XXI konfransında Ermənistan-Azərbaycan münaqişəsinə dair qətnamə qəbul edildi. Qətnamədə Ermənistanın ölkəmizə qarşı təcavüzü pislənmiş, erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan torpaqlarından təcili çıxarılması tələb olunmaqla münaqişənin sülh yolu ilə aradan qaldırılmasının vacibliyi bildirilmişdir.

26-29 aprel - Azərbaycanın xahişi ilə Praqada Dağlıq Qarabağ münaqişəsinin davam etməsi, o cümlədən Kəlbəcər rayonunun işğalı ilə əlaqədar ATƏM-in YVŞK-nin fövqəladə iclası keçirildi. İclasda Heyki Happonenin başçılığı ilə ATƏM-in hazırlıq missiyasının münaqişə bölgəsinə aprel ayının ortalarında etdiyi səfəri barədə hesabatı dinlənildi.

29-30 aprel - Moskvada ABŞ, Rusiya və Türkiyə birgə təşəbbüslə çıxış etdilər. Münaqişəni dinc vasitələrlə nizama salmaq üçün təklif olunan layihəyə görə, erməni tərəfi mayın 9-dan başlayaraq öz ordu hissələrini Azərbaycanın Kəlbəcər ərazisindən çıxarmalı, münaqişə tərəfləri mayın 12-dən başlayaraq 60 gün müddətinə bütün hərbi əməliyyatları dayandırmalı və mayın 14-nə kimi Ermənistan ordusunun Kəlbəcərin ərazisindən çıxarılması ilə bağlı razılıq əldə edilməli idi. Lakin planı Azərbaycan tərəfi qəbul etsə də, Ermənistan tərəfi plandan imtina etdi və təcavüzkar siyasətini davam etdirdi.

30 aprel - BMT TŞ-nin 3205-ci iclasında Ermənistan-Azərbaycan münaqişəsinə dair 822 saylı qətnamə qəbul edildi. Sənəddə Təhlükəsizlik Şurası tərəfindən işğalçı qoşunların Kəlbəcər rayonundan və Azərbaycanın son zamanlar işğal olunmuş digər ərazilərindən dərhal çıxarılması tələb

olunurdu. Bu qətnamə Təhlükəsizlik Şurası sədrinin 1993-cü il 29 yanvar və 6 aprel tarixli bəyanatlarına və Baş Katibin 14 aprel tarixli məruzəsindəki faktlara əsaslanırdı.

Sənəddə Təhlükəsizlik Şurası sədrinin 6 aprel tarixli bəyanatında olduğu kimi Ermənistan ilə Azərbaycan arasında münasibətlərin pisləşməsi ilə əlaqədar Təhlükəsizlik Şurasının ciddi narahatlıq keçirdiyi bildirilir, bununla da Ermənistan Respublikasının münaqişədə bu və ya başqa formada iştirakı etiraf olunurdu. Bundan əlavə, qətnamədə bölgədəki bütün dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmət, eləcə də sərhədlərin toxunulmazlığı və ərazi əldə etmək üçün qüvvə tətbiq etməyin yolverilməzliyi bir daha təsdiq olundu.

1 may - Qazax rayonunun Quşçu Ayrım kəndinə ermənilər tərəfindən silahlı hücum nəticəsində 4 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

3 may - Rusiya prezidentinin təşəbbüsü əsasında hərbi əməliyyatların 60 günlük dayandırılması haqqında "Təxirəsalınmaz tədbirlər cədvəli" adlı plan Moskvada Azərbaycan və Ermənistan nümayəndələrinə təqdim olundu.

3 may - ABŞ Dövlət Departamentinin nümayəndəsi C.Snayder rəsmi bəyanatla çıxış etdi. Bəyanatda deyilirdi: "Birləşmiş Ştatlar sülh damşıqlarının yenidən başlanmasına nail olmaq üçün Rusiya və Türkiyə ilə birlikdə yeni təkliflər planı hazırlamış və tərəflərə təqdim etmişdir. Eyni zamanda o, bildirmişdir ki, münaqişənin nizama salınması üçün Birləşmiş Ştatlar aparıcı rolu öz üzərinə götürmüşdür".

10 may - Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Sərxanlı kəndinə ermənilərin silahlı hücumu nəticəsində 4 nəfər həlak olmuşdur.

20 may - Gədəbəy rayonunun Əyridərə otlaq sahəsinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuşdur.

25 may - Moskvada Rusiya və Ermənistan prezidentləri səviyyəsində keçirilən görüşdən sonra Ermənistan üçtərəfli Rusiya-ABŞ-Türkiyə sülh planından, demək olar ki, imtina etdi. Sonradan Ermənistan tərəfi bu planı qəbul etsə də, erməni silahlı qüvvələrinin hücumunun genişlənməsi onu göstərdi ki, Ermənistan münaqişənin dinc vasitələrlə həllinin tərəfdarı deyil.

2 iyun - Bakı dəmiryolu vağzalında sərnişin qatarının partladılması nəticəsində dövlətə külli miqdarda maddi ziyan dəymişdir. Partlayışm icraçısı Rusiya vətəndaşı İqor Xatkovski Ermənistan Respublikası Milli Təhlükəsizlik Baş İdarəsi Kəşfiyyat şöbəsinin rəisi, polkovnik Caan Ohanesyan tərəfindən məxfi əməkdaşlığa cəlb edilərək casusluq və terrorçuluq məqsədilə Azərbaycana göndərildiyini, böyük insan tələfatı ilə nəticələnəcək partlayışlar törətmək tapşırığı aldığını etiraf etmişdir. İstintaq zamanı sübuta yetirilmişdir ki, həmin qrup 1992-1994-cü illərdə Rusiya ərazisindən Bakıya gələn sərnişin qatarlarında silsilə partlayışlar törətmişdir.

3-4 iyun - ATƏM-in Minsk qrupunun üzvü olan 9 ölkənin – ABŞ, Rusiya, Fransa, Türkiyə, İtaliya, Almaniya, Çexiya, İsveç və Belarus nümayəndələrinin Romada keçirilən görüşündə Ermənistan-Azərbaycan münaqişəsinin nizamlanmasına dair növbəti sənəd işlənib hazırlandı. BMT TŞ-nın 822 saylı qətnaməsinin yerinə yetirilməsi və ATƏM çərçivəsində danışıqlar prosesinin davam etdirilməsinə yönəldilən "Təxirəsalınmaz tədbirlər cədvəli" qəbul edilərək tərəflərə təqdim olundu. Minsk qrupunun üzvü olan ölkələr və onun sədri münaqişənin bütün tərəflərini həmin sənədi ləngimədən və qeyd-şərtsiz qəbul etməyə çağırdılar. "Təxirəsalınmaz tədbirlər cədvəli"nə görə, münaqişə edən tərəflər təqdim olunan sənədi iyunun 11-dək imzalamalı və Minsk Konfransının fəaliyyətdə olan sədrinə göndərməli idilər. İyunun 13-də erməni tərəfi bildirməli idi ki, iyunun 15-dən etibarən öz silahlı qüvvələrini Kəlbəcər rayonundan tamamilə çıxarmağa başlayır. İyunun 18-də bütün münaqişə zonasında atəşin 60 günlüyə dayandırıldığı elan edilməli, ATƏM missiyası regiona gəlməli idi. İyunun 20-də erməni qoşunlarının Kəlbəcərdən çıxarılması başa çatdırılmalı və ATƏM missiyası iyunun 21-23-də qoşunların tamamilə çıxarıldığını yoxladıqdan sonra, iyunun 26-30-da Minsk qrupunun iştirakçısı olan dövlətlərin nümayəndələri Cenevrədə qeyri-formal məsləhətləşmələrə başlamalı idilər.

10 iyun - Şimali Atlantika Şurası Nazirlərinin görüşündə Yekun Kommünike qəbul edilmişdir. Sənəddə deyilirdi: "Biz bir sıra regional məsələlər, xüsusilə də ATƏM-in Dağlıq Qarabağ üzrə Konfransının məşğul olduğu münaqişəni və keçmiş Sovet İttifaqı ərazisində digər gərginlik mənbələrini, habelə Baltik dövlətləri ərazisindən xarici dövlətlərə məxsus

qüvvələrin çıxarılmasının tezliklə başa çatdırılmasının zəruriliyini müzakirə etmişik. Biz sabah Şimali Atlantika Əməkdaşlıq Şurasının Əməkdaşlıq Tərəfdaşları ilə də bütün qeyd edilən məsələlərə dair məsləhətləşmələr aparacağıq".

11 iyun - Afinada Şimali Atlantika Əməkdaşlıq Şurasının qəbul etdiyi bəyanatda deyilirdi: "Biz BMT Təhlükəsizlik Şurasının münaqişə tərəfləri və bütün ölkələr tərəfindən yubadılmadan, bütünlüklə icra edilməsi zəruri olan 822 saylı qətnaməsini qətiyyətlə dəstəkləyirik. Biz döyüş əməliyyatlarını dərhal dayandırmağa, işğalçı qoşunları Kəlbəcər rayonundan və Azərbaycanın işğal olunmuş digər rayonlarından çıxarmağa çağırırıq".

16 iyun - Rusiya "Birgə Koordinasiya Komissiyası"nın yaradılması haqqında ATƏM-in Minsk qrupunun "doqquzluğu"na təkrar təklif etdi.

24 iyun - Avropa İttifaqı Dağlıq Qarabağa dair bəyanat vermişdir. Bəyanatda deyilirdi ki, Birlik və ona üzv olan dövlətlər M. Rafaellinin təqdim etdiyi ATƏM planının Dağlıq Qarabağ mübahisəsinin bütün iştirakçıları tərəfindən qəbul edilməsini alqışlayır və inanırlar ki, sözügedən plan regionda hərtərəfli atəşkəs, BMT TŞ-nın 30 aprel 1993-cü il tarixli 822 saylı qətnaməsinin həyata keçirilməsi və Dağlıq Qarabağ münaqişəsinin danışıqlar vasitəsilə həlli istiqamətində əsil irəliləyiş üçün ən yaxşı ümiddir.

28 iyun-4 iyul - Rusiyanın vasitəçilik missiyasının Bakı, Yerevan və Xankəndinə səfəri olmuşdur.

İyun - Füzuli rayonunun Xatunbulaq kəndinə ermənilərin silahlı hücumu nəticəsində 5 nəfər həlak olmuşdur.

İyun - Ağcabədi rayonunun Qiyamədinli kəndinə ermənilərin silahlı hücumu nəticəsində 7 nəfər həlak olmuşdur.

İyun - Ağcabədi rayonunun Hindarx kəndinə ermənilərin silahlı hücumu nəticəsində 3 nəfər həlak olmuşdur.

İyun - Gədəbəy rayon mərkəzinin ermənilər tərəfindən müxtəlif növ silahlardan atəşə tutulması nəticəsində 11 nəfər həlak olmuşdur.

İlin ikinci yarısı - Ümummilli lider Heydər Əliyev yenidən hakimiyyətə qayıdışından sonra respublikamızın təhlükəsizlik problemlərini, xüsusilə, Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları və hərbi təcavüzü məsələlərini beynəlxalq aləmə çıxararaq,

regionda sülhün bərqərar olması üçün beynəlxalq təşkilatların təsirini artırmağa çalışmışdır.

İyulun ortaları – Münaqişə tərəflərinin BMT TŞ-nin 822 saylı qətnaməsinin yerinə yetirilməsi və ATƏM çərçivəsində danışıqlar prosesinin bərpa olunması barədə Minsk qrupuna daxil olan 9 ölkənin nümayəndələrinin Romada işləyib hazırladığı təklifləri qəbul etdiyi bir vaxtda Ermənistan silahlı qüvvələri Azərbaycanın Ağdam və Ağdərə bölgələrində döyüş əməliyyatlarını gücləndirdilər.

12 iyul - ATƏM-in Minsk Konfransının sədri M.Raffaelli "doqquzlar"ın hazırladığı "cədvəl"in qəbul olunmasını tərəflərə çatdırmaq üçün Bakı, Yerevan və Xankəndinə səfər etmişdir.

16 iyul - Vyanada Minsk qrupunun növbəti iclasında M.Raffaellinin regiona səfərinin yekunları haqqında məruzəsi dinlənildi. Səfər nəticəsində məlum oldu ki, Ermənistan BMT TŞ-nın 822 saylı qətnaməsini və ATƏM-in Minsk qrupunun üzvü olan 9 ölkənin Romada işləyib hazırladığı "Təxirəsalınmaz tədbirlər cədvəli"ni yerinə yetirmək niyyətində deyil.

22 iyul - Tərtər rayonunda ermənilər tərəfindən törədilmiş partlayış nəticəsində 5 nəfər həlak olmuş, 18 nəfər yaralanmışdır.

22 iyul - Qazax rayon mərkəzində ermənilər tərəfindən mina partladılması nəticəsində 6 nəfər həlak olmuş, 10 nəfər yaralanmışdır.

21 iyul - 12 avqust - Romada ATƏM-in Minsk qrupunun tərəflərin iştirakı olmadan tam tərkibdə iclası keçirilmiş və BMT TŞ-nın qətnaməsinin icrası ilə bağlı yeni "Təxirəsalınmaz tədbirlər cədvəli" qəbul olunmuşdur.

22 iyul - Erməni terrorçuları tərəfindən Tərtər rayonunda törədilmiş partlayış nəticəsində 5 nəfər həlak olmuş, 18 nəfər yaralanmışdır.

22 iyul - Qazax rayonunda erməni terrorçuları tərəfindən törədilmiş partlayış nəticəsində 6 nəfər həlak olmuş, 10 nəfər yaralanmışdır.

23 iyul - Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı hücumu nəticəsində 1094 km² sahəsi, 165, 6 min nəfər əhalisi, 1 şəhər və 126 kənddən ibarət olan Ağdam rayonu işğal edildi.

Hazırda Ağdam rayonunun Quzanlı qəsəbəsi və 43 kəndi Azərbaycanın nəzarətindədir və həmin ərazilərdə 90 min əhali (37 min yerli, 53 min məcburi köçkün) məskunlaşmışdır. Ağdam şəhəri və 126 kəndin 83-ü Ermənistan silahlı qüvvələrinin işğalı altındadır.

23 iyul - Ağdam rayonuna erməni təcavüzü başlayandan dərhal sonra Azərbaycan bölgədə yaranmış vəziyyətlə əlaqədar BMT Baş Katibinə və Təhlükəsizlik Şurasının sədrinə müraciət etdi. Azərbaycan dövləti atəşin qəti şəkildə dayandırılması məqsədilə Ermənistan Respublikasından hərbi əməliyyatlara son qoymağı, habelə zəbt olunmuş Azərbaycan ərazilərindən işğalçı qüvvələrin dərhal çıxarılmasını tələb etdi.

23 iyul - Ermənistan silahlı qüvvələri tərəfindən Ağdam şəhərinin işğal olunmasından sonra ABŞ Dövlət Departamenti növbəti bəyanat verdi. Bəyanatda Ağdama edilən hücumun yenə də Dağlıq Qarabağ erməni qüvvələri tərəfindən həyata keçirildiyi vurğulanır, həmin qüvvələrin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılması təkid edilirdi.

24 iyul - ATƏM-in Minsk Konfransının sədri M.Rafaelli Ağdam şəhərinin işğalı barədə bəyanat vermişdir.

26 iyul - Azərbaycan Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev BMT Təhlükəsizlik Şurasının sədrinə Ermənistan silahlı qüvvələri tərəfindən Ağdam rayonunun işğalı ilə əlaqədar yazılı müraciət etmişdir.

26 iyul - Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev BMT-nin Baş katibinə məktubunda qeyd etmişdir ki, Minsk konfransının keçirilməsi haqqında ATƏM-in Nazirlər Şurasının qərarından bir ildən çox keçməsinə baxmayaraq, o vaxt, yəni sənəd qəbul edilən zaman vəziyyəti bərpa etməyin və Minsk konfransını keçirməyin mümkün yolu kimi Şuşa və Laçının azad edilməsindən danışırdıqsa, indi Azərbaycan ərazisinin 17 faizindən çoxu erməni təcavüzkarları tərəfindən qəsb olunmuşdur. Eyni zamanda sənəddə göstərilirdi ki, Qarabağın bütün dağlıq hissəsinin, eləcə də Laçın, Kəlbəcər rayonları bütünlüklə, Naxçıvan Muxtar Respublikasının, Qazax, Füzuli, Zəngilan və Ağdam rayonlarının kəndləri, yəni 503 yaşayış məntəqəsinin işğal olunması nəticəsində qaçqın və köçkünlərin ümumi sayı 567 min nəfərə çatmışdır.

Bununla yanaşı, Azərbaycan rəhbəri kimi Heydər Əliyev Ermənistanın BMT Təhlükəsizlik Şurasının işğal olunmuş ərazilərin azad

edilməsi haqqında qəbul etdiyi sənədlərə, eləcə də 822 saylı qətnaməyə məhəl qoymadığını diqqətə çatdıraraq, təcavüzkarın qarşısının alınması, qan tökülməsinin dayandırılması, işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsinə yönəlmiş təxirəsalınmaz tədbirlərin görülməsi üçün Təhlükəsizlik Şurasının dərhal çağırılmasını xahiş etmişdir.

29 iyul - Ağdamın işğalından sonra BMT Təhlükəsizlik Şurasının 3259-cu rəsmi iclasının gündəliyində bir məsələ dururdu: "Dağlıq Qarabağda vəziyyət". İclasın başlanğıcında Təhlükəsizlik Şurasının sədri Devid Henney (Böyük Britaniya) Şura üzvlərinə məlumat verərək bu iclasın Azərbaycan dövləti adından Təhlükəsizlik Şurasına göndərilən və BMT-dəki daimi nümayəndəlik tərəfindən yayılmış məktubdakı təkidli xahişə müvafiq surətdə keçirildiyini bildirdi.

Müzakirələrdən sonra BMT Təhlükəsizlik Şurası Azərbaycanın Ağdam rayonunun işğal edilməsi ilə bağlı 853 saylı qətnamə qəbul etdi. Bu qətnamədə də Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında gərginliyin olduğu göstərilir, beynəlxalq sərhədlərin pozulmazlığı və ərazilərin zor gücünə ələ keçirilməsinin yolverilməzliyi bir daha təsdiq olunur, hərbi əməliyyatların təxirə salınmadan dayandırılması və münaqişədə iştirak edən işğalçı qüvvələrin Azərbaycan Respublikasının Ağdam rayonundan və bu yaxınlarda işğal olunmuş bütün digər rayonlarından dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələb olunurdu.

Lakin Ermənistanın Azərbaycana qarşı açıq-aşkar təcavüzünün artdığı bir vaxtda beynəlxalq təşkilatlar və böyük dövlətlər hadisələrə çox ehtiyatla yanaşdılar. Hələ 853 saylı qətnamə qəbul edilməzdən əvvəl Ağdamın işğalı ilə bağlı Təhlükəsizlik Şurasında keçirilən məsləhətləşmələrdə Şuranın daimi üzvləri ABŞ, Fransa və Rusiya Ermənistanın bu açıq-aşkar təcavüzünə Azərbaycanla Dağlıq Qarabağ arasındakı münaqişə kimi baxırdılar. Həmin ölkələrin nümayəndələri, xüsusilə Fransa nümayəndəsi qətnamə qəbul edilərkən Ağdam və digər işğal olunmuş ərazilərə hücumu "Dağlıq Qarabağ ermənilərinin" hərəkəti kimi qiymətləndirdi. Sənəddə Ermənistan təcavüzkar dövlət kimi tanınmadı.

Təəssüf ki, Baş Katibin, eləcə də Təhlükəsizlik Şurasının bölgədə yaranmış vəziyyətə vaxtında obyektiv qiymət verməməsi və təcavüzkarın cəzasız qalması Ermənistanı daha da ruhlandırdı. Bu da Ermənistan silahlı

qüvvələri tərəfindən Azərbaycanın digər ərazilərinin işğal olunmasına gətirib çıxardı.

İyul - İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) İstanbulda keçirilmiş ikinci görüşündə iştirak edən dövlət başçılarının bəyanatında deyilirdi ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü BMT Nizamnaməsinin, beynəlxalq hüququn, insan haqları barədə ATƏM sənədlərinin prinsip və məqsədlərini pozur. Görüş iştirakçıları Ermənistana müraciət edərək onu təcavüzkar mövqeyini dəyişməyə və bölgədə sabitliyin, əmin-amanlığın bərqərar olmasını təmin edən sülh siyasəti aparmağa çağırdılar.

İyul - Tərtər rayonunun Şəhriyar qəsəbəsinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır.

İyul - Cəbrayıl rayon mərkəzinin ermənilər tərəfindən "Qrad" qurğuları ilə atəşə tutulması nəticəsində 3 nəfər həlak olmuş, 11 nəfər yaralanmışdır.

İyul - Ağdam rayonunun Şaybalı kəndinə ermənilərin silahlı hücumu nəticəsində 7 nəfər həlak olmuş, 14 nəfər yaralanmışdır.

İyul - Tərtər rayon mərkəzinin ermənilər tərəfindən atəşə tutulması nəticəsində 1 nəfər həlak olmuş, 6 nəfər yaralanmışdır.

İyul - Füzuli rayonunun Qoçəhmədli kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

4-5 avqust - Romada ATƏM-in Minsk "doqquzluğu"nun görüşü keçirilmiş və Dağlıq Qarabağda vəziyyət müzakirə edilmişdir.

9 avqust - Romada ATƏM-in Minsk qrupunun, Azərbaycan və Ermənistan nümayəndələrinin məsləhətləşmələri zamanı erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmasını nəzərdə tutan yeni "Təxirəsalınmaz tədbirlər cədvəli" müzakirə olundu.

13 avqust - Minsk qrupunun üzvü olan "doqquzlar" BMT Təhlükəsizlik Şurasının 822 və 853 sayh qətnamələrinin yerinə yetirilməsinə dair "Təxirəsahnmaz tədbirlər cədvəli"nin yenidən baxılmış variantını hazırlayaraq onu münaqişə edən tərəflərin müzakirəsinə göndərdi. Tərəflərin mövqeyi aydınlaşdıqdan sonra konkret qərar çıxarılması üçün "doqquzlar"ın yeni görüşünün keçirilməsi planlaşdırıldı.

Təqdim olunan bu "cədvəl" Azərbaycanın mənafeyinə zidd olduğundan, bu plana öz kəskin etirazını bildirdi. Yenidən işlənmiş bu

sənədə görə, ATƏM müşahidəçilərinin münaqişə bölgəsində yəni Azərbaycan ərazisində yerləşdirilməsi nəzərdə tutulurdu. Ermənistanla həmsərhəd olan rayonlarda isə yalnız 10 kilometrlik xətti nəzarət altına götürmək planlaşdırılırdı. Bu cür vəziyyət ermənilərə Azərbaycan sərhədlərinin yaxınlığında güclü hərbi müdafiə və hücum kompleksi yaratmaq üçün imkan verərdi. Bütün bu müddəalar Azərbaycan üçün qəbuledilməz idi.

13 avqust - Tovuz rayon mərkəzinin ermənilər tərəfindən "Qrad" qurğuları ilə atəşə tutulması nəticəsində 4 nəfər həlak olmuş, 7 nəfər yaralanmışdır.

17 avqust - Rusiyanın vasitəçiliyi ilə avqustun 18-dən 5 gün müddətinə atəşin dayandırılması haqqında razılıq əldə olundu.

18 avqust - Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev BMT Təhlükəsizlik Şurasının sədrinə və BMT-nin Baş katibinə məktubunda 822 və 853 saylı qətnamələrin qəbul edilməsindən kifayət qədər vaxt keçməsinə baxmayaraq, təcavüzkar Ermənistanın Azərbaycan ərazilərinə hücumunu genişləndirərək bütün beynəlxalq hüquq normalarına məhəl qoymadığını bir daha diqqətə çatdırmışdır. Bu səbəbdən Azərbaycan rəhbəri kimi Heydər Əliyev təcavüzkarın qarşısının alınması, qan tökülməsinin dayandırılması, işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsinə yönəlmiş təxirəsalınmaz tədbirlərin görülməsi üçün Təhlükəsizlik Şurasının dərhal çağırılmasını xahiş etmişdir.

18 avqust - BMT Təhlükəsizlik Şurası adından ABŞ-ın BMT-dəki daimi nümayəndəsi xanım Madelin Olbrayt bəyanat verdi. Bəyanatda deyilirdi ki, Təhlükəsizlik Şurası Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi və onların arasındakı gərginliklə əlaqədar ciddi narahatlıq keçirir. Şura habelə, Füzuli rayonunda döyüş əməliyyatlarının güclənməsindən dərin narahatlığını bildirirdi. Kəlbəcər, Ağdam rayonlarına edilən müdaxilə və işğal kimi, Füzuli rayonuna da hücum pisləniliridi.

Bununla yanaşı, bəyanatda Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı, Dağlıq

Qarabağın Azərbaycan ərazisi olması təsdiq olunur, məsələlərin ATƏM-in Minsk qrupu çərçivəsində həllinə üstünlük verilirdi.

Eyni zamanda sənəddə Şura, bütün tərəfləri avqustun 13-də Minsk qrupunun təqdim etdiyi "BMT Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrinin yerinə yetirilməsinə dair "Təxirəsalınmaz tədbirlər cədvəli"nin dəqiqləşdirilmiş variantına razılaşdırılmış müsbət cavab verməyə və məsələnin sülh yolu ilə həllini poza biləcək hər hansı hərəkətdən çəkinməyə çağırırdı. Dövlətlərə müraciət edilirdi ki, Azərbaycan Respublikasının ərazilərinin işğalının davam etdirilməsinə və münaqişənin güclənməsinə səbəb olan regiona silah göndərməkdən imtina etsinlər.

23 avqust - Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı hücumu nəticəsində 1386 km² sahəsi, 95, 9 min nəfər əhalisi, 1 şəhər, 1 qəsəbə, 1 şəhər tipli qəsəbə və 71 kəndi olan Azərbaycanın Füzuli rayonu işğal edildi. Rayonun son kəndi 26 oktyabr 1993-cü ildə (bütün rayon üzrə təxminən 7 ay güclü döyüşlər getdikdən sonra) işğal olunmuşdur.

1994-cü ilin yanvar ayında Horadiz qəsəbəsi, eləcə də 22 kənd işğaldan azad edilmiş və hazırda Azərbaycanın nəzarətindədir. Azad olunan ərazilər minalardan təmizlənərək yeni qəsəbələr salınmışdır ki, burada 65 min 545 nəfər yerli, 50 min isə məcburi köçkün məskunlaşmışdır. Hazırda Füzuli şəhəri və 81 kəndin 58-i Ermənistan silahlı qüvvələrinin işğalı altındadır.

23 avqust - Ermənistan silahlı qüvvələri 1050 km² sahəsi, 52,6 min nəfər əhalisi, 1 şəhər, 4 qəsəbə və 92 kənddən ibarət olan Azərbaycanın Cəbrayıl rayonunu bütünlüklə işğal etdilər.

25 avqust - Cəbrayıl rayonunun Minbaşlı kəndinə ermənilərin silahlı hücumu nəticəsində 50 nəfər itkin düşmüşdür.

28 avqust - Bütün Azərbaycan-Ermənistan sərhədi boyu atəşin dayandırılması haqqında Rusiyanın təklifi Ermənistan tərəfindən qəbul edilmədi.

30 avqust - Hadrut rayonu ərazisində ermənilər tərəfindən "ZİL" markalı maşının partladılması nəticəsində maşında olan Hoğa (indiki Üçbulaq) kəndinin mülki sakinləri 2 nəfər həlak olmuşdur. Həmin hadisədən bir neçə gün sonra PAZ-66 markalı sərnişin avtobusu da Hoğa

kəndindən çıxarkən ermənilər tərəfindən qumbaraatanla vurulmuş və nəticədə 4 nəfər həlak olmuş, 8 nəfər ağır yaralanmışlar.

31 avqust - Tovuz rayonunun Əlibəyli kəndinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuşdur.

31 avqust - Ermənistan silahlı qüvvələri 802 km² sahəsi, 30,3 min nəfər əhalisi, 1 şəhər və 93 kənddən ibarət olan Azərbaycanın Qubadlı rayonunu bütünlüklə işğal etdilər.

3 sentyabr - Avropa İttifaqı Dağlıq Qarabağa dair bəyanat vermişdir. Bəyanatda deyilirdi ki, Birlik və ona üzv olan dövlətlər Dağlıq Qarabağda getdikcə genişlənməkdə olan və Azərbaycan ərazisini işğal edən yerli erməni qoşunlarının hücumlarını pisləyərək təəssüf hissi ilə qeyd edirlər ki, bu hərəkətlər döyüş bölgəsini genişləndirməklə daha böyük Azərbaycan ərazisini əhatə edir, Azərbaycanda çox ciddi qaçqın problemi meydana gətirir və qonşu ölkələri qatmaqla regional təhlükəsizliyi təhdid altına alır.

9-11 sentyabr - Moskvada "Təxirəsalınmaz tədbirlər cədvəli"nin tamamlanması və onun fəaliyyətinin aktivləşdirilməsi məqsədilə ATƏM-in Minsk qrupunun görüşü keçirilmişdir (Bu Minsk qrupunun Romadan kənarda ilk görüşü idi).

21-28 sentyabr - Parisdə ATƏM-in Minsk qrupunun görüşü keçirilmiş və "Təxirəsalınmaz tədbirlər cədvəli" yenilənmişdir.

23 sentyabr - Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyev BMT-nin Azərbaycandakı nümayəndəsi Mahmud əl-Səidlə görüşdə BMT ilə əməkdaşlıqdan, onun Bakıdakı fəaliyyətindən razılıq ifadə etməklə yanaşı, ATƏM-in missiyasına münasibətini də bildirmişdir: "Biz bu təşkilatdan çox şey gözləyirik. Amma son vaxtlar bəzi dövlətlər bu təşkilatın fəaliyyətinin sıxışdırılmasını istəyirlər. Biz bununla qətiyyən razı deyilik, çünki ATƏM-ə BMT-nin bir hissəsi kimi baxırıq və istəyirik ki, bu təşkilatlar öz fəaliyyətlərinin əməli nəticələrini əldə etsinlər".

23-25 sentyabr - Moskvada ATƏM-in fəaliyyətdə olan sədri və Minsk Konfransı sədrinin nümayəndələri M.Mossberg və L.Fonarinin məsləhətləşmələri keçirilmişdir.

24 sentyabr - Rusiyanın vasitəçiliyi ilə atəşkəsin noyabrın 5-inə qədər uzadılması haqqında şifahi razılıq əldə edilərək "Yol xəritəsi-2" adlanan təklif razılaşdırıldı, lakin həyata keçirilmədi.

28 sentyabr - Parisdə keçirilən görüşdə ATƏM-in Minsk qrupu tərəfindən hazırlanmış yeni "Təxirəsalınmaz tədbirlər cədvəli" tərəflərin müzakirəsinə verildi. "Cədvəl"in yeni layihəsində Azərbaycan tərəfinin heç bir təklifi nəzərə alınmamışdı. Ona görə də Azərbaycan BMT TŞ-ə müraciət edərək cədvəldə Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrinə və Təhlükəsizlik Şurasının 18 avqust tarixli bəyanatına zidd olan bir sıra müddəalar olduğunu bildirdi. Yeni hazırlanmış "cədvəl" Azərbaycanın zəbt olunmuş rayonlarından işğalçı qüvvələrin qeyd-şərtsiz çıxarılması haqqında 853 saylı qətnamənin üçüncü bəndini pozaraq həmin qüvvələrin çıxarılması üçün ilkin şərtlər irəli sürürdü. "Cədvəl"in bu variantında erməni qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan ərazilərinin adı və bu ərazilərin həmin qüvvələrdən təmizlənməsi üçün tədbirlər göstərilmirdi.

Sentyabr - Qazax rayon mərkəzinin ermənilər tərəfindən "Qrad" qurğuları ilə atəşə tutulması nəticəsində 3 nəfər həlak olmuş, 8 nəfər yaralanmışdır.

6-14 oktyabr - Fəaliyyətdə olan sədrin şəxsi nümayəndəsinin rəhbərliyi altında ATƏM missiyasının münaqişə regionuna səfəri olmuşdur.

14 oktyabr - BMT Təhlükəsizlik Şurası özünün 3292-ci iclasında R.Sardenberqin (Braziliya) sədrliyi ilə Ermənistan-Azərbaycan münaqişəsinə dair 874 saylı qətnamə qəbul etdi. Sənəddə BMT Təhlükəsizlik Şurası Azərbaycanın ərazi bütövlüyünü bir daha təsdiq edərək işğal olunan torpaqların azad olunmasını tələb etmişdir. Bu qətnamədə sentyabrın 28-də ATƏM-in Parisdə keçirilən görüşündə hazırlanan və Azərbaycan tərəfindən qəbul edilməyən "Təxirəsalınmaz tədbirlərin yeniləşdirilmiş cədvəli" bəyənilir, ona üstünlük verilirdi.

Əvvəlki sənədlərdə olduğu kimi, bu qətnamədə də Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasındakı münasibətlərdə olan gərginliklə əlaqədar ciddi narahatlıq ifadə edilir, dövlətlərin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərin toxunulmazlığı və ərazi əldə etmək üçün qüvvə tətbiq olunmasının yolverilməzliyi bir daha təsdiq olunurdu.

Lakin cəzasız qaldığından istifadə edən Ermənistan Respublikası təcavüzkarlığını daha da genişləndirərək BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 saylı qətnamələrinə məhəl qoymayaraq Azərbaycanın digər yeni ərazilərini işğal etdi.

23 oktyabr - Ermənistan Respublikasının silahlı qüvvələri atəşin dayandırılması haqqında razılaşmanı pozaraq Azərbaycan Respublikasının cənub-qərb rayonlarına güclü hücuma keçdi. Ermənistan ordusunun bu hücumda başlıca məqsədi Azərbaycan Respublikasının Zəngilan rayonunu ələ keçirmək, bununla da Azərbaycanın cənub-şərq hissəsinin tamamilə işğal olunmasını başa çatdırmaq idi. Bu məqsədi həyata keçirmək üçün Zəngilan rayonuna hücumdan bir neçə gün əvvəl Ermənistan ordusu Azərbaycanın cənubunda mühüm kommunikasiya qovşağı olan Horadiz qəsəbəsini tutmaqla Horadiz-Zəngilan sahəsində avtomobil və dəmir yollarını kəsmişdi.

Beləliklə, Azərbaycanın 30 min nəfərdən artıq əhalisi olan Zəngilan rayonu mühasirəyə düşmüş və onun Azərbaycanın digər rayonları ilə əlaqəsi kəsilmişdi. Zəngilan rayonuna hücum zamanı Ermənistan silahlı qüvvələrinin ön hissələri Azərbaycanın İranla dövlət sərhəddinə bilavasitə yaxınlaşmış və sərhədin 70 kilometr uzunluğunda məsafəsini nəzarət altına almışdı. Nəticədə, Azərbaycanın onlarca yaşayış məntəqəsi Ermənistan Respublikasının qoşunları tərəfindən işğal olundu.

25 oktyabr - ATƏM-in fəaliyyətdə olan sədri xanım Marqareta af Uqlasın münaqişə bölgəsinə səfəri zamanı Ermənistan silahlı qüvvələri hərbi əməliyyatları genişləndirərək Azərbaycanın Zəngilan rayonunu işğal etdi. ATƏM-in fəaliyyətdə olan sədri bununla əlaqədar bəyanat verərək bildirdi ki, zor gücünə ərazilərin qəsb olunması heç vaxt ərazi iddialarının əsası kimi qəbul edilə bilməz.

25 oktyabr - Qazax rayonunun Fərəhli kəndi ermənilərin silahlı hücumuna məruz qalmış, nəticədə 2 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

25 oktyabr - Ağstafa rayonunun Dağ Kəsəmənli kəndinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuşdur.

29 oktyabr - Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı hücumu nəticəsində 707 km² sahəsi, 32,6 min nəfər əhalisi, 1 şəhər, 1 şəhər tipli

qəsəbə və 81 kənddən ibarət olan Azərbaycanın Zəngilan rayonu bütünlüklə işğal edildi.

29 oktyabr - Azərbaycan dövləti Ermənistanın təcavüzkarlığının genişlənməsi ilə əlaqədar olaraq BMT Baş Katibinə, Təhlükəsizlik Şurasının sədrinə müraciət edərək beynəlxalq birliyin diqqətini Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı birbaşa təcavüz həyata keçirdiyinə cəlb etdi və təcavüzkara qarşı bütün lazımi tədbirləri görməyə çağırdı.

Oktyabr - BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvünün xarici işlər nazirləri BMT-nin Baş Katibi B.Butros Qali ilə keçirilmiş görüşün yekunlarına dair bəyanatda Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində ATƏM-in səylərini müdafiə etdiklərini bildirmişlər. "Beşlər"in bəyanatının Azərbaycana aid olan hissəsi BMT Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrinin tələblərinə uyğun idi. Bu, istər BMT və ATƏM-in, istərsə də ayrı-ayrı ölkələrin vasitəçiliyi sayəsində Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına imkan verirdi.

Oktyabr - Ağdam rayonunun Qərvənd kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuşdur.

Oktyabr - Gədəbəy rayonunun Qaravəllər kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 1 nəfər yaralanmışdır.

2 noyabr - Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə yeni hücumları və təcavüzü ilə bağlı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev milli televiziya və radio ilə xalqa müraciətində Ermənistanın işğalçılıq siyasətinin nəticələri və ölkədə yaranmış ictimai-siyasi vəziyyət barədə məlumat vermişdir.

2-8 noyabr - Vyanada keçirilən görüşdə ATƏM-in Minsk qrupunun üzvü olan 9 dövlət Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar bəyanat verdi. Bəyanatda döyüş əməliyyatlarının başlanması və yeni ərazilərin güc vasitəsilə tutulması ATƏM prinsiplərinin pozulması kimi qiymətləndirilirdi. Minsk qrupu hüquqi statusu zor gücünə dəyişdirmək cəhdini pisləyir və bundan beynəlxalq aləmdə təsdiq olunmaq üçün istifadə etməyin yolverilməzliyini bildirirdi.

9 noyabr - Avropa İttifaqının Dağlıq Qarabağa dair verdiyi bəyanatda deyilirdi ki, Avropa İttifaqı 1993-cü il oktyabrın 24-də Dağlıq Qarabağ bölgəsində atəşkəs haqqında sazişin pozulmasını pisləyir və bu yaxınlarda işğal olunmuş ərazilərdən bütün qüvvələri çıxarmağa çağırır, eləcə də Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə əhəmiyyət verdiyini təsdiqləyir.

12 noyabr - Ermənistan-Azərbaycan münaqişəsinin genişlənməsi və Ermənistan silahlı qüvvələri tərəfindən Zəngilan rayonunun işğalı ilə əlaqədar Azərbaycan dövlətinin xahişi ilə BMT Təhlükəsizlik Şurası özünün 3313-cü iclasında J.L.Çesusanın (Kabo Verde) sədrliyi ilə vəziyyəti müzakirə edərək 884 saylı qətnamə qəbul etdi.

Bu qətnamədə də Təhlükəsizlik Şurasının Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişənin davam etməsindən və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin gərgin olaraq qalmasından ciddi narahat olduğu bildirilir, atəşkəsin pozulması nəticəsində hərbi əməliyyatların genişlənməsi, həddən artıq güc tətbiq edilməsi, o cümlədən Azərbaycan Respublikasının Zəngilan rayonunun və Horadiz şəhərinin işğalı təşvişlə qeyd edilir, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü, həmçinin beynəlxalq sərhədlərin pozulmazlığı və ərazi əldə etmək üçün güc tətbiq edilməsinin yolverilməzliyi bir daha təsdiq olunurdu. Ümumilikdə, 884 saylı qətnamə əvvəlki, yəni – 822, 853, 874 saylı qətnamələrin məzmununu bir daha təsdiqləyirdi.

Ümumiyyətlə, 1993-cü il ərzində Ermənistanın təcavüzünün genişlənməsi ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi bütün sənədlərdə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının zəruriliyi bildirilirdi. Lakin Təhlükəsizlik Şurasının daimi üzvləri olan böyük dövlətlər Ermənistanın təcavüzkar dövlət kimi tanınmasına razılıq vermədilər. Böyük dövlətlər Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan ərazilərindən dərhal çıxmasına deyil, münaqişənin atəşkəs və danışıqlar yolu ilə həll olunmasına üstünlük verdilər.

BMT TŞ-də aparılan müzakirələr zamanı və sənədlər qəbul edilərkən Şuranın daimi üzvləri olan böyük dövlətlər

Ermənistan-Azərbaycan münasibətlərinin kəskinləşməsinin səbəblərinin, xarakterinin və məzmununun qiymətləndirilməsinə birmənalı yanaşmadılar. Qəbul edilən bütün sənədlərdə Ermənistanın Azərbaycana qarşı təcavüzü bu dövlətlərin "səyləri" nəticəsində "Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişə" kimi qiymətləndirildi.

Ermənistanın Azərbaycana qarşı açıq-aşkar müharibə apararaq BMT üzvü olan dövlətin ərazisinin ilhaqını davam etdirməsi nəticəsində ölkəmizin ərazisinin 20 %-dən çox hissəsi Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Azərbaycanın işğal olunmuş ərazilərindən 1 milyondan çox əhali öz torpağında qaçqın vəziyyətinə düşdü. Yüzlərlə yaşayış məntəqəsi dağıdıldı, talan edildi və yandırıldı.

Ermənistan özünün minimum proqramını həyata keçirdikdən, yəni Dağlıq Qarabağ regionunun bütün ərazisini işğal etdikdən sonra onun sərhədləri boyunca "bufer zonası" yaratmağa başladı. Bu zona işğal edilmiş Dağlıq Qarabağ ətrafında yerləşən Azərbaycan rayonlarını əhatə edir. Təcavüzün gedişində Azərbaycanın Ermənistanla həmsərhəd rayonlarının, demək olar ki, hamısı iki istiqamətdə: zəbt edilmiş Dağlıq Qarabağ regionundan və bilavasitə Ermənistan Respublikası ərazisindən aparılan hücumlardan sonra işğal olunmuşdur. Nəticədə, Azərbaycanın Ermənistanla dövlət sərhəddinin 70 %-dən çoxu və İran İslam Respublikası ilə sərhəddinin 160 kilometri işğalçı dövlətin qoşunlarının nəzarəti altına düşdü.

Ermənistan-Azərbaycan münaqişəsinin dinc yolla aradan qaldırılması sahəsində BMT və dünya birliyinin göstərdiyi səylər, təəssüf ki, Ermənistan Respublikasının açıq-aşkar hərbi işğalçılıq mövqeyi tutması ucbatından təsirli nəticələr vermədi. BMT-nin isə regionda sülhpərvərlik fəaliyyətinin uğursuzluqlarının başlıca səbəbi məhz Azərbaycan Respublikasına qarşı Ermənistan Respublikasının təcavüzü faktının birbaşa etiraf olunmaması ilə bağlıdır.

12-19 noyabr - Rusiyanın vasitəçilik missiyasının Azərbaycana səfəri olmuşdur.

23 noyabr - 1993-cü ildə Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərinə genişmiqyaslı hücumu və torpaqlarımızın işğalı ilə əlaqədar BMT iqamətgahında İKT-nin üzvü olan ölkələrin Xarici işlər

nazirlərinin əlaqələndirmə toplantısı keçirilmiş, burada Azərbaycan Prezidenti Heydər Əliyevin erməni təcavüzü ilə əlaqədar ölkəmizin düşdüyü vəziyyət barədə toplantı iştirakçılarına müraciəti oxunmuş və Ermənistanın son təcavüzü ilə bağlı bəyanat qəbul edilmişdir.

28 noyabr - Romada ATƏM-in Minsk qrupunun qeyri-formal məsləhətləşmələri keçirilmişdir.

30 noyabr - 1 dekabr - ATƏM-in Xarici İşlər Nazirləri Şurasının Romada keçirilən 4-cü görüşündə ATƏM-in fəaliyyətdə olan sədri Beniamino Andreatta bəyanatla çıxış edərək Dağlıq Qarabağa dair Minsk Konfransının yeni sədri Yan Eliassonu təqdim etdi. Daha sonra Azərbaycan, Türkiyə, Ermənistan nümayəndələri də bəyanatla çıxış etdilər.

Azərbaycanın bəyanatında göstərilirdi ki, Ermənistan Respublikasının mövqeyi münaqişənin aradan qaldırılması yolunda maneəyə çevrilmişdir. Ermənistanın məqsədi ərazi ələ keçirməklə başladığı təcavüz üçün məsuliyyətdən qaçmaq, Dağlıq Qarabağ bölgəsinin ermənilər üçün siyasi status almaq və Azərbaycanın işğal olunmuş ərazilərinin ilhaqına nail olmaqdır. Bəyanatda bildirilirdi ki, Ermənistanın açıq-aşkar hərbi işğalçılıq mövqeyi tutması ucbatından ATƏM-in Minsk prosesi çərçivəsində aparılan danışıqların heç bir nəticəsi olmamışdır. Bu uğursuzluğa və tutduğu mövqeyə görə Azərbaycan tərəfi ATƏM-in Minsk qrupunu da günahlandıraraq bildirdi ki, BMT Təhlüksizlik Şurasının qətnamələrinin tələblərinin qeyd-şərtsizliyinə laqeyd yanaşan Minsk qrupu erməni qüvvələrinin çıxarılması müqabilində Azərbaycan tərəfi qarşısında birmənalı olmayan ilkin şərtlər irəli sürür ki, bu da erməni tərəfinin getdikcə artan işğalçılıq niyyətlərini ödəməyə xidmət edir. Nəticədə, Ermənistanın təcavüzü genişləndikcə Azərbaycan daha çox təzyiqə məruz qalır.

Bununla yanaşı, ATƏM-in Romada keçirilən iclasında gündəliyə "Ermənistanın Azərbaycana qarşı təcavüzü" adlı bənd salınmışdı. Lakin Ermənistan Respublikası bu görüşdə də qeyri-konstruktiv mövqe tutaraq, ATƏM çərçivəsində ümumi razılığı pozmuş, Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü tanımaqdan boyun qaçırmış, bununla da təşkilata üzv dövlətlərin yekdil qərarının əleyhinə çıxmışdır.

10 dekabr - Qazax rayonunun Quşçu Ayrım kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 2 nəfər ağır yaralanmışdır.

19 dekabr - Fransa Prezidenti F.Mitteranm dəvəti ilə Parisdə rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ATƏM-in əsas sənədlərindən biri olan Yeni Avropa üçün Paris Xartiyasına Azərbaycan Respublikasının qoşulması barədə sənədi imzaladı. Bununla da. Azərbaycan Respublikası dünyada sülhün və təhlükəsizliyin təmin edilməsinə tərəfdar olduğunu bir daha təsdiq etdi.

23-24 dekabr - Aşqabadda MDB üzvü olan dövlətlərin rəhbərlərinin görüşü zamanı Rusiya tərəfindən Ermənistan və Azərbaycan prezidentlərinə hərbi əməliyyatların dayandırılması haqqında layihə təqdim olundu.

24 dekabr - Tərtər rayonuna ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

24 dekabr - Ermənilər tərəfindən Füzuli rayonunun Yuxarı Yağlıvənd kəndinə silahlı hücum nəticəsində 3 nəfər həlak olmuş, 28 nəfər yaralanmışdır.

24 dekabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında bəyanatında Dağlıq Qarabağ bölgəsində yaşayan və elə bir qüvvəsi olmayan 100 mindən bir qədər çox ermənin 7 milyonluq əhalisi olan ölkəyə qarşı genişmiqyaslı hərbi əməliyyatlar apara və onun ərazisinin 20 faizini işğal edə bilməzliyini, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin 50 min azərbaycanlı əhalisinin hüquqlarını inkar etməyə cəhd göstərildiyini, etnik təmizləmə nəticəsində onların Şuşa, Xocalı, Xocavənd, Hadrut və Ağdərə rayonlarından tamamilə qovulduğunu bildirmişdir.

25 dekabr - Ağstafa rayonunun Dağ Kəsəmən kəndinə ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuşdur.

25 dekabr - Ermənilər tərəfindən Füzuli rayonuna silahlı hücum nəticəsində 49 nəfər həlak olmuş, 6 nəfər yaralanmışdır.

25 dekabr - Tərtər rayonuna ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

25 dekabr - Ermənilər tərəfindən Qazax rayonunun Məzəm kəndinə silahlı hücum nəticəsində 1 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

26 dekabr - Füzuli rayonuna ermənilərin silahlı hücumu nəticəsində 2 nəfər həlak olmuş, 5 nəfər yaralanmışdır.

27 dekabr - Ermənilər tərəfindən Goranboy rayonunun Gülüstan kəndinə silahlı hücum nəticəsində 2 nəfər həlak olmuş, 14 nəfər yaralanmışdır.

27 dekabr - Ağdam rayonunun Xaçınstroy kəndinə ermənilərin silahlı hücumu nəticəsində 14 nəfər qətlə yetirilmişdir.

Dekabr - Xocavənd rayonunun Ağburun yüksəkliyinə ermənilərin silahlı hücumu nəticəsində 9 nəfər həlak olmuş, 8 nəfər yaralanmışdır.

Dekabr - Ağdam rayonunun Xaçınstroy kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır.

Dekabr - Ermənilər tərəfindən Füzuli rayonuna silahlı hücum nəticəsində 2 nəfər həlak olmuşdur.

Dekabr - Beyləqan rayonu ərazisindəki hərbi hissəyə ermənilərin silahlı hücumu nəticəsində 3 nəfər həlak olmuş, 14 nəfər yaralanmışdır.

Dekabr - Ağstafa rayonunun Köhnə Qışlaq kəndinə ermənilərin silahlı hücumu nəticəsində 1 nəfər həlak olmuş, 6 nəfər yaralanmışdır.

Dekabr - Qazax rayonunun Canalı kəndinə ermənilər tərəfindən silahlı hücum nəticəsində 5 nəfər həlak olmuş, 14 nəfər yaralanmışdır.

1993-cü il ərzində - Ermənistanın ərazi iddiası obyekti olan Dağlıq Qarabağ bölgəsinin (4,4 min km²) hüdudlarından kənarda yerləşən və onun ərazisindən 4 dəfə böyük olan Azərbaycanın Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan bölgələri Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi.

1992-1993-cü illərdə - Hərbi əməliyyatların dayandırılması və münaqişənin sülh yolu ilə həll edilməsi istiqamətində ATƏM-in və onun yaratdığı Minsk qrupunun göstərdiyi səylər heç bir nəticə vermədi.

1988-1993-cü illərin yekunu - Bu dövrdə Ermənistanın hərbi təcavüzü nəticəsində 1 milyondan çox insan (ümumi əhalinin 15 %-i) qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, Azərbaycanın 20 %-dən çox ərazisi işğal edilmişdir. Etnik təmizləmə siyasəti həyata keçirilməklə Ermənistanda yaşayan 250 min nəfər azərbaycanlı öz doğma yurdlarından zorla qovulmuşlar. Bu təcavüz nəticəsində həmin dövrdə 20 min nəfər

azərbaycanlı həlak olmuş, 100 min nəfərdən çoxu yaralanmış, 50 min nəfərə qədər müxtəlif dərəcəli xəsarət alaraq əlil olmuşdur.

Münaqişə dövründə 4853 nəfər itkin düşmüş, onlardan 1357 nəfəri əsirlikdən azad edilmiş, 783 nəfəri isə hələ də Ermənistanda əsirlikdədirlər. Beynəlxalq Qırmızı Xaç Komitəsinin məlumatına görə 439 nəfər əsirlikdə ölmüşdür.

1988-1993-cü illərdə - Eyni zamanda, bu dövrdə dövlət terrorizmi və soyqırımı siyasəti yeridən Ermənistan tərəfindən Azərbaycan ərazilərində ümumilikdə, müxtəlif səpkili 373 terror aktı törədilmişdir ki, nəticədə 1200 nəfər həlak olmuş, 1705 nəfər yaralanmışdır. Ayrılıqda götürdükdə:

- sərnişin avtobuslarında törədilmiş terror aktları nəticəsində 68 nəfər həlak olmuş, 132 nəfər yaralanmışdır;
- sərnişin və yük qatarlarında törədilmiş terror aktları nəticəsində 74 nəfər həlak olmuş, 125 nəfər yaralanmışdır;
- Bakı metropolitenində törədilən terror aktları nəticəsində 27 nəfər həlak olmuş, 91 nəfər yaralanmışdır;
- hava nəqliyyatında törədilmiş terror aktları nəticəsində 104 nəfər həlak olmuşdur;
- yaşayış məntəqələrində və mülki obyektlərdə törədilmiş terror aktları nəticəsində 881 nəfər həlak olmuş, 1239 nəfər yaralanmışdır;
- mülki və dövlət obyektlərinə qarşı törədilmiş terror aktları nəticəsində 10 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır;
- sərnişin daşıyan dəniz bərəsində törədilmiş terror aktı nəticəsində 25 nəfər həlak olmuş, 88 nəfər yaralanmışdır.

Ermənistanın hərbi təcavüzü Azərbaycanın 17 min km² ən məhsuldar torpaqlarının işğalına, 900 yaşayış məntəqəsinin, 150 min yaşayış binasının, 7 min sənaye və kənd təsərrüfatı obyektinin, 700 təhsil, 665 səhiyyə ocağının, 800 km avtomobil yolunun, 160 körpünün, 23 min km. su və 15 min km. elektrik xəttinin dağıdılmasına səbəb olmuşdur. Ermənilər işğal olunmuş ərazilərdə olan 22 muzeyi və 4 rəsm qalereyasını, tarixi əhəmiyyəti olan 9 sarayı qarət etmiş və yandırmışlar. 44 məbəd və 9 məscid dağıdılmış, 927 kitabxanada 4,6 mln. kitab və qiymətli tarixi əlyazmalar məhv edilmişdir.

İşğal nəticəsində 464 tarixi abidə və muzey, 100-dən çox arxeoloji abidə, 6 dövlət teatrı və konsert studiyası dağıdılmışdır. Nadir tarixi əhəmiyyətli 40 min muzey sərvəti – çox qiymətli əşyalar, nadir eksponatlar talan olunmuş və oğurlanmışdır.

Belə ki, Kəlbəcər tarix diyarşunaslıq muzeyi yerlə-yeksan olunduqdan sonra muzeyin ekspoziyasına daxil olan nadir qızıl və gümüş zinət əşyaları, ötən əsrlərdə toxunmuş xalçalar Ermənistana daşınmışdır. Şuşadakı tarix muzeyinin, Ağdamdakı çörək muzeyinin, Zəngilandakı Daş Abidələr muzeyinin də taleyi belə olmuşdur. Oğurlanmış və məhv edilmiş bu tarixi-mədəni sərvətlərin dəyərini müəyyənləşdirmək, pulla qiymətləndirmək mümkün deyildir. Hazırda Ermənistan Respublikası "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyasının və "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq Azərbaycanın mədəni sərvətlərini talamaqla məşğuldur.

Sonadək dəqiqləşdirilməmiş məlumata görə, həmin dövrdə mənəvi-psixoloji zərbələrdən əlavə Azərbaycan iqtisadiyyatına təxminən 60 milyard ABŞ dollarından çox ziyan dəymişdir.

1994

1 yanvar - İtaliya (Xarici işlər naziri Benyamino Andreatta, daha sonra Antonio Martino) İsveçi ATƏM-in fəaliyyətdə olan sədri qismində əvəz etdi.

6-10 yanvar - Tehranda rusiyalı vasitəçi V.Kazimirovla İranın Xarici İşlər Nazirliyinin baş direktoru M.Bank arasında Dağlıq Qarabağa dair məsləhətləşmələr keçirilmişdir.

11 yanvar - Brüsseldə Şimali Atlantika Şurası Nazirlərinin görüşündə qəbul olunan Bəyannamədə qeyd edilirdi: "Cənubi Qafqaz regionundakı vəziyyət xüsusi narahatlıq doğurmaqda davam edir. Biz ərazilərin əldə edilməsi üçün güc işlədilməsini pisləyirik. Ermənistan, Azərbaycan və Gürcüstanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə hörmət edilməsi regionda sülh, sabitlik və əməkdaşlığın bərqərar olunması üçün əhəmiyyət kəsb edir. Biz bütün dövlətləri mövcud problemlərin həll

edilməsi ilə bağlı BMT və ATƏM-in himayəsi altında həyata keçirilən beynəlxalq səylərə qoşulmağa çağırırıq".

24-28 yanvar - Avropa Şurasına üzv olmayan ölkələr komitəsinin təşəbbüsü ilə Ermənistan-Azərbaycan münaqişəsinə dair görüş keçirildi. Strasburqda keçirilən bu görüşə Dağlıq Qarabağın erməni icması münaqişə iştirakçısı olan tərəf kimi dəvət olunmuşdu. Ona görə də Azərbaycanın və Dağlıq Qarabağın azərbaycanlı əhalisinin nümayəndələri etiraz əlaməti olaraq bu görüşdə iştirak etmədilər.

25-27 yanvar - Stokholmda Rusiya-İsveç-ABŞ formatında məsləhətləşmələr keçirilmişdir (V.Kazimirov-M.Mossberq-K.Dankerli). Rusiya tərəfindən ATƏM-in Minsk qrupu ilə qarşılıqlı fəaliyyətinə dair 3 şərt, o cümlədən tərəflərin qarşısında bir-birinin təklifləri əleyhinə çıxış etməmək şərti irəli sürülmüşdür. Şərtləri bütün tərəflər qəbul etmişlər.

1 fevral - İsveç nümayəndəsi Yan Eliasson İtaliyalı M.Raffaellini ATƏM-in Minsk Konfransının sədri qismində əvəz edərək səlahiyyətlərinin icrasına başladı.

1 fevral - Bakı Dəmir yolu vağzalında Kislovodsk-Bakı sərnişin qatarında ermənilər tərəfindən terror aktı törədilməsi nəticəsində 3 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır.

4 fevral - Y. Eliassonun iştirakı ilə ilk dəfə ATƏM-in Minsk "doqquzluğu"nun Vyanada məsləhətləşmələri keçirilmişdir.

18 fevral - Moskvada Rusiya, Ermənistan və Azərbaycan nümayəndələrinin görüşündə Rusiyanın təklif etdiyi "Silahlı münaqişəyə son qoymaq və onun nəticələrini ləğv etmək haqqında" saziş tərəflərin müzakirəsinə verildi. 15 maddə və 5 əlavədən ibarət olan həmin sənəd Azərbaycan, Ermənistan və Dağlıq Qarabağ tərəfindən imzalanmalı idi. Dördüncü tərəf isə layihənin imzalanmasında vasitəçi kimi iştirak edən Rusiya nəzərdə tutulurdu. Dağlıq Qarabağ bu layihədə bərabərhüquqlu tərəf kimi göstərilirdi.

Sənədin əvvəlində "tərəflərin BMT TŞ-nin 822, 853, 874, 884 saylı qətnamələrinin tamamilə həyata keçirilməsinə kömək göstərməsi" nəzərdə tutulurdu. Sənəddə deyilirdi ki, Dağlıq Qarabağın hüquqi statusu güzəştli əsasda sonralar müəyyən ediləcəkdir.

Sənədin işğal olunmuş ərazilərin boşaldılması ilə bağlı olan

hissəsində Şuşa və Laçının adı çəkilmirdi. Sənəddə Laçınla bağlı deyilirdi ki, Laçın rayonundan qüvvələrin çıxarılması müddəti və qaydası bu damşıqlarda Dağlıq Qarabağla Ermənistan arasında olan yolun beynəlxalq nəzarət altında təhlükəsiz işləməsini təmin edən rejimin yaradılması ilə eyni vaxtda müəyyənləşdiriləcəkdir. Şuşanın taleyi haqqında isə heç bir fikir söylənilmirdi. Azad edilən ərazilərdə hərbi qüvvələrin yerləşdirilməsi məsələsi Birləşmiş Qərargaha həvalə olunurdu. Lokal təhlükəsizlik zonalarında Birləşmiş Qərargahın tərkibindən qruplar yerləşdirilməsi nəzərdə tutulurdu. Həmin qrupların tərkibi haqqında bir söz deyilməsə də, qruplara Rusiya Müdafiə Nazirliyi nümayəndələrinin başçılıq edəcəyi bildirilirdi. Sənəddə münaqişədə bilavasitə iştirak edən üç tərəf göstərilirdi: Ermənistan, Dağlıq Qarabağ və Azərbaycan.

Rusiya planı ATƏM-in Minsk Konfransının mandatına, xüsusilə də, münaqişədə Dağlıq Qarabağın erməni icmasına münaqişə tərəfi statusu və müzakirə edilən sənədləri imzalamaq hüququ vermək tələbinin olduğu hissəsində ziddiyyət təşkil edirdi. Dağlıq Qarabağın azərbaycanlı əhalisinə isə maraqlı tərəf kimi sənədləri imzalamaq hüququ verilmirdi.

Fevral - MDB-nin İcraedici katibliyi Birlik ölkələrinin rəhbərlərinə rusiyalı vasitəçi tərəfindən tərtib edilmiş "Qarabağ münaqişəsinin tənzimlənməsinə dair razılaşdırılmış yanaşmalar" adlı materialı tanış olmaq və ardınca razılaşmaq üçün göndərmişdir.

1 mart - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Xocalı soyqırımı qurbanlarının ailələrinə müraciətində bildirmişdir: "26 fevral 1992-ci ildə Xocalı şəhərində dünya, misli görünməyən dəhşətli bir vəhşiliyin şahidi oldu. Erməni hərbi quldurları aylarla tam mühasirədə saxlanan Xocalı şəhərini yerlə-yeksan etdilər. Köməksiz mülki əhali azğın bir amansızlıqla qətlə yetirildi. Südəmər körpələrə, əlsiz-ayaqsız qocalara, qadınlara, uşaqlara belə aman verilmədi. Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində tayı-bərabəri olmayan bir vəhşilik aktıdır. Bu soyqırımı eyni zamanda bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir".

3 mart - ATƏM-in Dağlıq Qarabağ üzrə Minsk Konfransının yeni təyin olunmuş sədri Y.Eliasson münaqişə bölgəsinə səfər etdi. Bakıya gəlməzdən əvvəl o, səfərə hazırlıq məqsədilə əvvəlcə Moskvada və

Ankarada olmuş, Rusiya və Türkiyənin, eləcə də Minsk konfransına daxil olan bir sıra ölkələrin nümayəndələri ilə məsləhətləşmələr keçirmişdir. Bu məsləhətləşmələrdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin siyasi yolla aradan qaldırılmasının alternativinin olmadığı əsas götürülmüş, sülh prosesində ilkin mərhələdə münaqişə zonasında atəşin dayandırılması ilə bağlı məsələlər müzakirə olunmuşdur.

4 mart - Praqada ATƏM-in YVŞK bəyan etmişdir ki, Minsk Konfransı Qarabağ münaqişəsinin siyasi tənzimlənməsinin axtarışında mərkəzi rol oynayır.

18 mart - Xankəndi üzərində Moskvadan uçan İran hərbi hava qüvvələrinə məxsus "Herkules" təyyarəsinin ermənilər tərəfindən vurulması nəticəsində 34 nəfər İran diplomatı və onların ailə üzvləri həlak olmuşdur.

19-24 mart - Moskvada hərbi münaqişənin dayandırılması və onun nəticələrinin aradan qaldırılması üzrə razılaşma layihəsinə dair Rusiyanın vasitəçiliyi ilə hər 3 tərəfin ekspertlər səviyyəsində danışıqları aparılmışdır. Damşıqlarda ATƏM-in Minsk qrupunun İsveç bürosunun nümayəndələri Mossberq, general Berq və general Bekman ilk dəfə müşahidəçi qismində iştirak etmişlər.

19 mart - Bakı metropoliteninin "20 Yanvar" stansiyasında törədilmiş terror aktı nəticəsində 14 nəfər həlak olmuş, 49 nəfər yaralanmışdır. İstintaq zamanı məhkəmə sübut etmişdir ki, terror aksiyası Ermənistan xüsusi xidmət orqanları tərəfindən hazırlanmış, separatçı "Sadval" ləzgi təşkilatının üzvləri tərəfindən həyata keçirilmişdir.

Müəyyən olunmuşdur ki, "Sadval" separatçı təşkilatının həmin fəalları 1992-ci ildən etibarən dəfələrlə Ermənistanda olmuş, bu ölkənin Milli Təhlükəsizlik Baş İdarəsi təşkilatın formalaşmasında, maliyyələşməsində və silahlanmasında yaxından iştirak etmişdir. 1992-ci ilin aprel-may aylarında milliyyətcə ləzgi olan 30 nəfər Azərbaycan vətəndaşı Ermənistanın Nairi rayonunun Lusakert qəsəbəsində yerləşən təlim-məşq bazasında xüsusi terror-təxribat hazırlığı keçmişdir. İstintaq zamam müəyyənləşdirilmişdir ki, təxribatçılar təlimata uyğun olaraq "20 Yanvar" stansiyası ilə yanaşı Bakının "Nizami" kinoteatrında, Respublika Sarayında və Bakı lampa zavodunda da partlayışlar törətməyi planlaşdırmışlar. "20 Yanvar" metro stansiyasında partlayışın

törədilməsində ittiham olunan və Ermənistanda xüsusi terror-təxribat hazırlığı keçmiş 30 sadvalçı cinayət məsuliyyətinə cəlb edilmişdir.

11-15 aprel - ATƏM-in Minsk qrupunun Praqada keçirilən görüşündə "Etimadı möhkəmləndirmək tədbirləri" adlı plan işlənib hazırlandı və "doqquzlar"ın bəyanatı qəbul edildi. Bəyanatda bildirilirdi ki, Minsk qrupunun üzvü olan ölkələr Dağlıq Qarabağ ətrafında hərbi əməliyyatların kəskinləşməsi ilə əlaqədar narahatlıqlarını bildirir, lakin tərəflərdən hansının harada, nə vaxt hücuma keçməsi və atəşi dayandırmaqdan ötrü nə kimi tədbirlərin görülməsi göstərilmirdi. Minsk qrupunun təklif etdiyi "Etimadı möhkəmləndirmək tədbirləri"nin bəzi maddələri Rusiyanın təklif etdiyi plana uyğun gəlirdi. Hər iki plana görə Azərbaycan artıq danışıqlar prosesinin gedişində Ermənistan və Dağlıq Qarabağ üçün bütün kommunikasiyaları açmalı idi.

13 aprel - Moskva-Bakı sərnişin qatarının Dağıstan Respublikasının "Daqestanskiye Oqni" stansiyasının yaxınlığında ermənilər tərəfindən partladılması nəticəsində 6 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

15 aprel - Münaqişə tərəflərinin atəşi dayandırmasını nəzərdə tutan 18 fevral tarixli Moskva protokolunun tələblərini pozaraq, Ermənistan silahlı qüvvələrinin Füzuli rayonuna genişmiqyaslı hücuma keçməsi və Azərbaycanın şimal-qərb sərhəd rayonlarını güclü raket-artilleriya atəşinə tutması ilə əlaqədar Moskvada MDB Dövlət Başçıları Şurasının iclasında dövlət başçısı Heydər Əliyev Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünə siyasi qiymət verilməsini nəzərdə tutan bəyanatla çıxış etdi.

19-20 aprel - Stokholmda V.Kazimirov ilə Y.Eliasson arasında məsləhətləşmələr keçirilmişdir.

26 aprel - 2 may - M.Mossberqin rəhbərliyi altında ATƏM-in missiyasının münaqişə regionuna səfəri olmuşdur.

4-5 may - MDB Parlamentlərarası Assambleyasının Bişkekdə keçirilən iclası zamanı Rusiyanın təşəbbüsü ilə Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasına dair növbəti görüş keçirildi. Bu görüşdə Azərbaycan tərəfi Bişkek yekun protokolunu imzalamadı. Çünki imzalamaq üçün təklif olunan yekun sənəddə Azərbaycanın mənafelərinə zidd bir sıra

müddəalar var idi. Sənəddə tutulmuş ərazilərdən qoşunların çıxarılmasının zəruriliyi bildirilir, lakin bu qoşunların kimə mənsub olması göstərilmirdi. "Tutulmuş ərazilər" termini münaqişədəki real siyasi şəraitə uyğun gəlmirdi.

5 may - ABŞ senatorları Q.Reyd və P.Saymon konqresə 218 saylı qətnamə layihəsi təqdim etdilər. Qətnamədə ilk dəfə olaraq Ermənistan münaqişənin iştirakçısı kimi göstərilmiş və ABŞ-ın regiondakı siyasətində dəyişikliklərin zəruriliyi fikri irəli sürülmüşdür. Layihədə keçmiş mövqedən fərqli olaraq senator P.Saymon Konqresdən Azərbaycanın da mövqeyini nəzərə almağı tələb etmişdir.

12 may - Ermənistanla Azərbaycan arasında atəşin dayandırılması haqqında saziş qüvvəyə minmişdir.

12-15 may - ATƏM-in Minsk Konfransının sədri və Rusiyanın vasitəçilik missiyasının sədrinin Bakı və Yerevana birgə səfəri olmuşdur.

15 may - ABŞ dövlət katibinin xüsusi müşaviri, ABŞ-ın yeni müstəqil dövlətlər üzrə siyasətinin baş əlaqələndiricisi Ceyms Kollinzin başçılığı ilə Bakıya rəsmi səfər etmiş nümayəndə heyətinin tərkibinə ABŞ Dövlət Departamentinin regional münaqişələr idarəsinin rəisi, ATƏM-in Minsk qrupundakı Birləşmiş Ştatların nümayəndəsi kimi Cozef Pressel də daxil idi. Azərbaycan Prezidenti Heydər Əliyev ABŞ nümayəndələrinin qəbulu zamanı Ermənistanla Azərbaycan arasındakı hərbi münaqişənin dövlətimizin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə çox ciddi problem yaratdığını bildirmişdir. Azərbaycanın dövlət başçısı ATƏM-in Minsk qrupunun üzvü olan ABŞ-ın münaqişənin həllinə kömək edəcəyinə inandığını vurğulamışdır.

16 may - Moskvada Rusiya, Ermənistan və Azərbaycan Müdafiə Nazirlərinin görüşündə atəşin tamamilə dayandırılması və Böyük Siyasi Sazişin imzalanmasını nəzərdə tutan Rusiyanın hazırladığı sənəd müzakirə edildi.

18 may - Azərbaycan Prezidenti Heydər Əliyev ATƏM-in Minsk Konfransının sədri Jan Eliasson, onun müavini Matias Mossberq və Rusiya prezidentinin səlahiyyətli nümayəndəsi, Rusiya Federasiyası XİN-nin xüsusi tapşırıqlar üzrə səfiri V.Kazimirovu qəbul etmiş və görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı fikir mübadiləsi aparılmışdır.

9-10 iyun - NATO-nun İstanbulda keçirilən Zirvə görüşündə nazirlər qərara aldılar ki, münaqişənin həllinə aparan mərhələli sülh prosesi üçün BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əsasən zəruri şəraitin yaradılması, münaqişənin yatırılması, zorla işğal olunmuş ərazilərdən qoşunların çıxarılması və məcburi köçkünlərin öz yurdlarına geri qaytarılması üçün səmərəli atəşkəs və güzəştli konstruktiv danışıqlar çox vacibdir .

12 iyun - Səfir Cozef Pressel ATƏM-in Minsk qrupunda ABŞ-ın nümayəndəsi təyin edildi.

14-18 iyun - ATƏM-in Minsk Konfransının fəaliyyətdə olan sədri Y.Eliasson münaqişə regionuna səfər etmişdir.

1 iyul - ABŞ-ın Sülh İnstitutunda keçirilən konfransda səfir Con Mareska Ermənistan-Azərbaycan münaqişəsinin siyasi yolla nizama salınması barədə təkliflərlə çıxış etdi. Münaqişənin həllində bir sıra təkliflər irəli sürən C.Mareska Dağlıq Qarabağa özünüidarəetmə hüququ verilməsi barədə kompromis plan irəli sürərək bildirdi ki, yaradılan özünüidarə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi əsasında təşkil olunmalıdır.

3 iyul - Bakı metropoliteninin "28 May" - "Gənclik" stansiyaları arasında elektrik qatarında erməni terrorçuları tərəfindən törədilmiş partlayış nəticəsində 13 nəfər həlak olmuş, 42 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır.

4-11 iyul - Avropa Şurası Parlament Assambleyası ilə əməkdaşlıq məqsədilə Strasburqda Dağlıq Qarabağla əlaqədar keçirilən görüşdə iştirak edən Azərbaycan nümayəndə heyəti Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə bağlı hərbi təcavüzkarlığını, onun nəticələrini və bu münaqişədə Azərbaycanın mövqeyini açıqladı.

7-8 iyul - Vyanada ATƏM-in Minsk "doqquzluğu"nun qeyri-rəsmi məsləhətləşmələri keçirilmişdir. ATƏM-in Minsk qrupunun iclasında Rusiyanın hazırladığı Böyük Siyasi Saziş müzakirəyə təqdim olunarkən Minsk qrupunun sədri bildirdi ki, Rusiyanın təqdim etdiyi layihə bəzi dəyişiklik və əlavələrdən sonra Rusiya ilə ATƏM arasında kompromisləri özündə əks etdirən ortaq sənəd kimi münaqişə edən tərəflərə paylanacaq. O, münaqişənin aradan qaldırılmasında ATƏM-in və Rusiyanın

vasitəçilik səylərinin tamamilə əlaqələndirilməsinə tərəfdar olduğunu bildirdi.

13-14 iyul - Stokholmda V.Kazimirov və Y.Eliasson arasında məsləhətləşmələr keçirilmişdir. Uqlas, Bekman və ATƏM-in hərbi ekspertləri arasında danışıqlar aparılmışdır.

22 iyul - Bakıda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevlə görüşündə Fransa parlamentinin xarici işlər üzrə komissiyasının üzvü R.Blüm bölgəyə səfərinin məqsədinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini yerində öyrənməkdən ibarət olduğunu bildirərək bu məsələnin həllində ATƏM-in rolunun başlıca olduğunu etiraf etsə də, qeyd etmişdi ki, bu təşkilat lazımi fəaliyyət göstərmir.

22-23 iyul - ATƏM-in Minsk Konfransının sədri Y.Eliasson Moskvada Rusiya Federasiya Şurasının sədri V.Şumeyko, Xarici işlər nazirinin birinci müavini A.Adamişin və Rusiya Federasiyası prezidentinin Dağlıq Qarabağa dair məsələlər üzrə səlahiyyətli nümayəndəsi V.Kazimirovla Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair məsləhətləşmələr apardı. Bu görüş ATƏM-lə Rusiyanın real əməkdaşlığının ilk səmərəsi kimi qiymətləndirilirdi.

25-26 iyul - Moskvada Rusiyanın Xarici İşlər Nazirliyində Minsk qrupunun İsveç bürosunun nümayəndələri ilə Rusiyanın nizamlamaya dair layihəsi üzrə məsləhətləşmələr keçirilmişdir.

14-18 avqust - Vyanada münaqişə tərəflərinin iştirakı olmadan Minsk "doqquzluğu"nun görüşü keçirilmişdir. ATƏM-in Daimi komitəsinin iclasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair fikir mübadiləsi aparılmışdır.

28 avqust - ATƏM-in Minsk Konfransının sədri Y.Eliassonun münaqişə regionuna səfəri olmuşdur.

4-9 sentyabr - Minsk qrupuna daxil olan dövlətlərin nümayəndələrinin iştirakı ilə isə sentyabrın 11-12-də Moskvada aparılacaq danışıqlara hazırlıqla əlaqədar ATƏM-in Dağlıq Qarabağ üzrə Minsk qrupunun rusiyalı nümayəndəsi V.Kazimirov bəzi təkliflərlə Azərbaycan rəhbərliyinə müraciət etmişdir.

7-9 sentyabr - Pakistan İslam Respublikasının İslamabad şəhərində İKT-nin fövqəladə sessiyası keçirildi. Sessiyada Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar qətnamə qəbul edildi. Qətnamədə Ermənistanın Azərbaycana qarşı təcavüzü, Azərbaycan ərazisinin 20 %-nin işğalı qətiyyətlə pisləndi. Bununla yanaşı, sənəddə Ermənistan Respublikasından BMT Nizamnaməsinin və Təhlükəsizlik Şurasının münaqişəyə dair qəbul edilmiş müvafiq qətnamələrinin dönmədən yerinə yetirilməsi, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılması ciddi surətdə tələb olunurdu. Qətnamədə Azərbaycan Respublikasının ərazisindəki 1 milyon nəfərdən çox qaçqın və məcburi köçkünlərə humanitar yardım göstərilməsinin zəruriliyi qeyd edilmişdir.

12-14 sentyabr - Vyanada ATƏM-in Minsk qrupunun görüşü keçirilmişdir. Lakin Moskvadakı tədbir ilə əlaqədar Rusiya Federasiyasının etirazma baxmayaraq, İsveç tərəfindən görüşün tarixi gözlənilmədən sentyabrın 21-dən 12-nə keçirildiyinə görə görüşdə Rusiya təmsilçisi iştirak etməmişdir.

14-16 sentyabr - Praqada ATƏM-in YVŞK-nin 28-ci iclası Dağlıq Qarabağda sülhün qorunması üçün təşkilatın çoxmillətli qüvvələrinin yaradılmasının mümkünlüyünü müəyyən etməyə qərar verdi.

27-28 sentyabr - Vaşinqtonda Rusiya və ABŞ prezidentləri Dağlıq Qarabağ problemini müzakirə etdilər.

29 sentyabr - Ümummilli lider Heydər Əliyev Azərbaycan Prezidenti kimi ilk dəfə BMT Baş Assambleyasının 49-cu sessiyasında iştirak edərək bu universal beynəlxalq təşkilatın tribunasından ölkəmizin bir çox məsələləri ilə bağlı, xüsusilə Ermənistanın Azərbaycana təcavüzü və Dağlıq Qarabağ problemi haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmışdır.

6-17 oktyabr - ATƏM-in missiyası münaqişə regionuna səfər etmişdir. Hərbi əsirlərin iki-ikiyə mübadiləsi həyata keçirilmişdir.

14 oktyabr - "Bu gün" ("Seqodnya") qəzeti rusiyalı vasitəçi V. Kazimirovun "Rusiya və ATƏM-in Minsk qrupu" adlı tənqidi məqaləsini çap etmiş, sonra isə onun mətni ATƏM-in Vyanadakı mənzil qərargahında yayılmışdır.

17 oktyabr - ATƏM-in Minsk qrupunun Vyanada keçirilən görüşündə İtaliya nümayəndə heyəti beynəlxalq çoxmillətli qüvvələr yaratmağı təklif etdi.

24 oktyabr - Vyanada ATƏM-in Daimi komitəsinin iclasında Rusiya vasitəçilik missiyasının başçısı ATƏM-in Minsk qrupunun mandatını işləyib hazırlamaq və qəbul etmək barədə təklif irəli sürmüşdür.

24 oktyabr - ATƏM-in xüsusi iclasında ATƏM-in fəaliyyətdə olan sədri, İtaliya Xarici işlər nazirinin müavini A.Martininin sülhməramlı qüvvələr yaradılması təklifi qəbul edildi. Qəbul edilmiş bu plana əsasən münaqişə bölgəsinə 3.000 nəfərə qədər hərbçi və hərbi texnika göndərilməsi nəzərdə tutulurdu. Sülhməramlı qüvvələrin tərkibində hər bir dövlətin hərbi qüvvələri ümumi sayın 30 %-indən çox ola bilməzdi. Bu plana görə danışıqların aparılması və münaqişə bölgəsinə sülhməramlı qüvvələrin göndərilməsinin bütün məsuliyyətini Minsk qrupu öz üzərinə götürürdü.

28 oktyabr - 1 noyabr - BMT-nin Baş katibi B.Butros Qali Cənubi Qafqaz respublikalarına səfəri çərçivəsində Bakıda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevlə danışıqlar zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi və Təhlükəsizlik Şurası sədrinin 6 bəyanatı əsasında müəyyənləşmiş prinsiplər vasitəsilə mümkün olduğunu təsdiq etdi. BMT Baş katibi ilə görüşdə bu prinsiplərin təmin olunması üçün ATƏM ilə yanaşı ayrı-ayrı ölkələrin, o cümlədən ABŞ, Türkiyə və Rusiyanın təşəbbüslərindən, vasitəçilik səylərindən səmərəli istifadə olunmasının vacibliyi bildirilmişdir.

Bununla yanaşı, BMT Baş katibi Bakıya səfəri zamanı Azərbaycanın ictimai-siyasi və iqtisadi həyatı, Ermənistanın təcavüzünün ağır nəticələri ilə yaxından tanış olaraq mövcud problemlərin həllində Azərbaycana dəstək vermək üçün BMT-nin müxtəlif təsisatlarının öz səylərini artıracağını bildirmişdir.

10 noyabr - Avropa Şurası Parlament Assambleyasının "Dağlıq Qarabağda münaqişəyə dair" 1047 saylı qətnaməsi və 1251 saylı tövsiyəsi qəbul edilmişdir. Qətnamədə Assambleya qeyri-müəyyən şəkildə münaqişədə iştirak edən tərəflərdən qaçqınların öz torpaqlarına qayıtması üçün şərait yaratmağa çağırırdı. Sənəddə Azərbaycan ərazilərinin konkret

olaraq kim tərəfindən işğal edilməsi, Ermənistanın Azərbaycana qarşı təcavüzü birmənalı şəkildə göstərilmirdi.

10-14 noyabr - İslam Konfransı Təşkilatının Baş Katibi Həmid əl-Qabid Azərbaycana səfər etdi. Səfər zamanı o, Azərbaycanın İKT ilə əlaqələri və bu təşkilatda tutduğu yer haqqında Azərbaycan Prezidenti Heydər Əliyevlə müzakirələr apardı. Həmid əl-Qabid İKT-nin Ermənistanın Azərbaycana qarşı təcavüzünü pislədiyini və münaqişənin dinc siyasi vasitələrlə həll olunmasına tərəfdar olduğunu bildirdi.

11-15 noyabr - ATƏM-in Minsk qrupunun sədri münaqişə regionuna səfər etmişdir.

14-17 noyabr - Avropa Şurası Parlament Assambleyası təşkilata üzv olmayan Avropa ölkələri ilə əlaqələr komitəsinin sədri D.Atkinson başda olmaqla nümayəndə heyəti Azərbaycanda səfərdə olmuş və səfər zamanı Respublika rəhbərliyi ilə görüşündə bu təşkilatla Azərbaycanın münasibətləri, o cümlədən ölkəmizin "xüsusi dəvət edilmiş qonaq" statusu almaq üçün müraciəti, Ermənistanın təcavüzünə son qoyulması və münaqişənin dinc vasitələrlə həlli məsələləri müzakirə olunmuşdur.

15-16 noyabr - Moskvada münaqişə tərəflərinin iştirakı olmadan ATƏM-in Minsk qrupunun məsləhətləşmələri keçirilmişdir.

18 noyabr - ATƏM-in YVŞK-nin 29-cu iclası Dağlıq Qarabağa dair hazırlanan sənədin layihəsini müzakirə etsə də, sənəd qəbul olunmadı.

29 noyabr - 2 dekabr - Budapeştdə tərəflərin iştirakı olmadan və tam tərkibdə ATƏM-in Minsk qrupunun görüşləri keçirilmişdir.

1 dekabr - Şimali Atlantika Şurası Nazirlərin görüşündə qəbul edilmiş Yekun Kommünikedə qeyd edilirdi: "Biz ATƏM-in Dağlıq Qarabağ və onun ətrafında mövcud olan münaqişənin sülh yolu ilə nizamlanması sahəsindəki səylərini tamamilə dəstəkləyirik. Bu, ATƏM prinsiplərinin praktiki tətbiqi istiqamətində bütün iştirakçı dövlətlərin siyasi qətiyyətinin nümayiş etdirilməsi üçün yaxşı fürsət olacaqdır".

Eyni zamanda, sənəddə bildirilirdi: "Cənubi Qafqazda mövcud olan vəziyyət xüsusi narahatlıq doğurmaqda davam edir. Biz əldə edilmiş atəşkəsi alqışlayır, lakin hesab edirik ki, regionda, xüsusilə də Dağlıq Qarabağ və onun ətrafında cərəyan edən münaqişələrin dinc və ədalətli nizamlanması yalnız BMT-nin himayəsi və ATƏM-in mexanizmləri

vasitəsilə həyata keçirilə bilər. Ümid edirik ki, ATƏM Dağlıq Qarabağa dair sülh prosesinə səmərəli, o cümlədən 1992-ci il Helsinki Sənədinin 3-cü Fəslinin prinsiplərinə əsasən ATƏM-in beynəlxalq sülhüqoruma əməliyyatının yaradılması vasitəsilə töhfə vermək iqtidarında olacaqdır".

5-6 dekabr - ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Zirvə toplantısı ATƏM tarixində yeni bir mərhələ oldu. Budapeştdə qəbul edilən qərarların birincisi Avropada sülhün və təhlükəsizliyin təmin edilməsində ATƏM-in rolunun daha da gücləndirilməsinə həsr edilmişdi. Zirvə toplantısında "Yeni dövrdə əsl tərəfdaşlığa doğru" adlı bəyannamə qəbul edildi. Qərara alındı ki, Budapeşt görüşünə qədər Avropada Təhlükəsizlik və Əməkdaşlıq məsələlərinə dair Müşavirə (ATƏM) adı ilə fəaliyyət göstərən bu təşkilat 1995-ci il yanvarın 1-dən Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) adlandırılsın. Qəbul edilən bu sənəd ATƏM-in təşkilati cəhətdən yeniləşməsi, onun fəaliyyətinin genişlənməsi prosesinin başlanğıcı demək idi.

ATƏM-in Budapeştdə keçirilən Zirvə toplantısında "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏM-in fəaliyyətinin intensivləşdirilməsi" barədə qərar qəbul olundu. Qəbul edilən sənəddə münaqişə bölgəsində sabitliyin təmin edilməsi üçün ATƏM-in çoxmillətli sülhməramlı qüvvələrinin yerləşdirilməsi haqqında maddə öz əksini tapdı. Bundan başqa, Budapeştdə həmsədrlik institutu da təsis edildi. Minsk Konfransına iki həmsədrin təyin edilməsi və Minsk qrupunun iclaslarının onların birgə həmsədrliyi ilə keçiriləcəyi barədə qərar qəbul olundu. ATƏM-in Minsk Konfransında, o cümlədən Minsk qrupunda həmsədrlik Rusiya və İsveçə (sonradan isə Finlandiyaya) tapşırıldı.

ATƏM-in Budapeşt samitində Azərbaycan Prezidenti Heydər Əliyev öz çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün nəzərdə tutulmuş beynəlxalq sülhməramlı qüvvələrin təşkili üzrə ATƏM sədrinin səylərini yüksək qiymətləndirərək, münaqişənin nizama salınması prosesində irəliləyiş əldə etmək üçün Budapeşt görüşündə əlverişli imkanın yarandığını vurğuladı və dövlət başçılarına müraciət edərək ATƏM üzvlərini bu işdə fəal iştirak etməyə çağırdı.

13-14 dekabr - Azərbaycanın üzv dövlət kimi ilk dəfə iştirak etdiyi Mərakeş Krallığının Kasablanka şəhərində İKT-yə üzv olan ölkələrin dövlət və hökumət başçılarının VII Zirvə toplantısında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı, keçirdiyi görüşlər ölkəmizin bu təşkilat daxilində mövqeyini xeyli möhkəmləndirdi.

Konfransda Azərbaycanla əlaqədar iki qətnamə qəbul edildi. Ermənistan-Azərbaycan münaqişəsinə dair qəbul edilən qətnamədə Ermənistanın Azərbaycana təcavüzü kəskin şəkildə pislənmiş, bu təcavüzə son qoyulması tələb olunmuş və zor gücünə ərazi ələ keçirilməsinin yolverilməz olduğu bildirilməklə, ilk dəfə olaraq Ermənistan beynəlxalq səviyyədə təcavüzkar kimi qiymətləndirilmişdir.

Konfransda qəbul edilən ikinci qətnamədə Ermənistanın hərbi təcavüzü nəticəsində bir milyondan artıq qaçqın olması ilə əlaqədar Azərbaycana iqtisadi və humanitar yardım göstərilməsi öz əksini tapdı. Konfransın qəbul etdiyi Yekun bəyannaməyə isə Ermənistanın Azərbaycana təcavüzü haqqında geniş bir bölmə daxil edildi.

20 dekabr - Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı ATƏM-in üzv ölkələrinin təyin etdiyi hərbi nümayəndələrdən ibarət Yüksək Səviyyəli Planlaşdırma Qrupu (YSPQ) təsis edildi.

1995

1 yanvar - Macarıstan (Xarici işlər naziri L.Kovaç) İtaliyanı ATƏT-in fəaliyyətdə olan sədri qismində əvəz etmişdir.

1 yanvar - Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi (ATƏM) Avropada Təhlükəsizlik və Əməkdaşhq Təşkilatı (ATƏT) kimi adlandırılmağa başlandı.

6 yanvar - V.Lozinskiy ATƏT-in Minsk Konfransının həmsədri təyin edildi. ATƏT-in Minsk qrupunun həmsədri isə Rusiya vasitəçisi V.Kazimirov oldu.

12-13 yanvar - Vyanada ATƏT-in gələcək fəaliyyətdə olan sədri kimi İsveçrənin iştirakı ilə Minsk "doqquzluğu"nun məsləhətləşmələri keçirilmişdir.

18-20 yanvar - Stokholmda ATƏT-in Minsk Konfransının və Minsk qrupunun Rusiya və İsveçdən olan həmsədrlərinin məsləhətləşmələri aparılmış, V.Lozinskiy və V.Kazimirovun Y.Eliassonla görüşü keçirilmişdir.

26 yanvar - 2 fevral - ATƏT-in Minsk qrupu həmsədrləri V.Kazimirov və A.Bürnerin Bakı, Yerevan və Xankəndinə səfəri olmuşdur.

6-11 fevral - Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizama salınmasına dair Moskvada Rusiya və İsveçin həmsədrliyi ilə aparılmış danışıqlar Budapeşt sammitindən sonra keçirilən ilk məsləhətləşmə idi. Bu danışıqlarda Budapeşt sammitində qəbul olunmuş "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏM-in fəaliyyətinin intensivləşdirilməsi" haqqında qətnamədə göstərilənlərin həyata keçirilməsi yolları müzakirə mövzusu olmalı idi. Lakin Ermənistanın tutduğu qeyri-konstruktiv mövqe ucbatından bu istiqamətdə irəliləyişlər əldə etmək mümkün olmadı.

Moskvada Azərbaycan, Ermənistan və Dağlıq Qarabağ nümayəndələri arasında danışıqlar başladı. Danışıqlarda Dağlıq Qarabağ ermənilərinin tərəf kimi tanınması üçün Azərbaycana böyük təzyiqlər göstərildi. Ermənistan tərəfi istəyirdi ki, danışıqlarda yalmz Dağlıq Qarabağın erməni icması, Azərbaycan və Ermənistan iştirak etsin. Azərbaycan tərəfi bildirdi ki, qarşı duran tərəflər Ermənistanla Azərbaycandır, Dağlıq Qarabağın erməni və azərbaycan icmaları maraqlı tərəflərdir. Bundan başqa, erməni tərəfi sülh müqaviləsi imzalanmamışdan əvvəl sülhməramlı qüvvələrin bölgəyə göndərilməsini tələb etdi.

Eyni zamanda onlar sülhməramlı qüvvələrin tərkibində Türkiyə nümayəndələrinin olmasını istəmirdilər. Sülh danışıqlarına maneçilik törədən başqa bir məsələ Şuşa və Laçının azad edilməsi və Dağlıq Qarabağın gələcək statusu məsələsi idi. Ermənistan Laçın və Şuşa məsələsini Dağlıq Qarabağa status verildikdən sonra müzakirə etmək arzusunda olduğunu bildirdi. Həmçinin Ermənistan Laçın dəhlizini yalnız öz nəzarəti altında saxlamaq fikrində idi. Azərbaycan tərəfi, heç şübhəsiz, bu şərtlərlə razılaşmayaraq Laçın dəhlizinin sülh prosesinin ilk mərhələsində beynəlxalq qüvvələrin nəzarəti altında olmasına razılıq versə də, Dağlıq Qarabağın statusu məsələsini yalnız Şuşa və Laçından işğalçı qoşunların

çıxarılması ilə şərtləndirdi. Beləliklə, erməni tərəfinin güzəştə getmək üçün məqbul sayılmayan bu tələbləri Azərbaycan tərəfindən qəbul edilmədi. Nəticədə, Moskva danışıqları uğursuzluqla başa çatdı.

25 fevral - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Xocalı soyqırımının üçüncü ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətində qeyd etmişdir ki, xaricdəki imperiyapərəst qüvvələrin dəstəyi ilə törədilən bu soyqırım erməni qəsbkarlarının müstəqil Azərbaycan dövlətinə qarşı yeritdiyi məqsədyönlü təcavüz planının ən amansız həlqəsi, misli görünməmiş vəhşilik aktı, təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı törədilmiş cinayət kimi XX əsrin tarixinə daxil olmuşdur. Azərbaycan Prezidenti vurğulamışdır ki, günahsız dinc əhaliyə tutulmuş amansız divan, ağlasığmaz qəddarlıq erməni irticasının və onun xaricdəki havadarlarının iç üzünü beynəlxalq ictimaiyyət qarşısında bütünlüklə açıqladı.

26 fevral - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Xocalı soyqırımının üçüncü ildönümü ilə əlaqədar Təzəpir məscidində keçirilən mərasimdə demişdir: "...Tarixdə insanın insana qarşı vəhşilik etməsi halları dəfələrlə qeyd olunub. Soyqırım da dünyanın bir çox yerlərində baş veribdir. Azərbaycana qarşı Ermənistan qəsbkarları, təcavüzkarları tərəfindən edilən soyqırım bunların ən dəhşətlilərindən biridir. Uzun müddət, demək olar ki, XX əsr ərzində Azərbaycan xalqına, millətinə qarşı Ermənistan təcavüzkarları tərəfindən olunan soyqırımlar xalqımıza böyük yaralar vurmuşdur. Onların arasında ən böyük, ən ağır yaralardan biri Xocalı soyqırımıdır...Xocalı hadisələri bir də onu göstərdi ki, ermənilər Azərbaycanın təkcə torpaqlarına göz dikmək, ərazimizi qəsb etmək yox, xalqımıza qarşı soyqırım törətmək kimi vəhşi bir yola düşmüşlər. Bu, Xocalı hadisələrində özünü açıq-aşkar büruzə verdi. O dəhşətli gecədə Azərbaycan xalqının ürəyinə bir süngü taxıldı. O süngü indiyədək bizi sızıldadır. Bu yara hələ sağalmayıb, bağlanmayıb, bu yara qəlbimizdə həmişə olacaqdır. Qeyd etdiyim kimi, gecə vaxtı dinc əhaliyə hücum etmək, uşağı, qadını, qocanı, xəstəni vəhşicəsinə yerindəcə məhv etmək, öldürmək və onlara görünməmiş qəddarlıqla əzab-əziyyət vermək düşmənlərimizin nə qədər vəhşi olduğunu bir daha sübut edir...Xocalı soyqırımı, ermənilərin xalqımıza qarşı təcavüzü, vəhşiliyi, insana qarşı ən

rəzil üsullardan istifadə etməsi bəşəriyyət tarixinə daxil olub və olacaqdır. O gecə, o günlər həlak olanlar, dünyadan gedənlər Azərbaycanın əziz vətəndaşlarıdır, onlar respublikamızın ərazi bütövlüyü yolunda qurban olublar, xalqımızın milli azadlıq yolunda apardığı mübarizənin qurbanlarıdır, şəhiddirlər. Onların faciəli surətdə həlak olması, şəhid olması Azərbaycan xalqının qəhrəmanlığının, mətanətinin, cəsarətinin nümayişidir..."

28 fevral - Bakıya gələn, sonra Yerevana və Xankəndinə səfər edən ABŞ Dövlət Departamentinin keçmiş SSRİ ərazisində regional münaqişələr idarəsinin rəisi, ATƏT-in Minsk qrupunda ABŞ-ı təmsil edən Cozef Pressel münaqişə bölgəsindəki vəziyyəti araşdırdıqdan sonra Azərbaycan Prezidenti Heydər Əliyevlə görüşdə belə qənaətə gəldiyini bildirmişdi ki, əgər yaxın iki ay ərzində danışıqlar prosesində irəliləyişlərə nail olunmasa, ATƏT-in indiyə qədər bu istiqamətdə gördüyü işlərin heç bir əhəmiyyəti olmayacaqdır.

13-14 mart - Vyanada ATƏT-in Minsk qrupunun görüşü keçirilmişdir.

15 mart - Avropa Şurası Parlament Assambleyası Ermənistan və Azərbaycanda qaçqın və məcburi köçkünlərin humanitar vəziyyətinə dair 1059 saylı qətnamə qəbul etmişdir. Qətnamədə Assambleyanın 1988-ci ildən başlayan Dağlıq Qarabağ münaqişəsinin Ermənistan və Azərbaycanda ifadə edilə bilməyən insan əzabları, minlərlə həlak olanlar, on minlərlə yaralı və bir milyondan artıq qaçqın və məcburi köçkünlərlə nəticələndiyindən təəssüfləndiyi vurğulanırdı.

16 mart - Moskvada Rusiya və Ermənistan arasında 25 il müddətinə müqavilə imzalandı. Bu müqaviləyə görə Ermənistan Respublikasındakı Rusiya hərbi düşərgələrinə hərbi baza statusu verildi və Rusiya qoşunlarının Ermənistanda fəaliyyəti hüquqiləşdirildi.

Martın sonları - ATƏT-in Minsk qrupunun həmsədrləri V.Kazimirov və A.Bürner münaqişə bölgələrinə səfər etdilər. Bu dəfə də ermənilərin danışıqlarda tərəflərin statusu məsələsini müzakirə mövzusuna çevirmək cəhdləri sülh prosesinin pozulmasına gətirib çıxartdı. Dağlıq Qarabağ ermənilərinin ATƏT-in sülh danışıqlarını bərpa etmək çağırışlarına

maneçilik törətdiyi digər bir məsələ – Şuşa və Laçının azad edilməsi və Dağlıq Qarabağın statusu məsələsi idi.

6-7 aprel - Stokholmda tərəflərin iştirakı olmadan ATƏT-in Minsk qrupunun görüşü keçirilmişdir. Stokholm bəyanatı qəbul edildi. V.Lozinskiy və Y.Eliasson arasında məsləhətləşmələr aparıldı.

Stokholmda ATƏT-in Minsk qrupunun Dağlıq Qarabağla əlaqədar keçirilən görüşündə münaqişə bölgəsində vəziyyət müzakirə olunaraq bəyanat qəbul edildi. Stokholm bəyanatında deyilirdi ki, iştirakçı dövlətlər atəşkəs rejiminin qorunub saxlanmasını alqışlayır, regiondakı şəraiti və danışıqlar prosesindəki vəziyyəti nəzərə alaraq, münaqişədə iştirak edən tərəfləri hərbi əməliyyatların yenidən baş verməməsinə xüsusi diqqət yetirməyə çağırırlar. Daha sonra münaqişə iştirakçılarından hərbi münaqişəni dayandırmaq haqqında siyasi sazişlə bağlı danışıqları davam etdirmək və münaqişənin nəticələrini heç bir ilkin şərt qoymadan aradan qaldırmaq tələb olunurdu.

13 aprel - ATƏT-in Minsk qrupunda İsveç nümayəndələrinin fəaliyyət müddəti başa çatdığına görə Minsk Konfransının həmsədrlik funksiyası Finlandiyaya tapşırıldı. ATƏT-in Dağlıq Qarabağ üzrə Minsk Konfransı və qrupunun finlandiyalı həmsədrləri vəzifələrinin icrasına başlayan H.Talvitiye və R.Niberq vəziyyətlə tanış olmaq üçün bölgəyə səfər etdilər.

20-21 aprel - Moskvada ATƏT-in Minsk Konfransının yeni finlandiyalı həmsədri H.Talvitiye ilə məsləhətləşmələr aparıldı. Onun A.S.Çernışev, A.İ.Nikolayev, O.İ.Lobov, Y.M.Baturin, V.N.Kazimirovla da görüşləri keçirildi.

21 aprel - Moskvada Rusiya Təhlükəsizlik Şurasının katibi O.Loqovla H.Talvitiyenin görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsi ilə bağlı geniş müzakirələr aparıldı.

26 aprel - BMT Təhlükəsizlik Şurasının sədri Şuranın 3525-ci iclasında "Dağlıq Qarabağda vəziyyətə dair" bəyanat vermişdir. Bəyanatda qeyd edilirdi ki, Təhlükəsizlik Şurası özünün 884 saylı qətnaməsinin 8-ci bəndinə uyğun olaraq ATƏT-in Dağlıq Qarabağa dair Minsk Konfransının həmsədrlərinin təqdim etdiyi məruzələrə baxmış və 1994-cü il mayın 12-də

Rusiya Federasiyasının vasitəçiliyi və ATƏT-in Minsk Qrupu ilə qarşılıqlı fəaliyyət sayəsində razılaşdırılmış atəşkəsin bir ilə yaxın müddətdə saxlanılmasından məmnunluğunu bildirir.

Eyni zamanda, sənəddə qeyd edilirdi ki, Təhlükəsizlik Şurası Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişədən və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında gərginlikdən təkrarən narahatlığını bildirir. Təhlükəsizlik Şurası xüsusilə, bu yaxınlarda baş vermiş zorakı hadisələrlə əlaqədar narahat olduğunu bildirir və 1995-ci il fevralın 6-da razılaşdırıldığı kimi hadisələrin nizamlanmasında birbaşa əlaqələr mexanizmindən istifadə edilməsinin vacibliyini vurğulayır.

Bununla yanaşı, bəyanatda göstərilirdi ki, Şura regionun bütün dövlətlərinin suverenliyi və ərazi bütövlüyünə əsaslanan özünün bütün qətnamələrini təsdiq edir, həmçinin beynəlxalq sərhədlərinin toxunulmazlığını və ərazi zəbt edilməsi üçün gücdən istifadənin yolverilməzliyini təsdiqləyir.

Sənəddə qeyd olunurdu ki, Təhlükəsizlik Şurası qoşunların geri çəkilməsini təmin etməklə münaqişənin bütün tərəflər üçün əsas nəticələrini aradan qaldıracaq və Minsk Konfransının çağırılmasına imkan yaradacaq silahlı münaqişənin dayandırılmasına dair siyasi sazişin bağlanılması üçün sürətli danışıqların keçirilməsinə yönələn Minsk Konfransının həmsədrlərinin bütün səylərinə özünün tam dəstəyini yenidən başlayır.

Eyni zamanda, bəyanatda Təhlükəsizlik Şurası vurğulayır ki, sülh nizamlanmasını əldə etmək üçün əsas məsuliyyəti münaqişə tərəfləri daşıyırlar. Təhlükəsizlik Şurası silahlı münaqişənin dayandırılmasına dair siyasi sazişin BMT Nizamnaməsi və ATƏT-in müvafiq prinsipləri əsasında bağlanılmasının zəruriliyini bildirərək qətiyyətlə tərəfləri hər hansı bir ilkin şərtlər və prosedur maneələrsiz konstruktiv danışıqlar aparmağa, sülh prosesini sarsıda biləcək istənilən hərəkətlərdən çəkinməyə çağırır və belə sazişin əldə edilməsinin ATƏT-in çoxmillətli sülhməramlı qüvvələrinin yerləşdirilməsi üçün ilkin şərt olduğu bildirilir.

26 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Yəhudi xalqının müsibəti günü münasibətilə Azərbaycanın yəhudi icmasına müraciətində eyni zamanda Ermənistanın etnik təmizləmə və soyqırımı

siyasətinə də toxunaraq demişdir: "1988-ci ildən başlayaraq erməni təcavüzkarlarının Azərbaycan xalqına qarşı yeritdiyi soyqırımı siyasəti, günahsız əhalimizin kütləvi qırğınları, zəbt olunmuş torpaqlarımızda misli görünməyən talanlar, vəhşiliklər, nəhayət, bütün dünyanı sarsıdan Xocalı faciəsi xalqımızın qəlbində sağalmaz yara kimi göynəməkdədir..."

Aprel - ATƏT-in YVŞK-nin sədri İ.Dyarmoti sülh prosesinə təkan vermək üçün konkret danışıq qrafikini razılaşdırmağı təklif etdi.

15-18 may - Moskvada Rusiya və Finlandiyanın həmsədrliyi ilə danışıqların birinci mərhələsi baş tutmuşdur.

19 may - Moskvada tərəflərin iştirakı olmadan ATƏT-in Minsk qrupunun məsləhətləşmələri keçirilmiş və ikinci Moskva bəyanatı qəbul edilmişdir.

26 may - Vyanada H.Talvitiye, V.Kazimirov və R.Niberq ATƏT-in Daimi Şurasına məlumat verdilər. Münaqişə regionunda kommunikasiya xətlərinin partladılması və Ermənistan Respublikası XİN-in bəyanatı ilə bağlı ATƏT-in fəaliyyətdə olan sədri və Minsk Konfransı həmsədrləri bəyanat verdilər.

30 may - Şimali Atlantika Şurası Nazirlərinin görüşünün mətbuat üçün Kommünikesində deyilirdi: "Cənubi Qafqazda mövcud olan vəziyyət xüsusi narahatlıq doğurmaqda davam edir. Biz Dağlıq Qarabağ ərazisində davam edən atəşkəsin ümumilikdə səmərəli olmasını alqışlayırıq. Biz, Dağlıq Qarabağ və onun ətrafında mövcud olan münaqişənin siyasi nizamlanmasına nail olmaq istiqamətində Minsk qrupunun səylərini dəstəkləyirik ki, bu nizamlanma, digər şərtlərlə yanaşı, Budapeşt Sammitində əldə edilmiş razılığa əsasən ATƏT-in beynəlxalq sülhməramlı qüvvələrinin yerləşdirilməsinə imkan verəcəkdir".

May - Moskvada Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair keçiriləcək danışıqlar ərəfəsində Ermənistan ATƏT-in Minsk qrupu çərçivəsində damşıqlarda iştirakını dayandırdığını bildirdi. Nəticədə danışıqlar növbəti dəfə iflasa uğradı.

12-14 iyun - Helsinkidə ATƏT-in Minsk qrupunun və Minsk Konfransının həmsədrləri (H.Talvitiye, V.Kazimirov, R.Niberq) çərçivəsində məsləhətləşmələr keçirilmişdir.

15-19 iyun - Helsinkidə Rusiya və Finlandiyanın həmsədrliyi ilə razılaşmaya dair Rusiya layihəsi üzrə danışıqlar aparılmışdır.

20-21 iyun - Helsinkidə tərəflərin iştirakı olmadan ATƏT-in Minsk qrupunun məsləhətləşmələri keçirilmişdir. Helsinki bəyanatı qəbul edilmişdir.

28 iyun - ATƏT-in fəaliyyətdə olan sədri L.Kovaç səfir S.Pşeqodskini münaqişə regionunda öz nümayəndəsi təyin etdi.

5 iyul - Nyu-Yorkda ATƏT-in Minsk Konfransının həmsədrləri V.Lozinskiy və H.Talvitiye BMT Təhlükəsizlik Şurasına məruzə etdilər.

5-8 iyul - Kanadanın paytaxtı Ottava şəhərində keçirilən ATƏT Parlament Assambleyasının illik yekun sessiyasının plenar iclasında Ottava Bəyannaməsi qəbul edildi. Almaniya və Finlandiyanın nümayəndələri tərəfindən göstərilən böyük dəstək nəticəsində qəbul edilmiş bəyannamədə Dağlıq Qarabağ probleminin həlli ilə bağlı Azərbaycan Respublikasının tutduğu konstruktiv mövqe tamamilə bəyənildi.

23 iyul - Budapeştdə Minsk Konfransının həmsədrləri ATƏT-in fəaliyyətdə olan sədri, Macarıstanın Xarici işlər naziri L.Kovaçla görüşdülər.

24-28 iyul - Badendə (Avstriya) tərəflərin iştirakı olmadan ATƏT-in Minsk qrupunun məsləhətləşmələri keçirilmişdir. Baden bəyanatı və humanitar məsələlərə dair bəyanat qəbul edilmişdir.

25-27 iyul - Badendə (Avstriya) tam tərkibdə ATƏT-in Minsk qrupunun məsləhətləşmələri keçirilmişdir.

28 iyul - ATƏT-in Minsk qrupunun üzvü olan ölkələrin iştirakı ilə Avstriyanın Baden şəhərində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi müzakirə olundu. Məsləhətləşmələr zamanı münaqişə bölgəsindəki vəziyyətin mürəkkəbliyi nəzərə alınaraq tərəflər arasında qarşılıqlı güzəştlərə nail olunması üçün danışıqların sürətləndirilməsinin vacibliyi vurğulandı. Lakin münaqişənin həllinə dair ATƏT-in Minsk qrupu çərçivəsində keçirilən Helsinki (Finlandiya) və Baden (Avstriya) danışıqları da Moskva danışıqları kimi nəticəsiz qurtardı.

İyul - Türkiyə prezidenti münaqişənin sülh yolu ilə həllinə dair aparılan damşıqlarda iştirak etmək üçün özünün ATƏT-in Minsk qrupundakı nümayəndəsinə xüsusi səlahiyyətli səfir statusu vermişdir.

28 avqust - ABŞ-ın Dağlıq Qarabağ üzrə danışıqlarda xüsusi nümayəndəsi Cozef Pressel və ATƏT-dəki xüsusi nümayəndəsi Sem Braun Azərbaycan, Ermənistan və Dağlıq Qarabağa səfər etdilər.

28 avqust - ATƏT-in fəaliyyətdə olan sədrinin Minsk Konfransında müzakirə olunan münaqişə üzrə Şəxsi Nümayəndəsi vəzifəsi təsis olundu.

4-9 sentybar - Moskva ətrafında "İttifaq" ("Soyuz") istirahət bazasında Rusiya və Finlandiyamn həmsədrliyi ilə danışıqlar aparılmışdır.

3-9 sentyabr - Moskvada münaqişənin aradan qaldırılmasına dair növbəti danışıqlar keçirildi. Bu danışıqlar ATƏT-in Minsk Konfransının həmsədrləri H.Talvitiyedən və V.Lozinskidən, Minsk qrupunun həmsədrləri R.Nüberqdən və V.Kazimirovdan ibarət tərkibdə Minsk Konfransının sədrliyi altında və ATƏT-in fəaliyyətdə olan sədrinin nümayəndəsi səfir S.Pşeqodskinin və Yüksək Səviyyədə Planlaşdırma Qrupunun başçısı general X.Vilienin iştirakı ilə aparıldı. Tədbirdə Azərbaycan və Ermənistan nümayəndə heyətləri, habelə Dağlıq Qarabağın azərbaycanlı və erməni icmalarınm nümayəndələri də iştirak etdilər.

Danışıqlarda uzun müddət qeyri-konstruktiv mövqedən çıxış edən Ermənistan Şuşa və Laçın məsələsinin əvvəl, Dağlıq Qarabağın statusunun isə sonra müzakirə edilməsinə razılıq verdi. Bu məsələ hələ Moskva, Helsinki, Baden danışıqlarında müzakirə obyektinə çevrilmiş ən kəskin və mübahisəli məsələlərdən biri idi, hər dəfə də Azərbaycan Şuşa və Laçın azad edildikdən sonra Dağlıq Qarabağın statusu məsələsinə baxılacağını bildirirdi. Ermənistan isə Azərbaycanın bu təkliflərinə məhəl qoymayaraq Şuşa və Laçın məsələsini danışıqların sonrakı mərhələsinə saxlayırdı.

11 sentyabr - Moskvada tam tərkibdə ATƏT-in Minsk qrupunun məsləhətləşmələri keçirilmişdir.

12 sentyabr - Moskvada tərəflərin iştirakı olmadan ATƏT-in Minsk qrupunun məsləhətləşmələri keçirilmişdir.

14 sentyabr - Vyanada V.Lozinskiy və R.Niberq ATƏT-in Daimi Şurasına məlumat vermişlər.

25-29 sentyabr - ATƏT-in Minsk Konfransı həmsədrlərinin Bakı, Yerevan və Xankəndinə səfəri olmuşdur.

8-16 oktyabr - Mariexamnda (Aland adaları) Rusiya və Finlandiyanm həmsədrliyi ilə tərəflər arasında danışıqlar aparılmışdır.

16 oktyabr - Helsinkidə tam tərkibdə ATƏT-in Minsk qrupunun məsləhətləşmələri keçirilmişdir.

17 oktyabr - Helsinkidə tərəflərin iştirakı olmadan ATƏT-in Minsk qrupunun məsləhətləşmələri keçirilmişdir.

20-26 oktyabr - Nyu-Yorkda ATƏT-in Minsk Konfransı və Minsk qrupu həmsədrlərinin BMT-nin Baş Assambleyasının sessiyasında görüşü keçirilmişdir.

22 oktyabr - BMT-nin 50 illik yubileyi ilə bağlı keçirilən Baş Assambleyasının xüsusi iclasında iştirak edən Azərbaycan Prezidenti Heydər Əliyev bu qurumun yüksək kürsüsündən dünya dövlətlərinə müraciət edərək mövcud qlobal problemlərə dair Azərbaycan dövlətinin prinsipial mövqeyini açıqlamış, xüsusilə, Ermənistanın təcavüzünün aradan qaldırılması ilə bağlı beynəlxalq səylərin artırılmasına çağırmışdır.

Oktyabr - Moskvada keçirilən növbəti danışıqlarda Azərbaycan tərəfinin əsas nailiyyəti ATƏT-in Minsk Konfransınm həmsədrləri V.Lozinskiy və H.Talvitiyenin təklifi ilə işğal olunmuş Azərbaycan ərazilərinin azad olunması üzrə cədvələ Laçının da əlavə edilməsi idi.

6-10 noyabr - Moskvada Rusiya və Finlandiyanın həmsədrliyi ilə danışıqlar aparılmışdır.

10-11 noyabr - Moskvada tam tərkibdə ATƏT-in Minsk qrupunun məsləhətləşmələri keçirilmişdir.

11 noyabr - Moskvada tərəflərin iştirakı olmadan ATƏT-in Minsk qrupunun məsləhətləşmələri keçirilmişdir.

19 noyabr - V.Lozinskiy ATƏT-in fəaliyyətdə olan sədri, Macarıstanın Xarici işlər naziri L.Kovaçla görüşmək məqsədi ilə Budapeştə səfər etmişdir.

20 noyabr - ATƏT-in növbəti fəaliyyətdə olan sədri Flavio Kotti ilə görüşmək məqsədilə V.Lozinskiy Bernə (İsveçrə) səfər etmişdir.

22-30 noyabr - Bonnda Rusiya və Finlandiyanm həmsədrliyi ilə danışıqlar aparılmışdır. ATƏT-in Minsk qrupunun məsləhətləşmələri keçirilmişdir. Minsk Konfransı həmsədrlərinin Dağlıq Qarabağa dair

ATƏT-in Nazirlər Şurasına etdiyi məruzə və Nazirlər Şurasının qərar layihəsi müzakirə edilmişdir.

5 dekabr - Şimali Atlantika Şurası Nazirlərinin görüşünün Mətbuat üçün Kommünikesində deyilirdi: "Biz, Dağlıq Qarabağ və onun ətrafında mövcud olan münaqişənin siyasi nizamlanmasına nail olmaq istiqamətində Minsk qrupunun davam edən səylərini dəstəkləyirik ki, bu nizamlanma, digər şərtlərlə yanaşı, Budapeşt Sammitində əldə edilmiş razılığa əsasən ATƏT-in beynəlxalq sülhməramlı qüvvələrinin yerləşdirilməsinə imkan verəcəkdir".

7-8 dekabr - Budapeştdə ATƏT-in Xarici işlər nazirləri Şurasının görüşü keçirildi. Bu görüşdə regionun hərbsizləşdirilməsi, Dağlıq Qarabağın statusu, Şuşa və Laçın məsələlərində ciddi fikir ayrılıqları olduğu üçün tərəflər arasında heç bir razılıq əldə edilmədi.

Regionun hərbsizləşdirilməsi məsələsində erməni tərəfi Dağlıq Qarabağı işğal edilmiş ərazilərə aid etməyərək orada erməni silahlı qüvvələrinin qalmasını israr edirdi. Azərbaycan tərəfi işğalçı qüvvələrin Şuşa və Laçın da daxil olmaqla bütövlükdə münaqişə bölgəsindən çıxarıldıqdan sonra Dağlıq Qarabağa yüksək status verilməsi mövqeyindən çıxış edirdi. Erməni tərəfi isə bildirdi ki, Dağlıq Qarabağın təhlükəsizliyi və onun statusu məsələsi həll olunmayınca Şuşa və Laçın problemi həll edilməyəcək. ATƏT-in fəaliyyətdə olan sədri L.Kovaç Budapeşt danışıqlarının nəticəsi barədə fikrini bildirərək görüşün gözlənilən irəliləyişə səbəb olmadığını bəyan etdi.

7-9 dekabr - Türkiyə Prezidenti S.Dəmirəlin Azərbaycana rəsmi səfəri zamanı imzalanmış Birgə Bəyanatda beynəlxalq əlaqələrdə BMT-nin rolunun gücləndirilməsinin, regiondakı münaqişənin aradan qaldırılmasının və qlobal problemlərin həlli yollarının araşdırılmasına daha fəal təsir göstərməsinin vacibliyi vurğulanmaqla yanaşı, bir daha Ermənistandan işğal etdiyi Azərbaycan torpaqlarını dərhal və qeyd-şərtsiz azad etməsi tələbi öz əksini tapdı.

8 dekabr - Budapeştdə ATƏT-in Minsk Konfransı həmsədrlərinin məruzəsi dinlənildi. ATƏT-in Nazirlər Şurası tərəfindən Dağlıq Qarabağa dair qərar qəbul edildi.

1995-ci il ərzində - ATƏT-in Minsk qrupu çərçivəsində keçirilən danışıqlarda erməni tərəfinin güzəştə getmək üçün məqbul sayılmayan tələbləri ucbatından tərəflər arasmda razılıq əldə edilmədi. ATƏT-in Minsk qrupu və onun üzvü olan dövlətlərin tutduqları mövqe münaqişənin həlli istiqamətində heç bir tərəqqi əldə edilməməsi, o cümlədən vəziyyətin dondurulmuş şəkildə qalmasına səbəb oldu.

1996

1 yanvar - İsveçrə (Xarici işlər naziri Flavio Kotti) Macarıstanı ATƏT-in fəaliyyətdə olan sədri qismində əvəz etdi.

9-12 yanvar - Moskvada Rusiya və Finlandiyanın həmsədrliyi ilə danışıqlar aparılmışdır.

9-15 yanvar - Moskvada ATƏT-in Minsk qrupu çərçivəsində danışıqların növbəti mərhələsi keçirildi. Danışıqlarda münaqişənin nizama salınmasına dair əsas məsələlərin müzakirəsi davam etdirildi. Həmsədrlərin təklifi ilə görüşdə Laçının koridor kimi qəbul edilməsi məsələsinin müzakirəsi nəzərdə tutulmuşdu. Bundan başqa digər əsas məsələlərin müzakirəsi haqqında da razılıq əldə edilmişdi. Danışıqlarda Dağlıq Qarabağın azərbaycanlı və erməni icmalarının nümayəndə heyətləri də iştirak edirdilər. Erməni tərəfi Dağlıq Qarabağın təhlükəsizliyinə təminat verilməsinin zəruriliyini əsas gətirərək Laçının azad olunması haqqında məsələni müzakirə etməkdən imtina etdi. Moskva görüşündə tərəflər arasında razılaşdırılmış hər hansı qərar qəbul edilmədiyindən danışıqların bu mərhələsi də nəticəsiz qurtardı.

15 yanvar - Moskvada tərəflərin iştirakı olmadan ATƏT-in Minsk qrupunun məsləhətləşmələri keçirilmişdir.

26 yanvar - ABŞ Konqresinin Nümayəndələr Palatası, sonra isə Senatı Azərbaycana birbaşa humanitar yardım göstərilməsini nəzərdə tutan qanun layihəsini təsdiq etdi. Konqresmen C.Vilson tərəfindən 907-ci düzəlişə edilən bu düzəlişdə deyilirdi ki, "Azərbaycan hökumətinə humanitar yardım o halda göstərilə bilər ki, prezident müəyyən etsin ki, qeyri-hökumət təşkilatları tərəfindən Azərbaycana göndərilən yardım qaçqın və köçkünlərin ehtiyaclarını lazımi səviyyədə ödəmir".

30 yanvar - Helsinkidə tərəflərin iştirakı olmadan ATƏT-in Minsk qrupunun məsləhətləşmələri keçirilmişdir.

Yanvarın sonları - ABŞ-ın Dağlıq Qarabağ üzrə damşıqlarda keçmiş nümayəndəsi Con Mareska Azərbaycana səfər etdi. Səfər zamanı o, münaqişənin həlli yolunun tapılmasına Amerika hökumətinin xüsusi maraq göstərdiyini vurğuladı. ATƏT-in Qafqazdakı rolundan danışan C.Mareska bildirdi ki, bu məsələnin həm müsbət, həm də mənfi tərəfləri var. O, ATƏT-in regionda Rusiyaya bir alternativ axtardığını müsbət hal kimi qiymətləndirsə də, bu təşkilatın münaqişə edən tərəfləri sülh müqaviləsi bağlamağa məcbur edə bilmədiyini də qeyd etdi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli barədə Amerika nümayəndəsi bildirdi ki, münaqişədə ən çətin problem muxtariyyət məsələsi deyil, çünki bütün tərəflər muxtariyyətin mövcudluğunu etiraf edirlər. Əsas problem hələlik həll oluna bilməyən Şuşa və Laçının azad edilməsi, eləcə də təhlükəsizliyin təminatı ilə bağlıdır.

21-22 fevral - Helsinkidə Rusiya və Finlandiyanın həmsədrliyi ilə danışıqlar aparılmışdır.

23 fevral - Helsinkidə tam tərkibdə ATƏT-in Minsk qrupunun məsləhətləşmələri keçirilmişdir.

24 fevral - Helsinkidə tərəflərin iştirakı olmadan ATƏT-in Minsk qrupunun məsləhətləşmələri keçirilmişdir. Minsk Konfransı və Minsk qrupunun həmsədrləri ATƏT-in fəaliyyətdə olan sədri F.Kottiyə onun Cənubi Qafqaza səfərinə dair "Paket həllinin çərçivələri" adlı sənəd layihəsini təqdim etdilər.

24 fevral - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Xocalı soyqırımının dördüncü ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətində xalqımıza qarşı yeridilmiş bu məqsədyönlü soyqırımı siyasətinin insanlıq və bəşəriyyət tarixində ağır bir cinayət kimi qalacağını və əsrin ən böyük faciələrindən olan Xocalı soyqırımının erməni qəsbkarlarının vəhşiliklərini bütün dünyaya bir daha nümayiş etdirdiyini qeyd etmişdir.

24 fevral - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Xocalı soyqırımının dördüncü ildönümü ilə əlaqədar Prezident sarayında Xocalı sakinlərinin bir qrupu ilə görüşdə Xocalı soyqırımının Ermənistan,

ermənilər tərəfindən Azərbaycan xalqına qarşı edilən ən dəhşətli soyqırım olduğunu və bunun bizim tariximizdə belə də həkk olmasını qeyd edərək bildirmişdir: "Bu soyqırımının nə qədər vəhşiliklə edildiyini və nə qədər insaniyyətdənkənar bir hadisə olduğunu biz gərək daim xalqımıza anladaq, bütün xalqlara anladaq, dünya ictimaiyyətinə anladaq. Bu faciəni heç vaxt unutmaq olmaz. Zaman keçdikcə, əksinə, bu faciəni biz dünyaya daha da kəskin göstərməliyik, xalqımıza göstərməliyik, gənc nəsillərə göstərməliyik, hamı bilsin ki, xalqımızın başına nə kimi faciə gəlibdir və eyni zamanda xalqımız öz azadlığı, öz Vətəni, öz torpağı uğrunda nə qədər qurbanlar verib, nə qədər qəhrəmanlıq nümunələri göstəribdir...Xocalı soyqırımı adi cinayət deyil. Xocalı soyqırımı gələcək nəsillərimizin xatirindən yüz il bundan sonra da çıxmamalıdır. Hər bir gələcək nəsil gərək bilsin ki, bizim millətimizə qarşı belə vəhşilik edilibdir..."

28 fevral - 2 mart - ATƏT-in fəaliyyətdə olan sədri, İsveçrənin Xarici işlər naziri Flavio Kotti başda olmaqla, ATƏT-in Minsk Konfransının həmsədrləri V.Lozinski və H.Talvitiye, Minsk qrupunun həmsədrləri V.Kazimirov və R.Niberq regiona səfər etdilər. Səfər zamanı ATƏT-in fəaliyyətdə olan sədri Azərbaycan sərhədləri daxilində Dağlıq Qarabağa yüksək muxtariyyət statusu verilməsinə dair Azərbaycanın təklifinə tərəfdar olduğunu və münaqişənin nizama salınmasından ötrü hər cür köməklik göstəriləcəyini bildirdi.

Bununla belə, Flavio Kotti qeyd etdi ki, hətta ATƏT kimi beynəlxalq strukturlar belə bu problemi həll etməkdə çətinlik çəkirlər. Buna görə də məhz münaqişə edən tərəflər məsələnin həllinə özləri qoşulmalıdırlar. ATƏT nümayəndələrinin ardınca regiona səfər etmiş ABŞ Dövlət katibinin müavini Stroub Talbott da birbaşa Azərbaycan-Ermənistan danışıqlarının keçirilməsinin vacibliyini ön plana çəkdi. Minsk qrupunun həmsədri V.Kazimirov Amerika nümayəndəsinin fikirlərini təsdiqləsə də, Azərbaycanla Ermənistan arasında birbaşa danışıqların nəticələrinə ümid etmədiyini bildirdi.

6 mart - Vyanada tərəflərin iştirakı olmadan ATƏT-in Minsk qrupunun məsləhətləşmələri keçirilmişdir.

7 mart - Vyanada ATƏT-in Minsk Konfransı və Minsk qrupunun həmsədrləri (V.Kazimirov, H.Talvitiye) ATƏT-in fəaliyyətdə olan sədrinə məruzə etdilər.

25-28 mart - Moskvada Rusiya və Finlandiyanın həmsədrliyi ilə danışıqlar aparılmışdır.

29 mart - Moskvada tərəflərin iştirakı olmadan ATƏT-in Minsk qrupunun məsləhətləşmələri keçirilmişdir.

29-30 mart - Moskvada tam tərkibdə ATƏT-in Minsk qrupunun məsləhətləşmələri keçirilmişdir.

9 aprel - ATƏT-in Minsk Konfransı həmsədrlərinin BMT Təhlükəsizlik Şurasına məktubu göndərildi.

Aprelin ortaları - ATƏT-in fəaliyyətdə olan sədri F.Kotti bildirmişdi ki, münaqişə edən tərəflər danışıqlara konkret nəticələrlə gəlməsələr, ATƏT öz vasitəçiliyini dayandıra bilər. O bəyan etdi ki, Böyük Siyasi Saziş yaxın aylarda imzalanmasa, Qarabağ məsələsinin həlli dondurulmuş şəkildə qalaraq daha 2-3 il uzana bilər.

25 aprel - Lüksemburqda Cənubi Qafqaz respublikalarının Avropa İttifaqı ilə "Əməkdaşlıq və Tərəfdaşlıq haqqında Saziş"i imzalamasından sonra Azərbaycan və Ermənistan prezidentləri Dağlıq Qarabağ məsələsi ilə bağlı bəyanatla çıxış etdilər.

25-30 aprel - ATƏT-in Minsk qrupu həmsədrlərinin Bakı, Yerevan və Xankəndinə səfəri olmuşdur.

5 may - Helsinkidə tərəflərin iştirakı olmadan ATƏT-in Minsk qrupunun məsləhətləşmələri keçirilmişdir.

22-26 may - ATƏT-in Minsk qrupunda ABŞ təmsilçisi C.Pressel Bakıya və Yerevana səfər edərək Azərbaycan və Ermənistan prezidentləri ilə görüşlər keçirdi.

3 iyun - Şimali Atlantika Şurası Nazirlərinin görüşündə mətbuat üçün Kommünikedə deyilirdi ki, "Biz Dağlıq Qarabağ və onun ətrafında mövcud olan münaqişənin siyasi yolla nizamlanmasına nail olmaq istiqamətində Minsk qrupunun səylərini dəstəkləyirik".

5-10 iyun - ATƏT-in Minsk qrupu və Minsk Konfransının həmsədrlərinin Bakı, Yerevan və Xankəndinə səfəri olmuşdur.

11 iyun - Erməni lobbisinin güclü təsiri altında olan Konqresin Nümayəndələr Palatası 1997-ci il üçün xarici əməliyyatlar haqqında qanun layihəsinin Azərbaycana aid olan müddəasını Konqresmen C.Porterin əlavəsi nəzərə alınmaqla qəbul etdi. Bu əlavədə Azərbaycana humanitar yardım edilməsi yenə də müəyyən şərtlər müqabilində nəzərdə tutulurdu, yəni Azərbaycana yardımı əvvəlki kimi ABŞ-ın yalnız qeyri-dövlət təşkilatları edə bilərdilər. Daha sonra humanitar yardımın düzgün olmayan proporsiyası müəyyənləşdirilmişdi. Ayrı-ayrılıqda həm Azərbaycanın və Dağlıq Qarabağın qaçqın və köçkün düşmüş əhalisinə uyğun olaraq 7:1 nisbətində, yəni Azərbaycana çatacaq 7 dollar müqabilində Dağlıq Qarabağa 1 dollar humanitar yardım göstərilməsi nəzərdə tutulmuşdu.

12 iyun - ABŞ Dövlət Departamenti bəyanat verərək "Porter düzəlişi"nin təqdim olunmuş şəkildə qəbul edilməsinin əleyhinə olduğunu bildirdi. Bəyanatda deyilirdi ki, Birləşmiş Ştatlar Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün qorunub saxlanmasının ardıcıl tərəfdarıdır. ABŞ hökuməti bu düzəlişin layihədəki kimi qəbul olunmasını Dağlıq Qarabağ münaqişəsinin siyasi danışıqlar yolu ilə həllinə maneələr yaradacağını bildirdi.

13 iyun - ABŞ-ın Nümayəndələr Palatasının xarici siyasət komitəsi qarşısında çıxış edən ABŞ prezidentinin və dövlət katibinin Yeni Müstəqil Dövlətlər üzrə xüsusi müşaviri R.Morninqstar Amerika hökumətinin ümumiyyətlə "Azadlığı Müdafiə Aktı"na 907-ci düzəlişin "Porter əlavəsi" də daxil olmaqla ləğvinə tərəfdar olduğunu bəyan etdi.

15-18 iyun - Moskvada ATƏT-in Minsk qrupu çərçivəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair danışıqlar keçirildi. Danışıqlarda Şuşa və Laçının azad olunması, tərəflərin təhlükəsizlik məsələləri diqqət mərkəzində oldu.

Görüş zamanı erməni tərəfi Azərbaycanın hərbi nöqteyi-nəzərdən möhkəmləndiyini və bunun Ermənistan üçün daim təhlükə törədəcəyindən narahat olduğunu bəhanə gətirdi. Bununla da onlar özlərinin silahlı birləşmələrinin mövcudluğunun vacibliyini sübut etməyə çalışaraq Şuşa və Laçının azad olunmasını qeyri-məqbul hesab etdilər. Laçının azad edilməsi məsələsində erməni tərəfinin etdiyi təklif həmsədrlərin fikirləri ilə demək olar ki, eyni idi. Bu təklifdə Azərbaycanın ərazi bütövlüyünün pozulması ilə

yanaşı silahlı qüvvələrin tranzit bölgədən çıxarılmasının dəqiq müddəti də göstərilmirdi. Moskva danışıqlarında müzakirə olunan məsələlərin böyük bir qismində həmsədrlərlə erməni tərəfinin mövqeləri üst-üstə düşürdü. Bu təkliflər Azərbaycan üçün qeyri-məqbul sayıldığından aparılan danışıqların heç bir nəticəsi olmadı.

1-5 iyul - ATƏT-in Minsk qrupu çərçivəsində Stokholmda (İsveç) keçirilən görüş Moskva danışıqlarının davamı kimi qiymətləndirilirdi. Lakin danışıqların bu mərhələsində münaqişənin həlli ilə bağlı mühüm məsələlərin (Şuşa və Laçın, Dağlıq Qarabağın statusu və s.) ön plana çəkildiyi zaman erməni tərəfi müzakirələrin ardıcıllığını pozmaq məqsədilə ilk baxışdan ciddi qəbul edilməyən bir sıra tələblər irəli sürdü (Goranboyun rayonunun bir hissəsinin azad edilməsi və s.).

Nəticədə, Ermənistanın belə manevrlərdən istifadə edərək ortaya atdığı bu tələblər münaqişənin həllinin uzadılmasına xidmət etməklə yanaşı, vəziyyətin dondurulmuş şəkildə qalmasına səbəb olurdu. ATƏT-in Minsk qrupunun həmsədrləri bunun günahını münaqişədə iştirak edən tərəflərin mövqelərinin bir-birinə zidd olması ilə izah edirdilər. Lakin danışıqlar prosesində həmsədrlərin mövqeyi erməni tərəfinin mövqeyinə daha yaxın idi. Onlar münaqişədə hərbi cəhətdən zəif tərəfə təzyiq göstərməklə irəliləyişə nail olmağa çalışırdılar. Azərbaycan tərəfinin mövqeyi isə onlardan tamamilə fərqlənirdi. Erməni tərəfi Azərbaycanın Şuşa və Laçın da daxil olmaqla bütün işğal olunmuş ərazilərinin azad edilməsinə dair təklifinə qarşı əks mövqedən çıxış edərək Şuşa və Laçının azad edilməsini qeyri-mümkün sayırdı.

4-5 iyul - Stokholmda ATƏT-in Minsk qrupunun məsləhətləşmələri keçirilmişdir.

15 iyul - ATƏT-in fəaliyyətdə olan sədri F.Kotti səfir Anji Kaspşiki 3 ay müddətinə öz şəxsi nümayəndəsi təyin etdi.

30 iyul - ABŞ Konqresinin Nümayəndələr Palatasının xarici siyasət komitəsində Dövlət Departamentinin yeni müstəqil dövlətlər üzrə baş əlaqələndiricisinin müavini Con Herbst "ABŞ-ın Qafqaz siyasəti" mövzusunda çıxış edərkən "Porter əlavə"sinin əleyhinə olaraq bildirdi ki, "Bu qanunvericilik aktı Dağlıq Qarabağa yardım məsələsinə süni münasibət yaratmaqla problemin həllinə köməkdən çox zərər yetirmişdir".

İyul - Rusiyanın Dağlıq Qarabağ üzrə danışıqlarda xüsusi nümayəndəsi, Minsk qrupunun həmsədrlərindən biri V.Kazimirov özünün 4 illik vasitəçilik fəaliyyətini başa vurdu. Rusiya vasitəçilik missiyasının rəhbəri, ATƏT-in Minsk qrupunun həmsədri vəzifəsinə V.Kazimirovun əvəzinə Y.Yukalov təyin edildi.

Avqustun əvvəlləri - Yeni təyin olunmuş rusiyalı həmsədr Y.Yukalov və onun ardınca Fransanın Minsk qrupundakı xüsusi nümayəndəsi münaqişə bölgələrinə səfər etdilər.

11-13 avqust - Helsinkidə Minsk qrupu və Minsk Konfransının rusiyah və finlandiyalı həmsədrləri Minsk qrupunda ABŞ, Fransa, Türkiyə və İsveç nümayəndələri ilə görüşdülər.

Avqustun ortaları - Almaniyanın Minsk qrupundakı xüsusi nümayəndəsi Frank Lambax münaqişə bölgələrinə səfəri zamanı Dağlıq Qarabağın statusu məsələsinin həllində beynəlxalq hüquq normaları və sərhədlərin toxunulmazlığı prinsipini əsas götürdüyünü bəyan etdi.

17-22 avqust - ATƏT-in Minsk qrupunun həmsədrləri münaqişə regionuna səfər etdilər.

27-28 avqust - ATƏT-in Lissabon zirvə toplantısına hazırlıq tədbirləri çərçivəsində Azərbaycan ilə Ermənistan arasında birbaşa danışıqların növbəti mərhələsi Almaniyanın Frankfurt şəhərində keçirildi.

3 sentyabr - Y.Yukalov V.Kazimirovun əvəzinə Rusiyanın Dağlıq Qarabağ üzrə səlahiyyətli nümayəndəsi təyin edildi.

Sentyabrın ortaları - ABŞ-ın Dağlıq Qarabağ üzrə danışıqlarda xüsusi nümayəndəsi C.Presselin regiona növbəti səfəri zamam da əvvəlki görüşlərdə olduğu kimi konkret heç bir nəticə əldə edilmədi.

26-27 sentyabr - Moskvada tərəflərin iştirakı olmadan ATƏT-in Minsk qrupunun məsləhətləşmələri keçirilmişdir.

2-4 oktyabr - ATƏT-in Yüksək Səviyyəli Planlaşdırma Qrupu münaqişə regionuna səfər etdi.

3-6 oktyabr - ATƏT-in Minsk Konfransının həmsədrləri V.Lozinski (Rusiya) və H.Talvitiye (Finlandiya) başda olmaqla nümayəndə heyəti Minsk qrupunun bir neçə üzvü ilə (ABŞ, İsveçrə, Danimarka, Türkiyə) birgə Lissabon sammiti ərəfəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ətrafında yaranmış vəziyyəti araşdırmaq məqsədilə

Bakı, Yerevan və Xankəndinə səfər etdilər. Eyni zamanda missiyanın tərkibinə ATƏT-in Minsk qrupunun həmsədrləri – R.Niberq və Rusiya tərəfindən V.Kazimirovu bu vəzifədə yeni əvəz etmiş Y.Yukalov da daxil idi. Bu səfərin məqsədi münaqişə tərəflərini əvvəlcədən Lissabon zirvə görüşündə müzakirə olunacaq məsələlər və sammitin iş planı ilə tanış etmək, bu nüfuzlu beynəlxalq tədbirə konkret təkliflər hazırlamaqdan ibarət idi.

16-17 oktyabr - Vyanada ATƏT-in Minsk qrupunun tərəflərin iştirakı olmadan məsləhətləşmələri keçirilmişdir. Minsk Konfransı həmsədrlərinin ATƏT-in Daimi Şurasına münaqişənin nizamlanması prosesi haqqında hesabatı dinlənilmişdir.

28-30 oktyabr - Moskvada Rusiya və Finlandiyanın həmsədrliyi ilə danışıqlar aparılmışdır.

10-12 noyabr - Helsinkidə ATƏT-in Lissabon sammitinin yekun sənədinin hazırlanması üzrə Minsk Konfransı həmsədrlərinin məsləhətləşmələri keçirilmişdir.

18-22 noyabr - Helsinkidə Rusiya və Finlandiyanın həmsədrliyi ilə danışıqlar aparılmış və ATƏT-in Minsk qrupunun məsləhətləşmələri keçirilmişdir.

Noyabrın sonları - ATƏT-in Parlament Assambleyasının sədri Havyer Rupers, sonra isə onun müavini, Bundestaqın Almaniya-Qafqaz Qrupunun rəhbəri Villi Vimmerin regiona səfərləri zamanı keçirilən görüşlərdə heç bir tərəqqi əldə edilmədi. Münaqişə tərəfləri arasında heç bir razılığın əldə edilməməsi dekabr ayında Lissabonda keçiriləcək Zirvə toplantısında erməni tərəfinin konstruktiv bir mövqedən çıxış edəcəyini şübhə altında qoyurdu. Razılığın əldə olunmamasını Ermənistan danışıqlarda Azərbaycanın guya sərt mövqe tutması ilə izah edirək Şuşa və Laçın məsələsində güzəştə gedilməməsini, eləcə də Dağlıq Qarabağın müstəqilliyinin tanınmamasını nəzərdə tuturdular. Lakin Azərbaycan ən axırıncı güzəştlərini edərək Şuşadan silahlı qüvvələrin çıxarılmasına, Dağlıq Qarabağla Ermənistan arasında yerləşən Laçın dəhlizinin beynəlxalq sülhməramlı qüvvələrin nəzarəti altında olmasına və bundan sonra Dağlıq Qarabağa Azərbaycan tərkibində ən yüksək status verilməsinə razı olduğunu bildirmişdi. Buna baxmayaraq, ermənilərin Şuşa və Laçına olan iddiaları və

beynəlxalq hüquq normalarına zidd tələbləri ucbatından tərəflər Lissabon Zirvə toplantısına razılıqsız getdilər.

2-3 dekabr - Lissabonda ATƏT-in dövlət və hökumət başçılarının Zirvə toplantısı Avropanın 52 dövlətinin, ABŞ və Kanadanın, habelə müşahidəçi qismində 10 Asiya və Afrika dövlət başçılarının iştirakı ilə keçirildi. Lissabon Zirvə toplantısında yekun sənəd - 27 maddədən ibarət bəyannamə qəbul edildi. Bəyannamə "Avropada XXI əsrdə ümumi və hərtərəfli (qlobal) təhlükəsizlik modeli" adlandırıldı. Toplantıda Avropada və dünyada baş verən proseslər, o cümlədən, qarşılıqlı təhlükəsizlik və əməkdaşlıq, insan haqlarının qorunması, demokratikləşmə və münaqişələrin həlli ilə bağlı məsələlər müzakirə obyektinə çevrildi. Bəyannamədə Bosniya və Herseqovinada daimi sülhün təmin olunması, Qazaxıstan, Ukrayna və Belarusun öz ərazilərindən nüvə silahlarını çıxarması, Gürcüstan və Moldova respublikalarının suverenliyinin və ərazi bütövlüyünün təmin olunması, Çeçenistan məsələsi, ATƏT-in Orta Asiya respublikalarında demokratik strukturların inkişaf etdirilməsində rolu, qaçqınlar problemi, mətbuat azadlığı, iqtisadi, sosial və s. problemlər öz əksini tapdı. Qərara alındı ki, 1997-ci ilin dekabrında ATƏT-in Xarici işlər nazirləri Şurasının toplantısı Kopenhagendə (Danimarka), dövlət və hökumət başçılarının Zirvə toplantısı isə 1998-ci ildə İstanbulda keçirilsin. 1998-ci ildən ATƏT-ə sədrlik Polşaya tapşırıldı.

Lissabonda digər məsələlərlə yanaşı, ilk dəfə olaraq, Qafqazda gedən proseslər, o cümlədən Ermənistan-Azərbaycan münaqişəsinin həlli yolları dünyanın aparıcı ölkələri tərəfindən geniş müzakirə olundu. Hələ Zirvə toplantısından əvvəl tərəflərin mövqeləri arasında ziddiyyətlərin qalması Lissabonda Azərbaycan və Ermənistanın ikitərəfli danışıqlarının uğursuzluqla qurtarmasına səbəb olmuşdu.

Keçirilən bütün görüşlərdə Azərbaycan ATƏT prinsiplərini əsas götürərək özünün ərazi bütövlüyünü qorumaq şərti ilə Dağlıq Qarabağa öz tərkibində ən yüksək status verilməsi mövqeyindən çıxış edirdi. Azərbaycanın bu təklifi Ermənistandan başqa ATƏT-in Minsk qrupunun bütün üzvləri tərəfindən müdafiə olundu. Hətta Azərbaycan və Ermənistan danışıqlarında iştirak edən xüsusi nümayəndələrin görüşləri zamanı da bu prinsiplər Minsk qrupu tərəfindən müzakirəyə təqdim edilmiş, lakin

Ermənistan buna etiraz etdiyindən heç bir nəticə əldə edilməmişdi. Göstərdiyi bütün səylərə baxmayaraq, Lissabon Zirvə toplantısının yekun bəyannaməsinin layihəsində Azərbaycan təklif etdiyi maddənin yox, başqa bir maddənin salınmasının şahidi oldu. Vyanada, daha sonra Lissabonda işçi qrup tərəfindən hazırlanmış bəyannamə layihəsində əks olunan izahatda göstərilirdi ki, Ermənistan bu maddəyə konsensus vermədiyinə görə, ümumi bəyannamədən çıxarılmışdır.

Buna baxmayaraq, Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı qətnamə müzakirəyə çıxarılarkən əsas mübarizə sənədin 20-ci maddəsi uğrunda oldu. Azərbaycan nümayəndə heyətinin səyləri və təkidi ilə Lissabon sənədinə 20-ci maddə adı altında həmin prinsipləri əks etdirən bir maddə daxil edildi. Bu maddəyə əsasən, Azərbaycanın ərazi bütövlüyü tanınırdı. Lakin Ermənistan tərəfi konsensus qaydasından istifadə edərək, yekun qətnamənin 20-ci maddəsinə "veto" qoydu.

Belə vəziyyətdə Azərbaycan Prezidenti Heydər Əliyev prinsipial mövqe tutaraq və buna cavab kimi sammitin Yekun sənədlərinə "veto" qoymaqla obyektiv qərarın qəbul olunması istiqamətində fəaliyyətini davam etdirdi. Böyük dövlətlərin başçıları və ATƏT-in fəaliyyətdə olan sədri ilə aparılan danışıqlardan sonra Azərbaycan Prezidenti Ermənistan-Azərbaycan münaqişəsinin həlli prinsipləri haqqında fəaliyyətdə olan sədrin adından bəyanatın verilməsinə və sammitin Yekun sənədlərinə qoyduğu "veto"nu götürməyə razı oldu.

Nəticədə, Lissabon sammitinin yekun bəyannaməsinin 20-ci maddəsi Azərbaycanın təklif etdiyi prinsiplər olmadan qəbul edildi. Bunun əvəzində ATƏT-in fəaliyyətdə olan sədri Flavio Kotti Ermənistan-Azərbaycan münaqişəsinin həllinə dair 3 əsas prinsipi özündə əks etdirən bəyanat verdi. Bəyanatda deyilirdi ki, Dağlıq Qarabağ münaqişəsinin həll edilməsində və Azərbaycanın ərazi bütövlüyü məsələsində tərəqqi əldə edilməmiş, məsələnin həlli prinsiplərinə dair tərəflərin fikirlərini bir-birinə yaxınlaşdırmaq üçün Minsk Konfransı həmsədrlərinin səyləri uğursuz olmuşdur. Daha sonra bəyanatda Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə həllinin bir hissəsini təşkil etməli olan 3 əsas prinsip göstərilirdi:

- Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazi bütövlüyü;
- Razılaşmada müəyyən edilmiş öz müqəddəratını təyin etməyə əsaslanan, Dağlıq Qarabağa Azərbaycanın tərkibində ən yüksək özünüidarə dərəcəsi verən hüquqi statusu;
- Qarşılıqlı öhdəliklər də daxil olmaqla nizamasalma müddəalarına bütün tərəflərin riayət etməsi və Dağlıq Qarabağın, eləcə də bütün əhalisinin təminatlı təhlükəsizliyi.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair 3 əsas prinsipi özündə əks etdirən və ATƏT-in fəaliyyətdə olan sədri, İsveçrənin Xarici işlər naziri Flavio Kottinin adından verilən bu bəyanat Ermənistan istisna olmaqla, dünyanın 53 dövləti tərəfindən müdafiə olundu və Lissabon sammitinin Yekun sənədlərinə əlavə edildi.

9-13 dekabr - İKT-yə üzv olan ölkələrin Xarici işlər nazirlərinin İndoneziyanın Cakarta şəhərində keçirilən XXIV konfransında Azərbaycanla bağlı bir neçə sənəd qəbul edilmişdir. Qəbul edilən sənədlərdə İKT konfranslarının Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar 1993-cü ildən qəbul etdiyi qətnamələrin adı dəyişdirilərək, "Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münaqişə haqqında" qətnamə əvəzinə, "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" qətnamə adlandırılmağa başlandı.

Əvvəlki qətnamələrdə olduğu kimi, Ermənistanın təcavüzkarlığını pisləyən bu qətnamədə də BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi məlum qətnamələrin yerinə yetirilməsi, Azərbaycanın işğal olunmuş ərazilərindən o cümlədən Şuşa və Laçından Ermənistan silahlı qüvvələrinin dərhal, qeyd-şərtsiz və tamamilə çıxarılması təkidlə tələb edilirdi.

Cakarta konfransında bu sənəddən başqa Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında başqa bir qətnamə də qəbul edildi. Konfransın Yekun sənədində isə Ermənistan-Azərbaycan münaqişəsinin aradan qaldırılması prinsipləri – Azərbaycanın ərazi bütövlüyü, Azərbaycan Respublikası tərkibində Dağlıq Qarabağa muxtariyyət verilməsi və Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyinin təmin olunması prinsipləri barədə Lissabon sammitində

qəbul edilmiş ATƏT sədrinin bəyanatının yekdilliklə müdafiə olunması haqqında maddə öz əksini tapdı.

10 dekabr - Şimali Atlantika Şurası Nazirlərin görüşünün mətbuat üçün Kommünikesində deyilirdi: " Bütün dövlətlərin demokratik və iqtisadi inkişafı, müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü Avro-Atlantika məkanında sabitlik və təhlükəsizliyin mühüm amilləridir. Biz özünün müxtəlif missiyaları vasitəsilə bir sıra regional münaqişələrdə vasitəçilik səyləri həyata keçirdiyinə görə ATƏT-i təqdir edir və Milli Azlıqlar üzrə Ali Komissarın dəyərli işini yüksək qiymətləndiririk. Biz Dağlıq Qarabağ və onun ətrafında mövcud olan münaqişənin siyasi nizamlanmasına nail olmaq istiqamətində Minsk qrupunun səylərini dəstəkləyirik".

17 dekabr - Nyu-Yorkda ATƏT-in Minsk Konfransının həmsədrləri BMT Təhlükəsizlik Şurasına Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin gedişatına dair məruzə etdilər.

30 dekabr - ATƏT-in fəaliyyətdə olan sədri F.Kotti Finlandiyanın əvəzinə Fransa Xarici İşlər Nazirliyinin baş katibinin müavini Jak Blonu ATƏT-in Minsk Konfransının həmsədri təyin etdi.

31 dekabr - Fransanın ATƏT-in Minsk Konfransının həmsədri təyin edilməsi ilə bağlı Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ATƏT-in fəaliyyətdə olan sədrinə etiraz etdi.

1995-1996-cı illər - Budapeşt sammitindən sonra Lissabon sammitinə qədər münaqişə tərəfləri ilə danışıqların 17 raundu və çoxsaylı məsləhətləşmələr aparıldı. Bu müddət ərzində sazişin mətninin 75%-i hazırlanmışdı. Lakin Şuşa və Laçın rayonları daxil olmaqla bütün ərazilərin boşaldılması, münaqişə iştirakçılarının təhlükəsizliyi və Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən çıxarılması kimi prinsipial məsələləri Ermənistanın qeyri-konstruktiv mövqeyi nəticəsində razılaşdırmaq mümkün olmadı.

1997

1 yanvar - Danimarka (Xarici işlər naziri Nils Peterson) İsveçrəni ATƏT-in fəaliyyətdə olan sədri qismində, Fransa isə Finlandiyanı ATƏT-in Minsk Konfransı və Minsk qrupunun həmsədri qismində əvəz etdi.

1 yanvar - Fransa və Rusiya ATƏT-in Minsk qrupunun həmsədrləri qismində fəaliyyətə başladılar.

1 yanvar - ATƏT-in fəaliyyətdə olan sədrinin Minsk Konfransında müzakirə olunan münaqişə üzrə ilk şəxsi nümayəndəsi vəzifəsinə səfir Anji Kaspşik təyin edildi. O dövrdən indiyədək Anji Kaspşik bu vəzifəni icra edir.

8 yanvar - ABŞ-ın Dövlət katibi vəzifəsinə yeni təyin olunmuş Madelin Olbrayt Senatın Beynəlxalq Münasibətlər Komitəsi qarşısında çıxış edərkən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında bildirmişdi: "ATƏT-in Minsk qrupu çərçivəsində indiyə qədər gedən proses sarsıdıcı dərəcədə ləng olmuşdur. Bizim bu regionda çox əhəmiyyətli iqtisadi, siyasi və humanitar maraqlarımız var və biz münaqişənin həllinə kömək göstərməklə daha nəzərə çarpan rol oynamağa hazırıq".

30 yanvar - Minsk qrupunun rusiyalı həmsədri ilə ATƏT-in yeni fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi S.Kristiansen arasında məsləhətləşmələr aparılmışdır.

14 fevral - ATƏT-in fəaliyyətdə olan sədri Nils Petersen ABŞ Dövlət katibinin müavini Stroub Talbottu ATƏT-in Minsk qrupunun həmsədri təyin etdi. ABŞ bu dövrdən etibarən Rusiya və Fransa ilə birlikdə ATƏT-in Minsk Konfransı və Minsk qrupunun üçüncü həmsədri oldu.

Bu təyinata qarşı Rusiya və Ermənistanın etirazına baxmayaraq ABŞ ən yüksək səviyyədə Rusiya-Fransa həmsədrlər sırasına qoşuldu. Beləliklə, istər M.Olbraytın çıxışı, istərsə də S.Talbottun həmsədr təyin olunması Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində ABŞ-ın fəallığının artdığını göstərirdi.

23 fevral - MDB ölkələri ilə Əməkdaşlıq naziri A.Tuleyevin Rusiyanın Müdafiə naziri İqor Rodionova göndərdiyi məktubda 1994-1996-cı illər ərzində Ermənistana 271 milyard Rusiya rublu dəyərində müxtəlif növ müasir tipli zirehli texnikanın əvəzsiz olaraq verildiyi barədə faktlar açıqlandı.

24-25 fevral - Kopenhagendə ATƏT-in fəaliyyətdə olan sədrinin himayəsi altında Minsk qrupunun rusiyalı, fransalı və amerikalı həmsədrlərinin məsləhətləşmələri keçirilmişdir.

25 fevral - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Xocalı soyqırımının beşinci ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətində bildirmişdir: "...1992-ci il fevral ayının 26-da Ermənistan silahlı birləşmələri imperiyapərəst qüvvələrin bilavasitə iştirakı və havadarlığı ilə Azərbaycan xalqına qarşı növbəti qanlı təcavüzə əl ataraq tarixdə misli görünməmiş Xocalı soyqırımını törətdilər. Xocalı şəhərinin minlərlə əliyalm mülki əhalisi müasir hərbi texnika ilə silahlanmış düşmənin qəfil və amansız hücumuna məruz qaldı. Yüzlərlə günahsız insan kütləvi şəkildə məhv edildi, qocalar, qadınlar, uşaqlar, hətta südəmər körpələr ən dəhşətli üsul və vasitələrlə qətlə yetirildilər, girov götürülərək insanlığa sığmayan həqarət və təhqirlərlə üzləşməli oldular...Xocalı soyqırımı erməni faşizminin iç üzünü bir daha açıb göstərməklə, təkcə Azərbaycan xalqına deyil, bütün bəşəriyyətə qarşı yönəlmiş tarixi cinayətdir və beynəlxalq hüquqa uyğun olaraq sivilizasiyalı dünya tərəfindən məhkum olunmalıdır..."

6 mart - Moskvada Rusiya Xarici işlər nazirinin birinci müavini V.Pastuxovun S.Talbotla görüşü olmuşdur.

19 mart - Parisdə ATƏT-in Minsk qrupunun tərəflərin iştirakı olmadan məsləhətləşmələri keçirilmişdir.

21 mart - Dövlət Departamentinin rəsmi nümayəndəsi N.Berns bəyanat verərək bildirdi: "Dağlıq Qarabağın tanınması haqqında ABŞ-ın siyasəti dəyişməz qalır, Dağlıq Qarabağ Azərbaycanın bir hissəsidir". Bəyanatın sonunda deyilirdi: "Dövlət katibinin müavini S.Talbott Rusiya və Fransa nümayəndələri ilə yanaşı, Minsk qrupunun həmsədrlərindən biridir və biz, Rusiya, Fransa və digərləri ilə həmin proses çərçivəsində birgə işləyib Dağlıq Qarabağa sülh gətirməyə ümid edirik".

23 mart - İKT-yə üzv olan ölkələrin dövlət və hökumət başçılarının İslamabadda Pakistanın müstəqilliyinin 50 illiyinə həsr edilmiş növbədənkənar toplantısında qəbul edilmiş bəyannamənin Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən 10-cu maddəsində Ermənistan tərəfindən ölkəmizə qarşı edilən təcavüz qətiyyətlə pislənmiş, işğal edilmiş ərazilərin azad olunması tələb olunmuşdur.

1-5 aprel - ATƏT-in Minsk qrupuna yeni həmsədrlər təyin olunduqdan sonra Moskvada Minsk qrupu çərçivəsində danışıqların növbəti mərhələsi keçirilmişdir. Bu, ATƏT-in Lissabon sammitindən sonra bütün

tərəflərin iştirakı ilə keçirilən ilk görüş idi. Danışıqların bu mərhələsi iki hissədən ibarət olmuşdur: birinci hissə silahlı münaqişənin dayandırılması haqqında razılaşma layihəsinin işlənib hazırlanması və müzakirəsinə həsr edildi. İkinci hissədə isə Azərbaycanın, Ermənistanın və maraqlı tərəflərin (Dağlıq Qarabağın erməni icmasının və azərbaycanlı əhalisinin nümayəndələrinin) iştirakı ilə, habelə onların iştirakı olmadan Minsk qrupunun iclasları keçirildi.

Moskva danışıqlarında Azərbaycan tərəfindən tənzimlənmənin başlıca problemi olan və silahlı münaqişənin dayandırılması haqqında razılaşmanın əsas mövzusu kimi qəbul edilən Şuşa və Laçının azad edilməsi məsələsi əsas diqqət mərkəzində olsa da, ermənilər əvvəlki kimi sərt mövqe tutaraq Dağlıq Qarabağın statusu məsələsini müzakirəyə çıxarmağa çalışdılar. Ermənistan və Dağlıq Qarabağın erməni icmasının nümayəndələri Dağlıq Qarabağın erməni icmasının təhlükəsizliyi məsələsini status haqqında məsələ ilə əlaqələndirirdilər. Lakin Azərbaycan tərəfinin ciddi iradlarından sonra Minsk qrupu həmsədrləri Dağlıq Qarabağın statusu məsələsinin ATƏT-in Minsk Konfransında müzakirə ediləcəyini bildirsələr də, ilkin məsləhətləşmələrin mümkünlüyünü də istisna etmədilər.

11 aprel - Rusiya Dövlət Duması müdafiə komitəsinin sədri Lev Roxlinin Ermənistana qanunsuz olaraq silah, hərbi texnika və sursat göndərilməsi barədə məruzəsini dinlədi. Məruzədə deyilirdi ki, 1993-1995-ci illərdə Rusiya Federasiyası Müdafiə Nazirliyinin müəyyən vəzifəli şəxsləri tərəfindən Ermənistana qanunsuz, gizli və əvəzsiz olaraq Rusiya silahı, o cümlədən 84 ədəd T-72 tankı, 50 ədəd PDM, külli miqdarda R-17 raketi, "Kruq" zenit raket kompleksi, "OSA" zenit raket kompleksi üçün raketlər, "Qrad" yaylım atəşli reaktiv sistemlər, "İQLA" səyyar zenit raket qurğuları və bir çox başqa silahlar göndərilmişdir ki, bunların da məbləği 1 milyard Amerika dollarına bərabərdir. Bundan bir müddət sonra Lev Roxlin naməlum şəraitdə qətlə yetirildi.

22 aprel - Avropa Şurasının Parlament Assambleyası Cənubi Qafqazda münaqişələr barədə qətnamə (1119) qəbul etdi. Qətnamədə qeyd edilirdi ki, regionda mövcud olan münaqişələr 1975-ci il Helsinki Yekun Aktının və 1990-cı il Yeni Avropa üçün Paris Xartiyasının müddəalarına uyğun həll olunmalıdır.

27-30 aprel - Parisdə ATƏT-in Minsk Konfransı həmsədrlərinin məsləhətləşmələri keçirilmişdir.

1 may - Moskvada S.Talbott və J.Blonun iştirakı ilə Y.Primakov və ABŞ dövlət katibi M.Olbrayt arasında məsləhətləşmələr aparılmışdır.

3 may - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycan Respublikasının yəhudi icmasına müraciətində Ermənistanın etnik təmizləmə və soyqırımı siyasətinə də toxunaraq xalqımızın tarixinə qanlı səhifə kimi daxil olmuş Xocalı soyqırımının ağlasığmaz erməni vəhşiliklərinin miqyasına görə Kiyevdəki Babiy Yarda, Varşava və Krakov gettolarında faşistlərin törətdikləri kütləvi insan qırğınları ilə bir sırada durduğunu bildirmişdir.

15 may - ATƏT-in Minsk Konfransının həmsədrləri – Fransadan siyasi məsələlər üzrə direktor Jak Blo, Rusiyadan səfir Valentin Lozinski və ABŞ-dan dövlət katibinin müavini Stroub Talbott Vaşinqtonda görüşərək sülh prosesinə dair mövqeləri birgə müzakirə etdilər.

29 may - 1 iyun - ATƏT-in Minsk qrupu və Minsk Konfransının həmsədrlərinin Bakı, Yerevan və Xankəndinə səfəri olmuşdur.

4 iyun - Vyanada tərəflərin iştirakı olmadan ATƏT-in Minsk qrupunun məsləhətləşmələri keçirilmişdir.

5 iyun - Vyanada münaqişənin nizamlanması prosesi barədə Minsk qrupunun ATƏT-in Daimi Şurasında hesabatı dinlənilmişdir.

12-15 iyun - ATƏT-in Minsk qrupu həmsədrlərinin Xankəndi, Yerevan və Bakıya səfəri olmuşdur.

13 iyun - ABŞ Senatının xarici məsələlər üzrə komitəsi 13 səs lehinə, 4 səs əleyhinə olmaqla "1998-1999-cu maliyyə ili üçün xarici səlahiyyətlər haqqında" qanuna iki – konqresmen Pallone və Smit düzəlişlərini qəbul etdi. Birbaşa Azərbaycana və onun maraqlarına zidd olan F.Pallonenin düzəlişi ABŞ-ın Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasında fəal iştirakını və Dövlət Departamentinin Bakı ilə Xankəndi arasında birbaşa danışıqlar təşkil etməsini nəzərdə tuturdu. Düzəlişdə "ərazi bütövlüyü" və "millətlərin öz müqəddəratını təyinetmə hüququ" haqqında heç nə deyilmirdi.

20 iyun - Denverdə (ABŞ) dünyanın aparıcı ölkələrinin (7+1) dövlət və hökumət başçılarının sammiti birgə kommünikenin qəbul edilməsi

ilə başa çatdı. Sammitin yekunlarına görə ATƏT-in Minsk qrupunun həmsədrləri olan ölkələrin başçıları ABŞ prezidenti B.Klinton, Fransa prezidenti J.Şirak və Rusiya prezidenti B.Yeltsin davam etməkdə olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin danışıqlar yolu ilə həll olunmasına kömək etmək üçün sıx işləmək niyyətlərini bildirərək birgə bəyanat imzaladılar.

25-26 iyun - Parisdə ATƏT-in Minsk qrupunun məsləhətləşmələri keçirilmişdir.

İyulun II yarısı - ATƏT-in Minsk Konfransının həmsədrləri V.Lozinski (Rusiya), J.Blo (Fransa) və S.Talbott (ABŞ) münaqişənin nizamlanması istiqamətində hazırladıqları yeni təkliflərlə Ermənistan və Azərbaycana səfər etdilər. Minsk Konfransı həmsədrlərinin yeni təklifi Dağlıq Qarabağ əhalisinin təhlükəsizliyinin daha dəqiq təminatı, sülhməramlı qüvvələrin iştirakı, onların münaqişə regionunda qalmasının müddəti və Dağlıq Qarabağın statusu haqqında idi.

Daha sonra Minsk qrupu həmsədrləri Y.Yukalov (Rusiya), J.Vojye (Fransa) və C.Presselin əvəzinə L.Pasko (ABŞ) regiona səfər edərək problemin nizamlanması üzrə məsləhətləşmələri davam etdirdilər. Səfər zamanı məlum oldu ki, Ermənistan və Dağlıq Qarabağ ermənilər Minsk Konfransı həmsədrlərinin Lissabon sənədində əksini tapmış prinsiplər əsasında hazırladıqları "Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair hərtərəfli saziş"i (şərti olaraq "paket" variantı adlandırılan təklifi) qəbul etmirlər. Bu variant Dağlıq Qarabağın statusu da daxil olmaqla bütün məsələlərə eyni vaxtda razılıq əldə edilməsini nəzərdə tuturdu.

17-20 iyul - ATƏT-in Minsk qrupu həmsədrlərinin Bakı, Yerevan və Xankəndinə səfəri olmuşdur.

18 iyul - ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən "Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair hərtərəfli saziş" adlanan birinci sənəd münaqişə tərəflərinə təqdim edildi. Həmin sənəd daha çox "paket həll" kimi tanınır və bir paketdə birləşdirilən iki anlaşmadan ibarət idi. Anlaşmalardan birincisi silahlı münaqişənin dayandırılmasına, ikincisi isə Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsinə həsr olunmuşdu.

"Paket" həll variantında Azərbaycanı təmin etməyən və ATƏT-in Minsk qrupunun həmsədrlərinin diqqətinə çatdırılan bir sıra ciddi məqamlar var idi. Hər şeydən əvvəl, sənədin BMT-nin məlum qətnamələrinə əsaslanmaması və hüquqi baxımdan icbari xarakter daşımaması narazılıq doğururdu. Digər tərəfdən, işğal olunmuş ərazilərin boşaldılması ilə status məsələsinin qarşılıqlı şəkildə əlaqələndirilməsi əslində münaqişənin həllini uzun bir prosesə çevirirdi. Çünki sənəddə münaqişənin aradan qaldırılmasının dəqiq mexanizmi və konkret zaman çərçivəsi öz əksini tapmamışdı. Bir çox məsələlərin həlli "Daimi qarışıq komissiya"nın öhdəsinə buraxılırdı. Həmin komissiyanın qərarlarının işlənib hazırlanması isə bu sənədin çərçivəsindən kənarda nəzərdə tutulurdu.

"Paket" təklifindəki Laçın və Şuşa ilə bağlı müddəalar, habelə gələcəkdə ermənilərin Azərbaycanın Goranboy rayonunun bir hissəsinin (keçmiş Şaumyan rayonu) qaytarılmaları ilə bağlı təklif də Azərbaycan tərəfindən birmənalı şəkildə qarşılanmadı. Digər tərəfdən, münaqişə başlayana qədər Dağlıq Qarabağın 56 yaşayış məntəqəsinin əsas yerli əhalisini təşkil etmiş 50 mindən çox azərbaycanlının gələcək taleyi də təbii ki, Azərbaycanın diqqətindən kənarda qalmamış və buna öz narazılığını bildirmişdi.

"Paket" təklifinin Dağlıq Qarabağın statusu ilə bağlı olan hissəsi isə regionun Azərbaycanın tərkibində özünüidarə statusu konsepsiyası ilə bir araya sığışmadığından, Azərbaycan dövləti tərəfindən etirazla qarşılanmış və həmsədrlərdən bu mühüm məqama aydınlıq gətirmək tələb olunmuşdu. Əslində təqdim olunan həll variantı Azərbaycanı da qane etmirdi. Buna baxmayaraq, həmin dövrdə paket təklifi Azərbaycan tərəfdən yalnız taktiki mülahizələrin danışıqlar prosesinə başlamaq və Ermənistanın mövqelərini ümumi şəkildə də olsa müəyyənləşdirmək məqsədilə əsas olaraq qəbul edilmişdi. Lakin sənəd hətta bu şəkildə də ermənilər tərəfindən qəbul olunmadı və bununla da Ermənistanın sülh istəmədiyini və dialoqa hazır olmadığını bir daha göstərdi.

Belə ki, sənədlər təqdim olunduqdan az sonra həm Ermənistan, həm də Dağlıq Qarabağ ermənilər onu prinsipial şəkildə qəbul etməyəcəklərini bildirdilər. Onlar öz fikirlərini bu sazişin ATƏT-in Lissabon sammitinin prinsipləri əsasında hazırlanması, həmin

prinsiplərin isə sammit zamanı Ermənistan tərəfindən qəbul olunmaması ilə izah etdilər. Eyni zamanda, Dağlıq Qarabağın Azərbaycan Respublikasının tərkibində olması da erməni tərəfini qane etmirdi. Status məsələsinin ATƏT-in Minsk Konfransında müzakirə və həll olunacağı barəsində əvvəllər əldə olunmuş razılığa əsaslanaraq, onlar ilkin mərhələdə status məsələsinin gündəliyə gətirilməsini yolverilməz saydılar. Bunun nəticəsində Ermənistan tərəfi Minsk qrupu həmsədrlərindən münaqişənin iki mərhələdə həlli ilə bağlı variant tələb etməyə başladı.

21 iyul - Moskvada tərəflərin iştirakı olmadan ATƏT-in Minsk qrupunun məsləhətləşmələri keçirilmişdir.

27 iyul - 7 avqust - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Birləşmiş Ştatlara ilk rəsmi səfəri zamanı iki dövlət rəsmiləri arasında keçirilən görüşlərdə də Ermənistan-Azərbaycan münaqişəsi daha çox müzakirə obyektinə çevrilən məsələlərdən idi. Səfər zamanı Azərbaycan dövlətinin başçısı Ermənistanın təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizinin işğal edilməsi, bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün vəziyyətinə düşməsinə baxmayaraq, məhz təcavüzə məruz qalan tərəfin - Azərbaycanın ABŞ Konqresi tərəfindən ədalətsiz olaraq 907-ci düzəliş ilə dövlət səviyyəsində humanitar yardım göstərilməsinə qadağa qoyulması faktlarını xüsusi olaraq qeyd etmiş və 907-ci düzəlişi iki dövlət arasında münasibətlərin inkişafında ciddi maneə kimi qiymətləndirmişdir.

1 avqust - İki dövlət başçısı, prezidentlər H.Əliyev və B.Klinton arasında Vaşinqtonda ABŞ-Azərbaycan münasibətləri haqqında birgə bəyanat imzalandı. Bəyanatda hər iki prezident Dağlıq Qarabağ probleminə toxunaraq bildirdilər ki, münaqişənin həll edilməsi ATƏT-in Lissabon sammitinin üç prinsipinə əsaslanmalıdır. Prezident B.Klinton 907-ci düzəlişin ləğv olunmasının Amerika administrasiyası tərəfindən qətiyyətlə müdafiə edildiyini bir daha təsdiq etdi.

Avqustun ortaları - Almaniyanın ATƏT-in Minsk qrupundakı təmsilçisi Frank Lambax münaqişə regionuna səfər etdi.

29 avqust - Moskvada Rusiya və Ermənistan prezidentləri qarşılıqlı yardım, əməkdaşlıq və dostluq haqqında saziş imzaladılar. 23 maddədən ibarət 12 səhifəlik bu sənəddə Rusiya və Ermənistanın

öhdəlikləri göstərilirdi. Sənəddə iki dövlət arasında hərbi-strateji, iqtisadi sahələrdə maraqların üst-üstə düşdüyü, qlobal və eləcə də regional problemlərə münasibətdə mövqelərin yaxınlaşdığı qeyd edilirdi. Bu sənəd hər iki dövlətin uzunmüddətli maraqlarına cavab verən və strateji tərəfdaşlıq yolunda ikitərəfli münasibətlərin yeni mərhələsi demək idi. Saziş 25 il müddətinə imzalanmışdı və bu müddətdən sonra on ildən bir uzadılması qərara alınmışdı.

18-24 sentyabr - ATƏT-in Minsk qrupu həmsədrlərinin Bakı, Yerevan və Xankəndinə səfəri olmuşdur.

19 sentyabr - 23 sentyabr - ATƏT-in Minsk qrupunun həmsədrləri münaqişə edən tərəflərə Minsk Konfransı həmsədrləri tərəfindən hazırlanmış növbəti – ikinci təkliflər planını təqdim etmək üçün regiona səfər etdilər. "Dağlıq Qarabağ silahlı münaqişəsinin dayandırılması haqqında saziş" adlı layihə kimi münaqişə tərəflərinə təqdim edilən və şərti olaraq "mərhələli həll" adlandırılan plan Azərbaycan Respublikası üçün daha məqbul hesab olundu. Çünki bu plan ardıcıl şəkildə silahlı münaqişənin nəticələrinin aradan qaldırılmasına və sonrakı mərhələdə keçiriləcək ATƏT-in Minsk Konfransında Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsinə yönəldilmişdi.

"Dağlıq Qarabağ silahlı münaqişəsinin dayandırılması haqqında saziş"in mahiyyəti münaqişənin iki mərhələdə həll edilməsindən ibarət idi. Birinci mərhələdə ATƏT-in sülhməramlı qüvvələrinin regionda yerləşdirilməsi, hərbi-texniki xarakterli tədbirlər sistemi əsasında münaqişə zonasında hərbi gərginliyin aradan qaldırılması, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə bitişik ərazilərin – erməni silahlı qüvvələri tərəfindən işğal olunmuş altı rayonun (Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan) azad edilməsi, bu rayonlardan qaçqın düşmüş əhalinin öz yerlərinə qaytarılması, münaqişə zonasında bütün əsas kommunikasiyaların fəaliyyətinin normallaşdırılması nəzərdə tutulurdu.

İkinci mərhələdə isə bir tərəfdən Azərbaycan Respublikasının tərkibində Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi, o biri tərəfdən isə Laçın, Şuşa və Goranboy rayonunun bir hissəsi (keçmiş Şaumyan rayonu) ətrafında vəziyyətin nizama salınması göstərilirdi. Həm

də bu zaman hər bir maddənin həyata keçirilməsinin dəqiq mexanizminin və konkret zaman çərçivəsinin müəyyənləşdirilməsi və bu prinsipləri pozan tərəflərə sanksiyaların tətbiqi nəzərdə tutulurdu.

Təbii ki, digər təkliflər kimi, "mərhələli həll" təklifində də Azərbaycanı qane etməyən bir sıra müddəalar var idi. Bu, ilk növbədə, Dağlıq Qarabağın azərbaycanlı əhalisinin taleyi, Laçın dəhlizi və s. məsələlər idi. Lakin bu çatışmazlıqlara baxmayaraq, Azərbaycan yenə də "mərhələli həll" təklifinin danışıqlara başlamaq üçün əsas kimi qəbul olunmasına öz razılığını bildirdi.

Ümumilikdə isə, həm "paket", həm də "mərhələli" həll planlarında Goranboy rayonunun bir hissəsi (keçmiş Şaumyan rayonu) haqqında müddəanın sənədə salınması ermənilərin iddiaları əsasında baş vermişdi. Əslində isə bu, tarixən Ermənistan ərazisində yaşamış, ancaq 1988-1989-cu illərdə amansızlıqla öz doğma yurdlarından qovulmuş azərbaycanlıların taleyinə biganə yanaşılması demək idi. Çünki onlar da beynəlxalq hüquqa görə tarixən yaşadıqları torpaqlara qayıtmaq hüququna malikdirlər və qayıtmalıdırlar. Amma bu sənədlərdə bu barədə heç nə deyilmirdi.

Əgər böyük dövlətlər məsələni ədalətli şəkildə həll etmək istəyirlərsə, uzunmüddətli münaqişəyə səbəb olmuş bu məsələlərə kompleks şəkildə yanaşılmalıdır. Əks halda münaqişənin ədalətli həllinə nail olmaq çətindir.

4 oktyabr - BMT Baş Assambleyasının 52-ci sessiyası çərçivəsində BMT iqamətgahında keçirilmiş İKT Xarici işlər nazirlərinin əlaqələndirmə toplantısının Yekun Bəyanatında İslam dünyasının digər problemləri ilə yanaşı, Ermənistanın Azərbaycana qarşı təcavüzü məsələsi də öz əksini tapdı.

8 oktyabr - Azərbaycan Respublikası və Ermənistan Respublikası ATƏT-in Minsk qrupu həmsədrlərinin münaqişənin "mərhələli" tənzimlənməsinə dair təkliflərinə cavab verdilər.

10 oktyabr - Strasburqda Azərbaycan və Ermənistan prezidentlərinin münaqişənin "mərhələli həll" planını dəstəkləyən birgə bəyannaməsi imzalandı.

15-18 oktyabr - Vyanada ATƏT-in Minsk qrupu həmsədrləri ATƏT-in Daimi Şurasına məruzə etdilər. Həmsədrlərin Yüksək Səviyyəli Planlaşdırma Qrupu ilə məsləhətləşmələri keçirildi.

26 oktyabr - Dağlıq Qarabağ ermənilər "mərhələli həll" təklifinin qəbuledilməz olduğunu bəyan etdilər. Onların fikrincə, belə bir həll zamanı regiondakı hərbi-siyasi balans Azərbaycanın xeyrinə dəyişəcək, öz statusuna beynəlxalq və hüquqi zəmanətlər ala bilməmiş Dağlıq Qarabağın təhlükəsizliyi üçün real qorxu yaranacaq, Azərbaycan bufer zona rolunu oynayan işğal edilmiş ərazilərdə möhkəmlənərək yenidən hərbi əməliyyatlara başlayacaq və Dağlıq Qarabağın müstəqilliyinə son qoyaraq onu bir qurum kimi ləğv edəcək. Əslində bununla da Dağlıq Qarabağ ermənilər ATƏT-in Minsk qrupu həmsədrlərini Dağlıq Qarabağı tərəf kimi tanımağa, Azərbaycanla Dağlıq Qarabağ arasında birbaşa danışıqlar təşkil etməyə çağırdılar.

29 oktyabr - ABŞ Senatı və Nümayəndələr Palatasının birgə yığıncağında 1998-ci maliyyə ilində Azərbaycanla əlaqədar 907-ci düzəlişin qüvvədə qalması ilə yanaşı, Gürcüstana 92,5, Ermənistana 87,5, Dağlıq Qarabağa isə 12,5 milyon dollarlıq birbaşa ABŞ dövlət yardımının göstərilməsi qərara alındı.

Oktyabr - ATƏT-in Minsk qrupu həmsədrlərinin münaqişə bölgəsinə səfəri zamanı Azərbaycan və Ermənistanın Minsk qrupunun irəli sürdüyü sülh təklifini danışıqlar üçün əsas kimi qəbul etdikləri təsdiqləndi.

5 noyabr - Ermənistan Prezidenti L.Ter-Petrosyanın "Nezavisimaya qazeta"da "Müharibə, yoxsa sülh? düşünmək zamanı" adlı məqaləsi çap edildi. Məqalədə aşağıdakı tezislər erməni ictimaiyyətinin diqqətinə çatdırıldı:

1. Münaqişənin nizama salınmayacağı təqdirdə Ermənistan Respublikası və Dağlıq Qarabağ bir il ərzində nəzərə çarpacaq dərəcədə zəifləyəcək;

2. Beynəlxalq ictimaiyyət Dağlıq Qarabağ ətrafında yaranan vəziyyətlə həmişəlik barışmayacaq, çünki bu vəziyyət təhlükəsizliyə və regional əməkdaşlığa, habelə Qərbin neft maraqlarına təhlükə törədir;

3. Bizim meydan oxuduğumuz beynəlxalq ictimaiyyət Dağlıq Qarabağın müstəqilliyinin əleyhinədir;

4. Əvvəlcə paket, sonra mərhələli həll təkliflərini rədd etməklə, indi isə yenidən paket həllə qayıtmağı təklif etməklə Dağlıq Qarabağ tərəfi həm özünü, həm də Ermənistanı namünasib vəziyyətdə qoymuşdur;

5. Amerika Konqresindəki lobbiçilik hərəkatının öz sərhədləri vardır və həmin hərəkat ABŞ-ın milli maraqlarına toxunan yerdə dayandırılır;

6. Bu gün əsas məsələ dayanmış danışıqları bərpa etməkdir. Bunun üçün də gələcək danışıqlar üçün əsas olan sənədin layihəsini razılaşdırmaq lazımdır.

Həmin ərəfədə Rusiyanın kütləvi informasiya vasitələrinin müxbirlərinə verdiyi müsahibədə isə Ermənistan Prezidenti özünün iki əsas tezisini irəli sürmüşdü:

1. Əgər Qarabağ böhranı aradan qaldırılmazsa, yalnız Dağlıq Qarabağın deyil, Ermənistan Respublikasının da strateji və iqtisadi vəziyyəti yaxşılaşdırıla bilməz. Ermənistanın xarici aləmlə əlaqələri məsələsi həll edilmədən erməni millətinin və erməni dövlətinin inkişafı mümkün deyil.

2. Azərbaycanın ərazi bütövlüyünün de-yure qorunub saxlanması ilə bir sırada Dağlıq Qarabağın faktiki müstəqilliyinin təmin edilməsinin Azərbaycan tərəfindən həyata keçirilməsi başqa münaqişələrin də həlli üçün yeni imkanlar açacaqdır.

Bu məqalə Ermənistan Prezidentinin sentyabrın 26-da keçirdiyi və münaqişənin həllinə dair yeni yanaşmanın mümkünlüyü barədə irəli sürdüyü fikirlərin ictimaiyyətə çatdırılması və problemin mürəkkəbliyini, eləcə də Ermənistanın gələcəkdə qarşılaşacağı çətinlikləri izah etmək üçün atdığı ilk cəhd idi ki, bu da az sonra onun hakimiyyətdən uzaqlaşdırılması ilə nəticələndi.

5-10 noyabr - ATƏT-in Minsk qrupu həmsədrlərinin Bakı, Yerevan və Xankəndinə səfəri olmuşdur.

ATƏT-in Minsk qrupu həmsədrlərinin regiona səfəri zamanı Azərbaycan tərəfi problemin iki mərhələdə həllinə dair Minsk qrupunun təklifləri planını qəbul etdiyini bir daha bəyan etdi. Ermənistan tərəfi də münaqişənin mərhələlərlə nizama salınması planını qəbul etməyə razı olsa da, Dağlıq Qarabağ ermənilər saziş layihəsini əsas kimi qəbul etməyərək münaqişənin "paket" üsulu ilə nizama salınmasını təkid etdilər. Onlar

münaqişənin siyasi vasitələrlə həllinin bütün prosesində Dağlıq Qarabağın statusunun hüquqi cəhətdən rəsmiləşdirilməsinin zəruriliyini tələb edirdilər.

Beləliklə, Dağlıq Qarabağ ermənilərinin sərt mövqeyi nəticəsində ATƏT vasitəçilərinin hazırladığı plana görə münaqişənin nizama salınması haqqında sazişin imzalanması baş tutmadı. Bu da dekabr ayında ATƏT-in Xarici işlər nazirlərinin Kopenhagendə keçiriləcək iclasında əhəmiyyətli irəliləyişin əldə olunacağı ehtimalını heçə endirirdi.

2-6 dekabr - ATƏT-in Minsk qrupu həmsədrlərinin Xankəndi, Yerevan və Bakıya səfəri olmuşdur. ATƏT-in Minsk qrupu həmsədrləri əlavə və düzəlişlər apardıqdan sonra münaqişənin "mərhələli həll" planını tərəflərə təqdim etdilər.

2 dekabr - ATƏT-in Minsk qrupunun həmsədrləri münaqişənin "mərhələli həll" planı ilə bağlı təklifin yenidən işlənilmiş variantını Azərbaycana təqdim etdi. Burada artıq Dağlıq Qarabağın da münaqişə tərəfi kimi tanınması barədə təklif irəli sürülürdü. Azərbaycan dövləti həmin versiyanı qəbul etmədiyini, yalnız 19 sentyabr tarixli layihə əsasında danışıqlara başlamağın mümkün olduğunu bildirdi.

8-11 dekabr - İKT ölkələrinin dövlət və hökumət başçılarının İran İslam Respublikasının Tehran şəhərində keçirilən VIII Zirvə konfransı əvvəlki qətnamələrin müddəalarına istinad edərək, Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında daha bir qətnamə qəbul etdi.

Tehran Zirvə konfransında qəbul edilən bu qətnamə Cakarta konfransında qəbul edilmiş qətnaməni bir daha təsdiq etdi. Bundan başqa, İKT-nin VIII Zirvə toplantısında qəbul edilmiş Tehran bəyannaməsinin 8-ci maddəsi də Azərbaycana aid idi. Burada deyilirdi ki, İKT üzvü olan dövlətlər Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü faktını bir daha təsdiq edir və Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş bütün ərazilərindən çıxarılmasına, münaqişənin tezliklə və sülh yolu ilə həll edilməsinə çağırırlar.

Tehran Zirvə toplantısının Yekun bəyannaməsinin 56-cı maddəsində isə göstərilirdi ki, konfrans Ermənistan və Azərbaycan arasında münaqişənin nizama salınmasına dair ATƏT-in fəaliyyətdə olan sədrinin 1996-cı il Lissabon sammitində qəbul edilmiş bəyanatında ifadə olunmuş

3 prinsipə tərəfdar olduğunu bir daha təsdiq edir və bu addımı Azərbaycana qarşı təcavüzün ciddi nəticələrinin dərhal aradan qaldırılmasının təminatı kimi qiymətləndirir. Beləliklə, Tehranda qəbul edilən sənədlərdə Azərbaycanın mənafeyi bütünlüklə müdafiə olundu.

Azərbaycan Prezidenti Heydər Əliyev Tehran Zirvə toplantısındakı nitqində İKT-nin müsəlman dünyasında və beynəlxalq aləmdə apardığı işlərə böyük əhəmiyyət verərək üzv dövlətləri fəal əməkdaşlıq etməyə, müsəlman ölkələrində davam edən münaqişələrin sülh yolu ilə həllində, ölkəmizin ərazi bütövlüyünün təmin olunmasında, eləcə də sabit inkişafa nail olunmasında əməkdaşlığın daha da artırılmasının zəruriliyini qeyd etmişdir. Bununla yanaşı, Azərbaycanın dövlət başçısı İKT rəhbərliyinə və üzv dövlətlərin başçılarına təşkilatın yüksək səviyyəli toplantılarında Ermənistanın təcavüzkar siyasətini pisləyərək ədalətli qərarlar qəbul etdiklərinə görə təşəkkürünü bildirmişdir.

Ümummilli lider Heydər Əliyevin apardığı səmərəli danışıqlar və məqsədyönlü fəaliyyəti nəticəsində İKT dövlət və hökumət başçılarının 1994-cü ildə Kasablankada keçirilmiş VII Konfransının qəbul etdiyi qətnamənin adı 1997-ci ildə Tehranda keçirilən VIII Konfransda dəyişdirilərək, "Ermənistan Respublikası və Azərbaycan Respublikası arasında münaqişə haqqında" qətnamə əvəzinə "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" qətnamə adlandırıldı.

17-18 dekabr - Kopenhagendə ATƏT üzvü olan ölkələrin Xarici işlər nazirlərinin görüşü keçirildi. 54 ölkənin nümayəndələri yekdilliklə Avropanın təhlükəsizlik məsələlərinin həllində ATƏT-in başlıca rolunu əks etdirən sənədə imza atdılar. Azərbaycanın da imzaladığı bu sənədlər Avropa Təhlükəsizlik Xartiyasının hazırlanmasını sürətləndirir və Avropada regional münaqişələrin həllində ATƏT-in başlıca rolunu təsbit edirdi.

Kopenhagen toplantısında Almaniya ATƏT-in qərarlarının qəbulunda "konsensus minus 1" prinsipinin tətbiq edilməsi məsələsini irəli sürdü. Bir dövlətin 53 dövlətin razılaşdığı qərara "veto" qoymaq hüququnu heçə endirən bu prinsip Azərbaycan üçün də böyük əhəmiyyətə malik idi. Çünki 1996-cı ilin dekabrında Lissabonda məhz belə bir prinsipin olmaması nəticəsində Ermənistan "veto" hüququndan istifadə etdi və nəticədə Azərbaycanın ərazi bütövlüyü təsbit olunan maddə yekun qətnamədə öz

əksini tapmadı. Ancaq yeni prinsipin qəbul edilməsi üçün də "veto" hüququ mane oldu. Çünki bu prinsip də ATƏT üzvü olan dövlətlərin hamısı tərəfindən qəbul edilməli idi. Bu dəfə isə Kopenhagendə Rusiya "veto" hüququndan istifadə edərək "konsensus minus 1" prinsipinin qəbul edilməsinə mane oldu.

18 dekabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" fərman imzaladı. Fərman Ermənistan SSR ərazisindən azərbaycanlıların deportasiyasının hərtərəfli tədqiq edilməsi, bu cinayətə hüquqi-siyasi qiymət verilməsi və onun beynəlxalq ictimaiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

18-19 dekabr - Kopenhagendə ATƏT Nazirlər Şurasında ATƏT-in Minsk qrupunun həmsədrlərinin Nazirlər Şurasına hesabatı dinlənildi. Kopenhagen görüşündə Ermənistanın qeyri-konstruktiv mövqe tutması nəticəsində münaqişənin nizama salınmasına dair hər hansı sənədin, o cümlədən, ATƏT-in fəaliyyətdə olan sədri Nils Pitersenin bəyanatının qəbul edilməsi mümkün olmadı.

1998

1 yanvar - Polşa (Xarici işlər naziri B. Qeremek) Danimarkanı ATƏT-in fəaliyyətdə olan sədri qismində əvəz etdi.

2-4 fevral - Parisdə ATƏT-in Minsk qrupu həmsədrlərinin məsləhətləşmələri keçirilmişdir.

23 fevral - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Xocalı soyqırımının altıncı ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətində Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımının ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə tayı-bərabəri olmayan vəhşilik aktı, insanlığa qarşı tarixi bir cinayət olduğunu bildirmişdir. Azərbaycan Prezidenti nahaq qanın yerdə qalmadığını, eləcə də Xocalı müsibətinin də beynəlxalq aləmdə öz qiymətini alacağını və günahkarların gec-tez öz layiqli cəzalarına çatacağının labüd olduğunu qeyd etmişdir.

Fevral - Rusiyadan öz hərbi bazalarını genişləndirməsi məqsədilə Ermənistana S-300 raketləri göndərildi.

3 mart - Varşavada Minsk qrupu həmsədrlərinin ATƏT-in fəaliyyətdə olan sədri Polşa Xarici işlər naziri B.Qeremeklə məsləhətləşmələri keçirilmişdir.

5 mart - Moskvada ATƏT-in Minsk qrupunun tərəflərin iştirakı olmadan məsləhətləşmələri keçirilmişdir.

15-17 mart - İKT-nin Xarici işlər nazirlərinin Qətər dövlətinin paytaxtı Dohada keçirilən XXV konfransında Tehran Zirvə toplantısında qəbul olunmuş qətnaməyə Azərbaycan tərəfinin etdiyi yeni düzəliş və əlavələr qəbul edilmiş qətnamədə tam şəkildə öz əksini tapdı. Konfrans bir daha Ermənistanın təcavüzkar siyasətini pisləməklə, Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə hörmət etməyə çağırmışdır.

Bundan əlavə, konfransda "Azərbaycan Respublikasına maliyyə və iqtisadi yardım haqqında" qəbul edilmiş qətnamədə bütün üzv dövlətlərə, islam institutlarına və beynəlxalq təşkilatlara Azərbaycana iqtisadi və humanitar yardım göstərilməsi üçün müraciət edilmişdir. Konfransın Yekun Bəyanatında isə, Ermənistan Respublikasımn Azərbaycan Respublikasına qarşı təcavüzünə dair bənd öz əksini tapdı.

26 mart - Ermənilərin azərbaycanlılara qarşı zaman-zaman törətdikləri soyqırımı ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin imzaladığı Fərmanla 31 mart – Azərbaycanlıların Soyqırımı Günü elan edilmişdir.

21- 24 aprel - Parisdə ATƏT-in Minsk qrupu həmsədrlərinin məsləhətləşmələri keçirilmişdir.

28 aprel - Moskvada Azərbaycan və Ermənistan prezidentlərinin görüşü keçirilmişdir. Görüşdə Azərbaycan və Ermənistan prezidentləri birgə bəyannamə imzaladılar. Sənəddə tərəflər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə siyasi vasitələrlə ATƏT-in Minsk qrupu çərçivəsində aradan qaldırılmasına sadiq olduqlarını təsdiq etdilər.

12-17 may - ATƏT-in Minsk qrupu həmsədrlərinin Xankəndi, Yerevan və Bakıya səfəri olmuşdur.

7 iyun - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 1 iyun - Uşaqları Beynəlxalq Müdafiə günü münasibətilə çıxışında

bildirmişdir: "...Ermənistan-Azərbaycan münaqişəsinin başlanması, Ermənistanın Azərbaycana təcavüz etməsi ilə əlaqədar döyüşlər gedibdir, insanlarımız həlak olubdur, şəhid olubdur, qurbanlar vermişik. Təəssüf ki, hələ böyüməmiş, dünyanı görə bilməmiş uşaqlar da həlak olublar, bu faciənin qurbanları olublar. Uşaqlar 1990-cı il 20 yanvar faciəsinin də qurbanları olublar. Ermənilər tərəfindən Azərbaycan xalqına qarşı edilmiş Xocalı soyqırımında da uşaqlar həlak olublar, uşaqlar qurban gediblər. Bunlar hamısı bizi kədərləndirir, cəmiyyətimizin, həyatımızın yaralı yerləridir və bütün bu döyüşlər, münaqişə, Ermənistanın torpaqlarımızı işğal etməsi nəticəsində əhalimizin böyük bir qismi yerindən-yurdundan didərgin düşmüşdür, onlarm əksəriyyəti çadırlarda yaşayır və bizim körpələr, uşaqlar, balalarımız artıq bir neçə ildir ki, çadırlarda yaşamaq məcburiyyətindədirlər. Onlar çadırda yaşayırlar, çadırda böyüyürlər, çadırda təhsil alırlar. Bizim həyatımızın bu cür narahatedici, sıxıntılı cəhətləri də vardır..."

9 iyun - Qazaxıstan Respublikasmın paytaxtı Astana şəhərində Türkdilli ölkələrin dövlət başçılarının V zirvə görüşündə qəbul olunmuş bəyannamədə Ermənistanla Azərbaycan Respublikası arasındakı münaqişənin bu ölkələrin iqtisadi inkişafına və xalqların rifahmın yaxşılaşmasına zərər vurduğu qeyd edilmiş və BMT Təhlükəsizlik Şurasmın müvafiq qətnamələri, ATƏT-in Lissabon zirvə görüşündə irəli sürülən 3 prinsip əsasında münaqişəni aradan qaldırmağın vacibliyi vurğulanmışdır.

10 iyun - Varşavada Minsk qrupu həmsədrlərinin ATƏT-in fəaliyyətdə olan sədri ilə məsləhətləşmələri keçirilmişdir.

13-18 sentyabr - ATƏT-in Minsk qrupu həmsədrlərinin Bakı, Yerevan və Xankəndinə səfəri olmuşdur.

Sentyabr - İ.Studennikov (Rusiya), J.Vojye (Fransa) və D.Kayzerin (ABŞ) daxil olduğu qismən yeniləşmiş tərkibə malik ATƏT-in Minsk qrupu həmsədrlərinin münaqişə bölgəsinə tanışlıq xarakterli səfəri olmuşdur.

8 oktyabr - Varşavada ATƏT-in fəaliyyətdə olan sədri, Polşanın Xarici işlər naziri B.Qeremekin Minsk qrupunun ABŞ, Fransa və Rusiyanı təmsil edən həmsədrləri ilə görüşü oldu. Həmsədrlər ATƏT-in fəaliyyətdə olan sədrinə sentyabr ayında münaqişə bölgəsinə etdikləri səfərin yekunları barədə, habelə münaqişəyə cəlb olunmuş tərəflərin rəhbərləri ilə keçirdikləri

görüşlərin nəticələri haqqında məlumat verdilər. Bununla yanaşı həmsədrlər Dağlıq Qarabağın statusu probleminin həllinə dair yeni təkliflərin hazırlanacağını ATƏT-in fəaliyyətdə olan sədrinin nəzərinə çatdırdılar. ATƏT-in fəaliyyətdə olan sədri Ermənistan-Azərbaycan sərhəddində və qoşunların təmas xəttində mövcud atəşkəs rejiminin qorunub saxlanmasının böyük əhəmiyyəti olduğunu bildirməklə yanaşı, Qafqaz regionuna getmək niyyətində olduğunu və bu səfərinin ATƏT-in Minsk prosesinə əlavə təkan verəcəyinə ümid etdiyini bildirdi.

21 oktyabr - Vyanada ATƏT-in Minsk qrupu həmsədrlərinin məsləhətləşmələri keçirilmişdir.

22 oktyabr - Vyanada ATƏT-in Minsk qrupunun tərəflərin iştirakı olmadan məsləhətləşmələri keçirilmişdir.

8-12 noyabr - ATƏT-in Minsk qrupu həmsədrlərinin Bakı, Yerevan və Xankəndinə səfəri olmuşdur.

ATƏT-in Minsk qrupunun həmsədrləri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması ilə bağlı özlərinin üçüncü və sonuncu təkliflərini ("Ümumi dövlət") tərəflərə təqdim etdilər.

"Ümumi dövlət" plam da ATƏT-in Minsk qrupunun həmsədrlərinin ilk təklifi kimi paket xarakteri daşıyırdı. Bu sənəd münaqişənin mərhələlərlə həllini əsas götürən ATƏT-in Budapeşt və Lissabon sammitlərinin qərarlarına zidd idi. Həm də həmsədrlər bu dəfə Dağlıq Qarabağın statusunun qəbul edilməsini silahlı qarşıdurmanın dayandırılmasından daha əvvəl nəzərdə tuturdular. Bununla yanaşı, həmin status münaqişəyə cəlb edilmiş ölkələrin parlamentlərində ratifikasiya olunmalı idi. Bu da öz növbəsində münaqişənin həllini istənilən qədər uzatmaq və lazımi mərhələdə onu siyasi vasitəyə çevirmək üçün qarşı tərəfin, konkret olaraq, Ermənistan tərəfinin əlində kifayət qədər güclü vasitəyə çevirilmiş olurdu.

Həmsədrlərin irəli sürdükləri bu təklif Dağlıq Qarabağı öz müvafiq atributları olan respublika şəklində dövlət və ərazi qurumuna çevirir və "ümumi dövlət" çərçivəsində ona bərabər subyektlilik verirdi. Bu zaman formalaşacaq ümumi dövlətin sərhədləri kimi Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış sərhədlərinin göstərilməsi hələ Azərbaycanın öz suveren hüquqlarını bu sərhədlər daxilində

gerçəkləşdirməsi demək deyildi. Nəhayət, tərəflər, o cümlədən də Dağlıq Qarabağ istənilən məqamda ümumi dövlətin tərkibindən çıxa bilər ki, bu da hətta belə bir dövlət yarandıqdan sonra da Azərbaycanın ərazi bütövlüyünə yönəlmiş təhlükələrin gündəlikdən çıxarılmadığını göstərirdi.

ATƏT-in Minsk qrupu həmsədrlərinin beynəlxalq hüquq normalarına zidd, həmçinin Azərbaycan üçün qətiyyən qəbuledilməz olan və danışıqların davam etdirilməsinə imkan yaratmayan üçüncü təklifi dünya praktikasında mövcud olmayan "ümumi dövlət" ideyasına əsaslanırdı. Azərbaycan tərəfindən qətiyyətlə rədd edilən süni "ümumi dövlət" təklifi Azərbaycanın mənafeyinə zidd olmaqla yanaşı, ATƏT-in Budapeşt və Lissabon Zirvə toplantılarında qəbul edilən sənədlərə də etinasız yanaşılması demək idi.

Bu sonuncu "ümumi dövlət" təklifi tərəflərə təqdim edildikdən sonra ATƏT-in Minsk qrupu həmsədrlərinin fəaliyyətində demək olar ki, durğunluq yarandı.

18-20 noyabr - Minsk qrupu həmsədrlərinin ATƏT-in fəaliyyətdə olan sədri Polşa Xarici işlər naziri B.Qeremekə hesabatı olmuşdur.

25 noyabr - ATƏT-in fəaliyyətdə olan sədri B.Qeremek münaqişə bölgələrinə, o cümlədən Azərbaycana səfər etdi. Səfər zamanı o, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevlə görüşündə münaqişənin nizama salınması istiqamətində Minsk qrupu həmsədrləri tərəfindən hazırlanan Dağlıq Qarabağın Azərbaycanla birlikdə "ümumi dövlət" yaratması prinsipini bir daha irəli sürərək, bu təklifin Ermənistan və Dağlıq Qarabağ tərəfindən qəbul edildiyini bildirdi.

30 noyabr - Osloda ATƏT-in Minsk qrupunun tərəflərin iştirakı olmadan məsləhətləşmələri keçirilmişdir.

7 dekabr - BMT Baş Məclisinin ümumi iclasında BMT ilə ATƏT arasında əməkdaşlıq məsələsi müzakirə olunarkən regional münaqişələrin nizama salınması məsələsinə toxunulmuş, eləcə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə xüsusi yer verilmişdi. Azərbaycan Respublikasının nümayəndə heyəti tərəfindən Baş Məclisin qətnaməsinə təklif olunan düzəliş, yəni Azərbaycan Respublikasının ərazi bütövlüyünün tanınması və Dağlıq Qarabağın Azərbaycan Respublikasının tərkib hissəsi

kimi təsdiq olunması yalnız Ermənistan əleyhinə olmaqla, mütləq səs çoxluğu ilə qəbul edilmişdir.

15 dekabr - BMT Baş Məclisinin 54-cü sessiyasında qəbul olunmuş qətnamədə Azərbaycan və Ermənistan prezidentləri arasındakı dialoq alqışlanmış, münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün ATƏT-in Minsk qrupunun fəaliyyəti dəstəklənmiş, sülhyaratma prosesində BMT-nin ATƏT-in Minsk qrupunu hər cür dəstəkləməyə hazır olduğu bəyan edilmişdir

Dekabr - Rusiyadan öz hərbi bazalarını genişləndirməsi məqsədilə Ermənistana MİQ-29 təyyarələri verildi.

1999

1 yanvar - Norveç (Xarici işlər naziri K.Vollebek) Polşanı ATƏT-in fəaliyyətdə olan sədri qismində əvəz etdi.

18-19 yanvar - Vyanada ATƏT-in Minsk qrupu həmsədrlərinin məsləhətləşmələri keçirilmişdir.

8 fevral - Azərbaycan Prezidenti Heydər Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri olan dövlətlərin (ABŞ, Fransa, Rusiya) başçılarına eyni məzmunlu məktubla müraciət etdi. Azərbaycanın dövlət başçısı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə yönəlmiş görülən işləri ətraflı təhlil edərək problemin hələ də həll olunmaması ilə əlaqədar narahatlığını bildirdi. Minsk qrupu həmsədrlərinin sonuncu təklifini ciddi surətdə tənqid edən Prezident Heydər Əliyev "ümumi dövlət" konsepsiyasının ATƏT prinsiplərinə uyğun olmadığını və sülh prosesinə xeyli zərər verdiyini göstərməklə yanaşı, ABŞ, Fransa və Rusiya dövlət başçılarını münaqişənin ədalətlə və tezliklə həll olunması üçün səylərini ciddi sürətdə artırmağa çağırdı.

16 fevral - Moskvada ATƏT-in Minsk qrupunun tərəflərin iştirakı olmadan görüşü keçirilmişdir. Minsk qrupu çərçivəsində birbaşa danışıqların bərpası üçün Azərbaycan və Ermənistan rəhbərləri, ikitərəfli dialoqun başlanmasına çağırıldılar.

26 fevral - Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı Heydər Əliyev Xocalının düşməndən

müdafiəsində iştirak etmiş, şəhid olmuş milli qəhrəmanların, döyüşçülərin valideynlərinə, ailə üzvlərinə və fərqlənənlərə "Qızıl Ulduz" medalları, "Azərbaycan Bayrağı" ordenlərinin təqdim edilmə mərasimində nitqində qeyd etmişdir: "XX əsrdə ermənilər tərəfindən Azərbaycan xalqına qarşı dəfələrlə təcavüz edilibdir, soyqırımı törədilibdir. Onlardan ən dəhşətlisi Xocalı faciəsi, soyqırımıdır...O müdhiş fevral gecəsi Ermənistan silahlı qüvvələri Sovet İttifaqı ordusunun 366-cı alayının köməyi və iştirakı ilə Azərbaycanın gözəl bir diyarı olan Xocalının sakinlərinə qarşı dəhşətli soyqırımı etmişlər. Böyük, misli görünməmiş vəhşiliklə həyata keçirilən bu soyqırım XX əsrin ən dəhşətli faciələrindən biridir. Dinc, silahsız xocahlılara bir gecənin içində böyük zərbələr vurulmuşdur. Soyqırım nəticəsində yüzlərlə xocalılı qadın, kişi, yaşlı, gənc, körpə, uşaq həlak olmuşdur. Yüzlərlə xocalılı yaralanmış, xəsarət almış, şikəst olmuşdur. Yüzlərlə insan əsir düşmüşdür... Bu ifadə Azərbaycan xalqına qarşı Ermənistan-Azərbaycan müharibəsi dövründə vurulmuş ən ağır zərbədir. Xocalılılar bu faciəni mərdliklə, qəhrəmanlıqla qarşılamışlar. Öz evini, şəhərini, ailəsini qəhrəmancasına müdafiə edənlər həlak olmuşlar, şəhid olmuşlar. Vəhşi ermənilər tərəfindən açılan atəşlərin nəticəsində Xocalı ərazisi qana bulanmışdır...Bu faciə bütün Azərbaycan xalqını sarsıtmış, xocalılılara ağır bir mənəvi zərbə olmuşdur. Ancaq xocalılıların iradəsi sınmamış, insanlar qəhrəmanlıqla, mərdliklə şəhid olmuşlar. Xocalılılar bu ağır faciəni mərdliklə yaşamışlar...Xocalı faciəsi təkcə xocalılıların yox, bütün Azərbaycan xalqının dərdi, qəmidir. Ona görə də bu gün bütün ölkəmizdə kədər günü, hüzn günüdür, matəm günüdür. Mən bütün həlak olanlara bir daha Allahdan rəhmət diləyir və xocalılılara, bütün Azərbaycan xalqına başsağlığı verirəm. Çünki həlak olmuş hər bir soydaşımız öz ailəsi ilə bərabər Azərbaycanın övladıdır və bu, Azərbaycan xalqının matəmidir..."

3 mart - Osloda Minsk qrupu həmsədrlərinin ATƏT-in fəaliyyətdə olan sədri Norveç Xarici işlər naziri K.Vollebeklə görüşü keçirilmişdir.

1 aprel - Moskvada MDB Dövlət başçılarının görüşlərinin başlanması ərəfəsində Azərbaycan və Ermənistan prezidentlərinin görüşü keçirilmişdir.

2 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Moskvada MDB üzvü olan ölkələrin Dövlət Başçıları Şurasının iclasında Respublikanın suverenliyinə, ərazi bütövlüyünə, regionda sülhə və sabitliyə təhlükə törədən problem haqqında bəyanatla çıxış etdi. Bəyanatda göstərilirdi ki, "Rusiya silahının və hərbi texnikasının Ermənistana göndərilməsi, onun ərazisində hərbi bazaların yerləşdirilməsi bütün beynəlxalq hüquq prinsiplərinin pozulması ilə yanaşı 1992-ci il may ayının 15-də Daşkənddə imzalanan MDB ölkələrinin kollektiv təhlükəsizliyi haqqında müqavilənin müddəalarının kobud şəkildə pozulması deməkdir".

25 aprel - NATO-nun 50 illik yubileyi ilə əlaqədar Vaşinqtonda dövlət başçılarının iştirakı ilə keçirilmiş mərasimlər çərçivəsində Prezident Heydər Əliyevlə görüş zamam ABŞ Prezidenti B.Klinton hakimiyyətdə olduğu dövrdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini həll edəcəyinə inandığım bildirərək, Cənubi Qafqaz bölgəsini özünün xarici siyasətində prioritet region adlandırmışdır.

26 aprel - Danışıqlar prosesinə təkan vermək üçün ABŞ-ın təşəbbüsü ilə NATO-nun 50 illik yubileyindən sonra Vaşinqtonda M.Olbraytın iştirakı ilə Azərbaycan və Ermənistan prezidentləri arasında artıq yeni formatda birbaşa danışıqlara başlanıldı və ATƏT-in Minsk qrupu tərəfindən damşıqların bu formatı bəyənildi.

6-7 may - Parisdə ATƏT-in Minsk qrupu həmsədrlərinin məsləhətləşmələri keçirilmişdir. ATƏT-in Daimi Şurasımn Dağlıq Qarabağda atəşkəsin 5 illiyi ilə bağlı bəyanatı qəbul edildi.

28 iyun - 1 iyul - Burkino-Faso Respublikasmın paytaxtı Uaqaduqu şəhərində keçirilmiş İKT Xarici işlər nazirlərinin XXVI konfransı Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı 3 mühüm qətnamə qəbul etdi:

1. "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında";
2. "Azərbaycan Respublikasına iqtisadi yardım göstərilməsi haqqında";
3. "Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü nəticəsində Azərbaycan Respublikasınm işğal olunmuş

ərazilərində İslam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağılması haqqında".

Qəbul edilən sənədlərdə üzv dövlətlər bir daha erməni təcavüzünü qətiyyətlə pisləmiş, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb etmişlər.

16 iyul - Cenevrədə Azərbaycan və Ermənistan prezidentlərinin öz təşəbbüsləri ilə görüşü keçirildi.

22 avqust - Cenevrədə Azərbaycan və Ermənistan prezidentlərinin öz təşəbbüsləri ilə görüşü keçirildi. Atəşkəs rejiminin möhkəmləndirilməsi üçün tədbirlər görülməsi üçün Azərbaycan və Ermənistan Müdafiə nazirlərinin görüşləri, eləcə də Azərbaycan və Ermənistan respublikalarının Xarici işlər nazirlərinin ATƏT-in Minsk qrupu çərçivəsində birbaşa danışıqlarının bərpası haqqında razılıq əldə edildi.

9 sentyabr - Yaltada Azərbaycan və Ermənistan Xarici işlər nazirlərinin Baltik-Qara dəniz forumunda görüşü keçirildi.

10 sentyabr - Yaltada Azərbaycan və Ermənistan prezidentlərinin öz təşəbbüsləri ilə Baltik-Qara dəniz forumunda görüşü keçirilmişdir.

29 sentyabr - Nyu-Yorkda Azərbaycan və Ermənistan Xarici işlər nazirlərinin BMT Baş Assambleyasının sessiyası çərçivəsində görüşü keçirildi.

Sentyabr - ATƏT-in fəaliyyətdə olan sədri K.Vollebek ilə görüşdə Prezident Heydər Əliyev Minsk qrupunun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ikili standartlara yol verdiyini vurğulamış və onun fəaliyyətsizliyini ciddi tənqid edərək demişdi: "Belə nəticə çıxarmaq olar ki, Minsk qrupu bu məsələyə birtərəfli baxır, Azərbaycana qeyri-obyektiv münasibət göstərir. O, bizim razılaşdığımız təklifi Ermənistan qəbul etməyəndə bunu normal hesab edir, amma bizim razı olmadığımız təklifi Ermənistan qəbul edəndə bunu bizim üçün qeyri-normal hesab edir... İndi bir ildir ki, bizi qınayırlar ki, nə üçün biz bu "ümumi dövlət" formulunu qəbul etmirik və Minsk qrupu yeni bir təklif vermir".

7 oktyabr - Osloda Minsk qrupu həmsədrlərinin ATƏT-in fəaliyyətdə olan sədri K.Vollebeklə Cənubi Qafqaza səfərinin nəticələrinin müzakirəsi üçün görüşü keçirilmişdir.

8 oktyabr - Vyanada ATƏT-in Minsk qrupunun tərəflərin iştirakı olmadan görüşü keçirilmişdir.

9 oktyabr - Vyanada Xarici işlər nazirləri səviyyəsində keçirilmiş görüşdə ATƏT-in Minsk qrupunun həmsədrləri – K.Kavano (ABŞ), J.Vojye (Fransa) və N.Qribkov (Rusiya) Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması ilə bağlı müzakirələr apardılar.

11 oktyabr - Azərbaycan-Ermənistan sərhədində – Sədərəkdə Azərbaycan və Ermənistan prezidentlərinin öz təşəbbüsləri ilə görüşü keçirildi. Vyanada ATƏT-in Minsk qrupunun iştirakı ilə təşkilata üzv olan dövlətlərin ərazisindəki münaqişəli vəziyyətlə bağlı Daimi Şuranın genişlənmiş iclası keçirildi.

27 oktyabr - Yerevanda Ermənistan Respublikasının parlamentində terror aktı törədildi. Öldürülən 8 nəfər arasında Baş nazir Vazqen Sarkisyan və parlamentin spikeri Karen Dəmirçiyan da olmuşdur.

16 noyabr - ATƏT-in Bakıda Nümayəndəliyinin (Ofisinin) təsis edilməsi haqqında ATƏT-in Daimi Şurasının 318 saylı qərarı qəbul olundu.

17 noyabr - İstanbulda ATƏT-in sammiti ərəfəsində Azərbaycan və Ermənistan prezidentlərinin görüşü keçirildi.

18-19 noyabr - ATƏT üzvü olan ölkələrin dövlət və hökumət başçılarının İstanbulda keçirilən Zirvə toplantısında qəbul edilən Yekun bəyannamənin 20-ci maddəsində Dağlıq Qarabağ problemi ətrafında yaranmış mövcud vəziyyəti özündə əks etdirən və Minsk qrupu çərçivəsində münaqişə tərəflərinin damışıqları davam etdirməyə çağırış öz əksini tapdı. Sənəddə ATƏT-in Minsk qrupu həmsədrlərinin cəhdlərinə müsbət qiymət verilməklə yanaşı, Ermənistan və Azərbaycan prezidentləri arasında intensivləşən danışıqlardan razılıq ifadə olunur və nizamlama formatına daha çox uyğun gələn Minsk qrupu çərçivəsində müntəzəm olaraq sülh prosesinin davam etdirilməsi üçün görüşlərin keçirilməsi dəstəklənirdi.

11-15 dekabr - ATƏT-in Minsk qrupu həmsədrləri - Kerri Kavano, Jan Jak Qayard və Nikolay Qripkov 13 aylıq fasilədən sonra

Yerevan, Xankəndi və Bakıya səfər etdilər. Bu səfər həmsədrlər üçün yeni olduğundan sırf tanışlıq xarakteri daşıyırdı.

2000

1 yanvar - Avstriya (XİN V. Şussel, daha sonra B. Ferrero Valdner) Norveçi ATƏT-in fəaliyyətdə olan sədri qismində əvəz etdi.

24 yanvar - Moskvada MDB dövlət başçılarının iclası keçirildi. Azərbaycan və Ermənistan prezidentlərinin Rusiyanın təşəbbüsü ilə görüşü olmuşdur. Daha sonra görüşə Rusiyanın Baş naziri V.Putin qoşulmuşdur.

28 yanvar - Davosda Azərbaycan və Ermənistan prezidentlərinin öz təşəbbüsləri ilə görüşü keçirilmişdir.

29 mart - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 31 mart – Azərbaycanlıların Soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciətində 1992-ci ilin fevralında keçmiş sovet qoşunlarının yaxından köməyi ilə erməni hərbi birləşmələri tərəfindən müasir tarixdə analoqu olmayan müdhiş faciə törədildiyini, Azərbaycan şəhəri Xocalının minlərlə müdafiəçisi və dinc sakininin öldürüldüyünü, əsir alındığını, şəhərin yerlə yeksan edildiyini bildirərək qeyd etmişdir ki, bu misilsiz vandalizm və soyqırımı aktlarında məqsəd xalqımızı qorxutmaq, onun mübarizə əzmini qırmaq olmuşdur.

8 aprel - Bakıda Türkdilli ölkələrin dövlət başçılarının növbəti VI zirvə görüşündə qəbul edilmiş Bəyannamədə göstərildi ki, iştirakçılar BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair qəbul etdiyi qətnamələrinə tərəfdar olduqlarını bir daha bəyan edərək, münaqişənin ATƏT-in Lissabon sammitinin məlum 3 prinsipi əsasında sülh yolu ilə həllini dəstəkləyir.

20 iyun - Moskvada MDB Dövlət Başçıları Şurasının iclasında Azərbaycan və Ermənistan prezidentlərinin Rusiyanın təşəbbüsü ilə görüşü keçirilmişdir. Daha sonra görüşə Rusiyanın Baş naziri V.Putin də qoşulmuşdur.

27-30 iyun - İslam Konfransı Təşkilatına üzv dövlətlərin Xarici işlər nazirlərinin Malayziyanın paytaxtı Kuala-Lumpurda keçirilmiş XXVII Konfransında "Ermənistan Respublikasının təcavüzü nəticəsində

Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında" və "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" adlı iki qətnamə qəbul edilmişdir.

Qəbul edilən sənədlərdə üzv dövlətlər bir daha erməni təcavüzünü qətiyyətlə pisləmiş, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb etmişlər.

2 iyul - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərini (ABŞ, Fransa və Rusiya) qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər müzakirə edilmişdir.

4 iyul - Avstriyada rəsmi səfərdə olan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ATƏT-in fəaliyyətdə olan sədri, Avstriyanın Xarici işlər naziri xanım Benita Ferrero-Valdnerlə keçirdiyi görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məsələlər müzakirə olunmuşdur.

17 iyul - ATƏT-in fəaliyyətdə olan sədri, Avstriyanin Xarici işlər naziri xanım Benita Ferrero-Valdnerin Bakıda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevlə keçirdiyi görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli perspektivləri müzakirə olundu.

18 iyul - ATƏT-in Bakıda Nümayəndəliyi (Ofisi) açılaraq fəaliyyətə başladı.

18 avqust - Yaltada Azərbaycan və Ermənistan prezidentlərinin öz təşəbbüsləri ilə görüşü keçirilmişdir.

6-8 sentyabr - Nyu-Yorkda BMT Baş Məclisinin 55-ci yubiley sessiyası çərçivəsində keçirilmiş və "Minilliyin zirvə görüşü" adı ilə tarixə düşmüş sammitdə çıxış edən Azərbaycan Prezidenti Heydər Əliyev dünyada sülhün və təhlükəsizliyin qorunmasında bu beynəlxalq təşkilatın mühüm rol oynadığını qeyd etmiş, regional münaqişələrin, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair Azərbaycanın mövqeyini bir daha bildirmiş, bəşəriyyətin üzləşdiyi problemlərin həllində BMT-nin fəaliyyətini daha da gücləndirmək məqsədilə təşkilatda islahatların aparılmasının zəruriliyini vurğulamışdır.

7 sentyabr - Nyu-Yorkda Azərbaycan və Ermənistan prezidentlərinin öz təşəbbüsləri ilə görüşü keçirilmişdir. Azərbaycan və Ermənistan prezidentlərinin ikitərəfli danışıqları, habelə ABŞ prezidenti B.Klinton, dövlət katibi M.Olbrayt və ATƏT-in Minsk qrupunun amerikalı həmsədri K.Kavano ilə görüşlər zamanı aydın oldu ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı yeni təklif və irəliləyiş yoxdur.

12-13 noyabr - İKT-nin üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Qətərin Doha şəhərində keçirilən IX Zirvə toplantısında Azərbaycanın maraqlarına tam şəkildə uyğun olan və ölkəmizin ədalətli mövqeyini beynəlxalq səviyyədə dəstəkləyən İKT Xarici işlər nazirlərinin XXVI konfransında Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı qəbul edilmiş mühüm sənədlər bir daha təsdiq edilərək qəbul olundu. İKT-nin Zirvə toplantısında "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında", eləcə də ilk dəfə olaraq "Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın tarix və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması ilə əlaqədar qətnamə"nin qəbul edilməsi də çox mühüm əhəmiyyət kəsb edirdi.

30 noyabr - Belarusun paytaxtı Minskdə MDB üzvü olan dövlət başçılarının zirvə toplantısının gedişində Azərbaycan və Ermənistan prezidentlərinin öz təşəbbüsləri ilə görüşü keçirildi. Danışıqlar zamam tərəflər bir daha münaqişənin qarşılıqlı güzəştlər əsasında həllinə tərəfdar olduqlarını bildirdilər. Eyni zamanda, dövlət başçıları ATƏT-in Minsk qrupunun fəaliyyətinin nəticəsiz olduğunu qeyd etsələr də, münaqişənin həllində ATƏT-in vasitəçilik fəaliyyətinin gücləndirilməsinin və bilavasitə iştirakının vacib olduğunu da bildirdilər.

Dekabr - ATƏT-in Minsk qrupu həmsədrləri K.Kavano (ABŞ), J.Qayyard (Fransa) və N.Qribkov (Rusiya) Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasının hansı səviyyədə olduğunu və yeni təkliflərin hazırlanması üçün vacib meyarları müəyyən etmək məqsədilə Türkiyənin Xarici işlər naziri İ.Cemlə görüşdən sonra Qars vilayətinə, oradan Naxçıvana, sonra isə Yerevan-Xankəndi-Bakı marşrutu ilə regiona səfər etmişlər.

1999-2000-ci illər ərzində - Həmsədrlərin münaqişə tərəfləri ilə demək olar ki, heç bir əlaqələri olmamışdır. Bu illər Minsk qrupunun fəaliyyəti baxımından itirilmiş illər oldu. Bunu etiraf edən həmsədrlər də onların təklif limitlərinin bitdiyini, münaqişənin aradan qaldırılması yolları ilə bağlı hər hansı yeni ideya və plan irəli sürməkdə çətinlik çəkdikləri haqqında dəfələrlə və açıq şəkildə bildirdilər.

1992-2000-ci illər ərzində - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini ATƏT-in Minsk qrupu çərçivəsində nizama salmaq istiqamətində aparılan danışıqlar bir tərəfdən, Ermənistanın qeyri-konstruktiv mövqeyi, digər tərəfdən isə ATƏT-in və onun Minsk qrupunun kifayət qədər prinsipial mövqe tuta bilməməsi, nəhayət, dünya birliyinin təcavüzkarı tanımaq istəməməsi nəticəsində demək olar ki, uğursuzluqla başa çatmışdır.

2001

1 yanvar - Rumıniya (Xarici işlər naziri M.Coana) Avstriyanı ATƏT-in fəaliyyətdə olan sədri qismində əvəz etdi.

17 yanvar - Avropa Şurası Nazirlər Komitəsinin nümayəndələr səviyyəsində keçirilmiş iclasında Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə dair qərar qəbul edildi. Azərbaycanın Avropa Şurasına üzv qəbul edilməsi ölkəmizin beynəlxalq miqyasda nüfuzunun artması, dünya birliyinə inteqrasiya olunması istiqamətində yeni mərhələnin başlanğıcını qoydu.

Avropa Şurası Parlament Assambleyasının sessiyasında Azərbaycan Prezidenti Heydər Əliyev Avropa ölkələrinin parlament nümayəndələrinə müraciətində onları Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün səylərini qətiyyətlə birləşdirməyə çağırdı. Dövlət başçısı qeyd etdi ki, bu münaqişəni həll etmədən, eləcə də digər münaqişələrə son qoymadan regionda sülhə və təhlükəsizliyə nail olmaq mümkün deyildir.

25 yanvar - Azərbaycan Prezidenti Heydər Əliyevin iştirakı ilə Starsburqda ölkəmizin Avropa Şurasına üzv qəbul edilməsi münasibətilə rəsmi mərasim keçirilmiş və Azərbaycanın üçrəngli bayrağı ucaldılmışdır.

Bu hadisəni ümummilli lider Heydər Əliyev yüksək qiymətləndirərək demişdi: "Azərbaycanın Avropa Şurasına qəbul edilməsi nəinki müstəqil, suveren, demokratik, dünyəvi dövlət kimi tanınmasıdır, həm də Avropa ailəsinin bərabərhüquqlu üzvü kimi Azərbaycan dövlətinin inkişafında yeni mərhələnin başlanğıcıdır".

Azərbaycanın Avropa Şurasının bərabərhüquqlu üzvü olması – respublikamızın mühüm problemlərinin dünya ictimaiyyətinin diqqətinə obyektiv çatdırılması üçün yeni və çox mötəbər tribuna vermiş oldu. Dövlət başçısı Heydər Əliyev Avropa Şurasının tribunasından Azərbaycanın mənafeyinə uyğun şəkildə istifadə edilməsi üçün uğurlu bir addım atdı. Belə ki, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan nümayəndə heyətinə millət vəkili İlham Əliyevin rəhbərlik etməsi və daha sonra onun AŞPA-dakı fəaliyyəti ümummilli liderin qarşıya qoyduğu vəzifələri reallaşdırdı.

26 yanvar - Azərbaycan və Ermənistan prezidentlərinin Fransanın təşəbbüsü ilə Parisdə, Marini sarayında görüşü keçirilmişdir. Danışıqlara sonda Fransa Prezidenti Jak Şirak da qoşulmuşdur.

21 fevral - Azərbaycanda rəsmi dövri mətbuatda ATƏT-in Minsk qrupu həmsədrlərinin münaqişə tərəflərinə 1997-ci il iyul və dekabr, 1998-ci il noyabr aymda təqdim olunmuş üç təklifi çap olundu. Azərbaycanın ardınca hər üç layihə Ermənistanda da ictimaiyyətə açıqlandı.

23 fevral - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Milli Məclisin iclasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi, bu münaqişənin aradan qaldırılması üçün görülmüş işlər, aparılmış danışıqlar, ATƏT-in Minsk qrupunun fəaliyyəti və digər məsələlər barəsində geniş nitq söyləmişdir.

24 fevral - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Milli Məclisdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması üçün keçirilən iki günlük geniş müzakirələrdən sonra yekun nitq söyləmişdir.

24 fevral - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Xocalı soyqırımının ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətində bildirmişdir: "...1992-ci il fevralın 26-da ən müasir silahlar və texnika ilə təchiz olunmuş Ermənistan hərbi birləşmələri keçmiş sovet ordusunun 366-cı alayının bilavasitə iştirakı ilə Azərbaycanın Xocalı şəhərini yerlə yeksan etdilər, yüzlərlə günahsız mülki əhaliyə – qadınlara, qocalara, uşaqlara amansızcasına divan tutdular. Xüsusi qəddarlığı ilə seçilən bu təcavüz aktı təkcə Xocalı əhalisinə deyil, bütövlükdə insanlığa qarşı misli görünməmiş cinayət idi. Əsrin əvvəllərindən başlayaraq təcavüzkar erməni millətçiləri tərəfindən azərbaycanlılara qarşı dəfələrlə soyqırımı aksiyaları törədilmişdir. Amma Xocalı soyqırımı bunların ən dəhşətlisi olmuşdur... Xocalı soyqırımının qurbanlarının xatirəsini yad edərkən onların qarşısında hər birimizin vicdan və vətəndaşlıq borcu haqqında düşünürük. Bu borcu ödəməyin ən yaxşı yolu Xocalı qəhrəmanlarının uğrunda öz həyatlarını qurban verdikləri idealları yaşatmaq, müstəqil Azərbaycan dövlətini qorumaq, onun sərhədlərinin toxunulmazlığını, ərazi bütövlüyünü təmin etməkdir".

27-28 fevral - ATƏT-in fəaliyyətdə olan sədri Ermənistana səfər etmişdir.

Fevral - "Geqaron" terror qrupu ASALA tərəfindən yaradılmışdır. Məqsədi Cənubi Qafqaz və Orta Asiya ərazilərində türk mənşəli siyasi lider, diplomat və iş adamlarına qarşı terror aktlarının həyata keçirilməsidir.

1-2 mart - ATƏT-in fəaliyyətdə olan sədri Azərbaycana səfər etmişdir.

4-5 mart - Parisdə Azərbaycan və Ermənistan prezidentlərinin Fransanın təşəbbüsü ilə Yelisey sarayında görüşü keçirilmişdir. Danışıqlara sonda prezident J. Şirak da qoşulmuşdur.

3-6 aprel - Ki-Uestdə (ABŞ, Florida ştatı) ABŞ-ın təşəbbüsü ilə Azərbaycan və Ermənistan prezidentlərinin görüşü keçirilmişdir. Danışıqlara Birləşmiş Ştatların dövlət katibi K. Pauell də qoşulmuşdur. Ki-Uest görüşlərinin təşkilati cəhətdən fərqləndirən əsas cəhəti ondan ibarət idi ki, burada ilk dəfə olaraq Minsk qrupu həmsədrlərinin hər üçü – ABŞ, Fransa və Rusiya təmsilçiləri əvvəlki görüşlərdən fərqli olaraq, eyni vaxtda münaqişə tərəflərinin hər ikisi ilə əvvəlcə ayrılıqda, sonra isə birlikdə danışıqlar apardılar.

Bu danışıqlarda da Ermənistanın qeyri-konstruktiv mövqeyi nəticəsində heç bir gözlənilən irəliləyiş əldə edilmədi. Ki-Uest damşıqları

başa çatdıqdan sonra Minsk qrupunun həmsədrləri bəyan etdilər ki, onlar münaqişənin həlli ilə bağlı yeni təkliflər üzərində işləyirlər və onu iyul ayında Cenevrədə keçirilən görüşdə prezidentlərə təqdim edəcəklər. Ümumilikdə isə, bu danışıqlarda da heç bir razılığa gəlinmədi. Ki-Uestdə Azərbaycan Prezidenti Heydər Əliyev ATƏT-in Minsk qrupunun fəaliyyətini kəskin şəkildə tənqid edərək, onun passiv fəaliyyət göstərdiyini bəyan etdi.

9 aprel - Vaşinqtonda ABŞ Prezidenti Azərbaycan və Ermənistan prezidentləri ilə ayrı-ayrılıqda görüş keçirdi.

24-27 aprel - Azərbaycan Respublikasının AŞPA-dakı nümayəndə heyətinin ilk dəfə olaraq bu qurumun iclasında tamhüquqlu üzv kimi iştirak etdiyi plenar sessiyada Ermənistanın Azərbaycana təcavüzü faktlarını özündə əks etdirən sənədlər: 9 ölkə və AŞPA-da fəaliyyət göstərən 5 siyasi qrupu təmsil edən 29 nümayəndə tərəfindən imzalanmış "Ermənilər tərəfindən azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımın tanınması" adlı yazılı bəyanat və 14 ölkəni təmsil edən 20 nümayəndə tərəfindən imzalanmış "Ermənistan və Dağlıq Qarabağda saxlanılan hərbi əsirlər və girovlar" adlı sənəd AŞPA-nın rəsmi sənədləri qismində yayılmışdır.

Göstərilən sənədlərdə ermənilər tərəfindən Xocalı əhalisinin tamamilə qətlə yetirilməsi, Ermənistan tərəfindən Azərbaycan ərazisinin 20 faizinin işğal edilməsi, Ermənistanda, eyni zamanda, işğal edilmiş Azərbaycan ərazilərində uşaq, qadın və yaşlı insanların da daxil olduğu 783 azərbaycanlı girovun saxlanılması faktı və digər vacib məsələlər öz əksini tapmışdır.

29 aprel - Terrorçu "Apostol" təşkilatı əsasən Ermənistan, Suriya və Livan vətəndaşlarından ibarət olan Ermənistan Müdafiə Birliyi tərəfindən yaradılmışdır. Təşkilatın məqsədi Türkiyə və Azərbaycan ərazilərində terror aktları həyata keçirmək olmuşdur.

18-21 may - ATƏT-in Minsk qrupu həmsədrlərinin münaqişə regionuna səfəri olmuşdur.

31 may - Minskdə MDB Dövlət Başçıları Şurasının iclasında Azərbaycan və Ermənistan prezidentlərinin Rusiyanın təşəbbüsü ilə görüşü keçirilmişdir. Görüşdə Rusiya Federasiyasının Prezidenti V.Putin də iştirak etmişdir.

22-24 iyun - La-Valettada (Malta) ATƏT-in Minsk qrupu həmsədrlərinin ekspertlərin iştirakı ilə məsləhətləşmələri keçirilmişdir.

25-29 iyun - Bamakoda (Mali) şəhərində keçirilmiş İKT üzvü olan ölkələrin Xarici işlər nazirlərinin XXVIII konfransı "Ermənistanın Azərbaycana qarşı təcavüzü haqqında" qətnamə qəbul etmişdir.

Qəbul edilən sənəddə üzv dövlətlər bir daha erməni təcavüzünü qətiyyətlə pisləmiş, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb etmişlər.

25-29 iyun - AŞPA-nın növbəti plenar sessiyası zamanı Azərbaycanla bağlı daha 2 mühüm sənəd AŞ PA-nın rəsmi sənədləri kimi yayılmışdır. "Azərbaycan Respublikasında (Dağlıq Qarabağ, Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan) ekoloji vəziyyət" və "Azərbaycanın mədəni irsinin qəsb olunması və dağılması" adlı iki sənəddə Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərində yerləşən mədəni abidə və sərvətlərin dağıdılması məsələsi Avropa ictimaiyyətinin diqqətinə çatdırılmışdır.

9-13 iyul - ATƏT-in Minsk qrupu həmsədrlərinin münaqişə regionuna səfəri olmuşdur.

1-3 avqust - Soçidə MDB-nin qeyri-rəsmi sammitində Azərbaycan və Ermənistan prezidentlərinin Rusiyanın təşəbbüsü ilə görüşü keçirilmişdir. Görüşdə Rusiya Prezidenti V.Putin də iştirak etmişdir.

15 sentyabr - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Avropa Şurası Parlament Assambleyasının sədri Lord R.Consonla görüşdə demişdir: "1988-ci ildən indiyə qədər Ermənistan-Azərbaycan münasibətlərində baş vermiş hadisələr – insanların qətlə yetirilməsi, Xocalı faciəsi, yaxud işğal olunmuş torpaqlarda kütləvi formada aparılan etnik təmizləmə, yenə də deyirəm, bunun nəticəsində insanların qətlə yetirilməsi, bunların özü də terrorun bir formasıdır".

24-28 sentyabr - AŞPA-nın plenar sessiyasında Azərbaycan nümayəndə heyəti tərəfindən hazırlanmış "Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi" adlı digər sənəd yayılmışdır. Qəbul edilən sənəddə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız Azərbaycanın ərazi bütövlüyü nəzərə alınmaqla həll olunmasının zəruriliyi qeyd edilirdi.

Azərbaycan nümayəndə heyətinin rəhbəri İlham Əliyev ilk dəfə bu qurumun kürsüsündən Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycamn Dağlıq Qarabağ və daha 7 rayonunun işğal olunduğunu, işğal edilmiş ərazilərin terrorizm və narkotik maddələrin tranzitinə çevrildiyini bəyan etmişdir. Avropa Şurasının sənədlərində Ermənistan təcavüzkar dövlət kimi tanınmış, işğalçı qoşunların dərhal Azərbaycan torpaqlarından çıxarılması tələb edilmişdir. Söylənilən bu faktlar AŞPA-nın sənədlərində öz əksini tapmışdır.

Sentyabr - Vyanada Minsk qrupu həmsədrlərinin ATƏT-in Daimi Şurasında hesabatı dinlənilmişdir.

24 oktyabr - ABŞ Senatı 907-ci düzəlişin dayandırılması haqqında senator Sem Braunbekin layihəsini təsdiq etdi.

25 oktyabr - Azərbaycan Prezidenti Heydər Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri R.Perinanı (ABŞ), F.Sürmeni (Fransa), Rusiyanın Xarici işlər nazirinin birinci müavini V.Trubnikovu və onları müşayiət edən nümayəndə heyətini qəbul etmişdir.

30 noyabr - Moskvada MDB Dövlət Başçıları Şurasının 10-cu Zirvə toplantısında Azərbaycan və Ermənistan prezidentlərinin görüşü keçirilmişdir. Görüşdə Rusiya Prezidenti V.Putin də iştirak etmişdir. Damşıqların nəticəsində Ermənistanın qeyri-konstruktiv mövqedən əl çəkmədiyi bir daha aydın oldu.

Noyabr - ATƏT-in Minsk qrupu həmsədrlərinin münaqişə regionuna səfəri olmuşdur.

3-4 dekabr - ATƏT-in Nazirlər Şurasımn Buxarestdə keçirilən iclasında qəbul edilmiş bəyanatda sülh danışıqlarının davam etdirilməsinin vacibliyi bildirilmiş və tərəflərə münaqişənin beynəlxalq hüquq normaları və prinsipləri əsasında tez bir zamanda həll edilməsi üçün səyləri artırmaq məsləhət görülmüşdür.

2002

1 yanvar - Portuqaliya (Xarici işlər naziri X.Qama, daha sonra Martineş da Kruş) Rumıniyanı ATƏT-in fəaliyyətdə olan sədri qismində əvəz etdi.

Yanvar - ABŞ Prezidenti C.Buş "Azadlığı Müdafiə Aktı"na 907-ci düzəlişin qüvvəsinin dayandırılması barədə fərman imzaladı. 907-ci düzəlişin aradan qaldırılması Azərbaycan-ABŞ münasibətlərinin inkişafında yeni mərhələnin başlanğıcını qoydu.

23 yanvar - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev uzun illər ABŞ-da bir sıra mühüm vəzifələrdə çalışmış, 1992-1993-cü illərdə ATƏT-in Minsk qrupunda Birləşmiş Ştatların nümayəndəsi olmuş, Praqada açıq KİV üzrə tədqiqat institutunun rəhbəri və keçmiş sovet respublikalarına həsr olunmuş "Keçid" jurnalının baş redaktoru Con Mareska ilə söhbət zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini problemin elə ilkin mərhələsində həll etməyin mümkünlüyünü xatırlatmışdır.

29 yanvar - 6 fevral - Nyu-Yorkda ATƏT-in Minsk qrupu həmsədrlərinin məsləhətləşmələri keçirildi.

25 fevral - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Xocalı soyqırımının onuncu ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətində bildirmişdir: "...Xocalı faciəsi iki yüz ilə yaxın bir müddətdə erməni şovinist-millətçiləri tərəfindən azərbaycanlılara qarşı müntəzəm olaraq həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasətinin davamı və ən qanlı səhifəsidir. Bir sıra dövlətlərin hakim dairələri tərəfindən himayə olunan bu mənfur siyasət çar Rusiyası və sovet hakimiyyəti dövründə ardıcıl davam etdirilmiş, SSRİ-nin süqutundan sonra xalqımızın doğma torpaqlarından qovulması, qaçqın və köçkünə çevrilməsi kütləvi qırğınlarla müşaiyət olunmuşdur. Təcavüzkar erməni millətçilərinin və sərsəm "Böyük Ermənistan" ideoloqlarının etnik təmizləmə və soyqırımı siyasətinin nəticələrini bütövlükdə iki milyon azərbaycanlı müxtəlif vaxtlarda öz üzərində hiss etmişdir...Öz miqyasına və dəhşətlərinə görə dünya tarixində analoqu az olan Xocalı soyqırımını törətməkdə erməni şovinistləri və ideoloqları uzağa gedən məqsəd güdürdülər. Məqsəd Dağlıq Qarabağı və

digər Azərbaycan torpaqlarını ələ keçirmək, xalqımızın müstəqillik və ərazi bütövlüyü uğrunda mübarizə əzmini qırmaq idi. Lakin mənfur düşmən öz niyyətlərinə çata bilmədi. Doğrudur, faciə bütün Azərbaycanı sarsıtmış, Xocalı sakinlərinə sağalmaz yaralar, mənəvi zərbələr vurmuşdur. Lakin xocalılılar hətta amansız soyqırım günündə də özlərini əsl qəhrəman kimi aparmış, erməni-sovet hərbi birləşmələrinə qarşı qeyri-bərabər döyüşdə igidliklə vuruşmuş, düşmən qarşısında əyilməmiş, xalqımızın qəhrəmanlıq tarixinə şərəfli səhifələr yazmışlar... Bu gün Azərbaycan hökuməti və xalqı qarşısında Xocalı soyqırımı və bütövlükdə ermənilərin Dağlıq Qarabağda törətdikləri vəhşiliklər haqqında həqiqətləri olduğu kimi, bütün miqyası və dəhşətləri ilə dünya dövlətlərinə, parlamentlərinə, geniş ictimaiyyətə çatdırmaq, bütün bunların əsl soyqırım aktı kimi tanınmasına nail olmaq vəzifəsi durur. Bu, Xocalı şəhidlərinin ruhu qarşısında bizim vətəndaşlıq və insanlıq borcumuzdur. Digər tərəfdən, faciənin əsl beynəlxalq hüquqi-siyasi qiymət alması, onun ideoloqlarının, təşkilatçılarının və icraçılarının layiqincə cəzalandırılması bütövlükdə insanlığa qarşı yönəlmiş belə qəddar aktların gələcəkdə təkrarlanmaması üçün mühüm şərtdir..."

26-28 fevral - Vyanada ATƏT-in Minsk qrupu həmsədrlərinin Ermənistan prezidenti ilə görüşü keçirilmişdir.

8 mart - Sülh prosesində irəliləyiş əldə etmək məqsədi ilə həmsədrlər münaqişənin həlli barədə aparılan danışıqlarda iştirak etmək üçün Azərbaycan və Ermənistan prezidentlərinin xüsusi nümayəndələrinin təyin olunmasını təklif etdilər. Prezidentlər tərəfindən təyin olunmuş xüsusi nümayəndələr il ərzində üç dəfə – may və iyun aylarında iki dəfə Praqada və noyabr ayında isə bir dəfə Vyanada görüşdülər.

15 mart - Vyanada ATƏT-in Minsk qrupunun "Praqa prosesi" haqqında iclası keçirilmişdir.

8-11 aprel - Praqada Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində "Praqa prosesi"nin başlanması üçün təşkilati məsələlərə dair qərar verilmişdir.

8 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycanın yəhudi icmasına müraciətində Ermənistanın etnik təmizləmə və soyqırımı siyasətinə də toxunaraq son on dörd ildə Ermənistanın Azərbaycana hərbi təcavüzü, xalqımıza qarşı həyata keçirilən deportasiya və

soyqırımı siyasəti, misli görünməmiş Xocalı müsibətinin XX əsrdə dünyanın ən böyük milli fəlakətlərindən biri olduğunu bildirmişdir.

8 may - Parisdə ATƏT-in Minsk qrupu həmsədrlərinin məsləhətləşmələri keçirilmişdir.

12-15 may - Praqada Azərbaycan və Ermənistan Xarici işlər nazirləri müavinlərinin "Praqa prosesi" çərçivəsində ilk görüşü keçirilmişdir.

13-15 may - Praqa şəhəri yaxınlığında, Ştirin ərazisində Azərbaycan və Ermənistan prezidentlərinin şəxsi nümayəndələrinin görüşü keçirilmişdir.

12 iyun - Avropa İttifaqı-Azərbaycan Əməkdaşlıq Komitəsinin yekun sənədində Aİ münaqişənin sülh yolu ilə həllinə əsaslanaraq Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bir daha təsdiqləmişdir.

18-19 iyun - Lissabonda Minsk qrupu həmsədrlərinin ATƏT-in yeni təyin edilmiş fəaliyyətdə olan sədri Portuqaliyanın Xarici işlər naziri M. da Kruşla görüşü olmuşdur. ATƏT-in Minsk qrupu həmsədrlərinin məsləhətləşmələri keçirilmişdir.

23-26 iyun - İstanbulda ATƏT-in Minsk qrupu həmsədrlərinin Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının Xarici işlər naziri və Türkiyənin Xarici işlər naziri İ.Cemlə görüşü keçirilmişdir.

25-27 iyun - Sudanın Xartum şəhərində keçirilmiş İslam Konfransı Təşkilatına üzv olan ölkələrin Xarici işlər nazirlərinin XXIX konfransı Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı qətnamə qəbul etmişdir.

Qəbul edilən sənəddə üzv dövlətlər bir daha erməni təcavüzünü qətiyyətlə pisləmiş, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb etmişlər.

26 iyul - Vyanada ATƏT-in Minsk qrupunun tərəflərin iştirakı olmadan məsləhətləşmələri keçirilmişdir.

29-30 iyul - Praqa şəhəri yaxınlığında Ştirin ərazisində Azərbaycan və Ermənistan prezidentlərinin şəxsi nümayəndələrinin ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə ikinci görüşü keçirilmişdir.

2 avqust - Avropa İttifaqı Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində qondarma "prezident seçkiləri"nin keçirilməsini pisləyən sənəd qəbul etdi.

14 avqust - Azərbaycan-Ermənistan sərhədində – Sədərəkdə Azərbaycan və Ermənistan prezidentlərinin öz təşəbbüsləri ilə görüşü keçirilmişdir.

26 sentyabr - Azərbaycan Parlamentinin Avropa Şurası Partlament Assambleyasında nümayəndə heyətinin rəhbəri, millət vəkili İlham Əliyevin prinsipial və ardıcıl fəaliyyəti nəticəsində AŞPA-nın payız sessiyasında ilk dəfə olaraq bu beynəlxalq qurumun sənədlərində Ermənistan silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağın işğalı faktı rəsmi şəkildə öz əksini tapdı.

28 sentyabr - Azərbaycan Prezidenti Heydər Əliyev Bakıya səfər etmiş Minsk qrupunun həmsədrləri R.Perina (ABŞ), Q.Perren (Fransa) və N.Qribkov (Rusiya) ilə görüşmüşdür. Azərbaycan Prezidenti Heydər Əliyev Minsk qrupunun ATƏT çərçivəsində aparılan səylərinin zəif olduğunu bir daha vurğulamış, həmsədrlərin kifayət qədər fəal olmadıqlarını bildirərək qeyd etmişdir ki, Azərbaycan öz torpaqlarını azad etmək üçün bütün səylərdən istifadə etməyə hazırdır.

6 oktyabr - Kişinyovda MDB Dövlət Başçıları Şurasının iclasında Azərbaycan və Ermənistan prezidentlərinin görüşü keçirilmişdir. ATƏT-in Minsk qrupu həmsədrləri sonradan görüşə qoşulmuşlar.

15 noyabr - Vyanada Azərbaycan və Ermənistan prezidentlərinin şəxsi nümayəndələrinin üçüncü görüşü keçirilmişdir.

21-22 noyabr - Praqada NATO-nun sammitində Azərbaycan və Ermənistan prezidentlərinin görüşü keçirilmişdir. ATƏT-in Minsk qrupu həmsədrləri sonradan görüşə qoşulmuşlar.

6-7 dekabr - ATƏT-in Nazirlər Şurasının Portuda keçirilən iclasında qəbul edilmiş bəyanatda tərəflər arasında danışıqların intensivləşməsinə və Minsk qrupu həmsədrlərinin fəal dəstəklənməsinə baxmayaraq, Dağlıq Qarabağ probleminin hələ də nizamlanmamasına görə narahatlıq ifadə olundu.

1999-2002-ci illər - ATƏT-in Minsk qrupunun tam tərkibdə heç bir görüşü keçirilmədi.

2003

1 yanvar - Niderland (Xarici işlər naziri Y.Sxeffer) Portuqaliyanı ATƏT-in fəaliyyətdə olan sədri qismində əvəz etdi.

19-21 yanvar - Praqada ATƏT-in Minsk qrupu həmsədrlərinin Çexiya Xarici İşlər Nazirliyində "Praqa danışıqlar prosesi" ilə bağlı məsləhətləşmələri keçirilmişdir.

22-25 yanvar - Strasburqda ATƏT-in Minsk qrupu həmsədrlərinin Avropa Şurasının Nazirlər Komitəsinin iclasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə edilmişdir.

23 yanvar - Avropa Şurası Nazirlər Komitəsinin Strasburqda geniştərkibli bürosu münaqişənin sülh yolu ilə həlli məqsədi ilə Azərbaycan və Ermənistan tərəfindən götürülmüş öhdəliklərin icrası ilə bağlı xüsusi iclas keçirdi.

27-29 yanvar - Kiyevdə MDB-nin qeyri-rəsmi sammiti çərçivəsində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ATƏT-in Minsk qrupu həmsədrləri ilə görüşü keçirilmişdir.

20-22 fevral - Varşavada ATƏT-in Minsk qrupu həmsədrlərinin ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi A.Kaspşikin iştirakı ilə münaqişə regionunda vəziyyətin kəskinləşməsi haqqında məsləhətləşmələri keçirilmişdir.

25 fevral - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Xocalı soyqırımının ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətində bildirmişdir: "...Xocalı faciəsi iki yüz ildən çox müddətdə davakar erməni millətçiləri tərəfindən xalqımıza qarşı aparılan etnik təmizləmə və soyqırımı siyasətinin qanlı səhifəsidir. Müxtəlif vaxtlarda fərqli şəkildə, xüsusi incəliklə yeridilən bu mənfur siyasət və düşmənçilik heç zaman dayanmamış, gah açıq qarşıdurma və qanlı toqquşmalar şəklini almış, gah da dövrün tələblərinə uyğun ideoloji forma ilə pərdələnmişdir...15 il əvvəl təcavüzkar erməni şovinistlərinin irəli sürdükləri ərazi iddiaları azərbaycanlıların qədim torpaqlarından kütləvi deportasiyasına, çoxsaylı terror aktlarına və tam miqyaslı amansız müharibəyə səbəb oldu. Nəticədə, on minlərlə insan həlak oldu, əlil vəziyyətinə düşdü, yüz minlərlə soydaşımız qaçqın və məcburi köçkünə çevrildi. Dağlıq Qarabağ və onun

ətrafında olan 7 rayonumuz erməni hərbi birləşmələri tərəfindən işğal edildi. Lakin 1992-ci il fevralın 26-da qədim Xocalı şəhərinin misli görünməmiş qəddarlıqla məhv edilməsi bu faciələrin ən dəhşətlisi oldu. Erməni hərbi birləşmələri 366-cı sovet alayı ilə birlikdə qadınlara, uşaqlara, qocalara aman vermədən yüzlərlə insanı xüsusi vəhşiliklə qətlə yetirdi, onları hərb tarixində analoqu olmayan işgəncə verməklə öldürdü, təhqirlərə məruz qoydu. Öz amansızlığına, vəhşiliyinə, kütləviliyinə və törədilən cinayətlərin ağırlığına görə Xocalı faciəsi insanlığın tarixində qara ləkə kimi qalacaqdır... Xocalı soyqırımını törətməkdə erməni şovinistlərinin məqsədi xalqımızı qorxutmaq, vahimə içində saxlamaq, onun mübarizə əzmini qırmaq, işğal faktı ilə barışmasına nail olmaq idi. Lakin düşmən öz məkrli niyyətlərinə çata bilmədi. Xocalı müdafiəçiləri təpədən dırnağa qədər müasir silahlarla təchiz olunmuş düşmən qarşısında özünü itirmədi, əyilmədi, qəhrəmanlıq və rəşadət nümunələri göstərdi. Onlar qeyri-bərabər döyüşdə igidliklə vuruşaraq, əsl fədakarlıq və vətənpərvərlik nümayiş etdirdilər..."

26 fevral - Azərbaycanda Xocalı soyqırımı şəhidlərinin xatirəsinə ucaldılmış "Vətən harayı" abidəsi önündə və dünyanın 100-dən çox ölkəsində Xocalı qurbanlarının xatirəsi anılmışdır.

4-6 mart - Vaşinqtonda ATƏT-in Minsk qrupu həmsədrlərinin Cənubi Qafqaza səfəri ərəfəsində məsləhətləşmələri keçirilmişdir.

27 mart - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev 31 mart – Azərbaycanlıların Soyqırımı Günü münasibəti ilə Azərbaycan xalqına müraciətində Ermənistanın etnik təmizləmə və soyqırımı siyasətinin XX əsrin sonunda da davam etdiyini bildirərək demişdir: "...1992-ci ilin fevralında törədilmiş Xocalı faciəsi isə insanlığa qarşı çevrilmiş, öz qəddarlığına və amansızlığına görə misli görünməmiş genosid aktı kimi tarixdə qalacaqdır. Davakar erməni millətçilərinin və onların ideoloqlarının xalqımıza qarşı cinayətlərinin tam olmayan siyahısı belədir: Yüzillər boyu davam edən bu şovinist və davakar siyasət nəticəsində əzəli Azərbaycan torpaqları təcavüzkar qonşular tərəfindən qəsb olunmuş, on minlərlə soydaşımız vəhşicəsinə öldürülmüş, minlərlə maddi və mənəvi mədəniyyət abidələri vandallıqla dağıdılmışdır. Keçən dövrdə mütəmadi olaraq erməni xalqının geniş dairələri azərbaycanlılara qarşı nifrət ruhunda tərbiyə

olunmuş, kütlənin şüurunda "türk-azərbaycanlı" düşmən obrazı yaradılmış, bu məqsədə xidmət edən "mədəni-milli cəmiyyətlər", terrorçu təşkilatlar şəbəkəsi qurulmuşdur..."

14-15 aprel - Parisdə ATƏT-in Minsk qrupu həmsədrlərinin məsləhətləşmələri keçirilmişdir.

27 aprel - Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Azərbaycanın yəhudi icmasına məktubunda Ermənistanın etnik təmizləmə və soyqırım siyasətinə də toxunaraq demişdir: "...Azərbaycan xalqı da öz tarixi boyu dəfələrlə belə milli müsibətlərlə üzləşməli olmuşdur. Xüsusən 1988-ci ildən başlayan növbəti erməni hərbi təcavüzü nəticəsində xalqımızın məruz qaldığı soyqırımı və deportasiya, kütləvi qətl və qırğınlar, zəbt olunmuş torpaqlarımızda dəhşətli erməni vandalizmi, nəhayət Xocalı müsibəti kimi ağır cinayətlər dünyanın gözü qarşısında baş vermiş, lakin, təəssüf ki, hələ də beynəlxalq birlik tərəfindən hüquqi-siyasi qiymətini almamışdır..."

6-7 may - Parisdə ATƏT-in Minsk qrupu həmsədrlərinin regiona səfəri ərəfəsində məsləhətləşmələri keçirilmişdir.

28-30 may - İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Xarici işlər nazirlərinin Tehranda (İran) keçirilmiş XXX konfransı Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı qətnamə qəbul etmişdir.

2-3 iyun - Madriddə ATƏT-in Minsk qrupu həmsədrlərinin Azərbaycan və Ermənistanın Xarici işlər nazirləri ilə görüşləri keçirilmişdir.

5-6 iyun - Vyanada ATƏT-in Minsk qrupu həmsədrlərinin məsləhətləşmələri və ATƏT-in Daimi Şurasının sədri Y. de Visserlə görüşü keçirilmişdir.

10-12 iyun - Haaqada AŞPA-nın Dağlıq Qarabağ üzrə xüsusi məruzəçisi T.Devislə məsləhətləşmələr keçirilmişdir.

13-15 iyun - Praqada ATƏT-in Minsk qrupu həmsədrlərinin Çexiyanın Xarici işlər naziri ilə "Praqa prosesi" çərçivəsində damşıqların davam etdirilməsi barədə məsləhətləşmələri keçirilmişdir.

7 iyul - Avropa İttifaqı Cənubi Qafqaz üzrə Xüsusi nümayəndəsini təyin etmişdir. Eyni zamanda, Avropa Parlamenti də Cənubi Qafqazda təhlükəsizliyin təmin edilməsinə mane olan

Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasının vacibliyini bildirmişdir.

8 iyul - İki dövlət sərhədində Azərbaycan və Ermənistan Respublikalarının Müdafiə nazirlərinin təmas xəttində insidentlərin qarşısının alınması üçün görüşü keçirilmişdir.

23-24 iyul - Brüsseldə ATƏT-in Minsk qrupu həmsədrlərinin Avropa İttifaqının Cənubi Qafqaz üzrə təyin edilmiş xüsusi məruzəçisi H.Talvitiye ilə məsləhətləşmələri keçirilmişdir.

Sentyabrın əvvəlləri - ATƏT-in Minsk qrupunun Rusiya tərəfindən həmsədri N.Qribkov Y.Merzlyakovla əvəz edildi.

4 sentyabr - Azərbaycan Respublikasının Baş naziri İlham Əliyev ATƏT-in Minsk qrupunun Rusiyadan olan yeni təyin olunmuş həmsədri Y.Merzlyakovu qəbul etmişdir.

15-16 sentyabr - Vyanada ATƏT-in Minsk qrupu həmsədrlərinin məsləhətləşmələri keçirilmişdir.

24 sentyabr - BMT Baş Assambleyasının 58-ci sessiyasında iştirak edən Azərbaycan Respublikasının Baş naziri İlham Əliyev öz çıxışında beynəlxalq aləmdə mürəkkəb proseslərin cərəyan etdiyi dövrdə üzvlərin arasında qarşılıqlı anlaşılmazlıqların meydana çıxmasına görə, BMT Təhlükəsizlik Şurasının şəraitə uyğun, çevik və adekvat münasibət göstərə bilməməsini qeyd edərək, mövcud BMT mexanizmlərinin zamanın tələbinə cavab vermədiyini vurğulamış və bununla bağlı təşkilat daxilində islahatların vacib məsələyə çevrildiyini bildirmişdir. Azərbaycanın Baş naziri İlham Əliyev qeyd etmişdir ki, BMT Təhlükəsizlik Şurasında həm bugünkü, həm də yarıməsirlik reallıqlar öz əksini tapmalıdır.

30 sentyabr - 1 oktyabr - Haaqada Minsk qrupu həmsədrlərinin ATƏT-in fəaliyyətdə olan sədri Y.Sxefferlə onun regiona səfəri öncəsi görüşü keçirilmişdir.

2-4 oktyabr - Parisdə ATƏT-in Minsk qrupu həmsədrlərinin Azərbaycan və Ermənistan Xarici işlər nazirləri ilə görüşü keçirilmişdir.

7-12 oktyabr - ATƏT-in Minsk qrupu həmsədrlərinin Bakı və Yerevana səfərləri çərçivəsində Azərbaycan və Ermənistan prezidentləri ilə görüşmüşlər.

16-17 oktyabr - İKT Dövlət və Hökümət Başçılarının Malayziyanın Putracaya şəhərində keçirilən X Sammitində "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" adlı qətnamə qəbul edildi.

Qəbul edilən sənəddə üzv dövlətlər bir daha erməni təcavüzünü qətiyyətlə pisləmiş, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb etmişlər.

22 oktyabr - ATƏT-in fəaliyyətdə olan sədri, Niderland Krallığının Xarici işlər naziri Y.Sxefferin Azərbaycana səfəri zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı fikir mübadiləsi aparılmışdır.

11-14 noyabr - Vyanada Minsk qrupu həmsədrlərinin ATƏT-in Daimi Şurasına hesabatı dinlənilmişdir.

1-2 dekabr - ATƏT-in Nazirlər Şurasının Maastrixdə keçirilən növbəti iclasında qəbul edilmiş bəyanatda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində edilən cəhdlərin uğursuzluğundan narahatlıq ifadə olundu. Nazirlər yenidən sülh danışıqlarına təkan verməyin vacibliyini vurğulamaqla tərəfləri münaqişənin beynəlxalq hüquq prinsipləri əsasında həll olunması üçün edilən səyləri ikiqat artırmağa çağırdılar. Azərbaycan nümayəndə heyəti bu çağırışa uyğun bəyanatla çıxış etdi.

4-7 dekabr - ATƏT-in Minsk qrupu həmsədrlərinin Bakı və Yerevana səfərləri çərçivəsində Azərbaycan və Ermənistan prezidentləri ilə görüşləri keçirilmişdir.

5 dekabr - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun Rusiyadan, ABŞ-dan və Fransadan olan həmsədrləri Y.Merzlyakovu, R. Perinanı, A.Jakoleni və Rusiya Federasiyası Xarici işlər nazirinin birinci müavini V.Trubnikovu qəbul etmişdir.

11 dekabr - Cenevrədə İnformasiya Cəmiyyəti üzrə Dünya Sammiti çərçivəsində "İnterkontinental" mehmanxanasının "Millətlər salonu"nda Azərbaycan və Ermənistan prezidentlərinin görüşü keçirilmişdir.

1993-2003-cü illər ərzində - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə nizama salınması ümummilli lider Heydər Əliyevin xarici siyasət fəaliyyətində mühüm yer tutmuşdur. Bu

illərdə münaqişənin sülh yolu ilə həll edilməsi üçün Azərbaycan Prezidenti Heydər Əliyevin ən yüksək səviyyədə dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli, eləcə də çoxtərəfli görüşlərdə ATƏT-in Zirvə toplantılarında, Minsk qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə, eyni zamanda Ermənistan prezidenti ilə birbaşa danışıqlarda göstərdiyi səylər ümummilli liderin apardığı ardıcıl və məqsədyönlü siyasətin mühüm tərkib hissəsini təşkil etmişdir.

Bu dövrdə Azərbaycan Prezidenti Heydər Əliyev Ermənistan Prezidenti ilə 23, ATƏT-in rəhbərliyi və Minsk qrupunun nümayəndələri ilə 150-yə qədər görüş keçirmişdir. Ümummilli liderin Azərbaycan Prezidenti kimi bu illərdə 80-dək ölkənin dövlət başçıları ilə keçirdiyi 500-dən çox görüşdə, eləcə də nüfuzlu beynəlxalq təşkilatların ən yüksək səviyyəli nümayəndələri ilə ATƏT-in, NATO-nun, Avropa Şurasının, İslam Kofransı Təşkilatının, MDB-nin, GUAM-ın, İqtisadi Əməkdaşlıq Təşkilatının, Türkdilli ölkələrin dövlət başçılarının Zirvə görüşlərində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələləri müzakirə edilmiş, Ermənistanın Azərbaycana hərbi təcavüzü və işğalçılıq siyasəti haqqında geniş məlumat verilmişdir.

2004

1 yanvar - Bolqarıstan (Xarici işlər naziri S.Passi) Niderlandı ATƏT-in fəaliyyətdə olan sədri qismində əvəz etdi.

15-16 yanvar - Vyanada ATƏT-in Minsk qrupu həmsədrlərinin ATƏT-in yeni fəaliyyətdə olan sədri S.Passi və ATƏT-in baş katibi Y.Kubişlə məsləhətləşmələri keçirilmişdir.

4 fevral - ATƏT-in Parlament Assambleyası sədrinin Dağlıq Qarabağ üzrə xüsusi nümayəndəsi Q.Lenmarkerin Azərbaycana səfəri zamam dövlət başçısı İlham Əliyev qeyd etdi ki, münaqişənin nizama salınması prosesində əsas vasitəçi olan ATƏT-in Minsk qrupu ilə yanaşı, digər beynəlxalq qurumlar – ATƏT-in Parlament Assambleyası, Avropa Şurası və Avropa İttifaqının da fəaliyyətinin gücləndirilməsi böyük əhəmiyyətə malikdir.

Fevralın ortaları - ATƏT-in Parlament Assambleyasının iclası zamanı Dağlıq Qarabağ üzrə xüsusi nümayəndə Q.Lenmarkerin məruzəsində Azərbaycanın ərazi bütövlüyü dəstəklənmiş və işğal olunmuş ərazilərin qaytarılmasının zəruriliyi ön plana çəkilmişdir.

24 fevral - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xocalı soyqırımının ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciətində demişdir: "...1992-ci il fevralın 26-da xalqımız öz taleyinin ən ağır və acılı anlarından birini yaşadı. Həmin gün qədim Azərbaycan şəhəri Xocalı erməni hərbi birləşmələri tərəfindən yer üzündən silindi. Heç bir hərbi zərurət olmadan yüzlərlə dinc sakin tarixdə analoqu olmayan işgəncələrlə öldürüldü, meyitləri təhqir olundu. Uşaqlar, qadınlar, qocalar, bütöv ailələr məhv edildi. XX əsrin sonunda təkcə Azərbaycan xalqına qarşı deyil, bütün insanlığa qarşı ən ağır cinayətlərdən biri baş verdi. Xocalı faciəsi öz ağırlığına, vəhşiliyinə və amansızlığına görə bəşəriyyətə qarşı törədilmiş cinayətlər sırasında xüsusi yer tutur...Xocalı faciəsi təsadüfi hadisə deyildi. Bu, iki yüz ildən artıq müddətdə davakar erməni millətçilərinin Azərbaycan xalqına qarşı yürütdüyü soyqırımı və etnik təmizləmə siyasətinin tərkib hissəsi idi...Xocalı faciəsi öz qəddarlığına, kütləviliyinə və törədilən cinayətlərin ağırlığına görə bəşəriyyətə qarşı ağır cinayətlər sırasına daxil olmuşdur..."

25 fevral - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Avropa Şurası Parlament Assambleyasının Siyasi işlər komitəsinin üzvü, bu qurumun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə məruzəçisi T.Devisi qəbul etmişdir. Görüş zamanı Azərbaycan Prezidenti İlham Əliyev Ermənistanın hərbi təcavüzü faktlarını bir daha vurğulayaraq Avropa Şurasının bu məsələyə siyasi qiymət verməsinin vacibliyini bildirmişdir.

4-5 mart - Praqada ATƏT-in Minsk qrupu həmsədrlərinin Azərbaycan və Ermənistan Xarici işlər nazirləri ilə görüşü keçirilmişdir.

7-9 mart - Sofiyada Minsk qrupu həmsədrlərinin ATƏT-in fəaliyyətdə olan sədri S.Passi ilə görüşü keçirilmişdir.

14-17 mart - ATƏT-in fəaliyyətdə olan sədri S.Passinin Cənubi Qafqaza səfəri olmuşdur.

16 mart - ATƏT-in fəaliyyətdə olan sədri, Bolqarıstanın xarici işlər naziri S.Passinin Azərbaycana səfəri zamanı dövlət başçısı İlham Əliyevlə görüşündə Minsk qrupunun konkret təkliflərinin olmadığını və hər iki dövlətin prezidentlərinin dialoqundan çox şey gözlədiyini bəyan etdi. Bu dövrdə Minsk qrupu həmsədrləri də problemin məhz Azərbaycan və Ermənistan rəhbərlərinin qarşılıqlı anlaşması sayəsində həll oluna biləcəyini dəfələrlə vurğulamışlar. Onu da qeyd etmək vacibdir ki, münaqişə başlayandan həqiqətən qarşılıqlı anlaşma mövcud olsaydı, heç Minsk qrupunun fəaliyyətinə də ehtiyac duyulmazdı. Çünki Ermənistanın daim qeyri-konstruktiv mövqedən çıxış etməsi danışıqların nəticəsiz, münaqişənin isə həll olunmamış qalmasına gətirib çıxarmışdır.

17 mart - Azərbaycan Prezidenti İlham Əliyev Bratislavada "Daha geniş Avropaya doğru: yeni gündəlik" mövzusunda keçirilən beynəlxalq konfransda Ermənistanın işğalçılıq siyasətinin bütünlüklə Avropada, xüsusilə, Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin edilməsinə ciddi maneə olduğunu vurğulayaraq təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizdən çoxunun işğal olunduğunu, nəticədə bir milyondan artıq insanın acınacaqlı vəziyyətdə yaşadığını bildirməklə ölkəmizin prinsipial mövqeyini bəyan etmişdir.

17-21 mart - Bratislavada ATƏT-in Minsk qrupu həmsədrlərinin Azərbaycan və Ermənistan Xarici işlər nazirləri ilə qeyri-rəsmi görüşü zamanı ATƏT-in fəaliyyətdə olan sədri S.Passi də iştirak etmişdir.

22 mart - Azərbaycan Prezidenti İlham Əliyev Avropa İttifaqının Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması prosesində fəallığının artdığını və bu problemin həllinə böyük diqqət göstərdiyini və münaqişənin həlli ilə gələcəkdə də daha yaxından məşğul olacağına ümid etdiyini Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi H.Talvitiyenin Azərbaycana növbəti səfəri zamanı onun nəzərinə çatdırdı.

Mart - Avropa Parlamentinin sessiyasında "Avropa İttifaqının Cənubi Qafqaz siyasəti" mövzusunda Pyer Qartonun məruzəsi əsasında qəbul edilmiş qətnamədə ermənilərin işğal etdikləri ərazilərdə azərbaycanlılara qarşı etnik təmizləmə apardıqları göstərilmişdir.

8 aprel - Avropa Şurasının Baş katibi Valter Şvimmer Azərbaycana səfəri zamam Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınmasının vacibliyini qeyd edərək, bu problemin Avropada "dondurulmuş münaqişə" adlandırılmasının qəti əleyhinə olduğunu bildirmişdir. Eyni zamanda, Baş katib problemin yalnız Azərbaycan, Ermənistan və Cənubi Qafqaz regionunun deyil, bütün Avropanın problemi olduğunu və bu səbəbdən münaqişənin Avropa səviyyəsində, sülh yolu ilə birdəfəlik həll edilərək regionda daimi sülhün təmin edilməsinin zəruriliyini bəyan etmişdir.

16 aprel - Praqada ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirakı ilə Azərbaycan və Ermənistan Xarici işlər nazirlərinin görüşü keçirilmişdir.

28 aprel - Varşavada, Dünya iqtisadi forumu çərçivəsində, "Parkova" dövlət iqamətgahında Azərbaycan və Ermənistan prezidentləri arasında təkbətək görüş keçirilmişdir.

29 aprel - AŞ PA-nın növbəti yaz sessiyasında Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistanın ərazi iddiaları və hərbi təcavüzü haqqında ətraflı çıxışı böyük rezonansa səbəb oldu və Avropa ictimaiyyətində bu münaqişə haqqında geniş təsəvvür yaratdı. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın düşdüyü vəziyyət haqqında geniş məlumat verən dövlət başçısı özünün qətiyyətli və prinsipial mövqeyini bir daha nümayiş etdirdi: "...Əlbəttə ki, biz bu vəziyyətlə barışa bilmərik. Azərbaycan heç zaman ərazisinin itirilməsi ilə razılaşmayacaqdır. Məsələnin həllində beynəlxalq hüquq normaları əsas götürülməlidir. Azərbaycan dünyadakı bütün ölkələrin ərazi bütövlüyünə hörmətlə yanaşır və özünə də eyni münasibətlə yanaşmağı tələb edir. Bizim ərazi bütövlüyümüz bərpa olunmalıdır. Ermənistanın işğalçı qüvvələri zəbt olunmuş ərazilərdən geri çəkilməlidir. Qaçqınlara, köçkünlərə doğma yurdlarına qayıtmaq imkanı verilməlidir. XXI əsrdə Avropa Şurasının üzvü olan bir ölkənin – Ermənistanın Avropa Şurasının üzvü olan digər ölkənin – Azərbaycanın ərazilərini işğal etməsinə yol verməməliyik".

12 may - Avropa Parlamentinin Cənubi Qafqaz üzrə məruzəçisi P.Qarton Ermənistanda "Genişlənmiş Avropa – yeni qonşular" proqramı çərçivəsində keçirilən müzakirələrdə "Ermənistan işğal altında saxladığı ərazilərdən öz qoşunlarını tədricən çıxarmalıdır" deməklə Avropa İttifaqının

Cənubi Qafqaz regionunda münaqişənin tezliklə aradan qaldırılmasının tərəfdarı olduğunu bildirdi.

12-13 may - Strasburqda ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə Azərbaycan və Ermənistan Xarici işlər nazirlərinin görüşü keçirilmişdir.

14-15 may - Vyanada Minsk qrupu həmsədrlərinin Minsk qrupunun iştirakçıları və ATƏT-in fəaliyyətdə olan sədri üçün brifinqi keçirilmişdir.

14-16 iyun - Türkiyənin İstanbul şəhərində keçirilmiş İKT üzvü olan ölkələrin Xarici işlər nazirlərinin XXXI konfransı Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı qətnamə qəbul etmişdir.

Qəbul edilən sənəddə üzv dövlətlər bir daha erməni təcavüzünü qətiyyətlə pisləmiş, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb etmişlər.

21 iyun - Praqada ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə Azərbaycan və Ermənistan Xarici işlər nazirlərinin görüşü keçirilmişdir.

26-27 iyun - İstanbul zirvə görüşü çərçivəsində NATO-nun "Avroatlantika İttifaqı yol ayrıcında" mövzusunda keçirdiyi beynəlxalq konfransda Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində beynəlxalq qurumların roluna toxunaraq qeyd etmişdir: "Biz istərdik ki, yalnız ATƏT deyil, Avropa Birliyi, Avropa Şurası, digər beynəlxalq təşkilatlar da məsələnin həllində fəal rol oynasınlar. Əlbəttə ATƏT-in Minsk qrupunun məsələni həll etmək üçün mandatı vardır və biz bu mandata hörmətlə yanaşırıq. Amma düşünürəm ki, daha geniş beynəlxalq ictimaiyyətin bu yönümdə fəal rol oynamasının vaxtı çatmışdır".

28-29 iyun - İstanbulda Türkiyənin Xarici işlər naziri Abdullah Gülün iştirakı ilə Azərbaycan və Ermənistan Xarici işlər nazirlərinin görüşü keçirilmişdir.

7-9 iyul - Moskvada ATƏT-in Minsk qrupu həmsədrlərinin regiona səfəri ərəfəsində məsləhətləşmələri keçirilmişdir.

11-17 iyul - ATƏT-in Minsk qrupu həmsədrlərinin Bakı, Yerevan və Xankəndinə səfərləri olmuşdur.

16 iyul - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması

üzrə ATƏT-in Minsk qrupunun ABŞ, Rusiya və Fransadan olan həmsədrləri S.Mənni, Y.Merzlyakovu və A.Jakoleni qəbul etmişdir.

3-12 avqust - Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində Ermənistan silahlı qüvvələri tərəfindən hərbi təlimlər keçirilmişdir.

30 avqust - Praqada ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə Azərbaycan və Ermənistan Xarici işlər nazirlərinin görüşü keçirilmişdir.

15-17 sentyabr - Astanada MDB-nin sammiti çərçivəsində Azərbaycan və Ermənistan prezidentlərinin Rusiya prezidentinin iştirakı ilə görüşü keçirilmişdir. Astanada üçtərəfli görüş başa çatdıqdan sonra Azərbaycan və Ermənistan prezidentlərinin yenidən ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə görüşü keçirilmişdir.

24 sentyabr - BMT Baş Məclisinin 59-cu sessiyasında çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibətdə Təhlükəsizlik Şurasının problemin həllinə biganəliyini qeyd edərək beynəlxalq qurumun bir çox hallarda bu münaqişəyə qeyri-konstruktiv münasibətinin problemin aradan qaldırılmasına, sülhün əldə olunmasına deyil, əksinə, Ermənistanın Azərbaycana qarşı növbəti ərazi iddiaları irəli sürməsinə, ümumilikdə bölgədə vəziyyətin daha da gərginləşməsinə zəmin yaratdığını diqqətə çatdırmışdır.

Azərbaycan Prezidenti İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamənin hələ də yerinə yetirilmədiyini bəyan etmiş və onların həyata keçirilməsinin işlək mexanizminin yaradılmasını vacib məsələ kimi irəli sürmüşdür. Azərbaycan Respublikası BMT mexanizmlərinin yenidən işlənməsini, xüsusilə də Təhlükəsizlik Şurasının daimi üzvlərinin veto hüququna yenidən baxılmasını təklif etmişdir.

Belə ki, Azərbaycan beynəlxalq aləmdə BMT-nin rolunun artırılması və mövcud problemlərin həllində daha təsirli tədbirlərin görülməsinə nail olmaq üçün əlavə addımların atılması zərurətini bildirməklə yanaşı, Azərbaycanın Prezidenti İlham Əliyev qeyd etmişdir ki, təkmilləşdirilmiş Təhlükəsizlik Şurası daha geniş tərkibli, daha çox

məsuliyyətli və demokratik, onun iş metodları daha şəffaf olmalı, XXI əsrin yeni təhdidləri, riskləri və təhlükələrinə daha operativ cavab verməlidir.

Eyni zamanda, dövlət başçısı Azərbaycan xalqının öz torpaqlarının işğalı, ərazi bütövlüyünün pozulması və etnik təmizlənmənin nəticələri ilə heç zaman barışmayacağını bildirmişdir.

14 oktyabr - "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı əlavə maddənin BMT Baş Məclisinin 59-cu iclasının gündəliyinə daxil edilməsi barədə Azərbaycan tərəfi müraciət etmişdir.

19-22 oktyabr - Sofiyada Minsk qrupu həmsədrlərinin ATƏT-in fəaliyyətdə olan sədri S.Passi ilə görüşü keçirilmişdir.

29 oktyabr - BMT-nin Baş Məclisinin sessiyasında Azərbaycan nümayəndə heyətinin təşəbbüsü ilə "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı əlavə maddəni iclasın gündəliyinə daxil etməyi qərara alınmışdır. Qərar qəbul edilərkən 43 dövlət lehinə, 1 dövlət (Ermənistan) əleyhinə səs vermiş, 99 dövlət bitərəf qalmışdır.

2-5 noyabr - Vyanada Minsk qrupu həmsədrlərinin ATƏT-in Daimi Şurasına hesabatı dinlənilmişdir.

19 noyabr - Berlində Azərbaycan və Ermənistan Xarici işlər nazirlərinin Minsk qrupu həmsədrlərinin iştirakı ilə görüşü keçirilmişdir.

23-29 noyabr - Nyu-Yorkda ATƏT-in Minsk qrupu həmsədrlərinin Azərbaycan Xarici işlər naziri ilə Azərbaycanın BMT-nin Baş Assambleyasının 59-cu sessiyasının gündəliyinə çıxardığı işğal olunmuş ərazilərin ermənilər tərəfindən məskunlaşdırılması məsələsi ilə bağlı məsləhətləşmələri keçirilmişdir.

6-7 dekabr - ATƏT-in Nazirlər Şurasının Sofiyada keçirilən iclasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair qəbul edilən bəyanatda Azərbaycan və Ermənistan prezidentlərinin Minsk qrupunun həmsədrlərinin himayəsi altında baş tutmuş 3 görüşü dəstəklənirdi. ATƏT-in Minsk qrupu həmsədrlərinin "Praqa prosesi"nin nəticələrinə dair sentyabr ayında Astanada hər iki dövlətin prezidentlərinə təqdim edilmiş çərçivə sənədi münaqişənin nizamlanmasının əsası kimi qeyd olundu.

9 dekabr - Brüsseldə NATO-nun sammiti çərçivəsində Azərbaycan və Ermənistan Xarici işlər nazirlərinin ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə görüşü keçirilmişdir.

15-18 dekabr - Vyanada həmsədrlərin ATƏT-in Minsk qrupu üzvləri üçün brifinqi keçirilmişdir.

2005

1 yanvar - Sloveniya (Xarici işlər naziri D.Rupel) Bolqarıstanı ATƏT-in fəaliyyətdə olan sədri qismində əvəz etdi.

3 yanvar - Azərbaycan Prezidenti İlham Əliyev Bakıda BMT Təhlükəsizlik Şurasının iclasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılması sahəsində artıq proseslərin əlverişli istiqamətdə getməsinə nail olunduğunu və bu problemin "Praqa prosesi" əsasında həllində yeni mərhələlərin başlandığını bəyan etmişdir.

12 yanvar - Praqada Azərbaycan və Ermənistan Xarici işlər nazirlərinin Minsk qrupu həmsədrlərinin iştirakı ilə görüşü keçirilmişdir.

25 yanvar - Devid Atkinsonun hazırladığı və Avropa Şurası Parlament Assambleyasında müzakirəyə çıxarılan "ATƏT-in Minsk Konfransının məşğul olduğu Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə" adlı məruzəsi qətnamə və tövsiyə adlanan iki hissədən ibarət idi.

AŞPA-da "ATƏT-in Minsk Konfransının məşğul olduğu Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə" adlı məruzənin 1416 saylı Qətnamə hissəsində Azərbaycan ərazisinin böyük bir hissəsinin Ermənistan qoşunlarının işğalı altında olduğu, eləcə də Dağlıq Qarabağ regionuna hələ də separatçı qüvvələrin nəzarət etdiyi göstərilirdi. Bununla yanaşı, sənəddə qeyd edilirdi ki, Avropa Şurasının üzvü olan bir ölkənin başqa ölkənin ərazilərini işğal altında saxlaması həmin ölkənin öz üzərinə götürdüyü öhdəliklərə açıq-aşkar ziddir və Assambleya öz yerlərindən qaçqın düşmüş insanların geri qaytarılması hüququnu bir daha təsdiqləyirdi. Eyni zamanda, Assambleya BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə əməl etməyə, eləcə də erməni silahlı qüvvələrinin bütün işğal olunmuş Azərbaycan ərazilərinə çıxarılmasına çağırırdı. Bu tələblər AŞPA-nın 1690 saylı tövsiyəsində də öz əksini tapmışdır.

AŞPA-da qəbul olunan bu qətnamənin yerinə yetirilməsinə nəzarət etmək üçün Dağlıq Qarabağ üzrə Alt komitə yaradıldı və Böyük Britaniyadan olan deputat Lord R.Conson bu komitənin ilk rəhbəri seçildi.

28 yanvar - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "İşğal olunmuş ərazilərdə məskunlaşdırma üzrə ATƏT-in Minsk qrupunun faktaraşdırıcı missiyası"nın üzvlərindən və onları müşaiyət edən şəxslərdən ibarət nümayəndə heyətini qəbul etmişdir.

Prezident İlham Əliyev yeni faktaraşdırıcı missiyanın səfərinin səmərəli olacağına ümidvar olduğunu bildirmişdir. Azərbaycan Prezidenti hazırkı mərhələdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı Xarici işlər nazirlərinin birbaşa cəlb olunduğu yeni danışıqlar formatının əhəmiyyətini vurğulamışdır. Prezident İlham Əliyev Azərbaycanın mövqeyinin dəyişməz qaldığını, bu mövqeyin yalnız və yalnız beynəlxalq hüquq normaları və prinsiplərinə – ölkələrin ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsiplərinə əsaslandığını bir daha bəyan etmişdir.

31 yanvar - 6 fevral - Minsk qrupunun mandatı ilə ATƏT-in faktaraşdırıcı missiyası ermənilərin məskunlaşmaları ilə bağlı məsələni aydınlaşdırmaq üçün Azərbaycan Respublikasının Dağlıq Qarabağ ətrafı 7 rayonuna səfər etdi. Eyni zamanda, ATƏT-in Minsk qrupunun həmsədrləri də Dağlıq Qarabağa səfər etdilər.

24 fevral - Şuşa şəhəri ərazisində guya erməni izi tapmaq (daha doğrusu qoymaq) adı ilə arxeoloji qazıntı işləri aparmaq xəbərinə görə Dağlıq Qarabağın azərbaycanlı icması ATƏT-in Bakı ofisinin rəhbərinə etiraz müraciəti ünvanladı.

Fevral - Türkiyə Böyük Millət Məclisinin xüsusi iclaslarında Xocalı soyqırımı ilə bağlı məsələ geniş müzakirə olunmuşdur.

1-2 mart - Praqada ATƏT-in Minsk qrupu həmsədrlərinin Azərbaycan Xarici işlər naziri ilə görüşü keçirilmişdir.

15 aprel - Londonda Azərbaycan və Ermənistan Xarici işlər nazirlərinin Minsk qrupu həmsədrlərinin iştirakı ilə görüşü keçirilmişdir.

28 aprel - Frankfurtda ATƏT-in Minsk qrupu həmsədrlərinin Azərbaycan Xarici işlər naziri ilə görüşü keçirilmişdir.

14 may - Krakovda ATƏT-in Minsk qrupu həmsədrlərinin Ermənistan Xarici işlər naziri ilə görüşü keçirilmişdir.

15 may - Varşavada Avropa Şurasının sammiti çərçivəsində Azərbaycan və Ermənistan prezidentlərinin hər iki dövlətin Xarici işlər nazirləri və Minsk qrupu həmsədrlərinin iştirakı ilə görüşü keçirilmişdir. Görüşdə Rusiya, Fransa Xarici işlər nazirləri və ABŞ Dövlət Departamentinin nümayəndələri də iştirak etmişlər.

16-17 may - Avropa Şurasının üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Varşavada keçirilən III Zirvə toplantısında iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev öz çıxışında təşkilata üzv ölkələrin təhlükəsizliyi sahəsində mühüm işlərin görülməsinin vacibliyini bildirərək Ermənistanın hərbi təcavüzünün ağır nəticələrini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı. Cənubi Qafqazın Avropanın ayrılmaz hissəsi olduğunu vurğulayan dövlət başçısı İlham Əliyev bu regionda sülhün və təhlükəsizliyin bərqərar olması və əməkdaşlığın inkişafı üçün bütün səylərin birləşdirilməsinin zəruriliyini bildirərək qeyd etdi ki, bu, azad, vahid və təhlükəsiz Avropanın yaradılmasına mühüm töhfə olardı.

Azərbaycan Prezidenti İlham Əliyev öz çıxışında əsas diqqəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə yönəltməklə problemin beynəlxalq hüquq norma və prinsiplərinə əsasən həllinə nail olunması üçün səlahiyyətli olan ATƏT-in Minsk qrupu, Avropa Şurası və Avropa İttifaqının bu cür vacib məsələyə daha böyük diqqət yetirmələrini nəzərə çatdırmışdır.

25-27 may - ATƏT-in Minsk qrupu həmsədrlərinin Bakıya səfəri olmuşdur.

8 iyun - Vyanada ATƏT-in Minsk qrupu həmsədrlərinin Ermənistan Xarici işlər naziri ilə görüşü keçirilmişdir.

17 iyun - Parisdə ATƏT-in Minsk qrupu həmsədrlərinin Azərbaycan və Ermənistan Xarici işlər nazirləri ilə görüşü keçirilmişdir.

28-30 iyun - Yəmənin Səna şəhərində keçirilmiş İslam Konfransı Təşkilatının Xarici işlər nazirlərinin XXXII konfransı Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı qətnamə qəbul etmişdir.

Qəbul edilən sənəddə üzv dövlətlər bir daha erməni təcavüzünü qətiyyətlə pisləmiş, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb etmişlər.

12-15 iyul - ATƏT-in Minsk qrupu həmsədrlərinin Bakı və Yerevana səfərləri zamanı Azərbaycan və Ermənistan Respublikalarının prezidentləri və Xarici işlər nazirləri ilə görüşləri keçirilmişdir.

24 avqust - Moskvada ATƏT-in Minsk qrupu həmsədrlərinin Azərbaycan və Ermənistan Xarici işlər nazirləri ilə prezidentlərin Kazan danışıqlarına hazırlıq görüşü keçirilmişdir.

27 avqust - Kazanda Azərbaycan və Ermənistan prezidentlərinin MDB sammiti çərçivəsində ATƏT-in Minsk qrupu həmsədrlərinin və hər iki dövlətin Xarici işlər nazirlərinin iştirakı ilə görüşü keçirilmişdir.

5 sentyabr - Azərbaycan Prezidenti İlham Əliyev Bakıda ATƏT-in fəaliyyətdə olan sədri, Sloveniya Xarici işlər naziri D.Rupeli və nümayəndə heyətini qəbul etmiş, görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar, münaqişənin nizama salınması perspektivləri müzakirə olunmuşdur.

17-18 sentyabr - Nyu-Yorkda ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri Azərbaycan və Ermənistan Xarici işlər nazirləri ilə görüş keçirmişdir.

5-6 dekabr - ATƏT-in Nazirlər Şurasının Lyublyanada qəbul edilmiş bəyanatında 2005-ci il ərzində "Praqa prosesi" çərçivəsində Dağlıq Qarabağ münaqişəsinə dair danışıqlarda, xüsusilə ATƏT-in Minsk qrupu həmsədrlərinin himayəsi altında Azərbaycan və Ermənistan prezidentlərinin Varşava və Kazan görüşlərində əldə olunmuş tərəqqiyə razılıq ifadə olunur və hər iki ölkənin prezidentinə yaranmış imkanlardan münaqişənin nizama salınması üçün istifadə etmək tövsiyə olunurdu.

16 dekabr - Azərbaycanda səfərdə olan ATƏT-in Minsk qrupunun amerikalı, rusiyalı və fransalı həmsədrləri – səfirlər S.Mənn, Y.Merzlyakov və B.Fasye mətbuat konfransı keçirmişlər.

Səfərin yekununa dair bəyanatla çıxış edən həmsədrlər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində ətraflı müzakirələr aparıldığını və "Praqa prosesi" çərçivəsində danışıqların düzgün istiqamətdə davam etdiyini bildirərək bunun onların Lyublyanada

ATƏT-in Nazirlər Şurasının iclası zamanı Azərbaycan və Ermənistan Xarici işlər nazirləri ilə keçirdikləri görüşün davamı olduğunu bildirmişlər.

2006

1 yanvar - Belçika (Xarici işlər naziri K.Qüxt) Sloveniyanı ATƏT-in fəaliyyətdə olan sədri qismində əvəz etmişdir.

9 yanvar - Avropa Şurası Parlament Assambleyasının Dağlıq Qarabağ problemi üzrə Alt komitəsinin Strasburqda keçirilən növbəti iclasında Lord Rassel Consonun hazırladığı yeni hesabatda Azərbaycan ərazilərinin işğalı, Dağlıq Qarabağdakı rejimin separatçı olması, bir milyon azərbaycanlının yurdundan didərgin düşməsi və s. faktlar öz əksini tapdı.

Bu komitənin yaradılmasına Ermənistan tərəfi öz etirazını bildirsə də, komitəyə sədrlik edən Lord R.Consonun dövründə Ermənistanın Azərbaycana qarşı təcavüzü və Dağlıq Qarabağ məsələsi daim diqqətdə saxlanılmış, işğal olunmuş ərazilərdəki real vəziyyətlə bağlı mütəmadi olaraq hesabatlar hazırlanaraq Assambleya üzvlərinin diqqətinə çatdırılmışdır. Lord R.Consonun 2009-cu ilin yayında vəfatından sonra Alt komitə fəaliyyətini faktiki olaraq dayandırmışdır.

17-19 yanvar - Londonda ATƏT-in Minsk qrupu həmsədrlərinin və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin öz aralarında məsləhətləşmələri, eləcə də Azərbaycan və Ermənistan Xarici işlər nazirləri ilə görüşləri keçirilmişdir.

20-23 yanvar - Brüsseldə ATƏT-in Minsk qrupu həmsədrlərinin ATƏT-in fəaliyyətdə olan sədri K.Qüxtlə görüşü keçirilmişdir.

1 fevral - Bakıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqlar prosesinin hazırkı vəziyyəti, perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

31 yanvar - 3 fevral - ATƏT-in Minsk qrupu həmsədrlərinin Bakı və Yerevana səfərləri zamanı Azərbaycan və Ermənistan prezidentləri və Xarici işlər nazirləri ilə görüşləri keçirilmişdir.

10-11 fevral - Paris yaxınlığındakı Rambuye sarayında Azərbaycan və Ermənistan prezidentlərinin ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə görüşü olmuşdur. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair müzakirələr aparılmış, sonra yenidən Azərbaycan və Ermənistan prezidentləri arasında təkbətək görüş keçirilmişdir.

23 fevral - Türkiyə Böyük Millət Məclisinin xüsusi iclaslarmda Xocalı soyqırımı ilə bağlı məsələ geniş müzakirə olunmuşdur.

7-8 mart - Vaşinqtonda ATƏT-in Minsk qrupu həmsədrlərinin məsləhətləşmələri keçirilmişdir.

20 mart - İstanbulda ATƏT-in Minsk qrupu həmsədrlərinin məsləhətləşmələri keçirilmişdir.

20 mart - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi üzrə vasitəçilik missiyasını həyata keçirən ATƏT-in Minsk qrupunun həmsədrləri S.Mənn (ABŞ), B.Fasye (Fransa) və Y.Merzlyakov (Rusiya) İstanbulda növbəti məsləhətləşmələr keçirmişlər. Mətbuat üçün qapalı keçən görüşdə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi A.Kaspşik də iştirak etmişdir. Həmsədrlərin Azərbaycan və Ermənistan prezidentlərinin fevralda Fransada keçirilmiş görüşünün nəticələri və münaqişənin sülh yolu ilə nizama salınması istiqamətində atılacaq növbəti addımlara dair fikir mübadiləsi aparılmışdır.

24-25 mart - Rusiyanın təşəbbüsü ilə ATƏT-in Minsk qrupu həmsədri olan ölkələrin Xarici işlər nazirlərinin müavinləri səviyyəsində xüsusi missiyasının və Minsk qrupu həmsədrlərinin Bakı və Yerevana səfəri olmuşdur.

21 aprel - Bakıda Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun amerikalı həmsədri, səfir S.Mənni qəbul etmiş və görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair aparılan danışıqlar prosesinin hazırkı vəziyyətinə dair fikir mübadiləsi aparılmışdır.

2 may - Rusiya Xarici İşlər Nazirliyində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə dair məsləhətləşmələr keçirilmişdir. Məsləhətləşmələrdə Rusiya Xarici işlər nazirinin müavini Q.Karasin ATƏT-in Minsk qrupunun həmsədrləri S.Mənn (ABŞ), B.Fasye

(Fransa), Y.Merzlyakov (Rusiya), habelə ATƏT-in fəaliyyətdə olan sədrinin Dağlıq Qarabağ münaqişəsi üzrə şəxsi nümayəndəsi A.Kaspşik (Polşa) ilə danışıqlar aparmış, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair gündəlikdə duran məsələlər müzakirə edilmişdir.

24 may - ATƏT-in Minsk qrupunun həmsədrləri qrupun üzvü olan dövlətlərin nümayəndələri ilə birgə bəyanat vermişlər. Sənəddə deyilirdi: "Biz, Rusiya Federasiyasının, Amerika Birləşmiş Ştatlarının və Fransanın xarici siyasət idarələri başçılarının müavinləri, ATƏT-in Minsk qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Bakıya birgə diplomatik missiya ilə gəlmişik. Səfərdə məqsəd Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dincliklə nizama salınmasına kömək etməkdir, çünki hər iki tərəfin nizamasalmanın əsas prinsipləri barədə razılığa gəlməsinin vaxtı çatmışdır".

5 iyun - Buxarestdə Azərbaycan və Ermənistan prezidentlərinin görüşü keçirilmişdir.

14 iyun - Parisdə Azərbaycan və Ermənistan Xarici işlər nazirlərinin Minsk qrupu həmsədrlərinin iştirakı ilə görüşü keçirilmişdir.

19-21 iyun - İslam Konfransı Təşkilatı Xarici işlər nazirlərinin Bakı şəhərində keçirilən XXXIII konfransı Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı qətnamə qəbul etmişdir.

Qəbul edilən sənəddə üzv dövlətlər bir daha erməni təcavüzünü qətiyyətlə pisləmiş, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb etmişlər.

22-23 iyun - Vyanada ATƏT-in Minsk qrupu həmsədrlərinin ATƏT-in Daimi Şurasına hesabatı dinlənilmişdir. Eyni zamanda, həmsədrlərin ATƏT-in Minsk qrupunun iştirakçıları üçün brifinqi keçirilmiş, ATƏT-in Daimi Şurasının sədri və ATƏT-in Baş Katibi ilə görüşləri olmuşdur.

30 iyun - Moskvada ATƏT-in Minsk qrupu həmsədrlərinin məsləhətləşmələri olmuşdur.

17 iyul - "Səkkizlər qrupu" sədrinin Dağhq Qarabağla bağlı bəyanatında deyilirdi: "Görüşdə Dağlıq Qarabağla əlaqədar vəziyyət haqqında məsələ qaldırıldı. Biz təsdiq etdik ki, "Səkkizlər qrupu" ATƏT-in Minsk qrupu həmsədrlərinin vasitəçilik səylərini dəstəkləyir və münaqişəni

artıq 2006-cı ildə dinclikla nizama salmağın əsas prinsiplərinin tezliklə razılaşdırılmasının zəruri olduğunu vurğulayır". Bununla yanaşı, sənəddə bildirilirdi: "Biz Azərbaycanı və Ermənistanı siyasi iradə göstərməyə və razılaşma əldə etməyə, öz xalqlarını müharibəyə deyil, sülhə hazırlamağa çağırırıq".

4 avqust - Nyu-Yorkda Azərbaycan Respublikası 2004-cü ildən artıq üçüncü dəfə Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyətlə bağlı məsələni BMT Baş Assambleyasının gündəliyinə çıxarmışdır.

7 sentyabr - BMT Baş Məclisinin 60-cı sessiyasının 98-ci plenar iclaslarında "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnamə qəbul edilmişdir. Beş maddədən ibarət qətnamədə BMT-nin Baş Məclisi Azərbaycanın işğal edilmiş ərazilərində baş verən yanğınlardan və onun vurduğu böyük ekoloji ziyandan ciddi narahatlığını bildirmişdir.

Sənəddə yanğınların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üçün təcili ekoloji əməliyyatın keçirilməsinin zəruriliyi vurğulanmış, tərəflərin bu məqsədlə əməkdaşlıq etməyə hazır olması bəyənilmiş, bu əməkdaşlıq qarşılıqlı etimad yaradan vacib tədbir kimi qiymətləndirilmiş, ekoloji əməliyyata hazırlıq kimi ətraf mühitə dəyən qısa və uzunmüddətli ziyanın müəyyənləşdirilməsi üçün bölgəyə BMT-nin Ətraf Mühit Proqramının mütəxəssislərinin iştirakı ilə ATƏT-in missiyasının göndəriləcəyi vurğulanmış, BMT-nin bütün müvafiq təsisatları yanan ərazilərin bərpasına yardım göstərməyə çağırılmış, ATƏT-in fəaliyyətdə olan sədrindən məsələ ilə bağlı Baş Məclisin üzv dövlətlərinə 2007-ci il aprelin 30-dan gec olmayaraq hesabat təqdim etməsi xahiş olunmuşdur.

12 sentyabr - Parisdə ATƏT-in Minsk qrupu həmsədrlərinin Ermənistan Xarici işlər naziri ilə görüşü keçirilmişdir.

13 sentyabr - Londonda ATƏT-in Minsk qrupu həmsədrlərinin Azərbaycan Xarici işlər naziri ilə görüşü keçirilmişdir.

24-26 sentyabr - Nyu-Yorkda ATƏT-in Minsk qrupu həmsədrlərinin Azərbaycan və Ermənistan Xarici işlər nazirləri ilə görüşləri keçirilmişdir.

2 oktyabr - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması

ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.

6 oktyabr - AŞPA-nın payız sessiyasının gedişində Dağlıq Qarabağ üzrə alt komitənin iclası keçirilmişdir.

6 oktyabr - Moskvada ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə Azərbaycan və Ermənistanın Xarici işlər nazirləri səviyyəsində münaqişənin sülh yolu ilə həlli yollarının axtarışına dair danışıqların növbəti mərhələsi başa çatmışdır.

6 oktyabr - Moskvada Rusiya Xarici işlər nazirinin Azərbaycan və Ermənistan Xarici işlər nazirləri ilə ayrı-ayrılıqda görüşləri keçirilmişdir.

24 oktyabr - Parisdə Azərbaycan və Ermənistan Xarici işlər nazirlərinin Minsk qrupu həmsədrlərinin iştirakı ilə görüşü keçirilmişdir.

25 oktyabr - Brüsseldə Minsk qrupu həmsədrlərinin ATƏT-in fəaliyyətdə olan sədri K.Qüxtla görüşü keçirilmişdir.

16 noyabr - Vyanada ATƏT-in Minsk qrupu həmsədrlərinin ATƏT-in Daimi Şurasına hesabatı dinlənilmişdir.

20-24 noyabr - ATƏT-in Minsk qrupu həmsədrlərinin Bakı və Yerevana səfərləri zamanı Azərbaycan və Ermənistan prezidentləri ilə görüşləri keçirilmişdir.

28 noyabr - Minskdə Azərbaycan və Ermənistan prezidentlərinin görüşü keçirilmişdir.

28-29 noyabr - NATO üzvü olan 26 ölkənin dövlət və hökumət başçılarının iştirakı ilə Riqada keçirilən Zirvə toplantısının yekunu olaraq qəbul olunmuş 46 bənddən ibarət kommünikenin 43-cü bəndində alyans üzvü olan ölkələrin Cənubi Qafqazdakı münaqişələrin hələ də həll edilməməsindən narahatlığı əks olunmuşdur. NATO-nun Zirvə toplantısının yekun bəyannaməsində Azərbaycanın ərazi bütövlüyü və suverenliyi dəstəklənmiş və münaqişələrin sülh yolu ilə həll edilməsinə nail olmaq məqsədilə davam edən səylər müsbət qiymətləndirilmişdir.

4-5 dekabr - ATƏT-in Nazirlər Şurasının Brüsseldə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar qəbul etdiyi bəyanatda 2006-cı il ərzində aparılmış danışıqlar nəticəsində tərəflərin əsas prinsiplər üzrə razılığa gəlmələri üçün daha da yaxınlaşması qeyd olundu. Bununla yanaşı, qəbul edilən sənəddə Azərbaycan və Ermənistan

prezidentləri 2007-ci ildə baza prinsiplərini razılaşdırmaq üçün səyləri gücləndirməyə çağırıldılar. Bundan əlavə, Brüsseldə ATƏT-in Minsk qrupu həmsədrlərinin Azərbaycan və Ermənistan Xarici işlər nazirləri ilə görüşləri də keçirilmişdir.

11 dekabr - ATƏT-in Minsk qrupunun həmsədrləri Dağlıq Qarabağda keçirilmiş "referendumla" bağlı bəyanat yaymışlar. Bəyanatda deyilir: "ATƏT-in Minsk qrupunun həmsədrləri bildirirlər ki, Dağlıq Qarabağ rəhbərliyi beynəlxalq ictimaiyyətin heç bir üzvünün, o cümlədən həmsədr ölkələrin müstəqil dövlət kimi tanımadığı "Dağlıq Qarabağ" adlı bir "respublika"nın dekabrın 10-da "konstitusiya" referendumunu keçirmişdir. Həmsədrlər inanmırlar ki, belə bir "referendum" Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar prosesinə xidmət edəcəkdir. Dağlıq Qarabağın hər hansı gələcək hüquqi statusu heç bir hədə olmadan, yaxud zor işlədilmədən, həm də bütün tərəflərin iştirakı ilə yalnız Minsk qrupu çərçivəsində və yalnız siyasi danışıqların nəticəsi kimi müəyyən edilməlidir".

12-16 dekabr - Madriddə ATƏT-in gələcək fəaliyyətdə olan sədri İspaniya Xarici işlər naziri M.Moratinosla və İspaniya Xarici İşlər Nazirliyi əməkdaşları ilə görüş keçirilmişdir.

2007

1 yanvar - İspaniya (Xarici işlər naziri M.Moratinos) Belçikanı ATƏT-in fəaliyyətdə olan sədri qismində əvəz etdi.

23 yanvar - Moskvada ATƏT-in Minsk qrupu həmsədrlərinin Azərbaycan və Ermənistan Xarici işlər nazirləri ilə məsləhətləşmələri keçirilmişdir. Rusiya Xarici işlər nazirinin Azərbaycan və Ermənistan Xarici işlər nazirləri ilə, Rusiya Xarici işlər nazirinin stats-katibi Q.Karasinin iştirakı ilə görüşü keçirilmişdir. Rusiya Xarici işlər nazirinin ATƏT-in Minsk qrupu həmsədrləri ilə görüşü də olmuşdur.

24 yanvar - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması

ilə bağlı danışıqların hazırki vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.

24-26 yanvar - ATƏT-in Minsk qrupu həmsədrlərinin Bakı, Yerevan və Xankəndinə səfərləri olmuşdur.

29 yanvar - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədrləri Y.Merzlyakov (Rusiya), B.Fasye (Fransa) və M.Brayza (ABŞ) bəyanat vermişlər. Bəyanatda deyilir ki, həmsədrlər münaqişənin həlli istiqamətində aparılan son danışıqlarda Ermənistan və Azərbaycan rəhbərlərinin nümayiş etdirdikləri konstruktiv yanaşmadan razılıqlarını bildirirlər. Həmsədrlər qeyd edirlər ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün əsas prinsiplər toplusunun tamamlanmasında Ermənistan və Azərbaycan rəhbərlərinin göstərdikəri konstruktivlik onları ruhlandırır.

14 fevral - Parisdə ATƏT-in Minsk qrupu həmsədrlərinin Ermənistan Xarici işlər naziri ilə məsləhətləşmələri keçirilmişdir.

15 fevral - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniyanın Konrad Adenauer Fondu tərəfindən təşkil olunmuş "Azərbaycan XXI əsrdə – inkişaf və perspektivlər" mövzusunda müzakirələr zamanı qeyd etmişdir ki, Dağlıq Qarabağ müstəqil ola, yaxud Ermənistana birləşə bilməz, Azərbaycanın əraziləri Ermənistanın işğalından azad edilməli və bizim qaçqınlarımız, məcburi köçkünlərimiz eyni zamanda, Dağlıq Qarabağdan olan, xüsusən də qədim Azərbaycan şəhəri Şuşadan olan məcburi köçkünlər öz torpaqlarına qayıtmalıdırlar. Bununla yanaşı, dövlət başçısı demişdir: "Ermənilər artıq öz müqəddəratını təyin ediblər. İndi isə onlar calışırlar ki, bu iki prinsipi – ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə prinsiplərini bir-biri ilə ziddiyyətə gətirsinlər. Erməni xalqı öz müqəddəratını artıq təyin edibdir, Ermənistan dövləti var. Əgər bu baxımdan, bu məntiqdən yanaşsaq, yəni onların məntiqini götürsək, onda dünyada nə qədər erməni dövlətləri yaranmalıdır? Çünki onlar bir çox ölkələrdə yaşayırlar. Əgər Dağlıq Qarabağda digər erməni dövləti yaratsalar, onda sabah onlar istəyəcəklər ki, Gürcüstanda da belə bir dövlət yaransın. Hətta deyim ki, Dağlıq Qarabağda yaşayan ermənilərin sayı Gürcüstanda yaşayan ermənilərin sayından 4 dəfə azdır. Eyni zamanda, beynəlxalq sülhyaratma əməliyyatları olmalıdır və biz buna razıyıq. Dağlıq Qarabağın

gələcək statusu məsələsi iki tərəf arasında müzakirə olunacaq və Dağlıq Qarabağa dünyada mövcud olan, yaxud mövcud olmayan, biz bu haqda düşünməliyik, muxtariyyət statusu verilə bilər. Bizim təklif etdiyimiz mövqe konstruktivdir və maksimumdur. Bu, ATƏT-in Minsk qrupu tərəfindən dəstəklənir, onlar bu məsələ ilə məşğul olur və bu, regiona sülh gətirə bilər".

15 fevral - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Almaniyanın "Deutsche Welle" teleradio kanalına müsahibəsində bildirmişdir ki, Dağlıq Qarabağ Azərbaycanın ərazisidir, eləcə də Azərbaycanın ərazi bütövlüyü BMT və bütün beynəlxalq birlik tərəfindən tanınmışdır. Buna görə də münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, Dağlıq Qarabağa yüksək özünüidarə və muxtariyyət verilməklə həll olunmalıdır. Eyni zamanda, bunun yeni və ya fövqəladə bir şey olmadığını, belə halların dünyanın başqa bölgələrində də baş verdiyini, eləcə də bir çox ölkələrdə milli azlıqların yaşadığını, yalmz Ermənistanda milli azlıq yaşamadığını və monodövlət olduğunu bildirən dövlət başçısı demişdir: "Lakin bütün digər ölkələrdə milli azlıqlar var. Ancaq milli azlıq olmaq o demək deyil ki, sənin hansısa ərazini ölkədən ayırmaq hüququn var. Təsəvvür edin ki, ermənilər yaşadıqları dünyanın bütün ölkələrində öz müqəddəratlarını təyin etməyə çalışsalar, nə baş verər?! Neçə yeni erməni dövləti yaranacaq?! Nə üçün onlar öz müqəddəratlarını Azərbaycanda təyin etməlidirlər?! Onların artıq Ermənistan dövləti var. Ermənilər artıq öz müqəddəratını təyin etmişlər. İndi onlar bizim ərazimizdə, tarixi torpaqlarımızda başqa bir dövlət yaratmaq istəyirlər. Sabah onlar başqa ölkələrin ərazilərində də dövlət yaratmaq istəyəcəklər. Bu, qəbulolunmazdır"!

Bununla yanaşı, Azərbaycan Prezidenti ərazi bütövlüyü prinsipinin belə münaqişələr həll olunan zaman əsas prinsip kimi götürülməli olduğunu və əgər bu prinsip pozularsa, zəncirvari reaksiyanın baş verəcəyini bildirərək, müxtəlif ölkələrdə, Avropada, Asiyada, digər yerlərdə çoxlu milli azhqlar yaşadığını diqqətə çatdırmaqla demişdir: "Əgər onlar hamısı müstəqil dövlət yaratmağa başlasalar, nə baş verəcək?! Bizim məlumatlara və beynəlxalq müşahidələrə əsasən hazırda Dağlıq Qarabağda 60 minə qədər insan yaşayır. Dünya xəritəsində 60 min əhalisi olan yeni xırda bir

ölkənin peyda olunmasını kim istər?! Heç kəs bunu istəməz və Azərbaycan da buna razı olmayacaqdır. Ölkələrdə istənilən ərazi dəyişikliyi yalnız həmin ölkənin razılığı ilə ola bilər. Bizim halda, Azərbaycan Dağlıq Qarabağın müstəqilliyi ilə razılaşmasa, o, heç zaman müstəqil olmayacaqdır. Beynəlxalq birlik də heç zaman Dağlıq Qarabağı müstəqil dövlət kimi tanımayacaqdır". Buna görə də, beynəlxalq münasibətlərin əsas prinsiplərinin qorunmalı olduğunu, əgər bu prinsip bir dəfə pozularsa, digər prinsiplərin pozulması üçün heç bir məhdudiyyət olmayacağını və bu halda beynəlxalq münasibətlərin bütün sisteminin zərər çəkəcəyini bildirən dövlət başçısı "Nə üçün BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağla bağlı qəbul etdiyi qətnamələrin həyata keçirilməməsi məsələsi bu qədər vacibdir?!" – deyə qeyd etmişdir: "Çünki bu, onu göstərir ki, mexanizm işləmir. Təhlükəsizlik Şurasının qətnamələrinin icra mexanizmi Ermənistan üçün məcburiyyət yaratmır və Ermənistan onlara məhəl qoymur. Deməli, sabah da heç kəs Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymayacaqdır. BMT beynəlxalq mübahisələri və münasibətləri nizama salmaq üçün universal mexanizmdir. Əgər bu halda o işləmirsə, digər hallarda da işləməyəcək, bu isə fəlakətə gətirib çıxaracaqdır".

19-26 fevral - Heydər Əliyev Fondunun təşəbbüsü ilə Xocalı soyqırımı haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün Türkiyənin İstanbul və daha 25 vilayətində "Xocalı həftəsi" adlı tədbirlər proqramı çərçivəsində anım mərasimləri keçirilmişdir.

23 fevral - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xocalı soyqırımının 15-ci ildönümü münasibətilə Azərbaycan xalqına müraciətində demişdir: "...1992-ci il fevralın 26-da qədim Azərbaycan şəhəri Xocalı erməni hərbi birləşmələri tərəfindən vəhşicəsinə dağıdıldı, onun müdafiəçilərinə və sakinlərinə amansız divan tutuldu. Yüzlərlə dinc sakin görünməmiş işgəncələrlə öldürüldü, uşaqlar, qadınlar, qocalar, bütöv ailələr məhv edildi, onların meyitləri təhqir olundu. XX əsrin sonunda dünyanın gözü qarşısında baş vermiş belə kütləvi qırğın hadisəsi öz amansızlığına və qəddarlığına görə təkcə Azərbaycan xalqına qarşı deyil, bütövlükdə bəşəriyyətə və insanlığa qarşı törədilmiş cinayət idi...Bu gün artıq heç kimə sirr deyil ki, Xocalı faciəsi davakar erməni millətçilərinin yüzilliklər boyu türk və Azərbaycan xalqlarına qarşı apardığı soyqırımı və

etnik təmizləmə siyasətinin qanlı səhifəsi idi...Xocah qırğınını törətməklə erməni millətçiləri hiyləgər siyasi və taktiki məqsədlər güdürdülər. Onlar bununla xalqımızın mübarizə əzmini qırmaq, onu tarixi torpaqlarımızın işğalı faktı ilə barışmağa məcbur etmək istəyirdilər. Lakin düşmənin niyyətləri baş tutmadı, xalqımız öz dövlətinin suverenliyi və ərazi bütövlüyü uğrunda mübarizədə yüksək iradə və qəhrəmanlıq nümunəsi göstərdi..."

26 fevral - Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, eləcə də bu soyqırımına obyektiv qiymət verilməsi istiqamətində davamlı olaraq addımlar atılmışdır. Bu baxımdan Heydər Əliyev Fondu, xüsusilə onun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Brüsseldə təşkil olunan "təcavüzün qurbanları" adlı foto və uşaq rəsmlərinin sərgisi də bu həqiqətlərin beynəlxalq aləmə çatdırılması işinin davamı olmuşdur.

Fevral - Türkiyə Böyük Millət Məclisinin xüsusi iclasında Xocalı soyqırımı ilə bağlı məsələ geniş müzakirə olunmuşdur.

13-14 mart - Cenevrədə Azərbaycan və Ermənistan Xarici işlər nazirlərinin, ATƏT-in Minsk qrupu həmsədrlərinin Azərbaycan Xarici işlər naziri ilə görüşü keçirilmişdir.

29-30 mart - Vyanada həmsədrlərin ATƏT-in Minsk qrupu iştirakçıları üçün brifinqi keçirilmişdir.

29 mart - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü münasibətilə Azərbaycan xalqına müraciətində Ermənistanın etnik təmizləmə və soyqırım siyasətinin mərhələlərlə davam etdiyini vurğulayaraq demişdir: "...1905-ci və 1918-ci illərdə erməni hərbi dəstələrinin Qafqazın müxtəlif bölgələrində həyata keçirdiyi kütləvi qətllər və talanlar, 1948-1953-cü illərdə soydaşlarımızın Ermənistan Respublikası ərazisindəki ata-baba yurdlarından deportasiya edilməsi, 1988-ci ildən başlayaraq Dağlıq Qarabağı Azərbaycandan qoparmaq məqsədi güdən genişmiqyaslı müharibə və onun bu gün də davam edən acı nəticələri, 1992-ci ilin Xocalı faciəsi – bunlar təcavüzkar erməni millətçilərinin azərbaycanlılara qarşı planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin qanlı səhifələridir..."

19 aprel - Belqradda Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Xarici İşlər Nazirləri Şurası çərçivəsində Azərbaycan və Ermənistan Xarici işlər nazirlərinin görüşü keçirilmişdir.

10-11 may - Strasburqda ATƏT-in Minsk qrupu həmsədrlərinin Azərbaycan və Ermənistan Xarici işlər nazirləri ilə ayrı-ayrılıqda görüşləri keçirilmişdir.

15-17 may - Pakistanın İslamabad şəhərində keçirilmiş İslam Konfransı Təşkilatı Xarici işlər nazirlərinin XXXIV konfransı Ermənistanın Azərbaycana qarşı təcavüzü ilə bağlı qətnamə qəbul etmişdir.

Qəbul edilən sənəddə üzv dövlətlər bir daha erməni təcavüzünü qətiyyətlə pisləmiş, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb etmişlər.

18 may - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Fransanın "La Lettre Diplomatique" jurnalına müsahibəsində qeyd etmişdir ki, Ermənistan, bütün digər beynəlxalq təşkilatların mövqeyi kimi, Avropa İttifaqının da mövqeyinə məhəl qoymur və beynəlxalq hüququn bütün normaları və prinsiplərini pozur. Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində ölkəmizin ərazisinin 20 faizinin işğal olunduğunu, işğalçı qüvvələrin işğal edilmiş ərazilərdən qeyd-şərtsiz və dərhal çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə əhəmiyyət verrnədiyini bildirən dövlət başçısı İlham Əliyev qeyd etmişdir ki, Ermənistan Dağlıq Qarabağ və onun ətrafında olan ərazilərdə etnik təmizləmə siyasəti həyata keçirmiş və bu siyasətin nəticəsində bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

Bununla yanaşı, Dağlıq Qarabağın Azərbaycanın tarixi ərazisi olduğunu, Azərbaycanın ərazi bütövlüyünün BMT və bütün beynəlxalq birlik tərəfindən tanındığını və buna görə də, münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, Dağlıq Qarabağa yüksək özünüidarə və muxtariyyət statusu verilməklə həll edilməli olduğunu bildirən Azərbaycan Prezidenti demişdir: "Bir çox ölkələrdə milli azhqlar yaşayır. Lakin milli azlıq olmaq o demək deyil ki, sənin hansısa ərazini ölkədən ayırmaq hüququn var. Təsəvvür edin ki, ermənilər dünyanın yaşadıqları bütün ölkələrində öz müqəddəratını təyin etməyə çalışsalar, nə baş verər? Neçə

yeni erməni dövləti yarana bilər?! Ermənistan rəhbərliyi aydın başa düşməlidir ki, Azərbaycan ərazi bütövlüyü məsələsi ilə bağlı heç bir güzəştə getməyəcəkdir".

Eyni zamanda, beynəlxalq təşkilatların da münaqişənin həlli ilə bağlı daha fəal və qəti mövqe nümayiş etdirməli olduğunu bildirən dövlət başçısı demişdir: "Son genişlənmə prosesindən bəri Cənubi Qafqaz Avropanın qonşusuna çevrilmişdir. Zənnimcə, Avropa İttifaqı qonşuluğunda münaqişə ocaqlarının mövcudluğuna biganə qala bilməz. Belə ki, bu münaqişə ocaqları yalnız Cənubi Qafqaz regionu üçün deyil, bütünlükdə Avropa üçün, onun sabit iqtisadi inkişafı üçün təhlükə yaradır".

25 may - ATƏT-in Minsk qrupunun həmsədrləri B.Fasye və Y.Merzlyakov Bakıdakı görüşlərinin yekunlarına dair mətbuat konfransı keçirmişlər. Fransa və Rusiya vasitəçiləri bildirmişlər ki, görüşlərdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin baza prinsipləri müzakirə olunmuşdur. B.Fasye demişdir ki, vasitəçilərin başlıca vəzifəsi sülh yolu ilə nizamasalmanm əsas prinsiplərini hazırlamaqdır. Əldə olunmuş razılaşmaya görə, iki prezidentin növbəti görüşünün iyunun 9-da Sankt-Peterburqda keçiriləcəyi bildirilmişdir.

5-7 iyun - ATƏT-in Minsk qrupunun Rusiyadan olan həmsədrinin regiona səfəri zamanı Azərbaycan və Ermənistan respublikalarının rəhbərləri ilə görüşləri keçirilmişdir.

6 iyun - Azərbaycan Prezidenti İlham Əliyev Prezident sarayında ATƏT-in Minsk qrupunun həmsədrlərini və təşkilatın fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsini qəbul etmişdir.

7-8 iyun - ATƏT-in Minsk qrupu həmsədrlərinin Yerevana səfəri zamanı Ermənistan rəhbərliyi ilə görüşü keçirilmişdir.

9 iyun - Sankt-Peterburqda Azərbaycan və Ermənistan prezidentlərinin görüşü keçirilmişdir.

Sankt-Peterburqun "Konqreslər sarayı" dövlət kompleksinin "Baltik ulduzu" mehmanxanasında Azərbaycan və Ermənistan prezidentlərinin görüşü keçirilmişdir. Sonra ATƏT-in Minsk qrupunun həmsədrləri və Xarici işlər nazirləri danışıqlara qatılmışlar. Görüş zamanı tərəflər mövqelərini bildirmiş, başlıca prinsiplər müzakirə olunmuşdur.

13 iyul - Həmsədrlərin ATƏT-in Minsk qrupunun iştirakçıları üçün brifinqi və Yüksək Planlaşdırma Qrupu və ATƏT-in fəaliyyətdə olan sədri ilə görüşü olmuşdur.

1 avqust - Moskvada ATƏT-in Minsk qrupu həmsədrlərinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair bağlı qapı arxasında məsləhətləşmələri keçirilmişdir. Məsləhətləşmələrdə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi də iştirak etmişdir.

Elə həmin gün həmsədrlər və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Rusiya Xarici işlər nazirinin stats-katibi və müavini Q.Karasinlə məsləhətləşmələri davam etdirmişlər. Söhbət zamanı əsas nizamasalma prinsiplərinin razılaşdırılmasına dair danışıqlar prosesinin vəziyyəti və perspektivləri, qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunmuşdur.

3 sentyabr - Brüsseldə ATƏT-in Minsk qrupu həmsədrlərinin Azərbaycan və Ermənistan Xarici işlər nazirləri ilə ayrı-ayrılıqda görüşləri keçirilmişdir.

18 sentyabr - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri B.Fasyeni (Fransa), Y.Merzlyakovu (Rusiya), M.Brayzanı (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşiki qəbul etmişdir. Görüş zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə əlaqədar aparılan danışıqlar prosesinin hazırki vəziyyəti ilə bağlı məsələlər müzakirə edilmişdir.

5 oktyabr - Vaşinqtonda ATƏT-in Minsk qrupu həmsədrlərinin ABŞ Dövlət katibinin müavini D.Fridlə görüşü keçirilmişdir.

17 oktyabr - Parisdə ATƏT-in Minsk qrupu həmsədrlərinin Azərbaycan və Ermənistan Xarici işlər nazirləri ilə görüşləri keçirilmişdir.

22 oktyabr - Parisdə ATƏT-in Minsk qrupu həmsədrlərinin Fransa Xarici işlər nazirinin siyasi direktoru J.Arno ilə görüşü keçirilmişdir.

24-27 oktyabr - ATƏT-in Minsk qrupu həmsədrlərinin Bakı və Yerevana səfərləri zamanı Azərbaycan və Ermənistan respublikalarının rəhbərləri ilə görüşləri keçirilmişdir.

26 oktyabr - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul etmişdir.

8 noyabr - Vyanada ATƏT-in Minsk qrupu həmsədrlərinin ATƏT-in Daimi Şurasına hesabatı dinlənilmişdir.

14 noyabr - ATƏT-in Minsk qrupunun həmsədrləri təşkilatın fəaliyyətdə olan sədri, İspaniyanın Xarici işlər naziri M.Moratinos ilə görüşmüşlər. Görüşdən sonra qəbul edilən bəyanatda bildirilir ki, həmsədrlər ATƏT-in fəaliyyətdə olan sədrinə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində aparılan danışıqlar prosesinin cari vəziyyəti barədə məlumat vermişlər. Bu, həmsədrlərin Madriddə ATƏT-in fəaliyyətdə olan sədri ilə üçüncü görüşü olmuşdur. Bəyanatda qeyd olunur ki, M.Moratinos Minsk qrupunun fəaliyyətini dəstəkləyir. O, Azərbaycan və Ermənistan prezidentləri, habelə Xarici işlər nazirləri ilə dəfələrlə görüşmüşdür.

13-16 noyabr - Madriddə ATƏT-in Minsk qrupu həmsədrlərinin ATƏT-in fəaliyyətdə olan sədri İspaniya Xarici işlər naziri M.Moratinosla görüşü keçirilmişdir. Eyni zamanda, Minsk qrupu həmsədrlərinin məsləhətləşmələri olmuşdur.

29 noyabr - ATƏT-in fəaliyyətdə olan sədri M.Moratinos ATƏT-in üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının Madriddə keçirilən 15-ci iclasında bəyan edib ki, "dondurulmuş münaqişələr"in həlli üçün siyasi iradə göstərmək lazımdır. Qurumun Parlament Assambleyasının sədri Qoran Lenmarker isə çıxışında Dağlıq Qarabağda, Abxaziyada, Cənubi Osetiyada, Dnestryanıda və Kosovodakı münaqişələrin sülh yolu ilə həllinin vacibliyini vurğulamışdır. O, ATƏT-in Minsk qrupunun bu istiqamətdə çox böyük nailiyyətlər əldə etdiyini diqqətə çatdırmışdır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə nizama salınması üçün "qızıl imkan"ların olduğuna inandığını söyləyən Q.Lenmarker hər iki tərəfin siyasi iradəsi ilə sülh sazişinin imzalana biləcəyini vurğulamışdır.

29 noyabr - ATƏT-in Minsk qrupunun həmsədrləri Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair Madriddə keçirilmiş görüşündən sonra bəyanat vermişlər. Görüş ABŞ Dövlət katibinin müavini N.Börns, Rusiyanın Xarici işlər naziri S.Lavrov və Fransanın Xarici işlər naziri B.Kuşnerin iştirakı ilə keçirilmişdir. Həmsədr dövlətlərin

nümayəndələri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair Əsas Prinsiplər Toplusunu Azərbaycan və Ermənistan prezidentlərinə təqdim olunmaq üçün bu ölkələrin Xarici işlər nazirlərinə vermişlər. Bəyanatda deyilir ki, danışıqların son üç ili ərzində həmsədr dövlətlərin vasitəçiliyi sayəsində iki tərəf arasında olan yanaşma müxtəlifliyi azalmış və tərəflər arasında həll ediləsi cəmi bir neçə fikir ayrılığı qalmışdır. Madriddə təqdim olunan Əsas Prinsiplər Toplusu tərəflərə qalan razılaşdırılmamış məsələlərin ədalətli və konstruktiv həllini təklif edir.

29-30 noyabr - ATƏT-in Nazirlər Şurasının Madriddə keçirilən növbəti iclasında qəbul edilən bəyanatda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində cari danışıqların gələcək seçki ilində davam etdirilməsinə dair Azərbaycan və Ermənistan arasında razılığın əldə edilməsindən məmnunluq ifadə olundu. Bununla yanaşı, sənəddə ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə münaqişənin nizamlanmasının baza prinsiplərinin razılaşdırılması üçün tərəflərə təqdim olunmuş variant dəstəklənirdi.

10-13 dekabr - Helsinkidə ATƏT-in Minsk qrupu həmsədrlərinin ATƏT-in gələcək fəaliyyətdə olan sədri Finlandiyanın Xarici işlər naziri İ.Kanerva ilə görüşü keçirilmişdir. ATƏT-in Minsk qrupu həmsədrlərinin məsləhətləşmələri olmuşdur.

2008

1 yanvar - Finlandiya (Xarici işlər naziri İ.Kanerva, daha sonra A.Stubb) İspaniyanı ATƏT-in fəaliyyətdə olan sədri qismində əvəz etdi.

13-19 yanvar - ATƏT-in Minsk qrupu həmsədrlərinin Bakı, Yerevan və Xankəndinə və daha sonra yenə Bakıya səfəri olmuşdur. Tərəflər nizamlanmanın Madrid Baza prinsiplərinə münasibət bildirmişlər.

14 yanvar - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri B.Fasyeni (Fransa), Y.Merzlyakovu (Rusiya), M.Brayzanı (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşiki qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan,

Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqların hazırki vəziyyətinə dair məsələlər müzakirə edilmişdir.

18 yanvar - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Prezident sarayında ATƏT-in Minsk qrupunun həmsədrləri B.Fasyeni (Fransa), Y.Merzlyakovu (Rusiya), M.Brayzanı (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşiki qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair aparılan danışıqlarla bağlı məsələlər müzakirə edilmişdir.

14 fevral - Berlində keçirilmiş "Xocalı soyqırımı və 1915-ci il hadisələrindəki gerçəklər" adlı elmi konfransda Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanmış "Xocalı – uşaqların gözü ilə" adlı sərgi nümayiş etdirilmiş, eləcə də erməni qəddarlığını əks etdirən kitablar paylanmışdır.

26 fevral - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Polşaya rəsmi səfəri zamanı birgə mətbuat konfransında bəyanatında 1992-ci il fevralın 26-da Ermənistanın Azərbaycana qarşı etnik təmizləmə siyasəti aparmasını, məhz o gün Azərbaycanın Xocalı şəhərinin Ermənistanın təcavüzünə məruz qaldığını və azərbaycanlılara qarşı soyqırımı törədildiyini, eləcə də o gecə 600-dən çox dinc insanın qətlə yetirildiyini, onlardan 63-nün uşaq, 106-nın isə qadın olduğunu vurğulayaraq bu hadisəni çox böyük cinayət kimi qiymətləndirmişdir.

3-4 mart - Ermənilər tərəfindən atəşkəsin pozulması nəticəsində təmas xəttində bir neçə azərbaycanlı həlak olmuşdur.

7 mart - ATƏT-in Minsk qrupu həmsədrləri bu hadisə ilə bağlı bəyanat qəbul etmişlər.

13 mart - Vyanada ATƏT-in Hofburq sarayında yerləşən ofisində Minsk qrupunun həmsədrləri qrupun digər üzvləri üçün bağlı brifinq keçirmişlər. Brifinqdə Y.Merzlyakov (Rusiya), B.Fasye (Fransa), amerikalı həmsədr M.Brayzanın köməkçisi M.Karpenter və Minsk qrupunun üzvü olan digər ölkələrin (Almaniya, Türkiyə, İtaliya, Belarus, Finlandiya, İspaniya və Yunanıstan) nümayəndələri iştirak etmişlər. Brifinqdən sonra Minsk qrupunun rusiyalı həmsədri Y.Merzlyakov bildirib ki, bu görüşdə ötən il noyabrın axırında münaqişə tərəfləri olan ölkələrin Xarici işlər nazirlərinin Madrid görüşündən sonra həmsədrlərin danışıqlar prosesində

göstərdikləri səy, tərəflərin mövqeyi və əldə olunmuş nəticələr haqda məlumat verilmişdir.

11-14 mart - Vyanada ATƏT-in Minsk qrupu həmsədrlərinin Ermənistan Xarici işlər naziri ilə görüşü keçirilmiş və öz aralarında məsləhətləşmələri olmuşdur.

13-14 mart - İslam Konfransı Təşkilatının Seneqalın Dakar şəhərində keçirilmiş XI Zirvə toplantısı Ermənistanın Azərbaycana təcavüzü haqqında qətnamələr qəbul etmişdir. Qəbul edilən sənədlərdə üzv dövlətlər bir daha erməni təcavüzünü qətiyyətlə pisləmiş, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb etmişlər. Bununla yanaşı, Zirvə konfransında təşkilatın yeni Nizamnaməsi qəbul edilmişdir. İKT-nin bu əsas sənədinin məqsəd və məramları bölməsində Azərbaycan nümayəndə heyətinin fəaliyyəti nəticəsində ərazisi işğal altında olan dövlətlərin öz ərazi bütövlüyünü bərpa etməsi hüququnun üzv dövlətlər tərəfindən birmənalı dəstəklənməsi barədə müddəa təsbit edilmişdir.

14 mart - BMT Baş Məclisinin 62-ci sessiyasının 86-cı plenar iclasında "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı qətnamə qəbul edilmişdir. Sənəddə Azərbaycanın işğal olunmuş ərazilərində ermənilərin məskunlaşdırılması, həmin ərazilərdə yanğınların törədilməsi pislənilir, Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinə istinad edilməklə erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılması tələb olunurdu. Bununla yanaşı, qətnamədə Azərbaycanın suverenliyi, ərazi bütövlüyünə hörmət ifadə olunur, eləcə də öz torpaqlarından qovulmuş azərbaycanlıların doğma yurdlarına qayıtmaq hüququ bir daha təsdiqlənirdi.

14-16 mart - Parisdə ATƏT-in Minsk qrupu həmsədrlərinin Azərbaycan Xarici işlər naziri ilə görüşü keçirilmiş və öz aralarında məsləhətləşmələri olmuşdur.

29 mart - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 31 mart – Azərbaycanlıların Soyqırımı Günü münasibətilə Azərbaycan xalqına müraciətində Ermənistanın etnik təmizləmə və soyqırımı siyasətinin XX əsrin sonunda da davam etdiyini bildirməklə 1992-ci ilin fevralında erməni hərbi birləşmələrinin törətdiyi Xocalı faciəsini öz qəddarlığına və

amansızlığına görə misli görünməmiş soyqırım aktı, insanlığın tarixində qara ləkə kimi qalacağını bildirmişdir.

1-4 aprel - Buxarestdə ATƏT-in Minsk qrupu həmsədrlərinin Azərbaycan və Ermənistan prezidentləri ilə ayrı-ayrılıqda, eyni zamanda hər iki ölkə Xarici işlər nazirləri ilə görüşləri keçirilmiş və həmsədrlərin məsləhətləşmələri olmuşdur.

2 aprel - NATO-nun sammitində iştirak etmək üçün Buxarestdə səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun üçün ayrılmış iqamətgahda – "Hilton" hotelində ATƏT-in Minsk qrupunun həmsədrləri M.Brayzanı (ABŞ), B.Fasyeni (Fransa), Y.Merzlyakovu (Rusiya) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşiki qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

2-4 aprel - NATO-nun Buxarestdə keçirilən Zirvə toplantısında qəbul edilən Yekun Bəyannamənin 43-cü maddəsində ərazisində "dondurulmuş münaqişələr" olan dörd postsovet respublikasının müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünün dəstəklənməsi, eləcə də bu münaqişələrin həmin prinsiplər əsasında həll edilməsinin tövsiyə olunması göstərilirdi.

16 aprel - ATƏT-in Vyanada Hofburq sarayında yerləşən ofisində Minsk qrupunun həmsədrləri qrupa üzv olan digər ölkələrin təmsilçiləri üçün növbəti ənənəvi brifinq keçirmişlər. Brifinqdə Y.Merzlyakov (Rusiya), B.Fasye (Fransa), M.Brayzanın köməkçisi M.Karpenter (ABŞ) və Minsk qrupunun üzvü olan digər ölkələrin (Almaniya, Türkiyə, İtaliya, Belarus, Finlandiya, İspaniya və Yunanıstan) nümayəndələri iştirak etmişdir. Həmsədrlər Minsk qrupuna üzv dövlətlərin nümayəndələrinə NATO-nun Buxarest sammitində Azərbaycan və Ermənistan prezidentləri ilə görüşləri, danışıqlar prosesinin mövcud durumu və gələcək fəaliyyət istiqamətləri barədə məlumat vermişlər.

14-18 aprel - Vyanada ATƏT-in Minsk qrupunun növbədənkənar iclasında Minsk qrupu həmsədrlərinin ATƏT-in Baş Katibi M. Brişambo ilə məsləhətləşmələri keçirilmişdir.

4-6 may - Paris və Strasburqda ATƏT-in Minsk qrupu həmsədrlərinin Azərbaycan və Ermənistanın Xarici işlər nazirləri ilə görüşləri keçirilmiş və Minsk qrupu həmsədrlərinin məsləhətləşmələri olmuşdur.

8 may - Şuşa şəhərinin işğalının ildönümündə İslam Konfransı Təşkilatının Gənclər Forumunun (İKT GF) mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət" kompaniyası təsis edilmişdir.

5 iyun - Moskvada ATƏT-in Minsk qrupu həmsədrlərinin Azərbaycan və Ermənistan prezidentlərinin Sankt-Peterburq görüşü ərəfəsində məsləhətləşmələri keçirilmişdir. Minsk qrupu həmsədrlərinin onlara müraciəti hazırlanmışdır.

6-8 iyun - Sankt-Peterburqda MDB-nin qeyri-rəsmi sammiti çərçivəsində Azərbaycan və Ermənistan prezidentləri arasında, sonradan isə ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə görüşü keçirilmişdir. Bundan əlavə, ATƏT-in Minsk qrupu həmsədrlərinin Azərbaycan və Ermənistan Xarici işlər nazirləri ilə görüşləri olmuş və həmsədrlərin məsləhətləşmələri keçirilmişdir.

9-10 iyun - Helsinkidə ATƏT-in Minsk qrupu həmsədrlərinin ATƏT-in fəaliyyətdə olan sədri, Finlandiyanın Xarici işlər naziri A.Stubbla eləcə də, ATƏT-in fəaliyyətdə olan sədrinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi H.Talvitye ilə görüşü keçirilmişdir.

10 iyun - ATƏT-in fəaliyyətdə olan sədri A.Stubb ATƏT-in Minsk qrupunun Rusiya, ABŞ və Fransadan olan həmsədrləri ilə Helsinkidə keçirilən görüşünün yekunlarını şərh edərək bildirmişdir ki, Minsk qrupunun həmsədrləri – Y.Merzlyakov, M.Brayza və B.Fasye ATƏT-in fəaliyyətdə olan sədrinə Azərbaycan və Ermənistan prezidentlərinin Sankt-Peterburqda keçirilən görüşü, ümumilikdə Dağlıq Qarabağda vəziyyət barədə məlumat vermişlər. A.Stubb bildirmişdir ki, münaqişənin ATƏT məkanında həlli Finlandiyanın təşkilatda sədrliyinin prioritetidir. O, Azərbaycanı və Ermənistanı Minsk qrupunun imkanlarından tam istifadə etməyə və münaqişənin həllinin əsas prinsipləri barədə təklifləri ciddi müzakirə etməyə çağırmışdır.

18-20 iyun - Uqandanın Kampala şəhərində İKT Xarici işlər nazirlərinin XXXV konfransında Ermənistanın Azərbaycana təcavüzü haqqında qətnamələr qəbul edilmişdir. Qəbul edilən sənədlərdə üzv dövlətlər bir daha erməni təcavüzünü qətiyyətlə pisləmiş, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb etmişlər.

27-28 iyun - ATƏT-in Minsk qrupu həmsədrlərinin Bakı, Yerevan və Xankəndinə səfəri olmuşdur.

30 iyun - 3 iyul - Vyanada ATƏT-in təhlükəsizlik sahəsində problemlərlə bağlı illik konfransında ATƏT-in Minsk qrupu iştirakçıları üçün brifinqi və Minsk qrupu həmsədrlərinin məsləhətləşmələri keçirilmişdir.

22 iyul - ATƏT-in Minsk qrupunun həmsədrləri Y.Merzlyakov (Rusiya), B.Fasye (Fransa) və M.Brayza (ABŞ) birgə bəyanat yaymışdır. Həmsədrlər bəyanatda Azərbaycan və Ermənistan dövlət başçılarının iyunun 6-da Sankt-Peterburqda keçirilmiş görüşündə və eləcə də həmsədrlərin iyun ayının 27-28-də regiona səfəri zamanı əldə edilən konstruktiv nailiyyətləri alqışlamışlar. Dağlıq Qarabağ münaqişəsinin hərb yolu ilə həllinin olmadığım vurğulayan həmsədrlər Sankt-Peterburq görüşü zamam hər iki ölkənin dövlət başçılarını Minsk qrupu çərçivəsində aparılan danışıqları dəstəkləməyə çağırdıqlarını bildirmişlər. Azərbaycan və Ermənistan Xarici işlər nazirlərinin növbəti həftələrdə keçiriləcək görüşünü gözlədiklərini bildirən həmsədrlər münaqişənin həllinin Baza prinsipləri üzərində işləməyi davam etdirəcəklərini vurğulamışlar.

24-27 sentyabr - Nyu-Yorkda Minsk qrupu həmsədr dövlətlərinin nümayəndələrinin məsləhətləşmələri keçirilmiş və həmsədrlərin Ermənistan prezidenti, Azərbaycan və Ermənistan Xarici işlər nazirləri ilə görüşü, eləcə də Minsk qrupu həmsədrlərinin məsləhətləşmələri olmuşdur.

31 oktyabr - 1 noyabr - Moskvada Rusiya, Azərbaycan və Ermənistan Xarici işlər nazirlərinin görüşü və Minsk qrupu həmsədrlərinin Azərbaycan, Ermənistan və Rusiya prezidentlərinin görüşü ərəfəsində məsləhətləşmələri keçirilmişdir.

2 noyabr - Mayendorf qəsrində (Moskva ətrafı) Azərbaycan və Ermənistan prezidentlərinin Rusiya Prezidentinin vasitəçiliyi ilə üçtərəfli

formatda görüşü keçirilmişdir. Görüş başa çatdıqdan sonra Rusiya, Azərbaycan və Ermənistan prezidentlərinin birgə imzaladığı bəyannamədə münaqişənin ərazi bütövlüyü çərçivəsində həlli nəzərdə tutulurdu. Bəyannamənin imzalanmasında ATƏT-in Minsk qrupunun həmsədrləri də iştirak etmişlər.

Bəyannamədə deyilirdi: "Rusiya Federasiyası Prezidentinin dəvəti ilə Azərbaycan Respublikasının, Ermənistan Respublikasının və Rusiya Federasiyasının prezidentləri 2008-ci il noyabrın 2-də Moskvada görüşərək, Dağlıq Qarabağ münaqişəsinin vəziyyətini və onun siyasi vasitələrlə, ATƏT-in Minsk qrupunun həmsədrləri kimi Rusiyamn, ABŞ-ın və Fransanın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında birbaşa dialoqun davam etdirilməsi yolu ilə həlli perspektivlərini konstruktivlik şəraitində konkret şəkildə və dolğun müzakirə edərək bəyan edirlər ki, münaqişənin beynəlxalq hüququn prinsipləri və normaları, bu çərçivələrdə qəbul olunmuş qərarlar və sənədlər əsasında siyasi yolla həlli ilə Cənubi Qafqazda vəziyyətin sağlamlaşmasına və regionda sabitliyin və təhlükəsizliyin bərqərar edilməsinin təmin olunmasına kömək edəcəklər ki, bu da regionda iqtisadi inkişaf və hərtərəfli əməkdaşlıq üçün əlverişli şərait yaradacaq".

Bununla yanaşı sənəddə göstərilirdi ki, ATƏT-in Minsk qrupu həmsədrlərinin münaqişənin siyasi yolla həllinin əsas prinsiplərinin işlənib hazırlanması məqsədi ilə 2007-ci ilin noyabrın 29-da Madriddə tərəflərlə keçirilmiş görüşü və sonrakı diskussiyalar nəzərə alınmaqla həmsədrlərin vasitəçilik səylərinin davam etdirilməsinin böyük əhəmiyyətə malik olmasını təsdiq edir və münaqişənin sülh yolu ilə həllinə nail olunmasının bütün aspektləri və mərhələlərinin hüquqi öhdəliklər yaradan beynəlxalq təminatlarla müşayiət edilməli olduğuna razılaşırlar.

Eyni zamanda, bəyannamədə qeyd edilirdi ki, Azərbaycan və Ermənistan prezidentləri Dağlıq Qarabağ münaqişəsinin siyasi yolla həllinin razılaşdırılması üzərində işi, o cümlədən gələcəkdə yüksək səviyyədə təmasların gedişində davam etdirmək barədə razılığa gəlmişlər və özlərinin Xarici işlər nazirlərinə ATƏT-in Minsk qrupunun həmsədrləri ilə qarşılıqlı əlaqədə danışıqlar prosesində gələcək addımları fəallaşdırmağı tapşırmışlar.

Sənədin sonunda münaqişənin həllinə dair səylər kontekstində etimadın möhkəmləndirilməsi üçün tədbirlərin reallaşdırılmasına şərait yaradılmasının təşviq olunması vacib hesab edilirdi.

4-8 noyabr - Vyanada ATƏT-in Minsk qrupu həmsədrlərinin ATƏT-in Daimi Şurasına illik hesabatı dinlənilmişdir. Həmsədrlərin ATƏT-in Minsk qrupu iştirakçıları üçün brifinqi və ATƏT-in fəaliyyətdə olan sədri ilə məsləhətləşmələri keçirilmişdir.

6 noyabr - Vyanada ATƏT-in Minsk qrupu həmsədrlərinin növbəti görüşü keçirilmişdir. Həmsədrlər – ABŞ dövlət katibinin Avrasiya məsələləri üzrə müşaviri M.Brayza (ABŞ), səfir B.Fasye (Fransa) və səfir Y.Merzlyakov (Rusiya) Minsk qrupunun üzvü olan digər ölkələrin nümayəndələrinə ötən aylarda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılmış danışıqlar barədə məlumat vermiş, məsləhətləşmələr aparmışlar.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı son damşıqların, eləcə də bölgədə baş verən hadisələrin münaqişənin həlli prosesinə göstərə biləcəyi təsiri şərh edən həmsədrlər 2008-ci ilin iyunundan bəri Azərbaycan və Ermənistan prezidentləri arasında keçirilmiş görüşlərlə danışıqların qarşılıqlı konstruktiv mərhələyə qədəm qoyduğunu bildirmişlər.

Moskva Bəyannaməsini müsbət dəyərləndirən həmsədrlər bundan sonra da tərəflər arasında yüksək səviyyədə damşıqların davam etdiriləcəyinə ümid etdiklərini və hər iki ölkənin münaqişənin sülh yolu ilə həllinə tərəfdar olduğunu vurğulamışlar. Həmçinin bildirilmişdir ki, münaqişənin həlli prosesində hər aspektdən beynəlxalq hüququn prinsiplərinin qorunması ən vacib şərtdir. Gürcüstanda baş vermiş hadisələrdən sonra danışıqların bəzi elementlərinin dəyişdiyini bildirən B.Fasye bölgədə yaranmış həssas vəziyyət nəzərə alınaraq, hər iki tərəfin məqbul kompromis həll variantına gedəcəyinə ümidvar olduğunu söyləmişdir.

Bununla yanaşı, görüşdə bildirilmişdir ki, hazırda münaqişənin həlli məsələsində Azərbaycan tərəfi dövlətlərin ərazi bütövlüyü prinsipini, Ermənistan tərəfi isə xalqların öz müqəddəratını referendum yolu ilə təyinetmə hüququnu rəhbər tutur. Madrid təklifində hər iki mövqenin əks

olunduğunu deyən həmsədrlər yekun olaraq hansı həll variantına üstünlük veriləcəyinin yalnız münaqişə tərəflərindən asılı olduğunu, Minsk qrupunun isə vasitəçilik funksiyası daşıdığını vurğulamışlar.

12-18 noyabr - ATƏT-in Minsk qrupu həmsədrlərinin Bakı, Yerevan və Xankəndinə səfərləri olmuşdur.

13 noyabr - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Minsk qrupunun həmsədrləri B.Fasyeni (Fransa), Y.Merzlyakovu (Rusiya), M.Brayzanı (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşiki qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırki vəziyyəti və perspektivləri ilə bağlı məsələlər müzakirə olunmuşdur.

2-5 dekabr - Helsinkidə ATƏT-in Nazirlər Şurasının iclası çərçivəsində ATƏT-in Minsk qrupu həmsədr dövlətlərinin Xarici işlər nazirlərinin (S.Lavrov, B.Kuşner və D.Frid) Azərbaycan və Ermənistan Xarici işlər nazirləri ilə görüşü keçirilmişdir. Moskva bəyannaməsi əsasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə birgə bəyanat qəbul edilmiş, Minsk qrupu həmsədrlərinin Azərbaycan və Ermənistan Xarici işlər nazirləri ilə görüşləri və iki nazir arasında məsləhətləşmələr aparılmış, həmsədrlərin məsləhətləşmələri və ATƏT-in gələcək sədri və ATƏT-in fəaliyyətdə olan sədrinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi H.Talvitye ilə görüşləri keçirilmişdir.

4-5 dekabr - ATƏT-in üzvü olan ölkələrin Xarici işlər nazirləri Şurasının Helsinkidə keçirilmiş iclasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı birgə bəyanat qəbul edilmişdir.

Bəyanatda deyilirdi: "Biz, Dağlıq Qarabağ münaqişəsinin siyasi yolla həllinə yönəlmiş sülh prosesində Ermənistan və Azərbaycan prezidentlərinin 2008-ci ildə iyunun 6-da Sankt-Peterburqda və xüsusən də noyabrın 2-də Moskvada keçirdikləri iki görüşdən sonra yaranmış konstruktiv və müsbət təkanı alqışlayırıq. Ermənistan, Azərbaycan və Rusiya prezidentlərinin imzaladıqları Moskva Bəyannaməsi münaqişənin nizamlanmasında ümidverici mərhələ açmışdır. Biz tərəflərin, Moskva Bəyannaməsinin müddəalarına uyğun olaraq və ATƏT-in Minsk qrupu həmsədrləri ilə əlaqədə danışıqlar prosesindəki səyləri intensivləşdirmək, habelə 2007-ci il noyabrın 29-da Madriddə təklif olunmuş Əsas prinsipləri

daha dəqiqliklə işləmək və sonradan ümumi sülh sazişini hazırlamağa başlamaq niyyətlərini təşviq edirik. Biz onların etimadyaratma tədbirlərini genişləndirmək və atəşkəsi möhkəmləndirmək niyyətlərini də yüksək qiymətləndiririk".

Sənəddə daha sonra qeyd edilirdi: "Moskva Bəyannaməsinin müddəalarına uyğun olaraq, biz həmçinin tərəfləri vasitəçilərimizin bu il noyabrın ortalarında regiona son səfərləri zamanı tərəflərin rəhbərlərinə təklif etdikləri kimi vətəndaşların və hərbçilərin həyatını qorumaq məqsədi ilə ön mövqelərdən snayperləri çıxarmaqdan başlamaqla, həmsədrlərlə birlikdə etimadın möhkəmləndirilməsi tədbirlərini həyata keçirməyə başlamağa çağırırıq. Etimadın möhkəmləndirilməsinə dair bu və digər tədbirlər vasitəsilə atəşkəs rejimini sabitləşdirmək məqsədi ilə tərəflərin bir-biri ilə, həmsədrlərlə və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi ilə işləməsi son dərəcə zəruridir. Biz bir daha qəti rəyimizi təsdiq edirik ki, Dağlıq Qarabağ münaqişəsinin hərbi yolla həlli yoxdur və tərəfləri məsələnin dinclikla nizama salınmasına tərəfdar olduqlarını təsdiqləməyə çağırırıq".

2009

1 yanvar - Yunanıstan (Xarici işlər naziri D.Bakoyannis) Finlandiyanı ATƏT-in fəaliyyətdə olan sədri qismində əvəz etdi.

19 yanvar - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri M.Brayzanı (ABŞ), B.Fasyeni (Fransa), Y.Merzlyakovu (Rusiya) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşiki qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqların hazırki vəziyyəti və perspektivlərinə dair məsələlər müzakirə olunmuşdur.

19-22 yanvar - ATƏT-in Minsk qrupu həmsədrlərinin Bakı və Yerevana səfəri zamanı Azərbaycan və Ermənistan prezidentləri və Xarici işlər nazirləri ilə görüşləri keçirilmişdir.

28 yanvar - İsveçrənin Sürix şəhərində Azərbaycan və Ermənistan prezidentlərinin təkbətək görüşü olmuşdur. Sonra görüş

ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə davam etdirilmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlərin hazırki vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

29 yanvar - ATƏT-in Minsk qrupunun həmsədrləri Azərbaycan və Ermənistan prezidentlərinin yanvarın 28-də Sürixdə keçirilmiş görüşü barədə birgə bəyanat yaymışlar. Bəyanatda prezidentlər arasında keçirilmiş görüşü şərh edən həmsədrlər, ATƏT-in Madrid sammitində tərəflərə təklif edilmiş Baza prinsipləri əsasında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair fikir mübadiləsi aparıldığını bildirmişlər. Həmsədrlər tərəflər arasındakı əsas fikir ayrılıqlarını aradan qaldırmaq məqsədi ilə Baza prinsipləri ətrafında hər iki ölkənin Xarici İşlər Nazirliklərinin rəhbərləri ilə birlikdə təkliflər üzərində çalışacaqlarına razılıqlarını ifadə etmişlər. Bununla yanaşı, sənəddə göstərilirdi ki, həmsədrlər ümid edirlər ki, tərəflər ən yaxın gələcəkdə münaqişə ilə bağlı sülh sazişinin əldə olunması üçün mövcud olan fikir ayrılığını aradan qaldıra biləcəklər. Bu, bütün tərəflər üçün hazırki "status-kvo" vəziyyətindən daha münasibdir. Eyni zamanda, bəyanatda vurğulanırdı ki, "Həmsədrlərin qarşıya qoyduğu məqsəd münaqişənin Helsinki Yekun Aktında nəzərdə tutulan ərazi bütövlüyü, öz müqəddəratını təyinetmə və güc tətbiqindən imtina prinsipləri əsasında ədalətli və tarazlaşdırılmış həll yoluna nail olmaqdır".

26 fevral - 4 mart - ATƏT-in Minsk qrupu həmsədrlərinin Bakı, Yerevan və Xankəndinə və daha sonra yenə Bakıya səfərləri olmuşdur.

27 fevral - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri M.Brayzanı (ABŞ), B.Fasyeni (Fransa), Y.Merzlyakovu (Rusiya) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşiki qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırki vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.

Fevral - İslam Konfransı Təşkilatı Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət" beynəlxalq informasiya və təşviqat

kompaniyasına start verilmişdir. Bu kompaniyanın məqsədi beynəlxalq ictimaiyyəti Xocalı soyqırımı ilə əlaqədar məlumatlandırmaq, qətliama beynəlxalq aləmdə mənəvi-siyasi qiymət verilməsinə və bu qanlı qırğının qurbanlarının xatirəsinin anılmasına nail olmaqdır. Faciənin mənəvi və siyasi-hüquqi səviyyədə tanınmasına yönəlmiş bu kampaniya dünyanın 30 ölkəsində uğurla həyata keçirilmişdir.

3 mart - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri M.Brayzanı (ABŞ), B.Fasyeni (Fransa), Y.Merzlyakovu (Rusiya) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşiki qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı məsələlər müzakirə olunmuşdur.

7 mart - ATƏT-in Minsk qrupunun həmsədrləri M.Brayza (ABŞ), B.Fasye (Fransa) və Y.Merzlyakov (Rusiya) bölgəyə səfərlərinin yekunlarına dair bəyanat vermişlər. Bəyanatda deyilirdi ki, "Azərbaycan və Ermənistan prezidentləri görüşlərin müntəzəm olaraq davam etdirilməsi istəklərini ifadə etmişlər. Buna görə də həmsədrlər gələcək aylarda Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasına dair baza prinsipləri çərçivəsində həll edilməmiş əsas məsələləri müzakirə etmək üçün hər iki prezidentin görüşünü təşkil etməyə çalışacaqdır. Həmsədrlər bu məsələlərin hər iki prezidentlə açıq və səmimi müzakirəsindən məmnunluq ifadə etmişlər. Onlar ümidvar olduqlarını bildirmişlər ki, münaqişənin tez bir zamanda sülh yolu ilə həlli üçün tərəflər arasında fikir ayrılıqlarını müəyyənləşdirmək və aradan qaldırmaqla danışıqlarda irəliləyişlərə nail olmağa davam edəcəklər".

12 mart - Vyanada həmsədrlərin ATƏT-in Minsk qrupunun iştirakçıları üçün brifinqi keçirilmişdir.

3-4 aprel - NATO-nun 60 illiyi ilə əlaqədar Kehl və Strasburqda keçirilmiş Zirvə toplantısında qəbul edilmiş Bəyannamənin münaqişələrlə bağlı 58-ci bəndində təşkilatın Cənubi Qafqaz və Moldova ərazilərindəki münaqişələrin mövcudluğundan ciddi narahatlıq keçirdiyi bildirilməklə yanaşı, Azərbaycanın ərazi bütövlüyünün dəstəkləndiyi də öz əksini tapdı.

20 aprel - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanın yəhudi icmasına müraciətində Ermənistanın etnik təmizləmə

və soyqırım siyasətinə də toxunaraq son iyirmi ildə Ermənistanın Azərbaycana hərbi təcavüzünün, xalqımıza qarşı həyata keçirilmiş deportasiya və etnik təmizləmə siyasətinin, kütləvi qətl və terror aksiyalarının, nəhayət, Xocalıda azərbaycanlıların dəhşətli qətliamının zəmanəmizin acı gerçəkliyi olduğunu bildirmişdir.

24 aprel - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri M.Brayzanı (ABŞ), B.Fasyeni (Fransa), Y.Merzlyakovu (Rusiya) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşiki qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqların hazırki vəziyyəti və perspektivlərinə dair məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

28-29 aprel - Azərbaycan Prezidenti İlham Əliyev Belçika Krallığına işgüzar səfəri zamanı Brüsseldə Avropa Siyasi Mərkəzinin nümayəndələri ilə "Azərbaycan: Avropa İttifaqı üçün getdikcə əhəmiyyəti artan tərəfdaş" mövzusunda keçirilən görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması əsas məsələlərdən biri kimi müzakirə mövzusuna çevrildi. Azərbaycan Prezidenti İlham Əliyev bu məsələnin həllində qətiyyətli mövqeyini növbəti dəfə bəyan edərək, Dağlıq Qarabağa heç vaxt müstəqillik verilməyəcəyini, münaqişənin həlli yolunun məhz Ermənistanın işğal altında saxladığı torpaqları azad etməsinin vacibliyini və işğal siyasətinin sonunun olmadığını xüsusi vurğuladı.

29 aprel - Azərbaycan Prezidenti İlham Əliyevin Brüsselə səfəri zamanı NATO-nun baş katibi Y.Sxefferlə görüşündə Alyansın ali nümayəndəsi, respublikamızın NATO üçün regionda mühüm rol oynayan ölkə olduğunu bildirməklə yanaşı, qeyd etmişdir ki, təmsil etdiyi qurum Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində birbaşa rol oynamasa da, bu münaqişənin həllində ərazi bütövlüyü prinsipi sual altına qoyulmamalıdır.

1 may - BMT-nin Baş qərargahında təşkilatın baş katibi Pan Ki Munun "Azərbaycanın işğal edilmiş ərazilərində vəziyyət" adlı hesabatı yayılmışdır.

7 may - Praqada, ABŞ səfirliyinin iqamətgahında Azərbaycan və Ermənistan prezidentlərinin görüşü olmuşdur. Hər iki ölkənin Xarici işlər

nazirlərinin və ATƏT-in Minsk qrupunun həmsədrlərinin iştirak etdikləri görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırki vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

9 may - ATƏT-in fəaliyyətdə olan sədri Azərbaycan ilə Ermənistan arasında atəşkəs elan olunmasının 15 illiyi münasibətilə bəyanatla çıxış etmişdir. D.Bakoyannis tərəfləri atəşkəs rejiminə tam əməl etməyə, həmçinin snayperləri ön xətdən çəkməyə çağırmışdır. ATƏT-in fəaliyyətdə olan sədri keçmiş SSRİ məkanında ən irimiqyaslı hərbi əməliyyatlara 15 il əvvəl son qoyulduğunu vurğulamışdır: "Biz bir məsələni də diqqətdən qaçırmamalıyıq ki, 15 il əvvəl atəşkəs əldə olunmasına baxmayaraq, təmas xəttində vəziyyət qeyri-sabitdir, itkilər davam edir. Qarşılıqlı etimad mühitinin yaranması üçün atəşkəs rejiminin şərtlərinə tam əməl olunmalı, həmsədrlərin snayperləri ön cəbhədən geri çəkmək çağırışına riayət edilməlidir".

12 may - ATƏT-in Minsk qrupunun həmsədrləri Azərbaycan ilə Ermənistan arasında atəşkəs elan olunmasının 15 illiyi münasibətilə bəyanatla çıxış etmişlər.

23-25 may - Suriyanın Dəməşq şəhərində keçirilmiş İKT Xarici işlər nazirlərinin XXXVI konfransında Ermənistanın Azərbaycana təcavüzü haqqında qətnamələr qəbul edilmişdir. Qəbul edilən sənədlərdə üzv dövlətlər bir daha erməni təcavüzünü qətiyyətlə pisləmiş, Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb etmişlər.

Ümumiyyətlə, İslam Konfransı Təşkilatı çərçivəsində Ermənistanın Azərbaycana təcavüzü ilə əlaqədar qəbul edilmiş sənədlər bu təşkilatın müntəzəm keçirdiyi toplantılarda hər dəfə Azərbaycan tərəfinin təklifi ilə yeni bəndlər əlavə edilərək xeyli təkmilləşdirilmişdir. Belə ki, İKT Xarici işlər nazirlərinin Kuala-Lumpur (2000), Bamako (2001), Xartum (2002), Tehran (2003), İstanbul (2004), Səna (2005), Bakı (2006), İslamabad (2007), Kampala (2008), Dəməşq (2009), eləcə də İKT-nin üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Putracaya (2003) və Dakarda (2008) keçirilən zirvə toplantılarında Azərbaycanla əlaqədar çox mühüm əhəmiyyət kəsb edən sənədlər qəbul edilmişdir.

29 may - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri M.Brayzanı (ABŞ), B.Fasyeni (Fransa), Y.Merzlyakovu (Rusiya) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşiki qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqların hazırki vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.

4 iyun - Sankt-Peterburqda Azərbaycan və Ermənistan prezidentlərinin görüşü olmuşdur. Hər iki ölkə Xarici işlər nazirlərinin və ATƏT-in Minsk qrupunun həmsədrləri M.Brayza (ABŞ), B.Fasye (Fransa) və Y.Merzlyakovun (Rusiya) iştirak etdikləri görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırki vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

6 iyun - ATƏT-in Minsk qrupunun həmsədrləri M.Brayza (ABŞ), B.Fasye (Fransa) və Y.Merzlyakov (Rusiya) Azərbaycan və Ermənistan prezidentlərinin iyunun 4-də Sankt-Peterburqda görüşü ilə bağlı bəyanat yaymışlar. Bəyanatda deyilirdi ki, bu görüş 2008-ci ilin iyun ayından bəri prezidentlərin keçirdikləri beşinci görüş olmuşdur. Həmsədrlər bildirmişlər ki, istər təkbətək, istərsə də Minsk qrupunun həmsədrləri və hər iki ölkənin Xarici işlər nazirlərinin iştirakı ilə keçirilmiş görüşlərdə prezidentlər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı vasitəçilər tərəfindən irəli sürülmüş konsepsiyanı və razılaşdırılmamış bəzi elementləri müzakirə etmişlər.

3 iyul - Azərbaycan və Ermənistanın bir qrup ziyalısı hər iki dövlətin Rusiya Federasiyasındakı səfirlərinin təşəbbüsü ilə ATƏT-in xətti ilə Xankəndidə, Şuşada olmuş, oradan Ermənistana gedərək ölkə prezidenti ilə görüşmüşlər. Həmin gün qrupun üzvləri Yerevandan Bakıya gəlmiş və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qəbulunda olmuşlar.

10 iyul - "Böyük səkkizlər"in İtaliyanın Akvil şəhərində keçirilən toplantısında ABŞ, Rusiya və Fransa prezidentləri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsini də müzakirə etdilər. Sonda hər üç prezidentin münaqişə ilə bağlı qəbul etdikləri birgə bəyanatda həmsədrlərə Azərbaycan və Ermənistan prezidentlərini Baza Prinsiplərinə dair son təkliflərin əks

olunduğu, yəni 2007-ci il noyabrm 29-da açıqlanmış Madrid təklifləri üzrə yeni versiyanı təqdim etməyi tapşırdılar.

Bununla yanaşı, sənəddə ATƏT-in Minsk qrupunun həmsədri olan dövlətlərin prezidentlərinin Azərbaycan və Ermənistan prezidentlərini qalan fikir ayrılıqlarını aradan qaldırmağa və hərtərəfli sülh planının əsasını təşkil edəcək Baza Prinsiplərinin razılaşdırılmasını başa çatdırmağa çağırışı öz əksini tapdı.

Bəyanatda qeyd edilirdi ki, ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin başçıları əsas prinsiplərin razılaşdırılmasında Azərbaycan və Ermənistan prezidentlərinə dəstək verəcəklərini təsdiqləmişlər. Eyni zamanda, sənəddə bu prinsiplərin Helsinki Yekun Aktına, yəni gücün tətbiq edilməməsi, ərazi bütövlüyü və öz müqəddəratını təyinetmə hüququna əsaslandığı qeyd olundu.

10 iyul - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri M.Brayzanı (ABŞ), B.Fasyeni (Fransa), Y.Merzlyakovu (Rusiya) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşiki qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırki vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.

13 iyul - Azərbaycan Prezidenti İlham Əliyev Londonda Kral Beynəlxalq Münasibətlər İnstitutunda görüşü zamanı Ermənistan rəhbərinin Moskva bəyannaməsini tərəf kimi imzaladığını vurğulamaqla yanaşı, danışıqların Ermənistanla Azərbaycan arasında aparıldığını və bunun beynəlxalq format olduğunu bildirərək qeyd etdi ki, əgər Dağlıq Qarabağ münaqişə tərəfi olsaydı, onda Ermənistan tərəfi bəyannaməni imzalamazdı. Bununla yanaşı dövlət başçısı bəyan etdi ki, "Əgər Dağlıq Qarabağın erməni icması iştirak etmək istəyirsə, onda onlar Dağlıq Qarabağın azərbaycanlı icması ilə damşıqlara gedə bilərlər".

17 iyul - Moskvada, "Prezident-otel"də Azərbaycan və Ermənistan prezidentlərinin görüşü olmuşdur. Görüşdə hər iki ölkənin Xarici işlər nazirləri, ATƏT-in Minsk qrupunun həmsədrləri M.Brayza (ABŞ), B.Fasye (Fransa), Y.Merzlyakov (Rusiya), habelə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi A.Kaspşik iştirak etmişlər.

22 iyul - ATƏT-in Minsk qrupunun həmsədrləri Azərbaycan və Ermənistan prezidentlərinin Moskva görüşü ilə əlaqədar bəyanat yaymışlar. Bəyanatda deyilirdi ki, iyulun 17-də keçirilmiş görüşdə prezidentlər təkbətək müzakirələr aparmışlar. Damşıqlar ATƏT-in Minsk qrupunun həmsədrləri Y.Merzlyakov (Rusiya), B.Fasye (Fransa), ABŞ dövlət katibi müavininin köməkçisi M.Brayzanın və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşikin iştirakı ilə aparılmışdır. İyulun 18-də isə danışıqlarda Rusiya Prezidenti Dmitri Medvedev də iştirak etmişdir. Görüşdə tərəflərə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Baza prinsiplərin hələ də razılaşdırılmamış bəzi elementlərini müzakirə etməyə şərait yaradılmışdır. Həmsədrlər hər iki prezidentə bildirmişlər ki, onlar iyul ayının sonunda Polşanın Krakov şəhərində işçi iclası keçirəcəklər. Bu görüşün məqsədi "Akvil bəyannaməsinə" uyğun olaraq, Madrid sənədinin yenilənmiş versiyasını hazırlamaqdır.

27 iyul - Polşanın Krakov şəhərində ATƏT-in Minsk qrupunun həmsədrlərinin işçi görüşü keçirilmişdir. Görüşdə ABŞ, Rusiya və Fransa prezidentlərinin "Böyük səkkizlik" liderlərinin İtaliyanın Akvil şəhərində keçirilmiş toplantısında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı qəbul etdikləri birgə bəyanatına uyğun olaraq, "Madrid prinsipləri"nin yenilənmiş versiyasının hazırlanması məsələləri müzakirə olunmuşdur.

İyul - İslam Konfransı Təşkilatı Gənclər Forumu ilə İSESKO arasında imzalanmış anlaşma nəticəsində Xocalı faciəsi haqqında məlumatların İKT ölkələrinin tarix dərsliklərinə salınması barədə razılıq əldə edilmişdir.

5 oktyabr - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri R.Bradtkeni (ABŞ), B.Fasyeni (Fransa), Y.Merzlyakovu (Rusiya) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşiki qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırki vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.

8 oktyabr - Kişinyovda Azərbaycan və Ermənistan prezidentlərinin görüşü olmuşdur. Hər iki ölkənin Xarici işlər nazirlərinin,

ATƏT-in Minsk qrupunun həmsədrləri R.Bradtke (ABŞ), B.Fasye (Fransa), Y.Merzlyakovun (Rusiya) və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi A.Kaspşikin iştirak etdikləri görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırki vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

10 oktyabr - Sürixdə Türkiyə-Ermənistan münasibətlərinin normallaşdırılmasını özündə əks etdirən protokolların imzalanmasından sonra Baş nazir Rəcəb Tayyib Ərdoğan rəsmən bəyan etdi ki, "Ermənilər işğal altındakı Azərbaycan torpaqlarını azad etməsə, protokolların parlamentdə təsdiqlənməsi mümkün olmayacaq". Türkiyənin dövlət rəsmiləri də Azərbaycanla münasibətləri yüksək qiymətləndirərək bəyan etmişlər ki, "Azərbaycan strateji ortağımızdır və qardaş ölkənin milli maraqlarına zidd olaraq hər hansı bir addım atmayacağıq".

23 oktyabr - ATƏT-in Minsk qrupunun həmsədrləri Y.Merzlyakov (Rusiya), B.Fasye (Fransa) və R.Bradtke (ABŞ) növbəti bəyanat yaymışlar.

5 noyabr - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri B.Fasyeni (Fransa), Y.Merzlyakovu (Rusiya), R.Bradtkeni (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşiki qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı damşıqların hazırki vəziyyəti və perspektivlərinə dair məsələlər müzakirə edilmişdir.

7 noyabr - ATƏT-in Minsk qrupunun həmsədrləri Y.Merzlyakov (Rusiya), B.Fasye (Fransa) və R.Bradtke (ABŞ) regiona səfərlərinin yekunu ilə bağlı bəyanat yaymışlar. Bəyanatda deyilirdi ki, prezidentlər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üçün Baza prinsiplərinin razılaşdırılması istiqamətində müzakirələri davam etdirməyə hazır olduqlarını bir daha bəyan etmişlər. Dövlət başçıları həmsədrlərin növbəti görüşü təşkil etmək təklifini qəbul etmişlər.

17 noyabr - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda məcburi köçkünlər üçün tikilmiş yaşayış binaları kompleksinin açılış mərasimində çıxışında dünya birliyinin bu məsələyə biganə qaldığını vurğulayaraq qeyd etdi ki, beynəlxalq təşkilatlar lazım olan qərarları qəbul etsə də, ancaq onlar icra olunmur və belə olan halda o qətnamələr mənasını

itirir. Dünyada beynəlxalq hüquq normalarının kobudcasına pozulduğunu bildirən Prezident İlham Əliyev Azərbaycan torpaqlarının uzun illər işğal altında qalmasını bunun nəticəsi kimi qiymətləndirdi. Ona görə də ancaq Azərbaycan xalqının iradəsinə, gücünə arxalanmağı bildirən dövlət başçısı bu məqsədlə iqtisadiyyatımızı və ordumuzu gücləndirməyin vacibliyini vurğuladı. Problemin sülh yolu ilə həll olunmasına ümidlərini itirməyən və bu səbəbdən münaqişənin nizama salınmasında dinc vasitələrə üstünlük verdiyini söyləyən Prezident İlham Əliyev qeyd etdi: "Biz danışıqlar aparırıq, ancaq bununla bərabər, hər an torpaqlarımızı işğalçılardan hərbi yolla azad etməyə hazır olmalıyıq".

22 noyabr - Fransanın Münhendəki baş konsulunun iqamətgahında Azərbaycan və Ermənistan prezidentlərinin görüşü olmuşdur. Hər iki ölkənin Xarici işlər nazirlərinin, ATƏT-in Minsk qrupunun həmsədrləri R.Bradtkenin (ABŞ), B.Fasyenin (Fransa), Y.Merzlyakovun (Rusiya), habelə ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi A.Kaspşikin iştirak etdikləri görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırki vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

Prezidentlərin keçirilən son görüşləri zamanı damşıqların mahiyyəti haqqında verilən məlumatlarda bildirilirdi ki, son beş ildə "Praqa prosesi" çərçivəsində işlənilməsi başlamlan və Madrid sənədinə çevrilən Baza prinsipləri mövcuddur. Bu prinsiplərin bəziləri üzrə müəyyən razılaşma əldə edilmişdir. Lakin hazırda prezidentlər səviyyəsində müzakirə olunan bir neçə prinsip üzrə anlaşmanın müəyyən cizgiləri hiss olunur. Bu kontekstdə bütün məsələlərə dair ümumi razılıq əldə olunduqdan sonra yekun hər hansı bir sənədin qəbul ediləcəyi bildirilirdi.

5 dekabr - ATƏT-in Xarici işlər nazirlərinin Afinada keçirilən görüşündə qəbul edilmiş sənəddə münaqişənin ərazi bütövlüyü çərçivəsində həlli göstərilirdi.

11 dekabr - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri R.Bradtkeni (ABŞ), B.Fasyeni (Fransa), Y.Merzlyakovu (Rusiya) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşiki qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağhq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı

aparılan danışıqların hazırki vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.

11 dekabr - ATƏT-in Minsk qrupunun həmsədrləri R.Bradtke (ABŞ), B.Fasye (Fransa) və Y.Merzlyakov (Rusiya) Azərbaycana səfərlərinin yekunlarına dair birgə bəyanatla çıxış etmişlər. Bəyanatda bildirilirdi ki, həmsədrlər və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşik Azərbaycan Prezidenti İlham Əliyevlə görüşmüş və noyabrın 22-də Münhendə keçirilmiş görüşdəki müzakirələri davam etdirmişlər.

2010

1 yanvar - Qazaxıstan (Xarici işlər naziri Kanat Saudabayev) Yunanıstanı ATƏT-in fəaliyyətdə olan sədri qismində əvəz etdi.

21 yanvar - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri R.Bradtkeni (ABŞ), B.Fasyeni (Fransa), Y.Merzlyakovu (Rusiya) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşiki qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırki vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

22 yanvar - ATƏT-in Minsk qrupunun həmsədrləri R.Bradtke (ABŞ), B.Fasye (Fransa) və Y.Merzlyakov (Rusiya) Azərbaycana və Ermənistana səfərlərinin yekunlarına dair birgə bəyanatla çıxış etmişlər.

22 yanvar - ATƏT-in Minsk qrupunun həmsədrləri ATƏT-in fəaliyyətdə olan sədri, Qazaxıstanın Xarici işlər naziri K.Saudabayevlə görüşmüşlər. Həmsədrlər Bakıda və Yerevanda keçirilən görüşlər haqqında geniş məlumat vermiş, münaqişənin həlli ilə bağlı fikirlərini bildirmişlər. K.Saudabayev demişdir ki, münaqişə edən tərəflər və problemin tarixi haqqında geniş məlumatımız vardır və bugünkü vəziyyəti də dərindən anlayırıq.

25 yanvar - Soçinin "Adler" Beynəlxalq hava limanında Azərbaycan və Ermənistan prezidentlərinin görüşü olmuşdur. Hər iki ölkənin Xarici işlər nazirlərinin, ATƏT-in Minsk qrupunun həmsədrlərinin,

habelə təşkilatın fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin iştirak etdikləri görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırki vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

Rusiyanın vasitəçiliyi ilə prezidentlərin bu növbəti görüşündən sonra bildirilirdi ki, münaqişənin nizama salınması istiqamətində danışıqlar ATƏT-in Minsk qrupu həmsədrlərinin 2009-cu ilin dekabr ayında təklif etdiyi yenilənmiş Madrid prinsipləri əsasında aparılmışdır. Bu danışıqlardan sonra Azərbaycan tərəfi Madrid prinsipləri əsasında verilən bu təklifi prinsip etibarı ilə qəbul etmiş, Ermənistan isə verilən təklifə münasibət bildirmək üçün iki həftə vaxt istəmişdi. Ancaq keçən dövr ərzində Ermənistan tərəfdən həmsədrlərin tərəfinə rəsmən heç bir cavab verilməmişdir.

31 yanvar - İslam Konfransı Təşkilatına üzv dövlətlərin Parlament İttifaqının (İKT Pİ) Uqandanın paytaxtı Kampala şəhərində keçirilən və 51 ölkənin parlament heyətləri başçılarının iştirak etdiyi VI sessiyasında forumun təşəbbüsü ilə "İslam Konfransı Təşkilatı Gənclər Forumu ilə İslam Konfransı Təşkilatı Parlament İttifaqı arasında əməkdaşlıq haqqında" qətnamə qəbul edilmişdir.

"Xocalıya ədalət" beynəlxalq kompaniyası çərçivəsində qəbul olunmuş sənəddə Xocalı faciəsinə "erməni silahlı qüvvələri tərəfindən dinc əhalinin kütləvi qətliamı" və "insanlığa qarşı cinayət" kimi qiymət verilmişdir. Qətnamədə "Xocalıya ədalət" beynəlxalq kompaniyasına həm milli, həm də beynəlxalq səviyyədə tam dəstək verməyə çağıran bənd də öz əksini tapmışdır. Bu, beynəlxalq təşkilatlar tərəfindən Xocalı faciəsini "insanhğa qarşı cinayət" kimi tanıyan ilk sənəddir.

Fevral - Heydər Əliyev Fondunun dəstəyi ilə Xocalı faciəsinin ildönümü artıq dünyanın 100-dən çox nöqtəsində qeyd olunmuşdur. Soyqırımına həsr olunmuş silsilə tədbirlər Fondun hazırladığı təbliğat materialları əsasında həyata keçirilmişdir. Heydər Əliyev Fondunun ayrı-ayrı ölkələrdə geniş miqyasda təşkil etdiyi və faciənin həqiqətlərinin yayılmasına yönəldilmiş anım tədbirləri Rusiya Federasiyasındakı nümayəndəlik tərəfindən İslam Konfransı Təşkilatının Əməkdaşlıq və Dialoq Uğrunda Gənclər Forumu çərçivəsində uğurla davam etdirilmişdir.

22 aprel - Moskvada ATƏT-in Minsk qrupunun həmsədrlərinin görüşü olmuşdur. Həmsədrlər görüşün yekunları barədə birgə bəyanatla çıxış etmişlər. ATƏT-in Minsk qrupunun həmsədrlərinin birgə bəyanatında deyilirdi ki, Vaşinqtonda, Bakıda və Moskvada yüksək səviyyədə görüşlər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Madrid prinsipləri əsasında dinc yolla tənzimlənməsi məsələsində irəliləyişə yeni təkan verir. Bəyanatda qeyd edilirdi ki, həmsədrlərin görüşü Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasının vəziyyətini, o cümlədən Vaşinqtonda, Bakıda və Moskvada yüksək səviyyədə görüşlərin nəticələrini müzakirə etmək üçün təşkil olunmuşdur.

22 aprel - Türkiyəyə təzyiqlərin səmərəsiz qaldığını görən Ermənistan tərəfi Sürixdə imzalanmış protokolların müzakirəsinin dondurulması haqqında qərar qəbul etdi.

6 may - ATƏT-in Minsk qrupunun həmsədrləri Y.Merzlyakov (Rusiya), B.Fasye (Fransa) və R.Bradtke (ABŞ) bəyanatla çıxış etmişlər. Bəyanatda bildirilirdi ki, həmsədrlərin mayın 5-də Vyanada Minsk qrupuna üzv olan ölkələrin təmsilçiləri üçün keçirdiyi brifinqdə damşıqların mövcud vəziyyəti barədə məlumat verilmiş, eyni zamanda, münaqişə tərəflərinin Madrid prinsipləri və 2009-cu il iyulun 10-da Akvilldə "Böyük səkkizlər"in sammitində ABŞ, Rusiya və Fransa prezidentlərinin qəbul etdiyi birgə bəyanatda əksini tapmış prinsiplər əsasında irəliləyiş əldə etməyə hazır olduqları həmsədrlər tərəfindən vurğulanmışdır.

16 may - Türkiyənin Baş naziri Rəcəb Tayyip Ərdoğan Azərbaycana səfəri zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Türkiyənin qətiyyətli addımlarının davam etdiriləcəyini bildirərək qeyd etmişdir ki, "Azərbaycanın bu probleminə qardaş Türkiyənin əhəmiyyət verməməsi mümkün deyildir".

20 may - Avropa Parlamenti "Avropa İttifaqının Cənubi Qafqaz strategiyasına dair" 2009/2216 nömrəli qətnamə qəbul etmişdir. Qətnamənin "Dağlıq Qarabağ münaqişəsi" bölməsində qeyd olunmuşdur ki, Avropa Parlamenti Azərbaycan və Ermənistan prezidentlərinin münaqişənin nizamlanması istiqamətində Moskva Bəyannaməsinin ruhuna uyğun olaraq 2009-cu ildə keçirdikləri 6 görüşdə apardıqları danışıqları dəstəkləyir və tərəfləri problemin sülh yolu ilə aradan qaldırılması istiqamətində qarşıdakı

danışıqlar prosesini daha da intensivləşdirməyə, konstruktiv mövqe nümayiş etdirməyə, mövcud status-kvonu aradan qaldırmağa və atəşkəs rejiminə ciddi əməl etməyə çağırır.

Avropa Parlamentinin bu qətnaməsində ATƏT-in Minsk qrupunun həmsədrlərinin səylərinin, Madrid sənədinin əsas prinsiplərinin və 2009-cu il iyulun 10-da "Böyük səkkizliyin" İtaliyanın Akvill şəhərində keçirilmiş sammiti çərçivəsində Minsk qrupunun həmsədrləri olan ölkələrin dövlət başçılarının bəyanatının dəstəkləndiyi bildirilmişdir. Avropa Parlamenti beynəlxalq ictimaiyyəti sülh sazişinə mane olan məsələlərin həllinə kömək göstərməyə çağırmışdır.

Sənəddə Dağlıq Qarabağ müharibəsi zamanı doğma yurdlarından didərgin düşmüş yüz minlərlə qaçqın və məcburi köçkünün pozulmuş insan haqlarından ciddi narahat olduğunu bəyan edən Avropa Parlamenti Ermənistan silahlı qüvvələrinin işğal etdikləri Azərbaycan torpaqlarından dərhal çıxmasını tələb etmiş və məcburi köçkünlərin doğma evlərinə qayıtması prosesi zamanı və keçid mərhələsində əhalinin təhlükəsizliyini BMT Nizamnaməsi əsasında təmin etmək üçün həmin ərazilərdə beynəlxalq qüvvələrin yerləşdirilməsinin vacibliyini vurğulamış, siyasi hakimiyyətləri və icmaların rəhbərlərini məcburi köçkünlərin geri dönməsinə hazırlıq işləri çərçivəsində etnik münasibətlərin normallaşması üçün səyləri artırmağa çağırmışdır.

Qətnamədə münaqişənin beynəlxalq hüquq prinsipləri və dövlətlərin ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyi vurğulanmış və Dağlıq Qarabağın yekun statusu müəyyənləşdirilənədək ona müvəqqəti status verilməsi qeyd olunmuşdur.

26 may - Avropa Şurası Nazirlər Komitəsinin sədri qondarma "Dağlıq Qarabağ Respublikası"nda keçirilmiş qeyri-qanuni "parlament seçkiləri" ilə bağlı Strasburqda verdiyi bəyanatda, Nazirlər Komitəsinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsi istiqamətində ATƏT-in Minsk qrupunun və onun həmsədrlərinin səylərini tamamilə dəstəklədiyini bildirmiş və "seçkilərin" beynəlxalq təşkilatlar tərəfindən tanınmadığını bəyan etmişdir. Bununla yanaşı, sənəddə Nazirlər Komitəsi bütün partiyaları, o cümlədən Avropa Şurasına üzvlüyə qəbul edilərkən Dağlıq Qarabağ münaqişəsinin həlli ilə

bağlı qurum qarşısında öhdəlik götürmüş Ermənistan və Azərbaycanı münaqişənin həllini tapmaq yolunda səylərini əsirgəməməyə çağırmışdır.

17 iyun - Sankt-Peterburqda Rusiya Prezidentinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan prezidentlərinin görüşü keçirilmişdir. Bununla yanaşı, Azərbaycan Prezidenti İlham Əliyev Sankt-Peterburqda onun üçün ayrılmış iqamətgahda ATƏT-in Minsk qrupunun həmsədrləri R.Bradtkeni (ABŞ), B.Fasyeni (Fransa), İ.Popovu (Rusiya) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşiki qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırki vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

26 iyun - ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələrin "Böyük səkkizlər"in Torontoda (Muskokda) keçirilən sammitində qəbul etdikləri birgə bəyanatda münaqişə tərəflərinə təqdim olunmuş yenilənmiş Madrid prinsiplərinə istinad edilir. Bu prinsiplərə görə Ermənistan qoşunları işğal edilmiş rayonlardan çıxmalı, qaçqınlar öz yurdlarına qayıtmalı, münaqişə bölgəsində sülhməramlı qüvvələr yerləşdirilməli, Dağlıq Qarabağa özünüidarəetmə imkanı yaradan aralıq status verilməli, yekun statusun müəyyənləşdirilməsi isə növbəti mərhələdə müzakirə edilib həyata keçirilə bilər.

İyun - Avropa Şurası Parlament Assambleyasının yay sessiyasında qurumun prezidenti Mövlud Çavuşoğlu Dağlıq Qarabağa dair Alt komitənin fəaliyyətinin yenidən bərpa olunacağını bəyan etmişdir.

5 iyul - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri R.Bradtkeni (ABŞ), B.Fasyeni (Fransa), İ.Popovu (Rusiya) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşiki qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan damşıqların hazırki vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.

6 iyul - ATƏT-in Minsk qrupunun həmsədrləri R.Bradtke (ABŞ), B.Fasye (Fransa) və İ.Popov (Rusiya) birgə bəyanatla çıxış etdilər. Bəyanatda həmsədrlər Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində irəliləyişin olduğu barədə fikirlərini bildirdilər. Sənəddə ABŞ, Rusiya və

Fransa prezidentlərinin birgə bəyanatının Dağlıq Qarabağ münaqişəsinin həllində əsas olduğu bildirilir. Həmsədrlər sülh razılığı layihəsinin hazırlığına başlanması üçün tərəfləri konstruktiv güzəştlərə, növbəti addım atmağa, irəliyə doğru getməyə, eləcə də 1994-cü ildə imzalanmış atəşkəs rejiminə ciddi şəkildə riayət etməyə çağırmışlar.

6 sentyabr - Azərbaycanda səfərdə olan Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Piter Semnebi Avropa İttifaqının cəbhə xəttində baş verən hadisələrdən narahatlığını ifadə edən bəyanatla çıxış etmişdir. Bəyanatda son vaxtlar cəbhədə atəşkəsin tez-tez pozulması və baş verən digər insidentlərdən narahatlıq ifadə olunur, sülh damşıqlarına diqqəti cəmləmək üçün bunu yaxşı istiqamətə yönəltməyin lazım olduğu bildirilir.

7 sentyabr - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri İ.Popovu (Rusiya), R.Bradtkeni (ABŞ), B.Fasyeni (Fransa) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşiki qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

7 sentyabr - ATƏT-in fəaliyyətdə olan sədri, Qazaxıstanın Xarici işlər naziri K.Saudabayev bəyanatla çıxış etmişdir. Sənəddə son vaxtlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zonasındakı təmas xətti boyunca atəşkəs rejiminin pozulmasım qətiyyətlə pislənmiş, hər iki tərəfdən insan itkilərinin sayının artmasmın ciddi narahatlıq yaratdığı bildirilmişdir. Eyni zamanda, ATƏT-in fəaliyyətdə olan sədri qeyd etmişdir ki, istənilən atəşkəs pozuntusu konstruktiv dialoqun fəallaşdırılması imkanlarını məhdudlaşdırmaqla, Minsk qrupu çərçivəsində aparılan danışıqlar prosesini pozur.

10 sentyabr - ATƏT-in Minsk qrupunun həmsədrləri R.Bradtke (ABŞ), B.Fasye (Fransa) və İ.Popov (Rusiya) regiona son səfərlərinin yekunu ilə bağlı bəyanat yaymışlar. Bəyanatda ATƏT-in Minsk qrupunun həmsədrlərinin sentyabrın 6-dan 9-dək Bakıya, Yerevana və Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə səfəri zamanı ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi A.Kaspşik, tərəflərin hərbi nümayəndələri, eləcə də həmsədrlərin qoşunlarm təmas xəttindən piyada Xankəndinə keçdikləri bildirilir.

Bu, vasitəçilərin 2001-ci ilin noyabrından indiyədək təmas xəttini keçdikləri ikinci hal olmuşdur. Həmsədrlər səfər zamanı qarşıdakı ayların iş planını təqdim etmişlər. Onlar vurğulamışlar ki, planlarını reallaşdırmaq və ATƏT-in dekabrda keçiriləcək sammitinə qədər olan müddətdə irəliləyiş əldə etmək üçün tərəflərin daha konstruktiv yanaşmasına ehtiyac olacağını, bir daha qəti şəkildə tərəflərdən atəşkəsə hörmətlə yanaşmağı və təmas xəttində təmkinli olmağı xahiş etmişlər.

6 oktyabr - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupu həmsədrlərinin Dağlıq Qarabağ ətrafındakı ərazilərdə qiymətləndirici missiyasının üzvlərini, ATƏT-in Minsk qrupunun həmsədrləri İ.Popovu (Rusiya), R.Bradtkeni (ABŞ), B.Fasyeni (Fransa) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşiki qəbul etmişdir. Görüşdə Azərbaycan Prezidenti İlham Əliyev 2005-ci ildə ATƏT-in faktaraşdırıcı missiyasının işğal olunmuş ərazilərdə olarkən oradakı dağıntılar barədə hazırladığı məruzənin əhəmiyyətini qeyd etmişdir.

14 oktyabr - ATƏT-in Minsk qrupunun həmsədrləri İ.Popov (Rusiya), B.Fasye (Fransa) və R.Bradtke (ABŞ) Dağlıq Qarabağ ətrafındakı ərazilərə səfər etmiş qiymətləndirici missiya ilə bağlı bəyanat yaymışlar. Birgə bəyanatda bildirilir ki, həmsədrlər Dağlıq Qarabağın ətrafındakı işğal olunmuş ərazilərə planlaşdırılmış qiymətləndirici missiyanı oktyabrın 7-dən 13-dək olan müddətdə tərəflərlə əvvəlcədən müzakirə edilmiş şərtlər altında həyata keçirmişlər.

27 oktyabr - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Həştərxanda ATƏT-in Minsk qrupunun həmsədrləri R.Bradtkeni (ABŞ), B.Fasyeni (Fransa), İ.Popovu (Rusiya) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşiki qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırki vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

27 oktyabr - Rusiya Federasiyası Prezidentinin dəvəti ilə Azərbaycan, Ermənistan və Rusiya prezidentləri Həştərxanda görüşmüş və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin gedişini və perspektivlərini hərtərəfli müzakirə etmişlər. Prezidentlər 2008-ci il noyabrın 2-də Moskvada imzalanmış birgə bəyannamənin

müddəalarını təsdiqləyərək vurğulamışlar ki, münaqişənin siyasi-diplomatik vasitələrlə tənzimlənməsi atəşkəs rejiminin və hərbi sahədə etimad tədbirlərinin möhkəmlənməsi üçün səylərin davam etdirilməsini tələb edir.

Bu məqsədlə Azərbaycan Respublikasının və Ermənistan Respublikasının prezidentləri birinci addım kimi ATƏT-in Minsk qrupunun həmsədrlərinin və Beynəlxalq Qızıl Xaç Komitəsinin dəstəyi ilə hərbi əsirlərin dərhal dəyişdirilməsi və həlak olanların cəsədlərinin qaytarılması, eləcə də bu cür məsələlərin müstəsna humanitar xarakterini nəzərə alaraq gələcəkdə bu yanaşmaları rəhbər tutmaq barədə razılığa gəlmişlər.

7 noyabr - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Qəhrəman Mübariz İbrahimov və baş leytenant Fərid Əhmədovun vida mərasimində Azərbaycanın ərazi bütövlüyünün heç vaxt aparılan danışıqların mövzusu olmadığını və bundan sonra da olmayacağım vurğulayaraq, ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyini bir daha bəyan etmişdir. Dağlıq Qarabağın bizim doğma, əzəli torpağımız olduğunu, əsrlər boyu Azərbaycan xalqının Dağlıq Qarabağda və ətraf bölgələrdə yaşadığını, eləcə də İrəvan xanlığı, Zəngəzur mahalının bizim tarixi torpaqlarımız olduğunu və bugünkü Ermənistan dövlətinin tarixi Azərbaycan torpaqları üzərində qurulduğunu bildirərək, qeyd etmişdir ki, biz heç vaxt imkan verə bilmərik ki, doğma torpağımız olan Dağlıq Qarabağda ikinci erməni dövləti yaradılsın.

Eyni zamanda, dövlət başçısı İlham Əliyev münaqişənin nizama salınması istiqamətində aparılan danışıqlar prosesi haqqında bildirmişdir: "Biz danışıqları sadəcə olaraq danışıqlar naminə aparmayacağıq. Damşıqların imitasiyası ilə məşğul olmaq üçün Ermənistana imkan verməyəcəyik. Biz o vaxta qədər danışıqlar aparacağıq ki, ərazi bütövlüyümüzü bu yolla bərpa edə biləcəyimizə ümidimiz qalacaqdır. Əgər görsək ki, bu mümkün deyil, onda Azərbaycan dövləti hərbi yoldan istifadə edərək, öz ərazi bütövlüyünü bərpa edəcəkdir. Mən şübhə etmirəm ki, bunun üçün bizdə bütün imkanlar – döyüş hazırlığı, maddi-texniki təchizat, kifayət qədər silah-sursat, peşəkar ordu, ruh yüksəkliyi və Azərbaycan xalqının iradəsi vardır. Biz ərazi bütövlüyümüzü istənilən anda hərbi yolla bərpa edə bilərik. Düşmən də bunu bilməlidir və bilir".

11 noyabr - ATƏT-in Daimi Şurasının Vyanada keçirilə iclasında Minsk qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan səd in xüsusi nümayəndəsi A.Kaspşik illik hesabatla çıxış etmişlər. A.Kaspş çıxışında bildirmişdir ki, ötən ilin noyabrından indiyədək keçən dövrd ışunların təmas xəttində vəziyyət sabit, lakin gərgin olmuşdur. Həmsədrl .Bradtke (ABŞ), B.Fasye (Fransa) və İ.Popov (Rusiya) çıxışların hesabat dövründə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ mü qişəsinin nizamlanması ilə bağlı Ermənistan və Azərbaycan arasında eçirilmiş görüşlər, eləcə də aparılan danışıqlar barədə məlumat vermişlər.

19-20 noyabr - NATO-nun Lissabonda keçirilən Zirvə toplantısında qəbul edilən Yekun Bəyannamənin 35-ci maddəsində də Şimali Atlantika Alyansı Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyini tanıdığını bir daha təsdiq etməklə yanaşı, sənəddə Alyansın Cənubi Qafqaz və Moldovada münaqişələrin hələ də davam etməsindən narahat olduğu bildirilir və bütün tərəflər bu məsələlərdə konstruktivlik, eləcə də siyasi iradə nümayiş etdirərək, bu münaqişələri sülh yolu ilə həll etməyə, hazırda gedən danışıqlara hörmətlə yanaşmağa, eləcə də regional sabitliyi və təhlükəsizliyi poza biləcək addımlardan çəkinməyə çağırılır.

25 noyabr - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri R.Bradtkeni (ABŞ), B.Fasyeni (Fransa), İ.Popovu (Rusiya) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşiki qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırki vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.

29 noyabr - ATƏT-in fəaliyyətdə olan sədri, K.Saudabayev Astanada (Qazaxıstan) ATƏT-in Minsk qrupunun həmsədrləri R.Bradtke (ABŞ), İ.Popov (Rusiya) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşiklə görüşmüşdür. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələləri geniş müzakirə edilmişdir.

1-2 dekabr - Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in Astana sammitindəki son çıxışında bəyan etmişdir ki, Ermənistanın danışıqlar prosesindəki davranışı bu dövlətin sülh istəmədiyini, işğal edilmiş

ərazilərı azad etmək fikrində olmadığını və bacardığı qədər status-kvonu saxlayaraq danışıqlar prosesini müddətsiz etməyi arzuladığını göstərir. Eyni zamanda, dövlət başçısı İlham Əliyev münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində beynəlxalq hüquq prinsiplərinə əsaslanaraq həll olunmasına hazır olduğunu bir daha vurğulamışdır.

ATƏT-in Astanada keçirilən sammiti ilə əlaqədar ATƏT-in Minsk qrupunun həmsədrləri olan ölkələrin nümayəndə heyətlərinin başçıları, Azərbaycan və Ermənistan prezidentləri birgə bəyanat qəbul etmişlər.

Sənəddə Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə yönəlmiş daha qətiyyətli tədbirlər görmək vaxtının çatdığı, bununla əlaqədar Azərbaycan, Ermənistan və Rusiya Federasiyası prezidentlərinin 2 noyabr 2008-ci il tarixli (Moskva) və 27 oktyabr 2010-cu il tarixli (Həştərxan) bəyanatlarına istinad edildiyi vurğulanaraq, danışıqlar yolu ilə dinc tənzimləmənin regionda sabitliyi və xalqların təhlükəsizliyini təmin edəcəyi və onların arasında barışığa nail olmaq üçün yeganə imkan olacağı bildirilmişdir.

Bununla yanaşı, bəyanatda Ermənistan və Azərbaycan prezidentləri Dağlıq Qarabağ münaqişəsini beynəlxalq hüququn prinsipləri və normaları, BMT Nizamnaməsi, Helsinki Yekun Aktı, eləcə də Rusiya, Fransa, ABŞ prezidentlərinin 2009-cu il iyulun 10-da Akvillə və 2010-cu il iyunun 26-da Muskokda verdikləri bəyanatlar əsasında qəti tənzimləməyə çalışmaq öhdəliklərini təsdiq edir və üç həmsədr ölkənin dinc tənzimləməyə nail olmaq üçün zəruri qərarlar qəbul edən Azərbaycan və Ermənistan prezidentlərini dəstəklədiyi qeyd olunmuşdur.

Eyni zamanda, sənəddə Ermənistan və Azərbaycan rəhbərləri səylərini Əsas Baza Prinsiplərində hələ qalan mübahisəli məsələlərin həlli üzərində yeni qüvvə ilə cəmləşdirməyə çağırılır və həmsədrlərə münaqişə tərəflərinin bu səylərini həyata keçirmələrinə kömək etmək üçün onlarla işi davam etdirməyi tapşırılmaqla yanaşı, damşıqların keçdiyi atmosferi yaxşılaşdırmaq üçün tərəflər atəşkəs rejiminin möhkəmlənməsinə və bütün sahələrdə etimad tədbirlərinin həyata keçirilməsinə yönəlmiş əlavə addımlar atmağa çağırılırdı.

6 dekabr - Litvanın Xarici işlər naziri A.Ajubalis Vilnüsdə ATƏT-in Minsk qrupu həmsədrləri R.Bradtke (ABŞ), B.Fasye (Fransa) və İ.Popov (Rusiya), eləcə də ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşik ilə görüşmüşdür. Görüşdə Cənubi Qafqazda münaqişələr, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair məsələ müzakirə edilmişdir.

2011

1 yanvar - Litva (Xarici işlər naziri A.Ajubalis) Qazaxıstanı ATƏT-in fəaliyyətdə olan sədri qismində əvəz etdi.

6 yanvar - Polşa Xarici İşlər Nazirliyi Azərbaycana səfər etmək istəyən vətəndaşlarına regiondakı vəziyyət barədə məlumat vermişdir. Məlumatda deyilir ki, beynəlxalq hüquqa əsasən, Dağlıq Qarabağ Azərbaycan Respublikasının tərkib hissəsidir. Azərbaycan hökumət orqanlarının razılığı olmadan işğal olunmuş ərazilərə səfər Azərbaycan Respublikasının dövlət sərhədinin qanunsuz keçilməsi kimi qiymətləndiriləcək.

14 yanvar - Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2010-cu ilin yekunlarına həsr olunmuş iclasında çıxışı zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında bildirmişdir: "Ermənistan tərəfi, demək olar ki, danışıqları pozmaq istəyir. Danışıqlar masasında əvvəlcə razılaşdırılmış məsələlərə yenidən qayıtmaq istəyir, vaxtı uzatmaq istəyir. Bir sözlə, bizdə belə fikir yaranır ki, Ermənistan işğal olunmuş torpaqları azad etmək istəmir, çalışırlar nə qədər mümkündürsə, o torpaqları işğal altında saxlasınlar".

Dövlət başçısı Dağlıq Qarabağın əzəli Azərbaycan torpağı olduğunu, eləcə də beynəlxalq birlik tərəfindən Azərbaycan torpağı kimi tanındığını bir daha bəyan edərək qeyd etmişdir ki, Azərbaycan dövləti heç vaxt imkan verməyəcək ki, ikinci erməni dövləti yenə də Azərbaycanın tarixi torpaqlarında yaradılsın. Bu məsələnin heç vaxt danışıqlar mövzusu olmadığını və heç vaxt olmayacağını bildirən Azərbaycan Prezidenti məsələnin həlli üçün Ermənistanın öz işğalçı qüvvələrini zəbt edilmiş

torpaqlardan çıxarmasını və ondan sonra sülh yarana biləcəyini vurğulamışdır.

Dövlət başçısı bəyan etmişdir: "Azərbaycan vətəndaşları öz doğma torpaqlarına qayıtmalıdırlar, o cümlədən Dağlıq Qarabağa qayıtmalıdırlar, Dağlıq Qarabağda muxtariyyət şəraitində yaşamalıdırlar. Bütün sivil ölkələrdə olduğu kimi, orada da işlər bütün demokratik prinsiplər əsasında təşkil edilməlidir. Bundan kənarda məsələnin heç bir başqa istiqamətdə həlli mümkün deyildir. Azərbaycan buna razılaşmayacaqdır".

14 yanvar - Avropa Komissiyasının rəhbəri Joze Manuel Barrozu Bakıda verdiyi müsahibəsində Avropa İttifaqının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının gedişindən narahat olduğunu və Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, dinc yolla həllini dəstəklədiyini bildirmişdir. Joze Manuel Barrozu münaqişənin həllində ATƏT-in Minsk qrupunun səylərini tam dəstəklədiyini və nizamlanmaya dair yekun saziş qəbul edildikdən sonra infrastrukturların bərpasına texniki yardım göstərməyə də hazır olduğunu vurğulamışdır.

19 yanvar - ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, Xocavənd rayonu ilə Füzuli rayonunun sərhədində, Füzulinin işğal altındakı Aşağı Veysəlli kəndi yaxınlığında monitorinq keçirilmişdir. Monitorinqdə Azərbaycan tərəfdən ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səhra köməkçiləri, qarşı tərəfdə isə səfir A.Kaspşik müşahidə aparmışdır. Missiya üzvləri ilə Beyləqan rayonunda yerləşən Xocavənd İcra Hakimiyyətində hərbçilərin iştirakı ilə keçirilən görüşdə ATƏT nümayəndələrinə bildirmişdir ki, ermənilər əvvəllər olduğu kimi, atəşkəs rejimini pozmaqda davam edir. 2010-cu ilin avqust ayında keçirilən sonuncu monitorinqdən keçən dövr ərzində ermənilər bu istiqamətdə atəşkəs rejimini ümumilikdə 400 dəfə pozmuşlar.

19 yanvar - Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu Dabidə İslam Konfransı Təşkilatı Parlament İttifaqı (İKT Pİ) Şurasının XIII sessiyası keçirilmişdir. Sessiyada Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət"

beynəlxalq kampaniyasına dəstək olaraq Xocalı faciəsini "insanlığa qarşı törədilmiş kütləvi cinayət" kimi tanımağa çağıran Əbu Dabi Bəyannaməsi qəbul edilmişdir. Bəyannamənin 3-cü bəndində deyilir ki, İKT Pİ Şurasının üzvü olan dövlətlərin parlamentləri erməni silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının Xocalı şəhərində azərbaycanlı dinc əhaliyə qarşı törədilmiş kütləvi qırğını "insanlığa qarşı törədilmiş cinayət" kimi tanıyır.

24 yanvar - Rusiya, Azərbaycan və Ermənistanın Xarici işlər nazirlərinin Moskvada keçirdikləri görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının gedişi müzakirə edilmişdir.

24 yanvar - Avropa Birliyinin Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi P.Semnebi bildirmişdir: "Biz Dağlıq Qarabağ ətrafındakı vəziyyətdən narahatıq. Cəbhədəki hər bir insident göstərir ki, münaqişənin həlli üçün daha çox cəhd göstərmək lazımdır".

25 yanvar - Avropa Şurasının baş katibi T.Yaqland bəyanat vermişdir. Bəyanatda göstərilir ki, "Qarabağ münaqişəsi zonasında vəziyyət nəzarətdən çıxa bilər. Son aylar qoşunların təmas xəttində insan tələfatı ilə nəticələnmiş insidentlər daha pis vəziyyətə aparıb çıxara bilər. Münaqişə tam həllini tapmayanadək bölgədə müharibənin bərpası riski qalacaqdır". Həm Azərbaycan, həm də Ermənistanın Avropa Şurasına üzv olan zaman problemin sülh yolu ilə həllinə dair öhdəlik götürdüyü qeyd edilən sənəddə danışıqlar prosesinin ATƏT-in Minsk qrupu çərçivəsində aparıldığı və nizamlanmanın Avropa Şurasının səlahiyyətləri çərçivəsində olmadığı bildirilməklə yanaşı, sülhün əldə edilməsi istiqamətindəki bütün səyləri artırmaq üçün qanunun aliliyini də təmin etməyin olduqca vacibliyi qeyd edilmişdir.

25 yanvar - Türkiyə Prezidenti Abdullah Gül Avropa Şurası Parlament Assableyasının (AŞPA) qış sessiyası çərçivəsində çıxışında Azərbaycan torpaqlarının 20%-nin Ermənistan tərəfindən işğalı faktının BMT Təhlükəsizlik Şurasının qətnamələrində təsbit olunduğu və tanındığı, eləcə də bu işğala son qoyulmasının tələb olunduğunu bildirmişdir. Türkiyə Prezidenti bunu gərəksiz hadisə kimi bir kənara qoymağın mümkün olmadığını və Azərbaycanın ərazi bütövlüyünün hamı tərəfindən tanındığını, Ermənistanın işğal etdiyi torpaqların Azərbaycana aid olduğunu

xüsusi vurğulayaraq, Qafqazın təhlükəsiz əməkdaşlığa dayanan regiona çevrilməsinin vacib olduğunu qeyd etmişdir.

27 yanvar - Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və İşçi qrupunun 2010-cu ildəki fəaliyyəti ilə bağlı hesabat yayılmışdır. Hesabatda bildirilir: "Azərbaycan Respublikasının, Ermənistan Respublikasının və Rusiya Federasiyası Prezidentlərinin Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair 27 oktyabr 2010-cu il tarixli birgə bəyanatına uyğun olaraq, eyni zamanda, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının beynəlxalq təşkilatlarla apardığı müntəzəm və səmərəli danışıqların nəticəsində tərəflər qarşılıqlı olaraq 4 nəfərin meyidinin qaytarılmasını və 1 nəfər mülki şəxsin azad olunmasını həyata keçiriblər. Hazırda Azərbaycan Respublikasının ərazisində 6 Ermənistan hərbçisi, 5 nəfərdən ibarət bir erməni ailəsi və bir erməni mülki şəxs (cəmi 12 nəfər) saxlanılır. 2010-cu il dekabrın 1-nə olan məlumata görə, Dövlət Komissiyasında qeydiyyatdan 4048 nəfər itkin düşmüş, 1399 nəfər əsir və girovluqdan azad olunmuş şəxs kimi keçmişdir".

27 yanvar - Avropa Şurası Parlament Assableyasında Xocalı soyqırımının ildönümü ilə bağlı yazılı bəyannamə qəbul edilmişdir. Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin hazırladığı və Assambleyanın müxtəlif ölkələrindən olan 25-dən artıq millət vəkilinin imzası ilə qəbul olunmuş AŞPA-nın 469 saylı yazılı bəyannaməsində deyilir: "Xocalı soyqırımı bəşəriyyətin tamdığı amansız soyqırım kimi Azərbaycan tarixinin ən dəhşətli, faciəli səhifələrindən biridir. 19 il bundan əvvəl 1992-ci il fevralın 26-da Ermənistan silahlı qüvvələri 366-cı motoatıcı alayın yardımı ilə Azərbaycanın Xocalı şəhərini işğal etdi və yüzlərlə günahsız insanı etnik mənsubiyyətinə görə vəhşicəsinə qətlə yetirərək soyqırımı törətdi. Bu soyqırım zamanı 613 insan, o cümlədən 106 qadın, 63 uşaq və 70 yaşlı insan vəhşicəsinə qətlə yetirildi, təxminən 1000-ə yaxın mülki vətəndaş əlil oldu, 8 ailə tamamilə məhv edildi, 130 uşaq valideynlərindən birini, 25 uşaq isə hər ikisini itirdi. 1275 mülki vətəndaş əsir alındı. 150 insan haqqında hələ də məlumat yoxdur. Bu hadisələr nəticəsində Xocalı şəhəri tamamilə dağıdılaraq məhv edildi. Yuxarıda

sadalanan bu faktlar bəşəriyyətə qarşı törədilmiş bu cinayətlə bağlı düzgün və ədalətli siyasi və hüquqi qiymətin verilməsini tələb edir".

AŞPA-nın 469 saylı yazılı bəyannaməsi ingilis və fransız dillərində qurumda yayılmaqla yanaşı, Assambleyanın iclasında da elan edilmişdir.

27 yanvar - Ermənilər Ağdam rayonunun işğal altındakı ərazilərində yanğın törətmişlər. Yanğınlar işğal altında olan Kəngərli kəndinin əhatəsindəki bir neçə yerdə müşahidə olunmuşdur.

28 yanvar - Avropa Şurası Parlament Assambleyasının qış sessiyası çərçivəsində qurumun Bürosunun iclasında Dağlıq Qarabağ üzrə Alt Komitənin fəaliyyətinin yenidən bərpa edilməsi müzakirə olunmuşdur. Müzakirələrin sonunda Büro Alt Komitənin yenidən fəaliyyətə başlaması haqqında qərar vermiş və İspaniyadan olan deputat, Liberallar Partiyasının üzvü Jordi Xucla i Costa Komitənin yeni sədri seçilmişdir. Ermənistan isə Alt Komitənin yaranmasmın əleyhinə səs vermişdir.

28 yanvar - Rusiya, Azərbaycan və Ermənistanın Xarici işlər nazirlərinin Moskva görüşü ilə bağlı Rusiyanın açıqlamasında bildirilir ki, görüşdə prezidentlərin 2010-cu il oktyabrın 27-də verdikləri tapşırıqlar əsasmda Dağlıq Qarabağ münaqişəsinin həlli yolları müzakirə edilmişdir.

4 fevral - Ermənilər işğal olunmuş Azərbaycan ərazilərində genişmiqyaslı hərbi təlimlər keçirmişlər. Təlimlərin keçmiş Ağdərə rayonunun işğal altında olan "3 saylı sovxoz" adlanan ərazisində keçirildiyi bildirilir.

9 fevral - Azərbaycan Müdafiə nazirliyi bəyanat vermişdir. Sənəddə deyilir: "Nə qədər ki, işğalçı Ermənistana beynəlxalq təşkilatlar tərəfindən təsirli təzyiqlər göstərilməyəcək, bölgədə təhlükəli vəziyyətin inkişaf edəcəyi qaçılmazdır. Son 10-15 ildə beynəlxalq qurumların apardıqları diplomatik davranışlar öz konkret səmərəsini verməmiş və Ermənistan işğalçılıq siyasətini yenə də davam etdirir".

10 fevral - Goranboyda məcburi köçkünlər üçün salınmış yaşayış binalarının açılışında Azərbaycan Respublikası Prezidenti İlham Əliyev nitqində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında bildirmişdir: "...Ermənistanın qeyri-konstruktiv mövqeyi və müxtəlif yollarla danışıqları uzatmaq taktikası hələlik imkan vermir ki, məsələ öz

həllini tapsın. Lakin Azərbaycanın ərazi bütövlüyünün bərpası mütləq baş verəcək, bütün beynəlxalq təşkilatlarda bizim mövqeyimiz üstünlük təşkil edir, beynəlxalq hüquq normaları bizim tərəfimizdədir. Biz bundan sonra da bütün imkanlardan istifadə edərək, ərazi bütövlüyümüzün tezliklə bərpası üçün səylərimizi davam etdirəcəyik".

10 fevral - Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi P.Semnebi Vyanada ATƏT Daimi Şurasının iclasında çıxışında Cənubi Qafqaz regionunda həlli uzadılmış münaqişələrin əvvəlki kimi regionda stabillik üçün əsas təhlükələrdən biri olduğunu və Dağlıq Qarabağda təhlükəsizliklə bağlı vəziyyətin xüsusi olaraq narahatlıq doğurduğunu bildirmişdir.

11 fevral - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri B.Fasyeni (Fransa), İ.Popovu (Rusiya), R.Bradtkeni (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşiki qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırki vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

11 fevral - ATƏT-in Minsk qrupunun həmsədrləri fevralın 8-11-də Bakı və Yerevana səfərlərinin nəticələri barədə bəyanat yaymışlar. Bəyanatda 2010-cu ilin oktyabr ayında Həştərxan görüşündən sonra başlayan fəaliyyət nəticəsində münaqişənin həlli istiqamətində müsbət irəliləyişlər əldə olunduğu bildirilmişdir. Bununla əlaqədar həmsədrlər münaqişənin sülh yolu ilə həllində yeni mərhələyə keçmək üçün tərəfləri növbəti irəliləyişlər əldə etməyə çağırmışlar.

Sənəddə göstərilir ki, həmsədrlər münaqişənin sülh yolu ilə həlli üçün tərəflərin vacib qərarlar qəbul etmələrinə bütün dəstəyi göstərəcəklər. Bəyanatda qeyd edilir ki, həmsədrlər həm Yerevanda, həm də Bakıda keçirilmiş görüşlərdə Dağlıq Qarabağ münaqişəsinin həlli üçün qətiyyətli addımlar atmağın vaxtı çatdığını bildirmişlər.

14 fevral - ABŞ-dakı Azərbaycan və Türkiyə icmaları Senat və Nümayəndələr Palatasına minlərlə məktub göndərərək Ermənistan tərəfindən işğal olunmuş Azərbaycanın Dağlıq Qarabağ bölgəsindəki separatçılara (əslində cinayəkar rejimə) yardımı dayandırmağı tələb etmişlər.

15 fevral - Azərbaycan Respublikası Prezidenti İlham Əliyev "Mir" Dövlətlərarası Teleradio Şirkətinə müsahibəsində indiki halda Dağlıq Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünün bütün dünya, bütün ölkələr tərəfindən, eləcə də BMT-yə üzv qəbul ediləndə sərhədlərimizin məhz mövcud çərçivədə tamndığını və Dağlıq Qarabağın praktik olaraq bizim ölkənin ortasında yerləşdiyini qeyd edərək, Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməli olduğunu. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin, eləcə də digər beynəlxalq təşkilatların qətnamə və qərarlarının da bu tezisi təsdiq etdiyini bildirmişdir.

Azərbaycan Prezidenti qeyd etmişdir ki, erməni tərəfi məsələyə konstruktiv yanaşarsa və Dağlıq Qarabağın müstəqilliyinin mümkünsüzlüyü barədə tezisi tamamilə başa düşər və qəbul edərsə, biz irəliləyişə nail olacağıq. Lakin əgər bizim qarşımıza məqbul olmayan şərtlər qoyularsa, sesessiya haqqında, separatizm haqqında, Dağlıq Qarabağın müstəqilliyinin hüquqi cəhətdən rəsmiləşdirilməsinə Azərbaycanın razılaşması haqqında məsələlər qoyularsa, onda, təbii ki, danışıqların perspektivləri olmayacaqdır.

16 fevral - ATƏT-in fəaliyyətdə olan sədri, Litvanın Xarici işlər naziri A. Ajubalis BMT-nin Təhlükəsizlik Şurasındakı çıxışında bildirmişdir ki, Dağlıq Qarabağ münaqişəsi ətrafında artan gərginlik təşviş yaradır. Eyni zamanda, A.Ajubalis bu uzadılmış münaqişənin Minsk qrupu həmsədrlərinin daha fəal iştirakı ilə nizamlanmasında ATƏT-in rolunun davam edəcəyini qeyd edərək münaqişə tərəflərini etibarın möhkəmlənməsi üzrə tədbirlər görməyə, o cümlədən snayperlərin təmas xəttindən təxirə salınmadan çıxarılmasına və ATƏT-in monitorinqlər üzrə fəaliyyətinin möhkəmləndirməsinə çağıracağını bildirmişdir.

16 fevral - ATƏT-in Minsk qrupunun həmsədri olan Fransanın Xarici İşlər Nazirliyinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair qəbul etdiyi sənəddə Dağlıq Qarabağ bölgəsi Azərbaycanın işğal edilmiş ərazisi adlandırılır, eləcə də qeyd edilir ki, əhalisinin əksəriyyəti ermənilər olan Dağlıq Qarabağ Azərbaycanın lap mərkəzində yerləşir və Azərbaycan ərazisinin təqribən 20 faizi işğal edilmişdir. Azərbaycanın Ermənistanla həmsərhəd rayonları da işğal edilmiş ərazilər adlandırılır. Dağlıq Qarabağ məsələsi Azərbaycanm daxili siyasət

məsələsi, regionda həll edilməmiş münaqişə isə Ermənistanla münaqişə kimi göstərilmişdir.

16 fevral - Almaniya və Fransa Xarici İşlər Nazirlikləri ölkə vətəndaşlarını Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ regionuna və ətrafdakı 7 rayona səfər etməkdən çəkinməyə çağırmışdır.

17 fevral - ATƏT-in fəaliyyətdə olan sədri A.Ajubalis ABŞ-ın dövlət katibi Hillari Klinton ilə görüşündə bildirmişdir ki, ATƏT məkanında həlli uzadılmış münaqişələrin, o cümlədən Dağlıq Qarabağ probleminin nizamlanması istiqamətində səylər artırılmalıdır. Eyni zamanda, A.Ajubalis bildirmişdir ki, bu məsələ Litvanın ATƏT-də sədrliyi dövründə əsas prioritet istiqamətlərdən biri olacaqdır. Dağlıq Qarabağ və ona bitişik rayonlarda gərginliyin azaldılmasında, münaqişənin sülh yolu və əldə olunmuş razılıqlar əsasında həll edilməsində ATƏT-in Minsk qrupunun həmsədrlərinin fəal iştirakı vacib məsələdir.

18 fevral - İtaliya, İspaniya və Macarıstan Xarici İşlər Nazirlikləri ölkə vətəndaşlarının Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ regionuna və ətrafdakı yeddi rayona səfər etməkdən çəkinməsinə dair çağırış etmişdir.

19 fevral - Kanada Xarici İşlər və Beynəlxalq Ticarət Nazirliyi öz vətəndaşlarına Azərbaycamn işğal olunmuş Dağlıq Qarabağ regionuna və ətraf rayonlara getməkdən çəkinməyə çağırmışdır.

19-26 fevral - Türkiyənin ayrı-ayrı şəhərlərində "Xocalı həftəsi" adlı tədbirlər proqramı çərçivəsində müxtəlif anım mərasimləri və aksiyaları keçirilmişdir. Dünyanm bir sıra şəhərlərində də artıq bu tədbirlər geniş miqyas almışdır.

24 fevral - ABŞ-ın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri M.Brayza bildirmişdir ki, regionda Dağlıq Qarabağ münaqişəsinin sülh və danışıqlar yolu ilə həll edilməsi məsələsindən daha mühüm və vacib məsələ yoxdur.

24 fevral - Bakıda ABŞ dövlət katibinin birinci müavini C.Steynberq Dağlıq Qarabağ münaqişəsinin həllində müəyyən irəliləyişin olacağına ümid etdiyini və bu məsələnin hər iki ölkənin marağında olduğunu bildirmişdir.

25 fevral - Öz vəzifəsində regiona son səfərini edən Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi P.Semnebi bu sahədə

çalışdığı dövrdə Dağlıq Qarabağ probleminin həllində cüzi irəliləyişlər olsa da, ciddi nəticənin yoxluğundan təəssüfləndiyini söyləmiş və Dağlıq Qarabağda hərbi əməliyyatların bərpasını istisna etmədiyini bildirmişdir.

Fevral - Xocalı soyqırımının 19-cu ildönümü ABŞ Konqresinin Nümayəndələr Palatasında anılmışdır.

5 mart - Soçidə Azərbaycan, Rusiya və Ermənistan prezidentləri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair danışıqların yekununa əsasən birgə bəyanat qəbul etmişlər.

Sənəddə qeyd edilir ki, liderlər onların bundan əvvəl, 2010-cu il oktyabrın 27-də Həştərxanda keçirilmiş görüşü zamanı qəbul edilmiş üçtərəfli bəyanatın praktiki reallaşdırılması məsələlərini müzakirə etmiş və həmin bəyanatda nəzərdə tutulan tədbirlərə əlavə olaraq növbəti addımlar barədə razılığa gəlmişlər.

Bəyanatda qeyd edilir ki, dövlət başçıları, o cümlədən "hərbi əsirlərin dəyişdirilməsini ən qısa müddətdə başa çatdırmaq" barədə razılığa gəlmişlər. Bundan əlavə, sənəddə "bütün mübahisəli məsələləri dinc vasitələrlə həll etmək və atəşkəs xətti boyunca yarana biləcək insidentləri tərəflərin iştirakı ilə ATƏT-in Minsk qrupunun həmsədrlərinin himayəsi altında, təşkilatın fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsinin köməyi ilə təhqiq etmək" istəyi vurğulanır.

Bəyanatda eyni zamanda, Dağhq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələlərinə dair özlərinin müntəzəm əlaqələrinin böyük əhəmiyyət kəsb etməsi qeyd edilmiş və ATƏT-in Minsk qrupunun həmsədrlərinin işinə əlavə olaraq bu formatda əlaqələri davam etdirmək barədə prezidentlərin razılığa gəldikləri bildirilir.

5 mart - Soçinin "Adler" Beynəlxalq aeroportunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ATƏT-in Minsk qrupunun həmsədrləri R.Bradtke (ABŞ), B.Fasye (Fransa), İ.Popov (Rusiya), habelə təşkilatın fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi A.Kaspşik ilə görüşü olmuşdur.

8 mart - Ermənistan silahlı qüvvələrinin işğalı altında olan Şıxlar kəndi istiqamətində atəşkəsi pozması nəticəsində 2002-ci il martın 19-da anadan olmuş Orta Qərvənd kənd sakini, Fariz Arzu oğlu Bədəlov həyətdə oynayarkən aldığı güllə yarasından ölmüşdür.

9 mart - ATƏT-in Minsk qrupunun həmsədrləri Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində atəşkəsin pozulması ilə bağlı birgə bəyanatla çıxış etmişlər. Bəyanatda ATƏT-in Minsk qrupunun həmsədrlərinin prezidentlərin martın 5-də Soçidə keçirilmiş görüşündən əvvəl və sonra qoşunların təmas xəttində atəşkəs rejiminin pozulması haqqında xəbərlərdən ciddi şəkildə narahat olduqları göstərilir.

Bununla yanaşı, sənəddə deyilirdi ki, təsdiqlənəcəyi təqdirdə, belə mənasız aktlar tərəflərin güc tətbiqindən çəkinmək və Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasına can atmaq barədə götürdükləri öhdəliklərlə ziddiyyət təşkil edir. Həmsədrlər ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşikdən bütün tərəflərin iştirakı ilə bu cür faktlarla bağlı dərhal təhqiqata başlamağı xahiş etmişlər.

14 mart - 9 yaşlı azərbaycanlı Fariz Bədəlovun erməni snayperi tərəfindən qətlə yetirilməsi ilə bağlı aparılmış monitorinqin nəticələrinə dair hesabat ATƏT-in fəaliyyətdə olan sədri A.Ajubalisə təqdim edilmişdir.

15 mart - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri İ.Popovu (Rusiya), B.Fasyeni (Fransa), R.Bradtkeni (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşiki qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqların hazırki vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

18 mart - ATƏT-in Minsk qrupunun həmsədrləri martın 15-dən 17-dək Bakı, Yerevan və Dağlıq Qarabağa etdikləri səfərin nəticələri barədə bəyanat yaymışlar.

Sənəddə qeyd edilirdi ki, həmsədrlər tərəfləri martın 5-də Soçidə Rusiya Prezidenti D.Medvedyevin təşəbbüsü ilə təşkil edilmiş görüşdə yaranmış müsbət məqamlardan yararlanmağa və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üçün Baza Prinsiplərinə dair razılığın əldə edilməsi istiqamətində inkişafa nail olmaq məqsədi ilə prioritet məsələlərə diqqət yönəltməyə çağırmışlar.

Bununla yanaşı, bəyanatda həmsədrlər tərəflərlə 1994-cü ildən qüvvədə olan atəşkəs rejiminin pozulmasına qarşı araşdırmalar aparmaq barədə tərəflərin Soçidə qəbul etdikləri birgə bəyanatın həyata keçirilməsi

üçün konkret tədbirlərin görülməsi barədə müzakirələr aparmışlar. Həmsədrlər vurğulamışlar ki, Soçi görüşündən əvvəl və sonra qoşunların təmas xəttində baş vermiş insidentlər belə bir mexanizmin yaradılmasının vacibliyini nümayiş etdirir və onlar bir daha tərəfləri atəşkəs rejiminə riayət etməyə çağırmış, həmçinin tərəflərə snayperlərin təmas xəttindən uzaqlaşdırılması barədə uzun müddətdən bəri irəli sürdükləri təklifi xatırlatmışlar. Həmin təklifin hələ də həyata keçirilməməsi ilə bağlı təəssüfləndiklərini ifadə edən həmsədrlər, günahsız insanların həyatını xilas edə biləcək həmin təklifin qəbul olunmasında yenidən təkid etmişlər.

21 mart - Cəbhənin Tərtər istiqamətində ermənilər tərəfindən açılan atəş nəticəsində Füzuli rayonundan məcburi köçkün 1991-ci il təvəllüdlü Elnur Mübariz oğlu Məmmədov həlak olmuşdur.

23 mart - 1986-cı il təvəllüdlü Samir Hidayət oğlu Ağayev Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi yaxınlığında erməni hərbçilərinin açdığı atəş nəticəsində həlak olmuşdur.

24 mart - Vyanada səfərdə olan ATƏT-in Minsk qrupunun həmsədrləri burada Minsk qrupunda təmsil olunan ölkələrin nümayəndələri və qurumun baş katibi M.Brişambo ilə görüş keçirmişlər. Brifinqdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında vasitəçilik edən həmsədrlər yaxın keçmişdəki və qarşıdan gələn fəaliyyətləri barədə məlumat vermişlər.

Həmsədrlər "Dağlıq Qarabağ ətrafında Azərbaycanın işğal olunmuş ərazilərinə Minsk qrupu həmsədrlərinin sahə qiymətləndirmə missiyasının hesabatı"nı təqdim etmişlər. Hesabatda deyilir ki, səfər etdikləri ərazilərdəki vəziyyətin kəskin reallığı bir daha həmsədrlərin fikrini möhkəmləndirmişdir ki, status-kvo qəbuledilməzdir və yalnız sülh, danışıqlar yolu ilə nizamlanma bu ərazilərdə yaşamış və hal-hazırda yaşayan insanlara daha yaxşı və müəyyən perspektivlər gətirə bilər.

Sənəddə göstərilir ki, həmsədrlər martın 5-də Soçidə keçirilmiş görüşdə yaranmış müsbət məqamlara əsaslanaraq, Baza Prinsipləri üzərində müzakirələri davam etdirmək üçün yaxın gələcəkdə regiona növbəti səfər edəcək və bütün tərəflərin iştirakı ilə atəşkəsin pozulmasına dair araşdırmalarla bağlı Soçidə götürülmüş öhdəlikləri icra etmək məqsədilə həmsədrlər tərəflərlə konkret tədbirləri işləyib hazırlayacaqlar. Həm

yerlərdə, həm də ictimai bəyanatlarda tərəflərin kəskin ifadələrdən çəkinməsinin davam etməkdə olan əhəmiyyətini qeyd edən həmsədrlər, o cümlədən mülki təyyarələrə qarşı olmaqla, güc istifadəsi ilə təhdidi qəbuledilməz hesab edirlər. Bu baxımdan onlar qoşunların təmas xəttində mənasız yerə ölüm və cavab tədbirlərini şiddətli şəkildə qınayırlar. Sonda, həmsədrlər bir daha öz məlum mövqelərini təsdiqləyərək bildirirlər ki, tərəflər öz əhalisini müharibəyə deyil, sülhə hazırlamalıdırlar.

24 mart - Ermənilərin 9 yaşlı azərbaycanlı Fariz Bədəlovu öldürməsi ilə bağlı Azərbaycan Respublikası BMT-də məsələ qaldırmışdır.

28 mart - Beynəlxalq Böhran Qrupunun təmsilçisi təmas xəttində ermənilər tərəfindən öldürülən 9 yaşlı azərbaycanlı uşağın ailəsi ilə görüşmüşdür.

2 aprel - ATƏT-in fəaliyyətdə olan sədri A.Ajubalis Cənubi Qafqaz regionuna səfərinin yekunlarına əsasən bildirmişdir ki, Soçidə Azərbaycan, Ermənistan və Rusiya prezidentlərinin üçtərəfli görüşündən sonra münaqişənin tənzimlənməsi prosesində müəyyən irəliləyiş üçün şərait yaranmışdır.

6 aprel - Estoniyanın sabiq Xarici işlər naziri, xanım K.Ojuland Avropa Parlamentində "Avropa Qonşuluq Siyasəti" mövzusunda keçirilmiş müzakirələrdə çıxış edərək Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu bildirmişdir. Dağlıq Qarabağın 20 il əvvəl ermənilər tərəfindən işğal olunduğunu və bunun nəticəsində bir milyonadək azərbaycanlının öz yurdlarından didərgin düşdüyünü qeyd edən K.Ojuland Avropa Parlamentini Dağlıq Qarabağın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisi olması faktına hörmət etməyə çağırmışdır.

Sabiq Xarici işlər naziri demişdir ki, bu fakt Avropa Parlamentinin, Avropa Şurasının və Avropa Komissiyasının hər bir təşəbbüsündə öz əksini tapmalıdır. Yalnız ərazi bütövlüyü prinsipi beynəlxalq ictimaiyyət tərəfindən tanınandan sonra Cənubi Qafqazda sülhə və sabitliyə nail olmaq mümkündür.

7 aprel - Bakıda Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak edən İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri bildirmişdir: "Ümid edirik, Ermənistan, nəhayət ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı beynəlxalq qurumların qərar

və qətnamələrini yerinə yetirəcəkdir. Dağlıq Qarabağ Azərbaycanın tarixi ərazisidir və mütləq Azərbaycana qaytarılmalı, ölkə vətəndaşları burada normal şəkildə yaşamalıdırlar".

BMT-nin Liviya ilə bağlı qətnamənin dərhal yerinə yetirilməsini, Dağlıq Qarabağla bağlı sənədlərin isə hələ də icrasız qalmasını siyasi riyakarlıq adlandıran Ə.Osman əl-Tüveycri demişdir: "Biz Azərbaycanın ərazi bütövlüyünü, bu dövlətin Dağlıq Qarabağ üzərindəki tarixi hüquqlarını dəstəkləyirik. Münaqişənin həlli üçün daim BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsi ilə bağlı çağırışlar edirik. Bu qətnamələrdə Azərbaycan torpaqlarının işğaldan azad olunması və ölkənin ərazi bütövlüyünün bərpası tələb olunsa da, qətnamələr hələ də yerinə yetirilməmişdir".

11 aprel - Azərbaycanın rəsmi mövqeyi nəzərə alınmadan Dağlıq Qarabağ ərazisində heç bir hava limanının sərnişinlərin istifadəsinə verilə bilməyəcəyini bidirən İCAO-nun mətbuat katibi D.Şanyon Dağlıq Qarabağ ərazisində ermənilərə xidmət edəcək aeroportun inşası ideyasını tənqid edərək, bu məsələdə beynəlxalq sərnişin təhlükəsizliyinin, beynəlxalq hüququn normalarının və siyasi aspektlərinin, xüsusilə də Azərbaycanın rəsmi mövqeyinin nəzərə alınmasının vacibliyini bildirmişdir.

Eyni zamanda, D.Şanyon qeyd etmişdir ki, "Beynəlxalq ictimaiyyət Dağlıq Qarabağ regionunu Azərbaycanın tərkib hissəsi kimi tanıyır. Lakin faktiki durum göstərir ki, orada işğal vardır. Ermənistan tərəfinin Dağlıq Qarabağ regionundan xarici ölkələrə sərnişin daşıması, həmçinin sərnişin qəbul etməsi qanuna ziddir". Azərbaycan ilə razılaşdırılmayan beynəlxalq layihələrin icrasını mümkünsüz hesab edən D.Şanyon vurğulamışdır ki, Dağlıq Qarabağda vaxtı ilə Xocalı aeroportu olmuşdur. İşğaladək rəsmi fəaliyyət göstərən bu aeroport İCAO-nun qeydiyyatında Azərbaycan dövlətinə məxsusdur.

11 aprel - ABŞ Dövlət Departamentinin 2010-cu ildə Ermənistanda insan hüquqlarının vəziyyəti ilə bağlı hesabatında bildirilir ki, erməni separatçıları Ermənistan hökumətinin dəstəyi ilə Azərbaycanın Dağlıq Qarabağ regionunu və ətraf yeddi rayonunu nəzarət altında saxlamaqda davam edirlər.

12 aprel - Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2011-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında çıxışı zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında bildirmişdir: "Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır, işğala son qoyulmalıdır və bu məsələ tezliklə öz həllini tapmahdır. Çünki Azərbaycan xalqının səbri tükənməz deyildir. Bir daha demək istəyirəm ki, danışıqlar prosesində Azərbaycanın mövqeyi birmənalıdır. Bu mövqe nəinki bizim arzularımıza, beynəlxalq hüquqa əsaslanır və beynəlxalq hüquq hələ ki, dünyada başlıca bir meyardır. Biz indi görürük ki, beynəlxalq hüquq normaları müxtəlif yerlərdə kobudcasına pozulur. Ona görə Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir və heç bir şərt irəli sürülməməlidir. Hazırda danışıqlar masasında olan təkliflər Azərbaycanın ərazi bütövlüyünün bərpasını təmin edəcəkdir. Eyni zamanda, məsələ öz həllini Dağlıq Qarabağda yaşayan insanların və oraya mütləq qayıdacaq Azərbaycan vətəndaşlarının muxtariyyət, özünüidarəetmə statusunda yaşamasını təmin edə biləcək prinsiplər əsasında tapa bilər. Dağlıq Qarabağa müstəqilliyin verilməsi, yaxud da nə vaxtsa müstəqilliyin verilməsi mümkünsüzdür. Bu, danışıqlar mövzusu deyildir və olmayacaqdır".

Azərbaycan Prezidenti ATƏT-in qiymətləndirmə missiyasının işğal edilmiş torpaqlara səfəri ilə bağlı məruzəsində göstərilən məsələlərin reallığı əks etdirdiyini bildirməklə yanaşı, status-kvonun, yəni indiki vəziyyətin davam edə bilməyəcəyinin öz əksini tapmasını məruzədə ən vacib məsələlərdən biri olduğunu qeyd etmiş və uzun illər Azərbaycan dövləti də bütün beynəlxalq təşkilatlarda, eyni zamanda, həmsədr ölkələrin rəsmiləri ilə birbaşa görüşlərdə status-kvonun dəyişdirilməli olduğunu dəfələrlə diqqətə çatdırmışdır.

Dövlət başçısı Ermənistan tərəfinin bütün imkanlardan istifadə edərək, danışıqları uzatmağa çalışdığını qeyd edərək bildirmişdir ki, müəyyən mərhələdə razılaşdırılmış məsələlər onlar tərəfindən yenidən danışıqlar masasına qoyulur və əvvəlcədən razılaşdırılmış məsələlərdən geri çəkilirlər. Yəni istəyirlər ki, bu proses sonsuz, daimi, əbədi olsun, daim bu danışıqlar getsin və guya ki, Ermənistan danışıqlarda özünü konstruktiv aparır.

Bununla yanaşı, Azərbaycan Prezidenti bəyan etmişdir ki, Ermənistan danışıqlarda qeyri-səmimidir və onların əsas məqsədi məsələnin həlli deyil, məqsəd işğal edilmiş torpaqları nə qədər mümkündür öz nəzarəti altında saxlamaq və de-fakto vəziyyətini gələcəkdə de-yure vəziyyətinə çevirməkdir. Dövlət başçısı bildirmişdir: "Onların niyyəti ondan ibarətdir ki, nə qədər çox vaxt keçsə, o qədər yaxşıdır, yəni dünya birliyi bu vəziyyətlə barışacaq və beləliklə, bu vəziyyət – danışıqlar prosesi sonsuz aparılacaqdır".

Ancaq Azərbaycan Prezidenti bunun mümkün olmadığını bildirərək qeyd etmişdir ki, Azərbaycan imitasiya, danışıqlar naminə danışıqlarda iştirak etməyəcək və status-kvo dəyişdirilməlidir, yəni Azərbaycan torpaqlarından işğalçı qüvvələr çıxarılmalıdır və məruzədə də bu tezisin göstərilməsi çox vacib məsələdir. Eyni zamanda, dövlət başçısı bəyan etmişdir ki, Ermənistana imkan verilməməlidir ki, danışıqları süni şəkildə müəyyən bəhanələrlə uzatsın. Ermənistan konkret təkliflərə konkret cavab verməlidir ki, torpaqlarımızın işğalçılardan azad edilməsi prosesi başlansın.

13 aprel - AŞPA-nın yaz sessiyasında Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan çıxışından sonra Ermənistan nümayəndə heyətinin üzvünün sualına verdiyi cavabda demişdir: "Biz dost və qardaş Azərbaycanın maraqlarını qoruyuruq və azərbaycanlıların hüquqlarının ermənilər tərəfindən pozulmasını heç cür qəbul edə bilmərik"

14 aprel - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri B.Fasyeni (Fransa), İ.Popovu (Rusiya), R.Bradtkeni (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşiki qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı damşıqların hazırki vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

14 aprel - ATƏT-in Minsk qrupunun həmsədrləri aprelin 11-14-də regiona etdikləri səfərin nəticələrinə dair bəyanat yaymışlar. Bəyanatda bildirilir ki, həmsədrlər səfər müddətində ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşikin də qatıldığı görüşlər zamanı münaqişənin nizamlanmasının Baza Prinsiplərinin razılaşdırılması istiqamətində növbəti addımları müzakirə etmişlər. Həmsədrlər həmçinin

Baza Prinsiplərini yekunlaşdırmaq və sülh sazişini hazırlamağa doğru irəliləmək zamanının yetişdiyinə əmin olduqlarını ifadə etmişlər.

Bəyanatda daha sonra bildirilir ki, həmsədrlər Dağlıq Qarabağda hava limanının planlaşdırılan açılışının gərginliyi daha da artıra biləcəyindən narahat olduqlarını vurğulamışlar. Onlar xəbərdarlıq etmişlər ki, bu hava limanmdan uçuşlar Dağlıq Qarabağın mövcud statusunu beynəlxalq hüquq əsasında dəyişməyə yönəlmiş cəhdlər üçün istifadə oluna bilməz. Sənəddə həmsədrlər tərəfləri beynəlxalq konvensiya və razılaşmalara riayət etmək məqsədilə qarşılıqlı anlaşma əldə etməyə, həmçinin Azərbaycan ilə Ermənistan arasında öz əraziləri üzərindən mövcud uçuşlar praktikasını saxlamağa çağırmışlar.

14 aprel - Avropa Şurası Parlament Assambleyasında Ermənistan silahlı qüvvələri tərəfindən 9 yaşlı Fariz Bədəlovun qətlə yetirilməsi ilə bağlı bəyanat imzalanmışdır.

Bəyanatda deyilir ki, martın 8-də Ermənistan silahlı qüvvələri işğal etdikləri Azərbaycan torpaqlarında qurduqları mövqelərindən Ağdam rayonunun Orta Qərvənd kəndinin 9 yaşlı sakini Fariz Bədəlovu öz evinin həyətində oynayan zaman snayperlə nişan alaraq qətlə yetirmişlər. Azyaşlı uşağın bu cür faciəli surətdə qətlə yetirilməsi beynəlxalq hüququn norma və prinsiplərinə zidd olmaqla yanaşı, həm də insanlıq faciəsidir.

Sənəddə qeyd edilir ki, bu faciə regionda onsuz da gərgin olan vəziyyəti daha da kəskinləşdirmişdir. Ermənistan silahlı qüvvələri tərəfindən atəşkəsin tez-tez pozulması, Azərbaycanın mülki vətəndaşlarının hədəfə alınması beynəlxalq hüququn pozulması ilə yanaşı, bu ölkə tərəfindən AŞPA-nın 2005-ci ildə qəbul etdiyi 1416 saylı qətnamə də daxil olmaqla Avropa Şurası qarşısında üzərinə götürdüyü öhdəliklərə əməl edilməməsi, eləcə də Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində ATƏT-in Minsk qrupu tərəfindən aparılan danışıqların ciddi şəkildə pozulması deməkdir.

14 aprel - Avropa Şurası Parlament Assambleyasının yaz sessiyasının iclasında "Ermənistandan işğal etdiyi Azərbaycan ərazisində hava limanı tikintisini dayandırmasını tələb edən yazılı bəyanat" qəbul olunmuşdur.

Sənəddə Ermənistan işğal etdiyi Azərbaycan ərazilərində – işğal altında olan Dağlıq Qarabağ bölgəsində bütün beynəlxalq hüquq normalarına zidd olaraq hava limanı tikintisini davam etdirməsi və Ermənistanın bu addımının beynəlxalq hüquq normaları ilə yanaşı, BMT Təhlükəsizlik Şurasının Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsinə dair 4 qətnaməsinə, Ermənistanın AŞ qarşısında üzərinə götürdüyü öhdəliyə və AŞPA-nın qəbul etdiyi 1416 saylı qətnaməsinə tamamilə zidd olduğu qeyd edilmişdir. Bəyanatda Azərbaycanın işğal olunmuş ərazilərində hava limanının tikintisinin həyata keçirilməsinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsinə dair ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqlar prosesinə də böyük zərbə olacağı bildirilmişdir.

Sənəddə göstərilir ki, bütün bunları nəzərə alaraq, AŞPA Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarında hava limanı inşa etməsi addımını qətiyyətlə pisləyir və narahatlığını ifadə edir. AŞPA rəsmi Yerevanı tikintini dayandırmağa, bu cür addımlar atmaqdan və bəyanatlar verməkdən çəkinməyə, işğal etdiyi Azərbaycan torpaqlarını azad etməyə və 1 milyon azərbaycanlı qaçqın və məcburi köçkünün öz yurd-yuvasına dönməsinə imkan verməyə çağırır və tələb edir.

4 may - GUAM-ın baş katibi V.Çeçelaşvili bildirmişdir ki, Dağlıq Qarabağda beynəlxalq aeroport fəaliyyət göstərə bilməz. Bu, beynəlxalq hüququn norma və prinsiplərinə ziddir. Baş katib qeyd etmişdir ki, Dağlıq Qarabağın hava məkanı və digər əraziləri Azərbaycana məxsusdur. Bunu bütün dövlətlər və beynəlxalq təşkilatlar da bilir. Beynəlxalq əhəmiyyətli aeroportun fəaliyyət göstərməsi üçün beynəlxalq hava uçuşlarını tənzimləyən qərar qəbul edilməlidir. Bu isə yalnız Azərbaycanın işğal olunmuş ərazilərinin geri qaytarıldığı halda mümkün ola bilər.

5 may - Fransa Senatı qondarma "erməni soyqırımı"nı inkar edənlərə cəza verilməsi haqqında qanun layihəsini rədd etmişdir. Senatın müzakirələrində iştirak edən 290 senatordan 270-i qanun layihəsi ilə bağlı səsverməyə qatılmışdır. Onlardan 196-sı qanun layihəsinin qəbul edilməsinin əleyhinə, 74-ü isə lehinə səs vermişdir.

12 may - Bakıda səfərdə olan ATƏT Parlament Assambleyasının sədri Petros Eftimiu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla, beynəlxalq hüquq normalarına uyğun ədalətli həllinin vacibliyini qeyd etmişdir. Parlament Assambleyasının sədri bildirmişdir ki, Cənubi Qafqazda sülh və sabitlik təkcə regionun xalqları üçün deyil, bütövlükdə Avropa üçün də olduqca əhəmiyyətlidir.

19 may - BMT-nin Qaçqınların işi üzrə Ali Komissarı Antonio Quterreş bildirmişdir ki, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı hazırki vəziyyət qəbuledilməzdir.

19 may - Ermənistana səfəri çərçivəsində Avropa Parlamentinin sədri Y.Buzek Yerevanda keçirdiyi mətbuat konfransında Avropa Parlamentinin Dağlıq Qarabağı müstəqil ərazi vahidi kimi tanımadığını və hər zaman dövlətlərin ərazi bütövlüyünü əsas prinsip hesab etdiyini bildirmişdir. Avropa Parlamentinin sədri insanların dinc şəraitdə yaşamaq və inkişaf etmək hüququnun vacibliyini qeyd edərək demişdir ki, münaqişənin həll olunmaması regionun inkişafına böyük əngəldir.

19 may – ABŞ dövlət katibinin köməkçisi F.Qordon Senatın xarici əlaqələr komitəsinin Avropa işləri üzrə alt komitəsində çıxışında bildirmişdir ki, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı Baza prinsiplərini təsdiqləməyin, sülh sazişi üzərində işə başlamağın vaxtı çatmışdır. Eyni zamanda, F.Qordon qeyd etmişdir ki, ABŞ Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi üçün ATƏT-in Minsk qrupu ilə qarşılıqlı əlaqələrini artıracaqdır.

20 may - Avropa Parlamentinin sədri Y.Buzek Bakıda demişdir: "Biz bilirik ki, regiondakı vəziyyət əlverişli deyil və bu problemin, eləcə də digər dondurulmuş münaqişələrin həllinə öz dəstəyimizi göstərməyə hazırıq".

26 may - "Böyük səkkizlik" ölkələrinin Fransanın Dovil şəhərində keçirilən sammiti çərçivəsində ABŞ, Rusiya və Fransa prezidentləri Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair birgə bəyanatla çıxış etmişlər. Bəyanatda, prezidentlər Ermənistan və Azərbaycan liderlərini "iyun ayında keçiriləcək Ermənistan-Azərbaycan sammitində siyasi əzmkarlıq nümayiş etdirməyə və Əsas Baza Prinsipləri (Dağlıq

Qarabağ münaqişəsinin tənzimlənməsinin Əsas Prinsipləri) üzərində işi tamamlamağa" çağırmışlar.

Bəyanatda deyilir: "Razılaşma əldə ediləndən sonra biz bu prinsiplərin rəsmən qəbul edilməsini təsdiqləməyə, sülh sazişinin işlənib hazırlanmasına kömək etməyə və sonra beynəlxalq tərəfdaşlarımızla birlikdə həmin sazişin yerinə yetirilməsini dəstəkləməyə hazırıq. Biz təsdiq edirik ki, yalnız damşıqlar yolu ilə tənzimləmə regional inkişaf və əməkdaşlıq üçün imkanlar üzə çıxarmaqla sülhə, sabitliyə və barışığa gətirib çıxara bilər".

ABŞ, Fransa və Rusiya prezidentləri əmin olduqlarını bildirmişlər ki, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün tərəflərinin dinc tənzimləmə istiqamətində addım atmasının vaxtı çatmışdır. Minsk qrupunun həmsədrləri olan üç dövlətin başçıları Ermənistan və Azərbaycan liderlərini israrla "əhalini müharibəyə deyil, sülhə hazırlamağa" çağırmışlar.

6 iyun - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri B.Fasye (Fransa), İ.Popov (Rusiya), R.Bradtke (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşiki qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırki vəziyyəti və perspektivləri ilə bağlı məsələlər müzakirə olunmuşdur.

10 iyun - ATƏT-in Minsk qrupunun həmsədrləri iyunun 6-dan 9-dək Bakı, Xankəndi və Yerevana etdikləri səfərin nəticələri barədə bəyanat yaymışlar. Bəyanatda bildirilir ki, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi A.Kaspşikin də qatıldığı səfər zamanı Rusiya, Azərbaycan və Ermənistan prezidentlərinin qarşıdan gələn görüşünə hazırlıq çərçivəsində həmsədrlər tərəflərlə Rusiya, ABŞ və Fransa prezidentlərinin mayın 26-da Dovildə birgə bəyanatına uyğun olaraq, Dağlıq Qarabağ münaqişəsinin həllinin Baza Prinsiplərinin tamamlanması və təsdiqlənməsinə yönəlmiş və münaqişənin sülh yolu ilə həllinin əsasını təşkil edəcək addımları müzakirə etmişlər. İyunun 7-də həmsədrlər Azərbaycanın Ağdam rayonu ərazisində qoşunların təmas xəttini piyada keçmişlər və bu, son 10 ayda üçüncü belə hadisə olmuşdur. Son 16 ildə baş vermiş belə hallar nümayiş etdirir ki, tərəflər 1994-cü ildə bağlanmış atəşkəs rejiminə riayət etmək üçün əməkdaşlıq edə bilərlər. Bununla əlaqədar

həmsədrlər tərəfləri bu gərgin mərhələdə danışıqlar prosesinə zərbə vuracaq hər hansı təxribat xarakterli addım və hərəkətlərə yol verməməyə çağırmışlar.

11 iyun - Moskvada Rusiya, Azərbaycan və Ermənistan Xarici işlər nazirlərinin işçi görüşü olmuşdur. Müzakirələrin gedişində Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin Baza prinsiplərinin bir sıra mühüm məsələləri barədə mövqeləri yaxınlaşdırmaq mümkün olmuşdur. Bu sənədin layihəsinin iyunun axırlarında keçiriləcək növbəti üçtərəfli görüşdə müzakirə ediləcəyi bildirilmişdir.

11 iyun - Azərbaycan Prezidenti İlham Əliyev Sloveniya Prezidenti Danilo Türk ilə birgə Lyublyanada keçirdiyi mətbuat konfransında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ məsələsinin ədalətli həlli üçün indi yaxşı şərait yaradıldığını, Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçılarının mayın sonunda verdikləri birgə bəyanatın artıq çox ciddi bir siqnal olduğunu qeyd edərək demişdir: "Orada göstərilir ki, status-kvo qəbuledilməzdir. Biz bunu uzun illərdir deyirik ki, status-kvo dəyişdirilməlidir, işğalçı qüvvələr işğal edilmiş torpaqları tərk etməlidir. Bəyanatın digər vacib məsələsi ondan ibarətdir ki, orada Helsinki Yekun Aktına istinad edilir. Prezident İlham Əliyev vurğulamışdır ki, Helsinki Yekun Aktında ölkələrin ərazi bütövlüyü və xalqların öz müqəddəratını müəyyənetmə prinsipləri arasında heç bir ziddiyyət yoxdur. Yəni bu iki prinsip bir sazişdə öz əksini tapmalıdır. Bu da çox müsbət haldır".

Prezident İlham Əliyev bildirmişdir ki, indiki mərhələdə Ermənistan tərəfi konstruktivlik və səmimiyyət göstərməlidir. Uzun illər Ermənistan danışıqların sadəcə olaraq danışıqlar naminə aparılmasına, imitasiya ilə məşğul olmağa çalışmışdır. İndi isə vaxt çatıb ki, təkliflərə dəqiq, konkret cavab versin. Əgər belə olarsa, Azərbaycan torpaqları tezliklə işğalçılardan azad ediləcəkdir.

16 iyun - Avropa İttifaqı Avropa Parlamentində keçiriləcək dinləmələr ərəfəsində Dağlıq Qarabağın Azərbaycana aid olduğunu növbəti dəfə təsdiq etmişdir. Bəyanatda Avropa Parlamentinin sədri Y.Buzekin Bakıya səfəri zamanı dediyi sözlərdən də sitat gətirilərək deyilir: "Görüşlər zamanı mən dövlətlərin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü vurğuladım.

Bildirdim ki, Avropa İttifaqı Dağlıq Qarabağ münaqişəsinin ATƏT-in Minsk qrupu çərçivəsində və Madrid prinsipləri əsasında sülh yolu ilə həllinə dair səyləri dəstəkləyir".

20 iyun - Avropa Şurası Parlament Assambleyasının sədri M.Çavuşoğlu qurumun yay sessiyasının ilk iş günündə keçirdiyi mətbuat konfransında Azərbaycan və Ermənistan prezidentlərinin Kazanda keçiriləcək növbəti görüşündə Dağlıq Qarabağ münaqişəsinin həllinə dair müqavilə imzalanacağına böyük ümid bəslədiyini bildirmişdir.

AŞPA sədri Dağlıq Qarabağ üzrə Alt komitənin fəaliyyətinə münasibət bildirərkən qeyd etmişdir ki, qurumun qəbul etdiyi qətnamələr yerinə yetirilməlidir. Assambleya tərəfindən bu məsələ ilə bağlı çoxlu tövsiyə, qətnamə və hesabat qəbul edildiyini bildirən Mövlud Çavuşoğlu vurğulamışdır ki, Assambleyanın qəbul etdiyi tövsiyə və qətnamələrin tətbiq olunmasında qətiyyətliyik: "AŞPA tərəfindən 2005-ci ildə Dağlıq Qarabağla bağlı qətnamə qəbul edilmiş və orada aydın göstərilmişdir ki, AŞPA-nın bürosu Dağlıq Qarabağ üzrə Alt komitə yaratmalıdır.

Büronun 2011-ci ilin yanvarında keçirilmiş yığıncağında bu komitənin fəaliyyətini bərpa etməsinə dair qərar qəbul edilmişdir. Alt komitə məsələnin əsasən humanitar tərəfləri ilə məşğul olacaq və iki ölkənin qurumdakı nümayəndə heyətləri arasında dialoqun gücləndirilməsinə səy göstərəcəkdir".

21 iyun - Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatına görə əsir, itkin düşmüş və girov götürülmüş şəxslərin sayı 4043 nəfər təşkil etmişdir. Belə ki, onlardan 3264 nəfər hərbçi, 776 nəfər mülki şəxslərdir. 3 nəfərin hərbçi və ya mülki olduğu məlum deyil. Mülki şəxslərdən 47 nəfəri itkin düşərkən yetkinlik yaşına çatmamış uşaq (17 nəfər azyaşlı qız), 248 nəfər qadın, 351 nəfər yaşlı şəxsdir (151 nəfər qadın).

Əsir, itkin düşmüş 4043 nəfərdən 878 nəfərin əsir və girov götürülməsi barədə məlumatlar daxil olmuş, şahid ifadələri alınmışdır. Bu vaxta kimi əsir və girovluqdan 1400 nəfər azad edilmişdir ki, onlardan 343 nəfər qadın, 1057 nəfər kişidir. Eyni zamanda, 175 nəfər uşaq (65 nəfər azyaşlı qız), 289 nəfər yaşlı şəxsdir (112 nəfər yaşlı qadın).

Dövlət Komissiyasına daxil olmuş materialların təhlili zamanı 553 nəfərin əsir və girovluqda qətlə yetirildiyi və ya müxtəlif səbəblərdən vəfat etdiyi müəyyən edilmişdir. Onlardan 104 nəfər qadın, 448 nəfər kişidir. 137 nəfərin yalnız adı məlumdur, 74 nəfər isə naməlum şəxslərdir.

22 iyun - Belçika Krallığında işgüzar səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Euronews" telekanalına müsahibəsində demişdir ki, nəinki Dağlıq Qarabağ, hətta onun ətrafında yerləşən və ermənilərin heç vaxt yaşamadıqları digər 7 rayon da işğal altındadır. Azərbaycan etnik təmizləmə siyasətinə və işğala məruz qaldığını vurğulayan Prezident İlham Əliyev elə bu səbəbdən də məsələyə beynəlxalq hüquq normaları baxımından yanaşmağın vacibliyini diqqətə çatdırmışdır. Danışıqlar prosesinə toxunan Azərbaycan Prezidenti vasitəçilər tərəfindən hər iki tərəfə təklif olunan baza prinsiplərinin beynəlxalq hüquq normalarına tam cavab verdiyini bildirərək demişdir: "Bunlar ölkələrin ərazi bütövlüyü və xalqların özünüidarəetmə hüququ prinsipləridir. Bu prinsiplər bir-birinə zidd deyildir. Onların hər ikisi vacibdir və sülh sazişində əks oluna bilər".

23 iyun - Azərbaycan və Ermənistan prezidentlərinin iyunun 24-də Kazanda, Rusiya Federasiyasının Prezidenti Dmitri Medvedevin iştirakı ilə keçiriləcək görüşü ilə əlaqədar, Rusiya Xarici İşlər Nazirliyi xüsusi bəyanatla çıxış etmişdir.

Bəyanatda bu görüşün Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsində həlledici rol oynamalı olduğu qeyd edilərək, 2011-ci il mayın 26-da ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin Rusiya, ABŞ və Fransa prezidentlərinin birgə bəyanatına konstruktiv münasibət bildirəcəyinə ümid edilir ki, həmin sənəddə Azərbaycan və Ermənistan liderləri siyasi əzmkarlıq nümayiş etdirməyə, eləcə də Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin Əsas Baza Prinsiplərinin layihəsinin müzakirəsini Kazan Sammitində başa çatdırmağa dəvət edilirlər. Sənəddə Kazanda nəzərdən keçiriləcək sənəd münaqişə tərəflərinin və həmsədr ölkələrin birgə işinin mühüm dövrünün nəticəsi, bu sahədə gələcək irəliləyiş üçün və sonradan geniş əhatəli sülh sazişinin hazırlanması üçün real əsas

olduğu vurğulanır və tərəflərin bu əsasda bütün regionda sülh, tərəqqi və inkişaf naminə razılığa gələcəyinə ümid edilir.

24 iyun - Kazanda Rusiya, Azərbaycan və Ermənistan prezidentlərinin birgə görüşü olmuşdur. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı məsələlər müzakirə edildi. Görüşün sonunda Azərbaycan, Ermənistan və Rusiya prezidentləri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinə dair danışıqların yekunlarına əsasən birgə bəyanat qəbul etmişlər.

Bəyanatda münaqişənin tənzimlənməsinin Əsas Baza Prinsipləri layihəsinin razılaşdırılması məqsədilə aparılan işin gedişinin nəzərdən keçirildiyi, bir sıra məsələlərə dair qarşılıqlı anlaşma əldə edilməsi, bu məsələlərin həllinin Əsas Prinsiplərin bəyənilməsi üçün şərait yaradılmasına kömək etdiyi bildirilmişdir.

25 iyun - ATƏT-in fəaliyyətdə olan sədri, Litvanın Xarici işlər naziri A.Ajubalis Rusiya, Azərbaycan və Ermənistan prezidentlərinin Kazan görüşünün yekunları ilə bağlı Dağlıq Qarabağ münaqişəsi üzrə hərtərəfli sülhə nail olmaq üçün davamlı səylərin vacibliyini bildirmişdir. ATƏT-in fəaliyyətdə olan sədri qeyd etmişdir ki, ATƏT üçtərəfli səviyyədə, Minsk qrupu və təşkilatın sədrinin şəxsi nümayəndəsi tərəfindən göstərilən səyləri dəstəkləməyə hazırdır. Bu səylər Cənubi Qafqazda qeyri-sabitliyə və qarşıdurmaya son qoyacaqdır. Atəşkəs rejiminin gücləndirilməsinin vacibliyini vurğulayan ATƏT-in fəaliyyətdə olan sədri tərəfləri görüşlərdə əldə olunan razılaşmalara riayət etməyə, həmçinin təmas xəttində mümkün insidentləri araşdırmağa, güc tətbiq etməkdən imtina etməyə çağırmışdır.

26 iyun - Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev Azərbaycanın müstəqilliyinin 20-ci və Silahlı Qüvvələrin 93-cü ildönümləri münasibətilə Bakıda keçirilən təntənəli hərbi paradda çıxışında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həlli barədə Azərbaycanın ərazi bütövlüyünün dünya birliyi tərəfindən tanınmasına baxmayaraq məsələnin öz həllini hələ ki, tapmadığını və bu ədalətsizliyin hələ də davam etdiyini, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının – dünyanın ən mötəbər qurumunun 4 qətnaməsi, digər beynəlxalq təşkilatların oxşar qərar və qətnamələrinin icra edilmədiyini bildirərək

demişdir: "Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil, olmayıbdır və olmayacaqdır".

Bununla yanaşı, Prezident İlham Əliyev bugünkü Ermənistanın tarixi Azərbaycan torpaqlarında yarandığını, Dağlıq Qarabağın həmişə əzəli və tarixi Azərbaycan torpağı olduğunu, sadəcə, müvəqqəti olaraq işğal altına düşdüyünü bildirərək bəyan etmişdir: "Ancaq bu işğal çox çəkə bilməz. Mən tam əminəm ki, Azərbaycanın ərazi bütövlüyü istənilən yolla bərpa ediləcəkdir. Bunu etmək üçün biz daha da güclü olmalıyıq. Azərbaycanda bütün sahələrdə aparılan islahatlar, ölkəmizin inkişafı, bölgədəki mövqelərinin möhkəmləndirilməsi nəticəsində istədiyimizə nail ola biləcəyik".

28 iyun - İslam Konfransı Təşkilatının (İKT) Xarici işlər nazirləri Şurasının Qazaxıstanın paytaxtı Astanada keçirilən XXXVIII sessiyasında təşkilatın adının dəyişdirilərək İslam Əməkdaşlığı Təşkilatı (İƏT) adlandırılması haqqında qərar qəbul edilmişdir.

2011-ci ilin birinci yarısı - Müdafiə Nazirliyinin məlumatları əsasında aparılan hesablamalara görə, 2011-ci ilin iyun ayı ərzində Ermənistan silahlı qüvvələri tərəfindən atəşkəs rejimi 69 dəfə pozulmuşdur.

Atəşkəsin pozulması nəticəsində 2 nəfər – 1 hərbçi və 1 mülki sakin şəhid olub, 2 hərbçi isə yaralanmışdır. Atəşkəsin pozulması ilə bağlı faktların 1-i Naxçıvan Muxtar Respublikasında, 57 fakt Qarabağ cəbhəsində, 11 fakt isə Ermənistan-Azərbaycan dövlət sərhədində qeydə alınmışdır. İyun ayında atəşkəsin ən çox pozulma faktı Füzuli rayonunda qeydə alınmış, cəbhənin bu istiqamətində atəşkəs rejimi 22 dəfə pozulmuşdur. Atəşkəsin pozulması ilə bağlı 15 hadisə Ağdamda və 9 hadisə isə Tərtər rayonunda baş vermişdir. Bundan başqa, iyun ayında ermənilər atəşkəsi Qazax istiqamətində 8, Goranboyda 6, Gədəbəydə 3, Xocavənddə 2, Göygöldə 2, Cəbrayılda 1, Naxçıvan Muxtar Respublikasında 1 dəfə pozmuşlar.

Monitorinqin nəticələrinə görə, 2011-ci ilin yanvar-iyun aylarmda – 6 ay ərzində Ermənistan silahlı qüvvələri tərəfindən atəşkəs rejimi 345 dəfə (yanvar ayında 24, fevralda 56, martda 80, apreldə 36, mayda 80, iyunda 69 dəfə) pozulmuşdur.

Ümumilikdə, 2011-ci ilin birinci yarısında Ermənistan silahlı qüvvələri tərəfindən atəşkəsin pozulması nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin 9 hərbi qulluqçusu, 2 mülki sakin (1 uşaq) şəhid olmuş, 8 nəfər isə yaralanmışdır. 2010-cu ildə isə Ermənistan silahlı qüvvələri tərəfindən atəşkəs rejiminin pozulması nəticəsində 16 nəfər həlak olmuşdur.

Ümumiyyətlə, 2003-2011-ci illərdə Ermənistan silahlı qüvvələri tərəfindən atəşkəsin pozulması nəticəsində 138 nəfər həlak olmuşdur ki, bunlardan 71 nəfər 2003-2006-cı illərdə, 67 nəfər isə 2007-2011-ci illərdə erməni təcavüzünün qurbanı olmuşdur.

5 iyul - ATƏT-in Minsk qrupunun Fransa, ABŞ və Rusiyadan olan həmsədrləri B.Fasye, R.Bradtke və İ.Popov birgə bəyanatla çıxış etmişlər. Bəyanatda bildirilmişdir ki, "Kazan görüşünün nəticələri tərəflərin gələcək danışıqlar prosesinə sadiqliyinin təsdiqlənməsi də daxil olmaqla, münaqişə tərəfləri üçün bir təkandır və "baza prinsipləri" üzrə sazişə mümkün qədər tez çatmaq üçün bu təkandan istifadə etməlidirlər".

Sənəddə qeyd olunmuşdur ki, Rusiya, Azərbaycan və Ermənistan prezidentləri Kazanda Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının əsas prinsiplərini müzakirə emiş və son üç il ərzində sayca doqquzuncu olan bu görüş nizamlamanın əsas prinsipləri üzrə razılaşma əldə olunmadan başa çatmışdır. Birgə bəyanatda tərəflər yalnız bu məqsədə doğru yolda irəliləyişin olduğunu qeyd etmişlər.

Həmsədrlər və səfir A.Kaspşik iyulun 4-də ATƏT-in yeni baş katibi L.Zanyerlə ayrı-ayrılıqda görüşmüş, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə davam etməkdə olan sülh prosesinin statusu müzakirə olunmuş, eləcə də Minsk qrupunun həmsədrləri Moskvada məsləhətləşmələr keçirməyi və yaxın gələcəkdə regiona növbəti səfər etməyi planlaşdırmışlar.

8 iyul - Rusiyanın Xarici işlər naziri Azərbaycan və Ermənistan prezidentlərinə Rusiya Prezidentinin təklif və məktubunu təqdim etmişdir.

10 iyul - ATƏT-in Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi təyin edilmiş J.Soareş (2002-ci ildən ATƏT-in Parlament Assambleyasının üzvüdür. ATƏT-in Parlament Assambleyasının Prezidenti olmuşdur) bildirmişdir ki, Qafqazda davam edən danışıqları intensivləşdirmək və

regionda davamlı sülhü təmin etmək məqsədi ilə ATƏT-in Minsk qrupunun dəstəklənməsi üçün hər şey etmək lazımdır.

11 iyul - Belqradda ATƏT-in Parlament Assambleyasının illik iclasının Yekun bəyannaməsində Assambleya, son vaxtlar Dağlıq Qarabağ ətrafında gərginliyin artmasından təəssüfünü bildirmiş və Dağlıq Qarabağ, həmçinin də Moldova və Gürcüstandakı həll olunmamış münaqişələrin nizamlanması üçün ATƏT çərçivəsində daha fəal siyasi səylər göstərməyə çağırmışdır.

11 iyul - ATƏT-in fəaliyyətdə olan sədri və ATƏT-in Minsk qrupunun həmsədrləri Moskvada Rusiyanın Xarici işlər naziri ilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizamlanması üzrə Minsk qrupunun iş prosesini müzakirə etmişlər.

12 iyul - ABŞ və Rusiya prezidentləri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin hazırki vəziyyəti haqqında fikir mübadiləsi aparmışlar. Rusiya Prezidentinin bu istiqamətdə atdığı addımlar, həmçinin bu yaxınlarda Kazanda Azərbaycan və Ermənistan liderləri ilə keçirilmiş görüş ABŞ Prezidenti tərəfindən yüksək qiymətləndirilmişdir.

13 iyul - ATƏT-in fəaliyyətdə olan sədri, Litvanın Xarici işlər naziri A.Ajubalis iyunun 12-də ATƏT-in Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə Minsk qrupunun həmsədrləri B.Fasye, R.Bradtke və İ.Popov, eləcə də ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi A.Kaspşiklə görüşmüşdür. A.Ajubalis Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə danışıqlarda irəliləyişin əldə olunması üçün Minsk qrupu həmsədrlərinin səylərinə dəstəyini ifadə etmiş və vətəndaş cəmiyyətinin etimadın möhkəmləndirilməsi tədbirlərinin həyata keçirilməsinə daha çox cəlb edilməsinə çağırmışdır.

14 iyul - Azərbaycanın Tovuz rayonunun Ermənistanla həmsərhəd olan Əlibəyli kəndində partlayıcı qurğunun işə düşməsi nəticəsində 1998-ci il təvəllüdlü Şahmalıyeva Aygün Ziraddin qızı həlak olmuş, onun anası 1979-cu il təvəllüdlü Şahmalıyeva Elnarə Məmmədtağı qızı isə xəsarət alaraq yaralanmışdır. 1994-cü ildə də həmin ərazidə analoji hadisə baş vermişdi. Belə ki, ermənilər tərəfindən çaya buraxılan oyuncağı götürərkən partlayışın baş verməsi nəticəsində 2 azyaşlı uşaq həlak olmuş, 1-i isə yaralanmışdı.

15 iyul - Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri B.Fasye, R.Bradtke və İ.Popov, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi A.Kaspşiki qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırki vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

16 iyul - Avropa Parlamentinin üzvü Ferreyra Fernandez Xose Manuel ermənilər tərəfindən azərbaycanlı qızın öldürülməsini pisləmişdir.

18 iyul - Türkiyənin Xarici işlər naziri Əhməd Davudoğlu və ABŞ dövlət katibi Hillari Klinton Qafqazdakı vəziyyəti, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin nizamlanması yollarını müzakirə etmişlər.

11-18 iyul - ATƏT-in Minsk qrupunun həmsədrləri B.Fasye, R.Bradtke və İ.Popov, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi A.Kaspşiklə birgə Moskva, Vilnüs, Bakı və Yerevana səfər etmişlər.

18 iyul - ATƏT-in Minsk qrupu həmsədrləri bəyanatla çıxış etmişlər. Bəyanatda ATƏT-in Minsk qrupunun həmsədrləri regiona səfərləri zamanı Azərbaycan və Ermənistan prezidentlərinə yekun nizamlanma haqqında danışıqlara keçid üçün əsas kimi Baza Prinsipləri üzrə sazişin əldə olunmasının vacibliyini bir daha təsdiq etmişlər. Sənəddə qeyd edilir ki, indi regionun xalqları üçün davamlı sülhün, təhlükəsiz barışın əldə olunması üçün vacib olan siyasi iradəni nümayiş etdirməyin əsl vaxtıdır. Bəyanatda bildirilirdi ki, prezidentlər çərçivə sənədi üçün təklif olunan son düzəlişlərə keçidlə bağlı işə sadiqliyi və dinc nizamlanmanın axtarışı prosesi üzərində həmsədrlərlə işləməyi davam etdirməyi təsdiqləmişlər.

26 iyul - Azərbaycan erməni tərəfinin təxribat hərəkətləri və bəyanatlarına qarşı BMT-nin Baş Katibinə kəskin etirazını bildirmişdir. Bəyanatda Azərbaycan Ermənistan tərəfinin təxribat hərəkətləri və bəyanatlarına kəskin etiraz edərək, təcavüzkarın azğın davranışını onun törətdiyi cinayətlərə görə cəzasız qalması ilə əlaqələndirir. Sənəddə Ermənistan rəhbərliyinin ritorikasmın yeganə məqsədi beynəlxalq ictimaiyyəti çaşdırmaq, münaqişənin həlli prosesinin diskteditasiyası və öz ölkəsinin ictimaiyyətinin daxili problemlərinin pisləşməsindən diqqəti yayındırmaqdan ibarət olduğu bildirilmişdir. Bəyanatda qeyd olunur ki, son

vaxtlar Ermənistan prezidentinin səsləndirdiyi bəyanatlar Azərbaycana qarşı Ermənistan tərəfindən başladılan müharibənin səbəblərinin, gedişatının və nəticələrinin təhrifinə ən aydın nümunədir.

27 iyul - Azərbaycan Prezidenti İlham Əliyevin Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğanla Bakıda keçirdiyi birgə mətbuat konfransında Ermənistan prezidentinin Gənc Zabitlərin İlk Ordu Konfransında erməni gəncliyinə xitabən "Dağlıq Qarabağı düşməndən biz azad etdik, Ağrı dağı azad etmək də sizin öhdənizə düşür" bəyanatına münasibət bildirərkən qeyd etmişdir ki, əslində bu, Ermənistanm işğalçı mahiyyətini göstərir: "Bu ölkə problemlər içindədir. Bu ölkədən qaçanların sayı on minlərlə ölçülür. Ölkə iqtisadiyyatı tam böhran vəziyyətindədir – yoxsulluq, səfalət, ümidsizlik. Bir dənə də olsun əməlli-başlı müəssisə yoxdur, xarici ianələr, xaricdən himayədarlıq edənlər olmasa bu ölkə çökər. Belə vəziyyətdə, real əhalisi 1 milyon 800 min nəfər olan halda bu adamlar Türkiyənin əzəli, tarixi torpaqlarına iddia edirlər. Onlar hesab edirlər ki, Dağlıq Qarabağ məsələsini həll ediblər. Onlar yanılırlar. Dağlıq Qarabağ Azərbaycan torpağıdır, Azərbaycan torpağı kimi qalır. Vaxt gələcək, Azərbaycan Dağlıq Qarabağ üzərində öz suverenliyini ya barış yolu ilə, ya da hərb yolu ilə bərpa edəcəkdir".

Eyni zamanda, Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğan Dağlıq Qarabağ məsələsində Türkiyənin hər zaman Azərbaycanın yanında olduğuna diqqəti çəkərək bildirdi: "Dağlıq Qarabağ mövzusundakı mövqeyimiz, düşüncəmiz, mübarizəmiz – hər şeyimiz Azərbaycan üçün Dağlıq Qarabağ mövzusu necə bir qanayan yaradırsa, bilinməlidir ki, bizim üçün də elə qanayan bir yaradır. Bundan fərqli bir düşüncə bizdə əsla ola bilməz. Bu məsələni də sona qədər təqib edirik və bundan sonra da təqib etməkdə davam edəcəyik".

24 avqust - Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK) tərəfindən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 4575 nəfər itkin düşmüş şəxs qeydə alınmışdır .

2 sentyabr - BMT-in ixtisaslaşmış təşkilatı olan UNICEF azərbaycanlı uşaqların ermənilər tərəfindən öldürülməsini pisləmişdir.

7 sentyabr - ATƏT-in Minsk qrupunun həmsədrləri B.Fasye, R.Bradtke və İ.Popov, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi

nümayəndəsi A.Kaspşik dekabr ayında Vilnüsdə keçiriləcək ATƏT-in Nazirlər Şurasından əvvəl fəaliyyət planını müzakirə etmək və əlaqələndirmək üçün Vyanada görüşmüşlər.

8 sentyabr - ATƏT-in Minsk qrupunun həmsədrləri sülh prosesinin bu və ya digər aspektlərinin gələcək müzakirəsi üçün ATƏT-in baş katibi L.Zanyerlə görüşmüşlər.

23 sentyabr - BMT-nin Baş Assambleyasında çıxışı zamanı Türkiyənin baş naziri Rəcəb Tayyib Ərdoğan bildirmişdir ki, Azərbaycan torpaqlarının illərdir davam edən haqsız işğalına son qoyulmalıdır. Baş nazir bəyan etmişdir ki, "Dağlıq Qarabağ məsələsinin bu şəkildə həll olunmadan qalması qəbulolunmazdır".

28 sentyabr - ATƏT-in Minsk qrupu həmsədrlərinin verdiyi bəyanatda Rusiya, ABŞ, Fransa prezidentlərinin Dovil bəyanatında üzərinə götürdüyü, tərəflərə bu cür nizamlanmaya nail olmaqda yardım etmək öhdəliyini bir daha təsdiq etmişlər. Bəyanatda deyilir ki, həmsədrlər dekabr ayı Vilnüsdə keçiriləcək ATƏT-in Nazirlər Şurasının iclasına qədər gələcək aylar üçün iş planını təqdim etmiş və hərtərəfli sülh nizamlanması üçün təməl olan Əsas Baza Prinsipləri üzrə mövcud olan fikir ayrılıqlarını müəyyənləşdirmək məqsədilə tərəflərlə işi davam etdirəcəklər.

29 sentyabr - Azərbaycan Prezidenti İlham Əliyev Varşavada ATƏT-in Minsk qrupunun həmsədrləri B.Fasye, R.Bradtke və İ.Popov, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi A.Kaspşik ilə görüşmüşdür. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırki vəziyyəti və perspektivləri barədə fikir mübadiləsi aparılmışdır.

8 oktyabr - Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ATƏT-in Parlament Assambleyasının Xorvatiyanın Dubrovknik şəhərində keçirilən sessiyasında müzakirə olunmuşdur. İclasdan əvvəl Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi, yaranma səbəbləri və onun ağır nəticələri barədə məlumat verilmişdir. ATƏT Parlament Assambleyasının tarixində ilk dəfə olaraq münaqişə daha geniş tərkibdə müzakirə olunmuşdur.

Sessiyada ATƏT-in Minsk qrupunun ABŞ-dan olan həmsədri R.Bradtke və Rusiyadan olan həmsədri İ.Popov, o cümlədən ATƏT-in

fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi A.Kaspşik öz çıxışlarında Dağlıq Qarabağ münaqişəsinin hazırki durumu barədə məlumat verərək qeyd etmişlər ki, münaqişənin həlli üç prinsipə – güc tətbiq etməmə, dövlətlərin ərazi bütövlüyünün qorunması və millətlərin öz müqəddəratlarını həll etməsi prinsiplərinə əsaslanır. A.Kaspşik qeyd etmişdir ki, bu günlərdə atəşkəs rejiminin pozulması nəticəsində 3 nəfər hərbi qulluqçu həlak olmuş və hadisə ilə əlaqədar ATƏT-in gələn həftə cəbhə xəttində yeni monitorinq keçirməsi təklif edilmişdir.

Fransalı həmsədr B.Fasye öz məruzəsində Dağlıq Qarabağın Azərbaycan ərazisi olduğunu, münaqişənin Azərbaycan ərazisində baş verdiyini bəyan etmişdir. O, qeyd etmişdir ki, Dağlıq Qarabağ və ətraf yeddi rayon Ermənistan qoşunları tərəfindən işğal olunmuş, 1 milyonadək azərbaycanlı öz doğma torpaqlarından didərgin düşmüş, nəticədə 25 min nəfər həyatını itirmiş, günahsız insanlar girov götürülmüşdür. Hazırda nə müharibə, nə də sülh vəziyyətidir".

24 oktyabr - Azərbaycan Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2011-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında bildirmişdir: "Bizim üçün ən ağır olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində əfsuslar olsun ki, heç bir irəliləyiş yoxdur, Azərbaycanın prinsipial mövqeyi var, bu mövqe həm tarixi həqiqətə, həm beynəlxalq hüquq normalarına əsaslanır. Biz bu mövqedən kənara bir addım atmayacağıq. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu olmayıb, deyil və olmayacaqdır. Çalışacağıq ki, bütün imkanlardan istifadə edib ərazi bütövlüyümüzü bərpa edək".

24 oktyabr - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri B.Fasyeni, R.Bradtkeni və İ.Popovu, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi A.Kaspşiki qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırki vəziyyəti və perspektivləri ilə bağlı məsələlər müzakirə olunmuşdur.

24 oktyabr - Azərbaycan 2012-2013-cü illər üzrə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə keçirilən seçkilərdə BMT-yə üzv olan 193 dövlətdən 155 dövlətin dəstəyini qazanaraq inamlı qələbə qazanmışdır. Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi

üzvlüyü 2012-ci il yanvarın 1-dən - 2013-cü il dekabrın 31-ə qədər davam edəcək. Bununla yanaşı, iki il müddətində Azərbaycan növbə ilə 2012-ci ilin mayında və 2013-cü ilin sentyabr aylarında 1 ay müddətinə Təhlükəsizlik Şurasının sədri funksiyalarını yerinə yetirəcəkdir.

Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv qəbul olunması tarixi hadisədir və bu Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun göstəricisi kimi qiymətləndirilməlidir. Eyni zamanda, Azərbaycan dünya dövlətləri ilə ikitərəfli və çoxtərəfli əlaqələr quraraq bunu dövlətlərarası sivil münasibətlər müstəvisində daim inkişaf etdirir. Azərbaycan Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda BMT Təhlükəsizlik Şurasının üzvü seçilən ilk ölkə olmuşdur.

2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi fəaliyəti müddətində bir sıra məsələlərin gündəliyə çıxarılmasına nail ola bilər. Yəni indiyə kimi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə həll edilməmiş qalır. Azərbaycan BMT Təhlükəsizlik Şurasında qeyri-daimi üzvlükdən istifadə edərək, özünün təhlükəsizlik problemlərini, ilk növbədə, pozulmuş ərazi bütövlüyü məsələsini BMT Təhlükəsizlik Şurasının gündəliyinə çıxarmaq imkanı qazanmışdır.

Xüsusilə, bir ay müddətinə Təhlükəsizlik Şurasının sədri funksiyalarını icrası zamanı BMT TŞ-nin problemlə bağlı qəbul edilmiş 4 qətnaməsinin yerinə yetirilməsi üçün ən azı yeni təşəbbüslə çıxış edə və BMT Təhlükəsizlik Şurasında Ermənistanın işğalçılıq siyasəti ilə bağlı yenidən məsələ qaldıra bilərik. Bu səbəbdən Azərbaycan iki il müddətində Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyündən istifadə edərək beynəlxalq hüququn normalarının bərpasını tələb etmək hüququna malik olacaqdır. Çünki Azərbaycan artıq 20 ildir ki, dünyada ardıcıl olaraq sülh və inkişaf siyasəti yürüdərək beynəlxalq hüququn bərpa olunmasını tələb edir. Münaqişələrin nizama salınması ilə bağlı ATƏT-in heç bir icraedici mexanizmi olmasa da, BMT-nin icraedici mexanizmləri vardır. Lakin qətnamələrin və qərarların yerinə yetirilməsi üçün dünyanın aparıcı dövlətlərinin də istəyi və iradəsi lazımdır. Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi bir çox addımlar ataraq mövqeyini nümayiş

etdirməklə yanaşı, "hücum diplomatiyası" taktikasını reallaşdıraraq mövqeyini dünyaya nümayiş etdirə bilər.

25 oktyabr - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi münasibəti ilə bəyanatında müstəqilliyimiz dövründə – 20 il ərzində belə böyük uğurun əldə edilməsini tarixi nailiyyət kimi qiymətləndirərək demişdir: "Biz 20 il ərzində müstəqil ölkə kimi özümüzü dünyada təsdiq edə bilmişik. Biz sübut edə bilmişik ki, Azərbaycan etibarlı tərəfdaşdır, Azərbaycan dost ölkədir və dostların sayının artması bizim siyasətimizin təntənəsidir. Bu səsvermə müstəqilliyimizin 20 illiyinə təsadüf edir. Bu, çox rəmzi məna daşıyan bir hadisədir. Bu, göstərir ki, 20 il ərzində Azərbaycan müstəqil dövlət, dünyada böyük şöhrətə malik olan ölkə kimi özünü göstərib. Bu qələbə Azərbaycan xalqının qələbəsidir. Bu qələbə Azərbaycan dövlətinin qələbəsidir, siyasətimizin təntənəsidir".

25 oktyabr - ATƏT-in Minsk qrupu həmsədrləri İ.Popov (Rusiya), Bernard Fasye (Fransa), R.Bradtke (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi A.Kaspşik oktyabrın 21-24-də Yerevan, Bakı və Azərbaycanın işğal olunmuş torpaqlarına səfərlərinin yekunları ilə bağlı bəyanat vermişlər. Bəyanatda qeyd edilir ki, münaqişənin dinc yolla nizamlanması istiqamətində növbəti irəliləyişlərə nail olmaq məqsədi ilə həmsədrlər tərəflərə danışıqlar mühitinin əhəmiyyətli dərəcədə yaxşılaşdırmağın, etimadı gücləndirməyin və atəşkəs rejiminə ciddi riayət olunmasının vacibliyini vurğulamışlar. Həmsədrlər Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müxtəlif sahələrdə etimadın möhkəmləndirilməsi üzrə tədbirlərə dair bir sıra təkliflər irəli sürmüşlər.

2 noyabr - ATƏT-in baş katibi L.Zannyer "Today's Zaman" qəzetinə müsahibəsində Dağlıq Qarabağ münaqişəsinin həllində Türkiyənin mühüm rol oynaya biləcəyini vurğulamışdır. Türkiyəni regionun mühüm bir aktoru adlandıran baş katib qeyd etmişdir ki, bu ölkənin məsələyə siyasi töhfə vermək imkanı vardır. Qəzetdə qeyd olunmuşdur ki, keçən əsrin 90-cı illərində Azərbaycanın ayrılmaz tərkib hissəsi olan, Dağlıq Qarabağ və onun ətrafındakı erməni əhalinin yaşamadığı yeddi rayon Ermənistan tərəfindən işğal edilmişdir.

4 noyabr - ATƏT-in Minsk qrupunun həmsədrləri İ.Popov (Rusiya), B.Fasye (Fransa), R.Bradtke (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi A.Kaspşik Vyanada ATƏT-in Daimi Şurasında illik hesabatla çıxış etmişlər. Hesabatda qeyd edilir ki, Dağlıq Qarabağ münaqişəsinin davamlı və sülh yolu ilə həlli üzrə səylər kontekstində həmsədrlər hesabat dövrünə aid ötən il ərzində səkkiz dəfə regionda olmuş, Azərbaycan və Ermənistan prezidentləri ilə müxtəlif yerlərdə on dörd dəfə ayrı-ayrılıqda görüşlər keçirmiş, işğal olunmuş Azərbaycan ərazilərinə faktaraşdırıcı missiyanın tərkibində səfər etmişlər. Həmsədrlər, həmçinin son 14 ay ərzində qoşunların təmas xəttini dörd dəfə piyada keçməklə, təmas xəttinin region xalqları arasında daimi baryer olmadığını və tərəflər istədiyi təqdirdə atəşkəs rejiminə riayət olunması üçün hərbi əlaqələndirmənin mümkünlüyünü nümayiş etdirmişlər.

Hesabatda ATƏT-in Minsk qrupunda həmsədrlik edən hər üç ölkənin hökumətlərinin də ən yüksək səviyyədə səy göstərdiyini vurğulayan həmsədrlər bir daha təkrarlamışlar ki, münaqişənin həllinin hərbi yolu yoxdur və qəbuledilməz status-kvonu dəyişmək, sülhə nail olmaq istiqamətində çətin qərarlar qəbul edilməsində tərəflərin siyasi iradəsi onlar üçün həlledici rol oynayacaqdır. Sənəddə həmsədrlər, həmçinin danışıqlar mühitinin yaxşılaşdırılması, atəşkəs rejiminə riayət olunması və region xalqları arasında qarşılıqlı anlaşmanın təşviqi üçün əlavə səylərdən bəhs etmiş və onların bu ayın sonunda qeyd edilən məsələlərlə bağlı təkliflər üzərində işləmək və danışıqların davam etdirilməsi ilə əlaqədar müzakirələr aparmaq üçün regiona təkrar səfər edəcəkləri qeyd olunmuşdur.

30 noyabr - Azərbaycan Respublikasınm Prezidenti İlham Əliyev ATƏT-in Minsk qrupunun həmsədrləri İ.Popovu (Rusiya), R.Bradtkeni (ABŞ), Fransadan olan sabiq həmsədr B.Fasyeni və yeni həmsədr J.Foru, həmçinin ATƏT-in fəaliyyətdə olan sədrinin xüsusi nümayəndəsi A.Kaspşiki qəbul etmişdir. Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırki vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılmışdır.

1 dekabr - Regiona növbəti səfərini yekunlaşdırmış ATƏT-in Minsk qrupunun həmsədrləri bəyanat yaymışlar. Bəyanatda deyilirdi ki, həmsədrlər İ.Popov (Rusiya), B.Fasye (Fransa), R.Bradtke (ABŞ) və

ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi A.Kaspşik noyabrın 28-dən 30-dək Yerevan və Bakıda səfərdə olmuş, Azərbaycan və Ermənistan prezidentləri, eləcə də hər iki ölkənin Xarici işlər və Müdafiə nazirləri ilə görüşmüşlər. Fransalı həmsədr B.Fasyeni yaxınlarda əvəz edəcək səfir Jak For da səfər müddətində nümayəndə heyətinin tərkibində olmuşdur.

Bəyanatda keçirilmiş bütün görüşlərdə həmsədrlər tərəflərə Dağlıq Qarabağ münaqişəsinin davamlı və sülh yolu ilə həllinə yardım üçün öz ölkələrinin götürdüyü ciddi səyləri vurğulamış, qoşunların təmas xəttində baş vermiş insidentlərlə bağlı ən yeni xəbərləri qeyd edərək, dövlət başçılarına 1994-cü ildə bağlanmış atəşkəs sazişinə riayət olunmasının əhəmiyyətini bir daha çatdırmışlar.

Sənəddə qeyd edilmişdir ki, noyabrın 29-da qoşunların təmas xəttini piyada keçən həmsədrlər hər iki tərəfdə yerli rəsmilərlə görüşərək, cəbhə bölgəsində vəziyyəti müzakirə etmiş, noyabrın 30-da Dağlıq Qarabağın azərbaycanlı icmasımn nümayəndələri ilə görüşmüş və vurğulamışlar ki, sülh razılaşması bütün qaçqın və məcburi köçkünlərin öz əvvəlki yaşayış yerlərinə dönməsi hüququnu özündə ehtiva etməlidir. Sənəddə dekabrın əvvəlində ATƏT-in Nazirlər Şurasının Vilnüsdə keçiriləcək toplantısı ərəfəsində həmsədrlər tərəfləri bu imkandan yararlanaraq, münaqişənin sülh yolu ilə həlli və qəbuledilməz status-kvo çərçivəsindən çıxmaq üçün səylərini gücləndirməyə çağırmışlar.

2 dekabr - Romada Heydər Əliyev Fondunun təşəbbüsü və Azərbaycanın İtaliyadakı səfirliyinin dəstəyi ilə Azərbaycan Respublikasının müstəqilliyinin bərpasının 20-ci ildönümünə həsr olunmuş təntənəli mərasimdə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyeva çıxışında iyirmi ildən çox sürən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hələ də həllini tapmadığını, ölkəmizin ərazisinin 20 faizinin işğal altında olduğunu, bir milyondan çox soydaşımızın isə məcburi köçkün və qaçqın şəraitində yaşadığını bəyan edərək, bu gün də Azərbaycanın münaqişənin sülh yolu ilə beynəlxalq hüquq və prinsiplər əsasında həllinin tərəfdarı olduğunu qeyd etmiş, ölkəmizin ərazi bütövlüyünün tezliklə bərpa olunacağına ümidvar olduğunu bildirmişdir.

6 dekabr - ATƏT-in Nazirlər Şurasının Vilnüsdə keçirilən 18-ci illik toplantısında iştirak edən Minsk qrupunun həmsədr ölkələrinin nümayəndə heyətlərinin rəhbərlərinin və iki ölkənin Xarici işlər nazirlərinin birgə bəyanatı yayılmışdır. Bəyanatın girişində Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanmasının əhəmiyyəti bir daha vurğulanmışdır.

Bəyanatda 2008-ci il Moskva Bəyannaməsi, eləcə də ATƏT Nazirlər Şurasının Helsinki (2008-ci il) və Afina (2009-cu il) toplantılarında, ATƏT-in Astana (2010-cu il) sammitində verilən bəyanatları xatırladaraq, nümayəndə heyətlərinin rəhbərləri ATƏT-in Minsk qrupu formatında danışıqların davam etdirilməsinin və münaqişənin sülh yolu ilə nizamlanması istiqamətində irəliləyişlər əldə edilməsi üçün zəruri etimad mühitinin yaxşılaşdırılmasının vacibliyini ifadə etmişlər. Bu istiqamətdəki addımlardan biri kimi bəyanatı verən tərəflər razılaşdırmışlar ki, Rusiya, Azərbaycan və Ermənistan prezidentlərinin 2011-ci ilin mart ayında Soçi görüşündə qəbul etdikləri birgə bəyanatın nəticəsi olaraq, atəşkəs rejiminin pozulmasına qarşı mexanizmin detalları üzərində işlə bağlı səylərini bundan sonra da davam etdirsinlər.

Rusiya, ABŞ, Fransa prezidentlərinin 2011-ci ilin may ayında Dovil bəyanatında Azərbaycan və Ermənistanı Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizamlanması üçün Baza Prinsipləri üzərində işi yekunlaşdırmağa dair çağırışlarını qeyd edərək, Minsk qrupunun həmsədr ölkələrinin nümayəndə heyətlərinin başçıları təəssüflə bildirmişlər ki, münaqişə tərəfləri bu istiqamətdə həlledici addımı atmaq iqtidarında olmamışlar. Hər üç nümayəndə heyətinin rəhbəri vurğulamışdır ki, Dağlıq Qarabağ münaqişəsinin hərbi həll yolu yoxdur və BMT Xartiyası, Helsinki Yekun Aktının prinsipləri, prezidentlərin 2009-cu ildə Akvil və 2010-cu ildə Muskokda birgə bəyanatlarındakı elementlər bütün tərəflərə qəbuledilməz status-kvo çərçivəsindən çıxaraq münaqişəni sülh yolu ilə nizamlamağı təqdim edir.

Nümayəndə heyətlərinin üç rəhbəri tərəfləri ən ali səviyyə də daxil olmaqla, ATƏT-in Nazirlər Şurasının 2007-ci il Madrid toplantısından bəri aparılmış intensiv danışıqlar fonunda həmsədr ölkələrin təqdim etdiyi təklifləri gələcəkdə diqqətlə nəzərdən keçirməyə çağırmışlar.

Çox təəssüf ki, Ermənistandan işğal etdiyi Azərbaycan torpaqlarından çıxmasını tələb etmək əvəzinə, ATƏT-in Minsk qrupunun həmsədrləri, qrupun üzvü olan ölkələrinin nümayəndə heyətlərinin başçıları, eləcə də böyük dövlətlərin rəhbərləri bəyanatlarında bu cür ("münaqişə tərəfləri" və s.) ifadələri dəfələrlə səsləndirməklə təcavüzkarla təcavüzə məruz qalanı eyni tutmuş, nizamasalma prosesində qətiyyət göstərməmiş və bu da Ermənistana qəbul edilən qərarları yerinə yetirməkdən boyun qaçırmağa imkan yaratmışdır).

9 dekabr - Rusiya Xarici işlər nazirinin müavini Q.Karasin ATƏT-in Minsk qrupunun həmsədrləri İ.Popov (Rusiya), B.Fasye (Fransa), R.Bradtke (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi A.Kaspşiklə (Polşa) görüşmüşdür. Görüşdə Minsk qrupunun həmsədri vəzifəsində fransalı həmsədri əvəz edəcək səfir J.For da iştirak etmişdir. Aparılan danışıqlar zamanı ATƏT-in Xarici İşlər Nazirləri Şurasının dekabrın 6-7-də Vilnüsdə keçirilmiş iclasının yekunları nəzərə alınmaqla, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair birgə fəaliyyət məsələləri müzakirə edilmişdir.

19 dekabr - Dağlıq Qarabağ münaqişəsinin nizamlanması üzrə Minsk qrupunun fransalı həmsədri B.Fasye fəaliyyətinin başa çatması üzrə keçirilən yekun mətbuat konfransında bildirmişdir ki, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesi mürəkkəbdir. Belə ki, vasitəçilərin hər hansı bir təklifinə münaqişə tərəflərinin razılığını almaq çətindir.

20 dekabr - Meksika Konqresinin Deputatlar Palatası erməni silahlı qüvvələri tərəfindən Azərbaycan ərazilərinin işğalını, xüsusilə də Xocalıda soyqırımı törətməsini kəskin pisləyən qərar qəbul etmişdir. Qərarın mətnində münaqişənin tarixi haqqında ətraflı məlumat verilərək bildirilir ki, 1987-ci ilin sonlarında, həmçinin Stepanakert kimi tanınan Xankəndidə ermənilərin azərbaycanlılara qarşı hücumları ilə müşayiət olunan Ermənistan-Azərbaycan münaqişəsinin "müasir dövrü" başlanmışdır. 1988-ci və 1989-cu illər ərzində 216 azərbaycanlının öldürülməsi və 1154 nəfərin ağır yaralanması, habelə təqribən 200 min şəxsin kütləvi şəkildə köçürülməsi ilə nəticələnmiş daimi hücumlar baş vermişdir.

Sənəddə 1991-ci ilin sonlarında və 1992-ci ilin əvvəllərində Sovet İttifaqının süquta uğraması ilə əlaqədar yaranmış qeyri-sabitliyin nəticəsində Ermənistan və Azərbaycan arasında münaqişənin intensivləşərək Dağlıq Qarabağda erməni qüvvələri tərəfindən başlanmış döyüş əməliyyatları ilə hərbi fazaya keçdiyi bildirilir.

Qərarda erməni silahlı qüvvələri tərəfindən Xocalıda soyqırım törədilməsi qəti şəkildə pislənir, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda erməni silahlı qüvvələri tərəfindən Azərbaycan əhalisinə qarşı həyata keçirilmiş misli görünməmiş qətliam baş verdiyi qeyd edilir. Sənəddə göstərilir ki, bu qətliamda 613 azərbaycanlı öldürülmüş, onlardan 106-sı qadın, 63-ü uşaq, 70-i isə yaşlı insan olmuşdur. Bundan əlavə, Xocalının 487 sakini, o cümlədən 76 uşaq şikəst edilmişdir. 26 uşaq hər iki valideynini, 130-u isə valideynlərdən birini itirmiş və bu hücum Azərbaycan Respublikasının müxtəlif orqanları, eləcə də bir çox müstəqil mənbələr tərəfindən tam şəkildə təsdiqlənmişdir.

Qərarda qeyd edilir ki, Xocalı soyqırımından sonra erməni silahlı qüvvələri Dağlıq Qarabağın ətrafındakı 7 rayonu – Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilanı işğal etmiş, bu silahlı münaqişə Azərbaycan ərazilərinin təqribən beşdə bir hissəsinin qanunsuz işğal edilməsinə gətirib çıxarmış, eləcə də əhalisinin doqquz nəfərdən birinin məcburi köçkün və ya qaçqın düşməsinə səbəb olmuş, nəticədə 20 000 insan öldürülmüş, 50 000-i yaralanmış və ya əlil olmuş, təqribən 5 min nəfərin taleyi isə naməlum qalmışdır. Azərbaycanın iqtisadi rayonlarına ciddi ziyan vurulmuşdur. Burada xəstəxanalar, evlər, inzibati binalar, məktəblər, fabriklər, suvarma sistemləri, körpülər, yollar, su və qaz boruları, təminat məntəqələri dağıdılmışdır.

Sənəddə göstərilir ki, BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə erməni qoşunlarının işğal edilmiş ərazilərdən dərhal çıxarılmasını tələb edən, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədlərini dəstəkləyən dörd qətnamə qəbul edilmişdir. Amma buna baxmayaraq, indiyədək bu qətnamələrin tələbləri yerinə yetirilməmişdir. 1994-cü il mayın 12-də tərəflər arasında atəşkəs haqqında razılığın əldə olunmasına baxmayaraq, atəşkəsin Ermənistan

tərəfindən pozulması faktları mövcuddur. Azərbaycanın mülki əhalisi hələ də bundan fiziki və mənəvi əziyyət çəkir.

Qəbul edilmiş razılaşma maddəsinin birinci bəndində bildirilir ki, Meksika Konqresinin Deputatlar Palatası Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu ərazisinin işğal edilməsini, Azərbaycan Respublikasının əhalisinin, xüsusilə də Xocalı soyqırımı zamanı öldürülməsini, insanlara fiziki zərərin və mənəvi əzabın verilməsini, həmçinin atəşkəs rejimi haqqında tərəflər arasında razılığın pozulması ilə hərbi əməliyyatların yenidən başlanmasından irəli gələnləri pisləyir.

Razılaşma maddəsinin ikinci bəndində isə qeyd edilir ki, münaqişənin hələ də həll olunmamış qalması təəssüflə qarşılanır və Meksika Konqresinin Deputatlar Palatası tərəfləri münaqişənin həlli istiqamətində dialoqu davam etdirməyə səsləyir.

Növbəti bənddə Azərbaycan Respublikasında bir milyon qaçqın və məcburi köçkünün olduğunu nəzərə alaraq, ölkədəki humanitar böhran barədə Meksikanın BMT-dəki Daimi Nümayəndəliyi vasitəsilə Meksika Konqresinə hesabatın təqdim edilməsi tövsiyə olunur.

Dördüncü bənddə isə Konqresin Deputatlar Palatası tərəfindən aidiyyəti səlahiyyətləri çərçivəsində Federal İcra Hakimiyyətindən xahiş olunur ki, Ermənistan Respublikasının hökumətini BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 nömrəli qətnamələrinin yerinə yetirməyə sövq etmək üçün müvafiq hesab etdiyi səylərin göstərilməsi haqqında Meksikanın BMT yanındakı Daimi Nümayəndəliyinə təlimat göndərsin.

Razılaşma maddəsinin sonuncu bəndində Konqresin Deputatlar Palatasının aidiyyəti Federal İcra Hakimiyyətini öz səlahiyyətləri çərçivəsində müvafiq beynəlxalq təşkilatlar yanında Meksika dövləti adından Ermənistan Respublikasına hərbi əməliyyatların və Azərbaycanın mülki vətəndaşlarına qarşı zorakılığın dərhal dayandırılması, Azərbaycan Respublikasının ərazilərindən Ermənistan silahlı qüvvələrinin dərhal çıxarılması barədə, həmçinin maraqlı tərəflərə daha böyük münaqişəyə gətirə biləcək və regionda sülhü və təhlükəsizliyi pozacaq hər hansı düşmənçilik, daxili işlərə qarışmaq haqqında müraciət etməyə çağırışı əks olunmuşdur.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı razılaşdırma maddələrindən ibarət qərar Meksikanın Milli Hərəkat Partiyasının Parlament Qrupunun üzvü, deputat M.Esker tərəfindən cari il noyabrın 30-da Meksika Konqresinin Deputatlar Palatasının sosiyalar salonunda təqdim edilmişdir.

22 dekabr - Fransanın aşağı qanunverici orqanı Milli Assambleyanın yığıncağında Xalq Hərəkatı Uğrunda Partiyasının (UMP) təmsilçisi Valeri Bayerin təklifi əsasında ümumilikdə soyqırımı, o cümlədən qondarma "erməni soyqırımı"nı inkar edənlərin cəzalandırılması ilə bağlı qanun müzakirə olunmuşdur. Milli Assambleya binasının qarşısına toplaşmış on minlərlə nümayişçinin və beynəlxalq təşkilatların etirazlarına baxmayaraq, qanun elə birinci oxunuşda deputatlar tərəfindən qəbul edilmişdir.

Bundan əvvəl, hələ 2006-cı ildə ölkənin nüfuzlu partiyalarından biri hesab edilən Sosialist Partiyasının təhriki ilə Milli Assambleya erməni soyqırımı" məsələsini müzakirə etmiş, onu inkar edənlərə bir il həbs cəzası verilməsi və 45 min avro cərimə ödəməsini nəzərdə tutan qərarı səs çoxluğu ilə bəyənmişdilər. Həmin qanun təsdiq olunmaq üçün Senata göndərilsə də, senatorlar onu müzakirə etməyin qəti əleyhinə olduqlarını bildirmiş və beləliklə qanunun müzakirəsi elə Senatda dondurulmuşdu. Milli Assambleya tərəfindən növbəti dəfə qəbul edilmiş qanun təsdiq edilmək üçün yenə Senata göndəriləcəkdir.

24 dekabr - Azərbaycan Prezidenti İlham Əliyev Ağcabədi rayonunun Taxtakörpü ərazisində Laçın rayonundan olan 552 məcburi köçkün ailəsi üçün yeni yaşayış qəsəbəsinin açılışında bütün beynəlxalq təşkilatların qərarları, qətnamələrinin Azərbaycanın haqlı mövqeyini müdafiə etdiyini, ancaq Minsk qrupunun 20 ilə yaxındır ki, fəaliyyət göstərsə də, heç bir nəticənin olmadığını və məsələnin öz həllini tapmadığını qeyd edərək, dünyadakı erməni lobbisi, ermənilərin havadarları, onlara dəstək verənlərin buna imkan vermədiyini, Azərbaycana qarşı dünya ermənilər və onların çirkli pulları ilə idarə edilən riyakar siyasətçilərin mübarizə apardıqlarını bildirmişdir. Beynəlxalq təşkilatların, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra edilməli olduğunu söyləyən dövlət başçısı İlham Əliyev qeyd etmişdir ki, bütün dünya birliyi

Azərbaycanın ərazi bütövlüyünü, eləcə də Dağlıq Qarabağı Azərbaycan torpağı kimi tanıdığı üçün beynəlxalq ictimaiyyət tələb etməlidir ki, işğalçı qüvvələr işğal edilmiş torpaqlardan çəkilsin və bu da Azərbaycan vətəndaşlarının o torpaqlara qayıtmasına imkan versin. Azərbaycan Prezidenti İlham Əliyev bildirmişdir: "Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və bərpa ediləcəkdir. İşğal edilmiş bütün torpaqlarda Azərbaycanın suverenliyi təmin edilməlidir və ediləcəkdir".

26 dekabr - Azərbaycan Prezidenti İlham Əliyevin İTAR-TASS agentliyi və "Rossiya 24" telekanalı üçün müsahibəsində BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinin təmin edilməsini və bu cür dörd qətnamənin olduğunu bildirərək qeyd etmişdir ki, o sənədlərdə Ermənistanın işğalçı qüvvələrinin işğal edilmiş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılması tələb edilir. Avropa Şurasının, Avropa Parlamentinin qətnamələri, ATƏT-in qərarları, İslam Əməkdaşlıq Təşkilatının və digər təşkilatların da qətnamələrinin olduğunu qeyd edən dövlət başçısı Azərbaycanın ərazi bütövlüyü bərpa edilməli və bunun bizim suveren hüququmuz olduğunu bildirmişdir: "Dövlətimizin ərazi bütövlüyünün siyasi vasitələrlə deyil, hərbi vasitələrlə bərpa edilməsi də bizim suveren hüququmuzdur. BMT Nizamnaməsinə uyğun olaraq bizim belə hüququmuz vardır".

30 dekabr - Azərbaycan Respublikası Milli Məclisinin Fransa Respublikasının Senatına müraciətində 2011-ci il dekabrın 22-də Fransa Respublikasının Milli Assambleyasında "erməni soyqırımı"nın inkar edilməsinə görə cəza müəyyənləşdirən qanun layihəsinin qəbul olunduğundan narahatlıq və bununla əlaqədar tam aydın olmayan uzaq tarixi hadisələrə ehtiyatla yanaşmağa çağırış ifadə edilir.

Sənəddə qeyd edilir ki, belə bir qanun qəbul ediləcəyi təqdirdə demokratik quruluşun təməlində dayanan, insan hüquqları və azadlıqları sırasında əsas yer tutan söz və fikir azadlığına zidd olacaqdır. Müraciətdə bildirilir ki, hazırda dinlər və mədəniyyətlər arasında dialoqun dərinləşdirilməsi zərurətinin mövcud olduğu bir dövrdə bu cür qanunun qəbul edilməsi dünyada ikili standartların mövcudluğu barədə fikirləri təsdiqləyəcəkdir.

Daha sonra müraciətdə göstərilir ki, "erməni soyqırımı"nın baş verdiyi iddia olunan dövrdə, yəni XX əsrin əvvəllərində yüz minlərlə günahsız türk və azərbaycanlı erməni millətçiləri tərəfindən kütləvi şəkildə qətlə yetirilmişdir. Sənəddə deyilir: "Lap yaxın keçmişdə, 1992-ci il fevralın 26-da Azərbaycanın Xocalı şəhərinin yüzlərlə dinc sakin yalnız azərbaycanlı olduğuna görə Ermənistan silahlı qüvvələri tərəfindən vəhşicəsinə öldürülmüşdür. Bütün bunlar nəzərə alınarsa, yəqin, bizimlə razılaşarsınız ki, tarixi hadisələrə bir tərəfin mövqeyindən qiymət vermək cəhdləri tarixi həqiqətlərə hörmətsizliyə gətirib çıxara bilər. Ayrı-ayrı siyasi qrupların və etnik lobbiçilərin bədniyyətli fəaliyyəti nəticəsində qəbul edilə biləcək qanun 2 əsrdən də çox bundan əvvəl İnsan və Vətəndaş hüquqları haqqında Bəyannaməni qəbul etmiş Fransa kimi qədim demokratik ənənələrə malik ölkənin nüfuzuna yalnız ləkə vura bilər".

Bununla yanaşı, sənəddə qeyd edilir ki, belə bir qanun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə nizama salınması ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədri kimi Fransanın obyektivliyini şübhə altına alacaqdır. Ona görə də Azərbaycan Respublikasının Milli Məclisi əmin olduğunu bildirir ki, Fransa Respublikasının Senatı adı çəkilən məsələnin müzakirəsi zamanı diqqətli və həssas olacaq, demokratik prinsiplərə zidd olan qanunun qəbul edilməsinə yol verməyəcəkdir.

31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Azərbaycan xalqına təbrikində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ermənistanın qeyri-konstruktiv mövqeyi, danışıqlar prosesində göstərdiyi riyakarlıq, danışıqlardan faktiki olaraq imtina etməsi ilə bu prosesə böyük zərbə vurduğunu bildirərək demişdir: "Əfsuslar olsun ki, hələ də dünya birliyi və bu məsələ ilə birbaşa məşğul olan tərəflər birmənalı şəkildə danışıqların pozulmasında günahkarın kim olduğunu açıq demirlər". Bununla yanaşı, Azərbaycanın diplomatik və siyasi səylərini davam etdirəcəyini bildirən dövlət başçısı bəyan etmişdir: "Danışıqlarda bizim prinsipial mövqeyimiz vardır. Biz bu mövqedən bir addım geri çəkilməyəcəyik. Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır. Beynəlxalq birlik, Birləşmiş Millətlər Təşkilatı Azərbaycanın ərazi bütövlüyünü tanıyır, dəstəkləyir. Dağlıq Qarabağ beynəlxalq birlik

tərəfindən Azərbaycanın ərazisi kimi tanınır. Münaqişə məhz bu prinsiplər üzərində öz həllini tapmalıdır. Ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. İşğalçı qüvvələr işğal edilmiş bütün torpaqlardan çıxarılmalıdır. Azərbaycan vətəndaşları işğal edilmiş bütün torpaqlara, o cümlədən Dağlıq Qarabağa, Şuşaya qayıtmalıdırlar. Ancaq ondan sonra uzunmüddətli sülh təmin edilə bilər. Biz heç vaxt imkan verə bilmərik ki, ikinci dəfə əzəli Azərbaycan torpağında ikinci qondarma erməni dövləti yaradılsın. Bu, bizim prinsipial mövqeyimizdir. Bir daha demək istəyirəm ki, bu mövqe həm tarixə, həm hüquq normalarına, həm də ədalətə əsaslanır".

** Kitabda göstərilən yer adları hadisənin baş verdiyi dövrdə adlandırıldığı kimi verilmişdir. Bəzi hallarda isə xüsusilə, 1991-ci ildə Azərbaycan Respublikasının müstəqilliyinin bərpasına qədər olan dövrdə məqsədyönlü şəkildə dəyişdirilmiş yer adlarının kitabda təkrarlanmaması üçün Azərbaycanın yer adları tarixiən olduğu kimi göstərilmişdir.*

AZERBAIJAN

osce
bon Summit 96

csce
Budapest Summit
1 9 9 4

osce
Lisbon Summit 96

de l'Europe - 10 - 11 octobre 1997
f Europe - October, 10th - 11th
Strasbourg
Strasbourg
Deuxième S
Second Sum

DEUXIEME SOMMET
DU CONSEIL DE L'EUROPE
10-11 OCTOBRE 1997
STRASBOURG
SECOND SUMMIT OF
THE COUNCIL OF EUROPE
10-11 OCTOBER 1997



94 4 9

Assemblée
parlementaire

108
68
37
155
155A
157
210
273
71

Assemblée
Parlementaire
de l'OTAN
NATO

THE EUROPEAN
POLICY CENTRE



CRANS MONTANA FORUM

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması istiqamətində Azərbaycan və Ermənistan prezidentləri arasında keçirilmiş görüşlərin

SİYAHISI

	Tarix	Görüşlərin keçirildiyi yer
1.	**28 aprel 1998-ci il**	*Moskva, Rusiya. MDB-nin toplantısı çərçivəsində*
2.	**1 aprel 1999-cu il**	*Moskva, Rusiya. MDB-nin Sammiti çərçivəsində, Rusiyanın təşəbbüsü ilə*
3.	**26 aprel 1999-cu il** (ilk birbaşa danışıqlar)	*Vaşinqton, ABŞ. NATO-nun 50 illik yubiley toplantısından sonra ABŞ-ın təşəbbüsü ilə*
4.	**16 iyul 1999-cu il**	*Cenevrə, İsveçrə. İki respublika prezidentinin təşəbbüsü ilə*
5.	**22 avqust 1999-cu il**	*Cenevrə, İsveçrə. İki respublika prezidentinin təşəbbüsü ilə*
6.	**10 sentyabr 1999-cu il**	*Yalta, Ukrayna. Baltik-Qara Dəniz Forumu çərçivəsində*
7.	**11 oktyabr 1999-cu il**	*Sədərək, Naxçıvan, Azərbaycan. İki respublika prezidentinin təşəbbüsü ilə*
8.	**17 noyabr 1999-cu il**	*İstanbul, Türkiyə. ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Sammiti çərçivəsində*
9.	**24 yanvar 2000-ci il**	*Moskva, Rusiya, MDB-nin Sammiti çərçivəsində. Rusiyanın təşəbbüsü ilə*
10.	**28 yanvar 2000-ci il**	*Davos, İsveçrə. Ümumdünya İqtisadi Forumu çərçivəsində. İki respublika prezidentinin təşəbbüsü ilə*
11.	**20 iyun 2000-ci il**	*Moskva, Rusiya. MDB-nin Sammiti çərçivəsində. Rusiyanın təşəbbüsü ilə*
12.	**18 avqust 2000-ci il**	*Krım, Ukrayna. MDB dövlət başçılarının qeyri-rəsmi Sammiti çərçivəsində. İki respublika prezidentinin təşəbbüsü ilə*
13.	**7 sentyabr 2000-ci il**	*Nyu-York, ABŞ, "Minillik Sammiti" çərçivəsində. İki respublika prezidentinin təşəbbüsü ilə*
14.	**1 dekabr 2000-ci il**	*Minsk, Belorus. MDB-nin Sammiti çərçivəsində. İki respublika prezidentinin təşəbbüsü ilə*

15.	**26 yanvar 2001-ci il**	*Paris, Fransa, Marini sarayı. Fransanın təşəbbüsü ilə, sonradan Fransa Prezidentinin iştirakı ilə.*
16.	**5 mart 2001-ci il**	*Paris, Fransa, Yelisey sarayı. Fransanın təşəbbüsü ilə, sonradan Fransa Prezidentinin iştirakı ilə*
17.	**3-7 aprel 2001-ci il**	*Ki-Uest, Florida ştatı, ABŞ. ABŞ-ın təşəbbüsü ilə, sonradan ABŞ Dövət katibinin iştirakı ilə*
18.	**31 may 2001-ci il**	*Minsk, Belorus. MDB-nin Sammiti çərçivəsində, Rusiyanın təşəbbüsü ilə*
19.	**1 avqust 2001-ci il**	*Soçi, Rusiya.. MDB dövlət başçılarının qeyri-rəsmi Sammiti çərçivəsində, sonradan Rusiya Prezidentinin iştirakı ilə*
20.	**30 noyabr 2001-ci il**	*Moskva, Rusiya. MDB-nin Sammiti çərçivəsində, sonradan Rusiya Prezidentinin iştirakı ilə*
21.	**14 avqust 2002-ci il**	*Sədərək, Naxçıvan, Azərbaycan. İki respublika prezidentinin təşəbbüsü ilə*
22.	**6 oktyabr 2002-ci il**	*Kişinyov, Moldova. MDB-nin Sammiti çərçivəsində,. sonradan ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə*
23.	**21 noyabr 2002-ci il**	*Praqa, Çexiya. NATO-nun Sammiti çərçivəsində, sonradan ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə*
24.	**11 dekabr 2003-cü il**	*Cenevrə, İsveçrə. İnformasiya Cəmiyyəti üzrə Dünya Sammiti çərçivəsində, sonradan ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə*
25.	**28 aprel 2004-cü il**	*Varşava, Polşa. Avropa İqtisadi Sammiti çərçivəsində,. sonradan ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə*
26.	**15 sentyabr 2004-cü il**	*Astana, Qazaxıstan. MDB-nin Sammiti çərçivəsində. Rusiya Prezidentinin, sonradan ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə*
27.	**15 may 2005-ci il**	*Varşava, Polşa. Avropa Şurasına üzv olan ölkələrin dövlət və hökumət başçılarının Sammiti çərçivəsində*
28.	**27 avqust 2005-ci il**	*Kazan, Tatarıstan, Rusiya. ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə.*
29.	**10-11 fevral 2006-cı il**	*Rambuye (Parisin 50 km-də), Fransa. ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə*

30.	**5 iyun 2006-cı il**	*Buxarest, Rumıniya. "Dialoq və Tərəfdaşlıq Naminə" Qara Dəniz Forumu çərçivəsində.*
31.	**28 noyabr 2006-cı il**	*Minsk, Belorus. MDB-nin Sammiti çərçivəsində*
32.	**9 iyun 2007-ci il**	*Sankt-Peterburq, Rusiya. "Konqreslər sarayı dövlət kompleksinin Baltik ulduzu" mehmanxanasında, MDB-nin qeyri-rəsmi Sammiti öərövəsində*
33.	**5 iyun 2008-ci il**	*Sankt-Peterburq, Rusiyaş MDB-nin qeyri-rəsmi Sammiti çərçivəsində*
34.	**2 noyabr 2008-ci il**	*Moskva, Rusiya. "Mayn Dorf" iqamətgahı, Rusiya prezidentinin vasitəçiliyi və ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə*
35.	**28 yanvar 2009-cu il**	*Sürix, İsveçrə. ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə*
36.	**7 may 2009-cu il**	*Praqa, Çexiya. "Şərq Tərəfdaşlığı" Sammiti çərçivəsində*
37.	**4 iyun 2009-cu il**	*Sankt-Peterburq, Rusiya. Rusiya prezidentinin vasitəçiliyi ilə*
38.	**17-18 iyul 2009**	*Moskva, Rusiya."President Hotel", Rusiya prezidentinin vasitəçiliyi ilə*
39.	**8-9 oktyabr 2009-cu il**	*Kişinyov, Moldova. MDB-nin Sammiti çərçivəsində*
40.	**22 noyabr 2009-cu il**	*Münhen, Almaniya. Fransanın baş konsulunun iqamətgahı*
41.	**25 yanvar 2010-cu il**	*Soçi, Rusiya. "Adler" Beynəlxalq hava limanı Rusiya prezidentinin vasitəçiliyi ilə*
42.	**17 iyun 2010-cu il**	*Sankt-Peterburq, Rusiya. Rusiya prezidentinin vasitəçiliyi ilə*
43.	**27 oktyabr 2010-cu il**	*Həştərxan, Rusiya. Rusiya prezidentinin vasitəçiliyi ilə*
44.	**5 mart 2011-ci il**	*Soçi, Rusiya. Rusiya prezidentinin vasitəçiliyi ilə*
45.	**24 iyun 2011-ci il**	*Kazan, Rusiya. Rusiya prezidentinin vasitəçiliyi ilə*
46.	**25 yanvar 2012-ci il**	*Soçi, Rusiya."Krasnaya Polyana" iqamətgahı, Rusiya prezidentinin vasitəçiliyi ilə*



Ratspräsidentschaft 2007

XOCALI SOYQIRIMI
DÜNYA BİRLİYİ SUSUR,
TARİX SUSMAYACAQ!
XOCALINI
UNUTMAYAQ

20 il

NƏTİCƏ

Tarixi faktlar göstərir ki, strateji baxımdan mühüm əhəmiyyətə malik olan Azərbaycanın Qarabağ bölgəsinin dağlıq hissəsinə İrandan və Türkiyədən çoxlu sayda erməni əhalisinin köçürülməsinə XIX əsrin əvvəllərində başlanmışdır. Çar Rusiyasının müstəmləkəçilik siyasətinin tərkib hissəsi olan bu köçürülmə prosesi bütün XIX əsr boyunca davam etdirilmiş və nəticədə regionda demoqrafik vəziyyətə təsir göstərmişdir. Ermənilərin bu bölgədə süni surətdə çoxaldılması onların XX əsrin əvvəllərindən başlayaraq Azərbaycana qarşı ərazi iddialarının baş qaldırmasına səbəb olmuşdur.

"Böyük Ermənistan" ideyası ilə yaşayan ermənilər öz məqsədlərinə çatmaq üçün xarici himayədarlarının köməyi ilə müxtəlif vaxtlarda azərbaycanlılara qarşı dəhşətli terror və soyqırım həyata keçirməklə etnik təmizləmə siyasəti aparmışlar. Belə ki, Azərbaycan xalqı son 200 il ərzində erməni millətçilərinin davamlı olaraq etnik təmizləmə, soyqırım və təcavüzkar siyasətinə məruz qalaraq, öz tarixi torpaqlarından didərgin salınmış, qaçqın və məcburi köçkünə çevrilmişlər.

Hər zaman olduğu kimi XX əsrin 80-ci illərinin sonunda da Dağlıq Qarabağa dair ərazi iddiaları məhz Ermənistanın təbliği, təhriki və təzyiqi ilə ortaya atılmışdı. Heç şübhəsiz, ermənilərin bu ərazi iddiaları birdən-birə deyil, xaricdə olan himayədarları tərəfindən hələ xeyli əvvəl diqqətlə və hərtərəfli plan əsasında hazırlanmışdı. Sovet dövründə ermənilər tərəfindən mərkəzi hakimiyyət orqanlarının himayədarlığı ilə Azərbaycan əleyhinə məqsədyönlü şəkildə təbliğat kampaniyası aparılmış və nəticədə mənfi ictimai fikir formalaşdırılmışdı. Erməni ideoloqları Azərbaycanın tarixi, sosial-iqtisadi inkişafı haqqında faktları açıq-aşkar saxtalaşdıraraq bütün ittifaq miqyasında yaymışdılar.

1988-ci il hadisələri başlayanda ilk vaxtlar erməni siyasətçiləri və onların mərkəzi ittifaqdakı himayədarları tərəfindən vilayətin iqtisadi geriliyi pərdəsi altında Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi üçün

uzun müddətdən bəri hazırlanmış plan üzrə Xankəndində və Yerevanda kütləvi mitinqlər təşkil edildi. Lakin baş verən sonrakı hadisələr DQMV-nin sosial-iqtisadi geriliyi barədə erməni siyasətçiləri və onların mərkəzdəki himayədarlarının irəli sürdükləri bu saxta tezisin yalnız bəhanə, əsas məqsədin isə Ermənistanın Azərbaycana qarşı ərazi iddiasında olduğunu göstərdi.

Bununla yanaşı, Ermənistan SSR Ali Soveti 1989-cu il dekabrın 1-də Azəbaycanın suverenliyini kobud surətdə pozaraq DQMV-nin Ermənistan SSR-ə birləşdirilməsi haqqında Konstitusiyaya zidd qərar qəbul etdi. Eyni zamanda, DQMV-nin idarə və müəssisələri Ermənistanın müvafiq nazirlik və idarələrinin tabeliyinə verildi. Birbaşa Sovet rəhbərliyinin fəaliyyətsizliyi, bəzən isə açıq himayədarlığı sayəsində DQMV iqtisadiyyatının və digər sahələrinin faktiki olaraq Azərbaycandan ayrılması və Ermənistana birləşdirilməsi baş verdi. Bütün rayon partiya komitələri Ermənistan KP-nin tərkibinə daxil oldu. DQMV ərazisində Azərbaycanın dövlət atributları (bayrağı, gerbi, himni və s.) dəyişdirildi və Ermənistanın bayrağı və gerbi qaldırıldı. Ermənistan rəhbərliyi və erməni millətçiləri mərkəzin bəzi dairələrinin köməyi ilə vilayətdə əsl mənada Dağlıq Qarabağın iqtisadi, ictimai-siyasi və mədəni cəhətdən mənimsənilməsi prosesi aparırdılar.

Təəssüf ki, hadisələrin başlanğıcında erməni millətçilərinin qarşısının alınmaması vəziyyəti get-gedə gərginləşdirirdi. Belə ki, Sovet rəhbərliyinin çox ciddi, bağışlanılmaz səhvləri və ermənipərəst siyasəti 1990-cı ilin sonu - 1991-ci ilin əvvəllərində vəziyyətin getdikcə kəskinləşməsinə gətirib çıxartdı ki, bununla da DQMV və Azərbaycanın Ermənistanla həmsərhəd bölgələrində erməni təcavüzü daha geniş miqyas aldı. Nəticədə, minlərlə azərbaycanlı SSRİ-nin hakim dairələri tərəfindən himayə edilən ermənilərin işğalçılıq siyasətinin qurbanı oldu. SSRİ-nin süqutundan sonra ermənilər artıq Azərbaycan hökumətinin nəzarət edə bilmədiyi vilayətdə Ermənistandan göndərilən silahlı dəstələr və hərbi texnikanın köməyi ilə azərbaycanlılara qarşı daha qanlı cinayətlər törətdilər.

1992-ci ilin əvvəllərindən başlayaraq Ermənistan ordusu bir-birinin ardınca yuxarı Qarabağda azərbaycanlılar yaşayan sonuncu yaşayış məntəqələrini də işğal etdilər. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə

Ermənistan silahlı qüvvələri Xankəndində yerləşən keçmiş SSRİ-nin 366-cı motoatıcı alayının hərbçiləri və ağır texnikasının iştirakı ilə Xocalı şəhərinə hücum edərək şəhəri yerlə-yeksan etdilər. Çoxsaylı ağır texnika ilə şəhər tamamilə dağıdıldı, yandırıldı və insanlar xüsusi qəddarlıqla qətlə yetirildi. Bu soyqırım nəticəsində rəsmi rəqəmlərə görə, 613 nəfər öldürülmüşdü ki, onlardan 63 nəfəri uşaq, 106 nəfəri qadın, 70 nəfəri isə qocalar idi. 8 ailə tamamilə məhv edilmişdi. 487 nəfər şikəst olmuşdu ki, onlardan da 76-sı uşaq idi. Bundan əlavə, 1275 nəfər əsir götürülmüş, 150 nəfər itkin düşmüşdü.

Bununla yanaşı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi 1992-ci ilin əvvəllərindən başlayaraq daha çox beynəlxalq əhəmiyyətli problemə çevrildi. Belə ki, müstəqilliyini əldə edən Azərbaycan Respublikası ATƏM-in üzvü olduqdan sonra Dağlıq Qarabağ münaqişəsi bu təşkilatın prinsiplərinə uyğun olaraq üzv olan dövlətlərin daha çox müzakirə obyektində oldu.

ATƏM-in Xarici İşlər Nazirləri Şurasının martın 24-də keçirilən birinci əlavə görüşündə Dağlıq Qarabağda vəziyyət müzakirə olundu və münaqişənin sülh yolu ilə nizamlanması istiqamətində aparılan danışıqların səmərəliliyini təmin etmək üçün ATƏM-in Dağlıq Qarabağa dair sülh konfransının çağırılması haqqında qərar qəbul edildi.

1992-ci il mayın 8-də Azərbaycanın qədim musiqi və mədəniyyət mərkəzi olan Şuşa şəhərini ələ keçirməklə Ermənistan ordusu tərəfindən bütün yuxarı Qarabağ işğal edildi. Bu hadisə mütəmadi şəkildə BMT Nizamnaməsini və ATƏT-in prinsiplərini kobud şəkildə pozaraq Qarabağın dağlıq hissəsini zorla Ermənistana ilhaq etməyə çalışan təcavüzkar dövlətin beynəlxalq hüquq normaları ilə bir araya sığmayan və işğalçılıq siyasətinə sadiq qaldığını bir daha təsdiq etdi. Şuşanı ələ keçirməklə Ermənistan bu problemi yalnız hərbi-taktiki baxımdan həll etmiş oldu. Problemin siyasi həlli isə getdikcə dərinləşərək çətin məcraya salındı. Məhz Şuşanın işğalı sonralar digər Azərbaycan ərazilərinin itirilməsində əsas rol oynadı.

Azərbaycanın strateji əhəmiyyətli Şuşa şəhərinin işğalından sonra Ermənistan silahlı qüvvələrinin məqsədi işğal etdikləri Azərbaycan torpaqlarında möhkəmlənmək, Qarabağın dağlıq hissəsini Ermənistan Respublikasına birləşdirmək üçün onların arasında dəhliz açmaq idi. Az

sonra ermənilər qısa müddət ərzində, yəni mayın 18-də Dağlıq Qarabağdan kənarda yerləşən qədim Azərbaycan şəhəri Laçını da zəbt etdilər. Beləliklə, "öz müqəddəratını təyin etmək" ideyasını reallaşdırmaq adı altında Azərbaycanın Dağlıq Qarabağ bölgəsi ilə Ermənistan arasında "dəhliz"adlandırılan, əslində isə 1.875 km² ərazisi olan böyük bir ərazi – Laçın rayonu da Ermənistan silahlı qüvvələri tərəfindən işğal olundu. Laçının işğalı müharibənin Dağlıq Qarabağ hüdudlarından çıxdığını və Ermənistanın hərbi işğalçılıq niyyətinin böyük olduğunu göstərdi.

Ermənilərin "humanitar dəhliz" adlandırdığı bu yol ilə Dağlıq Qarabağa külli miqdarda silah, döyüş sursatı və hərbi qüvvə gətirildi. Heç şübhəsiz ki, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin erməni icması, hətta istəsəydi belə, kənardan çox böyük kömək olmadan Azərbaycan ərazilərini işğal edə bilməzdi. Ermənistan silahlı qüvvələri tərəfindən Şuşa və Laçının işğalı nəinki münaqişənin hərbi tərəfini, eyni zamanda onun mahiyyətini də dəyişərək yeni siyasi problem yaratdı və sülh missiyasını öz üzərinə götürmüş Minsk konfransının keçirilməsi yolunda maneəyə çevrildi.

Nəticədə, Ermənistan silahlı qüvvələri tərəfindən 1993-cü il martın 27-dən aprelin 2-dək Azərbaycanın Kəlbəcər rayonunun işğalı münaqişənin artıq mahiyyətcə başqa səviyyəyə keçdiyini göstərdi. Yəni Ermənistan Respublikasının bu təcavüzü Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin hüdudlarından kənarda yerləşən ərazilərinin intensiv surətdə işğal edilməsinin yeni mərhələyə – işğalçılıq mərhələsinə keçməsinə sübut idi. Bundan sonra Ermənistan ordusu 1993-cü il ərzində Azərbaycanın Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan bölgələrini də işğal etdi. Bütün bu ərazilər ermənilər tərəfindən etnik təmizləməyə məruz qalmışdır.

Beləliklə, Ermənistanın ərazi iddiası obyekti olan Dağlıq Qarabağ bölgəsinin (4,4 min km²) hüdudlarından kənarda yerləşən və onun ərazisindən 4 dəfə böyük olan 7 rayon (Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan) Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildi. Bütün dövrlərdə olduğu kimi ermənilərin həyata keçirdiyi bu işğalçılıq siyasəti kütləvi qırğınlarla müşayiət olunmuşdur. Belə ki, 1988-1993-cü illərdə Ermənistanın hərbi təcavüzü nəticəsində 20 000 nəfər

azərbaycanlı həlak olmuş, 100 000 nəfərdən çoxu yaralanmış, 50 000 nəfər isə müxtəlif dərəcəli xəsarət alaraq əlil olmuşdur.

Ermənistanın Dağlıq Qarabağın erməni icmasının öz müqəddəratını təyin etmək cəhdi kimi qələmə verdiyi bu təcavüzü nəticəsində Azərbaycanın işğal olunmuş ərazilərindən 1 milyondan çox əhali (ümumi əhalinin 15%-i) öz torpağından məcburən köçkün və qaçqın vəziyyətinə düşdü. Hazırda Azərbaycan ərazisinin 20 %-dən çox (17 min km²) hissəsi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır.

Eyni zamanda, dövlət terrorizmi və soyqırım siyasəti yeridən Ermənistan Respublikası tərəfindən 1988-1994-cü illərdə ümumilikdə, müxtəlif səpkili (sərnişin avtobuslarında, sərnişin və yük qatarlarında, Bakı metropolitenində, hava nəqliyyatında, sərnişin daşıyan dəniz bərəsində, yaşayış məntəqələrində, mülki və dövlət obyektlərində) 373 terror aktı törədilmişdir ki, nəticədə 1200 nəfər həlak olmuş, 1705 nəfər yaralanmışdır.

Çox təəssüf ki, dünya birliyi Ermənistanın bu açıq-aşkar təcavüzkarlığına göz yumdu və təcavüzkarın qarşısının alınması üçün heç bir əməli tədbir görmədi. 1992-1993-cü illərdə münaqişəni nizama salmaq üçün BMT Təhlükəsizlik Şurasında aparılan müzakirələr zamanı və Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələri qəbul edilərkən Şuranın daimi üzvü olan böyük dövlətlər Ermənistanın təcavüzkar dövlət kimi tanınmasına razılıq verməyərək münaqişənin ATƏT-in Minsk prosesi çərçivəsində atəşkəs və danışıqlar yolu ilə həll olunmasına üstünlük verdilər. Cəzasız qaldığından ruhlanan və bundan istifadə edən Ermənistan tərəfi BMT TŞ-nin münaqişəyə dair qəbul etdiyi 4 qətnaməyə də məhəl qoymadı. ATƏM-in Minsk qrupunun bu illərdəki fəaliyyətinə nəzər salsaq, demək olar ki, onun BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrini yerinə yetirmək üçün hazırladığı "Təxirəsalınmaz tədbirlər cədvəli" heç bir təsir gücünə malik deyildi.

ATƏM-in başlıca çatışmazlıqlarından biri də məhz ATƏM çərçivəsində və onun himayəsi altında müqaviləni yerinə yetirməkdən imtina edən tərəfə qarşı sanksiya qəbuletmə mexanizminin olmaması idi. Minsk qrupu tərəfindən qəbul edilən sənədlər yalnız məsləhət və ya tövsiyə xarakteri daşıyırdı. Bununla yanaşı, ATƏM-də tətbiq olunan qarşılıqlı

güzəşt prinsipi müqaviləni pozan tərəfə öz əməllərinə görə məsuliyyət daşımamaq imkanı verirdi.

Lakin torpaqlarına təcavüz olandan sonra da Azərbaycan bütün vasitəçilik missiyalarından imtina etməyərək, problemin ATƏM prinsipləri çərçivəsində həllinə tərəfdar olduğunu bir daha nümayiş etdirdi. Münaqişənin dinc vasitələrlə nizama salınması üçün yaradılmış Minsk qrupu çərçivəsində aparılan danışıqlarda Ermənistanın qeyri-konstruktiv mövqe tutması ilə yanaşı, qrupun üzvü olan böyük dövlətlərin mövqeyində də yekdil fikrin olmaması sülh prosesinin nəticəsiz qalmasına gətirib çıxartdı.

Yalnız 1993-cü ilin ikinci yarısından başlayaraq ümummilli lider Heydər Əliyev Azərbaycanın təhlükəsizlik problemlərini, xüsusilə, Ermənistanın ərazi iddiaları və hərbi təcavüzü məsələsini beynəlxalq aləmə çıxararaq regionda sülhün bərqərar olması üçün nüfuzlu beynəlxalq təşkilatların təsirini artırmağa çalışmışdır. Münaqişənin sülh yolu ilə həll edilməsi üçün Azərbaycan Prezidenti Heydər Əliyevin ən yüksək səviyyədə dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli, eləcə də çoxtərəfli görüşlərdə, ATƏT-in Zirvə toplantılarında, Minsk qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə, eyni zamanda Ermənistan prezidenti ilə birbaşa danışıqlarda göstərdiyi səylər ümummilli liderin apardığı ardıcıl və məqsədyönlü siyasətin mühüm tərkib hissəsini təşkil etmişdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə nizamlanması məqsədi ilə məhz Azərbaycan Prezidenti Heydər Əliyevin prinsipial mövqeyi və diplomatik fəaliyyəti sayəsində 1994-cü ilin mayın 12-də atəşkəs haqqında razılıq əldə edildikdən sonra ATƏM-in Minsk qrupu çərçivəsində müntəzəm olaraq danışıqlar aparılmağa başlandı.

1994-cü ilin dekabrın 5-6-da ATƏM-in Budapeştdə keçirilən Zirvə toplantısında "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏM-in fəaliyyətinin intensivləşdirilməsi" barədə qərar qəbul olundu. Qəbul edilən sənəddə münaqişə bölgəsində sabitliyin təmin edilməsi üçün ATƏM-in çoxmillətli sülhməramlı qüvvələrinin yerləşdirilməsi haqqında maddə də öz əksini tapdı. Bundan başqa, Budapeştdə həmsədrlik institutu da təsis edildi. Minsk konfransına iki həmsədrin təyin edilməsi və Minsk qrupunun iclaslarının onların birgə həmsədrliyi ilə keçiriləcəyi barədə qərar qəbul

edildi. ATƏM-in (1995-ci il yanvarın 1-dən ATƏT) Minsk konfransında, o cümlədən Minsk qrupunda həmsədrlik Rusiya və Finlandiyaya (sonradan İsveç Finlandiyanı əvəz etdi) tapşırıldı.

1996-cı ilin dekabrın 2-3-də ATƏT-in Lissabonda keçirilən Zirvə toplantısında Azərbaycan Prezidenti Heydər Əliyevin diplomatik fəaliyyəti sayəsində münaqişənin həllinin beynəlxalq-hüquqi bazasını müəyyənləşdirən xüsusi bir sənəd qəbul edildi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair 3 əsas prinsipi özündə əks etdirən və ATƏT-in fəaliyyətdə olan sədri, İsveçrənin Xarici işlər naziri Flavio Kottinin adından verilən bu bəyanat Ermənistan istisna olmaqla, dünyanın 53 dövləti tərəfindən müdafiə olundu və Lissabon sammitinin Yekun sənədlərinə əlavə edildi.

ATƏT-in Lissabon Zirvə görüşündən sonra Rusiya ilə yanaşı, Fransa və ABŞ nümayəndələri də Minsk qrupunun həmsədrləri təyin olundu. 1997-1998-ci illərdə Minsk qrupunun həmsədrləri Lissabon prinsiplərinə əsaslanaraq iki hissədən ibarət – yəni Dağlıq Qarabağın hüdudlarından kənarda yerləşən işğal olunmuş 7 rayonun azad edilməsi və Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi ilə əlaqədar 3 təkliflə çıxış etmişlər. Onların 1997-ci ilin iyununda təqdim etdikləri ilk təklif münaqişənin "paket" (bu variantda Dağlıq Qarabağdan kənarda işğal edilmiş Azərbaycan rayonlarının azad edilməsi ilə yanaşı, Dağlıq Qarabağın statusu məsələsinə eyni vaxtda razılıq verilməsi nəzərdə tutulurdu) həlli, 1997-ci ilin sentyabrında irəli sürdükləri ikinci təklif münaqişənin "mərhələli" (bu variantda isə münaqişənin mərhələlərlə – yəni ilkin mərhələdə Dağlıq Qarabağın hüdudlarından kənarda olan işğal edilmiş ərazilərin azad olunması, sonrakı mərhələdə isə Dağlıq Qarabağın statusu məsələsinin həlli nəzərdə tutulurdu) həllindən ibarət idi. Azərbaycan həmin planlarla tam razı olmasa da, həmsədrlərin bu iki təklifini qəbul etdiyi halda Ermənistan tərəfi qeyri-konstruktiv mövqedən çıxış edərək həmin təkliflərlə razılaşmadı.

1998-ci ilin noyabrın 9-da həmsədrlər beynəlxalq hüquq normalarına zidd, həmçinin Azərbaycan üçün qətiyyən qəbuledilməz olan və danışıqların davam etdirilməsinə imkan yaratmayan üçüncü təklifi irəli sürdülər. Bu təklif dünya praktikasında mövcud olmayan "ümumi dövlət" ideyasına

əsaslanırdı. Azərbaycan Prezidenti Heydər Əliyev tərəfindən qətiyyətlə rədd edilən süni "ümumi dövlət" təklifi Azərbaycanın mənafeyinə zidd olmaqla yanaşı, ATƏT-in Budapeşt və Lissabon Zirvə toplantılarında qəbul edilən sənədlərə də etinasız yanaşılması demək idi.

"Ümumi dövlət" prinsipi nizamasalma prosesinə ciddi maneə törətməklə yanaşı münaqişənin həlli yollarına dair tərəflərin mövqeyindəki ziddiyyətləri daha da dərinləşdirdi. Nəticədə, danışıqlar prosesində bir durğunluq yarandı və münaqişənin nizama salınması istiqamətində müsbət irəliləyiş əldə etmək mümkün olmadı. Həmsədrlər tərəfindən irəli sürülən və sonuncu olan "Ümumi dövlət" ideyası iflasa uğradıqdan sonra Minsk qrupu praktik olaraq dalana dayandı.

Münaqişənin nizama salınması istiqamətində aparılan danışıqlar prosesinə təkan vermək üçün 1999-cu il aprelin 26-da ABŞ-ın təşəbbüsü ilə Vaşinqtonda Azərbaycan və Ermənistan prezidentləri arasında artıq yeni formatda birbaşa danışıqlara başlanıldı və ATƏT-in Minsk qrupu tərəfindən danışıqların bu formatı bəyənildi. Lakin bu görüşün nəticəsində də nizamasalma prosesində konkret irəliləyiş əldə edilmədi.

2001-ci ilin yanvarın 26-da Parisdə əvvəlcə Marini sarayında, martın 5-də isə Yelisey sarayında aparılan danışıqlar daha sonra aprelin 4-6-da ABŞ-ın Florida ştatının Ki-Uest şəhərində Minsk qrupunun həmsədrlərinin iştirakı ilə davam etdirildi. İki dövlətin prezidentləri arasında intensiv keçirilən və sonradan "Paris prinsipləri" adını almış bu danışıqlarda əvvəllər irəli sürülmüş 3 təklifin ("paket", "mərhələli" və "ümumi dövlət") tərəfləri qane edən məqamlarının ümumiləşdirilməsi nəzərdə tutulurdu.

Daha sonra 2002-ci ilin mart ayında ATƏT-in Minsk qrupu həmsədrləri regiona səfəri zamanı danışıqların Azərbaycan və Ermənistan prezidentlərinin şəxsi nümayəndələri səviyyəsində davam etdirilməsini təklif etdilər. Bu təklif hər iki dövlət tərəfindən qəbul edildi və danışıqlar bu formatda Praqada davam etdirildi. Mahiyyətcə "mərhələli həll" planını özündə əks etdirən Praqa formatının Azərbaycan tərəfindən dəstəklənməsinə baxmayaraq, Ermənistan tərəfinin Dağlıq Qarabağın statusu məsələsini yenidən ilkin şərt kimi müzakirə olunmasını irəli sürməsindən sonra danışıqlar prosesi yenidən dalana dayandı.

Bu dövrdə, ATƏT-in Minsk Qrupu çərçivəsində aparılan danışıqlar və qurumla qarşılıqlı əməkdaşlıq ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi Azərbaycanın xarici siyasət kursunun prioritet istiqamətlərindən birinə çevrilmişdir. Yalnız onu qeyd etmək kifayətdir ki, 1993-2003-cü illər ərzində Azərbaycanın dövlət başçısı Heydər Əliyev Ermənistan Prezidenti ilə 23, ATƏT-in rəhbərliyi və Minsk qrupunun nümayəndələri ilə 150-yə qədər görüş keçirmişdir.

2004-cü il aprelin 16-dan başlayaraq Praqada Azərbaycan və Ermənistan xarici işlər nazirləri səviyyəsində danışıqlar yenidən bərpa olundu. Sonradan "Praqa prosesi" adlandırılan danışıqların bu mərhələsində 2005-ci ilin yayına qədər iki dövlətin xarici işlər nazirləri 11 görüş keçirərək münaqişənin nizama salınmasına dair sülh planının yeni variantının detallarını müzakirə etdilər.

Münaqişənin nizama salınmasına dair aparılan danışıqların "Praqa prosesi" adını almış variantının əsas elementləri ondan ibarət idi ki, burada nizamlanmanın "mərhələli həll" variantının detalları müzakirə obyektinə çevrilmişdi. 2004-2006-cı illərdə münaqişənin nizamlanması istiqamətində aparılan danışıqlarda Ermənistanın qeyri-konstruktiv mövqedən çıxış etməsi "Praqa prosesi"nin yenidən dalana dayanmasına və danışıqların nəticəsiz qalmasına gətirib çıxartdı.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması prosesini sürətləndirmək üçün baza prinsipləri 2007-ci il noyabrın sonunda Madriddə tərəflərə təqdim olundu. Bundan sonra 2008-ci il iyunun 5-də Sankt-Peterburqda, noyabrın 2-də Moskvada, 2009-cu il yanvarın 28-də Sürixdə, mayın 7-də Praqada, iyunun 4-də Sankt-Peterburqda, iyulun 17-18-də Moskvada, oktyabrın 8-9-da Kişinyovda, noyabrın 22-də Münhendə, 2010-cu il yanvarın 25-də Soçidə, iyunun 17-də Sankt-Peterburqda, oktyabrın 27-də Həştərxanda, 2011-ci il martın 5-də Soçidə, iyunun 24-də Kazanda, 2012-ci il yanvarın 25-də isə Soçidə Azərbaycan və Ermənistan prezidentlərinin 14 görüşü olmuşdur. Bu görüşlərdən 9-u, eləcə də son 6-sı Rusiya Prezidentinin vasitəçiliyi ilə keçirilmişdir.

Görüşlər zamanı aparılan danışıqların mahiyyəti haqqında verilən məlumatlarda bildirilir ki, son beş ildə "Praqa prosesi" çərçivəsində

işlənilməsi başlanılan və Madrid sənədinə çevrilən baza prinsipləri mövcuddur. Bu prinsiplərin bəziləri üzrə müəyyən razılaşma əldə edilmişdir. Lakin hazırda prezidentlər səviyyəsində müzakirə olunan bir neçə prinsip üzrə anlaşma hiss olunsa da, bəzi mühüm prinsiplər ətrafında tərəflərin mövqeyində ziddiyyətlər qalmaqdadır. Bu kontekstdə bütün məsələlərə dair ümumi razılıq əldə olunduqdan sonra yekun hər hansı bir sənədin qəbul ediləcəyi bildirilir.

2009-cu ilin iyulun 10-da "Böyük səkkizlər"in İtaliyanın Akvil şəhərində keçirilən toplantısında ABŞ, Rusiya və Fransa prezidentləri Dağlıq Qarabağ problemini də müzakirə etdilər. Sonda hər üç prezidentin münaqişə ilə bağlı qəbul etdikləri birgə bəyanatda həmsədrlərə Azərbaycan və Ermənistan prezidentlərinə Baza Prinsiplərinə dair son təklıflərin əks olunduğu, yəni 2007-ci il noyabrın 29-da açıqlanmış Madrid təklifləri üzrə yeni versiyanı təqdim etməyi tapşırdılar.

2010-cu il yanvarın 25-də Rusiyanın vasitəçiliyi ilə Soçidə Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşü zamanı münaqişənin nizama salınması istiqamətində danışıqlar ATƏT-in Minsk qrupu həmsədrlərinin 2009-cu ilin dekabr ayında təklif etdiyi yenilənmiş Madrid prinsipləri əsasında aparılmışdır. Bu danışıqlardan sonra Azərbaycan tərəfi Madrid prinsipləri əsasında verilən bu təklifi qəbul etmiş, Ermənistan isə verilən təklifə münasibət bildirmək üçün iki həftə vaxt istəmişdi. Ancaq keçən dövr ərzində Ermənistan həmsədrlərin təklifinə rəsmən heç bir cavab verməmiş və vaxt uzatmaq taktikasından istifadə etmişdir.

2010-cu il iyunun 26-da ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələrin prezidentlərinin "Böyük səkkizlərin" Torontoda keçirilən sammitində qəbul etdikləri birgə bəyanatda münaqişə tərəflərinə təqdim olunmuş yenilənmiş Madrid prinsiplərinə istinad edilir. Bu prinsiplərə görə bəyanatda göstərilirdi ki, Ermənistan qoşunları işğal edilmiş rayonlardan çıxmalı, qaçqınlar öz yurdlarına qayıtmalı, münaqişə bölgəsində sülhməramlı qüvvələr yerləşdirilməli, Dağlıq Qarabağa özünüidarəetmə imkanı yaradan aralıq status verilməli, yekun statusun müəyyənləşdirilməsi isə növbəti mərhələdə müzakirə edilib həyata keçirilə bilər.

2011-ci il mayın 25-də "Böyük səkkizlik" ölkələrinin Fransanın Dovil şəhərində keçirilən sammiti çərçivəsində son üç ildə artıq 3-cü dəfə ABŞ, Rusiya və Fransa prezidentləri Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına dair birgə bəyanatla çıxış etdilər. Bəyanatda ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələrin prezidentləri Ermənistan və Azərbaycan liderlərini "iyun ayında keçiriləcək Ermənistan-Azərbaycan sammitində (Kazan görüşü nəzərdə tutulur – müəllif) siyasi iradə nümayiş etdirməyə və Əsas Prinsipləri (Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin Əsas Baza Prinsipləri) üzərində işi tamamlamağa" çağırmışlar.

Ümumiyyətlə, Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması istiqamətində aparılan danışıqların tarixinə nəzər salsaq, qeyd edə bilərik ki, 1992-ci ildən beynəlxalq təşkilatların və böyük dövlətlərin vasitəçilik səyləri ilə yanaşı, 1999-cu ilin aprelindən başlayaraq yeni formada da addımlar atılmışdır. Bu, Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa dialoqunun aparılması olmuşdur. Həmin vaxtdan indiyə qədər iki respublikanın prezidentləri Moskvada, Vaşinqtonda, Cenevrədə, Yaltada, İstanbulda, Davosda, Nyu-Yorkda, Minskdə, Parisdə, Ki-Uestdə, Soçidə, Kişinyovda, Praqada, Strasburqda, Varşavada, Astanada, Kazanda, Rambuyedə, Buxarestdə, Sankt-Peterburqda, Sürixdə, Münhendə, Həştərxanda və habelə iki respublikanın sərhədi – Sədərəkdə 45-dən çox görüş keçirmişlər.

Ancaq çox ağır və çətin keçən danışıqlar zamanı Azərbaycan tərəfi öz haqlı mövqeyini müdafiə edərkən bir sıra çətinliklərlə qarşılaşır. Çünki münaqişə başlayandan keçən dövr ərzində aparılan danışıqlarda təcavüzkar Ermənistan qeyri-konstruktiv mövqedən çıxış edərək işğalçılıq siyasətindən əl çəkmir. Digər tərəfdən isə, dünya birliyinin "ikili standartlar" prinsipindən çıxış etməsi, BMT və ATƏT kimi beynəlxalq təşkilatların öz təklif və qətnamələrini həyata keçirmək üçün konkret fəaliyyət göstərməməsi danışıqlar prosesində irəliləyişin əldə olunmasına maneə törədir.

Buna baxmayaraq, Azərbaycan dövləti beynəlxalq təşkilatların, xüsusilə də münaqişəni dinc vasitələrlə nizama salmaq üçün fəaliyyət göstərən ATƏT-in sülhyaratma təkliflərinə hörmətlə yanaşaraq onun işində müntəzəm və əməli şəkildə iştirak edir. Təkcə onu qeyd etmək kifayətdir ki,

işlənilməsi başlanılan və Madrid sənədinə çevrilən baza prinsipləri mövcuddur. Bu prinsiplərin bəziləri üzrə müəyyən razılaşma əldə edilmişdir. Lakin hazırda prezidentlər səviyyəsində müzakirə olunan bir neçə prinsip üzrə anlaşma hiss olunsa da, bəzi mühüm prinsiplər ətrafında tərəflərin mövqeyində ziddiyyətlər qalmaqdadır. Bu kontekstdə bütün məsələlərə dair ümumi razılıq əldə olunduqdan sonra yekun hər hansı bir sənədin qəbul ediləcəyi bildirilir.

2009-cu ilin iyulun 10-da "Böyük səkkizlər"in İtaliyanın Akvil şəhərində keçirilən toplantısında ABŞ, Rusiya və Fransa prezidentləri Dağlıq Qarabağ problemini də müzakirə etdilər. Sonda hər üç prezidentin münaqişə ilə bağlı qəbul etdikləri birgə bəyanatda həmsədrlərə Azərbaycan və Ermənistan prezidentlərinə Baza Prinsiplərinə dair son təkliflərin əks olunduğu, yəni 2007-ci il noyabrın 29-da açıqlanmış Madrid təklifləri üzrə yeni versiyanı təqdim etməyi tapşırdılar.

2010-cu il yanvarın 25-də Rusiyanın vasitəçiliyi ilə Soçidə Azərbaycan və Ermənistan prezidentlərinin növbəti görüşü zamanı münaqişənin nizama salınması istiqamətində danışıqlar ATƏT-in Minsk qrupu həmsədrlərinin 2009-cu ilin dekabr ayında təklif etdiyi yenilənmiş Madrid prinsipləri əsasında aparılmışdır. Bu danışıqlardan sonra Azərbaycan tərəfi Madrid prinsipləri əsasında verilən bu təklifl qəbul etmiş, Ermənistan isə verilən təklifə münasibət bildirmək üçün iki həftə vaxt istəmişdi. Ancaq keçən dövr ərzində Ermənistan həmsədrlərin təklifinə rəsmən heç bir cavab verməmiş və vaxt uzatmaq taktikasından istifadə etmişdir.

2010-cu il iyunun 26-da ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələrin prezidentlərinin "Böyük səkkizlərin" Torontoda keçirilən sammitində qəbul etdikləri birgə bəyanatda münaqişə tərəflərinə təqdim olunmuş yenilənmiş Madrid prinsiplərinə istinad edilir. Bu prinsiplərə görə bəyanatda göstərilirdi ki, Ermənistan qoşunları işğal edilmiş rayonlardan çıxmalı, qaçqınlar öz yurdlarına qayıtmalı, münaqişə bölgəsində sülhməramlı qüvvələr yerləşdirilməli, Dağlıq Qarabağa özünüidarəetmə imkanı yaradan aralıq status verilməli, yekun statusun müəyyənləşdirilməsi isə növbəti mərhələdə müzakirə edilib həyata keçirilə bilər.

2011-ci il mayın 25-də "Böyük səkkizlik" ölkələrinin Fransanın Dovil şəhərində keçirilən sammiti çərçivəsində son üç ildə artıq 3-cü dəfə ABŞ, Rusiya və Fransa prezidentləri Dağlıq Qarabağ münaqişəsinin nizama salınmasına dair birgə bəyanatla çıxış etdilər. Bəyanatda ATƏT-in Minsk qrupunun həmsədri olan ölkələrin prezidentləri Ermənistan və Azərbaycan liderlərini "iyun ayında keçiriləcək Ermənistan-Azərbaycan sammitində (Kazan görüşü nəzərdə tutulur – müəllif) siyasi iradə nümayiş etdirməyə və Əsas Prinsipləri (Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin Əsas Baza Prinsipləri) üzərində işi tamamlamağa" çağırmışlar.

Ümumiyyətlə, Ermənistan-Azərbaycan münaqişəsinin nizama salınması istiqamətində aparılan danışıqların tarixinə nəzər salsaq, qeyd edə bilərik ki, 1992-ci ildən beynəlxalq təşkilatların və böyük dövlətlərin vasitəçilik səyləri ilə yanaşı, 1999-cu ilin aprelindən başlayaraq yeni formada da addımlar atılmışdır. Bu, Azərbaycan və Ermənistan prezidentlərinin birbaşa dialoqunun aparılması olmuşdur. Həmin vaxtdan indiyə qədər iki respublikanın prezidentləri Moskvada, Vaşinqtonda, Cenevrədə, Yaltada, İstanbulda, Davosda, Nyu-Yorkda, Minskdə, Parisdə, Ki-Uestdə, Soçidə, Kişinyovda, Praqada, Strasburqda, Varşavada, Astanada, Kazanda, Rambuyedə, Buxarestdə, Sankt-Peterburqda, Sürixdə, Münhendə, Həştərxanda və habelə iki respublikanın sərhədi – Sədərəkdə 45-dən çox görüş keçirmişlər.

Ancaq çox ağır və çətin keçən danışıqlar zamanı Azərbaycan tərəfi öz haqlı mövqeyini müdafiə edərkən bir sıra çətinliklərlə qarşılaşır. Çünki münaqişə başlayandan keçən dövr ərzində aparılan danışıqlarda təcavüzkar Ermənistan qeyri-konstruktiv mövqedən çıxış edərək işğalçılıq siyasətindən əl çəkmir. Digər tərəfdən isə, dünya birliyinin "ikili standartlar" prinsipindən çıxış etməsi, BMT və ATƏT kimi beynəlxalq təşkilatların öz təklif və qətnamələrini həyata keçirmək üçün konkret fəaliyyət göstərməməsi danışıqlar prosesində irəliləyişin əldə olunmasına maneə törədir.

Buna baxmayaraq, Azərbaycan dövləti beynəlxalq təşkilatların, xüsusilə də münaqişəni dinc vasitələrlə nizama salmaq üçün fəaliyyət göstərən ATƏT-in sülhyaratma təkliflərinə hörmətlə yanaşaraq onun işində müntəzəm və əməli şəkildə iştirak edir. Təkcə onu qeyd etmək kifayətdir ki,

Azərbaycanın Prezidenti İlham Əliyev keçən dövr ərzində ATƏT-in Minsk qrupunun həmsədrləri ilə 70-dən çox görüş keçirmiş və bu da münaqişənin nizama salınması istiqamətində aparılan danışıqlarda Azərbaycanın ilk növbədə sülh variantına üstünlük verdiyinə sübutdur.

Çox təəssüf ki, yarandığı vaxtdan etibarən ATƏT-in Minsk qrupunun qəbul etdiyi sənədlərdə Azərbaycanın ərazi bütövlüyünün, sərhədlərinin toxunulmazlığının, suverenliyinin bərpasının zəruriliyi bildirilsə də, indiyə qədər bu qurumun fəaliyyəti sülh prosesində arzu olunan nəticəni verməmişdir. Buna səbəb bir tərəfdən Ermənistan Respublikasının qeyri-konstruktiv mövqedən çıxış edərək işğalçılıq siyasətini davam etdirməsi, digər tərəfdən beynəlxalq təşkilatların, xüsusilə, münaqişənin dinc vasitələrlə nizama salınması üçün əsas rol oynayan ATƏT-in Minsk qrupunun qarşılıqlı güzəşt prinsipini üstün tutaraq təcavüzkarla təcavüzə məruz qalanı eyniləşdirməsidir. Bundan istifadə edən Ermənistan Respublikası ərazi ələ keçirmək məqsədilə başladığı təcavüz üçün daşıdığı məsuliyyətdən qaçmağa can atır, Dağlıq Qarabağ ermənilərinin münaqişədə iştirak edən tərəf kimi tanınmasını bütün vasitələrlə Azərbaycana qəbul etdirməyə çalışır.

Bununla yanaşı, keçən dövr ərzində ATƏT çərçivəsində yaradılan Minsk qrupu və bu qrupa həmsədrlik edən ABŞ, Fransa və Rusiya kimi böyük dövlətlər münaqişənin ədalətli həll olunmasında məsuliyyət daşımamış və təcavüzkara qarşı heç bir təzyiq göstərmək niyyətində olmamışlar. Bundan əlavə, münaqişədə Ermənistanın Azərbaycana təcavüzündən birbaşa danışmadan, işğal etdiyi ərazilərdən çıxmasını tələb etmədən və qəbul edilən sənədlərdə bu barədə heç nə demədən münaqişənin ədalətli həlli yolunda müsbət irəliləyişə nail olmaq çətindir. Eyni zamanda, təcavüzkar Ermənistana qarşı heç bir əməli tədbirin görülməməsi ATƏT-in nüfuzuna xələl gətirməklə bərabər, onun tərkibində yaradılan Minsk qrupuna olan ümidləri də heçə endirmişdir.

Bundan başqa, Ermənistanın Azərbaycana qarşı təcavüzünün genişlənməsi ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri, eləcə də Təhlükəsizlik Şurası sədrinin qəbul etdiyi 7 bəyanatda Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığının zəruriliyi bildirilir. BMT Təhlükəsizlik Şurasının

sənədlərində işğalçı qüvvələrin işğal etdikləri Azərbaycan ərazilərindən dərhal çıxması qeyd olunsa da, bu sənədlər qəbul edilərkən Şuranın üzvü olan böyük dövlətlər, xüsusilə də ABŞ, Rusiya, Fransa nümayəndələri Ermənistanın təcavüzkar dövlət kimi tanınmasına razılıq verməyərək münaqişənin atəşkəs və danışıqlar yolu ilə həll olunmasına üstünlük verdilər.

Beləliklə, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə aradan qaldırılması sahəsində BMT və dünya birliyinin göstərdiyi səylər Ermənistan Respublikasının açıq-aşkar hərbi işğalçılıq mövqeyi tutması ucbatından təsirli nəticələr verməmişdir. BMT-nin regionda sülhpərvərlik fəaliyyətinin uğursuzluqlarının başlıca səbəbi məhz Azərbaycan Respublikasına qarşı Ermənistan Respublikasının birbaşa təcavüzü faktının etiraf olunmaması ilə bağlıdır.

Ermənistan Respublikası BMT Nizamnaməsinin 1-ci və 2-ci maddələrində və ATƏT-in Yekun Aktında ifadə olunmuş beynəlxalq hüququn əsas prinsiplərini kobud şəkildə pozmasına baxmayaraq, adı çəkilən nüfuzlu beynəlxalq təşkilatların faktlar toplamaq sahəsində çoxsaylı missiyaları öz nəticələrini çıxararkən Ermənistan silahlı qüvvələrinin münaqişədə bilavasitə iştirakını etiraf etməkdən çəkinir və ya bunu etmək istəmirlər. Halbuki BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri və Təhlükəsizlik Şurası sədrinin bəyanatlarında və sonralar digər beynəlxalq təşkilatların məlum sənədlərində Ermənistan Respublikasının münaqişədə bu və ya başqa formada iştirakı etiraf olunmuş, təcavüz faktları öz əksini tapmışdır. Bu isə beynəlxalq cinayətdir və BMT Baş Məclisinin 1974-cü ildə keçirilən 29-cu sessiyasında təcavüzün istənilən forması (birbaşa, yaxud dolayısı ilə) hərbi cinayət elan edilmişdir.

Ona görə də böyük dövlətlər müasir beynəlxalq münasibətlər üçün təhlükəli olan təcavüzkarın qarşısını almaq istəyirlərsə, BMT Nizamnaməsinin VII fəslinə müvafiq surətdə, qəti praktik addımlar atmalı və Ermənistanı beynəlxalq birliyin iradəsinə tabe etdirməlidirlər.

Münaqişənin beynəlxalq hüquqi aspektləri. *Ermənistanın Azərbaycana qarşı açıq-aşkar təcavüzü bütün beynəlxalq hüquq norma və prinsiplərinə ziddir. Belə ki, dünyada sülhün və təhlükəsizliyin təminatçısı olan BMT Nizamnaməsinin 1-ci maddəsinin 1-ci bəndində təşkilatın əsas*

vəzifəsi kimi "beynəlxalq sülhü qorumaq və bu məqsədlə təcavüz hərəkətlərinə və ya sülhün pozulmasına yönəlmiş digər pozuntulara qarşı təsirli kollektiv tədbirlər həyata keçirmək" nəzərdə tutulur. Nizamnamə nəinki təcavüzü, həm də dövlətlərarası münasibətlərdə qüvvə və ya hədə tətbiq etməni də qadağan edir (2-ci maddənin 2-ci bəndi), dövlətlər arasında baş verə biləcək hər cür mübahisələri ancaq dinc vasitələrlə həll etməyi tələb edir (2-ci maddənin 3-cü bəndi).

Təcavüz aktının baş verməsilə təcavüzə məruz qalmış dövlət BMT Nizamnaməsinin 39-cu maddəsinə uyğun olaraq BMT Təhlükəsizlik Şurası qarşısında təcavüzkar dövlətin məsuliyyəti məsələsini qoyur. Təcavüz anlayışının müddəalarının birində göstərilən faktın olması kifayət edir ki, Təhlükəsizlik Şurası təcavüzkara qarşı Nizamnamənin VI-VII fəsillərinə uyğun olaraq məcburiyyət tədbirləri görsün. BMT Baş Məclisinin 1967-ci il 18 dekabr tarixli 2330 (XXII) saylı qətnamə layihəsində təcavüz hərəkətlərinin qarşısını almaq və BMT Nizamnaməsinə uyğun olaraq beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq, eləcə də təsirli tədbirlər həyata keçirmək üçün təcavüz anlayışının mahiyyəti öz əksini tapmışdır.

1974-cü il dekabrın 14-də BMT Baş Məclisinin XXIX sessiyasının 3314 (XXIX) saylı qətnaməsində ilk dəfə olaraq təcavüz anlayışının mahiyyəti və məzmunu açıqlandı və ona beynəlxalq hüquqi qiymət verildi. 8 maddədən ibarət olan qətnamədə təcavüzün nədən ibarət olması müəyyənləşdirildi.

1-ci maddədə göstərilirdi ki, bir dövlət tərəfindən digər dövlətin suverenliyinə, ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı silahlı qüvvə tətbiq edilməsi BMT Nizamnaməsinə ziddir və təcavüzkarlıq hesab olunur.

2-ci maddədə deyilir ki, dövlətin BMT Nizamnaməsini pozaraq birinci olaraq silahlı qüvvə tətbiq etməsi təcavüz aktına sübutdur.

3-cü maddədə: a) bir dövlətin silahlı qüvvələrinin digər dövlətin ərazisinə müdaxilə və ya hücum etməsi, yaxud müvəqqəti xarakter daşımasından asılı olmayaraq hər hansı bir hərbi işğal və ya müdaxilə nəticəsində ərazinin ilhaqı; b) bir dövlətin silahlı qüvvələri tərəfindən digər dövlətin ərazisinin bombardman edilməsi; c) bir dövlət tərəfindən və ya onun adından, silahlı qüvvələrin, qeyri-nizami dəstələrin və ya muzdluların göndərilməsi və s. təcavüz aktı kimi qiymətləndirilir.

Qətnamənin 5-ci maddəsində göstərilir ki, heç bir siyasi, iqtisadi, hərbi və ya başqa mülahizələr təcavüzə haqq qazandıra bilməz; təcavüz beynəlxalq sülhə, əmin-amanlığa qarşı cinayətdir və bu cinayəti törədənlər beynəlxalq məsuliyyət daşımalıdırlar; təcavüz nəticəsində ərazi əldə edilməsi və yaxud hər hansı mənfəət qazanılması qeyri-qanunidir. Ermənistan Respublikası tərəfindən qətnamədəki hər hansı bir bəndin, ümumiyyətlə əksər maddələrin pozulması belə bir nəticəyə gəlməyə imkan verir ki, bu, əsl təcavüz hərəkətləridir.

Ermənistanın bu təcavüzkarlığı BMT Nizamnaməsində nəzərdə tutulan öz müqəddəratını təyin etmək hüququnun həyata keçirilməsi deyil, Nizamnamənin 2-ci maddəsinin 4-cü bəndinin kobud şəkildə pozulması – başqa dövlətin ərazi bütövlüyünə və siyasi müstəqilliyinə qarşı zor işlədilməsi deməkdir. Bunu belə bir fakt da təsdiq edir ki, Ermənistan parlamenti bütün beynəlxalq hüquq normalarını kobudcasına pozaraq, hələ 1989-cu ildə Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin Ermənistana birləşdirilməsi, yəni qonşu dövlətin ərazisinin bir hissəsinin ilhaq olunması haqqında qeyri-qanuni qərar qəbul etmiş və bu qərarın indi də qüvvədə qalması Ermənistanın Azərbaycana qarşı dövlət səviyyəsində ərazi iddiasında olmasına sübutdur.

Ümumiyyətlə, Ermənistan Respublikası bütün beynəlxalq hüquqi sənədləri, xüsusilə BMT Nizamnaməsinin I və II maddələrində, 1970-ci il 24 oktyabr tarixli beynəlxalq hüququn prinsipləri haqqında bəyannamədə, eləcə də 1975-ci il 1 avqust tarixli ATƏM/ATƏT-in Helsinki Yekun Aktında ifadə olunmuş beynəlxalq hüququn əsas prinsiplərini kobudcasına pozmuşdur. Bununla yanaşı, Ermənistan başqa dövlətlərin ərazisində yaşayan erməni icmalarının hüquqlarını müstəqil xalqların əsas kütləsinin hüquqları ilə qəsdən qarışdırır və müstəqil dövlətlərin ərazi bütövlüyünə münasibətdə erməni etnik qruplarının hüquqlarına əsassız üstünlük verir. Beynəlxalq hüquq normalarının bu cür ermənisayaq təfsiri dövlətlərin ərazi bütövlüyü və sərhədlərin pozulmasının qeyri-mümkünlüyü haqqında 1990-cı il noyabrın 21-də qəbul edilmiş yeni Avropa üçün Paris Xartiyasına da tamamilə ziddir və qəbuledilməzdir.

Bundan əlavə, beynəlxalq hüquqa görə soyqırım sülh və insanlıq əleyhinə yönələn əməldir və ən ağır cinayət hesab edilir. Bu barədə BMT

Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 (III) saylı qətnaməsi qəbul edilmiş və 1961-ci ildən qüvvəyə minən "Soyqırım cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" konvensiyada soyqırım cinayətinin hüquqi əsası təsbit olunmuşdur.

Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin konvensiyada təsbit edilmiş soyqırım cinayətini təşkil edən bütün əməllər azərbaycanlılara qarşı tətbiq olunmuşdur. Bu işğalçı dövlətin yürütdüyü təcavüzkar siyasət 20 ildən artıqdır ki, dünya ictimaiyyətinin gözü qarşısında baş verir. Ona görə də Azərbaycan dövləti bu konvensiyanı rəhbər tutaraq, Ermənistan Respublikasına qarşı BMT-nin Beynəlxalq Məhkəməsində iddia qaldırmaq üçün bütün hüquqi əsaslara malikdir.

Bununla yanaşı, münaqişənin dinc vasitələrlə nizama salınması istiqamətində bütün beynəlxalq təşkilatların qəbul etdiyi sənədlər də Azərbaycanın mövqeyinin bir daha gücləndirilməsi və məsələnin beynəlxalq hüquq prinsipləri əsasında həllinin təsdiqlənməsi deməkdir. Bu baxımdan, BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi 4 qətnamə, ATƏT, Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatının qərarları da əhəmiyyətlidir və Azərbaycanın ədalətli mövqeyinin beynəlxalq səviyyədə müdafiəsi üçün hüquqi əsasdır. Son zamanlar isə Avropa Parlamenti və NATO-nun Zirvə toplantılarında qəbul olunan qərarlarda birmənalı şəkildə Azərbaycanın ərazi bütövlüyü dəstəklənir və işğala son qoyulması bildirilir.

Münaqişənin nizama salınması istiqamətində Azərbaycan dövlətinin mövqeyi. *Ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş prinsiplərə sadiq qalan Azərbaycan Prezidenti İlham Əliyev ölkəmizin xarici siyasətinin əsas prioritet istiqamətlərindən biri olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi şərti ilə nizama salınmasının vacibliyini bildirmiş və beynəlxalq təşkilatların bu sahədə səylərini gücləndirməsinin zəruriliyini bəyan etmişdir.*

Münaqişənin nizama salınması üçün aparılan danışıqlar prosesində Ermənistan tərəfi ermənilərin öz müqəddəratını təyinetmə prinsipini əsas gətirərək Dağlıq Qarabağın müstəqil dövlət kimi tanınmasına çalışır. Ancaq ermənilər öz müqəddəratını təyinetmə hüququndan hələ XX əsrin

əvvəllərində ən yüksək səviyyədə istifadə edərək, özlərinin müstəqil dövlətini – Ermənistan Respublikasını yaratmışlar. Azərbaycan Prezidenti İlham Əliyev öz çıxışlarında da dəfələrlə bəyan etmişdir ki, bugünkü Ermənistan dövləti 1918-ci ildə qurularkən tarixi Azərbaycan torpaqlarında, İrəvan xanlığı və Zəngəzur mahalı ərazilərində yaradılmışdır.

Dağlıq Qarabağ bölgəsinin ermənilərı isə digər ölkələrdə yaşayan ermənilər kimi, Azərbaycanda yaşayan milli azlıqlardan biridirlər. Beynəlxalq hüquq normalarına görə milli azlıqlar öz müqəddəratlarını təyin edə bilərlər (internal self-determination). Lakin bu, müstəqillik formasında ola bilməz. Çünki müstəqil dövlətin ərazisində yaşayan milli azlıqların belə hüquqları yoxdur. Eyni zamanda, xalqların öz müqəddəratını təyinetmə məsələsi beynəlxalq hüququn əsas prinsiplərindən olan ərazi bütövlüyü prinsipini pozmamalı, bu prinsiplə ziddiyyət təşkil etməməlidir. Bu baxımdan, ermənilərin öz müqəddəratını təyin etmə hüququnu bəhanə etməsi beynəlxalq hüquq normalarının, xüsusilə, dövlətlərin suveren bərabərliyi, zor işlətməmək və zor işlətməklə hədələməmək, sərhədlərin toxunulmazlığı, dövlətlərin ərazi bütövlüyü, mübahisələri dinc yolla nizama salmaq və başqa dövlətlərin daxili işlərinə qarışmamaq və beynəlxalq hüquqi öhdəlikləri vicdanla yerinə yetirmək kimi ATƏT-in Helsinki prinsiplərinin kobud şəkildə pozulması deməkdir.

Bundan əlavə, Ermənistan münaqişənin nizama salınması üçün aparılan danışıqlarda Dağlıq Qarabağın erməni icmasının tərəf kimi iştirakının təmin olunmasını istəyir. Ancaq bu tələb də əsassızdır və beynəlxalq hüquq prinsiplərinə uyğun deyil. Çünki Dağlıq Qarabağ ermənilərinin müstəqil tərəf kimi danışıqlarda iştirakı məsələsi nəinki ATƏT-in Minsk qrupunun mandatına ziddir, eyni zamanda 2008-ci ilin sonunda Moskvada imzalanmış məlum bəyannamədə də açıq şəkildə bildirilir ki, münaqişənin nizamlanması istiqamətində aparılan danışıqlar prosesində yalnız Azərbaycan və Ermənistan tərəfləri iştirak edə bilər.

Dağlıq Qarabağın Azərbaycanın əzəli torpağı və ayrılmaz tərkib hissəsi olduğunu dəfələrlə bəyan edən Azərbaycan Prezidenti İlham Əliyev Ermənistan rəhbərinin Moskva bəyannaməsini tərəf kimi imzaladığını vurğulamaqla yanaşı, danışıqların Ermənistanla Azərbaycan arasında aparıldığını və bunun beynəlxalq format olduğunu bildirərək qeyd etmişdir

ki, əgər Dağlıq Qarabağ münaqişə tərəfi olsaydı, onda Ermənistan tərəfi bəyannaməni imzalamazdı.

Bununla yanaşı, dövlət başçısı İlham Əliyev bəyan etmişdir ki, yalnız Dağlıq Qarabağın azərbaycanlı əhalisi oraya, o cümlədən Şuşaya qayıtdıqdan sonra status məsələsi müzakirə oluna bilər. Heç şübhəsiz ki, bütün bunlar Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapmalı və gələcəkdə Dağlıq Qarabağın azərbaycanlı və erməni icmaları yüksək muxtariyyət şəraitində, Azərbaycan dövlətinin tərkibində yaşamalıdırlar. 2008-ci il noyabrın 2-də Moskvada Rusiya, Azərbaycan və Ermənistan prezidentlərinin birgə imzaladığı bəyannamədə də münaqişənin ərazi bütövlüyü çərçivəsində həlli nəzərdə tutulur. 2009-cu il dekabrın 5-də ATƏT-in xarici işlər nazirlərinin Afinada keçirilən görüşündə qəbul edilmiş sənəd də məhz bu yanaşmanı təsdiq edir.

Buna görə də, Ermənistan, ilk növbədə, Dağlıq Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu qəbul etməli, işğalçılıq siyasətinə son qoymalı, sonra isə münaqişənin nizamlanmasının variantları barədə öz mövqeyini bildirməlidir. Münaqişənin nizama salınması prosesində Azərbaycan dövləti və onun başçısı ilk növbədə sülh variantına üstünlük verir. Lakin Prezident İlham Əliyev Azərbaycan xalqı və dövlətinin bu işğal, etnik təmizləmə siyasəti və torpaqlarımızın müvəqqəti olaraq itirilməsi ilə heç vaxt barışmayacağını bildirməklə yanaşı, öz torpaqlarımızı azad etmək üçün tam əsasımızın olduğunu və bunun beynəlxalq hüquq normaları ilə təsdiq edildiyini vurğulamışdır (BMT Nizamnaməsinin 51-ci maddəsi).

Azərbaycan Prezidenti münaqişənin siyasi və hüquqi tərəflərindən başqa, məsələnin praktiki tərəfinin də Azərbaycanın xeyrinə olduğunu və bu gün Ermənistanı Azərbaycan ilə müqayisə etməyin mümkün olmadığını bəyan etmişdir. Dövlət başçısı İlham Əliyev Ermənistanın kommunikasiyalardan kənarda qalan, asılı vəziyyətdə olan, başqa ölkələrin və dairələrin ianəsi ilə güclə yaşayan bir dövlət olduğunu bildirməklə yanaşı, Azərbaycanın dinamik inkişaf edən və öz resurslarına arxalanan bir ölkə olduğunu vurğulayaraq Ermənistanda əhalinin ölkədən kütləvi şəkildə köçdüyünü və demoqrafiya məsələsini də unutmamağı xatırlatmışdır.

Bu faktı da qeyd etmək vacibdir ki, etnik təmizləmə nəticəsində hazırda Ermənistan mono-etnik, yəni milli azlıqların yaşamadığı dövlətə

çevrilmişdir. Bununla yanaşı, bu gün özünü təcrid vəziyyətinə salmış Ermənistan əhalisinin sayı durmadan azalır. BMT İnkişaf Proqramının himayəsi altında çap olunmuş İnsan Potensialının İnkişafı haqqında məruzədə göstərilir ki, hər il Ermənistanı 23-27 min adam tərk edir. XX əsrin 80-ci illərinin sonunda 3,7 milyon əhalinin yaşadığı Ermənistanda əhalinin 1,5 milyondan çoxu (ümumi əhalinin 40%-i) müstəqillik dövründə aclıq, işsizlik, səfalət ucbatından xarici ölkələrə mühacirət etmiş və bu proses indi də davam etməkdədir.

Artıq 20 ildir ki, təcavüzkar Ermənistan aparılan danışıqlar prosesində həmişə qeyri-konstruktiv mövqedən çıxış edərək hər dəfə bu prosesi süni surətdə uzatmağa çalışır. Lakin Azərbaycanın ərazi bütövlüyünün heç vaxt aparılan danışıqların mövzusu olmadığını və bundan sonra da olmayacağını daim vurğulayan dövlət başçısı İlham Əliyev bildirmişdir: "Biz danışıqları sadəcə olaraq danışıqlar naminə aparmayacağıq. Danışıqların imitasiyası ilə məşğul olmaq üçün Ermənistana imkan verməyəcəyik. Biz o vaxta qədər danışıqlar aparacağıq ki, ərazi bütövlüyümüzü bu yolla bərpa edə biləcəyimizə ümidimiz qalacaqdır. Əgər görsək ki, bu mümkün deyil, onda Azərbaycan dövləti hərbi yoldan istifadə edərək öz ərazi bütövlüyünü bərpa edəcəkdir". Ona görə də müxtəlif vaxtlarda Azərbaycanı danışıqlar prosesini pozan və güzəştə getməyən tərəf kimi göstərməyə cəhd edən Ermənistanla bu günə qədər danışıqlar aparılmasının özü təcavüzkar dövlət üçün Azərbaycan tərəfindən edilən bir güzəştdir.

Dövlət başçısı İlham Əliyev dekabrın 1-də ATƏT-in Astana sammitindəki çıxışında Ermənistanın təcavüzkar siyasətindən əl çəkmədiyini bir daha bəyan edərək işğalçı dövlətin aparılan danışıqlar prosesini mənasız etməyə çalışdığını bildirmişdir. Belə ki, Azərbaycan Prezidenti bəyan etmişdir ki, Ermənistanın qeyri-konstruktiv mövqeyi bu dövlətin sülh istəmədiyini, işğal edilmiş əraziləri azad etmək fikrində olmadığını və bacardığı qədər status-kvonu saxlayaraq danışıqlar prosesini müddətsiz etməyi arzuladığını göstərir. Dövlət başçısı İlham Əliyev münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində, beynəlxalq hüquq prinsiplərinə əsaslanaraq həll olunmasına hazır olduğunu bir daha vurğulamışdır.

Hazırda münaqişənin nizama salınması prosesi Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Aparılan danışıqların gedişi konfidensial səciyyə daşısa da, Azərbaycan Prezidenti İlham Əliyev bu gün danışıqlar masası üzərində bütün işğal edilmiş Azərbaycan torpaqlarının qaytarılması və məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışı məsələlərinin mövcudluğunu bildirmişdir. Bununla yanaşı, Ermənistanın danışıqlar prosesini süni şəkildə uzatdığını və bu taktikanın heç bir perspektivinin olmadığını söyləyən dövlət başçısı İlham Əliyev nə bu gün, nə on il, nə də yüz il sonra Dağlıq Qarabağın müstəqil olmayacağını vurğulamışdır.

Bu səbəbdən Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, Azərbaycan torpağında ikinci erməni dövlətinin yaradılmasına Azərbaycan dövləti və xalqı heç vaxt imkan verməyəcək. Dağlıq Qarabağa yalnız Azərbaycanın tərkibində hər hansı bir status verilə bilər. Lakin bu Azərbaycanın ərazi bütövlüyü çərçivəsində mümkündür. Bu prinsipdən kənarda heç bir məsələnin həll oluna bilməyəcəyini bildirən dövlət başçısı Azərbaycanın bununla əlaqədar öz prinsipial mövqeyindən geri çəkilməyəcəyini bəyan etmişdir.

İSTİFADƏ EDİLMİŞ VƏ TÖVSİYƏ OLUNAN MƏNBƏ, ƏDƏBİYYAT VƏ İNFORMASİYA RESURSLARININ SİYAHISI

Azərbaycan dilində

1. *Abdullayev Ə. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və Heydər Əliyevin sülh strategiyası. Bakı, 1999, 156 s.*

2. *Abdullayev Ə. Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti (XIX əsrin axırı - XX əsr). Bakı, 1998, 324 s.*

3. *Abdullayev Ə. Ermənistanın Azərbaycana təcavüzkarlıq siyasəti tarixindən. Bakı, 1995, 164 s.*

4. *Abdullayev V. Azərbaycan yeni diplomatiya məkanında. Bakı, 2000, 234 s.*

5. *Abdullayev V. Müstəqilliyimizin strategiyası. Bakı, 2002, 414 s.*

6. *Abışov V. Azərbaycanlıların soyqırımı (1917-1918-ci illər). Bakı, 2007, 163 s.*

7. *Axundov N. Qarabağ salnamələri. Bakı, 1989, 232 s.*

8. *Axundova E. Heydər Əliyev : şəxsiyyət və zaman. II hissə : 1969-1982. Bakı, 2007, 784 s.*

9. *Arslanoğlu C. Erməni zülmü 1919-1930-cu illərdə. -"Xəzər" jur., Bakı, 1990, № 3, s.19-28.*

10. *Arzumanlı V. Tarix siyasətin, siyasət tarixin dili ilə. Bakı, 1999, 442 s.*

11. *Arzumanlı V., Həbiboğlu V., Muxtarov K. 1918-ci il qırğınları. Bakı, 1995, 90 s.*

12. *Arzumanlı V., İsmayılov İ., Muxtarov K. Deportasiya. Bakı,1998, 280 s.*

13. *Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri. Deportasiya. Soyqırım. Qaçqınlıq. Bakı, 1998, 280 s.*

14. *Aslanlı A. Qarabağ problemi. Tarixi, mahiyyəti, həll prosesi. Bakı, 2009, 112 s.*

15. *Aşırlı A. Qafqaz İslam Ordusunun Qarabağ Hərəkatı (1918-ci il dövrü mətbuatının materialları əsasında) - "Qarabağ dünən, bu gün və sabah" Azərbaycan Xalq Cümhuriyyətinin 90 illyinə həsr olunmuş 7-ci elmi-əməli konfransın materialları. Bakı, 2008, s.5-14.*

16. *Aşırlı A. Türkün Xocalı soyqırımı. Bakı, 2005, 152 s.*

17. *ATƏT-in Minsk qrupunun həmsədrliyi. Dağlıq Qarabağ münaqişəsinin aradan qaldırılmasına dair hərtərəfli saziş. - "Azərbaycan" qəz., 21 fevral 2001-ci il.*
18. *ATƏT-in Minsk qrupunun həmsədrliyi. Dağlıq Qarabağ silahlı münaqişəsinin dayandırılması haqqında saziş. - "Azərbaycan" qəz., 21 fevral 2001-ci il.*
19. *ATƏT-in Minsk qrupunun həmsədrliyi. Dağlıq Qarabağ silahlı münaqişəsinin hərtərəfli həllinin prinsipləri haqqında. - "Azərbaycan" qəz., 21 fevral 2001-ci il.*
20. *Avropa Şurası və Azərbaycan. Sülh, əmin-amanlıq və demokratiya naminə. Bakı, 2001, 239 s.*
21. *Azərbaycan - ABŞ strateji tərəfdaşlığın yeni üfüqləri. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Amerika Birləşmiş Ştatlarına rəsmi səfəri. Bakı, 2006, 110 s.*
22. *Azərbaycan 2003: inkişaf strategiyasında yeni mərhələ. Bakı, 2005, 520 s.*
23. *Azərbaycan beynəlxalq aləmdə /Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin 1993-1998-ci illərdə xarici ölkələrə səfərlərinə dair materiallar/. I-V cildlər. Bakı, 1996-1999 (c.1, 1996, 270 s.; c.2, 1997, 761 s.; c.3, 1998, 776 s.; c.4, 1999, 520 s.; c.5, 1999, 476 s.).*
24. *Azərbaycan BMT ailəsində. Bakı, 2000, 342 s.*
25. *Azərbaycan Cümhuriyyəti. Sənədlər və materiallar. 1918-1920-ci illər. Bakı, 1998, 336 s.*
26. *Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. I cild. Bakı, 2004, 440 s.*
27. *Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası. İki cilddə. II cild. Bakı, 2005, 472 s.*
28. *Azərbaycan Xalq Cümhuriyyəti. Biblioqrafiya /Tərtib edən: Anar İsgəndərov/. Bakı, 1998, 52 s.*
29. *Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti : sənədlər məcmuəsi. Bakı, 2009, 352 s.*
30. *Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı: sənədlər toplusu: 3 cilddə. I cild: "26 Bakı komissarları"nın əsl tarixi. Bakı, 2009, 776 s.*
31. *Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı: sənədlər toplusu: 3 cilddə. II cild, 1-ci kitab. Gəncə quberniyasında soyqırımı. 1918-1920-ci illər. Bakı, 2011, 460 s.*
32. *Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı: sənədlər toplusu: 3 cilddə. II cild, 2-ci kitab. İrəvan quberniyasında soyqırımı. 1918-1920-ci illər. Bakı, 2011, 456 s.*

33. *Azərbaycan xalqına qarşı 1918-ci il mart soyqırımı: sənədlər toplusu: 3 cilddə. III cild: Xatirələr. Bakı, 2010, 448 s.*
34. *Azərbaycan İslam Konfransı təşkilatı sıralarında: İslam Konfransı Təşkilatının Kasablanka (1994), Tehran (1997), Məkkə (2005) və Dakar (2008) zirvə görüşləri və Xarici İşlər Nazirləri Şurasının 33-cü Bakı sessiyasının (2006) materialları əsasında. Bakı, 2008, 484 s.*
35. *Azərbaycan Milli Ensiklopediyası. 25 cilddə. "Azərbaycan" cildi. Bakı, 2007, 884 s.*
36. *Azərbaycan Parlamenti və beynəlxalq təşkilatlar (Azərbaycan və İngilis dillərində). Bakı, 2004, 420 s.*
37. *Azərbaycan Respublikası 1991-2001. Bakı, 2001, 280 s.*
38. *Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin cari arxivi (1992-2001-ci illər).*
39. *Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları. Bakı, 1996, 230 s.*
40. *Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı. 18 oktyabr 1991-ci il. - Azərbaycan Respublikası Ali Sovetinin məlumatı, 31 oktyabr 1991-ci il. Bakı, 1991, № 19-20 (848-849), s.26.*
41. *Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2004, 48 s.*
42. *Azərbaycan Respublikasının qanunları. Bakı, 1996, 256 s.*
43. *Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ATƏM-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Budapeşt Zirvə görüşündə çıxışı, 6 dekabr 1994-cü il - "Azərbaycan" qəz., 7 dekabr 1994-cü il.*
44. *Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının Lissabon Zirvə görüşündə nitqi, 2 dekabr 1996-cı il. - "Azərbaycan" qəz., 5 dekabr 1996-cı il.*
45. *Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının İstanbul Zirvə görüşündə nitqi, 18 noyabr 1999-cu il. - "Azərbaycan" qəz., 20 noyabr 1999-cu il.*
46. *Azərbaycan Prezidenti Heydər Əliyevin ATƏT-in Lissabon Zirvə görüşü başa çatdıqdan dərhal sonra mətbuat konfransında Bəyanatı, 3 dekabr 1996-cı il. - "Azərbaycan" qəz., 5 dekabr 1996-cı il.*
47. *Azərbaycan Republikasının Prezidenti Heydər Əliyevin ATƏT-in Lissabon Zirvə toplantısının yekunları ilə əlaqədar respublika ictimaiyyətinin nümayəndələri ilə görüşdə nitqi, 6 dekabr 1995-ci il. - "Azərbaycan" qəz., 7 dekabr 1995-ci il.*
48. *Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Birləşmiş Millətlər Təşkilatı Baş Məclisinin 49-cu sessiyasındakı çıxışı. 29 sentyabr 1994-cü il. – "Azərbaycan" qəz., 30 sentyabr 1994-cü il.*

49. *Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin BMT-nin 50 illiyi yubileyi ilə əlaqədar BMT Baş Məclisinin xüsusi təntənəli iclasında çıxışı, 22 oktyabr 1995-ci il. - "Azərbaycan" qəz., 24 oktyabr 1995-ci il.*

50. *Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Kremldə MDB dövlət başçıları şurasının iclasında bəyanatı. - "Azərbaycan"qəz., 16 aprel 1994-cü il.*

51. *Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan və Ermənistan prezidentlərinin görüşündən sonra bəyanatı, Cenevrə, 22 avqust 1999-cu il. -"Azərbaycan" qəz., 24 avqust 1999-cu il.*

52. *Azərbaycan Respublikası Prezidentinin Azərbaycanlıların soyqırımı haqqında Fərmanı, 26 mart 1998-ci il. -"Azərbaycan" qəz., 27 mart 1998-ci il.*

53. *Azərbaycan Respublikası Prezidentinin "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Fərmanı, 18 dekabr 1997-ci il. - "Azərbaycan" qəz., 19 dekabr 1997-ci il.*

54. *Azərbaycan Respublikası Prezidentinin 20 Yanvar faciəsinin 10-cu ildönümü haqqında Fərmanı, 16 dekabr 1999-cu il. - "Azərbaycan" qəz., 16 dekabr 1999-cu il.*

55. *Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin BMT Təhlükəsizlik Şurasının sədrinə yazılı müraciəti, 26 iyul 1993-cü il. - "Azərbaycan" qəz., 27 iyul 1993-cü il.*

56. *Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin BMT Təhlükəsizlik Şurasının sədrinə və BMT-nin Baş katibinə məktubu, 18 avqust 1993-cü il. - "Azərbaycan" qəz., 19 avqust 1993-cü il.*

57. *Ermənistan silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə yeni hücumları və təcavüzü ilə bağlı Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin milli televiziya və radio ilə xalqa müraciəti, 2 noyabr 1993-cü il. - "Azərbaycan" qəz., 3 noyabr 1993-cü il.*

58. *Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Xocalı soyqırımının onuncu ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciəti. - "Azərbaycan" qəz., 26 fevral 2002-ci il.*

59. *Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Xocalı soyqırımının 11-ci ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciəti. - "Azərbaycan" qəz., 26 fevral 2003-cü il.*

60. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xocalı soyqırımının ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciəti. - "Azərbaycan" qəz., 25 fevral 2004-cü il.*

61. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xocalı soyqırımının ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciəti. - "Azərbaycan" qəz., 24 fevral 2005-ci il.*

62. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xocalı soyqırımının 15-ci ildönümü ilə əlaqədar Azərbaycan xalqına müraciəti. - "Azərbaycan" qəz., 24 fevral 2007-ci il.*

63. *Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 31 mart azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciəti. -"Azərbaycan" qəz., 31 mart 1999- cu il.*

64. *Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında, yeni 2001-ci il yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciəti - "Azərbaycan" qəz., 30 dekabr 2000.*

65. *Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 31 mart azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciəti. - "Azərbaycan" qəz., 28 mart 2001-ci il.*

66. *Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Milli Məclisin iclasında nitqi. 23 fevral 2001-ci il. - "Azərbaycan" qəz., 24 fevral 2001-ci il.*

67. *Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Milli Məclisin iclasında yekun nitqi. 24 fevral 2001-ci il. - "Azərbaycan" qəz., 27 fevral 2001-ci il.*

68. *Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İlham Əliyevin Azərbaycan Dövlət Televiziyasına müsahibəsi. - "Xalq qəzeti", 24 sentyabr 2001-ci il.*

69. *Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İlham Əliyevin çıxışı. - "Xalq qəzeti", 25 sentyabr 2001-ci il.*

70. *Azərbaycan Respublikasının Baş naziri İlham Əliyevin BMT Baş Məclisinin 58-ci sessiyasında çıxışı, 24 sentyabr 2003-cü il. - "Azərbaycan" qəz., 25 sentyabr 2003-cü il.*

71. *Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İlham Əliyevin AŞ PA-nın sessiyasında çıxışı. - "Azərbaycan" qəz., 26 aprel 2001-ci il.*

72. *Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İlham Əliyevin erməni jurnalistinə musahibəsi. - "Azərbaycan" qəz., 29 sentyabr 2001-ci il.*

73. *Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İlham Əliyevin Strasburqdan Azərbaycan televiziyasına birbaşa müsahibəsi. - "Azərbaycan" qəz., 27 sentyabr 2001-ci il.*

74. *Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İlham Əliyevin müsahibəsi. - "Azərbaycan" qəz., 30 yanvar 2001-ci il.*

75. *Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı İlham Əliyevin Strasburqda Turkiyənin NTV kanalında müsahibəsi. - "Azərbaycan" qəz., 26 aprel 2001-ci il.*

76. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin AŞ PA-nın yaz sessiyasında çıxışı, 29 aprel 2004-cü il. - "Azərbaycan" qəz., 1 may 2004-cü il.*

77. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bratislavada "Daha geniş Avropaya doğru: yeni gündəlik" mövzusunda keçirilən beynəlxalq konfransda çıxışı, 17 mart 2004-cü il. – "Azərbaycan" qəz., 23 mart 2004-cü il.*

78. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Brüsseldə "Avropa Birliyi və Azərbaycan - tərəfdaşlıq üçün yeni üsullar" mövzusunda keçirilən siyasi brifinqdə nitqi, 19 may 2004-cü il. – "Azərbaycan" qəz., 22 may 2004-cü il.*

79. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 mart azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciəti.-"Azərbaycan" qəz., 30 mart 2004-cü il.*

80. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 mart azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciət.-"Azərbaycan" qəz., 30 mart 2005-ci il.*

81. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 mart azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciət. - "Azərbaycan" qəz., 28 mart 2006-cı il.*

82. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 mart azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciət. - "Azərbaycan" qəz., 29 mart 2007-ci il.*

83. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 31 mart azərbaycanlıların soyqırımı günü münasibətilə Azərbaycan xalqına müraciəti. -"Azərbaycan" qəz., 29 mart, 2008-ci il.*

84. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Astanada ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçılarının VII sammitində çıxışı, 1 dekabr 2010-cu il. - "Azərbaycan" qəz., 2 dekabr 2010-cu il.*

85. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT Baş Məclisinin 59-cu sessiyasında çıxışı, 24 sentyabr 2004-cü il. - "Azərbaycan" qəz., 26 sentyabr 2004-cü il.*

86. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin BMT Baş Məclisinin 65-ci sessiyasında çıxışı, 23 sentyabr 2010-cu il. - "Azərbaycan" qəz., 25 sentyabr 2010-cu il.*

87. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkdilli ölkələrin dövlət başçılarının VIII Zirvə görüşündə nitqi. - "Respublika" qəz., 19 noyabr 2006-cı il.*

88. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Əbu-Dabi televiziyasına müsahibəsi. - "Respublika" qəz., 24 noyabr 2006-cı il.*

89. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Fiqaro" qəzetinə müsahibəsi. - "Respublika" qəz., 30 yanvar 2007-ci il.*

90. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniyanın Konrad Adenauer Fondu tərəfindən təşkil olunmuş "Azərbaycan XXI əsrdə - inkişaf və perspektivlər"mövzusunda müzakirələrdə nitqi. - "Azərbaycan" qəz., 20 fevral 2007-ci il.*

91. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Almaniyanın "Deutsche Welle" teleradio kanalına müsahibəsi. - "Azərbaycan" qəz., 21 fevral 2007-ci il.*

92. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransanın "La Lettre Diplomatique" jurnalına müsahibəsi. - "Azərbaycan" qəz., 18 may 2007-ci il.*

93. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Yaponiyanın "Nikkey" ("Nihon Kedzay Şimbun") qəzetinin müxbirinə müsahibəsi. - "Azərbaycan" qəz., 17 iyun 2007-ci il.*

94. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistanın ölkəmizə hərbi təcavüzü nəticəsində doğma torpaqlarından didərgin düşmüş soydaşlarımızın problemləri müzakirə olunan müşavirədə giriş və yekun nitqi. - "Azərbaycan" qəz., 5 sentyabr 2007-ci il.*

95. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Litvada çıxan "Verslo zinios"/"Business news" və "Verslo klase"/"Business class" jurnalının müxbirlərinə müsahibəsi. - "Azərbaycan" qəz., 13 sentyabr, 2007-ci il.*

96. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türk dövlət və cəmiyyətlərinin XI dostluq, qardaşlıq və əməkdaşlıq qurultayında nitqi - "Azərbaycan" qəz., 18 noyabr 2007-ci il.*

97. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "İnterfaks" agentliyinə müsahibəsi. - "Azərbaycan" qəz., 21 mart 2008-ci il.*

98. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xalq Cümhuriyyətinin 90 illik yubileyinə həsr olunmuş mərasimdə nitqi. - "Azərbaycan" qəz., 28 may 2008-ci il.*

99. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Parlamentinin 90 illik yubileyinə həsr olunmuş təntənəli yığıncağında nitqi - "Azərbaycan" qəz., 20 iyun 2008-ci il.*

100. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Reyters" agentliyinə müsahibəsi. - "Azərbaycan" qəz., 24 fevral 2009-cu il.*

101. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclasında nitqi. - "Azərbaycan" qəz., 7 aprel 2009-cu il.*

102. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiyanın "Vesti" kanalına və İTAR-TASS agentliyinə müsahibəsi. - "Azərbaycan" qəz., 21aprel 2009-cu il.*

103. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Avropa Siyasi Mərkəzində görüş zamanı nitqi. - "Azərbaycan" qəz., 2 may 2009-cu il.*

104. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 may - Respublika günü münasibəti ilə rəsmi qəbulda nitqi. - "Azərbaycan" qəz., 28 may 2009-cu il.*

105. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Fransanın MDB ölkələrində akkreditə olunan səfirlərinin qəbulunda müraciəti. - "Azərbaycan" qəz., 3 iyul 2009-cu il.*

106. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Dövlət Televiziya kanalının "Vesti v subbotu" verilişinə müsahibəsi. - "Azərbaycan" qəz., 7 iyul 2009-cu il.*

107. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Londonda Kral Beynəlxalq Münasibətlər İnstitutunda təşkil olunmuş görüşdə nitqi. - "Azərbaycan" qəz., 17 iyul 2009-cu il.*

108. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Televiziyasına müsahibəsi. - "Azərbaycan" qəz., 10 oktyabr 2009-cu il.*

109. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bakıda məcburi köçkünlər üçün tikilmiş yaşayış binaları kompleksinin açılış mərasimində çıxışı. - "Azərbaycan" qəz., 18 noyabr 2009-cu il.*

110. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Goranboyda məcburi köçkünlər üçün salınmış yeni qəsəbənin açılışında çıxışı. - "Azərbaycan" qəz., 21 noyabr 2009-cu il.*

111. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyənin Baş naziri Rəcəb Tayyib Ərdoğanın mətbuat konfransı. - "Respublika" qəz., 18 may 2010-cu il.*

112. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 28 may - Respublika günü münasibəti ilə rəsmi qəbulda nitqi. - "Azərbaycan" qəz., 28 may 2010-cu il.*

113. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İstanbulda Azərbaycan jurnalistlərinə müsahibəsi. - "Azərbaycan" qəz., 9 iyun 2010-cu il.*

114. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İslam İnkişaf Bankı Qrupunun 35 illik toplantısının açılış mərasimində nitqi. - "Azərbaycan" qəz., 24 iyun, 2010-cu il.*

115. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasının mərkəzi qərargahının açılışında nitqi. - "Azərbaycan" qəz., 7 iyul 2010-cu il.*

116. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Abdullah Gülün mətbuat konfransı. - "Respublika" qəz., 17 avqust 2010-cu il.*

117. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ukrayna Milli Telekompaniyasına, bu ölkənin "Profil-Ukrayna" jurnalına və "Den" qəzetinə müsahibəsi. - "Respublika" qəz., 30 oktyabr 2010-cu il.*

118. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Milli Qəhrəman Mübariz İbrahimov və baş leytenant Fərid Əhmədovun vida mərasimində nitqi. - "Xalq qəzeti", 8 noyabr 2010-cu il.*

119. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Goranboyda məcburi köçkünlər üçün salınmış yaşayış məhəlləsinin açılışında çıxışı.- "Azərbaycan" qəz., 11 fevral 2011-ci il.*

120. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiyanın "Mir" Dövlətlərarası Teleradio Şirkətinə müsahibəsi. - "Azərbaycan" qəz., 17 fevral 2011-ci il.*

121. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ümumrusiya Dövlət Teleradio Verilişləri Yayım Şirkətinin "Rossiya-24" - Rusiya informasiya telekanalına müsahibəsi. - "Azərbaycan" qəz., 13 aprel 2011-ci il.*
122. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Euronews" televiziyasına müsahibəsi. - "Azərbaycan" qəz., 25 iyun 2011-ci il.*
123. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Əl-Cəzirə" telekanalına müsahibəsi. - "Azərbaycan" qəz., 13 oktyabr 2011-ci il.*
124. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi münasibəti ilə Bəyanatı. - "Azərbaycan" qəz., 25 oktyabr 2011-ci il.*
125. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Taxtakörpü ərazisində Laçın rayonundan olan 552 məcburi köçkün ailəsi üçün yeni yaşayış qəsəbəsinin açılışında nitqi- "Azərbaycan" qəz., 25 dekabr, 2011-ci il.*
126. *Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İTAR-TASS-ın baş direktorunun birinci müavini Mixail Qusmana, İTAR-TASS agentliyi və "Rossiya 24" telekanalı üçün müsahibəsi. - "Azərbaycan" qəz., 28 dekabr, 2011-ci il.*
127. *Azərbaycan Respublikası Milli Məclisinin 1990-cı il yanvarın 20-də Bakıda törədilmiş faciəli hadisələr haqqında Qərarı, 29 mart 1994-cü il. - "Azərbaycan" qəz., 30 mart 1994-cü il*
128. *Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycanın mədəni sərvətlərinin dağıdılması və mənimsənilməsi ilə əlaqədar bəyanatı. 19 aprel 2002.- "Dirçəliş-XXI əsr" jurnalı, №50, 2002, s.25-26.*
129. *Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycanlıların soyqırımı günü ilə əlaqədar bəyanatı. - "Azərbaycan" qəz., 2 aprel 1998.*
130. *Azərbaycan Respublikası Milli Məclisinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunması prosesinə aid məsələnin müzakirəsinə həsr edilmiş iclası. - "Azərbaycan"qəz., 24, 25, 27 fevral 2001-ci il.*
131. *Azərbaycan Respublikası Milli Məclisinin Xocalı soyqırımı (genosidi) günü haqqında qərarı. - "Azərbaycan" qəz., 25 fevral 1994-cü il.*
132. *Azərbaycan Respublikası Milli Məclisinin dünya parlamentlərinə və beynəlxalq təşkilatlara müraciəti, 24 fevral 1995-ci il. - "Azərbaycan" qəz., 25 fevral 1995-cü il.*
133. *Azərbaycan Respublikası Milli Məclisinin Xocalı soyqırımının 10-cu ildönümü ilə əlaqədar Bəyanatı, 26 fevral 2002-ci il. - "Azərbaycan" qəz., 27 fevral 2002-ci il.*

134. *Azərbaycan Respublikası Milli Məclisinin Xocalı soyqırımının 15 illiyi ilə əlaqədar Qərarı, 27 fevral 2007-ci il. - "Azərbaycan" qəz., 1 mart 2007-ci il.*
135. *Azərbaycan SSR Dağlıq Qarabağ Muxtar Vilayətində vəziyyəti normal hala salmaq tədbirləri haqqında Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin qərarı. - Azərbaycan SSR Ali Sovetinin Məlumatı, 1989, №24, s.3-5.*
136. *Azərbaycan SSR DQMV-da vəziyyət haqqında Azərbaycan SSR Ali Sovetinin qərarı. - Azərbaycan SSR Ali Sovetinin Məlumatı, 1989, №18, s. 8-9.*
137. *Azərbaycan SSR DQMV-da vəziyyəti normal hala salmaq üçün təxirəsalınmaz vəzifələr haqqında Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin qərarı. - Azərbaycan SSR Ali Sovetinin Məlumatı, 1990, №1-2, s. 21.*
138. *Azərbaycan SSR-də inzibati ərazi dəyişilmələrini müvəqqəti dayandırmaq haqqında Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin qərarı. - Azərbaycan SSR Ali Sovetinin Məlumatı, 1988, №13-14, s.6.*
139. *Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində vəziyyəti normal hala salmaq tədbirlər haqqında Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1989-cu il 4 dekabr tarixli qararına dəyişikliklər edilməsi barəsində Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyətinin qərarı. - Azərbaycan SSR Ali Sovetinin Məlumatı, 1990, №5, s. 2-3.*
140. *Azərbaycan SSR-nin Dağlıq Qarabağ Muxtar Vilayətində xüsusi idarə formasının tətbiq edilməsi haqqında SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarı, 12 yanvar 1989-cu il. - "Kommunist" qəz., 15 yanvar 1989-cu il.*
141. *Azərbaycan tarixi atlası /prof. Y.M.Mahmudovun rəhbərliyi və redaktəsi ilə/. Bakı, 2011, 55 s.*
142. *Azərbaycan tarixi xəritələri. Atlas. Bakı, 1994, 24 s.*
143. *Azərbaycan tarixi : dərslik. II cild : XX əsr. Bakı, 2009, 560 s.*
144. *Azərbaycan tarixi günbəgün. Bakı, 2008, 368 s.*
145. *Azərbaycan tarixi üzrə qaynaqlar. /Tərtibçilər: S.Əliyarov, F.Mahmudov və b./. - Bakı, 1989, 328 s.*
146. *Azərbaycan tarixi. 7 cilddə. I cild (Ən qədimdən - b.e. III əsri). Bakı, 2007, 520 s.*
147. *Azərbaycan tarixi. 7 cilddə. II cild (III-V əsrin I r.). Bakı, 2007, 608 s.*
148. *Azərbaycan tarixi. 7 cilddə. III cild (XIII-XVIII əsrlər). Bakı, 2007, 592 s.*
149. *Azərbaycan tarixi. 7 cilddə. IV cild (XIX əsr). Bakı, 2007, 504 s.*

150. *Azərbaycan tarixi. 7 cilddə. V cild (1900-1920-ci illər). Bakı, 2008, 696 s. + 40 s. illüs.*
151. *Azərbaycan tarixi. 7 cilddə. VI cild (aprel, 1920 - iyun, 1941). Bakı, 2008, 568 s.+ 48 s. illüs.*
152. *Azərbaycan tarixi. 7 cilddə. VII cild (1941-2002-ci illər). Bakı, 2008, 608 s. + 80 s. illüs.*
153. *Azərbaycan tarixi. Ən qədim zamanlardan XX əsrə qədər. (Z.Bünyadov və Y.Yusifovun redaktəsilə). 1-ci cild. Dərslik. Bakı, 2007, 720 s.*
154. *Azərbaycan tarixi. Sənədlər və nəşrlər üzrə. Bakı, 1990, 384 s.*
155. *Azərbaycan və Avropa Şurası /Tərtibçi: Sədaqət Yusifova/. Bakı, 2009, 240 s.*
156. *Azərbaycan-ABŞ: dostluq və tərəfdaşlıq yollarında. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Amerika Birləşmiş Ştatlarına işgüzar səfəri, 12-28 fevral 2000- ci il. Bakı, 2000, 162 s.*
157. *Azərbaycan-Böyük Britaniya: əməkdaşlıq və tərəfdaşlıq (1991-2001). Bakı, 2001, 449 s.*
158. *Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2004. Bakı, 2009, I hissə. 798 s.*
159. *Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2004. Bakı, 2009, II hissə. 1015 s.*
160. *Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2005. Bakı, 2009, I hissə. 631 s.*
161. *Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2005. Bakı, 2009, II hissə. 687 s.*
162. *Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2006. Bakı, 2008, I hissə. 847 s.*
163. *Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2006. Bakı, 2009, II hissə. 439 s.*
164. *Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2007. Bakı, 2009, II hissə. 1038 s.*
165. *Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2008. Bakı, 2009, I hissə. 655 s.*
166. *Azərbaycanın xarici siyasəti: sənədlər məcmuəsi. 2008. Bakı, 2009, II hissə. 423 s.*
167. *Azərbaycanlıların soyqırımı haqqında (8 dildə). Bakı, 1998, 120 s.*
168. *Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi. I cild. /Kitabın ideya rəhbəri: akademik R. Mehdiyev, redaktor: professor Ə.Həsənov, buraxılışa məsul: B. Sadıqov / Bakı, 2012, 448 s.*

169. *Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi. II cild. /Kitabın ideya rəhbəri: akademik R. Mehdiyev, redaktor: professor Ə.Həsənov, buraxılışa məsul: B. Sadıqov / Bakı, 2012, 424 s.*
170. *Azərbaycan-Rusiya, Россия - Азэербайджан, 1992-2002: Sənədlər toplusu, Сборник документов. Azərbaycan Respublikası XİN: Rusiya Federasiyasının Bakıdakı səfirliyi, Bakı, 2002 (Azərbaycan və rus dillərində), 589 s.*
AZƏRBAYCAN ATABƏYLƏR (ELDƏNİZLƏR) DÖVLƏTİ (1136-1225-ci illər)

Vassal ərazilər ····· Vassal ərazilərin sərhədləri

Səlcuq imperiyasının tənəzzülü dövründə hakimiyyət uğrunda davam edən çəkişmələr nəticəsində yeni dövlət qurumlarının-atabəyliklərin təşkili üçün zəmin yarandı.1136-cı ildə Azərbaycan Eldənizlər dövləti meydana gəldi. Bu dövrdə təsərrüfatın inkişafı üçün əlverişli şərait mövcud idi; metal eridilir, sənətkarlıq inkişaf edir, yeni şəhərlər salınırdı.

Atabəylər dövlətinin idarə edilməsi məqsədilə əli idarə (divan-el-ala) yaradıldı. Bu dövlətin nəzdində dövlət dəftərxanası, maliyyə idarəsi və ya xəzinədarlıq var idi. Eldənizlər dövründə Azərbaycan mədəniyyəti yüksək inkişaf səviyyəsinə çatdı.

AZƏRBAYCAN (XIII-XIV əsrlər)

XIII əsrin 20-ci və 30-cu illərində baş verən monqol yürüşləri bütün Cənubi Qafqazda olduğu kimi Azərbaycanda da bir çox sülalələrin hakimiyyətinə son qoydu. 1256-cı ildə Azərbaycan Hülakülər dövlətinin tərkibinə daxil edildi. Azərbaycanda və ona qonşu ərazilərdə Hülakülər dövlətini bir müddət Çobanilər sülaləsi idarə edirdi. Onlar hakimiyyətdə olsalar da, dövlət rəmzi asılılıq şəklində deyil, Hülakü şəhzadələrinin adından həyata keçirilirdi. Yerli feodalların daxili çəkişmələri Şirvanşah I İbrahimin vahid Azərbaycan dövləti yaratmaq siyasətinə mənəçilik törədi.

Əlavə I.10

QARABAĞ (XIII—XIV əsrlər)

"Qarabağ" adlı yerlər bir çox ölkələrdə, o cümlədən Azərbaycanda (Arran Qarabağı, Təbriz Qarabağı, Suxəb Qarabağı və s.) mövcud olmuşdur. Arran Qarabağı son orta əsrlər Arranının (Kür və Araz çayları arası) mərkəzi hissəsinin adıdır. Həmin ərazinin "Arran Qarabağı" adlanmasına səbəb onun başqa Qarabağlardan, xüsusilə Xəzərin şərqindəki "Bəqdis Qarabağından" fərqləndirmək olmuşdur.

XIII-XIV əsr mənbələrində "Dağlıq Qarabağ" terminine təsadüf olunmur və Qarabağın dağlıq və düzən əraziləri eyni inzibati-ərazi vahidi kimi fəaliyyət göstərmişdir. Qarabağ son orta əsrlər Arranının əsas qəlbi, mərkəzi hesab olunurdu. Qarabağın cənub hüdudları Araz çayına kimi uzanırdı. Göyçə gölünün şimalında yerləşən Zəyəm və Arranın şərq tərəfində olan Bəyləqan Qarabağa aid idi. Qarabağ ərazisi Şirvanla Kür boyunca həmsərhəddir. Qarabağ ticarət yolu Kür-Araz qovşağından başlayaraq Tiflisə qədər uzanırdı. Həmin yolun Qarabağ ərazisinə düşən hissəsi üzərində və ona yaxın məsafələrdə Xar, Qarqar, Bəkrabad, Yunan, Ləmbəran, Bazarcıq, Bərdə, Cuzbuq, Din-İsfahan, Xənəgah-Şutur, Gəncə, Şəmkir, Tatarlı və s. şəhər və yaşayış məntəqələri vardır. Bütün bunlar Qarabağın, Arranın mərkəzi kimi, şimal-qərbdə Zəyəmçay, şimal-şərqdə Güştasfi (Kür ilə Arazın qovuşduğu yerdə), cənubda Araz çayı, qərbdə Həkəri çayı ilə hüdudlandığını göstərir.

AZƏRBAYCAN (XV əsr)

XV əsrin başlanğıcı Azərbaycanın yadelli əsarətindən azad edilməsi və qədim dövlətçiliyin bərpa edilməsi dövrüdür. Bu dövrdə Kür çayından şimalda Şirvanşahlar dövləti və Şəki hakimliyi mövcud idi. 1406-cı ildə Qara Yusif tərəfindən Azərbaycanda Teymuri ağalığına son qoyuldu və 1410-cu ildə Cəlairi Sultan Əhməd üzərində qələbədən sonra mərkəzi Təbriz şəhəri olan Azərbaycan Qaraqoyunlu dövləti yarandı. Bu dövlətə Kürdən cənubdakı Azərbaycan torpaqları, Şərqi Anadolu, Ərəb İraqı və Əcəm İraqı daxil oldu. 1468-ci ildə onu Ağqoyunlu dövləti əvəz etdi. Bu dövlətin sərhədləri şərqdə Xorasana kimi uzanırdı. XV əsrdə Ərdəbil, Lənkəran və Qarabağ bölgələrində Səfəvilərin Ərdəbil hakimliyi mövcud olmuşdur.



Əlavə 1.12

Əlavə 1.13

Əlavə I.14

AZƏRBAYCAN XANLIQLARI (XVIII əsrin II yarısı)

Əlavə I.15

Qafqaz Hərbi Dairəsi Qərargahı nəzdində Hərbi Tarix Şöbəsi tərəfindən tərtib edilmiş xəritə. Tiflis, 1899-cu il.

Əlavə I.16

QARABAĞ XANLIĞI (XVIII əsrin II yarısı)



1770-1780-ci illərdə Qubalı Fətəli xanın Qarabağa yürüşləri

1780-1797-ci illərdə Ağa Məhəmməd şah Qacarın Gürcüstana yürüşləri

1796-cı ildə V.A.Zubovun Komandanlığı altında rus qoşunlarının yürüşü

Nadir şah Əfşarın imperiyasının 1747-ci ildə dağılmasından sonra Azərbaycanda yaranmış xanlıqların ən böyüyü və güclülərindən biri Qarabağ xanlığı olmuşdur. Xanlığın əsasını Otuziki tayfa birləşməsinin Cavanşir tayfasının Sarıcalı oymağından çıxmış Pənahəli xan İbrahim Xəlil ağa oğlu qoymuşdur.

1763-cü ildə onun oğlu İbrahim Xəlil xan taxta çıxmışdır. 1806-cı ildə o, ruslar tərəfindən qətlə yetirildikdən sonra hakimiyyətə oğlu Mehdiqulu xan gəlmişdir. 1805-ci il mayın 14 (26)-də Qarabağ xanının Rusiya himayəsini qəbul etməsi haqqında Kürəkçay müqaviləsi bağlanmışdır.

Xanlıq 1822-ci ildə ləğv edilərək Rusiyanın bir əyalətinə çevrilmişdir.

Əlavə I.17

İRƏVAN XANLIĞI (XVIII əsrin II yarısı)



1747-ci ildə Nadir şah qətlə yetirilib imperiyası dağıldıqdan sonra Çuxur Səəd bəylərbəyi Pir Mahmudxan hakimiyyəti əldən verməməyə cəhd göstərsə də İrəvanda xalq üsyanına başçılıq etmiş yerli feodal Mir Mehdi özünü xan elan edərək müstəqil İrəvan xanlığının əsasını qoymuşdur. Bəylərbəyliyin bir hissəsi bu xanlığın hüdudlarından kənarda qalaraq. Naxçıvan və digər xanlıqların tərkibinə daxil edildi.

Xanlıq 15 məhəllə bölünürdü. Xanlıq əhalisinin böyük əksəriyyəti Azərbaycan türkləri idi. Ermənilər əhalinin cüzi hissəsini təşkil edirdi. Ermənilərin dini mərkəzi Eçmədzin (Üçmüəzzin) İrəvan xanlığının ərazisində yerləşirdi. Onun başçısı İrəvan xanı tərəfindən vəzifəsinə təsdiq olunurdu.

İrəvan xanlığı 1828-ci ildə Rusiya tərəfindən işğal edilərək ləğv edilmişdir.

Əlavə I.18

KÜRƏKÇAY MÜQAVİLƏSİ*
("ANDLI ÖHDƏLİK")
(14 may 1805-ci il)

Aşağıda adı çəkilən mən , qadir Allah, böyük peyğəmbərimiz Məhəmməd ... qarşısında İ.Ə. (İmperator Əlahəzrəti.) - nə; özümün həqiqi və əsl lütfkar (hamısı) böyük Aleksandr Pavloviçə, Bütün Rusiyanın mütləq hökmdarına və Bütün Rusiya taxt-tacının təyin olunacaq İmperator Əlahəzrəti vəliəhdə sədaqətlə və ürəkdən qulluq edəcəyimi və hər şeydə itaət göstərəcəyimi , öz canımı son damla qanıma qədər əsirgəməməyi istəməyim və buna borclu olduğum haqda söz verir və and içirəm ...

Traktatın layihəsi

Qadir Allah naminə

Biz, yəni Şuşalı və Qarabağlı İbrahim xan və Bütün Rusiya qoşunlarının infanteriya generalı, Qafqaz müfəttişliyinin infanteriya müfəttişi kn. Pavel Sisianov, olduqca mərhəmətli böyük İmperator Əlahəzrətləri Aleksandr Pavloviçin verdiyi tam səlahiyyət və ixtiyarla Allahın köməyi ilə Şuşalı və Qarabağlı İbrahim xanın bütün ailəsi, nəsli və ölkəsi ilə Bütün Rusiya imperiyasımn və indi bəxtiyarlıqla hökmranlıq edən böyük imperator əlahəzrətləri Aleksandr Pavloviç və onun yüksək varislərinin əbədi təbəəliyini qəbul etməsi məsələsinə başlayaraq aşağıdakı şərtləri bağladıq, qərara aldıq və imzaladıq:

Birinci artikul

Mən, Şuşalı, və Qarabağlı İbrahim xan öz adımdan, varislərim və vəliəhdlərim adından İran və ya hər hansı bir dövlətin hər cür vassallığından və ya hər hansı ad altmda olsa da, hər cür asılılığından təntənəli surətdə həmişəlik imtina edirəm və bütün dünya qarşısında bununla bildirirəm ki, mən özüm və varislərim üzərində Bütün Rusiyanın böyük İmperator əlahəzrətlərinin və onun yüksək varislərinin və vəliəhdlərinin ali hakimiyyətindən başqa heç bir dövlətin

hakimiyyətini tanımıram, həmin taxt-taca sədaqət vəd edirəm, çünki onun sadiq quluyam və bu haqda, adətə görə, müqəddəs Qurana and içməliyəm.

İkinci artikul

İmperator əlahəzrətləri zati-aliləri (xan) həzrətlərinin belə səmimi söz verməsini qəbul edərək, özünün və vəliəhdlərinin adından İmperator sözü ilə vəd edir və söz verir ki, onlar zati-aliləri Şuşalı və Qarabağlı İbrahim xandan və onun varislərindən öz sadiq təbəələri kimi mərhəmət və nəcib havadarlığını heç vaxt əsirgəməyəcəklər, buna sübut olaraq İmperator əlahəzrətləri zati-alilərinin (xanın) və onun varislərinin ölkəsinin bütövlüyünün saxlanılmasına öz imperator zəmanətini verir.

Üçüncu artikul

Zati-aliləri Şuşalı və Qarabağlı İbrahim xanın Bütün Rusiya imperatorlarının və onların vəliəhdlərinin öz üzərində ali və yeganə hakimiyyətini belə səmimiyyətlə qəbul etməsi müqabilində qərara alınır ki, adı çəkilən xan, ondan sonra isə böyük oğlunun və bu qayda ilə nəslin yaşca sonrakı böyüyü irsən xanlığa keçərkən Gürcüstan Baş hakimi tərəfindən xanlıqda bərqərar olmaq haqqında dövlət möhürü ilə təsdiq edilmiş imperator fərmanından ibarət investitura aldıqdan sonra Bütün Rusiya imperiyasının təbəəliyinə sadiq olmasına, özü və varisləri üzərində Bütün Rusiya imperatorlarının ali və yeganə hakimiyyətinin tanınmasına təntənəli surətdə and içməlidirlər. Andın forması traktata əlavə olunur ki, indi hakim olan Şuşalı və Qarabağlı İbrahim xan bu mərasim Gürcüstan Baş hakiminin və bu qətnaməni başa çatdıran inf-gen. knyaz Sisianovun iştirakı ilə yerinə yetirsin.

Dördüncü artikul

Mən, Şuşalı və Qarabağlı İbrahim xan, mənim və varislərimin Bütün Rusiya imperiyasına sadiq təbəəliyimiz və həmin imperiyamn işıqlı ali və yeganə hakimiyyətini qəbul etməyimiz haqda mənim mövqeyimin təmizliyini göstərmək üçün Gürcüstan Baş hakimi ilə qabaqcadan qarşılıqlı razılıq olmadan qonşu hakimlərlə əlaqə saxlamağa, onlardan elçilər gələrsə və ya məktub göndərilərsə, onlardan məzmunca tutarlı olanları Baş hakimə göndərməyə və ondan icazə istəməyə, dəyəri az olanları haqda isə məlumat verməyə və Gürcüstan Baş hakimi

tərəfindən mənim yanıma təyin edilmiş şəxsə məlumat verməyə və onunla məsləhətləşməyə söz verirəm.

Beşinci artikul

İmperator əlahəzrətləri Şuşalı və Qarabağlı İbrahim xanın ölkəsi üzərində özünün ali və yeganə hakimiyyətinin tanınmasını razılıqla qəbul edərək, özünün və varislərinin adından söz verir:

1) həmin ölkənin xalqlarını böyük Rusiya imperiyasının sakinlərindən az da olsa ayırmayaraq öz təbəələri sayacaqdır; 2) İbrahim xan zati-alilərinin və onun ocağından olan varislərin və arxasının Qarabağ xanlığı üzərində hakimiyyəti dəyişilməz saxlanılacaqdır; 3) Daxili idarəetmə ilə bağlı hakimiyyət işləri, məhkəmə və divanxana işləri, bununla yanaşı ölkədən yığılan gəlir zati-alilərin (xanın) səlahiyyətində qalacaqdır; 4) Zati-alilərinin və onun sülaləsinin, eləcədə onun ölkəsinin qorunması üçün Şuşa qalasına 500 nəfərlik Rusiya qoşunu qərargah və baş zabitləri ilə, (habelə) toplarla birlikdə yeridiləcək, ciddi müdafiə üçün isə Gürcüstan Baş hakimi şərait və ehtiyaca görə bu dəstəni gücləndirəcək və zati-alilərinin ölkəsinin Bütün Rusiya imperiyasına məxsus olan bir ölkə kimi hərbi qüvvə ilə müdafiə edəcəkdir.

Altıncı artikul

Mən, Şuşalı və Qarabağh İbrahim xan, mənim sadiq təbəəlik istəyimin əlaməti olaraq söz verirəm:

1) istər indi, istərsə də sonralar yuxarıda adı çəkilən qoşuna lazım olan buğda və darı yarmasını (Gürcüstan) Baş hakiminin müəyyən etdiyi qiymətlə tədarük edəcəyəm, çünki onların Yelizavetpoldan gətirilməsi ya çox çətindir, ya da tamamilə qeyri-mümkündür; 2) Qoşunların Şuşa qalasında yerləşməsi üçün qoşun rəisinin bəyəndiyi evləri ayıracaq və lazımi qədər odunla təmin edəcəyəm; 3) Şuşa qalasına Yelizavetpol tərəfdən yoxuşu sahmana salacaq və yolu arabaların gedişi üçün yararlı edəcəyəm; 4) Hökumət Şuşa qalasından Cavada gedən yolu qaydaya salmaq istəsə, onda bu iş üçün lazımi olan işçilər hökumətin müəyyən etdiyi məzənnə ilə mənə verilməlidir.

Yeddinci artikul

İmperator əlahəzrətlərinin zati-aliləri Şuşalı və Qarabağlı İbrahim xana və onun varislərinə böyük ehtiram və mərhəmət əlaməti olaraq onu və varislərini üzərində Bütün Rusiya imperiyasının gerbi olan bayraqla təltif edir,bayraq onun yanında saxlanmalı və bu ölkə üzərində əlahəzrət tərəfindən bəxş edilmiş xanlıq və hakimiyyət rəmzi kimi müharibəyə gedəndə özü ilə aparılmalıdır.

Səkkizinci artikul

Mən, Şuşalı və Qarabağlı İbrahim xan, İmperator əlahəzrətlərinin yüksək razılığı ilə özümün gəlirimdən həmişəki kimi istifadə etməyə icazəm olduğundan İmperator əlahəzrətlərinin Tiflisdə yerləşən xəzinəsinə ildə 8000 çervon bac verməyi öhdəmə alıram, bac iki müddətə, yeni bir hissəsi fevralın 1-də, o biri hissəsi isə sentyabrın 1-də, özü də bu traktatın İmperator əlahəzrətləri tərəfindən təsdiqi zamanı birinci hissəsinin, yəni 4000 çervonun ödənişi ilə başlanır. Bundan başqa Asiya qayda-qanunu ilə and içməklə yanaşı, mən böyük oğlum Məhəmmədhəsən-Ağanın ikinci oğlu Şükürallahı həmişəlik Tiflisdə yaşamaq üçün girov verməliyəm.

Doqquzuncu artikul

İmperator əlahəzrətləri özünün xüsusi mərhəməti ilə, Tiflisdə sədaqət bildirmək üçün saxlanılmalı olan zati-aliləri (xanın) nəvəsinin dolanışığı üçün Rusiya pul vahidi ilə gündə 10 gümüş manat iltifatla bəxş edir.

Onuncu artikul

Bu müqavilə əbədi müddətə bağlanır və bundan belə həmişəlik heç bir dəyişikliyə uğramamalıdır.

On birinci artikul

Bu traktın İmperator əlahəzrətləri tərəfindən onun dövlət möhürü vurulmuş Ali Fərmanı ilə təsdiqi bu sənədin imzalanmasından 6 ay keçənədək və ya mümkün olsa, daha tez olmalıdır.

Yuxarıdakıların həqiqətə uyğun olduğunu (bildirmək) üçün aşağıda imza edənlər Yelizavetpol dairəsinin düşərgəsində, Kürək çayı yaxınlığında, miladın 1805-ci ilinin yayında, mayın 14-də (müsəlman təqvimi ilə 1220-ci il səfər ayında) bu maddələrə qol çəkərək öz möhürlərini vurdular.**

** Tarixi ədəbiyyatda Kürəkçay müqaviləsi kimi məlum olan bu sənəd XIX əsrin başlanğıcında Azərbaycan-Rusiya siyasi münasibətlərinə dair mühüm rəsmi mənbələrdən biridir. Müqavilə Qarabağ xanı İbrahim xanla Rusiya imperiyası qoşunlarının Qafqazda baş komandanı P.D.Sisianov arasında 1805-ci il mayın 14-də Kürəkçay sahilində (Gəncə yaxınlığında) bağlanmışdır.*

Kürəkçay müqaviləsi preambula və 11 artikuldan ibarət idi. Müqavilənin preambulasında şuşalı və qarabağlı İbrahim xanın Rusiya imperiyasının təbəəliyinə keçməsi təsbit olunur, maddələrdə isə bundan irəli gələn şərtlər müəyyənləşdirilirdi. Müqavilənin 1, 4, 6, 8 və 9-cu artikullarında İbrahim xanın, 2, 3, 5 və 7-ci artikullarında isə Rusiyanın öhdəlikləri əks olunmuşdur. Sənədə əsasən Rusiya birmənalı şəkildə Qarabağ xanlığını müstəqil dövlət kimi qəbul edir, İbrahim xanı və onun varislərini xanlığın yeganə sahibi kimi təsdiq edirdi. Ən mühüm məqamlardan biri İbrahim xanın adı keçən bütün artikullarda şuşalı və qarabağlı İbrahim xan kimi təqdim edilməsidir. Bundan əlavə, Kürəkçay müqaviləsində ermənilərin xanlığa hər hansı iddia və münasibətlərindən bir cümlə belə yoxdur. 1822-ci ildə çar Rusiyası tərəfindən Qarabağ xanlığının ləğv edilməsi ilə Kürəkçay müqaviləsinə son qoyuldu (bax: Mahmudov Y, Şükürov K. Azərbaycan: beynəlxalq münasibətlər və diplomatiya tarixi. 1639-1828. Dörd cilddə. Birinci cild. Bakı, 2009, s. 366-367).

*** Yalnız rus dilində imzalanmış Kürəkçay müqaviləsinin mətni ilk dəfə general Sisianovun çar I Aleksandrın adına 22 may 1805-ci il tarixli "tam sədaqətli" raportunda olduğu kimi gətirilmişdir. Raportun mətni isə öz növbəsində "Qafqaz Arxeoqrafiya Komissiyasının topladığı Aktlar"ın II cildində çap edilmişdir. Həmin çap üzrə də azərbaycancaya çevrilmişdir (bax: Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989, s. 272-276).*

Əlavə I.19



Əlavə I.20

ŞİMALİ AZƏRBAYCANIN RUSİYA İMPERİYASI TƏRƏFİNDƏN İŞĞALININ BAŞLANMASI (1801-1813-cü illər)

1813-cü il Gülüstan müqaviləsinə əsasən Rusiya-İran sərhədi

1802-1810 Rus ordusunun yürüşləri

1806 Qacarlar ordusunun yürüşləri

1801-1813-cü illər Azərbaycanın tarixində ən ağır dövrlərdən biridir. 1801-ci ildə Qazax, Şəmşəddil və Borçalı sultanlıqlarının zəbt olunması ilə Azərbaycanın çar Rusiyası tərəfindən işğalına başlandı. Çox keçmədən Car-Balakən, Gəncə, Qarabağ, Şəki, Şirvan Rusiya imperiyasının təcavüzünə tab gətirməyib təslim oldu. Azərbaycanın 20-dən çox kiçik dövlətlərə parçalanması, güclü vahid dövlətin olmaması, eləcə də Rusiyanın müstəmləkəçilik siyasəti tarixin bu istiqamətdə inkişafını bir növ şərtləndirirdi. Rusiyanın hücumları davam etdirib Araz çayını keçməsi və cənuba doğru yürüşü şah hökumətini rüsvayçı Gülüstan müqaviləsini imzalamağa məcbur etdi. İrəvan və Naxçıvan xanlıqları istisna olmaqla Araz çayından şimalda yerləşən bütün Azərbaycan torpaqları, habelə Lənkəran xanlığı Rusiyaya qatıldı. Azərbaycan Rusiya və İran arasında iki yerə bölündü. Xalqımız ən faciəli tarixini yaşamağa başladı. Həmin dövrdə tarix xalq qəhrəmanı Cavad xanın igidliyinin, İrəvan qalasının qəhrəmancasına müdafiəsinin, Sisyanov və Qulyakov kimi çar cəlladlarının cəzalarına çatdırılmalarının və xalqımızın işğala qarşı hər yerdə ciddi müqavimət göstərməsinin şahidi oldu.

Əlavə I.21

GÜLÜSTAN MÜQAVİLƏSİ*
(12 oktyabr 1813-cü il)

Müqavilənin mətni:
Qadir Allah naminə

İmperator əlahəzrətləri, Bütün Rusiyanın ən şöhrətli və əzəmətli böyük hökmdarı və imperatoru və İran dövlətinin sahibi, hökmdarı, əlahəzrətləri padşahın öz təbəələrinə yüksək hökmdar məhəbbətinə görə, onların ürəklərinə zidd olan müharibənin fəlakətlərinə son qoymağı və qədimdən Bütün Rusiya imperiyasi və İran dövləti arasında mövcud olmuş səbatlı sülh və xeyirxah qonşu dostluğunu möhkəm əsas üzərində bərpa etməyi səmimi qəlbdən, qarşılıqlı surətdə arzulayaraq bu ədaləti və nicatverici iş üçün aşağıdakıları öz səlahiyyətli Müvəkkilləri təyin etməyi faydalı bilmişlər:

Əlahəzrət Bütün Rusiya İmperatoru - öz general-leytenantı, Gürcüstandakı və Qafqaz xəttindəki qoşunların Baş komandanı, Həştərxan və Qafqaz quberniyalarında, Gürcüstanda Mülki hissə, həmçinin bu ölkənin bütün sərhəd işləri üzrə Baş Müdiri, Xəzər hərbi Donanmasının Komandanı, Müqəddəs Aleksandr Nevski, birinci Müqəddəs Anna, dördüncü dərəcəli Müqəddəs Əzabkeş və Qalibiyyətli Georgi ordenləri, habelə üzərində igidliyə görə yazısı olan qızıl qılıncla təltif edilmiş zati-aliləri Nikolay Rtişşevi, Əlahəzrət İran şahı isə - özünün, Türkiyə və İngiltərə Saraylarında fövqəladə elçisi olmuş, İran Rəisləri arasında seçilmiş, öz padşahından brilyantlarla bəzədilmiş xəncər və qılıncdan, şal paltardan və brilyantlarla zinyətləndirilmiş at bəzəkləri dəstindən ibarət fərqləndirici lütf görmüş, öz padşahının ən yaxın məmuru, ali İran sarayının gizli işlər müşaviri, vəzir nəslinə mənsub olan, İran sarayında ikinci dərəcəli xan, yüksəkrütbəli və çoxhörmətli Mirzə Həsən Xanı: bu səbəbdən də biz, yuxarıda adları çəkilmiş səlahiyyətli Müvəkkillər Qarabağ mülkündə, Zeyvə çayı yaxınlığındakı Gülüstan kəndində toplaşaraq, vəkalətnamələrimizi bir-birimizə təqdim etdikdən sonra, hər birimizə öz tərəfindən bizim böyük hökmdarlarimiz adından bərqərar edəcəyimiz sülh və dostluğa aid olan hər bir şeyi nəzərdən keçirib, bizə verilmiş hakimiyyət və ali səlahiyyətlərə görə aşağıdakı maddələri qərara aldıq və əbədiyyət üçün təsdiq etdik.

I Maddə

İndiyədək Rusiya İmperiyası və İran Dövləti arasında mövcud olmuş düşmənçilik və narazılığa həmin müqavilə ilə bu gündən etibarən və gələcəkdə son qoyulur və qoy imperator əlahəzrətləri Bütün Rusiya hökmdarı ilə Əlahəzrət İran şahı, onların vəliəhdləri, taxtlarının varisləri və onların, qarşıhqlı surətdə, ali dövlətləri arasında əbədi sülh, dostluq və xeyirxah razılıq olsun.

II Maddə

Bir halda ki, hər iki Ali Dövlət arasında ilkin əlaqələr vasitəsilə, yəni hər bir tərəfin hazırda tam malik olduğu torpaqlara, xanlıqlara, mülklərə sahib qalması əsasında sülhün bərqərar edilməsi artıq qarşılıqlı surətdə razılaşdırılmışdır, onda indiki zamandan etibarən və gələcəkdə Bütün Rusiya İmperiyası və İran Dövləti arasında sərhəd aşağıdakı xətt olsun: Adınabazar adlanan yerdən başlayaraq, düz xətlə Muğan düzü, Araz çayındakı Yeddibulaq keçidinədək, oradan da üzü yuxarı Kəpənək çayının Arazla qovuşduğu yerə, sonra da Kəpənək çayının sağ tərəfi ilə Mehri dağları silsiləsinə və oradan da xətti Qarabağ və Naxçıvan xanlıqlarının mərzləri (sərhədləri) ilə davam etdirərərək, Alagöz dağları silsiləsi ilə Qarabağ, Naxçıvan, İrəvan xanlıqlarının və Yelizavetpol dairəsinin (keçmiş Gəncə xanlığının) bir hissəsinin mərzləri birləşən Dərələyəz mərzinədək, buradan İrəvan xanlığını, Yelizavetpol dairəsindən, həmçinin Qazax və Şəmşəddin torpaqlarından ayıran mərzlə Eşşəkmeydan mərzinə, oradan da dağlar silsiləsi ilə, çayın sağ tərəfi ilə, onun axarı istiqamətində, Həmzəçimən yolu ilə, Pəmbək dağları silsiləsi ilə Şuragöl mərzi ilə, dağlar silsiləsi ilə, Mastaras və Artikin arası ilə Arpaçayadək. Bununla belə, Talış mülkü müharibə vaxtı əldən-ələ keçdiyinə görə, həmin Xanlığın Zinzeley və Ərdəbil tərəfdən olan sərhədləri, daha artıq dürüstlük üçün, hər iki tərəfdən qarşılıqlı razılıqla seçilmiş Komissarlar (onlar Baş komandanlarının rəhbərliyi ilə indiyədək hər bir tərəfin həqiqi hakimiyyəti altında olmuş torpaqların, kəndlərin, dərələrin, həmçinin çayların, dağların, göllərin, təbii mərzlərin dəqiq və təfsilatlı təsvirini verəcəklər) tərəfindən bu Müqavilə bağlanıb təsdiq olunduqdan sonra müəyyən ediləcək, onda, əsasında Talış xanlığının sərhəd xətti elə müəyyənləşdiriləcək ki, hər bir tərəf malik olduğu torpaqların sahibi qalsın. Eləcə də, yuxarıda xatırlanmış sərhədlərdə, bu və ya başqa tərəfin xəttindən kənara nə isə çıxarsa, hər iki Ali Dövlətin Komissarlarının təhlilindən sonra hər bir tərəf əsasında təminat verəcək.

III Maddə

Şah əlahəzrətləri əlahəzrət Bütün Rusiya imperatoruna səmimi dostluq hislərinin sübutu üçün təntənəli surətdə həm öz adından, həm də İran taxtının ali vəliəhdləri adından Qarabağ və indi Yelizavetpol adı altında əyalətə çevrilmiş Gəncə xanlıqları, həmçinin Şəki, Şirvan, Dərbənd, Quba, Bakı və Talış (bu xanlığın Rusiya İmperiyasının hakimiyyəti altında olan torpaqları) xanlıqlarının, bununla bərabər Dağıstan, Gürcüstan (Şuragölə əyaləti ilə birlikdə) İmperiya, Quriya, Minqreliya və Abxaziya, eyni dərəcədə, hazırda bərqərar edilmiş sərhəd Qafqaz xətti (bu sonuncuya və Xəzər dənizinə aid olan torpaqlar və xalqlarla birlikdə) arasındakı bütün mülk və torpaqların Rusiya İmperiyasının mülkiyyətinə mənsub olduğunu qəbul edir.

IV Maddə

Əlahəzrət Bütün Rusiya imperatoru əlahəzrət İran Şahına öz qarşılıqlı dostluq hisslərini ifadə etmək və İranda - ona qonşu olan bu dövlətdə, möhkəm əsas üzərində mütləqiyyət və hökmran hakimiyyət görmək arzusunu səmimi qəlbdən təsdiq etmək üçün, bununla, öz adından və öz vəliəhdləri adından İran şahı tərəfindən İran dövlətinin varisi təyin ediləcək vəliəhdə, lazım gəldikdə, kömək göstərməyi vəd edir ki, heç bir xarici düşmən İran dövlətinin işinə qarışa bilməsin və ali Rusiya sarayının köməyi ilə İran sarayı möhkəmlənsin. Bununla belə, əgər İran dövləti işləri üzrə Şah oğulları arasında münaqişələr baş verərsə, Rusiya İmperiyası hakimiyyətdə olan Şah xahiş etməyincə bunlara qarışmayacaq.

V Maddə

Rus ticarət gəmilərinə əvvəlki qayda üzrə Xəzər sahilləri yaxınhğında üzmək və onlara yan almaq hüququ verilir; həm də gəmi qəzası zamanı iranlılar tərəfindən dostluq köməyi edilməlidir. İran ticarət gəmilərinə də həmin bu hüquq - əvvəlki qayda üzrə Xəzər dənizində üzmək və Rusiya sahillərinə yan almaq ixtiyarı verilir, burada da gəmi qəzası zamanı, qarşılıqlı surətdə, iranlılara hər cür yardım göstərilməlidir. Hərbi gəmilərə gəldikdə isə müharibədən əvvəl, habelə sülh vaxtı və həmişə Rusiya hərbi bayrağı Xəzər dənizində tək mövcud olmuşdur. həmin ehtiram daxilində, əvvəlki ixtiyar indi də yalniz Rusiya dövlətinə verilir ki, ondan başqa heç bir dövlətin hərbi bayrağı Xəzər dənizində ola bilməz.

VI Maddə

Hər iki tərəfdən döyüşdə əsir alınmışları, xristian dininə və s. dinlərə mənsub ələ keçirilmiş sakinləri Müqavilə bağlanıb imzalandıqdan sonra, üç ay ərzində, hər bir tərəfdən Qarakilsəyədək (burada sərhəd rəisləri əsirləri qəbul etmək üçün öz aralarında qarşılıqlı əlaqə yaradırlar) azuqə və yol xərcləri ilə təmin edilərək buraxılsınlar. Özbaşına, yaxud qanunu pozaraq, qaçanlardan hər birinə, milliyətindən asılı olmayaraq, öz könüllü istəyinə görə öz Vətəninə qayıtmaq azadlığı verilir, qayıtmaq istəməyənlər isə məcbur edilməsin. Bununla bərabər hər iki tərəfdən qaçmışlara amnistiya, yaxud bağışlanma verilir.

VII Maddə

Bütün yuxarıda deyilənlərə əlavə olaraq əlahəzrət Bütün Rusiya imperatoru və əlahəzrət İran şahı buyururlar ki, lazım olduqda, əlahəzrətlərin iqamətgahlarına göndərilən, onların ali saraylarının qarşılıqlı nazirlər və ya elçiləri rütbələrinə və onlara tapşırılmış işlərin mühümlüyünə müvafiq qəbul olunsunlar; şəhərlərdə ticarətə himayəçilik üçün təyin olunmuş müvəkkillərin və ya Konsulların on nəfərdən artıq məiyyəti olmasın, onlar vəkil edilmiş məmurlar kimi vəzifələrinə layiq hörmət və şərəfə malik olmalıdırlar, həmçinin əmrnaməyə əsasən, bundan sonra onları nəinki incitmək olmaz, hətta inciklik olarsa, təqdim edildikdən sonra, hər iki tərəfin təbəələrini ədalətlə mühakimə etmək, incidilmişləri mürbətlə razı salmaq gərəkdir.

VIII Maddə

Əlahəzrətlərin, öz hökumətlərindən, yaxud hökumətləri tərəfindən təyin edilmiş sərhəd rəislərindən alınmış, onların həqiqətən tacirlər, Rusiya və ya İran təbəələri olduğunu təsdiq edən yazılı sənədlərə malik təbəələri arasındakı ticarət əlaqələrinə gəldikdə, saziş bağlayan hər iki ali dövlətə quru yolla və dənizlə sərbəst gəlməyə, orada kim nə qədər istəyirsə yaşamağa, tacirlər göndərməyə, həmçinin heç cür ləngidilmədən oradan çıxıb getməyə, Rusiya İmperiyasına mənsub olan yerlərdən İran dövlətinə gətirilən və qarşılıqlı olaraq, İrandan ora aparılan malların satılmasına və başqa mallarla dəyişdirilməsinə icazə veriləcək. Hər iki ali dövlətin tacirləri arasında baş verə biləcək mübahisələrə, onların vəzifələri və s. ilə əlaqədar şikayətlərinə adi qayda üzrə baxılması konsula, yaxud müvəkkilə, onlar olmadıqda isə yerli rəisə həvalə edilir. Onlar xahişlərə tam ədalətlə baxmalı, özləri haqq

təminatı verməli, yaxud bunu başqa lazımi şəxslərin vasitəsilə tələb etməli və onların incidilməsinə və sıxışdırılmasına qətiyyən yol verməməlidirlər.

İrana gəlmiş Rusiya təbəəliyindən olan tacirlər, istəsələr, oradan öz malları ilə birlikdə İranla dostluq edən başqa dövlətlərə də sərbəst gedəcəklər; bundan ötrü İran hökuməti bu tacirlərin sərbəst keçməsi üçün onları lazımi pasportlarla təmin edəcəkdir; buna ticarət işləri ilə əlaqədar Rusiyadan Rusiya ilə dostluq edən başqa dövlətlərə getmək istəyən İran tacirləri üçün də qarşılıqlı surətdə riayət ediləcəkdir.

İrana gəlmiş Rusiya təbəələrindən kimlərinsə ölüm hadisəsi baş verərsə, onların müxəlləfatları, həmçinin başqa daşlar və mülkləri, dost dövlətin təbəələrinə məxsus olduğu üçün, ilk növbədə, saxlanılmadan və xəlvəti mənimsənilmədən, Rusiya imperiyasında və bütün mədəni dövlətlərdə icra edildiyi kimi, kimin hansı dövlətə, mənsubiyyətindən asılı olmayaraq, qanuni əsasdan, qəbzlə, onların yoldaşlarına yaxud qohumlarına verilməli, həmin qohumlara öz arzuları ilə və öz xeyirləri üçün bu əmlakları istədikləri adamlara satmağa icazə verilməlidir.

IX Maddə

Rus tacirlərindən İran şəhərlərinə və ya limanlarına gətirdikləri mallara görə yüzə beş faizdən çox gömrük alınmasın və həmin tacirlər bu mallar ilə hara gedirlərsə getsinlər, onlardan ikinci dəfə gömrük tələb olunmasın, oradan apardıqları İran mallarına görə də eyni gömrük alınsın, bundan başqa heç bir bəhanə və uydurma ilə heç bir rüsum, vergi, gömrük tələb edilməsin. İran təbəələrinin Rusiya şəhərlərinə və limanlarına gətirdikləri və buradan ixrac etdikləri mallara görə və qarşılıqlı surətdə eyni gömrüklər, eyni əsasda bir dəfə alınsın.

X Maddə

Malları Müqavilə bağlamış hər iki dövlətin sahillərinə və ya limanlarına, yaxud da quru yolla sərhəd şəhərlərinə gətirdikdən sonra, qarşılıqlı surətdə, tacirlərə nəzarəti altında olduqları gömrük hakimlərindən və ya iltizamçılardan icazə almadan öz mallarını satmaq, başqa malları satın, yaxud dəyişmə yolları ilə almaq azadlığı verilir ki, ticarət maneəsiz dövriyyədə olsun həmçinin satıcıdan və alıcıdan dövlət xəzinəsi üçün müntəzəm olaraq və könüllülük şərti ilə qanuni rüsumlar yığılsın.

XI Maddə

Bu müqavilə imzalandıqdan sonra hər iki ali dövlətin müvəkkilləri qarşılıqlı surətdə və təxirə salınmadan bütün yerlərə onun haqqında lazımı xəbər və hər yerdə hərbi əməliyyatların dərhal dayandırılması barəsində əmrlər göndərsinlər.

İki bərabərhüquqlu nüsxədə (fars dilinə tərcüməsi ilə birlikdə) yazılmış və saziş bağlayan ali tərəflərin yuxarıda göstərilmiş müvəkkilləri tərəfindən imzalanaraq, onların möhürləri ilə təsdiq edilmiş və qarşılıqlı surətdə dəyişdirilmiş bu əbədi sülh müqaviləsi əlahəzrət Bütün Rusiya imperatoru və əlahəzrət İran şahı tərəfindən bərqərar ediləcək və əlahəzrətlərin öz əlləri ilə imzalanmış təntənəli ratifikasiyalarla təsdiq olunacaqdır.

Bu müqavilənin həmin təsdiq olunmuş nüsxələri bu ali saraylardan, qarşılıqlı surətdə göndərilməklə onların yuxarıda adları çəkilmiş Müvəkkillərinə üç ay müddətindən sonra çadırılacaq.

Müqavilə min səkkiz yüz on üçüncü il oktyabr ayının on ikinci günü İran hesablaması ilə min ikiyüz iyirmi səkkizinci il Şəvval ayının iyirmi doqquzuncu günü Qarabağ mülkündə Zeyvə çayı yaxınlığındakı Gülüstan kəndində Rusiya ordu düşərgəsində bağlanmışdır.

İmzalamışlar:

Müvəkkil və Gürcüstanda Baş Komandan Nikolay Rtişşev
(M : Y:)
Alişöhrətli İran Dövlətindən Müvəkkil Mirzə Əbül Həsən Xan
(M : Y:)

**1813-cü il oktyabrın 12-də Rusiya ilə İran arasında imzalanmış Gülüstan müqaviləsi ilə 1804-1813-cü illər Rusiya-İran müharibəsinə son qoyuldu (bax: Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989, s. 277, 285).*

Bu sənəd tarixi Azərbaycan ərazilərini Rusiya ilə İran arasında bölən birinci müqavilə olmaqla yanaşı, müqavilə Qarabağın Gülüstan kəndində imzalandığı üçün tarixə həmin yerin adıyla, yəni Gülüstan müqaviləsi kimi daxil olmuşdur. Müqaviləni İran tərəfdən şahın vəkili Mirzə Əbülhəsən xan, Rusiya tərəfdən isə Qafqaz xəttində və Gürcüstandakı qoşunların baş komandanı N. Rtişşev imzalamışdır.

Müqavilə preambula, 11 maddə və separat aktdan ibarət olmuşdur. I maddədə bildirilirdi ki, "tərəflər arasında mövcud olmuş düşmənçilik və narazılığa həmin müqavilə ilə bu gündən etibarən və gələcəkdə son qoyulur".

II maddədə tərəflər arasında sərhədlər müəyyən edilir, V maddədə isə Xəzər dənizində yalnız Rusiyaya hərbi donanma saxlamaq hüququ verilirdi. Müqavilənin III maddəsinə əsasən Şimali Azərbaycan xanlıqlarından İrəvan və Naxçıvanı çıxmaq şərtilə yerdə qalan bütün xanlıqların (Gəncə, Qarabağ, Şəki, Şirvan, Quba, Bakı və Talış) Rusiyanın hakimiyyəti altına keçməsi təsdiq edilirdi. VI maddədə əsirlər və fərarilər məsələsinin həll edilməsi göstərilir, VII maddədə isə diplomatik heyətlərin qarşılanması, kosulluqlar açılması məsələsindən bəhs edilirdi.

Separat aktda isə Gülüstan müqaviləsinə yenidən baxılması haqqında İranın Rusiya imperatoruna xahişlə müraciət etmək hüququ təsdiq olunurdu. 1826-1828-ci illər Rusiya-İran müharibəsinin başlanması ilə Gülüstan müqaviləsi qüvvədən düşdü və tərəflər arasında yeni, Türkmənçay müqaviləsi imzalandı (bax:Mahmudov Y, Şükürov K. Azərbaycan: beynəlxalq münasibətlər və diplomatiya tarixi. 1639-1828. Dörd cilddə. Birinci cild. Bakı, 2009, s. 430-433).

Əlavə I.22

ŞİMALİ AZƏRBAYCANIN RUSİYA İMPERİYASI TƏRƏFİNDƏN İŞĞALININ BAŞA ÇATDIRILMASI (1826-1828-ci illər)

Türkmənçay müqaviləsinə əsasən Rusiya-İran sərhədi

Qacar ordusunun və ayrı-ayrı xanların yürüşləri

Rus ordusunun yürüşləri

Rus ordusunun qarşı-qarşıya çıxışları

Azərbaycanın tarixində çox qısa olan bu dövr öz qaynarlığı, hadisələrin surətli inkişafı ilə yadda qalır. 1826-cı ildə Gəncədə, eləcə də Azərbaycanın digər bölgələrində baş verən üsyanlar, işğalçıların ölkədən qovulması, xalqın zülmlə barışmamasının bariz nümunəsidir. Lakin ölkənin bütün qüvvələrinin birləşməsinin mümkün olmaması, düşmənin gücünün düzgün qiymətləndirilməməsi, 1826-cı ilin payızında rusların əks hücumları ölkənin yenidən işğalı məruz qalmasına səbəb oldu. 1827-ci ildə Naxçıvan və İrəvan xanlıqlarının işğalı, Təhrana doğru yürüşün başlanması 1828-ci il fevralın 10-da Türkmənçay müqaviləsinin bağlanmasına gətirib çıxardı. Qacarlar dövləti Cənubi Qafqazı ələ keçirmək ümidini itirdi. Rusiya isə Araz çayı sərhəd olmaqla yeni ərazilərin işğalını rəsmiləşdirdi. Xalqımızın uzun müddət üçün iki yerə bölünməsi və müxtəlif rejimlərin əsarətinə düşməsinin əsası qoyuldu. Türkmənçay müqaviləsinin XV maddəsinə əsasən ermənilərin kütləvi surətdə Şimali Azərbaycana köçürülməsinə başlandı

Əlavə I.23

TÜRKMƏNÇAY MÜQAVİLƏSİ*
(10 fevral 1828-ci il)

I Maddə

Bütün Rusiya imperatoru həzrətləri və İran şahı həzrətləri arasında, onların vərəsələri və taxt-tacın varisləri, onların dövlətləri və qarşılıqlı surətdə təbəələri arasında bundan sonra əbədi sülh, dostluq və tam razılıq olacaqdır.

II Maddə

Bütün Rusiya imperatoru həzrətləri və İran şahı həzrətləri hörmətlə qəbul edirlər ki, razılığa gələn yüksək tərəflər arasında baş vermiş və indi xoşbəxtlikdən qurtarmış müharibə ilə Gülüstan traktatının qüvvəsi üzrə qarşılıqlı təəhhüdlər də başa çatmışdır; onlar göstərilən Gülüstan traktatını Rusiya və İran arasında yaxın və uzaq gələcəyə sülh və dostluq münasibətləri qurmalı və təsdiq etməli olan indiki şərtlər və qərarlarla əvəz etməyi zəruri hesab etdilər.

III Maddə

İran şahı həzrətləri öz adından və öz vərəsələri və varisləri adından Arazın o tayı və bu tayı üzrə Erivan xanlığını və Naxçıvan xanlığını Rusiya imperiyasının tam mülkiyyətinə güzəştə gedir. Şah həzrətləri bu güzəşt nəticəsində, hazırki müqavilənin imzalanmasından sayılmaqla altı aydan gec olmayaraq, yuxarıda adları çəkilən hər iki xanlığın idarə edilməsinə aid olan bütün arxivləri və ictimai sənədləri Rusiya rəisliyinə verməyi vəd edir.

IV Maddə

Müqaviləyə qoşulan yüksək tərəflərin razılığı ilə hər iki dövlət arasında sərhədlər aşağıdakı hüdudda qərara alınır: sərhəd xətti Türkiyə torpaqlarının ucundakı kiçik Araratın zirvəsindən aralıda düz istiqamətdə ən yaxın nöqtədən başlayaraq o dağların zirvəsindən keçir; buradan maillik üzrə kiçik Araratın cənub

tərəfindən axan Aşağı Qarasu çayının yuxarılarına düşür, sonra sərhəd xətti o çayın axarı üzrə Şərur qarşısında onun Araza töküldüyü yerədək davam edir; bu məntəqədən Abbasabad qalasınadək Araz çayının yatağı üzrə gedir; burada qalanın Arazın sağ sahilində yerləşən xarici istehkamları yanında yarım ağac, yəni 3 1 / 2 Rusiya versti enində bütün istiqamətlərdə dövrə haşiyələnəcək və o ətrafda olan torpaq sahəsi büsbütün məhz Rusiyaya məxsus olacaqdır və bu gündən sayılmaqla iki ay ərzində ən yüksək dəqiqliklə ayrılacaqdır. Sərhəd xətti o yerdən, göstərilən dövrənin şərq tərəfdən Arazın sahilinə birləşdiyi yerdən başlayaraq bir daha o çayın yatağı ilə Yeddibulaq bərəsinədək gedir; buradan İran torpaqları Araz çayının yatağı üzrə üç ağaca, yəni 21 Rusiya versti uzanacaqdır: sonra sərhəd Muğan düzü vasitəsilə Bolqarçayadək, iki kiçicik Adınabazar və Sarıqamış çaylarının birləşməsində üç ağac yəni 21 verst aşağıda olan torpaqlara gedir; sərhəd buradan Bolqarçayın sol sahili ilə yuxarı; adları çəkilən kiçik Adınabazar və Sarıqamış çaylarının birləşməsinədək, sonra Şərqi Adınabazar çayının sağ sahili üzrə onun yuxarılarınadək davam edir, buradan isə Cikoir yüksəkliyinin zirvəsinədək elə davam edir ki, o yüksəklikdən Xəzər dənizinə tökülən bütün sular Rusiyaya məxsus olacaqdır, İran tərəfə axan bütün sular isə İrana məxsus olacaqdır. Burada iki dövlət arasındakı sərhəd dağ zirvələrilə müəyyən edilir; qərarlaşdırılmışdır ki, onlarm Xəzər dənizinə doğru enişi Rusiyaya məxsus olmalıdır, o biri yandakı enişi isə İrana məxsusdur. Sərhəd Cikoir yüksəkliyi zirvəsindən, Talışı Ərş dairəsindən ayıran dağlar üzrə Qəmərkühüm zirvəsinədək keçir. Suların axarını iki yerə bölən dağların başı, yuxarıda Adınabazarın yuxarı axarı və Cikoir zirvəsi arasındakı sahə haqqında deyilən kimi, burada da eləcə sərhəd hüdudunu təşkil edəcəkdir. Sonra sərhəd xətti suların axarına aid yuxarıda şərh olunan qaydalara aramsız əməl etməklə Qəmərkuhun zirvəsindən Züvand və Ərş dairələrini ayıran dağ silsiləsi üzrə Velkic dairəsinin sərhədlərinədək uzanacaqdır. Beləliklə, adı çəkilən dağın zirvəsindən əks tərəfdə yerləşən hissəsi istisna olmaqla Züvand dairəsi Rusiyaya birləşir. Hər iki dövlət arasındakı sərhəd xətti su axınının yuxarıda qeyd olunan qaydalarına daima uyğun olaraq, Velkic dairəsi sərhədindən Kloputanm zirvəsi və Velkic dairəsindəki dağlarm baş silsiləsi üzrə Astara çayının şimal mənbəyinədək, buradan o çayın yatağı boyu onun Xəzər dənizinə töküldüyü yerədək davam edəcək ki, burada da Rusiya torpaqlarını İrandan ayırmalı olan sərhəd xətti qurtarır.

V Maddə

İran şahı həzrətləri bütün Rusiya imperatoru həzrətlərinə öz səmimi dostluğuna sübut olaraq, bu maddə ilə həm öz adından, həm də vərəsələri və İran

taxt-tacının varisləri adından, yuxarıda göstərilən sərhəd xətti arasında və Qafqaz sıra dağları və Xəzər dənizi arasında yerləşən bütün torpaqların və bütün adaların, bununla bərabər həmin məmləkətlərdə yaşayan bütün köçəri və başqa xalqların əbədi zamanədək Rusiya imperiyasına məxsus olduğunu təntənə ilə tanıyır.

VI Maddə

İran şahı həzrətləri hər iki dövlət arasında baş vermiş müharibə ilə Rusiya imperiyasına vurulmuş xeyli ziyana, həmçinin Rusiya təbəələrinin düçar olduğu qurbanlara və itkiyə hörmət əlaməti olaraq, onların əvəzini pul təzminatı ilə ödəməyi öhdəsinə götürür. Müqaviləyə qoşulan hər iki yüksək tərəf o mükafatın məbləğini on kurur tümən raicə və ya iyirmi milyon gümüş manat qərarlaşdırmışdır, onun vaxtı, ödəniş qaydası və təminatı sözbəsöz hazırkı Traktata daxil edilə biləcək qüvvəyə malik olan xüsusi müqavilədə qərarlaşdırılmışdır.

VII Maddə

İran şahı həzrətləri öz əlahəzrət oğlu şahzadə Abbas Mirzənin öz vərəsəsi və taxt-tacın varisi təyin etmək iltifatında bulunan kimi, Bütün Rusiya imperatoru həzrətləri İran şahı həzrətlərinə öz dostluq münasibətlərini və bu varislik qaydasının təsdiqinə kömək etmək arzusunu açıq-aşkar sübut etməkdən ötrü bundan sonra şahzadə Abbas Mirzə həzrətlərinin simasında İran taxt-tacının vərəsəsi və varisini, onun taxta çıxmasından sonra isə onu o dövlətin qanuni hökmdarı hesab etməyi öhdəsinə götürür.

VIII Maddə

Rusiyanm ticarət gəmiləri, əvvəlki qayda üzrə, Xəzər dənizində və onun sahilləri boyunca azad üzmək və bununla bərabər onlara yaxınlaşmaq hüququna malikdir; gəmi qəzası hallarmda İranda onlara hər cür kömək edilməlidir. Bu üsulla İran ticarət gəmilərində də Xəzər dənizində əvvəlki qayda ilə üzmək və Rusiya sahillərinə yan almaq hüququ verilir ki, orada gəmi qəzası hallarında onlara qarşılıqlı surətdə hər cür vəsaitlə kömək göstərilməlidir. Hərbi gəmilərə gəldikdə isə, qədimdə olduğu kimi, yalnız Rusiya hərbi bayrağı altında olan hərbi gəmilər Xəzər dənizində üzə bilərlər; bu səbəbdən də əvvvəlki müstəsna hüquq indi də onlara verilir və təsdiq edilir ki, Rusiyadan başqa heç bir dövlətin Xəzər dənizində hərbi gəmiləri ola bilməz.

IX Maddə

Bütün Rusiya imperatoru həzrətləri və İran şahı həzrətləri hər vasitə ilə onlar arasında bu qədər xoşbəxtliklə bərpa olunmuş sülh və dostluğu bərqərar etməyi arzulayaraq, müvəqqəti tapşırıqların icrası və ya daimi qalmaq üçün bu və ya o biri dövlətə göndərilən yüksək sarayların (hökumətlərin) səfirlərinin, nazirlərinin və işlər müvəkillərinin, onların dərəcəsinə, razılığa gələn yüksək tərəflərin şərəfinə, onları birləşdirən səmimi dostluğa və yerli adətlərə uyğun olaraq, ehtiramla və (hər birinin) ayrılıqda qəbul edilməsini qarşılıqlı surətdə rəva bilirlər. Xüsusi protokol ilə bu və ya o biri tərəfin əməl etməsi üçün bu məzmunda mərasim qərarlaşdırılacaqdır.

X Maddə

Bütün Rusiya həzrətləri və İran şahı həzrətləri hər iki dövlət arasında ticarət əlaqələrinin bərpa olunmasını və genişlənməsini sülhün bərqərar olmasının ən başlıca xeyirxah nəticələrindən biri saydıqları üçün, tam qarşılıqlı razılıq əsasında hökm verdilər ki, ticarətə hakimlik edilməsinə və qarşılıqlı surətdə təbəələrin təhlükəsizliyinə aid olan bütün sərəncamlar səadətlə yoluna qoyulsun və onlar onu qarşılıqlı surətdə müvəkkillər tərəfindən bağlanacaq bu sülh müqaviləsinin eyni güclü hissəsi sayılmalı olan və ona əlavə edilən ayrıca Akt ilə izah etsinlər. İran şahı həzrətləri, qabaqlar olduğu kimi, Rusiyaya ticarətin xeyrinə tələb olunan hər yerə konsullar və ticarət agentləri təyin etmək hüququ verir və öhdəsinə götürür ki, hər birinin məiyyəti on nəfərdən çox olmayacaq konsul və agentlərə hamilik göstərsin ki, onlar öz rütbələrinə verilmiş şan-şövkət və üstünlüklərdən istifadə etsinlər. Bütün Rusiya imperatoru həzrətləri öz tərəfindən İran şahı həzrətlərinin konsul və ya ticarət agentlərinə münasibətdə tam qarşılıqlığa əməl edilməsinə vəd verir. İran hökumətinin Rusiya agentinə və ya konsuluna əsaslı şikayəti olarsa, Rusiya naziri (səfiri) və ya onun şah həzrətləri sarayı yanında işlər müvəkkili, ya da onların bilavasitə rəisi öz mülahizəsinə əsasən günahkarı vəzifəsindən uzaqlaşdıra və onu müvəqqəti olaraq digər şəxsə həvalə edə bilər.

XI Maddə

Qarşılıqlı surətdə təbəələrin bütün tələbləri və müharibə ilə dayandırılmış başqa işlər sülh bağlandıqdan sonra ədalətlə bərpa olunacaq və həll ediləcəkdir. Qarşılıqlı surətdə təbəələrin öz aralarında bu və ya o biri hökumətin xəzinəsinə müqavilə təəhhüdləri dərhal və tamamilə təmin edilməlidir.

XII Maddə

Barışığa gələn yüksək tərəflər təbəələrin xeyri üçün özlərinin ümumi razılığı üzrə qarşılıqlı surətdə qərara almışdır: onlardan Arazın hər iki tərəfində tərpənməyən əmlaka malik olanlarına üç il vaxt verilməlidir ki, onlar bu müddət ərzində onu azad surətdə satsınlar və dəyişsinlər. Lakin bütün Rusiya imperatoru həzrətləri, ona aidiyyatı olduğuna görə, keçmiş İrəvan sərdarı Hüseyn xanı, onun qardaşı Həsən xanı və keçmiş Naxçıvan hakimi Kərim xanı bu iltifatlı sərəncamdan kənar edir.

XIII Maddə

Axırıncı və ya bundan qabaqkı müharibənin gedişində əsir alınmış hər iki tərəfin bütün hərbi əsirləri, bununla bərabər hər iki hökumətin nə vaxtsa əsir düşmüş təbəələri qarşılıqlı surətdə azad edilməli və dörd ay ərzində qaytarılmalıdır; onlar həyati azuqə və digər tələbatlarla təmin edilməli və onları qəbul etmək və sonrakı yaşayış yerinə yollamağa sərəncam vermək üçün hər iki tərəfdən ayrılmış komissarlara verməkdən ötrü Abbasabada göndərilməlidirlər. Razılığa gələn yüksək tərəflər hər iki tərəfdən əsir düşmüş, lakin olduqları yerin uzaqlığına və ya başqa bir səbəbə və ya vəziyyətə görə göstərilən müddətə qaytarıla bilməyəcək bütün hərbi əsirlərə, habelə Rusiya və İran təbəələrinə də bu yolla yanaşacaqlar. Hər iki dövlət belələrinin hər bir vaxt tələb edilməsində özünə dəqiq və qeyri-məhdud hüquq verir və öhdəsinə götürür ki, onlar aşkar edildikdə və ya onlar haqqında tələblər alındıqda qarşılıqlı surətdə onları (bir-birinə) qaytarsınlar.

XIV Maddə

Razılığa gələn yüksək tərəflərdən heç biri axırıncı müharibənin başlanmasınadək və ya o vaxtı digərinin təbəəliyinə keçmiş olan satqınların və fərarilərin verilməsini tələb etməyəcəkdir. İran hökuməti bu qaçqınlardan bəzilərinin və onların köhnə həmvətənlərinin və ya hakimiyyəti altında olanların arasında qərəzli əlaqələrdən qarşılıqlı surətdə baş verə biləcək zərərli nəticələrin qarşısını almaq üçün, öhdəsinə götürür ki, indi və ya sonralar Rusiya hökumətinin adbaad göstərdiyi adamların Arazla Çara çayının, Urmiya gölünün, Cakatu çayının və Qızıl Üzən çayının Xəzər dənizinə töküldüyü yer arasında yaratdığı hüduddakı öz torpaqlarında olmasını qadağan edəcəkdir. Bütün Rusiya imperatoru həzrətləri öz tərəfindən İran qaçqınlarının Qarabağ və Naxçıvan xanlıqlarında və İrəvan xanlığının Araz çayının sağ sahilində yerləşən hissəsində yurd salmasına və ya yaşamasına (hər hansı) bir qərarda icazə verməyəcəyini vəd edir. Lakin özlüyündə aydmdır ki, ancaq rəsmi rütbə daşıyan və ya müəyyən ləyaqət sahibi olan adamlara: şəxsi nümunələri, nəsihət və gizli əlaqələri ilə keçmişdə onların idarəsində və ya hakimiyyəti altında olan əvvəlki həmvətənlərinə zərərli təsir göstərə bilən xan, bəy və dini rəislər və ya mollalara qarşı bu şərtin gücü var və olacaqdır. Ümumiyyətlə, hər iki dövlətin sakinlərinə gəldikdə isə, razılığa gələn yüksək tərəflər qərara alır ki, hər iki tərəfin bir dövlətdən o birinə keçmiş və ya bundan sonra keçəcək təbəələri onların keçdiyi hökumətin icazə verdiyi hər yerdə yurd sala və yaşaya bilər.

XV Maddə

Şah həzrətləri öz dövlətinə sakitliyi qaytarmaq və öz təbəələrindən hazırki müqavilə ilə bu qədər xoşbəxtliklə başa çatmış müharibədə törədilmiş bədbəxtlikləri daha da artıra bilən hər şeyi kənar etmək kimi xeyirli, xilasedici niyyətlə hərəkət edərək, Azərbaycan adlanan vilayətin bütün əhalisinə və məmurlarına büsbütün və tam bağışlanma əta edir. Hansı dərəcəyə məxsus olmasından asılı olmayaraq onlardan heç kəs öz hərəkətinə və ya müharibə ərzində və ya Rus ordusunun adı çəkilən vilayəti müvəqqəti tutduğu zaman davranışına görə təqibə, dini əqidəsinə görə təhqirə məruz qalmamalıdır. Bundan başqa o məmur və sakinlərə bu gündən başlayaraq öz ailəsi ilə birlikdə İran vilayətindən Rusiyaya sərbəst keçmək, hökumət və yerli rəisliyin heç bir maneçiliyi olmadan onların satlıq malına və ya əmlakına və əşyalarına hər hansı gömrük və vergi qoyulmadan tərpənən mülkiyyətini aparmaq və satmaq üçün bir il vaxt verilir.

Tərpənməyn mülkə gəldikdə isə, onun satılması və ya onun haqqında özxoşuna sərəncam üçün beş illik müddət müəyyən edilir. Lakin bu bağışlanma qeyd olunan bir illik müddət başa çatanadək məhkəmə cəzası düşən günah və ya cinayət işləmiş adamlara şamil edilmir.

XVI Maddə

Müvəkkillər bu sülh müqaviləsi imzalandıqdan sonra, qarşılıqlı surətdə təxirə salınmadan təcili olaraq, hərbi əməliyyatların kəsilməsi haqqında bütün yerlərə xəbər və lazımı fərman göndərməlidir. Eyni məzmunda iki nüsxədə tərtib edilmiş, hər iki tərəfin müvəkkilləri tərəfindən imzalanmış, onların gerbli möhürləri ilə təsdiq edilmiş və qarşılıqlı olaraq bir-birinə verilmiş bu sülh müqaviləsi bütün Rusiya imperatoru həzrətləri və İran şahı həzrətləri tərəfindən təsdiq və ratifaksiya edilməli və onların imzaladığı ratifikasiya mətnləri təntənəli şəkildə hər iki tərəfin müvəkilləri tərəfindən dörd ay ərzində və ya mümkün olduqca daha tez dəyişdirilməlidir.

Fevral ayının 10-da İsanın anadan olmasının 1828-ci ilində Türkmənçay kəndində bağlanmışdır.

Əslinə qol çəkmişlər:
İ.F.Paskeviç, A.M.Obrezkov.

** Türkmənçay müqaviləsi Rusiya ilə İran arasında 1828-ci il fevralın 10(22)-də, Təbriz yaxınlığında, Mianə şəhərindən 33 km. şimal-qərbdə yerləşən Türkmənçay kəndində bağlanmışdır (bax: Azərbaycan tarixi üzrə qaynaqlar. Bakı, 1989, s. 277-286).*

Türkmənçay müqaviləsi preambula və 16 maddədən ibarət idi. Gülüstan müqaviləsinin ayrı-ayrı maddələrinin məzmunu Türkmənçayda əks olunmuş, onun IX və X maddələrində nəzərdə tutulmuş məsələlərə aid Xüsusi ticarət aktı imzalanmışdı.Türkmənçay müqaviləsinin preambulasında sülhün zərurətindən və onu imzalayanların (İ.Paskeviç, A.Obrezkov (Rusiya) və Abbas Mirzə (İran)) səlahiyyətindən bəhs edilir. I maddə ilə əbədi zamanadək sülh elan olunurdu. II maddədə Gülüstan müqaviləsinin qüvvədən düşdüyü və onun Türkmənçay müqaviləsilə əvəz olunduğu bildirilirdi. III maddədə İrəvan və Naxçıvan xanlıqlarının Rusiyaya ilhaqı təsdiqlənirdi. IV maddədə sərhədlər müəyyənləşdirilir. V maddədə İran IV maddənin müəyyən etdiyi sərhəd xətti ilə Qafqaz sıra dağları və Xəzər dənizi arasında yerləşən bütün torpaqların Rusiyaya məxsus olduğunu tanıyırdı. VI maddədə təzminatın miqdarı müəyyən edilir. VII

maddədə Abbas Mirzənin vəliəhd kimi tanınması rəsmən etiraf olunur, VIII maddədə isə Gülüstan müqaviləsinin V maddəsi təsdiq edilir, yəni Xəzər dənizində hərbi donanma saxlamaq hüququ yalnız Rusiyaya məxsus olurdu. IX maddədə İranda Rusiyanın daimi diplomatik missiyasının təsis edilməsi nəzərdə tutulur, X maddədə konsulluqların açılması və bu məsələlərdən bəhs edilirdi. XI maddədə qarşılıqlı surətdə təbəələrin bütün tələbləri və müharibə ilə dayandırılmış işlərin bərpası tənzimlənirdi.

Müqavilənin XII, XIV, XV maddələri ilə əhalinin hərəkəti, ermənilərin köçürülməsi və b. məsələlər həll edilirdi. A.S.Qriboyedov Türkmənçay müqaviləsinin ayrı-ayrı maddələrinin irəli sürülməsində mühüm rol oynamış və tarixi ədəbiyyatda XII, XIV, XV maddələrin müəllifi A.S. Qriboyedov hesab edilir. Türkmənçay müqaviləsinin XV maddəsinə əsasən İranda yaşayan erməni əhalisinin Cənubi Qafqaza köçürülməsi diplomatiya dilində xatırladılsa da, məhz "İran ermənilərı"nin köçürülməsi nəzərdə tutulurdu. Bunu tarixi mənbələr də təsdiq edir (bax: Грибоедов А.С. Записка о переселении армян из Персии в наши области. - Сочинение в двух томах, т.2. Москва, 1971, с. 339-341; История Азербайджана по документам и публикациям. Баку, 1990, с. 56-59.)

Beləliklə, Türkmənçay müqaviləsi ilə 1826-1828-ci illər Rusiya-İran müharibəsinə son qoyuldu. Bununla yanaşı, bu müqavilə ilə Azərbaycan torpaqlarının bölüşdürülməsi başa çatdırıldı (bax: Mahmudov Y, Şükürov K. Azərbaycan: beynəlxalq münasibətlər və diplomatiya tarixi. 1639-1828. Dörd cilddə. Birinci cild. Bakı, 2009, s. 490-492).

Əlavə I.24

Ermənilərin İrandan Azərbaycan torpaqlarına (Naxçıvan, İrəvan, Qarabağ) köçürülməsi (Rus rəssamı V. Maşkovun çəkdiyi şəkil).1828-ci il.

Əlavə I.25

ŞİMALİ AZƏRBAYCANIN İNZİBATİ-ƏRAZİ BÖLGÜSÜ
(XIX əsrin II yarısı- XX əsrin əvvəlləri)

Şimali Azərbaycanın inzibati-ərazi bölgüsündə ən ciddi dəyişiklik 1868-ci ilin fevral ayında mərkəzi Gəncə (Yelizavetpol) olmaqla Yelizavetpol quberniyasının yaradılması oldu. Bakı quberniyasından Şuşa və Nuxa qəzaları, Tiflis quberniyasından Qazax və Yelizavetpol qəzaları, İrəvan quberniyasından, ləğv edilmiş Ordubad qəzasının bir hissəsi ona verildi. Ordubad qəzasının digər hissəsi Naxçıvan qəzasının tərkibində İrəvan quberniyası tərkibinə verildi. 1870-ci ildə İrəvan quberniyasının tərkibində əhalisinin çox böyük əksəriyyəti azərbaycanlılardan ibarət olan Şərur-Dərələyəz qəzası təşkil edildi.

1868-ci ildə Bakı quberniyasının tərkibində iki yeni qəza - Cavad və Göyçay qəzaları, Yelizavetpol quberniyasının tərkibində isə Qazax və Zəngəzur qəzaları yaradıldı. 1874-cü ildə Nuxa qəzasının cənub hissəsi hesabına Ərəş qəzası yaradıldı. 1883-cü il iyulun 1-də Şimali Azərbaycanda daha iki yeni qəza-Cəbrayıl və Cavanşir qəzaları təşkil edildi.

Beləliklə, XIX əsrin sonu—XX əsrin əvvəllərində bölgüsü başa çatmış Şimali Azərbaycan torpağları Rusiya imperiyasının tərkibində yeni inzibati-ərazi oldu. Qədim Azərbaycan şəhəri, çox mühüm hərbi-strateji məntəqə olan Dərbənd Azərbaycanın tərkibindən çıxarıldı. Bütün bu islahatlarda məqsəd Azərbaycanın qədim və ənənəvi ərazi bütövlüyünü, dövlətçilik ənənələrini məhv etmək idi.

Azərbaycan bir millət olaraq iqtisadi mənafe-birliyi əsasında, vahid dili, dini, ərazisi, mədəniyyəti, psixologiyası və özünü dərketməsi nəticəsində formalaşardı.

Elm və mədəniyyətin ayrı-ayrı sahələrində də inkişaf gedirdi. Milli teatr yaradıldı, qəzetlər çap olunmağa başladı.

Əlavə I.26

YELİZAVETPOL QUBERNİYASI (XIX əsrin II yarısı - XX əsrin əvvəlləri)

Yelizavetpol quberniyası inzibati-ərazi vahidi kimi çar hökumətinin 09 dekabr 1867-ci il tarixli fərmanına əsasən yaradılmış və 1918-ci ilədək mövcud olmuşdur. Mərkəzi Yelizavetpol (Gəncə) şəhəri olan quberniyanın tərkibinə Yelizavetpol, Ərəş, Nuxa, Qazax, Cavanşir, Qaryagin (1905-ci ilədək Cəbrayıl), Zəngəzur və Şuşa qəzaları daxil idi. Sahəsi 38 982 km², əhalisi 1897-ci il siyahıyaalınmasına görə 879 min nəfərə yaxın, 1916-cı ildə isə 1 275 131 nəfər olmuşdur. XIX əsrin sonlarında Quberniya əhalisinin 63%-ni Azərbaycan türkləri, 30%-ni ermənilər təşkil edirdilər. Əhalinin əsas məşğuliyyəti taxılçılıq, ipəkçilik, pambıqçılıq, üzümçülük, heyvandarlıq və s. olmuşdur. Ərazi dəmir, mis, kobalt, gümüş filizləri ilə zəngin idi. Burada olan 67 sənaye müəssisəsindən ən irilləri hər birinin minden artıq işçisi olan Gədəbəy və Qalakənd misemitə zavodları idi. Quberniyada 13 xəstəxana, 14 tibb məntəqəsi, 17 aptek, müəllimlər seminariyası (Qazax), gimnaziyalar, sənət məktəbi və orta təhsil müəssisəsi fəaliyyət göstərirdi.

Quberniyanı Yelizavetpol hərbi qubernatoru (1872-ci ilin martından isə Yelizavetpol qubernatoru) idarə edirdi, inzibati polis aparatı və hökumət idarələri onun tabeliyində idi.

Əlavə I.27

İRƏVAN QUBERNİYASI (XIX əsrin II yarısı- XX əsrin əvvəlləri)

1872-ci ildən etibarən 7 qəzadan (Yeni Bəyazid, Naxçıvan, Aleksandropol, İrəvan, Üçmüəzzin, Sürməli və Şərur-Dərələyəz) ibarət olmuş İrəvan quberniyası Qacarlar dövləti və Osmanlı imperiyasından rusların köçürdükləri ermənilərin ən sıx məskunlaşdırıldıqları Azərbaycan torpaqları olmuşdur. 1897-ci ildə türk-müsəlmanları quberniya əhalisinin 58%-ni, ermənilər 37%-ni, digər xalqlar isə (ruslar, yunanlar, yəhudilər və başqaları) 5%-ni təşkil edirdilər.

Quberniya inkişaf etmiş kənd təsərrüfatına, 3469 şəxsiyə müəssisəsinə, çoxsaylı sənətkarlıq emalatxanalarına, 2800 ticarət müəssisəsinə malik idi. İrəvan quberniyası həm qonşu quberniyalar, həm də Cənubi Azərbaycanla intensiv ticarət aparırdı. XIX əsrin əvvəllərində Azərbaycan elm və mədəniyyətin mühüm mərkəzlərindən olub, dünya mədəniyyətinə C.Məmmədquluzadə, B.Kəngərli və başqaları kimi dühalar vermiş İrəvan quberniyasında kişi və qadın gimnaziyaları müəllimlər institutu (İrəvan şəhərində),18 şəhər məktəbi, 81 kənd məktəbi fəaliyyət göstərirdi. Bu məktəblərdə 7000 nəfər təhsil alırdı

Qafqaz Hərbi Dairəsinin hərbi-topoqrafik söbəsi tərəfindən tərtib edilmiş xəritə. Tiflis, 1903-cü il.

Əlavə I.29

Qafqaz Hərbi Dairəsinin hərbi-topoqrafik söbəsi tərəfindən tərtib edilmiş xəritə. Tiflis, 1903-cü il.

Əlavə I.30

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ (1918-1920-ci illər)

Mübahisəli ərazilər — 28.V.1918 Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması

1918-ci il mayın 28-də Azərbaycan Milli Şurası Azərbaycanın müstəqilliyini elan etdi. Bununla bütün şərqdə və türk dünyasında ilk demokratik respublika yarandı. Azərbaycan Milli Şurası öz üzərinə icra və qanunvericilik səlahiyyətləri götürdü. M.Ə.Rəsulzadə Azərbaycan Milli Şurasının sədri seçildi.

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Sovetinin birinci sədri Fətəli xan Xoyski təyin edildi. Azərbaycan hökuməti səlahiyyətli dövlət strukturu yaratdı. Azərbaycan-türk dili dövlət dili elan edildi, dövlət bayrağı təsdiq edildi və yeni yaradılan azərbaycan ordusuna çağırışın elan edilməsi haqqında qərar qəbul olundu.

1918-ci il noyabrın 18-də Azərbaycan Milli Şurası özünü Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti elan etdi. Ə.M.Topçubəşov Parlamentin sədri seçildi.

Cümhuriyyətin ərazisi müəyyən edilərkən qarşıya böyük çətinliklər çıxdı. Ən ağır ərazi problemi Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sərhədlərin müəyyənləşdirilməsi idi. Azərbaycan torpaqları hesabına yaradılmış Ermənistan Respublikası Azərbaycanın Naxçıvan, Şərur - Dərələyəz qəzalarına və Dağlıq Qarabağa iddialar irəli sürdü. Eyni zamanda Azərbaycana məxsus olan Zəngəzur ərazisini də özünə birləşdirməyə çalışırdı Gürcüstan Respublikası Zaqatala dairəsinə iddialar qaldırırdı. Azərbaycan hökuməti öz qanuni torpağı olan Borçalı qəzasının Gürcüstan Respublikasının tərkibinə daxil olmasını qəbul etməkdən imtina edirdi. Azərbaycan həmçinin Cənubi Dağıstan (Təbəsəran) ərazisinə də haqlı iddia irəli sürürdü.

Əlavə I.31

AZƏRBAYCANLILARA QARŞI ERMƏNİLƏRİN TÖRƏTDİKLƏRİ SOYQIRIMLAR (1918-1920-ci illər)

Mübahisəli ərazilər

Kütləvi qətlə ən çox məruz qalan yerlər

Ən iri silahlı toqquşma yerləri

Erməni silahlı dəstələri tərəfindən qətlə yetirilmişdir və dağıdılmışdır	1918-1920
Erməni ordusu tərəfindən qətlə yetirilən azərbaycanlılar	700 000 nəfər
Deportasiya edilənlər	750 000 nəfər
Dağıdılmış məktəblər	263
Tibb müəssisələri	154
Məscidlər və memarlıq abidələri	126
Qəbiristanlıq	380
Talan edilən və dağıdılan Azərbaycan kəndləri	≈ 1 500

1918-ci il iyulun 15-də Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Naziri Məhəmməd Həsən Hacınski hökumətə müraciət edərək erməni silahlı dəstələrinin dinc Azərbaycan əhalisinə qarşı törətdiyi soyqırımı və onun əmlakının talan olunması ilə bağlı həyata keçirdiyi dəhşətli vəhşilikləri araşdıran Fövqəladə Təhqiqat Komissiyasının yaradılmasının vacib olduğunu bildirir (bax: ARDA, f.1061, siy.1, iş 105, v.1).

1918-ci il avqustun 31-də Cümhuriyyət hökumətinin qərarı ilə Fövqəladə Təhqiqat Komissiyası yaradıldı (bax: ARDA, f.1061, siy.1, iş 105, v.2).

Həm FTK-in, həm də o dövrün mətbuatının topladığı materiallara əsasən: 1918-1920-ci illərdə erməni silahlı dəstələri tərəfindən Bakıda 12 min nəfərdən çox, Şamaxıda 8 min nəfərdən çox, Qubada 16 min nəfər, Cənubi Azərbaycanda (Urmiya, Xoy, Salmas, Maku, Şərəfxana, Təbriz və başqa yerlərdə) 130 min nəfərdən çox, Qərbi Azərbaycanda (indiki Ermənistan Respublikası) 400 min nəfərdən çox azərbaycanlı qəddarlıqla qətlə yetirilmişdir.

Ermənilərin təcavüzü nəticəsində 263 məktəb, 154 tibb müəssisəsi, 126 məscid, 380 qəbiristanlıq, ümumilikdə isə təxminən 1500 azərbaycan kəndi talan edilərək, dağıdılmışdır.

Əlavə I.32



Əlavə I.33

AZƏRBAYCANA QARŞI XARİCİ-HƏRBİ MÜDAXİLƏ. AZƏRBAYCAN SSR-in YARADILMASI

1918-1919 — Qırmızı ordunun hücumu

1918 — İngilis qoşunlarının hücumu

1918-1919 — Türk qoşunlarının kilaskarlıq yürüşü

1920 — Rusiyanın Volqa-Xəzər donanması gəmilərinin hərəkəti

1920 — IX Qırmızı ordu hissələrinin hücumu (27-28 aprel 1920-ci il)

Türk qoşunları tərəfindən azad olunmuş şəhərlər

28.IV.1920 — Azərbaycan Sovet Sosialist Respublikasının yaradılması

Sovet işğalına qarşı müqavimət hərəkatı

Mübahisəli ərazilər

Azərbaycan Xalq Cümhuriyyəti yarandığı günden rus, ingilis, erməni-daşnak silahlı qüvvələrinin hücumuna məruz qaldı. Müdaxiləçilərin hər biri ayrı-ayrılıqda öz mənafeyi uğrunda müharibə aparırdı.

Qırmızı ordu və S.Şaumyanın başçılığı altında olan qoşunlar Azərbaycanın Rusiyaya birləşdirilməsi planının yerinə yetirilməsi məqsədilə Gəncəyə doğru hərəkət edirdilər. Gəncə bu zaman müstəqil Azərbaycan hökumətinin paytaxtı idi. Xilaskar Türk ordusu Qırmızı orduya qarşı vuruşur, bolşevikləra zərbələr endirirdi.

İngilis ordusu Cənubi Azərbaycan ərazisindən Şimali Azərbaycana keçməyə və Bakını zəbt etməyə cəhd edirdi. Şəhər əvvəlcə türk ordusu tərəfindən azad olunmuş, sonra ingilislər tərəfindən işğal edilmişdir.

Nəticədə işğalçı rus ordusunun döyüş əməliyyatları və təzyiqi nəticəsində Azərbaycanın milli hökuməti istefa verdi.

1920-ci il aprelin 28-də Azərbaycanın şimalında sovet hakimiyyəti elan olundu Xalqa divan tutuldu.

Şimali Azərbaycanda sovet hakimiyyəti 1991-ci iladək davam etdi. 1991-ci il oktyebrin 18-də Azərbaycanın müstəqilliyi yenidən bərpa olundu.

Əlavə I.34

AZƏRBAYCAN SSR (1920-1922-ci illər)

Ermənistan Respublikasına və Gürcüstan Respublikasına verilmiş Azərbaycan torpaqları

1920-ci il aprelin 28-də Şimali Azərbaycanda Sovet hakimiyyəti qurulduqdən sonra Azərbaycan Xalq Cümhuriyyətinə məxsus olan 11 389 597 kv. km ərazi sahəsinin neinki mübahisəli sayılan 16 598 kv.km-i, həm də mübahisəsiz olan 97 298 kv. km ərazisinin bir hissəsi qonşu respublikalara, xüsusilə Ermənistan Respublikasına verilmişdir.

1920-ci il mayında quberniya sistemi ləğv olunmuş, qəza bölgüləri isə saxlanılmışdır.

1920-ci il iyulun 28-də XI Qırmızı ordu hissələri Naxçıvana daxil oldu. Naxçıvan Sovet Sosialist Respublikası elan edildi. Respublikanın ali orqanı İnqilab Komitəsi yaradıldı. Naxçıvan SSR Şərur, Naxçıvan, Ordubad qəzalarını əhatə edirdi.

1920-ci il dekabrın 2-də RSFSR və Sovet Ermənistanı arasında imzalanan hərbi-siyasi sazişin III maddəsində Rusiya Sovet hökuməti İrəvan qubernıyasının Zəngəzur qəzasını Ermənistan SSR ərazisinin tərkibinə daxil olmasını mübahisəsiz tanıyır. Zəngəzur 1921-ci ilin iyununadək erməni-daşnak silahlı qüvvələrinin hakimiyyətində qalırdı. 1921-ci ilin iyununda Əlahiddə Qafqaz ordusu hissələrinin Zəngəzuru daşnak qüvvələrindən təmizlənməsi ilə Zəngəzurun qərb və yuxarı hissəsinin Ermənistan SSR-ə birləşdirilməsi başa çatdırıldı. 1921-ci il iyunun 20-də Ermənistan SSR XKS tərəfindən təsdiq olunmuş 8 qəzaya 9-cu Zəngəzur qəzası əlavə olundu.

Beləliklə Azərbaycan SSR-in göstərilən ərazilərı onunla razılaşdırılmadan Sovet Rusiyası tərəfindən Ermənistan SSR-ə verildi.

Azərbaycan SSR XTK-nin 25 oktyabr tarixli arayışına görə keçmiş Zəngəzur qəzasından 405 000 desyatin (4 424,6 kv.km), Qəzax qəzasından 379 984 desyatin (4 151,3 kv.km) ərazi Ermənistan SSR-ə verilmişdir.

1921-1922-ci illərdə Azərbaycan SSR-in inzibati bölgüsünə 15 qəza, Naxçıvan SSR-ə isə 3 qəza daxil idi.

Əlavə I.35

AZƏRBAYCAN SSR (1923-1929-cu illər)

Ermənistan Respublikasına və Gürcüstan Respublikasına verilmiş Azərbaycan torpaqları

Azərbaycan SSR MİK-nin 7 iyul 1923-cü il dekreti ilə mərkəzi Xankəndi olmaqla Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldı 4,161 kv.km sahəsi olan vilayətin "Əsasname"sinə görə Şuşa şəhəri və Xankəndindən 115 kənd, Cavanşir qəzasından 52 kənd, Qaryagin qəzasından 32 kənd, Qubadlı qəzasından Qaladərəsi kəndi DQMV-ə verildi.

Azərbaycan SSR tərkibində DQMV-nin yaradılması Azərbaycan xalqının iradəsi əleyhinə, onun ərazi bütövlüyünə qarşı qeyri-qanuni zorakılıq aktı idi. Sovet İttifaqında öz milli dövlət qurumu olan ermənilərə başqa bir dövlətin tərkibində əlavə inzibati-idarəçilik qurumunun yaradılması, alternativi olmayan məkrli bir tədbir idi.

DQMV-nin yaranması Azərbaycan SSR-in inzibati-ərazi bölgüsündə ciddi dəyişikliyə səbəb oldu. Şuşa, Qubadlı, Cavanşir qəzaları ləğv olundu 1923-cü il avqustun 6-da Azərbaycan SSR MİK-nin qərarı ilə Qarabağın qalan hissəsində Ağdam, Cəbrayıl, Kürdüstan qəzaları yaradıldı. Eləcə də Ağdaş, Cavad, Qaryagin digər qəzalarla birləşdirildi, yeni Salyan qəzası yarandı.

Azərbaycan SSR MİK-nin 9 fevral 1924-cü il tarixli dekreti ilə Naxçıvan Muxtar Diyarı, Naxçıvan MSSR-ə çevrildi. 1924-cü ildə yaradılan 3 qəza (Şərur,Naxçıvan, Ordubad) 1925-ci ildə ləğv edildi. Əvvəllər yaradılmış 12 dairənin sayı 8-ə (Baş Norashen, Qıvraq, Tumbul, Əbrəqunis, Nərimanov, Culfa, Parağa və Ordubad) endirildi.

Beləliklə, inzibati-ərazi bölgüsündə aparılan dəyişikliklər nəticəsində 85968 kv.km ərazisi olan Azərbaycan SSR-in tərkibində bir Respublika (Naxçıvan SSR-ərazisi 5 988 kv.km), Bir Muxtar Vilayət (DQMV - ərazisi 4,161 kv.km.) və 13 qəza (Ağdam, Bakı, Gəncə, Göyçay, Cəbrayıl, Zaqatala, Qazax, Quba, Laçın, Lənkəran, Nuxa, Salyan, Şamaxi) yarandı.

18 fevral 1929-cu ildə Moskva və Qars müqavilələrinin şərtləri kobud şəkildə pozularaq Zaqafqaziya MİK-nin qərarı ilə Naxçıvan MSSR-in 9 kəndindən ibarət 657 kv. km ərazisi (Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvan qəzası Şahbuz nahiyəsinin Oğbin, Ağxaç, Almalı, Sultanbey, İtqıran kəndləri, Ordubad qəzasının Karçevan kəndi, Kilid kənd torpaqlarının bir hissəsi) Ermənistan SSR-ə verildi.

Azərbaycan SSR-də yeni inzibati-ərazi bölgüsü haqqında məsələ VI Ümumazərbaycan Sovetlər qurultayında (1-9 aprel 1929-cu il) xüsusi bir məsələ kimi müzakirə edildi. Qurultay Naxçıvan MSSR və DQMV-nin sərhəd və hüquqlarını pozmadan, respublikanın daire və kənd sovetləri inzibati-ərazi bölgüsünün həyata keçirilməsini qərara aldı.

Əlavə I.36

AZƏRBAYCAN SSR (1930-1991-ci illər)

İnzibati-ərazi bölgüsü 1991-ci il noyabr ayının 1-nə əsasən verilib

1930-cu ildə Azərbaycan SSR-də10 dairə—Bakı, Gəncə, Zaqatala, Qarabağ(mərkəzi Ağdam),Quba, Kürdüstan (mərkəzi Laçın), Lənkəran, Muğan (mərkəzi Salyan), Nuxa, Şirvan (mərkəzi Göyçay) mövcud idi. SSRİ MİK XKS-nin qərarına müvafiq olaraq, 1930-cu il avqustun 8-də Azərbaycan SSR MİK və XKS "Dairələri ləğv etmək haqqında" qərar qəbul etdi. Respublikada (Naxçıvan MSSR və DQMV-dəki rayonlar də daxil olmaqla) 63 rayon təşkil edildi.

1931-ci il iyunun 26-da Azərbaycan SSR MİK Rəyasət Heyəti "Rayonların möhkəmləndirilməsi haqqında" qərar qəbul etdi. Yeni rayonlaşma nəticəsində bir sıra rayonlar birləşdirildi. Rayonların sayı 63-dən 52-yə endi.

Bakı istisna olmaqla, rayonlar 4 qrupa:pambıqçılıq, tərlançılıq, maldarlıq, bağ-bostançılıq rayonlarına bölündü. Rayonlar 1937 və 1978-ci illərdə qəbul olunmuş Azərbaycan SSR Konstitusiyalarında təsbit olundu.

Beləliklə, nəticə etibarilə Azərbaycan SSR ittifaq miqyasında yüksək göstəricilər əldə edərək ön cərgələrdə gedirdi.

Neft sənayesi Azərbaycanın ən qədim sənaye sahəsidir. Ona görə də Azərbaycanı "Neft Akademiyası" adlandırırlar. Bununla əlaqədar neft-maşın avadanlığı istehsal edən Səttarxan zavodu, Keşlə maşınqayırma zavodu fəaliyyət göstərir.

Azərbaycanda ilk kimya zavodu 1879-cu ildə Bakıda tikilmişdir.

1952-ci ildən Sumqayıt boru-prokat zavodu fəaliyyət göstərir. Sumqayıt dünyada tanınan məşhur kimya sənaye şəhəridir. Buradakı zavodlar sənayenin inkişafında mühüm rol oynayır.

1954-cü ildə Daşkəsəndə filiz saflaşdırma zavodu işə başlamışdır.

1955-ci ildə 360 min kvt.gücündə Mingəçevir SES istifadəyə verilmişdir. Enerji sənayenin inkişafında mühüm rol oynayır. Mədəni inkişafda yeni mərhələyə qədəm qoyan Azərbaycan, elm və təhsil sahəsində böyük nailiyyətlərə malik olmuşdur.

1976-1986-cı illərdə ilk dəfə olaraq milli dildə Azərbaycanın ensiklopediyası nəşr olunmuşdur.

1990-cı il mayın 18-də Ağstafa, Qobustan, Xızı, Hacıqabul, avqustun 26-da Naxçıvan MSSR-də Sədərək rayonu yaradıldı.

Azərbaycan SSR Ali Sovetinin 26 avqust 1990-cı il fərmanı ilə Naxçıvan MSSR-də 6-cı Sədərək rayonu yaradılmışdır. 17 noyabr 1990-cı il Naxçıvan MSSR Ali Sovetinin 1-ci sessiyasının qərarı ilə "Sovet", "Sosialist" sözləri çıxarılaraq Naxçıvan Muxtar Respublikası adlandırılmışdır.

1991-ci il 18 oktyabrda müstəqillik əldə edən Azərbaycan Respublikası, öz müstəqilliyini yenidən bərpa etdiyini bəyan etdi.

1991-ci il 26 noyabrda Azərbaycan Respublikası Qanununa əsasən Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ Muxtar Vilayəti ləğv edilmişdir.

Əlavə I.37



Əlavə I.38

Erməni terror təşkilatları haqqında qısa məlumat

Elmi araşdırmalar beynəlxalq terrorizmin tərkib hissəsi olan erməni terrorunun tarixinin 100 ildən çox olduğunu göstərir. Erməni millətçiləri XIX əsrin sonunda – 1885-ci ildə Marseldə "Armenakan", 1887-ci ildə Cenevrədə "Hınçaq", 1890-cı ildə isə Tiflisdə "Daşnaksütyun" partiyalarını yaratdılar. Bundan sonra ermənilərin "Böyük Ermənistan" yaratmaq iddiaları yeni mərhələyə qədəm qoydu. Erməni terror təşkilatları bu planı həyata keçirmək üçün siyasi terror aksiyalarından geniş istifadə edilməsini proqram sənədlərində başlıca vasitə kimi nəzərdə tutmuşlar.

1885-ci ildə *- Marseldə yaradılan və erməni terror təşkilatlarının birincilərindən olan* ***"Armenakan"*** *partiyası İran və çar Rusiyasında yaşayan ermənilərlə geniş əməkdaşlıq edərək Türkiyənin Van, Muş, Bitlis, Trabzon bölgələrində, eləcə də İstanbulda silahlı toqquşmalar və terror aktları törətmişdir.*

1887-ci ildə *- Cenevrədə yaradılan* ***"Hnçaq"*** *partiyasının isə əsas məqsədi Türkiyənin Anadolu bölgəsini, "Rus" və "İran" Ermənistanı adlandırdıqları əraziləri birləşdirməklə "Böyük Ermənistan" dövləti yaratmaq olmuşdur. Partiyanın proqramının 4-cü bəndində göstərilirdi ki, "qarşıya qoyulmuş məqsədə çatmaq üçün təbliğat, təşviqat, terrorizm və dağıdıcı təşkilat yaradılması metodu seçilməlidir".*

1890-cı ildə *- Tiflisdə yaradılan və erməni millətçilərinin ən aparıcı təşkilatı hesab edilən* ***"Daşnaksütyun"*** *– erməni federativ inqilab partiyasının əsas qayəsi Azərbaycanın Qarabağ, Naxçıvan və Türkiyənin Anadolu torpaqlarında "Böyük Ermənistan" dövləti qurmaqdır. 1892-ci ildə Tiflisdə ilk qurultayını keçirən "Daşnaksütyun" türklərə qarşı sui-qəsdlərin təşkil olunması barədə qərar çıxarmışdır. Məhz bu qurultaydan sonra "Daşnaksütyun" partiyası "türkü, kürdü hər yerdə, hər bir şəraitdə öldür, sözündən dönənləri, erməni xainlərini öldür, intiqam al!" əmrini vermişdir.*

***

XX əsrdə "Daşnaksütyun" partiyası tərəfindən yaradılan bir sıra terror qrupları mövcuddur ki, bu erməni terror təşkilatlarının fəaliyyəti keçən əsrin 70-80-ci illərində daha da genişlənmişdir:

***1972-ci ildə** - ASALA-nın yaradılmasından əvvəl, Vyanada "Daşnaksütyun" partiyasının qurultayı zamanı yaradılmış **"Erməni soyqırımı ədalət komandosları"**nın məqsədi erməni əsilli gənc Livan vətəndaşlarını hərbi birləşmələrdə cəmləşdirmək, türklər və azərbaycanlılara qarşı qanlı terror aksiyaları təşkil etmək olmuşdur.*

***1973-cü ildə** - yaradılan **"Erməni "soyqırımının" intiqamçıları"** qrupu 1980-82-ci illər ərzində Avstriya, Danimarka və Portuqaliyada türk diplomatlarını qətlə yetirmiş, eləcə də daşnakların məxfi terror qrupu **DRO və onun DRO-8, DRO-88, DRO-888, DRO-8888** kimi bölmələrinin hal-hazırda bu istiqamətdə geniş fəaliyyəti davam edir.*

***1975-ci ildə** - Livanda yaradılan **"Ermənistanın azadlığı uğrunda gizli erməni ordusu" (ASALA)** adlı təşkilatın üzvləri həmin dövrdən başlayaraq Türkiyədə və Avropa ölkələrində bir sıra terror aktları törətmişlər ki, nəticədə günahsız insanlar erməni terrorizminin qurbanı olmuşlar. Qərargahı Beyrutda, təlim-məşq bazaları isə Suriyada yerləşən ASALA terror təşkilatının məqsədi Türkiyənin Şərqi Anadolu bölgəsi, Şimali İran və Azərbaycanın Naxçıvan və Dağlıq Qarabağ əraziləri üzərində "Böyük Ermənistan" qurmaqdır. Yarandığı vaxtdan təşkilat əsasən Türkiyə və Azərbaycan vətəndaşlarına qarşı terror aktları həyata keçirir.*

*ASALA-nın **"Əbu Nidal", "Qara sentyabr"** kimi terror qrupları ilə əməkdaşlıq etməsində əsas fiqurlardan biri təşkilatın lideri Akop Akopyan olmuşdur. Afinada 1980-ci ildə qətlə yetirilmiş türk səfirinin ölümünə görə məsuliyyəti öz üzərinə götürmüş A.Akopyan "Nyu-York Taymz" qəzetinə verdiyi müsahibədə bildirmişdir: "Bizim düşmənimiz türk rejimi, NATO və bizlə əməkdaşlıq etməyən ermənilərdir". Bununla yanaşı, 1980-ci ilin aprelində Livanda ASALA birgə terror aksiyalarının keçirilməsinə dair PKK ilə razılığa gəlmiş və bu niyyətlərini rəsmiləşdirmişlər. Beyrut şəhərində 1993-cü il avqustun 28-də açıqlanan bəyanatında ASALA "pantürkist neft borusu" (Bakı-Tbilisi-Ceyhan nəzərdə tutulur) adlandırdığı layihənin həyata keçirilməsinə imkan verməyəcəyini bildirmişdir.*

***1979-cu ildə** - yaradılan və ASALA-nın tərkib hissəsi sayılan **"Erməni azadlıq cəbhəsi"** də eyni zamanda, Türkiyə və Azərbaycan əleyhinə terrorçular hazırlayır.*

***

***1980-ci illərin ikinci yarısı - 1990-cı illərdə** ASALA ilə yanaşı, uzun illərdir Qərbdə və bir sıra Şərq ölkələrində kök salmış erməni terror təşkilatları müxtəlif vaxtlarda bir sıra terror aktları həyata keçirmişdir:*

***1981-ci ildə** - Fransada yaşayan erməni gəncləri tərəfindən yaradılmış **"Orli qrupu"** 1987-ci ilədək dünyanın müxtəlif hava limanlarında 10-dan artıq terror aktı həyata keçirmişdir. Avropanın bir çox ölkəsində fəaliyyət göstərən **"İsveçrə qrupu"** Fransa, İtaliya və Yunanıstanda keçirilmiş 4 terror aktının məsuliyyətini öz üzərinə götürmüşdür.*

***1981-ci ildə** - Parisdə yaradılmış **"İntiharçılar eskadronu"** həmin ildə Türkiyənin Fransadakı baş konsulluğunun zəbt edilməsində iştirak etmiş, nəticədə qrupun 4 nümayəndəsi, həmçinin keçmiş rəhbəri Yan Kaşkayan həbs edilmişdir.*

***1987-ci il** - Xankəndi, Azərbaycan. Erməni lobbisinin maliyyə dəstəyi və iştirakı ilə "Dağlıq Qarabağın İnqilabi İdarə Komitəsi" – "KRUNK" ("Комитет Революционного Управления Нагорного Карабаха" sözlərinin baş hərfləri nəzərdə tutulur) yaradılmışdır. "KRUNK"-un sıralarında Yaxın Şərqdən olan xarici muzdlular da döyüşürlər. Təşkilatın ideoloji işlərinə Ermənistanın sabiq prezidenti Robert Koçaryan rəhbərlik edirdi. Hazırda təşkilat dünyanın müxtəlif ölkələrində Dağlıq Qarabağ münaqişəsinin tarixi və qondarma "erməni soyqırımı"na aid materialların yayılması ilə məşğul olan "Erməni mədəniyyət mərkəzi" kimi fəaliyyət göstərir.*

***1988-ci ildə** - Moskvada yaradılmış **"Erməni birliyi"**nin ASALA ilə sıx əlaqələri olmuş və keçmiş sovet məkanında ASALA terror təşkilatı üzvlərinin fəaliyyəti üçün onları saxta sənədlər və pulla təmin etmiş, eləcə də Qarabağa silah və muzdluların ötürülməsində iştirak etmişdir.*

***1990-cı ildə** - Fransada yaradılmış **"Gənc ermənilər ittifaqı"** diplomatların oğurlanması ilə məşğul olmuşdur.*

***1991-ci ildə** - İsveçrədə yaradılmış **"9 iyun qrupu"**nun əsas məqsədi həbsdə olan erməni terrorçularının azad edilməsinə çalışmaq olmuşdur.*

***1991-ci ildə** - Fransada yaradılmış və ASALA ilə sıx əlaqədə fəaliyyət göstərən **"Erməni azadlıq hərəkatı" (AOD)** Avropanın bir sıra ölkələrində çoxsaylı insan tələfatına səbəb olan terror aksiyaları həyata keçirmişdir.*

***1991-ci il** - "Azadlıq pələngləri" ("Freedom Tigers") təşkilatı yaradılmışdır. Təşkilatın üzvləri Qarabağda gedən döyüşlərdə iştirak etmiş, dinc əhaliyə qarşı cinayətlər törətmişlər.*

1997-ci il *- Paris, Fransa. "Erməni Müqavimət Təşkilatı" ("Armenian Resistance Organization") təsis olunmuşdur. Təşkilat öz fəaliyyətində sosialist ideologiyasını rəhbər tutmuşdur.*

2001-ci ilin fevralında *- ASALA tərəfindən yaradılmış* ***"Geqaron"*** *terror təşkilatının məqsədi Cənubi Qafqaz və Orta Asiya ərazilərində türk mənşəli siyasi lider, diplomatlara qarşı terror aktlarının keçirilməsidir.*

2001-ci il aprel ayının 29-da *- əsasən Ermənistan, Suriya və Livan vətəndaşlarından ibarət olan Ermənistan Müdafiə Birliyi tərəfindən yaradılmış* ***"Apostol"*** *təşkilatının məqsədi Türkiyə və Azərbaycan ərazilərində terror aktların həyata keçirilməsidir.*

ABŞ, Kanada və Qərbi Avropada fəaliyyət göstərən ***"Demokratik cəbhə"*** *qrupunun başlıca məqsədi Türkiyə dövlətinin parçalanmasıdır. Avropanın bir çox ölkəsində fəaliyyət göstərən* ***"İsveçrə qrupu"*** *adlı təşkilat Fransa, İtaliya və Yunanıstanda keçirilmiş 4 terror aktının məsuliyyətini öz üzərinə götürmüşdür. Adı çəkilən erməni terror təşkilatları öz "missiyalarını" yerinə yetirdikdən sonra da qeyri-leqal şəraitdə fəaliyyətlərini davam etdirmişlər.*

***

Erməni terrorçularının törətdiyi cinayətlərin bir hissəsinin qısa xronikası

"Daşnaksütyun" partiyasının keçirdiyi terror aksiyası ***"Nemezis"*** *əməliyyatı adlanır. 1919-cu ilin oktyabrında "Daşnaksütyun" partiyası İrəvanda keçirdiyi IX qurultayda "Nemezis" intiqamçı terror hərəkatına başlamaq haqqında qərar vermişdir. Armen Qaronun rəhbərlik etdiyi "Nemezis"in siyahısına Türkiyənin və Azərbaycanın 650 nəfər dövlət xadiminin və ziyalısının adları salınmışdı. Ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən 3-5 nəfərlik terrorçu qrupların məqsədi adları siyahıda olan şəxsləri axtarıb taparaq qətlə yetirmək idi. Həmin dövrdə Türkiyə və Azərbaycanın dövlət xadimləri, ziyalıları "Daşnaksütyun" partiyasının "Nemezis" terror hərəkatının hədəfinə çevrilmişdilər.*

19 iyun 1920-ci il *- Azərbaycan Xalq Cümhuriyyətinin Xarici işlər naziri Fətəli xan Xoyski Tiflis şəhərində erməni terrorçusu Aram Yerkanyan tərəfindən qətlə yetirilmişdir.*

iyul, 1920-ci il *- Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin sədri Həsən bəy Ağayev Tiflis şəhərində ermənilər tərəfindən qətlə yetirilmişdir.*

1920-ci il *- Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri Nəsib bəy Yusifbəyli Tiflis şəhərində ermənilər tərəfindən qətlə yetirilmişdir.*

15 mart 1921-ci il *- Osmanlı imperiyasının Daxili işlər naziri Tələt paşa Berlində qətlə yetirilmişdir.*

19 iyul 1921-ci il *- Azərbaycan Xalq Cümhuriyyətinin Daxili işlər naziri Behbud xan Cavanşir Türkiyənin İstanbul şəhərində "Daşnaksütyun" partiyasının üzvü Misak Torlakyan tərəfindən qətlə yetirilmişdir.*

25 iyul 1922-ci il *- Osmanlı imperiyasının keçmiş hərbi dəniz qüvvələri naziri, Osmanlı ordusunun Suriyadakı 4-cü ordusunun baş komandanı Camal paşa və onun müavini erməni terrorçuları Tiflis şəhərində Petros Ter-Poqosyan və Artaşes Gevorkyan tərəfindən qətlə yetirilmişdir.*

4 avqust 1922-ci il *- Osmanlı imperiyasının Hərbi naziri Ənvər paşa Əfqanıstan yaxınlığında ermənilər tərəfindən qətlə yetirilmişdir.*

***

XX əsrin 70-80-ci illərində *dunyann muxtəlif ölkələrində, əsasən Türkiyə diplomatlarına qarsı erməni terror təskilatları tərəfindən 200-dək terror aktı törədilmişdir:*

5 sentyabr 1972-ci il *- Münhen, Almaniya. ASALA-nın banisi Akop Akopyanın təşkil etdiyi "Qara sentyabr" terror qruplaşması Münhendə keçirilən Olimpiya oyunlarında İsrail idmançılarını qətlə yetirmişdir. Akop Akopyan idmançıların öldürülməsinin fəal iştirakçısı olmuşdur.*

27 yanvar 1973-cü il *- Kaliforniya, ABŞ. Türkiyənin Los-Ancelesdəki baş konsulu Mehmet Baydar və bu şəhərdəki konsulu Bahadır Dəmir erməni terrorçu Qurgen Yanikyan tərəfindən qətlə yetirilmişlər.*

8 yanvar 1977-ci il *- Rusiya, Moskva. Metronun "İzmaylovskaya" və "Pervomayskaya" stansiyaları arasında qatar partladılmışdır.*

8 yanvar 1977-ci il *- Rusiya, Moskva. "25 Oktyabr" küçəsindəki mağazada partlayış törədilmişdir. Hər iki terror aktı nəticəsində 7 nəfər həlak olmuş, 37 nəfər xəsarət almışdır. İstintaq sübut etmişdir ki, terror aktlarını Stepan Zatikyan, Akop Atepanyan və Zaven Baqdasaryan törətmişlər. S.Zatikyan Azərbaycanın Dağlıq Qarabağ və Naxçıvan bölgələrinin Ermənistana birləşdirilməsi tələbini irəli sürən Ermənistan Milli Birlik Partiyasının üzvü olmuşdur.*

7 avqust 1982-ci il *- Türkiyə, Ankara. Esenboğa hava limanı. ASALA-nın terror basqını nəticəsində 9 nəfər həlak olmuş, 82 nəfər yaralanmışdır.*

16 iyun 1983-cü il *- Türkiyə, İstanbul. ASALA terror təşkilatının "Qapalı çarşı" adlanan bazarda törətdiyi partlayış nəticəsində 3 nəfər həlak olmuş, 21 nəfər yaralanmışdır.*

15 iyul 1983-cü il *- Fransa, Paris. Orli hava limanında "Türk Hava Yolları"nın kassası qarşısındakı partlayış nəticəsində 8 nəfər həlak olmuş, 60 nəfər yaralanmışdır.*

20 iyun 1984-cü il *- Vyana, Avstriya. Türkiyənin Avstriyadakı səfirliyinin sosial məsələlər üzrə müşaviri Ərdoğan Özənə məxsus avtomobil partladılmışdır. Hadisə nəticəsində Özən həlak olur və digər beş nəfər, eyni zamanda Avstriyanın iki polis əməkdaşı ağır yaralanır. Cinayətə görə EİO erməni terror qrupu məsuliyyəti öz üzərinə götürmüşdür.*

25 iyun 1984-cü il *– Paris, Fransa. Parisdə informasiya agentliyinə ASALA erməni terror təşkilatı tərəfindən imzalanmış məktubda Türkiyənin Los-Ancelesdə Olimpiya oyunlarında iştirakına hər hansı yolla kömək göstərən hökumət təşkilatlarına və şirkətlərinə qarşı terror aktı törətmək barədə hədə-qorxu ifadələri öz əksini tapmışdı.*

13 avqust 1984-cü il *- Lion, Fransa. Dəmir yolu vağzalında partlayış baş vermiş və ASALA məsuliyyəti öz üzərinə götürmüşdür.*

3 sentyabr 1984-cü il *- İstanbul, Türkiyə. Topqapı sarayının önündə saxlanılmış maşına bomba qoyarkən partlayıcı vaxtından əvvəl işə düşmüş və iki erməni terrorçusu ölmüşdür. EİO məsuliyyyəti öz üzərinə götürmüşdür.*

19 noyabr 1984-cü il *- Vyana, Avstriya. BMT-nin sosial və humanitar məsələlər mərkəzinin Vyanadakı şöbəsində işləyən və milliyyətçə türk olan Ənvər Ərgün avtomobili qırmızı işıqda saxlayarkən qətlə yetirilmişdir. Avtomobildən EİO erməni terror təşkilatına aid maddi sübutlar götürülmüşdür.*

29 dekabr 1984-cü il *- Beyrut, Livan. Şərqi Beyrutda iki fransız müəssisəsinin ofisləri partladılmış və ASALA məsuliyyəti üzərinə götürmüşdür.*

3 mart 1985-ci il *- Paris, Fransa. ASALA erməni terror təşkilatından telefonla dövlət qurumlarına zəng edilərək bütün dünyada Fransanın maraqlarına zərbə vurulacağı bildirilmişdir. Onlar "Orli" hava limanında törədilmiş aktda günahkar bilinərək həbs edilmiş üç erməni terrorçunun azadlığa buraxılmasını tələb etmişlər.*

12 mart 1985-ci il *- Ottava, Kanada. Üç erməni terrorçu Türkiyənin Kanadadakı səfirliyini atəşə tutmuşdur. Atışma zamanı "Pinkerton" federal təhlükəsizlik xidmətinin əməkdaşları öldürülmüşdür. Bununla yanaşı, terrorçular*

əsas qapını partladaraq səfirliyin binasına soxulmuş və girov götürmüşlər. Səfir Cosqun Kirsə özünü ikinci mərtəbənin pəncərəsindən ata bilmişdir. EİO-ya mənsub olan terrorçular polis tərəfindən yaxalanmış və məhkəməyə verilmişlər.

12 dekabr 1985-ci il *- Paris, Fransa. Ən iri supermarketlərdə iki bomba partladılmışdır. Nəticədə 41 adam xəsarət almış və bu hadisəyə görə ASALA məsuliyyəti üzərinə götürmüşdür.*

20 mart 1986-cı il *- Paris, Fransa. Ticarət mərkəzinin binasına qoyulmuş partlayıcı qurğu işə düşmüş, nəticədə 2 nəfər həlak olmuş, 30-a yaxın adam yaralanmışdır. Bu aktı "Orli" hadisəsində təqsirli bilinərək həbs edilmiş V.Qarabedyanın (Karapetyan da deyilir) azad olunmasını yenidən tələb edən KSAMEPP terror təşkilatı öz üzərinə götürmüşdür. KSAMEPP terror təşkilatının tərkibi ermənilərdən, ərəb əsilli vətəndaşlardan və ASALA üzvləri tərəfindən təşkil edilmişdir.*

9 sentyabr 1986-cı il *- Paris, Fransa. "Paris City Nall"ın binasında partlayış nəticəsində teleqraf xidmətinin işçisi həlak olmuş, 18 nəfər yaralanmışdır. KSAMEPP terror təşkilatı bu cinayətə görə məsuliyyəti öz üzərinə götürmüşdür.*

10-15 sentyabr 1986-cı il *- Paris, Fransa. Silsilə bomba partlayışları 2 nəfərin həlak olması və 100-dən artıq parislinin yaralanması ilə nəticələnmişdir. ASALA ilə birgə fəaliyyət göstərən KSAMEPP terror təşkilatı bu cinayətlərə görə məsuliyyəti öz üzərinə götürmüşdür.*

16 sentyabr 1986-cı il *- Paris, Fransa. Fransa paytaxtının Montrarnass məhəlləsində KSAMEPP terrorçuları tərəfindən qoyulmuş bombanın partlaması nəticəsində 5 fransız həlak olmuş və 52 nəfər yaralanmışdır. Bir neçə nəfər aldığı yaralardan xəstəxanada ölmüşdür. Yenə də cinayətkarlar V. Qarabedyanın azadlığa buraxılmasını tələb edirdilər.*

15 oktyabr 1986-cı il *- Beyrut, Livan. ASALA-nın nümayəndəsi Miqran Miqranyan başda olmaqla bu təşkilatın üç terrorçusu Livanın paytaxtında fransız jurnalistləri ilə görüşmüş və qətllərə, terror aktlarına görə həbs olunmuş həmkarları V.Qarabedyanın azad olunmayacağı təqdirdə Fransaya qarşı cinayətləri davam etdirəcəkləri barədə hədə-qorxu gəlirlər. M.Miqranyan ultimatum verərək demişdir: "... ASALA artıq bütün dünyada fransızları hərbi düşmənlər elan etmişdir. Siyasi məhbusları azad etmək barədə verdikləri vədə əməl etməsələr, biz Şiraka xəbərdarlıq edir, Miterana isə ölüm vəd edirik".*

23 noyabr 1986-cı il *- Melburn, Avstraliya. Türkiyə konsulluğunun yanında maşın partladılmışdır. Nəticədə, bir nəfər həlak olmuş, beşmərtəbəli binaya böyük ziyan dəymişdir. İstintaq nəticəsində iki erməni terrorçu - Xaqop Levonyan və Levon Dəmiryanın şəxsiyyəti müəyyənləşdirilmişdir. Partlayışa görə*

məsuliyyəti "Yunan-Bolqar-Erməni Cəbhəsi" (YBEC) öz üzərinə götürmüşdür. Erməni terror təşkilatı ilk dəfə idi ki, bu cür adla təqdim olunurdu.

19 noyabr 1987-ci il *- Brisben, Avstraliya. Poçt çeşidləmə şöbəsində bomba partlayışı nəticəsində Avstraliyanın altı vətəndaşı zərər çəkmişdir. Bu cinayətə görə məsuliyyəti "Yunan-Bolqar-Erməni Cəbhəsi" yenə öz üzərinə götürmüşdür.*

3 fevral 1993-cü il *- Riqa, Latviya. Erməni terrorçuları "Latviyas Layks" qəzetinin redaktoru, tanınmış jurnalist Tatyana Çaladzeyə sui-qəsd etmişlər. T.Çaladze 90-cı illərin əvvəllərində Rusiyada Latviya Xalq Cəbhəsi qəzetinin və "Azad Avropa" radiosunun xüsusi müxbiri işləmiş və erməni terror təşkilatlarının cinayətlərini ilk olaraq işıqlandıran jurnalistlərdən biri olmuşdur.*

28 fevral 1993-cü il *- Qudermes, Rusiya. Erməni terrorçuları Qudermes stansiyası yaxınlığında Kislovodsk-Bakı sərnişin qatarını partlatmış, nəticədə 11 nəfər həlak olmuş, 18 nəfər yaralanmışdır.*

11 dekabr 1993-cü il *- Bağdad, İraq. Terrorçu erməni silahlıları Türkiyə səfirliyinin attaşesi Çağdar Yücelini qətlə yetirirlər.*

4 iyun 1994-cü il *- Afina, Yunanıstan. Erməni terrorçuları tərəfindən Türkiyə səfirliyinin diplomatı Xaliq Sipahoğlu qətlə yetirildi.*

11 may 2001-ci il *- İsrail, Təl-Əvivdən onlarca kilometr şimalda İsrail hava hücumundan müdafiə qüvvələri Livanın "Sessna" təyyarəsini vurub salmışdır. Təyyarəni milliyyətcə erməni olan Stefan Ohanes Nikolyan adlı bir nəfər idarə edirdi. Terrorçu kamikadze Nikolyan İsrailin yaşayış məntəqələrindən birini məhv etməyə cəhd göstərsə də, məqsədi baş tutmamışdır.*

Dekabr 2001-ci il *- Los-Anceles, ABŞ. Erməni cinayətkar mafiyanın üzvləri Aşot Manukyan, Poqos Ketçejiyan, Ovanes İqarayan, Xovsep Keşişyan uzun müddətə azadlıqdan məhrum edilmişdir. Bir müddətdən sonra həmin cinayətkar dəstənin başqa bir üzvü Suzanna Onosyan da yaxalanmış və 45 il azadlıqdan məhrum edilmişdir.*

***

Ermənistan dövlətinin və erməni diasporasının maliyyə və təşkilati yardımı ilə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni terrorçu təşkilatlarının Azərbaycana qarşı həyata keçirdikləri terror aktları 1980-ci illərin ikinci yarısından başlayaraq ardıcıl xarakter almışdır. Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı 7 rayonun işğalı zamanı kütləvi vahimə yaratmaq, çoxlu insan tələfatına nail olmaq məqsədi ilə Ermənistanın xüsusi xidmət orqanları

hətta hərbi əməliyyatların getdiyi ərazilərdən xeyli uzaqda, dinc azərbaycanlı əhalisinin yaşadığı məntəqələrdə terror aktları təşkil etmiş, nəticədə minlərlə günahsız insan həlak olmuşdur. Kitabda xronoloji ardıcıllıqla müxtəlif erməni terror təşkilatları və terrorçularının azərbaycanlılara qarşı həyata kerçirdikləri çoxsaylı terror aktları haqqında ətraflı bəhs edilmişdir.

Minlərlə insanın tələfatı ilə nəticələnən bu terror aktlarından sonra müxtəlif bəhanələrlə azadlığa buraxılan bu məşhur terrorçular beynəlxalq terrorizmə qarşı mübarizə aparılan müasir dövrdə çox rahat şəraitdə yaşayır və Ermənistan Respublikası davamlı olaraq dövlət terrorizmi siyasəti yürüdərək onları himayə edir.

Monte Melkonyan *- Məşhur terrorçu, Suriya mənşəli ABŞ vətəndaşı, 1957-ci ildə Kaliforniya ştatında anadan olmuş, Qərbi Avropada "ASALA-mn inqilabi hərəkatı" adlı qruplaşmanın rəhbəri, uzun illər axtarışda olmuş, 1985-ci il noyabrın 28-də 6 il müddətinə həbs olunmuşdur. Lakin erməni lobbisi, eləcə də erməni terror təşkilatlarının təzyiqi nəticəsində Fransa həbsxanasından 1990-ci ildə vaxtından əvvəl azadlığa buraxılaraq Ermənistana gəlmiş və terror fəaliyyətini davam etdirmək üçün buradan Dağlıq Qarabağa göndərilərək dinc azərbaycanlılara qarşı həyata kecirilən terror əməliyyatlarının iştirakçısı olmuşdur. O, Avropada, xüsusilə Fransada neçə illər ərzində türk diplomatlarına, Türk Kültür Ocaqlarına qarşı həyata keçirilən terror aktlarına birbaşa başçılıq etmişdir. Beynəlxalq terrorçu M.Melkonyan Azərbaycanm Xocavənd rayonunun işğalı zamanı erməni terror dəstəsinin komandiri olmuşdur. O, xüsusilə 1992-ci ildə Xocavənd rayonunun Qaradağlı kəndində, Xocalıda azərbaycanlıların xüsusi qəddarlıqla qətlə yetirilməsinə başçılıq edənlərdən biri olmuşdur.1993-cü il iyunun 12-də Dağlıq Qarabağda öldürülən "Avo" ləqəbli bu beynəlxalq terrorçunun Yerevanda keçirilən dəfn mərasimində rəsmi şəxslər, o cümlədən Ermənistan prezidenti də iştirak etmişdir. Ermənistanın milli qəhrəmanı elan olunmuş terrorçunun adı Müdafiə Nazirliyinin diversiya mərkəzlərindən birinə verilmiş, eləcə də onun Xankəndi və Yerevanda heykəli qoyulmuşdur.*

Varjuan Karapetyan *- ASALA terror təşkilatının Fransa bölməsinin başçısı. Orli hava limanında törətdiyi terror aktına görə ömürlük həbs cəzasına məhkum edilmiş, 2001-ci ilin aprelində Fransadan Ermənistana ekstradisiya olunmuş Fransa məhkəməsi tərəfindən azad olunmuşdur. Baxmayaraq ki, o, Ermənistan vətəndaşı da deyildi, ancaq Ermənistan prezidenti onu əfv etmişdir.*

Misak Torlakyan *- "Daşnaksütyun" partiyasının üzvü. Azərbaycan Xalq Cümhuriyyətinin Daxili işlər naziri Behbud xan Cavanşiri Türkiyənin İstanbul şəhərində qətlə yetirmiş, lakin həmin dövrdə İstanbul şəhərini nəzarətə götürmüş İngiltərə qoşunlarının hərbi məhkəməsi tərəfindən ruhi xəstə adı ilə cinayətkara bəraət verilmişdir.*

Soqomon Teyleryan *- Osmanlı imperiyasının Daxili işlər naziri Tələt paşanı Berlində qətlə yetirmiş bu cinayətkar həbs edilsə də, sonradan Berlin məhkəməsi tərəfindən ona bəraət verilmişdir.*

Akop Akopyan *- ASALA-nın lideri. Münhendə keçirilən Olimpiya oyunlarında İsrail idmançıların öldürülməsinin fəal iştirakçısı olmuşdur. Akop Akopyanın 1982-ci ildə həlak olması barədə verilmiş xəbərlər sonradan təkzib edilmiş, onun həm Dəməşqdə, həm də Afinada yaşadığı və burada ona hər cür şərait yaradıldığı bildirilmişdir.*

Qurgen Yanikyan *- Türkiyənin Los-Ancelesdəki Baş konsulu Mehmet Baydar və bu şəhərdəki konsulu Bahadır Dəmir bu erməni terrorçusu tərəfindən qətlə yetirilmişlər. Məhkəmənin ömürlük həbs cəzası haqqında qərarına baxmayaraq Qurgen Yanikyan "səhhətinə görə" bir müddətdən sonra azadlığa buraxılmışdır.*

Caan Oqanesyan *- Ermənistan Respublikası Milli Təhlükəsizlik Bas idarəsinin şöbə rəisi. Onun rəhbərliyi ilə 1992-1994-cü illərdə Rusiyadan Bakıya gələn sərnişin qatarlarında silsilə partlayışlar törədilmişdir. 1994-cü il mayın 13-də Rusiya xüsusi xidmət orqanları tərəfindən Moskvada həbs olunmuşdur.*

Aşot Qaloyan *- Ermənistan Respublikası Milli Təhlükəsizlik Baş İdarəsinin əməkdaşı "Moskva-Bakı" sərnişin qatarlarında partlayışların təşkilatçılarından biri olmuşdur. 1994-cü il mayın 13-də Rusiya xüsusi xidmət orqanları tərəfindən Moskvada həbs olunmuşdur.*

Boris Simonyan *- Rusiya Federal Əks-kəşfiyyat Xidmətinin terrorizmlə mübarizə idarəsinin baş əməliyyat müvəkkili. Ermənistan xüsusi xidmət orqanları tərəfindən məxfi əməkdaşlığa cəlb olunmuşdur. "Moskva-Bakı" sərnişin qatarlarında partlayışların təşkilatçılarından biridir. 1994-cü il mayın 13-də Rusiya xüsusi xidmət orqanları tərəfindən Moskvada həbs olunmuşdur.*

Əlavə I.39



Ermənilərin 1828-ci ildə İrandan Azərbaycan torpaqlarına köçürülmələrinin 150 illiyi münasibəti ilə qoyduqları abidə (Abidənin üzərində ermənicə "Marağa - 150" yazılmışdır). Ağdərə, 1978-ci il.

Əlavə I.40



Həmin abidənin ermənilərin köçürülməsi tarixini göstərən ("Marağa - 150") hissəsinin erməni millətçiləri tərəfindən söküldükdən sonrakı görünüşü. Ağdərə, 1988-ci il.

Əlavə II. Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın işğal olunmuş rayonları

Dağlıq Qarabağ (Yuxarı Qarabağ) bölgəsinin tarixi Azərbaycan kəndləri*

1918-ci ilə qədər Şuşa rayonunda mövcud olan Azərbaycan kəndləri

1. Turşsu
2. Daşaltı
3. Zarıslı
4. Malıbəyli
5. Aşağı Quşçular
6. Yuxarı Quşçular
7. Xəlfəli
8. Dükanlar
9. Zamanpəyəsi
10. Laçınlar
11. Qaybalı
12. Şülü
13. Mirzələr
14. Şırlan
15. Çaykənd
16. Məmişlər
17. Səfixanlar
18. Xanlıqpəyə
19. Allahqulular
20. Turabxan
21. Xanalı
22. İmamqulular
23. Cəmillər
24. Paşalar
25. Göytala
26. Qaladərəsi
27. Əsgər dərəsi

1991-ci ildə Şuşa rayonunda qalan Azərbaycan kəndləri

1. Turşsu
2. Daşaltı
3. Zarıslı
4. Malıbəyli
5. Aşağı Quşçular
6. Yuxarı Quşçular
7. Xəlfəli
8. Dükanlar
9. Zamanpəyəsi
10. Laçınlar
11. Qaybalı
12. Şülü
13. Mirzələr
14. Şırlan
15. Çaykənd
16. Məmişlər
17. Səfixanlar
18. Xanlıqpəyə
19. Allahqulular
20. Turabxan
21. Xanalı
22. İmamqulular
23. Cəmillər
24. Paşalar

1918-ci ilə qədər Vərəndə-Xocavənd (Martuni) rayonunda mövcud olan Azərbaycan kəndləri**

1. Şəkər
2. Muğanlı
3. Əmiralılar
4. Qaradağlı
5. Yemişan
6. Müşkabad
7. Güneyqala
8. Quzeyqala
9. Mirikənd
10. Təkir
11. Xərxan
12. Xocavənd
13. Qarayonca
14. Abdur
15. Aşan
16. Qarakənd
17. Kəndyurd
18. Cavahan
19. Quzeyçərtər
20. Güneyçərtər
21. Vərəndə

1991-ci ildə Xocavənd (Martuni) rayonunda qalan Azərbaycan kəndləri

1. Muğanlı
2. Əmiralılar
3. Qaradağlı
4. Xocavənd
5. Kuropatkin

1918-ci ilə qədər Xocavənd (Hadrut) rayonunda mövcud olan Azərbaycan kəndləri***

1. Azıx
2. Bünyadlı
3. Daşbaşı
4. Mülkədərə
5. Məlikcanlı
6. Dolanlar
7. Ağbulaq
8. Axullu
9. Düdükçü
10. Tuğ
11. Arpagədik
12. Məmmədli

1991-ci ildə Xocavənd (Hadrut) rayonunda qalan Azərbaycan kəndləri

1. Bulutan
2. Daşbaşı
3. Axullu
4. Tuğ

5. Salakətin
6. Günəşli
7. Çəmənli
13. Qoçbəy
14. Salakətin
15. Xırmanh
16. Edilli
17. Hindtağlar
18. Ağcakənd
19. Çıraqüz
20. Domı
21. Günəşli
22. Çəmənli
23. Bulutan

1918-ci ilə qədər Əsgəran rayonunda mövcud olan Azərbaycan kəndləri****

1. Ağbulaq
2. Cəmilli
3. Dəmirçilər
4. Mədədkənd
5. Daşbulaq
6. Kosalar
7. Yaloba
8. Canhəsən
9. Cavadlar
10. Qışlaq
11. Sərdaraşen
12. Xanabad
13. Ulubaba
14. Çanaqçı
15. Dağdağan
16. Xocalı
17. Meşəli
18. Kətik
19. Sığnaq
20. Ballıca
21. Başkənd
22. Qılıcbağ
23. Bəddərə
24. Fərrux
25. Dahraz
26. Pircamal
27. Aranzəmi
28. Pirəməki
29. Ağ kənd

1991-ci ildə Əsgəran rayonunda qalan Azərbaycan kəndləri

1. Cəmilli
2. Kosalar
3. Xocalı
4. Meşəli
5. Daşbulaq
6. Həsənabad
7. Pirəməki

1918-ci ilə qədər Ağdərə (Mardakert) rayonunda mövcud olan Azərbaycan kəndləri

1. Həsənqaya
2. Qaralar
3. Çaylı
4. Heyvalı
5. Həsəniz
6. İmarət Qərvənd
7. Damğalı
8. Ağabəyli
9. Narıclar
10. Sırxavənd
11. Qaraşlar
12. Bəşirli
13. Umudlu
14. Cərəkdar
15. Baş Güney
16. Orta Güney
17. Manıklı
18. Telli Binə
19. Xatınbəyli
20. Qozlu
21. Xoruzlu
22. Dəvəboynu
23. Qızıl Qaya
24. Çayqovuşan
25. Qozlu Körpü
26. Yayıcı
27. Zərdəxan
28. Ağdərə
29. Sığnaq
30. Dəmirli

1991-ci ildə Ağdərə (Mardakert) rayonunda qalan Azərbaycan kəndləri*****

1. Umudlu
2. Qaralar
3. İmarət Qərvənd
4. Narıclar
5. Sırxavənd
6. Qaraşlar
7. Bəşirli
8. Cərəkdar
9. Baş Güney
10. Orta Güney
11. Manıklı
12. Telli Binə
13. Xatınbəyli
14. Gəşxana
15. Tala

---

* Dağlıq Qarabağ bölgəsində (Yuxarı Qarabağ) azərbaycanlılar yaşayan 16 kənd 1918-1919-cu illərdə erməni daşnakları tərəfindən tamamilə yer üzündən silinmişdir. 1923-cü ildə DQMV yaradılarkən vilayətin cəmi 228 kəndi olmuşdur. Bunlardan 130-da azərbaycanlılar, 98-də isə ermənilər yaşamışlar. DQMV yaradılan zaman Azərbaycanın 1923-cü ilə qədərki inzibati-ərazi bölgüsü kobudcasına pozulmuş və qəbul edilən qərara görə Cavanşir, Qubadlı, Şuşa qəzalarının əraziləri bölünərək DQMV yaradılmışdır.

1924-cü il noyabrın 26-da azərbaycan, erməni və rus dillərində mətbuatda dərc edilən "DQMV haqqında Əsasnamə"də göstərilirdi ki, Şuşa qəzasından Şuşa, Xankəndi və 115 kənd, Cavanşir qəzasından 52 kənd, Qaryagin qəzasından 30 kənd, Qubadlı qəzasından isə Qaladərəsi DQMV-yə verilmişdir. Muxtariyyətin yaradılması haqqında qəbul edilən dekretdə vilayət mərkəzinin Xankəndi olması göstərilirdi. Ancaq az sonra, 1923-cü il sentyabrın 18-də Dağlıq Qarabağ Vilayət Partiya Komitəsinin qərarı ilə Xankəndinin adı dəyişdirilib S.Şaumyanın şərəfinə Stepanakert adlandırıldı. Bununla da, Yuxarı Qarabağda Azərbaycanın tarixi yerlərinin, mahal, rayon və kənd adlarının dəyişdirilməsinin təməli qoyuldu.

**1923-cü ildə Şuşanın Xankəndi, Xocalı, Kərkicahan, Ulubab, Pircamal, Cəmilli, Aranzəmi, Ballıca, Dəmirçilər, Sığnağ, Qarabulaq, Muxtarkənd, Dağdağan, Şuşakənd, Daşbaşı kimi onlarla kəndi alınıb Xankəndinə (Stepanakert) verilmiş, sonralar isə həmin torpaqlar hesabına Əsgəran rayonu yaradılmışdır. Sonradan isə yaradılan Stepanakert (Xankəndi) və Əsgəran rayonları bütünlüklə Şuşa qəzasının, əvvəllər Qaryagin (Füzuli) rayonunun bir kəndi hesab edilən Hadrut rayonu isə Füzuli rayonunun ərazisi hesabına yaradılmışdır. Dağlıq Qarabağ Muxtar Vilayəti yaradıldıqdan sonra onun tərkibinə verilmiş yaşayış məskənləri inzibati baxımdan rayon-nahiyə-kənd pillələri əsasında belə bölünmüşdü: 1. Ceraberd rayonu. 2. Vərəndə rayonu. 3. Şuşa rayonu. 4. Xaçın rayonu. 5. Dizaq rayonu.

***Daha sonra Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati-ərazi bölgüsündə yeni dəyişiklik baş vermiş və 1930-cu ilin avqustunda Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisi yenə də 5 rayona bölünmüşdür: 1. Ceraberd. 2. Martuni. 3. Stepanakert. 4. Dizaq. 5. Şuşa.

Bu bölgüdə artıq Vərəndə rayonunun ərazisi Martuni, Xaçın rayonunun ərazisi Stepanakert rayonu, 1939-cu il avqustun 17-də isə Ceraberd rayonunun ərazisi Mardakert rayonu, Dizaq rayonunun ərazisi isə Hadrut rayonu adlandırılmışdır. Lakin bu da Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati-ərazi bölgüsündə edilən son dəyişiklik olmamış, 1963-cü il yanvarın 4-də Şuşa rayonu ləğv edilmiş və onun ərazisi Stepanakert rayonuna verilmişdir. İki il sonra 1965-ci il yanvarın 6-da Şuşa rayonu yenidən təşkil olunmuş, 1978-ci ildə isə Stepanakert rayonu əsasında Əsgəran rayonu yaradılmışdır.

****SSRİ-nin süqutunadək olan dövrdə Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati-ərazi bölgüsü belə qalmış və 5 rayondan ibarət olmuşdur: 1.Şuşa. 2.Mardakert. 3.Martuni. 4. Hadrut. 5.Əsgəran.

Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasında Azərbaycan Respublikasının 26 noyabr 1991-ci il tarixli, 279-XII nömrəli Qanununa əsasən "Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında" Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 1923-cü il 7 iyul tarixli Dekreti və "Dağlıq Qarabağ Muxtar Vilayəti haqqında" Azərbaycan SSR-in 1981-ci il 16 iyun tarixli Qanunu qüvvədən düşmüş hesab edilmişdir.

Bu Qanuna əsasən, Stepanakert, Mardakert, Martuni şəhərlərinin tarixi adları qaytarılaraq Stepanakert şəhəri Xankəndi şəhəri, Mardakert şəhəri Ağdərə şəhəri və Mardakert rayonu Ağdərə rayonu, Martuni şəhəri Xocavənd şəhəri və Martuni rayonu Xocavənd rayonu adlandırılmışdır. Bundan əlavə, Əsgəran və Hadrut rayonları ləğv edilmiş, Xocalı şəhəri mərkəz olmaqla Xocalı rayonu yaradılmış, ləğv edilmiş Əsgəran rayonunun ərazisi Xocalı rayonunun tərkibinə, Hadrut rayonunun ərazisi isə Xocavənd rayonunun tərkibinə verilmişdir.

Xankəndi və Şuşa şəhərləri respublika tabeli şəhərlərin, Ağdərə, Xocavənd, Xocalı və Şuşa rayonları respublika tabeli rayonların sırasına daxil edilmişdir.

***** DQMV ləğv edildikdən sonra Azərbaycan Respublikasının inzibati-ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Milli Məclisinin 13 oktyabr 1992-ci il tarixli 327 nömrəli Qərarı ilə Azərbaycan Respublikasının Ağdərə rayonu ləğv edilmişdir. Bu Qərara əsasən:

- ləğv edilmiş Ağdərə rayonunun 8 kəndi (Xatınbəyli, Qazançı, Maniklu, Baş Güneypəyə, Orta Güneypəyə, Sırxavənd, Yeni Qaralar, Kiçan) və onlara məxsus torpaq sahələri Ağdam rayonunun;

- 23 kəndi (Çərəktar, Vaquas, Kotavan, Verin Oratağ, Arutunaqomer, Qoçoqot, Poqosaqomer, Drombon, Çıldıran, Mehmana, Araçadzor, Hayad, Tomaqahoğ, Şahmasur, Vənkli, Qarnakar, İmarət Qərvənd, Zardaxaç, Çapar, Aterk, Nareştar, Damğalı, Kolatağ) və onlara məxsus torpaq sahələri Kəlbəcər rayonunun;
- Ağdərə şəhəri, eləcə də 13 kəndi (Umudlu, Zəylik, Metsşen, Möhrətağ, Ağabəyələnc, Mağavuz, Akop Kamari, Minqrelsk, Nerkin Oratağ, Qasapet, Canyataq, Dəmirli, Gülyataq) və onlara məxsus torpaq sahələri isə Tərtər rayonunun inzibati tərkibinə verilmişdir.

Şuşa rayonu

Təbii-coğrafi mövqeyi

15. Səkkizguşəli türbə – 1304 - 1305-ci illər (Məmmədbəyli kəndi)
16. Qız qalası – XII əsr (Əmirxanlı kəndi)
17. Sərdabə – XII əsr (Şərəfan kəndi)
18. Sərdabə – XIV əsr (Yenikənd kəndi)
19. Qədim hamam kompleksi – XI əsr (Şərəfan kəndi)
20. Məscid – XIX əsr (Qırıq Müşlan kəndi)
21. Şükrataz qalası – VI əsr (Bartaz kəndi)
22. Əsgülüm qalası – VII əsr (Keçikli kəndi)
23. Türbə – XIV əsr (Babaylı kəndi)
24. Türbə – XIV əsr (Ağalı kəndi)
25. Türbə – XIV əsr (Yenikənd kəndi)
26. Türbə – XV əsr (Malatkeşın kəndi)
27. Dağdağan piri – XIII əsr (Malatkeşın kəndi)
28. Koroğlu daşı – VII - VIII əsrlər (Yazı düzü)
29. Tağlı qalası – XVIII əsr (Zəngilan şəhəri)
30. Günəş abidə piri – XVI əsr (Gülətağ kəndi)
31. Top körpüsü – XII əsr (Top kəndi)
32. Məscid – IX əsr (Rəzdərə kəndi)
33. Türbə – VII əsr (Rəzdərə kəndi)
34. Sürtüm piri – IX əsr (Vejnəli kəndi)
35. Yol piri – IX əsr (Vejnəli kəndi)
36. Qız qalası – IX-XI əsrlər (Bartaz kəndi)

Əlavə III. Beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair qəbul etdiyi SƏNƏDLƏR

III.1. BMT-nin sənədləri
III.2. ATƏT-in sənədləri
III.3. Avropa Şurasının sənədləri
III.4. Avropa İttifaqının sənədləri
III.5. İslam Əməkdaşlıq Təşkilatının sənədləri
III.6. Şimali Atlantika Müqaviləsi Təşkilatının (NATO) sənədləri

III.1. BMT-nin sənədləri

Əlavə III.1.1

BMT Təhlükəsizlik Şurası sədrinin
BƏYANATI

12 may 1992-ci il

Təhlükəsizlik Şurasının üzvləri arasında məsləhətləşmələrdən sonra Şuranın sədri Şuranın adından 1992-ci il mayın 12-də onun 3072-ci iclasında "Dağlıq Qarabağda vəziyyətə dair" sərlövhəli bəndin Şura tərəfindən baxılması ilə əlaqədar aşağıdakıları bəyan etmişdir:

"Təhlükəsizlik Şurasının üzvləri Dağlıq Qarabağa dair vəziyyətin pisləşməsi və atəşkəs barədə sazişlərin pozulması ilə bağlı böyük insan tələfatına və xeyli maddi ziyan vurulmasına gətirib çıxaran son məlumatlardan, eləcə də bunların region ölkələri üçün nəticələrindən dərin narahatlıq keçirirlər.

Təhlükəsizlik Şurasının üzvləri Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi (ATƏM) çərçivəsində görülən səyləri, eynilə tərəflərə sülh yolu ilə nizamlanma əldə etməyə və humanitar yardım göstərilməsinə yönələn digər səyləri yüksək qiymətləndirir və dəstəkləyirlər.

Onlar Baş Katib tərəfindən bu bölgəyə təcili olaraq faktların araşdırılması və tərəflərə sülh yolu ilə nizamlanma əldə etmək üçün ATƏM çərçivəsində göstərilən səylərə tezliklə kömək edilməsi yollarının və vasitələrinin öyrənilməsi üçün missiya göndərilməsini alqışlayır. Bu missiya həmçinin beynəlxalq birlik tərəfindən təxirəsalınmaz humanitar yardım göstərilməsinin mümkün yollarının öyrənilməsi üçün özünə müvafiq texniki elementi daxil edəcəkdir.

Təhlükəsizlik Şurasının üzvləri bütün maraqlı tərəfləri zorakılığa son qoymaq, Baş Katibin missiyasının işini asanlaşdırmaq və onun personalının təhlükəsizliyini təmin etmək üçün bütün zəruri tədbirləri görməyə çağırır. Onlar Şuranın Sədri adından 1992-ci il yanvarın 23-də (S/23496) və fevralın 14-də (S/23597) müvafiq olaraq Ermənistanın və Azərbaycanın Birləşmiş Millətlər Təşkilatına üzv qəbul olunması barədə edilən bəyanatlarını və xüsusilə də Nizamnamənin mübahisələrin dinc yollarla və güc tətbiq etmədən nizamlanmasına aid prinsiplərinə istinadları xatırlayırlar".

Əlavə III.1.2

BMT Təhlükəsizlik Şurası sədrinin
BƏYANATI

26 avqust 1992-ci il

Təhlükəsizlik Şurasının üzvləri arasında məsləhətləşmələrdən sonra Şuranın Sədri Şuranın adından "Dağlıq Qarabağda vəziyyətə dair" sərlövhəli bəndlə əlaqədar aşağıdakıları bəyan etmişdir:

"Dağlıq Qarabağda vəziyyətin pisləşməsi, çoxlu insan tələfatına və geniş miqyasda maddi zərərə səbəb olması haqqında məlumatlar Təhlükəsizlik Şurasının üzvlərini dərindən narahat etmişdir.

Təhlükəsizlik Şurasının üzvləri bütün tərəfləri və digər əlaqədar tərəfləri atəşi dərhal dayandırmağa və ATƏM çərçivəsində Dağlıq Qarabağ məsələsinə dair Minsk Konfransının səylərinə, habelə Romada keçirilən hazırlıq danışıqlarına yardım göstərməyə qətiyyətlə çağırırlar. Onlar bütün tərəfləri və digər əlaqədar tərəfləri ATƏM ilə sıx əməkdaşlıq etməyə və öz mübahisələrinin dinc yolla aradan qaldırılmasına mümkün qədər tez nail olmaq məqsədilə danışıqlarda müsbət mövqelərdən iştirak etməyə təkidlə çağırırlar. Onlar qeyd etmişlər ki, Baş Katib faktları müəyyən etmək üçün həmin bölgəyə nümayəndələr göndərmiş və ATƏM-in yuxarıda adı çəkilən damşıqlarına nümayəndələr göndərməyə hazırdır. Şuranın üzvləri Dağlıq Qarabağda vəziyyətin inkişafı ilə əlaqədar olaraq həmin rayonlarda Birləşmiş Millətlər Təşkilatının rolunu sonralar, lazımi vaxtda müzakirə edəcəklər".

Əlavə III.1.3

BMT Təhlükəsizlik Şurası sədrinin
BƏYANATI

27 oktyabr 1992-ci il

Təhlükəsizlik Şurasının üzvləri ilə məsləhətləşmələr apararaq Şuranın sədri Şuranın adından onun 1992-ci il sentyabrın 27-də keçirilmiş 3127-ci iclasında "Dağlıq Qarabağda vəziyyətə dair" sərlövhəli bəndin Şura tərəfindən baxılması ilə əlaqədar aşağıdakıları bəyan etmişdir:

"Təhlükəsizlik Şurası 1992-ci il sentyabrın 21-də Soçidə atəşkəs barədə

sazişin bağlanılmasına baxmayaraq, Dağlıq Qarabağda və onun ətrafında ciddi vəziyyətin qalmasından, eləcə də bununla əlaqədar insan tələfatı və maddi itkilər olmasından dərin narahatdır.

Təhlükəsizlik Şurası özünün 1992-ci il 26 avqust (S/24493) tarixli "Dağlıq Qarabağda vəziyyətə dair bəyanat"ının məzmununu, xüsusilə də ATƏM-in Dağlıq Qarabağa Minsk Konfransının səylərinə dəstəyini təsdiq edir. O, qətiyyətlə bütün tərəfləri və bu məsələyə aid olan digərlərini dərhal atəşi dayandırmağa və blokadanın bütün növlərini aradan qaldırmağa çağırır. O, Minsk Konfransının işinin dərhal yenidən başlanılmasına və Sədrin təklif etdiyi qayda və proseduralar əsasında siyasi danışıqların açılmasına çağırır. O, təkidlə bu məsələyə aidiyyatı olan bütün tərəfləri və digərlərini onların mübahisələrinin tezliklə hərtərəfli nizamlanmasını əldə etmək üçün ATƏM-lə sıx əməkdaşlığa və Konfransın işində əsaslı iştirak etməyə çağırır.

Təhlükəsizlik Şurası Baş Katibin Birləşmiş Millətlər Təşkilatının ATƏM-in səylərinin dəstəklənməsi planına, eləcə də humanitar yardım göstərilməsinə nə kimi töhfə verə biləcəyi məsələsinin öyrənilməsi üçün bu regiona öz nümayəndəsini göndərməyə dair niyyətindən məmnun olduğunu bildirir".

Əlavə III.1.4

BMT Təhlükəsizlik Şurası sədrinin
BƏYANATI

29 yanvar 1993-cü il

Təhlükəsizlik Şurasının Sədri 1993-cü ilin 29 yanvarında keçirdiyi məsləhətləşmələrdən sonra Şuranın üzvləri adından kütləvi informasiya vasitələrinin nümayəndələrinə aşağıdakıları bəyan etmişdir:

"Ermənistan və Azərbaycanın Naxçıvan Muxtar Respublikasına malların və materialların göndərilməsi, xüsusilə elektrik enerjisi verilməsindəki fasilələrin dağıdıcı nəticələri ilə əlaqədar Təhlükəsizlik Şurasının üzvləri dərin narahatlıq keçirdiklərini bildirirlər. Qeyri-adi dərəcədə sərt qışın genişləndirdiyi bu fasilələr həmin bölgələrin iqtisadiyyatını və infrastrukturunu iflas həddinə gətirib çıxarmış və real aclıq təhlükəsi yaratmışdır.

Şuranın üzvləri təkidlə bütün kömək edə biləcək ölkələri yanacaq və humanitar yardımın göndərilməsinə kömək etməyə və region ölkələrinin hökumətlərini humanitar vəziyyətin gələcəkdə daha da pisləşməsinin qarşısını

almaq məqsədilə humanitar yüklərin, xüsusilə də yanacağın Ermənistana və Azərbaycanın Naxçıvan bölgəsinə maneəsiz çatdırılmasını təmin etməyə çağırır.

Şuranın üzvləri tərəfləri bir araya gətirmək və ATƏM-in bu regionda sülhün bərqərar olmasına yönələn bütün səylərini tam dəstəklədiklərini bir daha bəyan edirlər. Onlar tərəfləri dərhal atəşkəsə və tezliklə ATƏM çərçivəsində danışıqların yenidən başlanılmasına razılaşmağa çağırırlar.

Təhlükəsizlik Şurasının üzvləri bu məsələyə baxmağı davam etdirəcəklər".

Əlavə III.1.5

BMT Təhlükəsizlik Şurası sədrinin
BƏYANATI

6 aprel 1993-cü il

Təhlükəsizlik Şurasının üzvləri ilə məsləhətləşmələrdən sonra Şuranın Sədri Şuranın adından 1993-cü il aprelin 6-da onun 3194-cü iclasında "Dağlıq Qarabağda vəziyyətə dair" sərlövhəli bəndin Şura tərəfindən baxılması ilə əlaqədar aşağıdakıları bəyan etmişdir:

"Təhlükəsizlik Şurası Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsindən və Dağlıq Qarabağ münaqişəsində düşmənçilik hərəkətlərinin güclənməsindən, xüsusilə yerli erməni qüvvələrinin Azərbaycan Respublikasının Kəlbəcər rayonuna müdaxiləsindən ciddi narahat olduğunu bildirir. Şura sülh və bölgənin təhlükəsizliyi üçün qorxu törədən belə düşmənçilik hərəkətlərinin hamısına dərhal son qoymağı və bu qüvvələri oradan çıxarmağı tələb edir.

Bununla əlaqədar Təhlükəsizlik Şurası bölgənin bütün dövlətlərinin suverenliyini və ərazi bütövlüyünü, onların sərhədlərinin pozulmazlığını təsdiq edərək ATƏM çərçivəsində sülh prosesinə tərəfdar olduğunu bildirir. O ümid etdiyini bildirir ki, Minsk Qrupunun bu yaxınlarda əldə etdiyi ilkin sazişdən sonra yaxın vaxtlarda atəşi dayandırmaq, müşahidəçilərin yerləşdirilməsi cədvəli, siyasi bəyannamənin layihəsi barədə sazişlər də əldə olunacaq və Minsk Konfransı tezliklə çağırılacaqdır.

Təhlükəsizlik Şurası müvafiq tərəfləri ATƏM çərçivəsində sülh prosesində irəliləyiş olması üçün əllərindən gələni əsirgəməməyə və problemin siyasi həllini çətinləşdirə bilən heç bir hərəkətə yol verməməyə təkidlə çağırır.

Şura həmçinin mülki əhalinin iztirablarını azaltmaq məqsədi ilə bölgədə,

o cümlədən münaqişəyə cəlb olunmuş bütün rayonlarda humanitar yardım göstərilməsi sahəsində beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsini təmin etməyə çağırır.

Təhlükəsizlik Şurası Baş Katibdən xahiş edir ki, ATƏM ilə məsləhətləşərək faktları müvafiq şəkildə müəyyənləşdirsin və təcili olaraq Şuraya hadisə yerində vəziyyətə qiymət verilən məruzə təqdim etsin.

Şura bu məsələ ilə məşğul olmaqda davam edəcəkdir".

Əlavə III .1.6

BMT Təhlükəsizlik Şurasının 3505-ci iclası
822 saylı QƏTNAMƏ

30 aprel 1993-cü il

Təhlükəsizlik Şurası Dağlıq Qarabağ münaqişəsi barədə Təhlükəsizlik Şurası sədrinin 1993-cü il yanvarın 29-da (S/25199) və aprelin 6-da (S/25539) verdiyi bəyanatlara istinad edərək,

Baş Katibin 1993-cü il aprelin 14-dəki məruzəsini (S/26600) nəzərə alaraq,

Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi ilə əlaqədar ciddi narahatlıq izhar edərək, silahlı hərbi əməliyyatların güclənməsi, qismən də Azərbaycan Respublikasının Kəlbəcər rayonuna yerli erməni qüvvələrinin son təcavüzünü narahathqla qeyd edərək,

eləcə də vəziyyətin bölgədəki əmin-amanlığı və təhlükəsizliyi qorxu altına aldığından narahat olaraq,

çoxlu sayda mülki şəxsin yerdəyişməsi və bölgədə, o cümlədən Kəlbəcər rayonunda yaranmış fövqəladə durumla bağlı ciddi narahathq ifadə edərək, bölgədəki bütün dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörməti bir daha təsdiq edərək, eləcə də beynəlxalq sərhədlərin toxunulmazlığını və ərazi əldə etmək üçün qüvvə tətbiq etməyin yolverilməzliyini bir daha təsdiqləyərək, ATƏM çərçivəsində həyata keçirilən sülh prosesini dəstəklədiyini bildirərək və silahlı hərbi əməliyyatların güclənməsinin bu proses üçün dağıdıcı nəticələr verə biləcəyindən dərin narahatlıq keçirərək:

1. Atəşin biryolluq dayandırılması məqsədilə bütün hərbi əməliyyatların və düşmənçilik hərəkətlərinin dərhal dayandırılmasını, eləcə də bütün işğalçı qüvvələrin Kəlbəcər rayonundan və Azərbaycanın son vaxtlar işğal edilmiş başqa rayonlarından dərhal çıxarılmasını tələb edir;

2. Bu işdə maraqlı olan tərəfləri münaqişəni ATƏM-in Minsk Qrupunun sülh prosesi çərçivəsində həll etmək məqsədilə dərhal danışıqları bərpa etməyə və problemin dinc yolla həllini çətinləşdirə biləcək hər cür fəaliyyətdən imtina etməyə israrla dəvət edir;

3. Bölgədə, o cümlədən münaqişənin əhatə etdiyi bütün rayonlarda mülki əhalinin iztirablarını yüngülləşdirmək üçün humanitar yardım göstərilməsi sahəsində beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsini təmin etməyə çağırır və bir daha təsdiq edir ki, bütün tərəflər beynəlxalq humanitar hüququn prinsiplərinə və normalarına əməl etməyə borcludurlar;

4. Baş Katibdən xahiş edir ki, ATƏM-in indiki sədri ilə, habelə ATƏM-in Minsk Qrupunun sədri ilə məsləhətləşmə keçirib bölgədəki, o cümlədən Azərbaycanın Kəlbəcər rayonundakı vəziyyətə qiymət versin və Şuraya yeni məruzə təqdim etsin;

5. Qərara alır ki, bu məsələ ilə fəal məşğul olunmasını davam etdirsin.

Əlavə III.1.7

BMT Təhlükəsizlik Şurasının 3259-cu iclası
853 saylı QƏTNAMƏ

29 iyul 1993-cü il

Təhlükəsizlik Şurası

1993-cü il 30 aprel tarixli öz 822 (1993) saylı qətnaməsini təsdiq edərək,

Avropada Təhlükəsizlik və Əməkdaşlıq məsələlərinə dair Müşavirənin (ATƏM) Minsk Qrupunun sədri tərəfindən 1993-cü il iyulun 27-də (S/26184) baxılmış məruzəni nəzərdən keçirərək,

Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi və onların arasındakı gərginliklə əlaqədar olaraq ciddi narahatlıq keçirdiyini ifadə edərək,

əlaqədar tərəflərin onun 822 (1993) saylı qətnaməsinin həyata keçirilməsi sahəsində təxirəsalınmaz tədbirlər cədvəlini qəbul etməsini alqışlayaraq,

hərbi əməliyyatların güclənməsini, o cümlədən Azərbaycan Respublikasında Ağdam rayonunun işğal olunmasını təşvişlə qeyd edərək,

bu vəziyyətin bölgədə sülh və təhlükəsizlik üçün qorxu törətməsindən narahat olaraq,

Azərbaycan Respublikasında çox böyük miqdarda mülki şəxslərin didərgin

düşməsi və bölgədəki fövqəladə humanitar vəziyyətlə əlaqədar yenə də ciddi narahatlıq keçirdiyini ifadə edərək:

1. Azərbaycan Respublikasının Ağdam rayonunun və bu yaxınlarda zəbt olunmuş bütün digər rayonlarının işğalını pisləyir;

2. Bölgədə gələcəkdəki bütün düşmənçilik hərəkətlərini, o cümlədən mülki şəxslərə hücumları və yaşayış rayonlarının bombalanmasını və top atəşlərinə tutulmasını pisləyir;

3. Bütün hərbi əməliyyatların təxirə salınmadan dayandırılmasını və münaqişədə iştirak edən işğal qüvvələrinin Azərbaycan Respublikasının Ağdam rayonundan və bu yaxınlarda işğal olunmuş bütün digər rayonlardan dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edir;

4. Əlaqədar tərəfləri atəşin dayandırılması haqqında razılığa gəlməyə və bu razılaşmalara əməl etməyə çağırır;

5. Bölgədə iqtisadi, nəqliyyat və energetika əlaqələrini bərpa etməyə dair özünün əvvəlki çağırışlarını yuxarıdakı 3 və 4-cü bəndlər baxımından bir daha təsdiq edir;

6. Münaqişənin dincliklə aradan qaldırılmasına nail olmaq sahəsində ATƏM-in Minsk Qrupunun davam etdirdiyi səyləri, o cümlədən 822 (1993) saylı qətnamənin həyata keçirilməsi sahəsində səyləri bəyənir və hərbi əməliyyatların gücləndirilməsinin bu səylər üçün fəlakətli nəticələr verə biləcəyi ilə əlaqədar ciddi narahatlıq keçirdiyini ifadə edir;

7. ATƏM-in müşahidə üzrə nümayəndə heyətinin, həmçinin onun yerləşdirilməsi cədvəlinin hazırlanması sahəsində tədbirləri, habelə bölgədə ATƏM-in nümayəndələrinin olmasının təmin edilməsinə dair təkliflərə ATƏM çərçivəsində baxılmasını alqışlayır;

8. Əlaqədar tərəfləri münaqişənin dincliklə aradan qaldırılmasına maneçilik törədən hər hansı hərəkətlərdən çəkinməyə və vəziyyətin qəti şəkildə nizama salınmasına nail olmaq məqsədilə danışıqları ATƏM-in Minsk Qrupu çərçivəsində, habelə əlaqədar tərəflər arasında birbaşa görüşlər vasitəsilə davam etdirməyə təkidlə çağırır;

9. Ermənistan Respublikasının hökumətini Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi ermənilərinin 822 (1993) saylı qətnamənin müddəalarına əməl etməsi və ATƏM-in Minsk Qrupunun təkliflərini həmin tərəfin qəbul etməsi məqsədilə öz təsirini göstərməyi davam etdirməyə təkidlə çağırır;

10. Dövlətləri münaqişənin güclənməsinə və ya ərazinin işğalının davam etdirilməsinə gətirib çıxara biləcək hər hansı silah və ləvazimat göndərməkdən çəkinməyə təkidlə çağırır;

11. Mülki əhalinin artmış iztirablarını yüngülləşdirmək üçün bölgədə, xüsusən münaqişənin əhatə etdiyi bütün rayonlarda humanitar yardım göstərilməsi sahəsində beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsini təmin etməyə yenidən çağırır və bir daha təsdiq edir ki, bütün tərəflər beynəlxalq humanitar hüququn prinsiplərinə və normalarına əməl etməyə borcludurlar;

12. Baş Katibdən və müvafiq beynəlxalq idarələrdən xahiş edir ki, zərər çəkmiş mülki əhaliyə təcili humanitar yardım göstərsin və didərgin düşmüş şəxslərə öz evlərinə qayıtmağa kömək etsinlər;

13. Baş Katibdən xahiş edir ki, ATƏM-in indiki sədri ilə məsləhətləşərək yaranmış vəziyyət haqqında Şuraya məruzələr təqdim olunmasını davam etdirsin;

14. Bu məsələ ilə fəal məşğul olmağı davam etdirməyi qərara alır.

Əlavə III.1.8

BMT Təhlükəsizlik Şurası sədrinin
BƏYANATI

18 avqust 1993-cü il

Təhlükəsizlik Şurasının üzvləri ilə məsləhətləşmələr apararaq Şuranın sədri Şuranın adından onun 1993-cü il avqustun 18-də keçirilmiş 3264-cü iclasında "Dağlıq Qarabağda vəziyyətə dair" sərlövhəli bəndin Şura tərəfindən baxılması ilə əlaqədar aşağıdakıları bəyan etmişdir:

"Təhlükəsizlik Şurası Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin pisləşməsi ilə və onların arasındakı gərginliklə əlaqədar ciddi narahatlıq keçirdiyini bildirir. Şura Ermənistan Respublikasının hökumətini Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi ermənilərinin Şuranın 822 və 853 saylı qətnamələri ilə razılaşmalarına nail olmaq məqsədilə öz təsirindən istifadə etməyə çağırır.

Şura habelə bu günlərdə Füzuli rayonunda döyüş əməliyyatlarının güclənməsindən dərin narahatlıq keçirdiyini bildirir. Şura əvvəllər Azərbaycan Respublikasının Kəlbəcər və Ağdam rayonlarına müdaxiləni və onların işğalını pisləddiyi kimi, Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsindən Füzuli rayonuna edilən hücumları da pisləyir. Şura bütün hücumların dayandırılmasını və bölgədə sülh və təhlükəsizlik üçün qorxu törədən hərbi əməliyyatların və bombardmanların dərhal dayandırılmasını tələb edir, habelə işğalçı qüvvələrin Füzuli zonasından, həmçinin Azərbaycan Respublikasının Kəlbəcər, Ağdam rayonlarından və bu yaxınlarda işğal olunmuş başqa rayonlarından dərhal,

tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Şura Ermənistan Respublikasının hökumətini bu məqsədlə öz təsirindən istifadə etməyə çağırır.

Şura Azərbaycan Respublikasının və regionun bütün başqa dövlətlərinin suverenliyini və ərazi bütövlüyünü, habelə onların sərhədlərinin pozulmazlığını bir daha təsdiq edir və münaqişənin sülh yolu ilə aradan qaldırılmasına nail olmağa dair ATƏM-in Minsk Qrupunun səylərinə döyüş əməliyyatlarının göstərdiyi təsirdən dərin narahatlıq keçirdiyini bildirir. Şura ATƏM-in sülh prosesini tamamilə müdafiə etdiyini qeyd edir və Minsk Qrupunun danışıqlarının indiki mərhələsində öz baxışlarını və mövqelərini bilavasitə ifadə etmək üçün münaqişədə iştirak edən tərəflərə verilmiş imkanı xüsusilə nəzərə çarpdırır. Bu baxımdan Şura bütün tərəfləri avqustun 13-də Minsk Qrupunun təqdim etdiyi "BMT Təhlükəsizlik Şurasının 822 və 853 saylı qətnamələrinin yerinə yetirilməsinə dair təxirəsalınmaz tədbirlər cədvəli"nin dəqiqləşdirilmiş variantına müsbət cavab verməyə və məsələnin sülh yolu ilə həllini poza biləcək hər hansı hərəkətdən çəkinməyə çağırır. Şura yaranmış vəziyyətin bütün cəhətləri barədə məruzə hazırlamaq üçün bölgəyə missiya göndərmək haqqında ATƏM-in niyyətini alqışlayır.

Son günlərdə münaqişənin genişlənməsi ilə əlaqədar Şura dövlətləri münaqişənin gücləndirməsinə və ya Azərbaycan Respublikası ərazisinin işğalının davam etdirilməsinə gətirib çıxara biləcək hər hansı silah və döyüş sursatı göndərməkdən çəkinmək barədə 853 saylı qətnamədəki çağırışım bir daha təkidlə təsdiq edir. Şura Ermənistan Respublikasının hökumətini cəlb olunmuş qüvvələrin gələcəkdə hərbi əməliyyatı genişləndirmək üçün vəsait almamalarını təmin etməyə çağırır.

Şura habelə mülki əhalinin getdikcə artan iztirablarını yüngülləşdirmək məqsədilə bölgəyə, münaqişədən zərər çəkmiş bütün zonalara beynəlxalq humanitar yardımın maneəsiz çatdırılmasını təmin etməyə dair 822 və 853 saylı qətnamələrdə olan çağırışları bir daha təkrar edir. Şura tərəflərə xatırladır ki, onlar beynəlxalq humanitar hüququn prinsiplərinə və normalarına əməl etməyə borcludurlar və əməl etməlidirlər.

Təhlükəsizlik Şurası bu məsələ ilə fəal məşğul olmaqda davam edəcək və özünün qətnamələrinə bütün tərəflərin tamamilə razı olmasını və əməl etməsini təmin etməkdən ötrü müvafiq tədbirləri nəzərdən keçirməyə hazır olacaqdır".

Əlavə III.1.9

BMT Təhlükəsizlik Şurasının 3292-ci iclası
874 saylı QƏTNAMƏ

14 oktyabr 1993-cü il

Təhlükəsizlik Şurası

Özünün 1993-cü il 30 aprel tarixli 822 saylı və 1993-cü il 29 iyul tarixli 853 saylı qətnamələrini təsdiq edərək və Şuranın sədrinin Şura adından 1993-cü il avqustun 18-də oxunmuş bəyanatına (S/26326) istinad edərək,

Avropada Təhlükəsizlik və Əməkdaşlıq məsələlərinə dair Müşavirənin (ATƏM) Dağlıq Qarabağa dair Minsk Konfransı sədrinin Təhlükəsizlik Şurası sədrinin adına göndərilmiş məktubunu (S/26522) nəzərdən keçirərək,

Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində və onun ətrafında münaqişənin davam etməsinin və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasındakı münasibətlərdəki gərginliyin bölgədə sülh və təhlükəsizlik üçün qorxu yarada biləcəyindən ciddi narahat olduğunu bildirərək,

1993-cü il oktyabrın 8-də Moskvada yüksək səviyyədə keçirilmiş görüşləri qeyd edərək və bu görüşlərin vəziyyətin yaxşılaşmasına və münaqişənin sülh yolu ilə aradan qaldırılmasına kömək edəcəyinə ümid bəsləyərək,

Azərbaycan Respublikasının və regiondakı bütün başqa dövlətlərin suverenliyini və ərazi bütövlüyünü bir daha təsdiq edərək,

habelə, beynəlxalq sərhədlərin toxunulmazlığını və ərazi əldə etmək üçün qüvvə tətbiq olunmasının yolverilməzliyini bir daha təsdiq edərək,

münaqişənin adamlara gətirdiyi müsibətlərdən ciddi narahat olduğunu bir daha bildirərək və o cümlədən Azərbaycan Respublikasında böyük sayda mülki şəxslərin köçkün vəziyyətə düşməsi ilə əlaqədar özünün ciddi narahatlığını ifadə edərək:

1. Əlaqədar tərəfləri ATƏM-in Minsk Qrupuna dəstək olaraq Rusiya Federasiyası hökumətinin köməyi ilə birbaşa əlaqələr nəticəsində müəyyən olunmuş atəşkəsi səmərəli və daimi etməyə çağırır;

2. ATƏM çərçivəsində həyata keçirilən sülh prosesini, habelə ATƏM-in Minsk Qrupunun daimi səylərini tamamilə dəstəklədiyini bir daha bəyan edir;

3. 1993-cü il sentyabrın 28-də ATƏM-in Minsk Qrupunun müşavirəsində hazırlanmış və qrupun sədri tərəfindən əlaqədar tərəflərə təqdim olunmuş və həmin qrupun digər doqquz üzvünün hərtərəfli dəstəklədiyi "Təhlükəsizlik Şurasının 822 (1993) və 853 (1993) saylı qətnamələrinin həyata keçirilməsinə dair təxirəsalınmaz tədbirlərin yeniləşdirilmiş cədvəli"ni alqışlayır və tərəflərin buna diqqət yetirməsini

tövsiyə edir və tərəfləri həmin cədvəli qəbul etməyə çağırır;

4. Əmin olduğunu bildirir ki, münaqişədən doğan və "yeniləşdirilmiş cədvəl"də bilavasitə nəzərdən keçirilməyən bütün başqa həll edilməmiş məsələləri ATƏM-in Minsk prosesi baxımından tezliklə sülh danışıqları çərçivəsində həll etmək lazımdır;

5. Qüvvələrin bu yaxınlarda işğal edilmiş ərazilərdən çıxarılması, kommunikasiya və nəqliyyat üçün olan bütün maneələrin aradan qaldırılması da daxil olmaqla, ATƏM-in Minsk Qrupunun "Yeniləşdirilmiş cədvəl"də nəzərdə tutulmuş qarşılıqlı və təxirəsalınmaz tədbirləri dərhal həyata keçirməyə çağırır;

6. Habelə cədvəldə nəzərdə tutulduğu kimi, münaqişənin danışıqlar yolu ilə aradan qaldırılmasına nail olmaq məqsədilə ATƏM Nazirlər Şurasının 1992-ci il 24 mart tarixli mandatına uyğun olaraq ATƏM-in Minsk Konfransını tezliklə keçirməyə çağırır;

7. Baş Katibdən ATƏM-in Minsk Konfransında iştirak etmək üçün nümayəndə göndərmək təklifinə müsbət yanaşmağı və konfransın açılışından sonra damşıqların mətləbdən kənara çıxmaması üçün mümkün olan hər cür kömək göstərməyi xahiş edir;

8. ATƏM-in müşahidə üçün yaratdığı missiyanı dəstəkləyir;

9. Bütün tərəfləri beynəlxalq humanitar hüququ hər hansı şəkildə pozmaqdan çəkinməyə çağırır və münaqişənin toxunduğu bütün rayonlarda humanitar yardım göstərilməsinə dair beynəlxalq fəaliyyətin maneəsiz həyata keçirilməsini təmin etmək barədə 822 (1993) və 853 (1993) saylı qətnamələrdəki çağırışını bir daha təkrar edir;

10. Regiondakı bütün dövlətləri münaqişənin genişlənməsinə, bölgədə sülh və təhlükəsizliyin pozulmasına səbəb ola biləcək hər hansı düşmənçilik hərəkətlərindən, işə hər hansı şəkildə qarışmaqdan və ya hərbi müdaxilədən çəkinməyə təkidlə çağırır;

11. Baş Katibdən və müvafiq beynəlxalq idarələrdən xahiş edir ki, zərər çəkmiş mülki əhaliyə fövqəladə humanitar yardım göstərsinlər, qaçqınlara və köçkün şəxslərə öz evlərinə ləyaqətlə və təhlükəsizlik şəraitində qayıtmağa kömək etsinlər;

12. Habelə Baş Katibdən ATƏM-in indiki sədrindən və ATƏM-in Minsk Konfransının sədrindən xahiş edir ki, Minsk prosesinin gedişi haqqında və yerlərdə vəziyyətin bütün cəhətlərinə dair, habelə bununla əlaqədar ATƏM ilə Birləşmiş Millətlər Təşkilatı arasında indiki və gələcəkdəki əməkdaşlıq haqqında Şuraya məruzələr təqdim olunmasını davam etdirsinlər;

13. Bu məsələ ilə fəal məşğul olmağı davam etdirməyi qərara alır.

Əlavə III.1.10

BMT Təhlükəsizlik Şurasının 3313-cü iclası
884 saylı QƏTNAMƏ

11 noyabr 1993-cü il

Təhlükəsizlik Şurası

Özünün 30 aprel 1993-cü il tarixli 822 saylı (1993), 29 iyul 1993-cü il tarixli 853 saylı (1993) və 14 oktyabr 1993-cü il tarixli 874 saylı (1993) qətnamələrini təsdiq edərək,

Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişənin davam etməsinin və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münasibətlərin gərgin olaraq qalmasının regionda sülhü və təhlükəsizliyi təhdid edəcəyinə görə ciddi narahatlıq ifadə edərək,

atəşkəsin pozulması nəticəsində hərbi əməliyyatların eskalasiyasının və bu pozuntulara cavab olaraq həddindən artıq güc tətbiq edilməsini, o cümlədən Azərbaycan Respublikasının Zəngilan rayonunun və Horadiz şəhərinin işğalını təşvişlə qeyd edərək,

Azərbaycan Respublikasını və regiondakı bütün digər dövlətlərin suverenliyini və ərazi bütövlüyünü təsdiq edərək,

həmçinin beynəlxalq sərhədlərin pozulmazlığını və ərazi əldə etmək üçün güc tətbiq edilməsinin yolverilməzliyini bir daha təsdiq edərək,

böyük sayda mülki şəxsin ən sonuncu yerdəyişmə hadisəsinə və Zəngilan rayonunda, Horadiz şəhərində və Azərbaycanın cənub sərhədində fövqəladə humanitar şəraitin yaranmasına görə ciddi narahatlıq ifadə edərək

1. Tərəflərin qəbul etdiyi atəşkəsin bu yaxında hərbi əməliyyatların yenidən başlanmasına səbəb olmuş pozulmasını, o cümlədən Zəngilan rayonunun və Horadiz şəhərinin işğalını, dinc sakinlərə hücumları və Azərbaycan Respublikası ərazilərinin atəşə tutulmasını məhkum edir;

2. Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda ermənilər tərəfindən 822 (1993), 853 (1993) və 874 (1993) saylı qətnamələrə riayət edilməsinə nail olmaq və hərbi kompaniyaya cəlb olunmuş qüvvələrin onu davam etdirmək üçün vəsaitlə təchiz olunmasını təmin etməmək məqsədi ilə Ermənistan dövlətini öz təsirindən istifadə etməyə çağırır:

3. ATƏM-in Minsk Qrupunun 9 üzvünün 4 noyabr 1993-cü il tarixli (S/26718) bəyanatını məmnunluqla qeyd edir, orada əks olunmuş atəşin dayandırılması barədə birtərəfli bəyannamələrə aid təklifləri yüksək qiymətləndirir;

4. ATƏM-in Minsk Qrupunun 2-8 noyabr 1993-cü il tarixli Vyana müşavirəsində edilmiş müraciətlər də nəzərə alınmaqla Təhlükəsizlik Şurasının 822 (1993) və 853 (1993), (S/26522, əlavə) saylı qətnamələrinin yerinə yetirilməsi üzrə "Təxirəsalınmaz tədbirlərin yeniləşdirilmiş cədvəli"nə əsasən hərbi əməliyyatların və düşmənçilik aktlarının dərhal və ləngidilmədən dayandırılmasım, işğalçı qüvvələrin Zəngilan rayonundan və Horadiz şəhərindən birtərəfli surətdə çıxarılmasını və Azərbaycan Respublikasının bu yaxında işğal olunmuş rayonlarından qəsbkar qüvvələrinin çıxarılmasım maraqlı tərəflərdən tələb edir;

5. Ən təkidli surətdə maraqlı tərəfləri ATƏM-in Minsk Qrupuna dəstək olaraq Rusiya Federasiyası hökumətinin yardımçılığı ilə qurulmuş birbaşa əlaqələrin nəticəsində əldə olunmuş atəşkəsin təcili bərpa olunmasına, onun səmərəli və daimi olmasına, münaqişənin danışıqlar yolu ilə ATƏM-in Minsk prosesi və ATƏM-in Minsk Qrupunun 1993-cü il 2-8 noyabrında Vyanada keçirilmiş müşavirəsində "Yeniləşdirilmiş cədvəli»nə edilən düzəlişlər kontekstində nizamlanmasının imkanlarını axtarmağı davam etdirməyə çağırır;

6. Yenidən təkidlə regionun bütün dövlətlərini münaqişənin böyüməsinə, regionda sülhü və təhlükəsizliyi poza biləcək hər hansı bir düşmənçilik aktından, hər hansı bir müdaxilədən çəkinməyə çağırır;

7. Baş Katibdən və müvafiq beynəlxalq təsisatlardan zərər çəkmiş mülki əhaliyə, o cümlədən Zəngilan rayonunun və Horadiz şəhərinin və Azərbaycanın cənub sərhədlərinin əhalisinə təcili humanitar yardım göstərilməsini, qaçqınlara və məcburi köçkünlərə öz evlərinə ləyaqətlə və təhlükəyə məruz qalmadan qayıtmasına kömək etməyi xahiş edir;

8. Yenidən Baş Katibə, ATƏM-in fəaliyyətdə olan sədrinə və ATƏM-in Minsk Konfransının sədrinə müraciət edərək gələcəkdə Minsk prosesinin gedişatı barədə və yerdə vəziyyətin bütün aspektləri, xüsusilə Şuranın müvafiq qətnamələrinin həyata keçirilməsi, ATƏM və BMT arasında bu münasibətlərdə indiki və gələcək əməkdaşlıq barədə məlumat vermələrini xahiş edir;

9. Bu məqsədlə fəal məşğul olmağı davam etdirməyi qərara alır.

Əlavə III.1.11

BMT Təhlükəsizlik Şurası sədrinin BƏYANATI

26 aprel 1995-ci il

Təhlükəsizlik Şurasının 1995-ci il aprelin 26-da 3525-ci iclasında "Dağlıq Qarabağda vəziyyətə dair" sərlövhəli bəndə baxılması ilə əlaqədar Təhlükəsizlik Şurasının sədri Təhlükəsizlik Şurasının adından aşağıdakıları bəyan etmişdir:

"Təhlükəsizlik Şurası özünün 884 saylı qətnaməsinin 8-ci bəndinə uyğun olaraq ATƏT-in Dağlıq Qarabağa dair Minsk Konfransının həmsədrlərinin təqdim etdiyi məruzələrə (S/1995/249 və S/1995/321) baxmışdır. Təhlükəsizlik Şurası 1994-cü il mayın 12-də Rusiya Federasiyasının vasitəçiliyi və ATƏT-in Minsk Qrupu ilə qarşılıqlı fəaliyyət sayəsində razılaşdırılmış atəşkəsin bir ilə yaxın müddətdə saxlanılmasından məmnunluğunu bildirir.

Eyni zamanda, Təhlükəsizlik Şurası Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda və onun ətrafında münaqişədən və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında gərginlikdən təkrarən narahatlığını bildirir. Təhlükəsizlik Şurası, xüsusilə bu yaxınlarda baş vermiş zorakı hadisələrlə əlaqədar narahat olduğunu bildirir və 1995-ci il fevralın 6-da razılaşdırıldığı kimi hadisələrin nizamlanmasında birbaşa əlaqələr mexanizmindən istifadə edilməsinin vacibliyini vurğulayır. O, qətiyyətlə tərəfləri belə hadisələrin gələcəkdə qarşısının alınması üçün bütün zəruri tədbirləri görməyə çağırır.

Şura, regionun bütün dövlətlərinin suverenliyi və ərazi bütövlüyünə əsaslanan özünün bütün qətnamələrini təsdiq edir. O, həmçinin beynəlxalq sərhədlərinin toxunulmazlığını və ərazi zəbt edilməsi üçün gücdən istifadənin yolverilməzliyini təsdiqləyir.

Təhlükəsizlik Şurası qoşunların geri çəkilməsini təmin etməklə münaqişənin bütün tərəflər üçün əsas nəticələrini aradan qaldıracaq və Minsk Konfransının çağırılmasına imkan yaradacaq silahlı münaqişənin dayandırılmasına dair siyasi sazişin bağlanılması üçün sürətli damşıqların keçirilməsinə yönələn Minsk Konfransının həmsədrlərinin bütün səylərinə özünün tam dəstəyini yenidən başlayır.

Təhlükəsizlik Şurası vurğulayır ki, sülh nizamlanmasını əldə etmək üçün əsas məsuliyyəti münaqişə tərəfləri daşıyırlar. Təhlükəsizlik Şurası silahlı münaqişənin dayandırılmasına dair siyasi sazişin BMT Nizamnaməsi və ATƏT-in müvafiq prinsipləri əsasında bağlanılmasının zəruriliyini bildirir. O, qətiyyətlə tərəfləri hər hansı bir ilkin şərtlərsiz və prosedur maneələrsiz, konstruktiv

danışıqlar aparmağa, sülh prosesini sarsıda biləcək istənilən hərəkətlərdən çəkinməyə çağırır. O vurğulayır ki, belə sazişin əldə edilməsi ATƏT-in çoxmillətli sülhməramlı qüvvələrinin yerləşdirilməsi üçün ilkin şərtdir.

Təhlükəsizlik Şurası ATƏT-in Budapeşt sammitinin 1994-cü il 6 dekabr tarixli "Dağlıq Qarabağ münaqişəsilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi" qərarını alqışlayır. O, tərəflər arasında silahlı münaqişələrin dayandırılmasına dair saziş olarsa, ATƏT-in çoxmillətli sülhməramlı qüvvələrinin mümkün yerləşdirilməsinə dair lazımi qətnamələrlə davamlı siyasi dəstək verməyə hazır olduğunu təsdiqləyir. BMT həmçinin texniki məsləhətlər və ekspert rəyi verməyə hazırdır.

Təhlükəsizlik Şurası tərəflərin Minsk Qrupu çərçivəsində 1994-cü il aprelin 15-də razılaşdırıldığı kimi etiraf yaradılmasına dair tədbirləri, xüsusilə də humanitar sahədə, o cümlədən bütün hərbi əsirləri və mümkün saxlanılmaları atəşkəsin birinci ildönümünə azad edilməsinin yerinə yetirilməsinin zəruriliyini vurğulayır. O, tərəfləri silahlı münaqişə ilə toxunulmuş mülki əhalinin iztirablarının qarşısının alınmasına çağırır.

Təhlükəsizlik Şurası Baş Katibə, ATƏT-in sədrinə və ATƏT-in Minsk Qrupunun həmsədrliyinə öz tələbini yeniləşdirir ki, Minsk prosesinin irəliləyişi, yerlərdə vəziyyəti, xüsusilə müvafiq qətnamələrin yerinə yetirilməsi, ATƏT və BMT arasında indiki və gələcək qarşılıqlı fəaliyyət haqqında Şuraya məruzə etməyi davam etdirsinlər.

Şura bu məsələyə baxmaqda davam edəcək".

Əlavə III. 1.12

BMT Baş Assambleyası
60-cı sessiya, 98-ci plenar iclas,
Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət,
QƏTNAMƏ

7 sentyabr, 2006-cı il

Baş Assambleya,

Ətraf mühitə geniş miqyaslı ziyan vurmuş, məruz qalmış ərazilərdə baş vermiş yanğınlarla bağlı ciddi narahatçılıq keçirərək:

1. Məruz qalmış ərazilərdə yanğınların qarşısını almaq və onların zərərli nəticələrini aradan qaldırmaq məqsədilə təcili olaraq ekoloji əməliyyatın keçirilməsinin zəruriliyini vurğulayır,

2. Bu məqsədlə tərəflərin əməkdaşlığa hazır olmalarını alqışlayır və bu əməliyyatın vacib etimad quruculuğu tədbiri olduğunu hesab edir,

3. Ekoloji əməliyyatın hazırlanmasında bir addım kimi yanğınların ətraf mühitə qısa müddətli və uzun müddətli təsirini qiymətləndirmək üçün ATƏT-in bölgəyə missiya təşkil etmək niyyətini nəzərə alır,

4. Bununla əlaqədar, BMT sisteminin təşkilat və proqramlarını, xüsusilə Ətraf Mühit üzrə BMT Proqrammı, ATƏT ilə əməkdaşlıqda bölgənin ətraf mühitinin tənəzzülünün qısa və uzun müddətli təsirinin qiymətləndirilməsi və öhdəsindən gəlməsi və həmçinin onun bərpası daxil olmaqla bütün zəruri yardım və ekspert təcrübəsini təmin etməyə çağırır,

5. ATƏT-in fəaliyyətdə olan sədrindən 30 aprel 2007-ci il tarixinədək bu məsələ üzrə Baş Assambleyanın Üzv Dövlətlərinə məruzə təqdim etməyi xahiş edir.

Əlavə III.1.13

BMT Baş Assambleyası
62-ci sessiya, 86-cı plenar iclas,
Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət,
QƏTNAMƏ

14 mart, 2008-ci il

Baş Assambleya,

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsinin məqsədlərini, prinsiplərini və müddəalarını rəhbər tutaraq,

Təhlükəsizlik Şurasının 822 (1993) saylı 30 aprel 1993-cü il tarixli, 853 (1993) saylı 29 iyul 1993-cü il tarixli, 874 (1993) saylı 14 oktyabr 1993-cü il tarixli və 884 (1993) saylı 12 noyabr 1993 tarixli qətnamələrini və Assambleyanın "Azərbaycanda qaçqınlara və məcburi köçkünlərə fövqəladə beynəlxalq yardım" adlanan 48/114 saylı 20 dekabr 1993-cü il tarixli və "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlanan 60/285 saylı 7 sentyabr 2006-cı il tarixli qətnamələrini bir daha xatırladaraq,

Dağlıq Qarabağ ətrafındakı Azərbaycanın işğal olunmuş əraziləri üzrə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının fakt-araşdırıcı missiyasının hesabatını və Dağlıq Qarabağ ətrafındakı Azərbaycanın işğal olunmuş əraziləri üzrə Minsk Qrupunun fakt-araşdırıcı missiyasına dair Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Minsk Qrupu Həmsədrlərinin Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Daimi Şurasına ünvanlanmış məktubunu[1] həmçinin yada salaraq,

Yanğınlara məruz qalmış Dağlıq Qarabağ regionu və onun ətraf ərazilərində Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı tərəfindən aparılmış ətraf mühitin qiymətləndirmə missiyasının hesabatını[2] nəzərə alaraq ,

Münaqişə tərəflərinin beynəlxalq humanitar hüququn qaydalarına dürüstcəsinə riayət etməyə dair götürdüyü öhdəlikləri bir daha təsdiqləyərək,

Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionu və onun ətraf ərazilərində mövcud olan münaqişənin beynəlxalq sülh və təhlükəsizliyə təhdid olmasından ciddi narahatlıq duyaraq və onun Cənubi Qafqaz ölkələrindəki humanitar vəziyyətə və inkişafa etdiyi təsiri nəzərə alaraq:

1. Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınan sərhədləri daxilində suverenliyinə və ərazi bütövlüyünə davam edən hörmət və dəstəyi bir daha təsdiqləyir;

2. Ermənistanın bütün qüvvələrinin Azərbaycan Respublikasının işğal altında olan bütün ərazilərini dərhal, tam və qeyd-şərtsiz tərk etmələrini tələb edir;

3. Azərbaycan Respublikasının işğal edilmiş ərazilərindən qovulmuş əhalinin öz evlərinə qayıtmasına dair ayrılmaz hüquqlarını bir daha təsdiq edir və münaqişədən zərər görmüş ərazilərin bütünlüklə bərpası da daxil olmaqla bu qayıdış üçün müvafiq şəraitin yaradılmasının zəruriliyini vurğulayır;

4. Azərbaycan Respublikasının tərkibində qalacaq Dağlıq Qarabağ bölgəsində effektiv demokratik özünüidarə sisteminin yaradılması üçün imkan yaradacaq Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində azərbaycanlı və erməni icmalarının normal, təhlükəsiz və bərabər şərtlər əsasmda yaşamasının təmin edilməsinin zəruriliyini tanıyır;

5. Bir daha təsdiq edir ki, heç bir dövlət Azərbaycan Respublikasının ərazilərinin işğalının nəticələrindən gələn vəziyyəti hüquqi olaraq tanımamalı, eləcə də bu vəziyyətin saxlanması üçün hər hansı yardım və dəstək göstərməməlidir;

6. Beynəlxalq hüququn norma və prinsiplərinə uyğun şəkildə münaqişənin sülh yolu ilə həlli məqsədi daşıyan beynəlxalq vasitəçilik səylərinə, xüsusilə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının Minsk Qrupunun səylərinə dəstək ifadə edir və yuxarıda qeyd olunan müddəalara uyğun şəkildə davamlı və

dönməz sülhə nail olmaq məqsədilə bu səylərin intensivləşdirilməsi zəruriliyini tanıyır;

7. Üzv dövlətlər, beynəlxalq və regional təşkilatlar və strukturları öz səlahiyyətləri çərçivəsində münaqişənin tənzimlənməsi prosesinə səmərəli şəkildə töhfə verməyə çağırır;

8. Baş Katibdən Baş Assambleyanın altmış üçüncü sessiyasında bu qətnamənin həyata keçirilməsinə dair müfəssəl hesabat təqdim etməyi xahiş edir;

9. Altmış üçüncü sessiyanın ilkin gündəliyinə "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı bəndin daxil edilməsini qərara alır.

---

[1] A/59/747-S/2005/187

[2] A/61/696

III.2. ATƏT-in sənədləri

Əlavə III.2.1

Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi (ATƏM) Xarici İşlər Nazirlərinin birinci əlavə görüşü Yekun Qərar

Helsinki, 24 mart 1992

1. 1992-ci il martın 24-də ATƏM-in Şurası öz birinci iclasını Helsinkidə keçirdi.

2. Nazirlər onların hər birinin ATƏM-in öhdəlik və vəzifələrini qəbul etmələri haqda məktubları aldıqdan sonra Xorvatiya, Gürcüstan və Sloveniyanı üzv dövlətlər kimi salamladılar.

Nazirlər Xorvatiya və Sloveniyanm üzvlüyə qəbulunun heç bir halda nə Yuqoslaviyaya dair Konfransa təsir edəcəyini, nə də ki bu Konfransın nəticələrinə zərər vuracağını hesab etmirlər.

Nazirlər Yuqoslaviyaya dair Brüssel Konfransının Yuqoslav böhranının tam siyasi həlli axtarışlarındakı cəhdlərini dəstəkləyir.

3. Nazirlər Dağlıq Qarabağda və onun ətrafında əzabların artması və əhali arasında insan tələfatının çoxalması ilə nəticələnən hərbi münaqişənin davam etməsi ilə bağlı öz dərin təşvişlərini bildirirlər. Münaqişənin davam etməsi və genişlənməsinin regional və beynəlxalq təhlükəsizlik üçün törədə biləcəyi nəticələri xatırladaraq münaqişənin dayandırılması yollarının və vasitələrinin geniş müzakirəsini apardılar. Onlar bütün tərəfləri dözümlülük göstərməyə çağırdılar.

4. Nazirlər yerlərdə atəşkəs həyata keçirməyə cavabdeh olan komandirlərin fəal iştirakı ilə təcili olaraq və effektli şəkildə atəşin kəsilməsini qəti olaraq tələb etdilər. Onlar inam mühitinin və siyasi və iqtisadi təzyiq tədbirlərinin qəbul olunmasının dayandırılması da daxil olmaqla konstruktiv dialoq üçün şərtlərin bərpası ilə bağlı çağırışla müraciət etdilər.

5. Nazirlər ATƏM çərçivəsindəki hazırki fəaliyyətin xülasəsini nəzərdən keçirdilər və Yüksək Vəzifəli Şəxslər Komitəsinin qəbul etdiyi qərara bütövlükdə razılıqlarını bildirdilər. Nazirlər ATƏM-in fəaliyyətdə olan Sədrinə bu məsələ ilə əlaqədar onlar tərəfindən qəbul olunmuş addımlara görə minnətdarlıqlarını bildirdilər və zərurət yaranarsa, ona bütün mümkün olan köməyi göstərməyə hazır olduqlarını bildirdilər.

6. Nazirlər Avropa Birliyi və onun üzv dövlətləri, Müstəqil Dövlətlər Birliyinin üzv dövlətləri tərəfindən göstərilən qarşılıqlı tamamlayıcı səyləri, xüsusilə də BMT-nin Baş Katibi tərəfindən göstərilən səyləri alqışlayır.

Onlar ATƏM-in fəaliyyətdə olan Sədrindən bu məsələ ilə bağlı BMT ilə möhkəm əlaqələr qurmağı və mütəmadi informasiya mübadiləsi aparmağı xahiş etdilər.

Nazirlər razılaşdılar ki, bu məsələyə münasibətdə sülh prosesinin inkişaf işində ATƏM mühüm rol oynamalıdır. Onlar razılaşdılar ki, Dağlıq Qarabağ və onun ətrafındakı vəziyyət ATƏM tərəfindən ardıcıl fəaliyyət tələb edir.

7. Nazirlər ATƏM-in Nazirlər Şurasının Sədri cənab İrji Dinstbirə atəşin kəsilməsinin effektivliyini əldə etmək və dəstəkləmək, həmçinin hər tərəfli dinc vasitələrlə nizamlamaq üçün şəraitin yaradılmasına kömək məqsədilə yaxın günlərdə regiona səfər etməsini həvalə etdilər.

8. Nazirlər ATƏM-in başçılığı altında Dağlıq Qarabağ üzrə Konfransın ATƏM-in müddəaları, vəzifələri və prinsipləri əsasında böhranın dinc vasitələrlə nizamlanması məqsədi ilə danışıqların aparılması üçün daimi fəaliyyət göstərən forumu təmin edəcəyini qəti əminliklə bildirdilər. Bununla əlaqədar olaraq, nazirlər təcili olaraq belə bir konfransın çağırılmasını ATƏM-in Nazirlər Şurasının fəaliyyətdə olan sədrindən xahiş etdilər.

9. Bundan başqa, nazirlər Minskdə təşkil olunacaq konfransın iştirakçılarının Azərbaycan, Ermənistan, Belarusiya, Almaniya, İtaliya, Rusiya Federasiyası, ABŞ,Türkiyə, Fransa, Çexiya və Slovakiya Federativ Respublikası və İsveç dövlətlərinin olması ilə razılaşdılar. Dağlıq Qarabağdan seçilmiş nümayəndələr isə Konfransın üzvü olan dövlətlərlə məsləhətləşmələr aparıldıqdan sonra Konrfransın sədri tərəfindən maraqlı tərəf kimi dəvət olunacaqlar. ATƏM-in Nazirlər Şurasmın fəaliyyətdə olan sədri ATƏM-in başçılığı altında olan Dağlıq Qarabağ Konfransının sədrini təyin edir.

10.Nazirlər ATƏM-in bütün üzv dövlətlərini və maraqlı tərəfləri beynəlxalq nəzarət altında olan təhlükəsizlik dəhlizi də daxil olmaqla təcili və effektli vasitələrdən istifadə etməklə bütün ehtiyacı olan şəxslərə humanitar yardım göstərilməsinin təmin edilməsi üçün bütün zəruri olan addımların atılmasma təkidlə çağırdılar.

11.Nazirlər ATƏM-in fəaliyyətdə olan sədrinin regiondakı missiyasına, həmçinin ATƏM-in Şurasınm razılığı ilə əldə olunmuş digər fəaliyyətlərə tam dəstək verməyin Ermənistamn və Azərbaycanm vəzifələri olduğunu nəzərə çatdırdılar.

Əlavə III.2.2

ATƏM-in Budapeşt Zirvə Toplantısı
Regional məsələlər
Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar
ATƏM-in fəaliyyətinin intensivləşdirilməsi haqqında

Budapeşt, 5 dekabr 1994-cü il

1. İştirakçı dövlətlər münaqişə və onun nəticəsi kimi insan faciəsinin davam etməsini pisləyərək münaqişədə iştirak edən tərəflərin 1994-cü il may ayının 12-də ATƏM-in Minsk Qrupu ilə birgə əməkdaşlıqda Rusiya Federasiyasının vasitəçiliyi ilə razılaşdırılmış atəşkəsi təsdiq etmələrini alqışladılar. İştirakçı dövlətlər BMT Təhlükəsizlik Şurasının əlaqədar qətnamələrinə dair öhdəliklərini təsdiq etdilər və Təhlükəsizlik Şurasının münaqişənin sülh yolu ilə həll edilməsinə yönəlmiş ATƏM-in səylərinə verdiyi siyasi dəstəyi alqışladılar. Bununla əlaqədar, onlar münaqişədə iştirak edən tərəfləri, birbaşa əlaqələr də daxil olmaqla, intensiv daimi danışıqlara çağırdılar. Bundan çıxış edərək onlar ATƏM-in səylərini və yardımını gücləndirəcəklərinə əmin etdilər. Onlar ATƏM-in Minsk Qrupunun vasitəçilik səylərini tamamilə müdafiə etdilər və Rusiya Federasiyasının çox mühüm yardımını və Minsk Qrupunun digər ayrılıqda götürülmüş üzvlərinin səylərini yüksək qiymətləndirdilər. Onlar bütün bunları ATƏM çərçivəsi daxilində vahid, uzlaşdırılmış səylər şəklində uyğunlaşdırmağa razılaşdılar.

2. Bununla əlaqədar, onlar fəaliyyətdə olan sədrə iştirakçı dövlətlərlə məsləhətləşərək və mümkün qədər tez bir zamanda fəaliyyət göstərərək, danışıqlar üçün ümumi və razılaşdırılmış əsasın təmin olunması və bütün vasitəçilik və danışıqlara dair fəaliyyətlərin tam uyğunlaşdırılmasının həyata keçirilməsindən ötrü Minsk Konfransının həmsədrlərini təyin etməyi tapşırdılar. ATƏM prinsiplərini və razılaşdırılmış mandatı əldə rəhbər tutan həmsədrlər Minsk Qrupunun iclaslarında birgə sədrlik edəcək və fəaliyyətdə olan sədrə birgə hesabat verəcəklər. Onlar mütəmadi olaraq Daimi Şuraya öz işlərindəki irəliləyişlər barədə ətraflı məlumat verəcəklər.

3. Bu səylərdə birinci addım kimi onlar Minsk Konfransının həmsədrlərinə Rusiya Federasiyasının və Minsk Qrupunun digər ayrı-ayrılıqda dövlətlərinin köməyi və onlarla əməkdaşlıq edərək mövcud atəşkəsin davam etdirilməsinə kömək etmək üçün dərhal addımlar atmağı və ötən vasitəçilik fəaliyyətində artıq əldə edilmiş irəliləyişlərə əsaslanaraq silahlı münaqişə bitdikdən sonra siyasi sazişin imzalanması üçün intensiv danışıqlar keçirməyi tapşırdılar. Bu sazişin həyata keçirilməsi bütün tərəflər üçün münaqişənin əsas nəticələrini aradan

qaldıracaq və Minsk Konfransının çağırılmasına imkan verəcəkdir. Bundan başqa onlar Minsk Konfransının həmsədrlərindən inam yaradılması sahəsində, xüsusən humanitar sahədə tədbirlərin gələcəkdə də həyata keçirilməsi yolunda tərəflərlə birgə işi davam etdirməyi xahiş etdilər. Onlar iştirakçı dövlətlərin həm ayrı-ayrılıqda, həm də əlaqədar beynəlxalq təşkilatlar çərçivəsində qaçqınların vəziyyətinin yüngülləşdirilməsinə xüsusi diqqət yetirərək regiondakı əhaliyə humanitar yardımın təmin olunması sahəsində fəaliyyət göstərmələrinin vacibliyini qeyd etdilər.

4. Onlar belə razılaşdılar ki, münaqişədə iştirak edən tərəflərin nöqteyi-nəzərinə əsasən yuxarıda göstərilən sazişin imzalanması sazişin özünün həyata keçirilməsi üçün mühüm element olan çoxmillətli sülhməramlı qüvvələrin yerləşdirilməsinə imkan verəcəkdir. Onlar, BMT Təhlükəsizlik Şurasının uyğun qətnaməsilə silahlı münaqişə bitərkən tərəflər arasında bağlanacaq sazişdən sonra ATƏM-in çoxmillətli sülhməramlı qüvvələri göndərmək barədə siyasi iradələrini bəyan etdilər. Onlar fəaliyyətdə olan sədrdən xahiş etdilər ki, o, mümkün qədər tez bir zamanda, 1992-ci il Helsinki sənədinin üçüncü bəndinə əsasən və BMT Nizamnaməsinə tam uyğun şəkildə təşkil olunacaq belə qüvvələrin yaradılması, tərkibi və əməliyyatlarına dair plan hazırlasın. Bununla əlaqədar, fəaliyyətdə olan sədrə Minsk konfransının həmsədrləri və Minsk qrupu, Baş Katib tərəfindən köməklik və yardım göstəriləcək, o, həmçinin müvafiq məsləhətləşmələrdən sonra sülhməramlı qüvvələri yaradan dövlətlərə bu qüvvələrin xarakteristikası və həcmi, onlara rəhbərlik və nəzarət, arxa təminat hissələrin və ehtiyatların paylanması, davranış və sazişlərin qaydalarına dair tövsiyələr vermək üçün Vyanada yüksək səviyyəli planlaşdırma qrupu yaradacaq. O, BMT-nin texniki məsləhət və ekspertiza təminatına hazır olduğu barədə bəyanatına əsasən BMT-dən yardım almağa çalışacaqdır. O, həmçinin BMT TŞ-dən ATƏM-in sülhməramlı qüvvələrinin mümkün yerləşdirilməsi barədə davamedici siyasi dəstəyə çalışacaqdır.

5. 1992-ci il Helsinki sənədinin üçüncü bəndinin müvafiq maddələrinə və hazırlıq işlərinə, sonrakı saziş və tərəflərin Minsk Konfransının həmsədrləri vasitəsilə fəaliyyətdə olan sədrə rəsmi müraciətinə əsasən Daimi Şura ATƏM-in sülhməramlı əməliyyatlarının təşkilinə dair qərar qəbul edəcəkdir.

Əlavə III.2.3

ATƏT-in Nazirlər Şurasının 5-ci görüşü
ATƏT-in Minsk prosesi üzrə
Q Ə R A R I

Budapeşt, 8 dekabr 1995-ci il

Nazirlər Şurası

- ATƏT-in Minsk prosesinin Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında yeganə forum olmasını təsdiqləyir;
- münaqişə tərəflərinin 1994-cü il mayın 12-də bərqərar edilən atəşkəsə riayət etməyi davam etdirmək əzmlərini alqışlayır;
- tərəfləri bütün hərbi əsirləri və münaqişə ilə bağlı saxlanılan bütün şəxsləri dərhal azad etməyə, Beynəlxalq Qırmızı Xaç Komitəsinin şəxslərin saxlanıldığı bütün yerlərə və bütün saxlanılanlara maneəsiz baş çəkməsini təmin etməyə çağırır;
- fəaliyyətdə olan sədrlə koordinasiyada təxirə salınmadan silahlı münaqişənin dayandırılması haqqında siyasi sazişin əldə edilməsi yolunda Minsk konfransının Həmsədrlərinin səylərini dəstəkləyir. Belə sazişin yerinə yetirilməsi bütün tərəflər üçün münaqişənin əsas nəticələrini aradan qaldıracaq və qısa vaxt ərzində Minsk konfransını çağırmağa imkan yaradacaq. Sazişin imzalanması Daimi Şuraya fəaliyyətinin davam etdirilməsi lazım olan Yüksək Səviyyəli Planlaşdırma Qrupunun dəyərli tövsiyələrinə əsaslanaraq ATƏT-in sülhməramlı əməliyyatının keçirilməsi haqqında qərar qəbul etməyə imkan yaradacaq;
- münaqişənin nizamlanması prinsipləri üzrə razılaşmanın əldə edilməsi məqsədilə, həmsədrlərlə koordinasiyada birbaşa əlaqələrin qurulmasına dair ifadə olunmuş öhdəlikləri alqışlayır və bunu tez bir zamanda gerçəkləşdirməyə təkidlə çağırır;
- kompromisin tezliklə əldə edilməsi məqsədilə tərəflərin ən vacib məsələləri nəzərdən keçirməyə ifadə olunmuş hazırlıqlarını nəzərə alır.

Əlavə III.2.4

ATƏT-in Lissabon Zirvə Toplantısının sənədlərinə Əlavə 1
ATƏT-in Fəaliyyətdə olan Sədrinin
BƏYANATI

Lissabon, 3 dekabr 1996-cı il

Hamınız bilirsiniz ki, son iki il ərzində Dağlıq Qarabağ münaqişəsinin həllində və Azərbaycan Respublikasının ərazi bütövlüyü məsələsində heç bir tərəqqi əldə edilməmişdir. Mən təəssüf edirəm ki, Minsk Konfransı həmsədrlərinin tənzimləmə prinsipləri məsələsində tərəflərin mövqelərini yaxınlaşdırmağa yönəldilən səyləri uğursuz olmuşdur.

Minsk Qrupunun həmsədrləri Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsinin tərkib hissəsi olacaq 3 prinsipi tövsiyə etmişlər. Bu prinsipləri Minsk Qrupunun üzvü olan bütün ölkələr müdafiə edirlər. Onlar aşağıdakılardır:

- Ermənistan Respublikası və Azərbaycan Respublikasının ərazi bütövlüyü;
- Dağlıq Qarabağın Azərbaycan tərkibində öz müqəddəratını təyin etməyə əsaslanan bir razılaşmada müəyyən edilən ən yüksək özünüidarəsini təmin edən hüquqi statusu;
- Məsələnin həllinin müddəalarına əməl olunmasını təmin etmək barədə bütün tərəflərin qarşılıqlı öhdəlikləri daxil olmaqla, Dağlıq Qarabağın və onun bütün əhalisinin təhlükəsizliyi.

Mən təəssüf edirəm ki, Ermənistan bununla razılaşa bilmədi. Bu prinsiplər bütün digər iştirakçı dövlətlər tərəfindən müdafiə edilir.

Bu bəyanat Lissabon sammitinin sənədləri sırasına daxil ediləcəkdir.

Əlavə III.2.5

ATƏT-in Minsk Qrupu həmsədrlərinin irəli sürdükləri təkliflər
ATƏT-in Minsk qrupunun sədarəti
Dağlıq Qarabağ münaqişəsinin aradan
qaldırılmasına dair hərtərəfli
SAZİŞ*

18 iyul 1997-ci il

PREAMBULA

Tərəflər onların xalqlarının tərəqqisi və firavanlığı üçün regionda sülhün və əməkdaşlığın əhəmiyyətini tamamilə dərk edərək uzun sürən Dağlıq Qarabağ münaqişəsini dincliklə aradan qaldırmaq əzmindədirlər. Aşağıda şərh edilən nizamasalma Qafqazın birgə iqtisadi inkişafı üçün zəmin yaradacaq, demokratik təsisatlar, rifahın yüksəlməsi və gələcəyə böyük ümidlər bəslənməsi şəraitində bu regionun xalqlarına normal və səmərəli həyat sürməyə imkan verəcəkdir. Bu sazişə uyğun olaraq aparılan əməkdaşlıq bütün regionda ticarət, nəqliyyat və rabitə sahəsində normal münasibətlərə gətirib çıxaracaq, beynəlxalq təşkilatların köməyi ilə insanlara öz şəhər və kəndlərini bərpa etməyə, regionda xarici kapital qoyuluşlarının xeyli artırılması üçün lazımi sabitlik yaratmağa və müqəddəm şərtləri Qafqaz regionunun özündə olan təbii tərəqqinin bütün insanlar üçün əldə edilməsinə doğru aparan qarşılıqlı surətdə faydalı ticarətə yol açmağa imkan verəcəkdir. İnsanlar arasında barışıq və əməkdaşlıq onların çox böyük potensialını öz qonşularının və dünya xalqlarının rifahı üçün sərbəstləşdirəcəkdir.

Ona görə tərəflər BMT nizamnaməsinin müddəalarına, ATƏT-in əsas prinsiplərinə və qərarlarına, beynəlxalq hüququn hamılıqla tanınmış normalarına sadiq qalaraq və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 nömrəli qətnamələrinin tamamilə yerinə yetirilməsinə kömək göstərmək əzmində olduqlarını bildirərək silahlı münaqişənin dayandırılmasına nail olmağa və normal münasibətlərin bərpasına dair I sazişdə şərh edilmiş tədbirləri həyata keçirmək və Dağlıq Qarabağın qəti statusu haqqında II sazişdə şərh olunmuş razılığa gəlmək barədə razılaşırlar.

I. SAZİŞ – silahlı münaqişənin dayandırılması

Tərəflər razılığa gəlirlər:

I. Onların arasında mübahisələrin, o cümlədən bu sazişin həyata keçirilməsi ilə əlaqədar mübahisələrin nizama salınması üçün silahlı qüvvədən istifadə olunmasından imtina etmək.

II. Silahlı qüvvələri iki mərhələdə çıxarmaq:

Birinci mərhələdə Dağlıq Qarabağdan şərqə və cənuba doğru indiki təmas xətti boyunca olan qüvvələr I əlavədə razılaşdırılmış xətlərə tərəf bir neçə kilometr geri çəkiləcəkdir, bu zaman ATƏT-in çoxmilli qüvvələrinin ön dəstəsini hərbi nöqteyi-nəzərdən əsaslandırılmış bufer zonasında ilkin qaydada yerləşdirməyə, tərəfləri bu xətt boyunca ayırmağa və qüvvələrin çıxarılmasının ikinci mərhələsində təhlükəsizliyin təmin edilməsinə imkan yaratmaq məqsədi ilə yüksək səviyyədə planlaşdırma qrupunun tövsiyələri lazımınca nəzərə alınmalıdır.

İkinci mərhələdə qüvvələr I əlavədə razılaşdırılmış cədvələ müvafiq surətdə aşağıdakı qaydada çıxarılacaqdır:

A. Ermənistan qüvvələri Ermənistan Respublikasının sərhədləri daxilinə aparılır.

B. Dağlıq Qarabağ qüvvələri Dağlıq Qarabağ Muxtar Vilayətinin 1988-ci ildəki hüdudları daxilinə aparılır (aşağıdakı VIII və IX bəndlərdə göstərilmiş istisnalarla).

C. Azərbaycan qüvvələri yüksək səviyyədə planlaşdırma qrupunun tövsiyələri əsasında I əlavədə razılaşdırılmış xətlərə çəkilir.

D. Ağır silahlar uzağa, şəffaflıq və hesabatvermə tələblərinə əməl edilməsi şərti ilə yüksək səviyyədə planlaşdırma qrupunun tövsiyələri əsasında I əlavədə razılaşdırılmış yerlərə aparılacaqdır.

E. Qüvvələrin çıxarılması başa çatdıqdan sonra bufer zonası I əlavədəki xəritədə göstərildiyi kimi, DQMV-nin 1988-ci ildəki hüdudları və Ermənistan - Azərbaycan sərhədinin şimal hissəsi boyunca yerləşəcəkdir.

III. Qüvvələrin çıxarılması nəticəsində azad edilmiş ərazilər ayırıcı zona əmələ gətirir. Bu zonada təhlükəsizliyə nəzarəti ATƏT-in sülhü müdafiə qüvvələri daimi qarışıq komissiya ilə birlikdə həyata keçirəcəklər. ATƏT-in sülhü müdafiə qüvvələrinin və daimi qarışıq komissiyanın II əlavənin həyata keçirilməsi qaydasında razılığı olmadan tərəflərdən heç birinə bu zonaya öz qüvvələrini yeritməyə imkan verilməyəcəkdir; həmin əlavədə sərhəd xidməti, minalardan təmizləmə və mülki polis funksiyaları üçün razılaşdırılmış bölmələr nəzərdə tutulacaqdır. Tərəflər ayırıcı zonada və bufer zonasında bütün hərbi uçuşlara yol verilməməsi barədə razılığa gəlirlər.

IV. Daimi qarışıq komissiya ilə birlikdə təhlükəsizliyə təminat verilməsi üçün ATƏT-in çoxmilli sülhü müdafiə qüvvələrinin bufer zonasında yerləşdirilməsinə kömək etmək. ATƏT-in sülhü müdafiə qüvvələri ATƏT tərəfindən təyin edilmiş

qüvvələrdən ibarət olacaq və onların mandatı BMT Təhlükəsizlik Şurasının qətnaməsi ilə müəyyənləşdiriləcək, həm də mandat ATƏT-in fəaliyyətdə olan sədrinin tövsiyəsi ilə yenidən qüvvəyə minəcəkdir.

V. Köçkün şəxslərin ayırıcı zonadakı əvvəlki daimi yaşayış yerlərinə qayıtmasını həyata keçirmək. ATƏT-in sülhü müdafiə qüvvələri daimi qarışıq komissiya ilə birlikdə qayıdan əhalinin təhlükəsizliyinə nəzarət edəcək və bu zonanın silahsızlaşdırılmış rejiminə bütün tərəflərin inamını təmin edəcəklər.

VI. Qüvvələrin çıxarılması ilə eyni vaxtda yolların, dəmir yollarının, elektrik və rabitə xətlərinin açılması, ticarət münasibətlərinin və digər münasibətlərin bərpası məqsədləri ilə tədbirlər, o cümlədən bu məqsədlər üçün lazım olan bütün işlər həyata keçiriləcəkdir. Tərəflər, etnik azlıqlar da daxil olmaqla, həmin əlaqələrdən hamının istifadə etməsinə təminat verir, bu azlıqların regionun digər yerlərindəki öz etnik qrupları ilə ünsiyyətdə olmasına təminat verirlər. Tərəflərdən hər biri bütün blokadaları aradan qaldırmağı və yüklərin və adamların bütün digər tərəflərə maneəsiz daşınmasım təmin etməyi öhdəsinə götürür. Ermənistan və Azərbaycan öz aralarında, o cümlədən Bakı - Horadiz - Mehri-Ordubad - Naxçıvan - Yerevan xəttində sərbəst və təhlükəsiz dəmir yol əlaqəsinə təminat verirlər.

VII. Münaqişə ilə əlaqədar tutulub saxlanılan bütün şəxslərin qayıtmasının, itkin düşmüş şəxslərin taleyinin araşdırılmasının və bütün cənazələrin qaytarılmasının təmin olunması üçün Beynəlxalq Qızıl Xaç Komitəsi, BMT-nin qaçqınların işləri üzrə ali komissarı ilə və digər beynəlxalq humanitar təşkilatlarla əməkdaşlıq etmək.

VIII. Laçın dəhlizinə aid aşağıdakı tədbirlər barəsində:

A. Azərbaycan dəhlizi ATƏT-ə icarəyə verir, ATƏT dəhlizdən yalnız Dağlıq Qarabağın hakimiyyət orqanlarının istifadəsi üçün müqavilə bağlayır (tranzit üçün aşağıda, E bəndində göstərilən istisnalarla).

B. ATƏT Dağlıq Qarabağın hakimiyyət orqanları ilə əməkdaşlıq şəraitində təhlükəsizliyə nəzarət edir.

C. Laçın dəhlizinin hüdudları yüksək səviyyədə planlaşdırma qrupunun tövsiyələri, lazımınca nəzərə alınmaqla, II əlavədə razılaşdırılmışdır.

D. ATƏT Laçın şəhərindən yan keçən yolun çəkilməsinə nəzarət edir. Yolun tikintisi başa çatdıqdan sonra Laçın şəhəri Laçın dəhlizindən çıxarılır. O, (ayırıcı zonanın bir hissəsi kimi) Azərbaycanın inzibati nəzarəti altına qaytarılır və onun əvvəlki sakinləri qayıda bilərlər.

E. Dəhlizdə daimi məskənlər salınmasına və təhlükəsizlik qüvvələrinin icazə verilmiş kontingentləri istisna olmaqla, silahlı qüvvələr yerləşdirilməsinə yol verilmir. Rəsmi şəxslər, müşahidəçilər və ATƏT-in sülhü müdafiə qüvvələrinin üzvləri, eləcə də Laçın rayonundan Qubadlı rayonuna gedən və ya geriyə qayıdan

regionun azərbaycanlı sakinləri qabaqcadan xəbər verildikdə istənilən istiqamətdə tranzit hüququna malikdirlər. Laçın rayonunun dəhlizin çərçivəsindən kənardakı ərazisi ayırıcı zonanın bir hissəsidir.

IX. Şuşa şəhərinə və Şaumyan rayonuna aid aşağıdakı tədbirlər barəsində:

A. Tərəflər, məhdud xidməti heyəti olan hava hücumundan müdafiə bölmələri istisna olmaqla, öz silahlı bölmələrini hər iki məntəqədən çıxarırlar.

B. Yerli hakimiyyət orqanları ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu müşahidəçilərinin yerləşdirilməsinə yardım göstərəcəklər.

C. Köçkün şəxslər özlərinin əvvəlki daimi yaşayış yerlərinə qayıda bilərlər. Onların təhlükəsizliyinə müvafiq yerli hakimiyyət orqanları təminat verəcəklər.

D. Qayıdan sakinlər, siyasi partiyalar yaratmaq hüququ da daxil olmaqla, bütün vətəndaş hüquqlarına malikdirlər. Onlar müvafiq surətdə Bakının və Stepanakertin parlamentlərində və bu yerlərdə seçkili şuralarda, polisdə və təhlükəsizlik qüvvələrində həmin yerlərin əhalisi arasında sayına uyğun olaraq təmsil ediləcəklər.

E. Daimi qarışıq komissiya beynəlxalq yardımın bu yerlərdə ədalətli əsasda və əhalinin hər iki qrupuna sərfəli şəkildə bölüşdürülməsini əlaqələndirir.

F. Şuşa şəhərinin Şaumyan rayonunun sakinləri yollardan, Azərbaycanın qalan hissəsi ilə və Dağlıq Qarabağla rabitədən və digər vasitələrdən təminatlı istifadə edə biləcəklər.

X. Bu sazişin Azərbaycanla və Dağlıq Qarabağla bağlı problemlərə aid müddəalarının həyata keçirilməsinə nəzarət üçün Daimi Qarışıq Komissiya (DQK) təsis etmək. DQK-nın üç həmsədri var: biri azərbaycanlı, biri Dağlıq Qarabağdan və ATƏT-in fəaliyyətdə olan sədrinin nümayəndəsi. Azərbaycanlı və Dağlıq Qarabağdan olan həmsədrlərin əsas vəzifəsi sazişi həyata keçirməkdən ibarətdir; ATƏT-dən olan həmsədrin əsas vəzifəsi isə fikir ayrılıqları təqdirində vasitəçi və arbitraj olmaqdır. DQK-nın hərbi, iqtisadi, humanitar ve mədəni yardımçı komissiyaları var. DQK və onun yardımçı komissiyalarının funksiyaları II əlavədə şərh edilmişdir.

XI. Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında tam diplomatik münasibətlər yaratmaq.

XII. Bir həmsədri Ermənistan Respublikasından və digər həmsədri Azərbaycan Respublikasından olmaqla Ermənistan-Azərbaycan İkitərəfli Komissiyası (EAİK) yaratmaq. ATƏT-in fəaliyyətdə olan sədri bu komissiyada təmsil edilir.

EAİK sərhəd toqquşmalarının qarşısının alınmasına kömək edir, hər iki ölkənin sərhəd qoşunları və digər müvafiq təhlükəsizlik qüvvələri arasında əlaqəni həyata keçirir və yolların, dəmir yollarının, rabitə xətlərinin, boru kəmərlərinin

açılması, ticarət münasibətlərinin və digər münasibətlərin bərpası tədbirlərinə nəzarət edir.

XIII. BMT Təhlükəsizlik Şurası bu sazişin təminatçısı olacaqdır.

XIV. Bu saziş ATƏT-in Minsk konfransında hərtərəfli nizamasalma haqqında saziş bağlanılan vaxtadək qüvvədə qalacaqdır. Həmin saziş indiki sazişdə nəzərdə tutulan təhlükəsizlik və sülhü müdafiə mexanizmlərinin əvəzinə daimi belə mexanizmlər yaradacaqdır.

II SAZİŞ: status

Preambula

Dağlıq Qarabağın statusu və onun əsas etnik və mədəni xarakterinin saxlanılması, Ermənistan Respublikası da daxil olmaqla, beynəlxalq birlik üçün maraq doğurur. O istər Azərbaycan Respublikasının, istərsə də Dağlıq Qarabağın hakimiyyət orqanlarının birtərəfli hərəkəti ilə müəyyən edilə bilməz. Status aşağıdakı parametrlərlə müəyyən olunur:

I. Münaqişədə iştirak edən bütün tərəflərin Azərbaycanın və Ermənistanın ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını tanıması.

II. Dağlıq Qarabağ Azərbaycanın tərkibində dövlət və ərazi qurumudur və onun öz müqəddəratını təyin etməsi Azərbaycan Respublikası ilə Dağlıq Qarabağın hakimiyyət orqanları arasında sazişdə rəsmiləşdirildikdən, Minsk konfransı tərəfindən bəyənildikdən, Azərbaycanın və Dağlıq Qarabağın Konstitusiyalarında inkorporasiya olunduqdan sonra aşağıdakı hüquqları və imtiyazları əhatə edəcəkdir.

III. Dağlıq Qarabağ və Naxçıvan Ermənistanla və Azərbaycanla sərbəst və maneəsiz nəqliyyat və rabitə əlaqəsi saxlamaq hüququna malik olacaq.

IV. Dağlıq Qarabağın inzibati sərhədləri keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin sərhədləri üzrə müəyyən edilir.

V. Dağlıq Qarabağın referendumda "Dağlıq Qarabağ xalqı" tərəfindən qəbul edilmiş öz konstitusiyası olacaqdır. Həmin Konstitusiya bu sənəd əsasında öz müqəddəratını təyin etmək forması haqqında Dağlıq Qarabağın hakimiyyət orqanları ilə Azərbaycan arasında rəsmi sazişi inkorporasiya edəcəkdir. Azərbaycan bu sazişlərin inkorporasiyası üçün öz Konstitusiyasına müvafiq dəyişikliklər edəcəkdir.

Dağlıq Qarabağın öz bayrağı, gerbi və himni olacaqdır.

VI. Dağlıq Qarabağın ərazisində Dağlıq Qarabağın Konstitusiyası və qanunları işləyir. Əgər Azərbaycanın qanunları, qaydaları və icra qərarları Dağlıq Qarabağın Konstitusiyasına və qanunlarına zidd deyildirsə, onlar sonuncunun ərazisində qüvvəyə malikdir.

VII. Dağlıq Qarabağ özünün qanunvericilik, icra və məhkəmə orqanlarını müstəqil surətdə formalaşdırır.

VIII. Dağlıq Qarabağ əhalisi Azərbaycan parlamentinə nümayəndələr seçir və Azərbaycan prezidentinin seçkilərində iştirak edir.

IX. Dağlıq Qarabağ xaricdə müvafiq nümayəndəliyi olmaq şərti ilə iqtisadiyyat, elm, mədəniyyət, idman sahələrində və humanitar məsələlərdə əcnəbi dövlətlərlə və beynəlxalq təşkilatlarla bilavasitə xarici əlaqələr saxlamaq hüququna malik olacaqdır. Dağlıq Qarabağın siyasi partiyalarının digər ölkələrdəki siyasi partiyalar ilə əlaqələr yaratmaq hüququ olacaqdır.

X. Dağlıq Qarabağ vətəndaşlarının üzərində xüsusi olaraq "Dağlıq Qarabağ" yazılmış Azərbaycan pasportu olacaqdır. Dağlıq Qarabağ vətəndaşları Ermənistan qanunlarına uyğun olaraq əcnəbilər hesab edilməyəcəklər, istənilən vaxt Ermənistana mühacirət edə və Ermənistan Respublikasına daimi mühacirət təqdirində Ermənistan vətəndaşlığını qəbul edə bilərlər.

XI. Dağlıq Qarabağ valyutaların sərbəst işləndiyi azad iqtisadi zona olacaqdır.

XII. Dağlıq Qarabağın milli qvardiyası və polis qüvvələri olacaqdır. Dağlıq Qarabağ vətəndaşlarının Dağlıq Qarabağ ərazisində xidmət etmək hüququ olacaqdır.

XIII. Azərbaycanın ordusu, təhlükəsizlik və polis qüvvələri Dağlıq Qarabağ ərazisinə yalnız Dağlıq Qarabağ hakimiyyət orqanlarının icazəsi ilə daxil olmaq hüququna malik olacaqdır.

XIV. Dağlıq Qarabağın büdcəsi onun öz ehtiyatları hesabına əmələ gələn daxilolmalardan tərtib edilir. Dağlıq Qarabağ hökuməti Azərbaycanın və xarici ölkələrin şəxslərini və şirkətlərini kapital qoyuluşuna həvəsləndirəcək və buna təminat verəcəkdir.

XV. Dağlıq Qarabağ çox etnik xarakterə malikdir; hər bir vətəndaş bütün rəsmi və qeyri-rəsmi hallarda öz milli dilindən istifadə hüququna malikdir.

XVI. BMT Təhlükəsizlik Şurası bu sazişin təminatçısı olacaqdır.

Dağlıq Qarabağ münaqişəsi üçün etimadın möhkəmləndirilməsi tədbirləri

Münaqişənin dincliklə aradan qaldırılmasına nail olmaq niyyətini nümayiş etdirmək üçün tərəflər hər hansı bir digər sazişi gözləmədən etimadın və təhlükəsizliyin möhkəmləndirilməsinə dair aşağıdakı tədbirlərdən istənilənləri və ya onların hamısım həyata keçirə bilərlər:

- Azərbaycan və Ermənistan İcevan - Qazax sektorunda öz aralarındakı sərhəd boyunca atəşkəs rejimini dərhal bərpa etmək barədə öhdəlik götürə bilər. 1992-ci

ildə tətbiq olunmuş bu rejim təcili telefon rabitəsi xəttindən və sərhəddə birgə keşik çəkilməsindən ibarət idi;

- tərəflər Dağlıq Qarabağla əlaqədar, məsələn, İcevan-Qazax sektorunda, Ermənistan-Azərbaycan sərhədi boyunca əlavə müşahidənin həyata keçirilməsi üçün ATƏT-in fəaliyyətdə olan sədrinin müşahidə üzrə missiyasının genişləndirilməsi haqqında sazişə gələ bilərlər;

- humanitar tələbatların (istər Azərbaycanın köçkün şəxsləri üçün, istərsə də Dağlıq Qarabağın daxilində) müəyyənləşdirilməsi məqsədi ilə BMT-nin Qaçqınların İşləri üzrə Ali Komissarının və Beynəlxalq Qızıl Xaç Komitəsinin köməyi ilə dialoq. Bu, ya BMT Ali Komissarının, ya da Beynəlxalq Qızıl Xaç Komitəsinin razılığı ilə həyata keçirilə bilər;

- Dağlıq Qarabağ regionunda həm ermənilər üçün, həm də azərbaycanlılar üçün açıq olan həftəlik və ya gündəlik bazarların təşkili. Bu, sərhədi keçmək üçün məntəqələr yaradılmasını, bazar meydançalarına gələn yolların açılmasını və minalardan təmizlənməsini, tranzit rejimlərinin və ticarət qaydalarının modallığı haqqında sazişlər bağlanmasını tələb edəcəkdir.

---

* ATƏT-in Minsk Qrupunun həmsədrləri münaqişənin dinc yolla aradan qaldırılması üçün indiyə qədər üç təklif irəli sürmüşlər. Bunlardan birincisi 1997-ci il iyulun 18-də təqdim edilmiş və şərti olaraq daha çox "paket həll" adı ilə tanınan təklifdir. Həmin təklif müəyyən qeyd-şərtlərlə münaqişənin həllində əsas kimi Azərbaycan tərəfindən qəbul edilmişdir. Lakin Ermənistan bu təkliflə razılaşmamışdır.

Əlavə III.2.6

ATƏT-in Minsk qrupunun sədarəti
Dağlıq Qarabağ silahlı münaqişəsinin
dayandırılması haqqında
SAZİŞ *

2 dekabr 1997-ci il

PREAMBULA

Tərəflər uzun sürən Dağlıq Qarabağ münaqişəsini dincliklə nizama salıb mövcud atəşkəsi möhkəm sülhə çevirmək əzmində olaraq;

regionda sülhün və əməkdaşlığın onların xalqlarının tərəqqisi və firavanlığı üçün əhəmiyyətini təsdiqləyərək;

Qafqaz xalqlarına demokratik təsisatlar, rifahın yüksəlməsi və gələcəyə böyük ümid bəslənməsi şəraitində normal və səmərəli həyat sürmək imkanı verməklə bu regionun birgə iqtisadi inkişafı üçün zəmin yaratmaq istəyərək;

bu sazişə uyğun olaraq əməkdaşlığın bütün regionda ticarət, nəqliyyat və rabitə sahəsində normal münasibətlərə gətirib çıxaracağını, beynəlxalq təşkilatların köməyi ilə insanlara öz şəhər və kəndlərini bərpa etməyə, regionda xarici kapital qoyuluşlarının xeyli artması üçün lazımi sabitlik yaradılmasına və müqəddəm şərtləri Qafqaz regionunun özündə olan təbii tərəqqinin bütün insanlar üçün əldə edilməsinə doğru aparan qarşılıqlı surətdə faydalı ticarətə yol açmasına və insanlar arasında barışığın və əməkdaşlığın onların çox böyük potensialını qonşularının və dünya xalqlarının firavanlığı üçün sərbəstləşdirməyə imkan verəcəyini dərk edərək;

BMT nizamnaməsinin müddəalarına, ATƏT-in əsas prinsiplərinə və qərarlarına, beynəlxalq hüququn hamılıqla tanınmış normalarına və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 nömrəli qətnamələrinin tamamilə həyata keçirilməsinə sadiq qalaraq;

ATƏT-in üzvü olan dövlətlərin münaqişənin dincliklə nizama salınmasında səylərini gücləndirmək və ATƏT-ə kömək etmək barədə 1994-cü ildə Budapeşt sammitində öhdəlik götürdüklərini və onların Minsk konfransının həmsədrlərinə operativ danışıqlar aparmağa dair tapşırıq verdiklərini və silahlı münaqişənin dayandırılması haqqında tərəflər arasında saziş əldə edildikdən sonra BMT Təhlükəsizlik Şurasının müvafiq qətnaməsinin qəbul olunacağı təqdirdə sülhün qorunması üzrə ATƏT-ə çoxmilli qüvvələr verməyə siyasi cəhətdən hazır olduqları barədə bəyanatım xatırladaraq;

Dağlıq Qarabağın qəti statusunu müəyyənləşdirəcək hərtərəfli nizamasalmaya təxirə salınmadan nail olmaq məqsədi ilə sülh prosesini vicdanla davam etdirmək əzmində olaraq aşağıdakılar barədə öz üzərlərinə öhdəliklər götürürlər:

I. Tərəflər öz aralarındakı mübahisələrin həlli üçün zor işlətməklə hədələməkdən və ya zor işlətməkdən imtina edir və çəkinirlər. Onlar bütün belə mübahisələri, o cümlədən bu sazişin həyata keçirilməsi ilə əlaqədar yarana biləcək mübahisələri dinc vasitələrlə, ilk növbədə danışıqlar yolu ilə, o cümlədən ATƏT-in Minsk prosesi çərçivəsində danışıqlar yolu ilə həll edirlər.

II. Tərəflər öz silahlı qüvvələrini aşağıdakı müddəalara uyğun olaraq və 1-ci əlavədə müfəssəl şərh edildiyi kimi çıxarırlar:

A) birinci mərhələdə qüvvələr Dağlıq Qarabağdan şərqə və cənuba doğru uzanan indiki təmas xətti boyunca 1-ci əlavədə göstərilmiş xətləri və bu əlavədə olan cədvələ müvafiq surətdə, ATƏT-in çoxmilli qüvvələrinin ön dəstəsini hərbi

nöqteyi-nəzərdən əsaslandırılmış müvəqqəti bufer zonasında ilkin qaydada yerləşdirməyə, tərəfləri bu xətt boyunca ayırmağa və qüvvələrin çıxarılmasının ikinci mərhələsi zamanı təhlükəsizliyi təmin etməyə imkan yaradılması məqsədi ilə yüksək səviyyədə planlaşdırma qrupunun (YSPQ) tövsiyələri lazımınca nəzərə alınmaqla çəkilirlər.

B) ikinci mərhələdə qüvvələr eyni vaxtda və 1-ci əlavədə göstərilmiş cədvələ müvafiq surətdə aşağıdakı qaydada çıxarılır:

(1) Ermənistan Respublikasının sərhədləri xaricində yerləşdirilmiş Ermənistanın hər hansı qüvvələri bu sərhədlərin hüdudları daxilinə aparılır.

(2) Dağlıq Qarabağın qüvvələri, Laçın rayonu istisna olmaqla, Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) 1988-ci il hüdudları daxilinə aparılır.

(3) Azərbaycanın qüvvələri YSPQ-nin tövsiyələrinə əsasən, 1-ci əlavədə göstərilmiş xətdən kənara çıxarılır və Ermənistanın hər hansı ərazisindən çıxarılır.

(4) Ağır silahlar YSPQ-nin tövsiyələrinə əsasən, ATƏT-in sülhü müdafiə qüvvələrinin müşahidəsi altında, 1-ci əlavədə şərh edilmiş şəffaflıq və hesabatvermə tələblərinə əməl edilməklə bu əlavədə göstərilmiş yerlərə aparılır.

III. Qüvvələrin bu cür çıxarılması və yerdəyişməsinin aid olduğu ərazi, 2-ci əlavədə müfəssəl şərh olunduğu kimi, bufer zonasını və ayırıcı zonanı əmələ gətirir:

A. Qüvvələrin çıxarılması başa çatdıqdan sonra bufer zonası DQMV-nin 1988-ci il hüdudları, Laçın rayonunun şimal və cənub hüdudları boyunca yerləşir. Bufer zonasında əhali məskunlaşdırılmır və ATƏT-in sülhü müdafiə əməliyyatının elementləri istisna olmaqla, tamamilə silahsızlaşdırılır.

B. 2-ci əlavədə müfəssəl şərh edildiyi kimi, daimi qarışıq komissiya ilə əməkdaşlıq şəraitində fəaliyyət üçün icazə verilmiş qüvvələr, o cümlədən aşağıda göstərilən qüvvələr istisna olmaqla, ayırıcı zona silahsızlaşdırılır:

(1) - sülhü müdafiə əməliyyatının elementləri;

(2) - sərhəddə keşik çəkmək və minalardan təmizləmə üçün bölmələr;

(3) - say tərkibi və icazə verilmiş silahı 2-ci əlavədə müəyyən edilmiş mülki polis.

C. 2-ci əlavədə şərh edildiyi kimi, bufer zonasında və ayırıcı zonada uçuşsuz zona yaradılır, ATƏT-in sülhü müdafiə əməliyyatının nəzarəti altında tərəflər bu zonada hərbi uçuşlar keçirilməsinə yol vermirlər.

D. II maddəyə uyğun olaraq qüvvələr çıxarıldıqdan sonra Dağlıq Qarabağın hakimiyyət orqanlarının nəzarət etdikləri bütün yerlərdə təhlükəsizlik Dağlıq Qarabağın mövcud hərbi strukturları və təhlükəsizlik strukturları tərəflndən təmin olunur.

IV. ATƏT-in 1994-cü il Budapeşt sammitinin qərarlarına uyğun olaraq, tərəflər ATƏT-in çoxmilli sülhü müdafiə əməliyyatına ("SMƏ") dəvət edir və onun yerləşdirilməsinə kömək göstərirlər. O, 7-ci maddədə müəyyən olunduğu kimi, daimi qarışıq komissiya və Ermənistan-Azərbaycan hökumətlərarası komissiyası ilə əməkdaşlıqda fəaliyyət göstərəcəkdir.

SMƏ qüvvələrin və ağır silahların çıxarılmasına, hərbi uçuşlara yol verilməməsinə, silahsızlaşdırma rejiminin qoruyub saxlanmasına və 2-ci əlavədə şərh olunduğu kimi, Ermənistan-Azərbaycan sərhədində vəziyyətə nəzarət edir. Tərəflər bu mövqelərdən ötrü BMT Təhlükəsizlik Şurasını bir ildən az olmayaraq ilkin dövr üçün müvafiq qətnamə qəbul etməyə və lazım gəldikdə ATƏT-in fəaliyyətdə olan sədrinin tövsiyəsi ilə həmin qətnamənin müddəalarını bərpa etməyə çağırırlar. Tərəflər razıdırlar ki, çoxmilli sülhü müdafiə əməliyyatının ümumi müddəti regiondakı vəziyyətdən və münaqişənin hərtərəfli həllinin sürətindən asılı olaraq minimum zərurət həddində olacaqdır. Tərəflər bu sazişin həyata keçirilməsini təmin etmək və sülhü müdafiə əməliyyatının hər hansı şəkildə pozulmasının və ya dayandırılmasının qarşısını almaq üçün SMƏ ilə tam əməkdaşlıq edirlər.

V. Tərəflər, 2-ci əlavədə şərh olunduğu kimi, şəxslərin ayırıcı zonadakı öz əvvəlki daimi yaşayış yerlərinə təhlükəsiz və könüllü qayıtmasına kömək edirlər. Bu zonada silahsızlaşdırma rejiminə əməl olunacağına bütün tərəflərdə inam yaratmaq üçün daimi qarışıq komissiya ilə əməkdaşlıq şəraitində SMƏ qayıdan əhalinin təhlükəsizliyinə göz qoyur. Tərəflər bu sazişlə və ya hərtərəfli nizamasalma ilə əhatə olunmuş və Ermənistanla Azərbaycan arasında münaqişə və gərginlik nəticəsində 1987-ci ildən sonra köçmüş şəxslərdən savayı, qalan digər bütün şəxslərin tezliklə təhlükəsiz şəraitdə və könüllü şəkildə qayıtmasının həyata keçirilməsi haqqında danışıqlar aparırlar.

VI. Qüvvələrin çıxarılması ilə eyni vaxtda tərəflər yolların, dəmir yollarının, elektrik və rabitə xətlərinin açılması, ticarətin və digər münasibətlərin bərpası məqsədi ilə bütün tədbirləri buna mümkün qədər qısa müddətdə nail olmaq üçün bütün lazımi işləri 3-cü əlavədə şərh olunmuş cədvələ və konkret müddəalara müvafiq olaraq dərhal həyata keçirirlər. Tərəflər etnik azlıqlar da daxil olmaqla, bu əlaqələrdən hamının istifadə etməsinə təminat yaradacaq, onların regionun başqa yerlərindəki öz etnik icmaları ilə maneəsiz ünsiyyətini təmin edəcəklər. Tərəflərdən hər biri bütün blokadaları aradan götürməyi və yüklərin, insanların bütün digər tərəflərə maneəsiz olaraq çatdırılmasını təmin etməyi öhdəsinə götürür. Tərəflər öz aralarında sərbəst və təhlükəsiz dəmiryol əlaqəsini təmin edəcəklər.

VII. Tərəflər münaqişə ilə bağlı tutulub saxlanılan bütün şəxslərin tezliklə və təhlükəsiz qayıtmasını təmin etmək, itkin düşənlərin taleyini araşdırmaq, bütün

cənazələrin qaytarılmasını və humanitar yardımın, bərpa məqsədli yardımın münaqişənin gedişində zərər çəkmiş rayonlara özlərinin nəzarət etdikləri ərazi vasitəsilə ayrı-seçkilik qoyulmadan daşınmasını təmin etmək üçün Beynəlxalq Qızıl Xaç Komitəsi, BMT-nin Qaçqınların İşləri üzrə Ali Komissarlığı və digər beynəlxalq təşkilatlarla tam əməkdaşlıq edirlər. Tərəflər etimadı möhkəmlətmək tədbirlərinin həyata keçirilməsində Daimi Qarışıq Komissiya vasitəsilə ATƏT-in sülhü müdafiə əməliyyatı ilə əməkdaşlıq edirlər.

VIII. Tərəflər bu sazişin Azərbaycana və Dağlıq Qarabağa aid problemlər barəsində müddəalarının həyata keçirilməsinə nəzarət etmək üçün dərhal Daimi Qarışıq Komissiya (DQK) yaradırlar. DQK-nın əsas vəzifəsi sazişin həyata keçirilməsinə nəzarət etməkdən ibarətdir; ATƏT-dən olan sədrin vəzifələrinə fikir ayrılıqları zamanı vasitəçilik etmək və təbii fəlakətlər kimi fövqəladə hallarda tədbirlər görülməsinə sanksiya verilməsi də daxildir. DQK-nın hərbi, iqtisadi, humanitar və mədəni yardımçı komissiyaları və rabitə üzrə yardımçı komissiyası olur. DQK-nın strukturu, funksiyaları və ona aid başqa təfərrüatlar 4-cü əlavədə şərh edilmişdir.

IX. Tərəflər Ermənistanla Azərbaycan arasında sərhəd toqquşmalarının qarşısının alınmasına kömək edilməsi, hər iki ölkənin sərhəd qoşunları və digər müvafiq təhlükəsizlik qüvvələri arasında əlaqələr qurulması və yolların, dəmir yollarının, rabitənin, boru kəmərlərinin açılmasına, ticarət münasibətlərinin və başqa münasibətlərin bərpası tədbirlərinə nəzarət olunması və bu tədbirlərə kömək göstərilməsi üçün dərhal Ermənistan-Azərbaycan Hökumətlərarası Komissiyası (EAHK) yaradırlar. EAHK-ın iki həmsədri olur: biri Ermənistandan, digəri Azərbaycandan. Komissiyaya ATƏT-in fəaliyyətdə olan sədrinin təyin etdiyi nümayəndə daxildir. EDHK-ın strukturu, funksiyaları va ona aid digər təfərrüatlar 5-ci əlavədə şərh olunmuşdur. Azərbaycan Respublikası və Ermənistan Respublikası bir-birlərinin paytaxtlarında əlaqə büroları yaradırlar.

X. Azərbaycan Respublikası və Ermənistan Respublikası hərbi tarazlıq və Avropada adi silahlı qüvvələr haqqında müqaviləyə tam əməl edilməsi də daxil olmaqla, regionda təhlükəsizliyin artmasım təmin etmək məqsədi ilə müvafiq beynəlxalq və regional forumlarda ikitərəfli və çoxtərəfli danışıqlara qoşulurlar.

XI. Bu müqavilədə üç tərəf; beləliklə, münaqişənin hərbi cəhətinə son qoyaraq Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsini və Laçın, Şuşa və Şaumyan problemlərinin həllini əhatə edən siyasi cəhət də daxil olmaqla, münaqişənin bütün başqa cəhətlərinin hərtərəfli həllinə təxirəsalınmadan nail olmaq üçün Minsk konfransı həmsədrlərinin və müvafiq surətdə ATƏT-in fəaliyyətdə olan sədrinin dəvət etdiyi digər tərəflərin köməyi ilə danışıqları vicdanla davam etdirməyə razılaşırlar; bu danışıqlar yolu ilə nizamasalmaya nail olduqdan sonra belə

nizamasalma mümkün qədər tezliklə çağırılan Minsk konfransında beynəlxalq birlik tərəfindən tanmmalıdır.

XII. Tərəflərdən hər biri digər tərəflərin və onların əhalisinin təhlükəsizliyinə tamamilə hörmət edir. Tərəflər öz xalqları arasında ticarətə və normal qarşılıqlı fəaliyyətə kömək göstərərək onların arasında mehriban qonşuluq münasibətlərini inkişaf etdirməyi və bu sazişi, yaxud xoş münasibətləri sarsıda biləcək bəyanatlardan və ya hərəkətlərdən çəkinməyi öhdələrinə götürürlər.

XIII. Sülhün qorunması və qoşunların çıxarılmasına nəzarət barədə yuxarıda şərh edilmiş konkret müddəalara əlavə olaraq və ATƏT-in müvafiq prinsiplərini və öhdəliklərini, o cümlədən 1992-ci ilin Helsinki sənədində və 1994-cü ilin Budapeşt sənədində əksini tapmış prinsipləri və öhdəlikləri xatırladaraq ATƏT bu sazişin bütün cəhətlərinin tamamilə həyata keçirilməsinə müvafiq mexanizmlər vasitəsilə nəzarət edir və sazişin şərtlərinin pozulmasının qarşısını almaq və belə hallara mane olmaq üçün həmin prinsiplərə və qərarlara uyğun olaraq müvafiq tədbirlər görür. Bu sazişin şahidləri ATƏT-in Daimi Şurası və Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası vasitəsilə fəaliyyət göstərərək onun tam şəkildə həyata keçirilməsinə kömək edirlər. Bu saziş ciddi şəkildə pozulduğu təqdirdə, onlar zəruri tədbirlər barəsində öz aralarında məsləhətləşir, ATƏT-in fəaliyyətdə olan sədrinə, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurası sədrinə və Birləşmiş Millətlər Təşkilatının baş katibinə dərhal məlumat verir və ATƏT-in Daimi Şurasından, yaxud BMT-nin Təhlükəsizlik Şurasından bununla əlaqədar müvafiq hərəkətləri nəzərdən keçirməyi xahiş edirlər.

XIV. Tərəflər Dağhq Qarabağın, onun əhalisinin və qayıdan köçkün şəxslərin təhlükəsizliyinə təminat da daxil olmaqla, bu sazişin müddəalarına əməl olunmasını təmin etmək və bu sazişdən irəli gələn bütün öhdəliklərin yerinə yetirilməsi üçün lazımi tədbirlər görmək barədə öz üzərilərinə qarşılıqlı öhdəliklər götürürlər.

XV. Bu saziş imzalandıqdan və ratifikasiya olunduqdan sonra qüvvəyə minir və hərtərəfli nizamasalma barədə XI bənddə xatırladılan istisnalarla birlikdə qüvvədə qalır. Bu saziş bütün tərəflərin razılığı ilə dəyişdirilə, ona əlavələr edilə və dayandırıla bilər.

---

*ATƏT-in Minsk qrupu həmsədrlərinin ikinci təklifi 1997-ci il dekabrın 2-də münaqişə tərəflərinə təqdim olunmuşdur. Bu variant daha çox "mərhələli həll" kimi tanınır. Azərbaycan tərəfi həmin təklifə də razılıq vermişdir. Lakin Ermənistan tərəfi bu təklifi də qəbul etməmişdir.

Əlavə III.2.7

Dağlıq Qarabağ silahlı münaqişəsinin hərtərəfli həllinin prinsipləri haqqında*

7 noyabr 1998-ci il

Dağlıq Qarabağ münaqişəsini, dövlətlərin ərazisi bütövlüyü və xalqların öz müqəddəratını təyin etməsi prinsipləri də daxil olmaqla, beynəlxalq hüququn normalarına və prinsiplərinə müvafiq surətdə həll etmək əzmində olan Ermənistan, Azərbaycan və Dağlıq Qarabağ aşağıdakılar barədə razılığa gəlirlər:

I. Dağlıq Qarabağın statusu haqqında saziş

Tərəflər Dağlıq Qarabağın statusu haqqında saziş imzalayacaqlar və o, aşağıdakı müddəalardan ibarət olacaqdır:.

Dağlıq Qarabağ respublika formasında dövlət və ərazi qurumudur və Azərbaycanın beynəlxalq aləmdə tanınmış sərhədləri daxilində onunla ümumi dövlət yaradır.

Azərbaycan və Dağlıq Qarabağ müvafiq dövlət hakimiyyəti orqanları arasında səlahiyyətlərin həyata keçirilməsi və qarşılıqlı surətdə həvalə olunması predmetlərinin hüdudlarını müəyyənləşdirmək haqqında saziş imzalayacaq və onun Konstitusiya qanunu qüvvəsi olacaqdır.

Azərbaycan və Dağlıq Qarabağ birgə səlahiyyətlər sahəsinə aid siyasəti və fəaliyyəti müəyyənləşdirmək üçün prezidentlərin, baş nazirlərin, parlament sədrlərinin nümayəndələrinin daxil olacağı birgə komitə yaradırlar.

Əlaqə saxlamaq və birgə tədbirləri əlaqələndirmək üçün Bakıda və Stepanakertdə müvafiq olaraq Dağlıq Qarabağın və Azərbaycanın nümayəndəlikləri yaradılır.

Dağlıq Qarabağ xaricdə müvafiq nümayəndəliyi olmaq şərtilə iqtisadiyyat, ticarət, elm, mədəniyyət, idman və humanitar sahələrdə əcnəbi dövlətlərlə, bu problemlərlə bağlı olan regional və beynəlxalq təşkilatlarla birbaşa xarici əlaqələr saxlamaq hüququna malik olacaqdır. Dağlıq Qarabağdakı siyasi partiyaların və ictimai təşkilatların xarici dövlətlərin siyasi partiyaları və ictimai təşkilatları ilə əlaqələr yaratmaq hüququ olacaqdır.

Dağlıq Qarabağ özünün mənafeləri ilə bağlı məsələlər üzrə Azərbaycanın xarici siyasətinin həyata keçirilməsində iştirak edir. Belə məsələlər haqqında qərarlar iki tərəfin razılığı olmadan qəbul edilə bilməz.

Dağlıq Qarabağ hökuməti özünün xüsusi maraqları olan xarici dövlətlərdəki Azərbaycan səfirliklərində və ya konsul idarələrində öz nümayəndələrinə malik ola, habelə beynəlxalq danışıqlarda, əgər bunlar Dağlıq Qarabağın mənafelərinə aiddirsə, iştirak etmək üçün Azərbaycan nümayəndə heyətlərinin tərkibində öz ekspertlərini göndərə bilər.

Dağlıq Qarabağın sərhədləri keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin sərhədlərinə uyğun olacaqdır. Onların mümkün olan dəqiqləşdirilməsi və ya dəyişdirilməsi Azərbaycanla Dağlıq Qarabağ arasında xüsusi qarşılıqlı razılaşmaların mövzusu ola bilər.

Azərbaycanla Dağlıq Qarabağ arasında sərhədlər bir-birinin silahsız vətəndaşlarının sərbəst hərəkəti üçün qarşıhqlı surətdə açıq olacaqdır. Gediş-gəliş və işgüzar əlaqələr zamanı onlardan gömrük rüsumu və ya başqa rüsumlar tutulmayacaqdır. Daimi yaşayış hüququ verilməsi müvafiq hökumətlərin səlahiyyətlərinə aid ediləcəkdir.

Azərbaycan və Dağlıq Qarabağ mübahisələrin nizama salınması üçün zor işlətməyəcək və ya zor işlətməklə hədələməyəcəklər.

Birgə komitə çərçivəsində aradan qaldırıla bilməyən mübahisələr və ya fikir ayrılıqları yarandıqda tərəflər ATƏT-in fəaliyyətdə olan sədrinin məsləhətçi rəyini soruşa bilərlər və o, qəti qərar qəbul edilərkən nəzərə alınacaqdır.

Dağlıq Qarabağın statusuna Dağlıq Qarabağın statusu haqqında Minsk konfransı tərəfindən bəyənilmiş sazişdə rəsmiləşdiriləcək aşağıdakı hüquqlar və imtiyazlar da daxildir:

1. Dağlıq Qarabağın referendumda Dağlıq Qarabağ xalqı tərəfindən qəbul edilmiş öz Konstitusiyası olacaqdır. Bu Konstitusiya Dağlıq Qarabağın statusu haqqında sazişin müddəalarım inkorporasiya edəcəkdir. Müvafiq olaraq Azərbaycan bu sazişin inkorporasiyası üçün öz Konstitusiyasına dəyişikliklər edəcəkdir.

Bu sazişin va ya Dağlıq Qarabağ və Azərbaycan konstitusiyalarınm onu inkorporasiya edən hissələrinin müddəaları hər üç tərəfin razılığı olmadan dəyişdirilə bilməz.

2. Dağlıq Qarabağ ərazisində Dağlıq Qarabağın Konstitusiyası və qanunları işləyir. Əgər Azərbaycan qanunları, qaydaları və icra qərarları Dağlıq Qarabağın Konstitusiyasına və qanunlarına zidd deyilsə, onun ərazisində qüvvəyə malikdir.

3. Dağlıq Qarabağın öz bayrağı, gerbi və himni olacaqdır.

4. Dağlıq Qarabağ öz Konstitusiyasına müvafiq olaraq qanunvericilik, icra və məhkəmə orqanlarını müstəqil surətdə formalaşdırır.

5. Dağlıq Qarabağ vətəndaşlarının şəxsiyyət vəsiqəsi kimi üzərində xüsusi olaraq "Dağlıq Qarabağ" yazılmış Azərbaycan pasportu olacaqdır. Yalnız Dağlıq Qarabağ hökumətinin belə pasportları vermək hüququ olacaqdır.

Dağlıq Qarabağın erməni mənşəli vətəndaşları Ermənistana mühacirət edəndə və oraya daimi yaşamağa köçdükdə həmin ölkənin qanunlarına müvafiq olaraq Ermənistan vətəndaşlığı ala bilərlər.

6. Dağlıq Qarabağ əhalisinin Azərbaycan parlamentinə öz nümayəndələrini seçmək və Azərbaycan prezidenti seçkilərində iştirak etmək hüququ var.

7. Dağlıq Qarabağ azad iqtisadi zona olacaq, Azərbaycan pul nişanları ilə yanaşı işlənən öz pul nişanlarını buraxmaq hüququna, habelə öz markalarını buraxmaq hüququna malik olacaqdır.

8. Dağlıq Qarabağın Ermənistanla və Azərbaycanla azad və maneəsiz nəqliyyat və rabitə əlaqəsi saxlamaq hüququ olacaqdır.

9. Dağlıq Qarabağın könüllülük əsasında formalaşdırılan milli qvardiyası, (təhlükəsizlik qüvvələri) və polis qüvvələri olacaqdır. Bu qüvvələr Azərbaycan hökumətinin razılığı olmadan Dağlıq Qarabağdan kənarda fəaliyyət göstərə bilməz.

10. Azərbaycanın ordusunun, təhlükəsizlik qüvvələri və polisinin Dağlıq Qarabağın hakimiyyət orqanlarının razılığı olmadan Dağlıq Qarabağın ərazisinə daxil olmaq hüququ olmayacaqdır.

11. Erməni dili Dağlıq Qarabağın əsas rəsmi dili, Azərbaycan dili isə ikinci rəsmi dilidir. Onun vətəndaşları bütün rəsmi və qeyri-rəsmi hallarda digər doğma dillərdən də istifadə edə bilərlər.

12. Dağlıq Qarabağın büdcəsi öz mənbələrindən alınan vəsaitdən ibarət olacaqdır. Dağlıq Qarabağ hökuməti Azərbaycan şirkətlərini və xarici şirkətləri, şəxsləri kapital qoymağa həvəsləndirəcək, buna təminat verəcəkdir.

II. Laçın dəhlizi barədə

Azərbaycanın və Dağlıq Qarabağın razılığı ilə əgər Laçın rayonunun xüsusi rejiminə dair digər qərarlar qəbul edilməsə, Dağlıq Qarabağla Ermənistan arasında maneəsiz əlaqələri təmin etmək məqsədi ilə Dağlıq Qarabağın Laçın dəhlizindən istifadə etməsi məsələsi ayrıca razılaşmanın mövzusu olacaqdır. Laçın rayonu daim tam silahsızlaşdırılmış zona olaraq qalmalıdır.

III. Şuşa şəhəri və Şaumyan şəhəri barədə

Tərəflər razılaşırlar ki, bütün Azərbaycan qaçqınları Şuşa şəhərinə, öz daimi yaşayış yerlərinə qayıda bilərlər. Onların təhlükəsizliyi Dağlıq Qarabağın müvafiq

hakimiyyət orqanları tərəfindən təmin ediləcəkdir. Onlar Dağlıq Qarabağın bütün vətəndaşları ilə eyni hüquqa, o cümlədən siyasi partiyalar yaratmaq, bütün səviyyələrdə seçkilərdə iştirak etmək, dövlət qanunvericilik orqanlarına və yerli özünüidarə orqanlarına seçilmək, dövlət qulluğuna, o cümlədən hüquq-mühafizə orqanlarına işə qəbul edilmək hüququna malik olacaqlar.

Erməni qaçqınları da Şaumyan şəhərinə qayıdarkən eyni hüquqları alacaqlar.

Şuşa şəhərinin və Şaumyan şəhərinin sakinləri yollardan, Azərbaycanın və Dağlıq Qarabağın qalan yerləri ilə rabitədən və digər əlaqələrdən heç bir məhdudiyyət olmadan istifadə edə biləcəklər.

Dağlıq Qarabağın və Azərbaycanın hakimiyyət orqanları müvafiq olaraq Şuşa və Şaumyan şəhərlərində ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun nümayəndəliklərinin yerləşdirilməsinə və fəaliyyətinə kömək göstərəcəklər.

* * *

Dağlıq Qarabağın statusu haqqında sazişi üç tərəf imzalayacaq və o, Minsk konfransı tərəfindən bəyənildikdən sonra qüvvəyə minəcəkdir.

IV. Silahlı münaqişənin dayandırılması haqqında saziş

Tərəflər razılaşırlar ki, silahlı münaqişənin dayandırılması haqqında saziş aşağıdakı müddəaları əhatə edəcəkdir:

I. Tərəflər öz aralarında mübahisələrin həlli üçün zor işlətməklə hədələməkdən, yaxud zor işlətməkdən imtina edirlər. Onlar silahlı münaqişənin dayandırılması haqqında sazişin həyata keçirilməsi ilə əlaqədar meydana çıxa biləcək mübahisələr daxil olmaqla, bütün belə mübahisələri dinc vasitələrlə, ilk növbədə birbaşa danışıqlar yolu ilə, yaxud ATƏT-in Minsk prosesi çərçivəsində həll edirlər.

II. Tərəflər öz silahlı qüvvələrini aşağıdakı müddəalara müvafiq olaraq və I-ci əlavədə ətraflı şərh edildiyi kimi çıxarırlar:

A. Birinci mərhələdə Dağlıq Qarabağdan şərqə və cənuba doğru indiki təmas xətti boyunca olan qüvvələr I əlavədə razılaşdırılmış xətlərə tərəf bir neçə kilometr geri çəkiləcəkdir, bu zaman ATƏT-in çoxmilli qüvvələrinin ön dəstəsini hərbi nöqteyi-nəzərdən əsaslandırılmış bufer zonasında ilkin qaydada yerləşdirməyə, tərəfləri bu xətt boyunca ayırmağa və qüvvələrin çıxarılmasının ikinci mərhələsində təhlükəsizliyin təmin edilməsinə imkan yaratmaq məqsədi ilə Yüksək Səviyyədə Planlaşdırma Qrupunun (YSPQ) tövsiyələri lazımınca nəzərə alınmaqla çəkilirlər.

B. İkinci mərhələdə qüvvələr eyni vaxtda və 1-ci əlavədə razılaşdırılmış cədvələ müvafiq surətdə aşağıdakı qaydada çıxarılacaqdır:

(1) Ermənistan Respublikasının sərhədləri xaricində yerləşən Ermənistanın hər hansı qüvvələri bu sərhədlərin hüdudları daxilinə aparılır.

(2) Dağlıq Qarabağın qüvvələri Dağlıq Qarabağla Ermənistan arasında maneəsiz gediş-gəliş haqqında saziş əldə edilənədək Laçın rayonu istisna olmaqla, Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) 1988-ci ildəki hüdudları daxilinə aparılır.

(3) Azərbaycanın qüvvələri YSPQ-nin tövsiyələrinə əsasən 1-ci əlavədə göstərilmiş xətdən kənara çıxarılır və Ermənistanın hər hansı ərazisindən çıxarılır.

(4) Ağır silahlar YSPQ-nin tövsiyələrinə əsasən, ATƏT-in sülhü müdafiə əməliyyatının nəzarəti altında, 1-ci əlavədə şərh olunmuş şəffaflıq və hesabatvermə tələblərinə əməl edilməklə bu barədə göstərilmiş yerlərə çıxarılır.

III. Qüvvələrin bu cür çıxarılması nəticəsində azad olunmuş ərazi aşağıdakı müddəalara müvafiq olaraq və 2-ci əlavədə müfəssəl şərh edildiyi kimi, bufer zonası və ayırıcı zona təşkil edir:

A. Qüvvələrin çıxarılması başa çatdıqdan sonra bufer zonası DQMV-nin 1988-ci il hüdudları boyunca yerləşir. Əlavə razılaşma əldə edilərsə, o Laçın rayonu hüdudları boyunca da keçə bilər. Bufer zonası məskunlaşdırılmır, ATƏT-in sülhü müdafiə əməliyyatının elementləri istisna olmaqla, tamamilə silahsızlaşdırılır.

B. 2-ci əlavədə müfəssəl şərh edildiyi kimi, sülhü müdafiə əməliyyatının daimi qarışıq komissiya ilə əməkdaşhq fəaliyyəti üçün icazə verilmiş, o cümlədən qüvvələr istisna olmaqla, ayırıcı zona silahsızlaşdırılır:

(1) Sülhü müdafiə əməliyyatının elementləri,

(2) Azərbaycanm sərhəddə keşik çəkmək və minalardan təmizləməyə uyğun bölmələri,

(3) Azərbaycanm say tərkibi və icazə verilmiş silahlı, 2-ci əlavədə müəyyən edilmiş mülki polisi.

C. 2-ci əlavədə şərh edildiyi kimi, bufer zonasında və ayırıcı zonada ATƏT-in sülhü müdafiə əməliyyatının nəzarəti altında uçuşsuz zona yaradılır, tərəflər bu zonada hərbi uçuşlara yol vermirlər.

D. II maddəyə müvafiq olaraq qüvvələr çıxarıldıqdan sonra Dağlıq Qarabağın hakimiyyət orqanlarının nəzarət etdikləri bütün yerlərdə təhlükəsizlik Dağlıq Qarabağın mövcud təhlükəsizlik strukturları tərəfindən təmin olunur.

IV. ATƏT-in 1994-cü il Budapeşt sammitinin qərarına uyğun olaraq tərəflər ATƏT-in çoxmilli sülhü müdafiə əməliyyatına ("SMƏ") dəvət edilir və onun yerləşdirilməsinə kömək göstərirlər, o, Daimi Qarışıq Komissiya (DQK) və

Ermənistan-Azərbaycan Hökumətlərarası Komissiyası (EAHK) ilə əməkdaşlıqda fəaliyyət göstərəcəkdir. SMƏ qüvvələrin və ağır silahların çıxarılmasına, hərbi uçuşlara yol verilməməsinə, silahsızlaşdırma rejiminin qorunub saxlanmasına və 2-ci əlavədə şərh edildiyi kimi, Ermənistan-Azərbaycan sərhədində vəziyyətə nəzarət edir.

Sülhü müdafiə əməliyyatı BMT Təhlükəsizlik Şurasının müvafiq qətnaməsinə əsasən ilkin mərhələdə bir ildən çox olmayan müddətə təsis edilir və zərurət olduqda ATƏT-in fəaliyyətdə olan sədrinin tövsiyəsi ilə uzadılır. Tərəflər bununla razıdırlar ki, çoxmillətli sülhü müdafiə əməliyyatımn ümumi müddəti regiondakı vəziyyətdən və münaqişənin hərtərəfli nizama salınmasmın həyata keçirilməsi sürətindən asılı olaraq minimum zərurət həddində olacaqdır. Tərəflər bu sazişin həyata keçirilməsini təmin etmək və sülhü müdafiə əməliyyatının hər hansı şəkildə pozulmasının, yaxud dayandırılmasının qarşısını almaq üçün SMƏ ilə tam əməkdaşlıq edirlər.

V. Tərəflər, 2-ci əlavədə göstərildiyi kimi, qaçqınların və köçkünlərin təhlükəsiz və könüllü surətdə ayırıcı zonadakı daimi yaşayış yerlərinə qayıtmasına kömək edirlər. Bu zonada silahsızlaşdırma rejiminə əməl olunacağına bütün tərəflərdə inam yaratmağa kömək etmək məqsədi ilə SMƏ qayıdan əhalinin təhlükəsizliyinə daimi qarışıq komissiya ilə əməkdaşlıqda nəzarət edir. Tərəflər bu sazişlə əhatə olunanlardan savayı, Ermənistanla Azərbaycan arasında 1987-ci ildən sonra baş vermiş münaqişə və gərginlik nəticəsində qaçqın, yaxud köçkün düşmüş bütün digər şəxslərin təhlükəsiz şəraitdə və könüllü surətdə qayıtmasının həyata keçirilməsi haqqında danışıqlar aparırlar.

VI. Qüvvələrin çıxarılması ilə eyni vaxtda tərəflər yolların, dəmir yollarımn, elektrik və rabitə xətlərinin açılması, ticarətin və digər münasibətlərin bərpası məqsədi ilə bütün tədbirləri buna mümkün qədər qısa müddətdə nail olmaq üçün bütün lazımi işləri 3-cü əlavədə şərh olunmuş cədvələ və konkret müddəalara müvafiq olaraq dərhal həyata keçirirlər. Tərəflər etnik azlıqlar da daxil olmaqla, bu əlaqələrdən hamının istifadə etməsinə təminat yaradacaq, onların regionun başqa yerlərindəki öz etnik icmaları ilə maneəsiz ünsiyyətini təmin edəcəklər. Tərəflərdən hər biri bütün blokadaları aradan qaldırmağı və yüklərin, adamların bütün digər tərəflərə maneəsiz daşınmasım təmin etməyi öhdəsinə götürür. Tərəflər öz aralarında sərbəst və təhlükəsiz dəmiryol əlaqəsini təmin edəcəklər.

VII. Tərəflər münaqişə ilə əlaqədar tutulub saxlanılan bütün şəxslərin tezliklə və təhlükəsiz qayıtmasının, itkin düşmüş şəxslərin taleyinin araşdırılması və bütün cənazələrin qalıqlarının qaytarılmasının, yenidənqurma məqsədləri ilə ayrı-seçkilik qoyulmadan humanitar yardımın və köməyin Beynəlxalq Qızıl Xaç Komitəsinin, BMT-nin Qaçqınların İşləri üzrə Ali Komissarının və digər beynəlxalq təşkilatlarm

nəzarət etdikləri ərazidən münaqişə zamanı zərər çəkmiş rayonlara çatdırılmasının təmin olunması üçün onlarla tam əməkdaşlıq edirlər. Tərəflər etimadı möhkəmlətmək tədbirlərinin həyata keçirilməsində Daimi Qarışıq Komissiya vasitəsilə ATƏT-in SMƏ ilə əməkdaşlıq edirlər.

VIII. Tərəflər bu sazişin Azərbaycana və Dağlıq Qarabağa aid problemlərə dair müddəalarının həyata keçirilməsinə nəzarət etmək üçün dərhal Daimi Qarışıq Komissiya (DQK) yaradırlar. DQK-nın sədri ATƏT-in fəaliyyətdə olan sədrinin nümayəndəsidir, sədrin bir müavini Azərbaycandan və bir müavini Dağlıq Qarabağdandır. DQK-nın əsas vəzifəsi sazişin həyata keçirilməsinə nəzarət etməkdən ibarətdir; ATƏT-dən olan sədrin vəzifələrinə fikir ayrılıqları zamanı vasitəçilik etmək və təbii fəlakətlər kimi fövqəladə hallarda tədbirlər görülməsinə sanksiyalar vermək də daxildir. DQK-nın hərbi, iqtisadi, humanitar və mədəni yardımçı komissiyaları və rabitə üzrə yardımçı komissiyası var. DQK-nın strukturu, funksiyaları və ona aid digər təfərrüatlar 4-cü əlavədə şərh olunmuşdur.

IX. Tərəflər Ermənistanla Azərbaycan arasında sərhəd toqquşmalarının qarşısının alınmasına, hər iki ölkənin sərhəd qoşunları və digər müvafiq təhlükəsizlik qüvvələri arasında əlaqələrin həyata keçirilməsinə yardım göstərmək və yolların, dəmiryollarının, rabitənin, boru kəmərlərinin açılmasına, ticarətin və digər münasibətlərin bərpasına dair tədbirlərə nəzarət və yardım etmək üçün dərhal Ermənistan-Azərbaycan hökumətlərarası Komissiyası (EAHK) yaradırlar. EAHK-nın iki həmsədri var: biri Ermənistandan, biri Azərbaycandan. Komissiyaya ATƏT-in fəaliyyətdə olan sədrinin təyin etdiyi nümayəndə daxildir. EAHK-nın strukturu, funksiyaları və ona aid digər təfərrüatlar 5-ci əlavədə şərh olunmuşdur.

X. Azərbaycan Respublikası və Ermənistan Respublikası hərbi tarazlıq və Avropada adi silahlar haqqında müqaviləyə tam əməl edilməsi də daxil olmaqla, regionda təhlükəsizliyin artmasını təmin etmək məqsədi ilə müvafiq beynəlxalq və danışıqlar aparırlar.

XI. Tərəflərdən hər biri digər tərəflərin və onların əhalisinin təhlükəsizliyinə hörmət edir. Tərəflər ticarətə və normal qarşılıqlı fəaliyyətə kömək etməklə öz xalqları arasında mehriban qonşuluq münasibətlərini inkişaf etdirməyi öhdələrinə götürür və bu sazişi, yaxud mehriban münasibətləri poza biləcək bəyanatlardan və ya hərəkətlərdən çəkinirlər.

XII. Sülhün qorunmasına və qoşunların çıxarılmasına nəzarət barədə yuxarıda şərh edilmiş konkret müddəalara əlavə olaraq və ATƏT-in müvafiq prinsiplərini və öhdəliklərini, o cümlədən 1992-ci ilin Helsinki sənədində və 1994-cü ilin Budapeşt sənədində əksini tapmış prinsipləri və öhdəlikləri xatırlayaraq ATƏT bu sazişin bütün cəhətlərinin tam həyata keçirilməsinə müvafiq mexanizmlər vasitəsilə nəzarət edir və sazişin şərtlərinin pozulmasının qarşısını almaq və belə hallara

mane olmaq üçün həmin prinsiplərə və qərarlara uyğun olaraq müvafiq tədbirlər görür.

XIII. Silahlı münaqişənin dayandırılması haqqında sazişi üç tərəf imzalayacaq və o, Minsk konfransı tərəfindən bəyənildikdən və üç tərəfin parlamentlərində ratifikasiya olunduqdan sonra qüvvəyə minəcəkdir.

XIV. Sazişlər imzalandıqdan və onlar Minsk konfransı tərəfindən bəyənildikdən sonra Azərbaycan Respublikası və Ermənistan Respublikası səfirlər səviyyəsində daimi diplomatik missiyalarla tam diplomatik münasibətlər yaradırlar.

V. Təminatlar haqqında

1. Tərəflər Dağlıq Qarabağın, onun əhalisinin və əvvəlki yaşayış yerlərinə qayıdan qaçqın və köçkünlərin təhlükəsizliyinin təminatı daxil olmaqla, yuxarıda göstərilən sazişlərə əməl olunmasını təmin etmək üçün öz üzərlərinə qarşılıqlı öhdəliklər götürürlər.

2. BMT-nin Təhlükəsizlik Şurası hərtərəfli sazişin həyata keçirilməsini izləyəcəkdir.

3. Minsk konfransının həmsədrləri Dağlıq Qarabağın statusu haqqında sazişi və silahlı münaqişənin dayandırılması haqqında sazişi şahid kimi imzalaya bilərlər. Rusiya, ABŞ və Fransa prezidentləri sazişlərin həyata keçirilməsinin gedişinə ciddi nəzarət etmək və bu sazişin yerinə yetirilməsi üçün lazımi tədbirlər görmək məqsədi ilə üç ölkənin birgə fəaliyyət göstərmək niyyətini təsdiqləyirlər. ATƏT və ya BMT-nin Təhlükəsizlik Şurası, lazım gələrsə, BMT-nin nizamnaməsinə uyğun olaraq diplomatik, iqtisadi, yaxud əlacsız qaldıqda, hərbi xarakterli tədbirlər görə bilər.

Azərbaycanla Ermənistan arasında Dağlıq Qarabağ ətrafında yaranan, çoxsaylı insan tələfatına, Azərbaycan torpaqlarının işğalına səbəb olan silahlı münaqişəni həll etmək üçün 1992-ci ildə ATƏT-in Minsk qrupu yaradılmışdır. Qrupun tərkibinə 11 ölkənin təmsilçiləri daxildir. Sonradan ümumi razılıq əsasında ATƏT-in Minsk Qrupunun həmsədrlər institutu təsis olunmuşdur.

---

* ATƏT-in Minsk Qrupunun həmsədrlərinin üçüncü, sonuncu təklifi 1998-ci il noyabrın 7-də irəli sürülmüşdür və daha çox "ümumi dövlət" şərti adı ilə tanınır. Azərbaycan bu təklifi qəbul etməmiş, Ermənistan isə həmin təklif əsasında münaqişənin həllini məqbul saymışdır.

Əlavə III.2.8

ATƏT-in İstanbul Zirvə Toplantısının
BƏYANNAMƏSİ
(çıxarış)

17-19 noyabr, 1999-cu il

20. Biz Dağlıq Qarabağ münaqişəsi ilə bağlı yaranmış vəziyyət və son hadisələr haqqında ATƏT-in Minsk qrupunun həmsədrlərinin məruzəsini aldıq və onların səylərini müsbət qiymətləndiririk. Mütəmadi görüşlərin problemin şəffaf və hərtərəfli həllinin axtarılması prosesinə dinamiklik verilməsi üçün şərait yaradan Azərbaycan və Ermənistan prezidentləri arasında aparılan birbaşa danışıqlar bizi xüsusilə sevindirir. Danışıqların ATƏT-in Minsk qrupu çərçivəsində bərpasına ümid edərək prezidentlər arasında aparılan dialoqu qəti olaraq dəstəkləyirik və onun davam etdirilməsinə çağırırıq. Eyni zamanda biz təsdiq edirik ki, ATƏT və onun Minsk qrupu nizamlanma üçün ən münasib olan format olaraq qalır, sülh prosesinin bundan sonrakı inkişafına və onun gələcəkdə reallaşmasına kömək etməyə, o cümlədən tərəflərə bütün zəruri olan köməyin göstərilməsinə hazırdır.

Əlavə III.2.9

ATƏT-in Nazirlər Şurasının 9-cu görüşü
Nazirlər Şurasının Bəyanatları
QƏRAR № 2

Buxarest, 4 dekabr 2001-ci il

Biz tərəflər arasında intensivləşdirilmiş dialoqa və Minsk qrupunun həmsədrlərinin fəal köməyinə baxmayaraq, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının əldə edilməməsindən dərin təəssüf hissimizi bildiririk. Biz bir daha təsdiq edirik ki, bu uzanmış münaqişənin təcili nizamlanması Cənubi Qafqaz regionunda möhkəm sülh, təhlükəsizlik, sabitlik və əməkdaşlığa kömək edəcək.

Biz sülh dialoqunun davam etdirilməsinin vacibliyini yenidən bəyan edirik və tərəfləri münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında tezliklə həll edilməsi istiqamətindəki səylərini davam etdirməyə çağırırıq. Biz həmçinin tərəfləri hərbi əsirlərin azad edilməsi də daxil olmaqla, qarşılıqlı etibar və inamın möhkəmləndirilməsinə səbəb olacaq əlavə tədbirlərin nəzərdən keçirilməsinə

çağırırıq.

Biz tərəflərin atəşkəsə olan və məsələnin sülh yolu ilə və hərtərəfli nizamlanması öhdəliklərini alqışlayırıq. Biz tərəfləri həmsədrlərin fəal dəstəyi ilə ədalətli və möhkəm nizamlanmanın əldə edilməsinə yönəlmiş səylərini davam etdirməyə çağırırıq.

Əlavə III.2.10

ATƏT-in Nazirlər Şurasının 10-cu görüşü
Nazirlər Şurasının Bəyanatları

Porto, 7 dekabr 2002-ci il

Biz tərəflər arasında intensivləşdirilmiş dialoqa və Minsk qrupunun həmsədrlərinin fəal köməyinə baxmayaraq, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının əldə edilməməsindən dərin təəssüf hissi keçirməkdə davam edirik. Biz bir daha təsdiq edirik ki, bu uzanmış münaqişənin təcili nizamlanması Cənubi Qafqaz regionunda möhkəm sülh, təhlükəsizlik, sabitlik və əməkdaşlığa kömək edəcək.

Biz sülh dialoqunun davam etdirilməsi vacibliyini yenidən bəyan edirik və tərəfləri münaqişənin beynəlxalq hüququn norma və prinsipləri əsasında tezliklə həll edilməsi istiqamətindəki səylərini davam etdirməyə çağırırıq. Biz həmçinin tərəfləri qarşılıqlı etibar və inamın möhkəmləndirilməsinə səbəb olacaq əlavə tədbirlərin nəzərdən keçirilməsinə çağırırıq.

Biz tərəflərin atəşkəsə olan və məsələnin sülh yolu ilə və hərtərəfli nizamlanması öhdəliklərini alqışlayırıq. Biz Ermənistan və Azərbaycan prezidentlərinin və onların şəxsi nümayəndələrinin davam edən görüşlərini xüsusilə alqışlayırıq. Biz tərəfləri həmsədrlərin fəal dəstəyi ilə ədalətli və möhkəm nizamlanmanın əldə edilməsinə yönəlmiş səylərini davam etdirməyə çağırırıq.

ƏLAVƏ

Azərbaycan Nümayəndə heyəti tərəfindən Helsinki məsləhətləşmələrinin Yekun tövsiyələrinin 79-cu Paraqrafına (Fəsil 6) müvafiq olaraq

İzahedici Bəyanat

ATƏT-in Nazirlər Şurasının 10-cu görüşünün indi qəbul edilmiş qərarı ilə əlaqədar mən Helsinki məsləhətləşmələrinin Yekun tövsiyələrinin Fəsil 6, 79-cu Paraqrafına müvafiq olaraq izahedici bəyanat vermək istərdim.

Azərbaycan Respublikası ATƏT-in aşağıdakı prinsiplərindən çıxış edərək Ermənistan və Azərbaycan arasında münaqişəyə dair bəyanat üzrə konsensusa qoşulmuşdur ki, bu prinsiplərə əsasən

"İştirakçı dövlətlər hər bir iştirakçı dövlətin ərazi bütövlüyünə hörmət edəcəklər.

Beləliklə, onlar istənilən iştirakçı dövlətin ərazi bütövlüyü, siyasi müstəqilliyi və ya birliyinə qarşı Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin məqsəd və prinsiplərinə uyğun olmayan hər hansı hərəkətdən və, xüsusilə hədə və ya gücdən istifadəni təşkil edən hər hansı belə hərəkətdən çəkinəcəklər.

İştirakçı dövlətlər eynilə bir-birinin ərazisini beynəlxalq hüquqa zidd olaraq hərbi işğal və ya digər birbaşa və ya dolayı yolla güc tədbirləri obyekti, yaxud belə tədbirlər və ya onlarla hədələmək vasitəsilə ələ keçirmək obyekti etməkdən çəkinəcəklər. Heç bir belə işğal və ya ələ keçirmə qanuni sayılmayacaq".

Azərbaycan tərəfi həmçinin vurğulamaq istərdi ki, xalqların öz müqəddəratını təyin etmək hüququ prinsipi Helsinki Yekun Aktının aşağıdakı prinsiplərinə müvafiq olaraq həyata keçiriləcək:

"İştirakçı dövlətlər, bütün zamanlarda Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin məqsəd və prinsipləri və beynəlxalq hüququn müvafiq normalarına, o cümlədən dövlətlərin ərazi bütövlüyünə aid normalara uyğun hərəkət edərək xalqların bərabər hüquqlarına və onların öz müqəddəratını təyin etmək hüququna hörmət edəcəklər".

Bundan başqa, Azərbaycan Respublikası bildirir ki, Ermənistan və Azərbaycan arasında münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyünə tam hörmət edilməsi əsasında həll oluna bilər ki, bu da aşağıdakıları nəzərdə tutur:

- Ermənistan tərəfindən Dağlıq Qarabağ regionu onun ayrılmaz hissəsi olan Azərbaycanın ərazi bütövlüyünün birmənalı olaraq tanınması;
- erməni işğalçı qüvvələrinin Azərbaycanın bütün ərazilərindən, o cümlədən Dağlıq Qarabağ regionundan dərhal və qeyd-şərtsiz çıxarılması;
- zorla qovulmuş azərbaycanlı əhalinin öz torpaqlarına təhlükəsiz şəraitdə qayıtması üçün bütün əlverişli şərtlərin yaradılması.

Bundan əlavə, Azərbaycan Respublikası bildirir ki, Azərbaycanın Dağlıq Qarabağ regionunda yaşayan erməni icması üçün işlənib hazırlanacaq hər hansı özünüidarə statusu yalnız Azərbaycanın ərazi bütövlüyünə tam hörmət edilməsi əsasında mümkün olacaq.

Bu bəyanatı günün protokoluna əlavə etməyi xahiş edirəm.

Azərbaycan Respublikasının nümayəndə heyəti

Əlavə III.2.11

ATƏT-in Nazirlər Şurasının 12-ci görüşü
Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar
B Ə Y A N A T

Sofiya, 6 dekabr 2004

Biz 2004-cü ildə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı əldə edilmiş irəliləyişi, xüsusilə ATƏT-in Minsk Qrupu həmsədrlərinin himayəsi altında Ermənistan və Azərbaycan prezidentlərinin üç görüşünü müsbət qiymətləndiririk. Biz həmçinin, hər iki ölkənin Xarici işlər nazirlərinə məsələnin gələcək həll yolunun bütün parametlərini metodiki baxımdan yenidən nəzərdən keçirməyə imkan verən "Praqa prosesi" adlandırılan prosesin yaradılmasını alqışlayırıq.

Biz qeyd edirik ki, "Praqa prosesi"nin nəticələrinə əsaslanaraq ATƏT-in Minsk Qrupu həmsədrləri sentyabr ayında Astanada hər iki Prezidentə nizamlama prosesi üçün əsas ola biləcək çərçivəni təqdim etmişlər. Biz Ermənistan və Azərbaycan Prezidentlərini həmin çərçivəni nəzərə almağa və ona əsasən irəli getməyə dəvət edirik. Biz tərəfləri Dağlıq Qarabağ münaqişəsini ATƏT-in Minsk Qrupu çərçivəsində tez bir zamanda həll etmək üçün öz səylərini ikiqat artırmağa çağırırıq.

Əlavə III.2.15

ATƏT-in Nazirlər Şurasının 16-cı görüşü
Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar
BƏYANAT

Helsinki, 5 dekabr 2008-ci il

Biz Ermənistan və Azərbaycan Prezidentlərinin iyunun 6-sı San-Peterburqda və xüsusilə noyabrın 2-də Moskvada 2008-ci ildə baş tutan iki görüşündən sonra Dağlıq Qarabağ münaqişəsinin siyasi həlli üzrə sülh prosesindəki konstruktiv və müsbət məqamı alqışlayırıq. Ermənistan, Azərbaycan və Rusiya Prezidentləri tərəfindən imzalanmış Moskva Bəyənnaməsi münaqişənin həlli prosesində ümidverici fazanın başlanğıcı olmuşdur.

Biz Minsk Qrupu Həmsədrləri ilə birlikdə 2007-ci il noyabrın 29-da Madriddə təklif olumuş Əsas Prinsiplərin hazırlanmasının davam etdirilməsi və daha sonra hərtərəfli Sülh Sazişinin hazırlanmasına başlanması üçün tərəflərin Moskva Bəyannaməsinin müddəalarına uyğun olaraq danışıqlar prosesini intensivləşdirmək cəhdlərini tam təşviq edirik. Biz onların etimad quruculuğu tədbirlərini inkişaf etdirmək və atəşkəsi gücləndirmək niyyətlərini yüksək qiymətləndiririk.

Əlavə III.2.16

ATƏT-in Nazirlər Şurasının 17-ci görüşü
Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar
BƏYANAT

Afina, 1 dekabr 2009-cu il

Biz Minsk qrupu Həmsədr ölkələrinin Xarici işlər naziri Lavrov, Xarici işlər naziri Kuşner və Dövlət Katibinin müaviniŞtaynberq və Azərbaycanın Xarici işlər naziri Məmmədyarov və Ermənistanın Xarici işlər naziri Nalbandyanın birgə bəyanatını alqışlayırıq.

Biz tərəfləri danışıqların pozitiv dinamikasını saxlamağa çağırır və hərtərəfli sülh sazişinin layihəsinin hazırlanmasına vicdanla və təxirə salmadan başlamaq üçün Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üzrə Madrid

Sənədinə əsaslanan Əsas Prinsipləri tamamlamaq üzrə öhdəliklərini tam dəstəkləyirik.

Nazirlər qalan məsələləri həll etmək və Helsinki Yekun Aktının güc tətbiq edilməməsi və ya güclə hədələməmək, ərazi bütövlüyü, bərabər hüquqlar və xalqların öz müqəddəratını həll etməsi prinsiplərinə əsaslanan sazişə nail olmaq üçün daha intensiv işləmək üzrə öhdəliklərini bir daha təsdiq etmişlər.Biz əminik ki, bütün regionda gələcək sülh, sabitlik və çiçəklənmə üçün bu gün real imkan var.

III.3. Avropa Şurasının sənədləri

Əlavə III.3.1

COUNCIL OF EUROPE CONSEIL DE L'EUROPE

Avropa Şurası
Nazirlər Komitəsi
Dağlıq Qarabağa dair
BƏYANAT *

Nazirlər Komitəsi, insanların fərq qoyulmadan qətlə yetirilməsi və zorakılıq aktları haqqında son məlumatlardan dərindən narahat olaraq Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisində mülki əhaliyə qarşı zorakılıq və hücumları kəskin şəkildə pisləyir. O qeyd edir ki, məsələnin güc vasitəsilə həlli beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilə bilməz.

Nazirlər Komitəsi fevralın 28-də Praqada ATƏM iştirakçı dövlətlərinin dərhal və effektli atəşkəs, regiona silahların daşınmasına embarqo qoyulması və humanitar yardımın göndərilməsi üçün təhlükəsiz dəhlizlərin yaradılmasına dair tövsiyələrini dəstəkləyir. O bir daha qeyd edir ki, Dağlıq Qarabağda böhranın istənilən həlli qanunun aliliyinə, demokratiya, insan hüquqları və azlıqların üzvlərinin hüquqlarına dair təminatlara və yalnız sülh yolu və ümumi razılıqla dəyişilə bilən bütün, istər daxili, istərsə də xarici sərhədlərin pozulmamağına hörmət edilməsinə əsaslanmalıdır.

Nazirlər Komitəsi Beynəlxalq Qırmızı Xaç Komitəsinin mübahisəyə kömək etməsinə dair münaqişə tərəflərinin razılığını alqışlayır və ümid edir ki, Beynəlxalq Qırmızı Xaç Komitəsi və digər qeyri-hökumət təşkilatları bu mübahisənin qurbanlarına humanitar yardımın verilməsində aparıcı rol oynayacaqlar.

Nazirlər Komitəsi mübahisənin sülh yolu ilə həllinin əldə edilməsi üçün bütün vasitəçilik səylərini dəstəkləyir. Effektiv atəşkəsə nail olunduqda, mübahisə bütün maraqlı tərəflər, o cümlədən Dağlıq Qarabağın yerli idarəetmə orqanları və nümayəndələri arasında danışıq vasitəsilə həll edilməlidir. Danışıqlar ATƏM çərçivəsində qəbul olunmuş Helsinki Yekun Aktı və Paris Xartiyasının hərf və ruhuna və xüsusilə mübahisələrin sülh yolu ilə tənzimlənməsi öhdəliyinə hörmət prinsipinə əsaslanmalıdır.

---

* Nazirlər Komitəsi tərəfindən 11 mart 1992-ci ildə Nazir müavinlərinin 471-ci iclasında qəbul edilmişdir.

Əlavə III.3.2

Avropa Şurası
Nazirlər Komitəsi
Dağlıq Qarabağ münaqişəsinin
gərginləşməsinə dair
BƏYANAT *

Nazirlər Komitəsi Dağlıq Qarabağ münaqişəsinin gərginləşməsi və xüsusilə döyüş ərazisinin Azərbaycan Respublikasının Kəlbəcər rayonuna qədər genişlənməsi ilə əlaqədar ciddi narahatdır. Nazirlər Komitəsi BMT Təhlükəsizlik Şurası Sədrinin bütün hərbi əməliyyatların dərhal dayandırılması tələbini dəstəkləyir və regionun sülh və təhlükəsizliyinə təhlükə yaradan bütün qüvvələrin çıxarılmasına çağırır.

Münaqişənin uzunmüddətli həllinin yalnız beynəlxalq hüquq və Avropa Şurası və ATƏM-in prinsip və öhdəliklərinə hörmət, xüsusilə sərhədlərin toxunulmazlığı, ərazi bütövlüyü, azlıqların müdafiəsi və insan hüquqları və əsas azadlıqlarma hörmət edilməsi vasitəsilə əldə oluna biləcəyinə əmin olan Nazirlər Komitəsi:

- döyüş ərazisinin Azərbaycanın Kəlbəcər rayonunadək genişlənməsinin bütün regionun demokratik gələcəyi və sabitliyinə təhdid yaradacağı ilə əlaqədar artan təhlükəyə dair ciddi narahatçılığını ifadə edir;
- bu vəziyyətin ATƏM çərçivəsində siyasi danışıqlar prosesinə təhlükə olması faktına təəssüflənir;
- güc vasitəsilə həllin beynəlxalq ictimaiyyət tərəfindən qəbul edilə bilməyəcəyini bəyan edir;
- həmçinin mülki əhalinin əzablarını yüngülləşdirmək məqsədilə regiona və xüsusilə münaqişənin təsir etdiyi bütün ərazilərə beynəlxalq humanitar yardım səylərinin maneəsiz buraxılmasına çağırır;
- münaqişə tərəflərindən sülh yolu ilə tənzimlənməyə daha artıq təhlükə yaradacaq hər hansı hərəkətdən çəkinməyi təkidlə tələb edir;
- hərbi əməliyyatlara son qoyulmasının yeganə yolunun gücdən istifadə etməkdən imtina etməklə yanaşı, ATƏM-in Minsk qrupu çərçivəsində danışıqların vicdanla aparılması olduğunu qeyd edir.

---

* Nazirlər Komitəsi tərəfindən 15 aprel 1993-cü il tarixində Nazir müavinlərinin 492-ci iclasında qəbul edilmişdir.

Əlavə III.3.3

Avropa Şurası
Parlament Assambleyası
Dağlıq Qarabağ münaqişəsinə dair
TÖVSİYƏ 1251 (1994) *

1. Assambleya qeyd edir ki, Dağlıq Qarabağ münaqişəsi 1988-ci ildə başlamış və artıq təxminən 20 000 insanın ölməsi və bir milyondan artıq qaçqının olması ilə nəticələnmişdir.

2. Onun Avropanın qeyri-üzv ölkələri ilə əlaqələr üzrə Komitəsi 1992-ci ildən etibarən Ermənistan və Azərbaycanın Parlamentləri, "Dağlıq Qarabağın rəhbərliyi" və "Dağlıq Qarabağın maraqlı Azərbaycan tərəfi"nin nümayəndələrinin qatıldığı dinləmələr silsiləsini təşkil etmişdir.

3. Assambleya razılıqla qeyd edir ki, 1994-cü il mayın 12-də qüvvəyə minmiş atəşkəsə nisbətən yaxşı riayət olunmuşdur və ümid edir ki, o, mümkün qədər tezliklə bütün maraqlı tərəflərin imzaladığı sülh sazişi ilə nəticələnəcək.

4. O, müharibə edən tərəflərin sülh sazişini imzalamağa həvəsləndirmək üçün ATƏM-in Minsk Qrupu, BMT Təhlükəsizlik Şurası, Rusiya Federasiyasının Hökuməti və MDB Parlamentlərarası Assambleyasının səylərini, həmçinin 26 iyul 1994-cü ildə Ermənistan və Azərbaycanın Müdafiə nazirləri və Dağlıq Qarabağ ordusunun komandiri tərəfindən imzalanmış, atəşkəsə riayət etmək öhdəliklərini və siyasi sazişin imzalanmasını sürətləndirmək səylərini təsdiq etdikləri sazişi alqışlayır.

5. Assambleya, beləliklə, tövsiyə edir ki, Nazirlər Komitəsi:

a. Avropa Şurasının üzv dövlətlərinin hökumətlərini ATƏM-in Minsk Qrupunun öz məqsədlərinə, xüsusilə müharibə zonasında beynəlxalq müşahidəçilərin yerləşdirilməsinə nail olması üçün lazımi vasitələri ona təqdim etməyə çağırsın;

b. Ermənistan və Azərbaycanın rəhbərliyi ilə siyasi dialoqu bərpa etsin;

c. şərtlər yerinə yetirilən kimi öz əməkdaşlıq proqramlarını Ermənistan və Azərbaycanın üzünə açsın və əgər bu tərəflər istəsələr, Dağlıq Qarabağ üçün siyasi statusu müəyyən etməyə kömək edə biləcək ekspertləri onların öhdəliyinə təqdim etsin.

---

* Mətn Assambleyanın adından fəaliyyət göstərən Daimi Komitə tərəfindən 1994-cü ilin noyabrın 10-da qəbul edilmişdir. Bax: Sənəd 7182, Avropanın qeyri-üzv ölkələri ilə əlaqələr üzrə Komitənin məruzəsi, məruzəçilər: cənab Pfuhl və cənab Sole Tura.

Əlavə III.3.4

Avropa Şurası
Parlament Assambleyası
Dağlıq Qarabağ münaqişəsinə dair
QƏTNAMƏ 1047 (1994) *

1. Assambleya razılıqla qeyd edir ki, 1994-cü ilin mayın 12-də qüvvəyə minmiş Dağlıq Qarabağda atəşkəsə nisbətən yaxşı riayət olunmuşdur və ümid edir ki, o, mümkün qədər tezliklə müharibə edən tərəflər arasında sülh sazişi ilə nəticələnəcək.

2. 1988-ci ildə başlamış bu münaqişə artıq 20 min insanın ölümü və bir milyondan çox qaçqınların olması ilə nəticələnmişdir.

3. Assambleya müharibə tərəflərini sülh sazişinin imzalanmasına həvəsləndirmək üçün ATƏM-in Minsk qrupu, Rusiya Federasiyası hökuməti, BMT Təhlükəsizlik Şurası, MDB Parlamentlərarası Assambleya və özünün Avropanın qeyri-üzv ölkələri ilə əlaqələr üzrə Komitəsinin səylərini razılıqla qeyd edir.

4. O, Ermənistan və Azərbaycanın Müdafiə nazirləri və Dağlıq Qarabağ ordusunun komandanı tərəfindən 26 iyul 1994-cü ildə imzalanmış, atəşkəsə riayət etmək öhdəliklərini və siyasi sazişin imzalanmasını sürətləndirmək səylərini təsdiq etdikləri sazişi alqışlayır və bütün müharibə tərəflərini 12 may 1994-cü ildən qüvvədə olan qeyri-sabit atəşkəsə təhlükə yarada biləcək hər hansı düşmənçilik hərəkətindən çəkinməyə təkidlə çağırır.

5. O, sülh sazişinin imzalanmasına bütün imkanları çərçivəsində, xüsusilə maraqlı tərəflərin parlament nümayəndələri arasında dialoqun həvəsləndirilməsi yolu ilə, yardım etmək üçün hazır olduğunu bəyan edir.

6. Nəhayət, o, müharibə tərəflərini qaçqınların təcili əsasda evlərinə qayıtmasını təşkil etməyə və onun 1201 saylı Tövsiyəsində dəstəkləndiyi kimi azlıqların hüquqlarına hörmət etməyə çağırır və Azərbaycan və Türkiyəni onların Ermənistanla olan kommunikasiya vasitələrinin blokadasına dərhal son qoymağa təkidlə çağırır.

---

* Mətn Assambleyanın adından fəaliyyət göstərən Daimi Komitə tərəfindən 1994-cü il noyabrın 10-da qəbul edilmişdir.

Bax: Sənəd 7182, Avropanın qeyri-üzv ölkələri ilə əlaqələr üzrə Komitənin məruzəsi, məruzəçilər: cənab Pfuhl və cənab Sole Tura

Əlavə III.3.5

Avropa Şurası
Parlament Assambleyası
Ermənistan və Azərbaycanda qaçqın və məcburi köçkünlərin humanitar vəziyyətinə dair
TÖVSİYƏ 1263 (1995)

Strasburq, 15 mart 1995-ci il

1. Assambleya, Ermənistan və Azərbaycanda qaçqın və məcburi köçkünlərin humanitar vəziyyətinə dair 1059 saylı (1995) Qətnaməsinə istinad edərək tövsiyə edir ki, Nazirlər Komitəsi:

I. Dağlıq Qarabağa görə amansız münaqişənin qurbanlarına və xüsusilə öz evlərindən qovulmuş şəxslərə beynəlxalq yardımm tamamilə qənaətbəxş olmamağından irəli gələn gərgin vəziyyəti təcili şəkildə nəzərdən keçirsin;

II. Avropa Şurasmın genişlənməsinə dair 1247 saylı (1994) Qətnaməsindən sonra Avropa Şurasının Sosial İnkişaf Fondu və onun üzv dövlətlərini özünün fövqəladə hallar üçün nəzərdə tutulmuş hesabı vasitəsilə, Birləşmiş Millətlər Təşkilatı və cəlb olunmuş digər beynəlxalq təsisatlarla mümkün əlaqədə Ermənistan, Azərbaycan və Gürcüstanda qaçqın və məcburi köçkünlərə fondun maliyyələşdirməsindən yararlanmaq imkanı verməyə dəvət etsin;

III. Bütün üzv dövlətlərin hökumətlərini:

a. Birləşmiş Millətlər Təşkilatının agentlikləri, Beynəlxalq Qırmızı Xaç Komitəsi, Beynəlxalq Qırmızı Xaç və Qırmızı Aypara Cəmiyyətləri Federasiyası və qeyri-hökumət təşkilatları vasitəsilə edilən beynəlxalq yardıma Qafqazda qarşıdan gələn bir çox illər üçün ehtiyac duyulduğunu təsdiq etməyə və bunun nəticəsində onların gələcək müraciətlərinə səxavətlə cavab verməyə;

b. Qarabağ və onun ətrafındakı ərazinin minalardan təmizlənməsi üçün tələb olunan mütəxəssis və işçi qüvvəsini təklif etməyə;

c. Fələstində BMT-nin qaçqınlara yardım və işlər Agentliyinə (UNRWA) müvafiq Qafqaz üçün birləşmiş BMT agentliyinin yaradılması və Tbilisidə regional qərargahın və ya oxşar əlaqələndirmə mexanizminin təsis edilməsini nəzərdən keçirməyə;

d. xüsusilə insan hüquqları, parlament demokratiyasının tətbiq olunması və müvafiq olan zaman azlıqların hüquqlarının və mədəni xüsusiyyətlərinin müdafiəsi sahələrində Avropa Şurasının yardım, mütəxəssis və əməkdaşlıq təkliflərini təsdiq etməklə Ermənistan, Azərbaycan və Gürcüstanın hakimiyyətləri ilə siyasi dialoq təsis etməyə dəvət etsin.

Əlavə III.3.6

Avropa Şurası Parlament Assambleyası
Ermənistan və Azərbaycanda qaçqın və məcburi köçkünlərin humanitar vəziyyətinə dair
QƏTNAMƏ 1059 (1995) *

Strasburq, 15 mart 1995-ci il

1. Assambleya 1988-ci ildə başlayan Dağlıq Qarabağ münaqişəsinin Ermənistan və Azərbaycanda ifadə edilə bilməyən insan əzabları, minlərlə həlak olanlar, on minlərlə yaralı və bir milyondan artıq qaçqın və məcburi köçkünlərlə nəticələndiyindən təəssüflənir.

2. Son rəqəm hədələr, törədilmiş vəhşiliklərə dair məruzələr və 1991-ci ildən öncə Sovet hakimiyyətinin əmrlərindən sonra öz evlərini tərk etməyə məcbur edilən yüz minlərlə insanı əhatə edir.

3. Ermənistan və Azərbaycanın 1991-ci ildə müstəqilliklərini elan etmələrindən sonra onların iqtisadiyyatları ciddi şəkildə tənəzzül etmişdir. Vəziyyət münaqişənin və qonşu ölkələrin tətbiq etdikləri iqtisadi blokadanm təsiri ilə pisləşmişdir.

4. Nəticədə, hər iki ölkənin əhalisi həyat səviyyəsinin ciddi şəkildə aşağı düşməsinə məruz qalmışdır və artmaqda olan çətinliklərlə, o cümlədən, yüksələn işsizlik və kəskin su, yanacaq və enerji qıtlığı ilə üzləşir. Birləşmiş Millətlər Təşkilatının hesablamalarma görə, hər iki ölkədə bir milyondan artıq insan hazırda yoxsulluq səviyyəsindən aşağı yaşayır.

5. Əsasən qaçqınlar və xüsusilə Azərbaycanda tələblərə cavab verməyən çadırlarda yaşayanlar əsas istilik, qida və tibbi yardım qıtlığının olmasından kəskin çətinliklərlə üzləşirlər.

6. Birləşmiş Millətlər Təşkilatının yardım proqramları hər iki ölkədə 1992-ci ilin dekabrından təsis edilmişdir. Lakin onların maliyyələşdirilməsi vəziyyətin ehtiyaclarını təmin etməkdə yetərli deyil.

7. Bundan əlavə, BMT agentlikləri bazar iqtisadiyyatına keçid, mərkəzsizləşdirmə və səhiyyə və təhsil proqramları üçün məlumatlarla təminata dair hər iki hökumətə məsləhətlər verir və yardım göstərir. Buna baxmayaraq, aidiyyatı ölkələrdə, o cümlədən, Gürcüstandakı ayrı-ayrı qərargahlardan hazırda idarə olunan bu xidmətlər əməkdaşlıq yolunda müəyyən maneələrlə çətinləşmişdir və onların təqdim edilməsi təcrübə, idarəetmə və vəsaitlərin uzun müddətə ən effektiv şəkildə hərəkətə gətirilməsini əks etdirməyə bilər.

8. Assambleya 12 may 1994-cü ildə qüvvəyə minmiş atəşkəsi alqışlayan, bütün tərəfləri buna ziyan vura biləcək hər hansı düşmənçilik aktından çəkinməyə çağıran və xüsusilə maraqlı tərəflərin parlament nümayəndələri arasında dialoqu həvəsləndirməklə sülh sazişinin imzalanmasına bütün qüvvəsi ilə yardımını təklif edən 1251 saylı (1994) Qətnaməsini yada salır.

9. Assambleya müharibə edən tərəflərə geri qayıtmaq arzusunda olan qaçqınların, başqa yerdə məskunlaşmaq istəyənlərə kompensasiya vermək şərti ilə, öz evlərinə mümkün qədər erkən qayıtmasını təşkil etmək; azlıqların hüquqlarına hörmət etmək; və onlar arasında olan bütün nəqliyyat və rabitə vasitələri üzərində blokadaya və Rusiya və Türkiyənin tətbiq etdikləri blokadaya dərhal son qoymaq çağırışlarını təkrar qeyd edir.

10. Assambleya təkid edir ki:

a. Ermənistan, Azərbaycan və Gürcüstan hökumətləri təcili yardım və səhiyyə, təhsil, bərpa və inkişafa dair uzunmüddətli proqramların təqdim edilməsində BMT agentlikləri və qeyri-hökumət təşkilatları ilə geniş əməkdaşlıq etsin;

b. Gürcüstan hökuməti BMT-nin yardımı ilə Məshəti türklərinin geri qayıtması və məskunlaşdırılmasım qəbul etsin və BMT-ni bu zəif qrupun vəziyyətinə xüsusi diqqət yetirməyə çağırır;

c. Avropa İttifaqı özünün Humanitar İdarəsi vasitəsilə, Cənubi Qafqaz əhalisinin zəif təbəqələrinə yardımını artırsın.

11. Nəhayət, Assambleya Qafqazda sülhün yenidən bərpasına yardım etmək və humanitar vəziyyəti yaxşılaşdırmaq üçün daha geniş beynəlxalq səylərin göstərilməsinə çağırır və bu məqsədlə üzv dövlətlərin hökumət və parlamentlərini yetmiş illik təcriddən çıxmaqda olan bu regiona öz yardım, təcrübə və əməkdaşlıq təkliflərini etməyə təşviq edir.

---

* Mətn Assambleyanın adından fəaliyyət göstərən Daimi Komitə tərəfindən 15 mart 1995-ci ildə qəbul edilmişdir. Bax: Sənəd 7250, Miqrasiya, Qaçqınlar və Demoqrafiya üzrə Komitənin məruzəsi, məruzəçi: cənab Atkinson; və Sənəd 7266, Avropanın qeyri-üzv ölkələri ilə əlaqələr üzrə Komitəsinin rəyi, məruzəçi: cənab Jeszenszki.

Avropa Şurası
Parlament Assambleyası
Zaqafqaziyada münaqişələrə dair
QƏTNAMƏ 1119 (1997) *

Strasburq, 22 aprel 1997-ci il

1. Assambleya hesab edir ki, Zaqafqaziya münaqişələrində, xüsusilə Abxaziya və Dağlıq Qarabağda 1994-cü ilin mayından etibarən atəşkəsin qüvvədə saxlamlması gərginlik zonalarında siyasi sabitliyin yaradılmasına kömək etməlidir.

2. Avropanın qeyri-üzv ölkələri ilə Əlaqələr üzrə Komitəsinin keçirdiyi müxtəlif dinləmələrdən sonra o ümid edir ki, bu münaqişələrin siyasi həlli istiqamətində sürətli, həlledici irəliləyiş əldə ediləcək.

3. Hər üç Zaqafqaziya ölkəsi – Ermənistan, Azərbaycan və Gürcüstan – xüsusi qonaq statusuna malikdirlər və Avropa Şurasının tam üzvlüyü üçün müraciət etmiş Assambleya hesab edir ki, bütün tərəflərin bu münaqişələri həll etmək üçün həqiqi siyasi iradəsi qəbul proseduralarım sürətləndirməyə kömək edəcək.

4. Assambleya bu münaqişələrə bilavasitə və ya dolayı yolla cəlb olunmuş bütün tərəfləri, xüsusilə Birləşmiş Millətlər Təşkilatı, Müstəqil Dövlətlər Birliyi və Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatımn həyata keçirdiyi vasitəçilik işində konstruktiv şəkildə iştirak etməyə çağırır.

5. Bu iki münaqişənin xarakterinə görə fərqli olmasına baxmayaraq, Assambleya vurğulayır ki, cəlb olunan bütün tərəflər onların siyasi həllinə dair damşıqları, xüsusilə 1975-ci il Helsinki Yekun Aktı və 1990-cı il Paris Xartiyasına əsaslanan aşağıdakı prinsiplər üzərində aparmalıdırlar:

a. sərhədlərin pozulmazlığı;

b. aidiyyatı ərazilərdə bütün xalqların, xüsusilə çoxmillətli sülhməramlı qüvvələr vasitəsilə təmin olunmuş təhlükəsizliyi;

c. Abxaziya və Dağlıq Qarabağ üçün bütün maraqlı tərəflərin razılaşdırdığı geniş muxtariyyət statusu;

d. qaçqın və məcburi köçkünlərin geri dönmək hüququ və insan hüquqlarına hörmət kimi onların vətəndaşlığının bərpa olunması.

6. Assambleya hesab edir ki, Zaqafqaziya ölkələrində qanunun aliliyi, plüralist demokratiya, insan hüquqlarımn müdafiəsi və ictimai bazar iqtisadiyyatının yaradılmasında Avropa Şurası həqiqi töhfə verməlidir.

A. Abxaziya ilə əlaqədar,

7. Assambleya Tbilisi və Suxuminin mövqeləri arasında xoş münasibətlərin bərpa olunmasının müəyyən əlamətlərini qeyd etməkdə maraqlıdır və ümid edir ki, yuxarıda qeyd olunmuş prinsiplər əsasında məsələnin danışıqlar vasitəsilə əldə olunmuş siyasi həllinə tezliklə nail olunacaq.

8. O ümid edir ki, maraqlı tərəflər, həmçinin Birləşmiş Millətlər Təşkilatı, ATƏT və Rusiya Federasiyasının səyləri tezliklə Tbilisi və Suxumi üçün əlverişli təsisatı balansın yaradılmasına aparacaq ki, qaçqınlar yüksək təhlükəsiz şəraitdə geri dönə və region əhalisi sülh və iqtisadi çiçəklənməyə qayıda bilsin.

B. Dağlıq Qarabağa münasibətdə,

9. Assambleya Ermənistan və Azərbaycan parlament nümayəndələri arasında, xüsusilə onun Avropanın qeyri-üzv ölkələri ilə Əlaqələr üzrə Komitəsinin 26 yanvar 1997-ci ildə təşkil etdiyi Zaqafqaziyada münaqişələrə dair seminarının bir hissəsi kimi davam edən dialoqu və bununla əlaqədar münaqişənin erkən həllinin təmin edilməsi məqsədilə danışıqları davam etdirməyə həvəsləndirən Dağlıq Qarabağ üzrə ATƏT-in Minsk Qrupunun fəaliyyətinin bərpa edilməsini alqışlayır.

10. O işğal edilmiş ərazilərin qaytarılması və qaçqın və köçkünlərin geri dönməsi, Dağlıq Qarabağın əlverişli alternativ statusu, həmçinin onun təhlükəsizliyinə təminat verən münaqişənin siyasi həllinə nail olmaq məqsədilə bütün münaqişə tərəflərini birbaşa danışıqları gücləndirməyə çağırır.

11. Nəhayət o, üç Zaqafqaziya ölkəsi – Ermənistan, Azərbaycan və Gürcüstanın – nəticə etibarı ilə, Zaqafqaziya dövlətləri birliyinin yaradılması və birgə parlament assambleyasının təsis edilməsini nəzərdən keçirəcəyinə dair arzusunu ifadə edir.

---

* 22 aprel 1997-ci ildə Assambleyanın müzakirəsi (10 və 11-ci iclas) (bax: Sənəd 7793, Avropanın Qeyri-üzv Ölkələri ilə Əlaqələr üzrə Komitənin məruzəsi, məruzəçi: cənab Sietlinger).

Qətnamənin mətni 22 aprel 1997-ci ildə Assambleya tərəfindən qəbul edilmişdir (11-ci iclas).

Əlavə III.3.8

Avropa Şurası
Nazirlər Komitəsi
KOMMÜNİKE*

Nazirlər Komitəsi İtaliyanın Xarici işlər naziri cənab Lamberto Dininin sədrliyi ilə 2000-ci il noyabrın 9-da Strasburqda 107-ci iclasını keçirdi.

Baş Katibin dəvəti ilə iclasdan öncə 2000-ci ilin noyabrın 8-də qeyri-rəsmi görüş keçirilmişdir.

Nazirlərin 9 noyabrda rəsmi görüşü Prezident Kaştunitsa ilə onun ölkəsində müsbət inkişafa dair fikir mübadiləsi ilə açıldı.

Fikir mübadiləsi Cənub-Şərqi Avropa, o cümlədən, Moldova və Qafqazda demokratik sabitliyin gücləndirilməsində Avropa Şurasının töhfəsinə dair müzakirələrlə davam etdirilmişdir.

Cənubi Qafqazın namizəd dövlətlərinə gəlincə isə hər iki ölkənin Avropa Şurasının tələb olunan standartlarının yerinə yetirilməsinə, o cümlədən Azərbaycanda 5 noyabr 2000-ci ildə keçirilən seçkilərə münasibətdə Nazirlər müəyyən narahatlıqla vəziyyəti nəzərə aldılar. Nazirlər Təşkilata daxil olmaq üçün Ermənistan və Azərbaycanı eyni vaxtda dəvət etməyi qərara aldılar (və bu ölkələrin Xarici işlər nazirlərinin bəyanatlarını razılıqla nəzərə aldılar) və bəyan etdilər ki, iki Dövlətin qəbul tarixi 2001-ci ilin yanvarında Nazir müavinlərinin görüşündə nəzərdən keçiriləcək. Onlar qeyd etdilər ki, Ermənistan və Azərbaycan öz demokratik təsisatlarını, insan hüquqlarına hörməti və qanunun aliliyini gücləndirməyi davam etdirməlidirlər. Nazirlər Avropa Şurasının bu məqsədlə əməkdaşlıq etməyə hazır olduğunu təkrarladılar. Onlar, həmçinin, Dağlıq Qarabağ münaqişəsinin həllində təxirə salınmadan real nəticələr əldə etməyi Ermənistan və Azərbaycandan təkidlə tələb etdilər.

---

* "Avropa Şurası Cənub-Şərqi Avropa və Qafqaza dair fəaliyyətini artırır" (9 noyabr 2000-ci il tarixində Nazirlər Komitəsinin 107-ci iclasında qəbul edilmişdir).

Əlavə III.3.9

Ermənistanda və Dağlıq Qarabağda saxlanılan hərbi əsirlər və girovlar haqqında*

Strasburq, 25 aprel 2001-ci il

1. 1988-ci ildə başlanmış və sonralar Ermənistanın Azərbaycana qarşı hərbi müdaxiləsinə çevrilmiş Dağlıq Qarabağ münaqişəsi respublikamızın ərazisinin təxminən 20 faizinin işğalı ilə nəticələnmişdir.

2. Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin 2001-ci il 10 aprel tarixli məlumatına əsasən, işğal nəticəsində 4959 nəfər itkin düşmüş, onlardan 1092 nəfəri 1992-2001-ci illər ərzində azad edilmişdir. Həmin məlumatda göstərildiyi kimi, onlardan 176 nəfəri xəstədir.

3. İndi Ermənistanda və Azərbaycanın işğal olunmuş ərazisində 183 nəfər əsir saxlanılır, onlardan 18-i uşaq, 43-ü qadın, 56 nəfəri qocadır. Ancaq Ermənistan tərəfi bu faktı inkar edir.

4. Beynəlxalq Qırmızı Xaç Cəmiyyətinin verdiyi məlumata görə, bu təşkilat altı aydan artıqdır ki, həmin əsirlərlə görüşə bilmir.

5. Azərbaycan və Ermənistanın Avropa Şurasının tamhüquqlu üzvü olmasından artıq üç ay keçir. Belə bir nüfuzlu təşkilatın üzvü olan ölkənin ərazisində hətta adi insan hüquqları qorunmayan bu qədər əsirin olması qəbuledilməzdir.

6. Azad edilmiş əsirlərin dediyinə görə, əsirlikdə olanlar qul kimi işlədilir, daim təhqir olunur və işgəncələrə məruz qalırlar. Onlar normal qidalanmır, lazımi tibbi yardım almırlar.

7. Assambleya Nazirlər Komitəsinə müraciət edərək Avropa Şurasının üzvü olan bir dövlətin - Ermənistanın işğal etdiyi Azərbaycan ərazisində insan hüquqlarına dair Avropa Konvensiyasının həyata keçirilməsini bütün imkanlardan istifadə etməklə təmin etməyə çağırır.

8. Assambleya Hüquqi Məsələlər və İnsan Hüquqları Komitəsinə müraciət edərək problemin tezliklə həll olunması ilə bağlı xüsusi məruzə hazırlamasını xahiş edir.

---

* Bax: Avropa Şurası Parlament Assambleyası. Sənəd. 9063

Əlavə III.3.10

Ermənilərin azərbaycanlılara qarşı soyqırım siyasətinin tanınması haqqında yazılı bəyannamə*

Strasburq, 26 aprel 2001- ci il

Azərbaycan torpaqlarının Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələri ilə parçalanmasından başlanan soyqırım Azərbaycan tarixinin tərkib hissəsidir.

Ermənilər "Böyük Ermənistan" yaratmaq iddiası ilə 1905-1907-ci illərdə azərbaycanlılara qarşı kütləvi qırğınlar həyata keçirdilər.

1918-ci ilin martında ermənilər Bakı, Şamaxı, Quba, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və başqa ərazilərdə azərbaycanlılara qarşı qətliam törətdilər.

Sovet rejiminin köməyi ilə Ermənistan 1920-ci ildə Zəngəzuru və başqa Azərbaycan torpaqlarını öz ərazisinə birləşdirdi.

1948-1953-cü illərdə kommunist rejimi azərbaycanlıları onların Ermənistandakı tarixi torpaqlarından Azərbaycana deportasiya etdi.

1988-ci ildə Dağlıq Qarabağ münaqişəsi başlanandan sonra yüz minlərlə azərbaycanlı yenidən öz tarixi torpaqlarından deportasiya edildi.

1992-ci il fevral ayının 26-da Xocalı əhalisi ermənilər tərəfindən bütünlüklə məhv edildi, şəhər xarabazara çevrildi.

Dağlıq Qarabağdakı erməni separatizmi və Azərbaycan torpaqlarının 20 faizinin işğalı nəticəsində minlərlə insan məhv oldu, bir milyondan artıq əhali evindən-eşiyindən didərgin düşdü.

Biz, Parlament Assambleyasının bütün digər üzvlərinə müraciət edərək XIX əsrin əvvəllərindən başlayaraq ermənilərin azərbaycanlılara qarşı apardığı soyqırımını tanımaq üçün zəruri addımlar atmağı xahiş edirik.

---

* Bax: Avropa Şurası Parlament Assambleyası. Sənəd. 9066.

Əlavə III.3.11

Azərbaycanın mədəni irsinin zəbt edilməsi və dağıdılması*

Strasburq, 27 iyun 2001-ci il

Azərbaycan Respublikasına qarşı erməni təcavüzünün faciəvi nəticələrindən biri də odur ki, Azərbaycan torpaqlarının 20 faizini işğal etməkdən əlavə, ermənilər ölkənin zəbt olunmuş bölgələrində Azərbaycanın milli-mənəvi irsini məhv edirlər. Bir çox beynəlxalq təşkilatların müraciətinə baxmayaraq, Ermənistan işğal olunmuş bölgələrdə Azərbaycanın mədəni sərvətlərinin təhlükəsizliyi üçün heç bir konstruktiv addım atmamışdır.

İşğal olunmuş ərazidə 500 tarixi-memarlıq və 100-dən çox memarlıq abidəsi, 22 muzey, 4 şəkil qalereyası, 927 kitabxana, 85 musiqi məktəbi, 4 dövlət teatrı qalmışdır.

İşğal nəticəsində tunc dövrünə aid nadir abidələr - 100-dən çox Xocalı kurqanı yerlə-yeksan edilmişdir. Parlament Assambleyası belə xəbəri təşviş hissi ilə qarşılamışdır ki, insan sivilizasiyasının qədim məskənlərindən biri olan Azıx mağarası silah anbarı kimi istifadə olunur.

Azərbaycanın ədəbiyyat və incəsənət nümunələrinin ermənilər tərəfindən təhqirə məruz qalması Azərbaycan xalqını ciddi narahat edir.

Uzun əsrlər boyu yaradılmış mədəni irsin yalnız bir xalqa və ya ölkəyə mənsub olmadığını, dünya mədəniyyətinin bir parçası olduğunu nəzərə alaraq Parlament Assambleyası Avropa Şurasının Nazirlər Komitəsinə müraciət edir, Azərbaycanın mədəni irsinə qarşı ermənilərin törətdikləri vəhşiliklərin qarşısını almağa çağırır.

---

* Bax: Avropa Şurası Parlament Assambleyası. Sənəd. 9147

Əlavə III.3.12

Azərbaycan Respublikasında ekoloji vəziyyət (Dağlıq Qarabağ, Şuşa, Laçın, Qubadlı, Zəngilan, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl)*

Strasburq, 27 iyun 2001-ci il

Müasir dünyada ekoloji problemlərin ümumbəşəri əhəmiyyətini nəzərə

alaraq Avropa Şurası Azərbaycan Respublikasının ərazisində (Dağlıq Qarabağ, Şuşa, Laçın, Qubadlı, Zəngilan, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl) yaranmış ekoloji vəziyyətlə əlaqədar dərin təşviş hissi keçirir.

Azərbaycanın həmin ərazisində iki milli qoruq (Qarabağ və Bəsitçay) və dörd müvəqqəti qoruq (Laçın, Qubadlı, Arazətrafı, Cəbrayıl) var. Nadir təbii relyefi, zəngin fauna və florası ilə tanınan həmin milli qoruqlar nəzarətdən kənarda qaldığına görə aramsız olaraq ermənilər tərəfindən qarət edilir.

Adı çəkilən ərazilərdə meşələrin ümumi sahəsi 264.000 hektardır. Nadir ağac və heyvan növləri hər gün məhv edilir. Nəticədə təbii növlər arasında bioloji əlaqələr pozulur, bu isə ekoloji böhrana səbəb olur.

Azərbaycanın ən mühüm su arteriyalarından biri olan Araz çayında suyun kimyəvi analizi göstərir ki, suyun çirklənməsi normadan bir neçə dəfə yuxarıdır. Araz çayının əsas qollarının (Oxçuçay, Razdan, Arpaçay) Ermənistan ərazisindən keçdiyini, habelə Ermənistanın "Sərhədlərarası su arteriyalarından və beynəlxalq sulardan istifadə edilməsi və onların mühafizəsi haqqında Konvensiya"nı (Helsinki, 2000-ci il) imzalamadığını nəzərə alaraq Parlament Assambleyası vəziyyətlə əlaqədar böyük narahatlıq hissi keçirir.

Qafqaz regionunda seysmoloji aktivliyin (Spitak, 1988, Bakı, 2000) yüksək olduğunu, Ermənistan Respublikasındakı atom stansiyasının təkcə region üçün deyil, bütün Şərqi Avropa və Yaxın Şərq ölkələri üçün potensial təhlükə olduğunu, Azərbaycan Respublikasının 2001-ci ildə "Zəhərli tullantıların sərhədlərarası daşınmasına nəzarət haqqında Bazel Konvensiyası"nı imzaladığını, həmçinin adı çəkilən ərazilərin tamamilə nəzarətsiz qaldığını nəzərə alaraq Parlament Assambleyası belə bir narahatlıq hissi keçirir ki, Azərbaycanın həmin ərazilərində Ermənistandakı atom stansiyasının nüvə tullantıları basdırıla bilər.

Yuxarıda deyilənləri nəzərə alaraq, Parlament Assambleyası Nazirlər Komitəsinə müraciət edir, Avropanın nadir torpaq sahələrindən olan həmin işğal zonasında mümkün ekoloji fəaliyyətin qarşısını almaq üçün təsirli tədbirlər görməyə çağırır.

---

* Bax: Avropa Şurası Parlament Assambleyası. Sənəd. 9148

Əlavə III.3.13

Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində nüvə texnologiyası və nüvə tullantılarının basdırılması barədə*

Strasburq, 7 may 2002- ci il

Ermənistan-Azərbaycan münaqişəsinin nəticələrindən biri Ermənistan hərbi qüvvələri tərəfindən işğal edilmiş torpaqlarda, Qarabağ dağlarında və Azərbaycan Respublikasının digər yeddi rayonunda nəzarət edilməyən nüvə zonalarının yaradılması olmuşdur ki, bu da bütün Cənubi Qafqaz regionu üçün ciddi təhlükə törədir.

İşğal edilmiş ərazidə 29 nüvə mərkəzi vardır. Bu sahədə radiasiya və nüvə tullantıları 80000 hektar kənd təsərrüfatı torpağım, 150000 hektar meşəni, 22000 hektar şəxsi sahələri və iki yaşayış qəsəbəsini zəhərləmişdir.

Ermənistanm "Razdanmaş", "Armavir", "Akopyan", "Cak Mac Metals" və "Vartaniol" şirkətləri nüvə texnologiyalarım Dağlıq Qarabağdan keçirməklə İrana və İraqa ötürmüşlər. Sonuncu şirkət, həmçinin işğal edilmiş ərazidə "C-300" və "Tayfun" tipli raketlərin təkmilləşdirilməsi prosesinə cəlb edilmişdir.

Sankt-Peterburq Fizika İnstitutunun, Moskvanın Kurçatov adına Nüvə Texnologiyaları İnstitutunun və Minskin Nüvə Fizikası İnstitutunun laboratoriyaları Qarabağ dağlarında işləyirlər. Bu laboratoriyalarm və Ermənistamn "Metsamor" atom stansiyasımn nüvə tullantıları xüsusi çəlləklərdə Qarabağın dağlıq regionunda yerləşən Almalı, Kolatıq və Seyidbəyli yaşayış sahələrində basdırmışlar.

Baham adalarında yerləşmiş olan "Union Atomic Garbage Pic" adlı atom tullantılarınm yerləşdirilməsi üzrə podratçı şirkəti Qarabağ dağlarında nüvə tullantılarımn basdırılması üçün xüsusi beton çalalar tikmişdir.

Azərbaycanm işğal edilmiş Cəbrayıl rayonunun təxminən yarısı İran vətəndaşlarına icarəyə verilmişdir. Nüvə tullantıları bu rayonun şərq hissəsində basdırılmışdır və 219 kvadrat kilometrlik sahə yüksək radiasiya ilə əhatə edilmişdir. Bu rayonun İrana yaxın hissəsi (93 kvadrat kilometr) on illiyə İranın sərhəd qüvvələrinə icarəyə verilmişdir.

Regionda mövcud olan nüvə təhlükəsi, həmçinin ermənilər tərəfindən 1993-cü ildə Azərbaycanın Kəlbəcər rayonunun işğalı zamanı nüvə döyüş başlıqlarınm istifadəsinin nəticəsi kimi özünü büruzə vermişdir və ekspertlərin rəyi belədir ki, bu zəhərlənmiş zona ən azı iyirmi beş il ərzində təmizlənə bilər (Rusiya Federasiyası Elmlər Akademiyasınm Mikrobiologiya İnstitutu, "Messenger" 1997, 14 noyabr).

Azərbaycanın işğal edilmiş Laçın rayonunun 280 kvadrat kilometrlik meşə zonası Amerika vətəndaşı Q.Ohanyana icarəyə verilmişdir və o, bu ərazidə silah zavodu tikmişdir. Ermənistan Toksikologiya İnstitutunun 1996-cı il hesabatında göstərilmişdir ki, Laçm rayonunda olan 320 kvadrat kilometrlik sahə kütləvi qırğın zonasına çevrilmişdir.

Azərbaycan Respublikasınm beynəlxalq nəzarətdən kənar olan işğal edilmiş ərazilərində nüvə silahlarının, nüvə texnologiyalarınm və nüvə tullantılarınm artması, Qafqazda sülhün və sabitliyin gələcəkdə yaradılması üçün ciddi maneəni və daha böyük fəlakətlərin baş verməsinin real təhlükəsini əks etdirir.

Assambleya belə hesab edir ki, Azərbaycanın işğal edilmiş ərazilərində qanunsuz zonaların mövcudluğu bütün Qafqaz üçün real nüvə təhlükəsi yaradır.

Assambleya təkid edir ki, Ermənistan rəhbər dairələri regionda nüvə təhlükəsinin genişləndirilməsinə son qoysunlar.

Assambleya Avropa Şurasına üzv olan ölkələri buna çağırır ki, işğal edilmiş Azərbaycan ərazilərində radiasiya zonaları yaradan Ermənistan və İranla hər hansı nüvə əməkdaşlığından çəkinsinlər.

Assambleya buna görə də özünün Siyasi İşlər Komitəsi və Ətraf mühit və Kənd Təsərrüfatı Komitəsindən xahiş edir ki, göstərilmiş məsələni nəzərdən keçirsin və bu barədə tövsiyələr tərtib etsin.

---

* Bax: Avropa Şurası Parlament Assambleyası. Sənəd. 9444

Əlavə III.3.14

Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində ermənilər tərəfindən dəstəklənən terrorçu təşkilatlar şəbəkəsi barədə*

Strasburq, 14 iyun 2002- ci il

Azərbaycan Respublikasınm 20 faizi Ermənistan tərəfindən işğal edilmişdir. İşğal edilmiş ərazilərdə beynəlxalq hüquq normalarına daha hörmət edilmir və bu torpaqlar Avropa qitəsindən təcrid edilərək dünya ictimaiyyəti üçün ciddi qeyri-təhlükəsizlik zonası təşkil edir.

İşğal edilmiş ərazilərdə yerləşmiş olan terrorçu qruplarının maliyyə mənbələri narkotiklərin satışı, nüvə layihələri və həmçinin silahların daşınmasıdır.

Dağlıq Qarabağ regionunda narkotiklərin becərilməsi və istehsalı üçün zəruri olan şəraitin yaradılması barədə ABŞ Dövlət Departamentinin mart, 2000-ci il tarixli hesabatı və həmçinin işğal edilmiş torpaqlarda qanunsuz nüvə layihələrinin yerinə yetirilməsi ilə məşğul olan erməni təşkilatlarına qarşı sanksiyaların tətbiq edilməsi üzrə ABŞ Dövlət Departamentinin may, 2002-ci il tarixli qərarının qəbul edilməsi Ermənistan dövlətinin müdafiəsi ilə bu cinayət fəaliyyətini idarə edən terrorçu şəbəkəsinə xüsusi diqqət yetirilməsinə olan ehtiyacı çox yaxşı sübut edir.

İşğal edilmiş ərazilərdə nəzarətin olmaması nəinki erməni terror təşkilatları olan "Asala", "Haudud" təşkilatları üçün əlverişli şərait yaradır, həmçinin təlim düşərgələri yaratmaq və müvafiq fəaliyyət göstərmək üçün vəsaitə malik olan xarici terror təşkilatlarını da ruhlandırır.

İşğal edilmiş Kəlbəcər rayonunda Livanın "Qayıdan qəhrəmanlar təşkilatı" (rəhbəri: Ter-Qriqoryan, Beyrut mənşəli erməni), Laçın rayonunda kürdlərin PKK təşkilatı (rəhbəri: C.Samoyan) və "Vartan cəngavərləri" terrorist təşkilatı (rəhbəri: A.Babacanyan), Zəngilan rayonunda Livanın "Həmas" qrupunun "Ziyəddin Əl-Gissan" hərbi qolu, Xankəndində yunanların "Milli dirçəliş təşkilatı" terrorçu qrupu (rəhbəri: E.Qalustyan) geniş fəaliyyətdədir.

ABŞ vətəndaşı Monte Melkonyan, İran vətəndaşı Vazgen Sisliyan və Suriya vətəndaşı, 1970-80-ci illərdə Fransada törətdiyi terrorçuluq əməlləri ilə məşhur olmuş Varucan Qarbiyan kimi beynəlxalq terrorçulara Ermənistan prezidenti tərəfindən Qarabağ müharibəsinin milli qəhrəmanı adı verilməsi, onların dövlətin himayəsinə götürülməsi terrorizmin Ermənistanda dövlət səviyyəsində müdafiə edilməsini təkzibedilməz dərəcədə sübut edir.

Azərbaycanın işğal edilmiş ərazilərində olan "qanunsuz sahənin" bütün Avropa üçün təhlükə yaratdığını vurğulamaqla, Assambleya üzv olan ölkələri problemin həllini tapmaqda öz səylərini daha da artırmağa çağırır.

Azərbaycanın işğal edilmiş Dağlıq Qarabağ regionunda və bununla bitişik olan Azərbaycanın yeddi rayonunda cari vəziyyətin ciddi yoxlanılması üçün monitorinq qrupu yaradılmasına olan zəruri ehtiyacı xüsusi qeyd edir.

Assambleya bunu tövsiyə edir ki, Nazirlər Komitəsi zəruri olan addımlar atsın ki, işğal edilmiş və beynəlxalq nəzarət altında olmayan zonadan terrorçu qrupları və şəbəkələri yaratmaq, narkotikləri becərmək və daşımaq, məxfi nüvə layihələrini yerinə yetirmək üçün istifadə edən Ermənistan beynəlxalq hüquq normalarına və Avropa Şurasının Nizamnaməsinə zidd olan özünün bu fəaliyyətini dərhal dayandırsın.

---

* Bax: Avropa Şurası Parlament Assambleyası. Sənəd. 9489

Əlavə III.3.15

Ermənistan Respublikası tərəfindən Naxçıvan Muxtar Respublikasına yönəldilmiş blokada siyasəti təhlükəsinin aradan qaldırılması zərurəti barədə*

Strasburq, 14 oktyabr 2002- ci il

Sülhün yaradılması üzrə bütün cəhdlərə, o cümlədən son iki il ərzində Avropa Şurasının tövsiyə etdiyi cəhdlərə baxmayaraq, Azərbaycan Respublikası ərazilərinin Ermənistan Respublikası tərəfindən 1988-ci ildə başlamış olan işğalı indiyə qədər davam edir. Azərbaycan ərazisinin 20 faizini işğal etmiş Ermənistan silahlı qüvvələrinin öz ərazilərini genişləndirmək niyyətindən doğan böyük təhlükə mövcuddur və onlar bu məsələ ilə əlaqədar Naxçıvan Muxtar Respublikasına münasibətdə olan öz iddiaları haqda açıq-aşkar danışırlar.

1988-1994-cü illər ərzində sərhədə yaxın olan ərazilərdən Naxçıvan Muxtar Respublikasına bir neçə dəfə təcavüz cəhdi edilmişdir.

1991-ci ildən bəri Ermənistan Naxçıvan Muxtar Respublikasını tammiqyaslı iqtisadi, nəqliyyat və kommunikasiya blokadası şəraitində saxlayır. Bu cür dəhşətli blokadanın nəticəsi olaraq 45 istehsal və emal müəssisəsi öz fəaliyyətini dayandırmalı olmuşdur. 50 min insandan ibarət olan işçi qüvvəsi işsiz vəziyyətə düşmüş, onlar Dağlıq Qarabağdan (Naqorno Karabakh) zor gücünə qovulmuş və Naxçıvana qaçqın kimi gəlmiş 1400 ailəyə əlavə olunmuşlar.

Hal-hazırda Ermənistan rəsmi olaraq Naxçıvana olan iddialarını bəyan edir və hətta onu öz ərazisinə ilhaq edəcəyi ilə hədələyir. Bunu qeyd etmək zəruridir ki, bu gün Naxçıvan çox çətin şəraitdə yaşayır və Azərbaycanın qalan hissəsi ilə yalnız hava yolu ilə əlaqə saxlayır. Ermənistanın bu yeni bədnam planı hər bir yerdə - onun təhsil, elm, siyasi və hərbi dairələrində geniş və açıq şəkildə bəyan edilir.

Nazirlər Komitəsi Avropa Şurasının icraçı orqanı olmaqla və özünün nizamnaməsinə müvafiq olaraq hansı növ mexanizmlərdən istifadə edə bilər ki, Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı iddialarının qarşısını alsın və bu kontekstdə Naxçıvan Muxtar Respublikasının Ermənistan Respublikası tərəfindən 11 il davam edən tammiqyaslı blokadasının vurduğu ziyan Nazirlər Komitəsini narahat və məşğul edə biləcək bir sualdır.

---

* Bax: Avropa Şurası Parlament Assambleyası. Sənəd. 9586

Əlavə III.3.16

Avropa Şurası Parlament Assambleyası
ATƏT-in Minsk Konfransının məşğul olduğu
Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə
TÖVSİYƏ 1690 (2005) *

Strasburq, 25 yanvar 2005-ci il

Parlament Assambleyası ATƏT-in Minsk Konfransının məşğul olduğu münaqişəyə dair özünün 1416 (2005) saylı qətnaməsinə istinad edərək Nazirlər Komitəsinə aşağıdakıları tövsiyə edir:

I. Xüsusilə hərbi əməliyyatlardan çəkinmə və Azərbaycanın bütün işğal olunmuş ərazilərindən hərbi qüvvələrin geri çəkilməsi də daxil olmaqla, əlaqədar tərəfləri BMT Təhlükəsizlik Şurasının 822 (1993), 853 (1993), 874 (1993), 884 (1993) saylı qətnamələrinə əməl etməyə çağırsın;

II. Azərbaycan və Ermənistan tərəfindən BMT Təhlükəsizlik Şurasının qətnamələrinin və ATƏT-in Nazirlər Şurasının münaqişəyə dair qərarlarının yerinə yetirilməsinin monitorinqini aparsın və monitorinqin nəticələri barədə Assambleyaya hesabat versin;

III. BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq, münaqişənin dinc yolla həll olunması üçün üzv dövlətlər tərəfindən göstərilən səylər barədə Assambleyaya hesabat versin. Bu hesabatda BMT Təhlükəsizlik Şurasının 853 (1993) saylı qətnaməsinin ziddinə olaraq üzv dövlətlərin münaqişənin intensivləşdirilməsinə və ya ərazinin işğalının davam etməsinə gətirib çıxara bilən silah və sursat təchizatından çəkinib-çəkinməmələri də öz əksini tapsın;

IV. Dağlıq Qarabağ münaqişəsi haqqında özünün 1251 (1994) saylı tövsiyəsini xatırladaraq Azərbaycan və Ermənistanın istədikləri təqdirdə, Dağlıq Qarabağın siyasi statusunun müəyyənləşdirilməsinə köməklik məqsədilə ekspertləri onların sərəncamına versin;

V. Azərbaycan və Ermənistanda xüsusi etimad yaradılması tədbirləri üzrə fəaliyyət planı üçün vəsait ayırsın;

VI. Hər iki ölkədən müəllimlər və jurnalistlər üçün daha yaxşı qarşılıqlı anlaşma, dözümlülük və barışıq məqsədi güdən xüsusi treninq proqramlarının həyata keçirilməsinə vəsait ayırsın;

VII. Xüsusilə təhsil müəssisələri və ictimai KİV-ə dair irqçilik və dözümsüzlüyə qarşı Avropa Komissiyası tərəfindən hər iki ölkə üçün xüsusi fəaliyyətə vəsait ayırsın;

VIII. Səlahiyyətli rəhbər komitələri təlimatlandırsın ki, onlar Mübahisələrin sülh yolu ilə həll olunmasına dair Avropa Konvensiyasının Avropa Şurasının üzv dövlətləri arasında münaqişələrin aradan qaldırılmasının müasir tələblərini nə dərəcədə əks etdirməsi və Avropa Şurasının üzv dövlətləri arasında mübahisələrin sülh yolu ilə həll olunması üçün adekvat vasitənin tapılması məqsədilə konvensiyanın hansı hissəsinə düzəlişlərin edilməsi ilə bağlı təhlil aparsın;

IX. İki ölkəyə dair fəaliyyətlə bağlı qərar verərkən 1416 (2005) saylı qətnaməni nəzərə alsın;

X. 1416 (2005) saylı qətnamənin və bu tövsiyənin milli, ikitərəfli və beynəlxalq səviyyədə dəstəklənməsi məqsədilə onları üzv dövlətlərin hökumətlərinə təqdim etsin.

---

* 2005-ci il yanvarın 25-də Assambleyanın müzakirəsi (2-ci iclas).

(Bax: Siyasi məsələlər komitəsinin məruzəsi, Sənəd.10364, məruzəçi: cənab Atkinson). 2005-ci il yanvarın 25-də Assambleya tərəfindən qəbul olunmuş mətn (2-ci iclas).

Əlavə III.3.17

Avropa Şurası Parlament Assambleyası
ATƏT-in Minsk Konfransının məşğul olduğu
Dağlıq Qarabağ bölgəsi üzərində münaqişə
QƏTNAMƏ 1416 (2005) *

Strasburq, 25 yanvar 2005-ci il

1. Parlament Assambleyası silahlı əməliyyatların başlamasından on ildən artıq bir müddətin keçməsinə baxmayaraq, Dağlıq Qarabağ bölgəsi üzərində münaqişənin həll olunmamış qalmasından təəssüflənir. Yüz minlərlə insan hələ də köçkündür və acınacaqlı şəraitdə yaşayır. Azərbaycan ərazisinin əhəmiyyətli hissələri hələ də Erməni qüvvələri tərəfindən işğal altındadır və separatçı qüvvələr hələ də Dağlıq Qarabağ bölgəsinə nəzarət edirlər.

2. Assambleya hərbi əməliyyatların və bundan əvvəl başlamış kütləvi etnik düşmənçiliyin qorxunc etnik təmizləmə anlayışını xatırladan genişmiqyaslı etnik qovulmaya və mono-etnik ərazilərin yaranmasına gətirib çıxarması ilə bağlı öz narahatlığını ifadə edir. Assambleya bir daha təsdiq edir ki, bir dövlətin ərazisindən

regional ərazinin ayrılması və müstəqilliyi etnik qovulmaya və bu cür ərazinin digər dövlətə de-fakto birləşdirilməsinə gətirib çıxaran silahlı münaqişə yolu ilə deyil, yalnız bu ərazinin əhalisinin demokratik dəstəyinə əsaslanan qanuni və dinc proses vasitəsilə əldə oluna bilər. Assambleya üzv dövlət tərəfindən xarici ərazinin işğalının həmin dövlətin Avropa Şurasının üzvü kimi öz üzərinə götürdüyü öhdəliklərin ciddi şəkildə pozulması demək olduğunu xatırladır və münaqişə ərazisindən köçkün düşmüş şəxslərin öz evlərinə təhlükəsiz və ləyaqətlə qayıtması hüququnu bir daha təsdiq edir.

3. Assambleya Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 822 (1993), 853 (1993), 874 (1993) və 884 (1993) saylı Qətnamələrini xatırladır və əlaqədar tərəflərin, xüsusilə silahlı əməliyyatlardan çəkinməklə və istənilən işğal olunmuş ərazilərdən silahlı qüvvələri çıxarmaqla, onlara riayət etməsini təkid edir. Assambleya Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 853 (1993) saylı Qətnaməsində ifadə olunmuş tələbə tərəfdar çıxır və beləliklə, bütün üzv dövlətlərin münaqişənin intensivləşdirilməsinə və ya ərazinin işğalının davam etməsinə gətirib çıxara bilən silah və sursat təchizatından çəkinməsini təkid edir.

4. Assambleya xatırladır ki, həm Ermənistan, həm də Azərbaycan 2001-ci ilin yanvarında Avropa Şurasına daxil olarkən öz qonşularına qarşı zor tətbiq etmək hədəsindən çəkinməklə münaqişəni yalnız dinc vasitələrlə həll etmək öhdəliyini götürmüşlər. Eyni zamanda, Ermənistan münaqişənin həllini təşviq etmək üçün Dağlıq Qarabağ üzərində əhəmiyyətli təsirindən istifadə etməyi öz üzərinə götürmüşdür. Assambleya hər iki Hökumətin bu öhdəliklərə əməl etməsini, eləcə də bir-birinə qarşı silahlı qüvvələrdən istifadə etməkdən və hərbi əməliyyatları təbliğ etməkdən çəkinməsini təkid edir.

5. Assambleya Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (ATƏM) Nazirlər Şurasının 1992-ci ilin mart ayında Helsinkidə münaqişənin dinc yolla həlli üzrə danışıqlar forumunun təmin edilməsi məqsədilə Minskdə konfrans keçirmək barədə razılıq əldə etdiyini xatırladır. Ermənistan, Azərbaycan, Belarus, keçmiş Çex və Slovak Federal Respublikası, Fransa, Almaniya, İtaliya, Rusiya Federasiyası, İsveç, Türkiyə və Amerika Birləşmiş Ştatları həmin vaxt Konfransda iştirak etməyə razılıq vermişdilər. Assambleya bu dövlətləri münaqişənin dinc yolla həllinə nail olmaq üçün öz səylərini artırmağa çağırır və onların Assambleyadakı milli nümayəndə heyətlərini bununla əlaqədar öz hökumətlərinin gördüyü tədbirlər barədə hər il Assambleyaya məruzə etməyə dəvət edir. Bu məqsədlə Assambleya öz Bürosundan bu milli nümayəndə heyətlərinin başçılarının da daxil olduğu ad hoc Komitə yaratmağı xahiş edir.

6. Assambleya, xüsusilə də 1994-cü ilin may ayında atəşkəsə nail olunmasına və həmin vaxtdan etibarən atəşkəsə riayət olunmasının monitorinqinə

görə Minsk qrupunun həmsədrlərinin və ATƏT-in fəaliyyətdə olan sədrinin səxsi nümayəndəsinin yorulmaq bilmədən göstərdikləri səylərini yüksək qiymətləndirir. Assambleya ATƏT-in Minsk Qrupu Həmsədrlərini silahlı münaqişənin dayandırılması barədə, həyata keçirilməsi münaqişənin bütün tərəflər üçün başlıca nəticələrini aradan qaldıracaq və Minsk Konfransının çağırılmasına imkan verəcək siyasi sazişin bağlanılması üzrə danışıqları sürətləndirmək üçün təcili addımlar atmağa çağırır. Assambleya Ermənistanı və Azərbaycanı ATƏT-in Minsk Prosesindən faydalanmağa və Minsk Qrupu vasitəsilə münaqişənin beynəlxalq hüququn müvafiq norma və prinsiplərinə uyğun olaraq dinc yolla həlli üçün öz konstruktiv təkliflərini bir-birinə fəal surətdə təqdim etməyə çağırır.

7. Assambleya Azərbaycan və Ermənistanın Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsini imzalamalarını və Nizamnamənin 93-cü Maddəsinin 1-ci bəndinə uyğun olaraq ipso facto Beynəlxalq Ədalət Məhkəməsinin Statutuna tərəfdar çıxmalarını xatırladır. Bununla əlaqədar olaraq Assambleya Minsk Qrupunun Həmsədrlərinin himayəsi altında keçirilən danışıqların uğursuzluqla nəticələnəcəyi təqdirdə, Azərbaycan və Ermənistanı Məhkəmənin Statutunun 36-cı Maddəsinin 1-ci bəndinə uyğun olaraq Beynəlxalq Ədalət Məhkəməsindən faydalanmağı nəzərdən keçirmələrini təklif edir.

8. Assambleya Azərbaycan və Ermənistam Assambleya daxilində, eləcə də Qafqaz Dördlüyünün Parlament Spikerlərinin görüşləri kimi digər forumlarda ikitərəfli parlamentlərarası əməkdaşlığı gücləndirməklə özləri arasında siyasi barışığı təşviq etməyə çağırır. O, hər iki nümayəndə heyətinin bu cür barışıq istiqamətində tərəqqini nəzərdən keçirmək üçün Assambleyanın hər hissəvi sessiyasında görüşməsini tövsiyə edir.

9. Assambleya Azərbaycan hökumətini bölgənin gələcək statusu ilə bağlı Dağlıq Qarabağ bölgəsinin hər iki icmasının siyasi nümayəndələri ilə qeyd-şərtsiz əlaqə qurmağa çağırır. O, bu cür əlaqələr üçün Strasburqda şərait yaradılmasına hazır olduğunu qeyd edir və bir neçə dəfə ermənilərin iştirakı ilə dinləmələr formasında bunu həyata keçirdiyini xatırladır.

10. Assambleya özünün Azərbaycan, Ermənistan və Gürcüstanda qaçqınların və məcburi köçkünlərin vəziyyətinə dair 1570 (2002) saylı Tövsiyəsini xatırladaraq bütün üzv və müşahidəçi dövlətləri etnik ermənilərin Azərbaycandan və etnik azərbaycanlıların Ermənistandan qovulması və silahlı əməliyyatlar nəticəsində köçkün düşmüş yüz minlərlə insana humanitar yardım və kömək göstərməyə çağırır.

11. Assambleya Ermənistan və Azərbaycan kütləvi informasiya vasitələrində əks olunan bütün nifrət ifadələrini mühakimə edir. Assambleya Ermənistan və Azərbaycana müraciət edərək məktəblər, universitetlər və KİV

vasitəsi ilə öz xalqları arasında qarşılıqlı barışığı, etimad yaradılmasını və qarşılıqlı anlaşmanı təşviq etməyə çağırır. Belə bir barışığın olmadığı təqdirdə nifrət və etimadsızlıq bölgədə sabitliyə mane olacaq və yeni zorakılığa gətirib çıxaracaqdır. İstənilən davamlı həlldən əvvəl və həll zamanı bu cür barışıq prosesi həyata keçirilməlidir.

12. Assambleya Avropa Şurasının Baş Katibini Ermənistan və Azərbaycana qarşılıqlı barışıq prosesinə yönəlmiş xüsusi dəstək verilməsi üçün fəaliyyət planı hazırlamağa, eləcə də Ermənistan və Azərbaycana dair tədbirlər barədə qərar verərkən bu qətnaməni nəzərə almağa çağırır.

13. Assambleya Avropa Şurasının Yerli və Regional Hakimiyyətlər Konqresini Ermənistan və Azərbaycanda bələdiyyələrə seçilən nümayəndələrə qarşılıqlı əlaqələrin və bölgələrarası qarşılıqlı əməkdaşlığın qurulmasında yardım etməyə çağırır.

14. Assambleya insan hüquqlarına, sabitliyə və sülhə təhlükə törədən ikitərəfli münaqişələri və daxili mübahisələri yerli və regional ərazi icmalarını və hakimiyyətləri cəlb etməklə dinc yolla həll etmək üçün özünün üzv dövlətlərini daha yaxşı mexanizmlərlə təmin etmək məqsədilə Avropa Şurasının münaqişələrin həlli üzrə mövcud mexanizmlərini, xüsusilə də Mübahisələrin dinc yolla həlli üzrə Avropa Konvensiyasını təhlil etməkdə qərarlıdır.

15. Assambleya bu münaqişənin dinc yolla həllinin mütəmadi əsasda monitorinqini davam etdirməkdə qərarlıdır və bu məsələnin nəzərdən keçirilməsinə özünün 2006-cı ildə ilk hissəvi-sessiyasında qayıtmağa qərar verir.

---

* 2005-ci il yanvarın 25-də Assambleyanın müzakirəsi (2-ci iclas). (Bax: Siyasi məsələlər komitəsinin məruzəsi, Sənəd.10364, məruzəçi: cənab Atkinson). 2005-ci il yanvarın 25-də Assambleya tərəfindən qəbul olunmuş mətn (2-ci iclas).

III.4. Avropa İttifaqının sənədləri

Əlavə III.4.1

Avropa İttifaqı
Dağlıq Qarabağa dair
BƏYANAT

Brüssel, 22 may 1992-ci il

Birlik və ona üzv olan dövlətlər Dağlıq Qarabağ regionunda döyüşlərin son vaxtlar intensivləşməsi ilə bağlı dərin narahatlığını bildirir və hər hansı bir tərəfdən güc tətbiq edilməsini qəti şəkildə pisləyir. Birlik və ona üzv olan dövlətlər davamlı döyüşlər nəticəsində əhalinin yenidən üzləşdiyi əzab-əziyyətdən və insan tələfatından təəssüflənir.

Dağlıq Qarabağın erməni və Azərbaycanlı əhalisi daxil olmaqla, Ermənistan və Azərbaycan xalqları, hər iki hökumətin ATƏM-in prinsip və öhdəliklərini qəbul etdikləri təqdirdə, eyni səviyyəli mühafizə ilə təmin olunmaq hüququna malikdirlər. Buna görə də Birlik və ona üzv olan dövlətlər qəbul edilmiş prinsip və öhdəliklərə zidd olaraq ərazi bütövlüyünə qarşı və ya mülki əhalinin daimi yaşayış yerlərindən qovulması da daxil olmaqla, siyasi məqsədlərə nail olmaq üçün gücə əsaslanan hərəkətləri pisləyir. Azərbaycan və erməni əhalisinin fundamental hüquqları mövcud sərhədlər məzmununda tam şəkildə bərpa edilməlidir.

Birlik və ona üzv olan dövlətlər Ermənistan və Azərbaycana müraciət edərək maksimal dərəcədə təmkinlilik nümayiş etdirməyə və ATƏM prosesinə konstruktiv töhfə verməyə çağırır. Bu mənada Birlik və ona üzv olan dövlətlər bütün tərəfləri Dağlıq Qarabağ üzrə ATƏM-in Sülh Konfransının tezliklə keçirilməsi istiqamətində iş aparmağa və Dağlıq Qarabağ icmalarının təmsil olunmaları şərtlərinə dair razılıq əldə etməyə dəvət edir ki, onsuz davamlı sülhün bərqərar olması mümkün deyil.

Əlavə III.4.2

Avropa İttifaqı
Dağlıq Qarabağa dair
BƏYANAT

Brüssel, 18 iyun 1992-ci il

Birlik və ona üzv olan dövlətlər Dağlıq Qarabağda davam edən döyüşlər ilə bağlı dərin narahatlığını bildirir. Birlik və ona üzv olan dövlətlər böhranın həllinə qətiyyən kömək etməyən hər hansı gücün tətbiq edilməsini ciddi şəkildə pisləyir. Onlar böhrana qatılan tərəfləri təmkinliliyə dəvət edir və növbəti əzab-əziyyət və ya insan tələfatı ilə nəticələnən hərəkətlərdən çəkinməyə çağırır.

Birlik və ona üzv olan dövlətlər aidiyyəti olan hökumətləri nüfuzlarından istifadə edərək baş verən dəhşətli zorakılığa son qoymağa və davamlı atəşkəsə nail olmağa çağırır.

Birlik və ona üzv olan dövlətlər Ermənistan və Azərbaycana bir daha müraciət edərək ATƏM-ə daxil olarkən götürdükləri öhdəliklərə əsasən insan hüquqlarına hörmət etməyə çağırır. Onlar tərəfləri regionda sülhü bərpa etməyin ən yaxşı yolunu təklif edən ATƏM-in himayəsi altında Minsk Konfransının tezliklə keçirilməsinin zəruri şərtlərinin yaradılması üçün Romada ilkin fövqəladə görüş çərçivəsində göstərilən səylərə töhfə verməyə çağırır.

Əlavə III.4.3

Avropa İttifaqı
Dağlıq Qarabağa dair
BƏYANAT

Brüssel, 7 aprel 1993-cü il

Birlik və ona üzv olan dövlətlər Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Ermənistan Respublikası və Azərbaycan Respublikası arasında münasibətlərin son zamanlarda kəskin şəkildə pisləşməsindən dərin narahatlıq keçirir. Birlik və ona üzv olan dövlətlər hərbi əməliyyatların Kəlbəcər və Füzuli rayonları ərazisinə yayılmasından təəssüfləndiyini bildirir. Azərbaycan ərazilərindən dərhal çıxarılması və bu ərazilərdə döyüşlərin dayandırılması məqsədilə Ermənistan hökuməti Dağlıq Qarabağın hərbi birləşmələri üzərində olan təsirindən istifadə

etməyə qətiyyətlə çağırılır. Cərəyan edən son hadisələrə baxmayaraq, bütün tərəflərdən ATƏM-in Minsk qrupunda aparılan danışıqları tərk etməməyi xahiş edilir.

Əlavə III.4.4

Avropa İttifaqı
Dağlıq Qarabağa dair
BƏYANAT

Brüssel, 24 iyun 1993-cü il

Birlik və ona üzv olan dövlətlər cənab Rafaellinin təqdim etdiyi ATƏM planının Dağlıq Qarabağ mübahisəsinin bütün iştirakçıları tərəfindən qəbul edilməsini alqışlayır. Onlar inanırlar ki, sözügedən plan regionda hərtərəfli atəşkəs, BMT TŞ-nin 30 aprel 1993-cü il tarixli 822 saylı qətnaməsinin həyata keçirilməsi və Dağlıq Qarabağ münaqişəsinin danışıqlar vasitəsilə həlli istiqamətində əsil irəliləyiş üçün ən yaxşı ümiddir. Onlar Dağlıq Qarabağda erməni icması nümayəndələrinin plana razılıqlarını təmin etmək məqsədilə Ermənistan prezidenti Ter Petrosyanın uğurlu şəxsi müdaxiləsini yüksək qiymətləndirirlər.

Birlik və ona üzv olan dövlətlər ümid edirlər ki, Ermənistan hökuməti Dağlıq Qarabağda sülh planını hələ qəbul etməyən elementlər tərəfindən onu tam şəkildə qəbul etmək və Azərbaycanda Dağlıq Qarabağ və onun ətrafındakı indiki daxili çətinliklərdən sui-istifadə etməkdən çəkinmək çağırışlarını davam etdirəcəkdir. Birlik və ona üzv olan dövlətlər xəbərdarlıq edirlər ki, hazırkı vəziyyətdə hər hansı bir tərəfin hücum əməliyyatı sülh planını təhlükə altına sala bilər.

Birlik və ona üzv olan dövlətlər münaqişə tərəflərini planı tam şəkildə dəstəkləməyə çağırır ki, bu, ATƏM-in müşahidəçi missiyasının yerləşdirilməsinin ilk mərhələsini asanlaşdırar. Onlar həmçinin tərəfləri qoşunların işğal edilmiş ərazilərdən çıxarılmasını qəbul etməyə razılıq və ATƏM müşahidəçilərinin ərazilərdə yerləşdirildiyi andan təhlükəsizliyinə təminat verməyə təkid edirlər.

Əlavə III.4.5

Avropa İttifaqı
Dağlıq Qarabağa dair
BƏYANAT

Brüssel, 3 sentyabr 1993-cü il

Birlik və ona üzv olan dövlətlər Dağlıq Qarabağda getdikcə genişlənən Azərbaycan ərazisini işğal edən yerli erməni qoşunlarının hücumlarını pisləyir. Onlar təəssüf hissi ilə qeyd edirlər ki, bu hərəkətlər döyüş bölgəsini genişləndirməklə daha böyük Azərbaycan ərazisini əhatə edir, Azərbaycanda çox ciddi qaçqın problemi meydana gətirir və qonşu ölkələri qatmaqla regional təhlükəsizliyi təhdid altına alır.

Birlik və ona üzv olan dövlətlər region dövlətlərinin ərazi bütövlüyü və suverenliyinə olan dəstəklərini bir daha bəyan edirlər.

Birlik və ona üzv olan dövlətlər Azərbaycan Hökuməti və Dağlıq Qarabağın rəhbərliyi arasında 31 avqust 1993-cü il tarixində əldə edilmiş müvəqqəti atəşkəsin davam etdirilməsi üçün ATƏM-in Minsk Qrupu çərçivəsində göstərilən səyləri tam dəstəkləyir. Birlik və ona üzv olan dövlətlər hər iki münaqişə tərəfini iyun ayının sonunda prinsip etibarı ilə razılaşdırılmış cədvəli yerinə yetirməyi mümkün edən hər hansı bir formada əlavə dialoqa başlamağa çağırırlar.

Birlik və ona üzv olan dövlətlər həmçinin Dağlıq Qarabağın yerli erməni silahlı qüvvələrinin BMT TŞ-nin 822 və 853 saylı qətnamələrinə hörmət etdiyini və Kəlbəcər, Ağdam, Füzuli və Cəbrayıl rayonlarından geri çəkiləcəklərini görəcəklərinə ümid edirlər. Birlik və ona üzv olan dövlətlərin əlində Azərbaycanın bu ərazilərdən irimiqyaslı hücumlar həyata keçirmək iqtidarında olduğuna dair heç bir dəlil yoxdur.

Birlik və ona üzv olan dövlətlər Dağlıq Qarabağ ermənilərinin BMT TŞ-nin 822 və 853 saylı qətnamələrinə və ATƏM-in Minsk Qrupunun təkliflərinə əməl etmələri üçün Ermənistan hökumətini özünün həlledici təsirindən istifadə etməyə çağırır. Birlik və ona üzv olan dövlətlər Ermənistana müraciət edərək Azərbaycan ərazisində hücumlar həyata keçirən yerli erməni hərbi birləşmələrinin bu cür hücumlarını daha da genişləndirmək üçün onlara maddi yardımın verilməməyini təmin etməyə çağırır.

Əlavə III.4.6

Avropa İttifaqı
Dağlıq Qarabağa dair
BƏYANAT

Brüssel, 9 noyabr 1993-cü il

Avropa İttifaqı 24 oktyabr 1993-cü il tarixində Dağlıq Qarabağ regionunda əldə edilmiş atəşkəsin pozulmasını pisləyir və bütün qüvvələri son vaxtlarda işğal edilmiş ərazilərdən geri çəkilməyə çağırır. Avropa İttifaqı ATƏM prinsiplərinə uyğun olaraq Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə verdiyi əhəmiyyəti bir daha vurğulayır.

Avropa İttifaqını döyüşlər nəticəsində yurdlarından didərgin salınmış insanların aqibəti xüsusilə narahat edir. Bu insanların qəbul edilməsi və qorunması beynəlxalq ictimaiyyətin əsas vəzifəsi olmalıdır. Bundan əlavə qaçqınların mövcudluğu münaqişənin beynəlxalq xarakter alması təhlükəsini artırır və bütün regionun sabitliyini təhdid edir.

Avropa İttifaqı zərər çəkmiş əhaliyə göstərilən yardımı davam etdirmək əzmindədir və region dövlətlərini həmin yardımların çatdırılması prosesini asanlaşdırmağa çağırır.

Avropa İttifaqı Dağlıq Qarabağ münaqişəsinin uzun müddətli siyasi həllinə nail olmaq məqsədilə ATƏM-in Minsk Qrupu tərəfindən göstərilən səyləri tam şəkildə dəstəklədiyini bir daha bildirir. Avropa İttifaqı münaqişə tərəflərini 24 oktyabr 1993-cü il tarixində pozulmuş atəşkəsi bərpa etməyə çağırır.

Əlavə III.4.7

Bülleten Aİ 01-1994 (fr): 1.3.7
Xarici siyasət və cəmiyyətin təhlükəsizliyi (7/20)

Azərbaycan

1.3.7. Avropa İttifaqının Sədrliyi adından Azərbaycandakı vəziyyət ilə bağlı 17 yanvar tarixində Afina və Brüssel şəhərlərində yayılmış kommünike:

"Avropa İttifaqı dekabr ayının ortalarından etibarən Dağlıq Qarabağ regionunda irimiqyaslı döyüşlərin yenidən başlanması ilə bağlı dərin narahatlıq hissi keçirir. Avropa İttifaqı mövcud tərəfləri təmkinlilik nümayiş etdirməyə və artıq müharibə nəticəsində əziyyət çəkmiş insanlara yenidən əzab verməməyə çağırır.

Avropa İttifaqı bir daha Azərbaycanın ərazi bütövlüyü prinsipini dəstəklədiyini bildirir və münaqişənin sülh yolu ilə nizamlanmasına dəvət edir. Məsələnin beynəlxalq xarakter alması təhlükəsini nəzərə alaraq Avropa İttifaqı aidiyyəti olan tərəfləri döyüşləri dayandırmağa və BMT TŞ-nin müvafiq qətnamələrinə əməl etməyə çağırır. Avropa İttifaqı tam şəkildə dəstəklədiyi ATƏM-in Minsk Qrupu çərçivəsində münaqişə tərəfləri arasında aparılan danışıqları ən qısa zamanda yenidən başlamağa çağırır."

Əlavə III.4.8

Bülleten Aİ 07-1994
Xarici siyasət və cəmiyyətin təhlükəsizliyi (6/24)

Dağlıq Qarabağ

1.3.5. Avropa İttifaqının Sədrliyi adından Dağlıq Qarabağa dair 5 avqust tarixində Brüssel və Bon şəhərlərində yayılmış kommünike:

"Avropa İttifaqı 12 may 1994-cü ildən etibarən qüvvədə olan atəşkəsin Ermənistan və Azərbaycan Müdafiə nazirləri, habelə Dağlıq Qarabağın hərbi birləşmələri tərəfindən 27 iyul 1994-cü il tarixində yazılı şəkildə təsdiq edilməsini təqdirəlayiq olduğunu bəyan edir. Münaqişə iştirakçılarının atdığı bu addım gələcəkdə məsələnin qarşılıqlı razılıq əsasında siyasi nizamlanmasına xidmət edəcəkdir.

Beləliklə, Avropa İttifaqı bu istiqamətdə tərəfləri ATƏM-in Minsk Qrupu ilə yaxından əməkdaşlıq etməyə və davamlı siyasi nizamlanmaya nail olmaq üçün üzərilərinə düşənləri yerinə yetirməyə çağırır. Fürsətdən istifadə edərək Avropa İttifaqı bir daha Minsk Qrupunun səylərini tam şəkildə dəstəklədiyini bəyan edir. Atəşkəsin təsdiq edilməsi təkcə ilk mərhələ deyil, eyni zamanda davamlı siyasi nizamlanmanın əldə edilməsi üçün danışıqların aparılması istiqamətində mühüm səy deməkdir. Avropa İttifaqı ATƏM müşahidəçilərinin regiona göndərilməsi üçün müvafiq razılaşmanın imzalanması məqsədilə avqust ayında danışıqların sürətləndirməsinə dair tərəflərin niyyətini alqışlayır. Belə ki, Avropa İttifaqı münaqişə tərəflərini ATƏM-in müşahidə missiyasının maksimum dərəcədə həyata keçirilməsindən ibarət olan ilk mərhələni dəstəkləməyə çağırır.

Bu kommünike dörd dövlətin mövqeyini bildirir.

Əlavə III.4.9

Bülleten Aİ 09-1994
Xarici siyasət və cəmiyyətin təhlükəsizliyi (5/6)

Dağlıq Qarabağ

1.3.5. Avropa İttifaqının Sədrliyi adından Dağlıq Qarabağa dair 15 sentyabr tarixində Brüssel və Bon şəhərlərində yayılmış kommünike:

"Avropa İttifaqı son günlərdə Ermənistan, Azərbaycan və Dağlıq Qarabağ rəhbərləri tərəfindən ATƏM-in Minsk Qrupunun Sədri səfir Eliassonun regiona səfəri zamanı verilmiş bəyanatları böyük məmnuniyyətlə qarşılayır. Həmin bəyanatlarda tərəflər münaqişənin nizamlanmasına dair razılığın əldə edilməsinə qədər atəşkəsə riayət edəcəkləri ilə bağlı niyyətlərini vurğulamışlar. Bundan əlavə, Avropa İttifaqı məsələ ilə əlaqədar Ermənistan və Azərbaycan hökumətləri, habelə Stepanakert rəhbərliyi tərəfindən verilmiş rəsmi bəyanatları alqışlayır.

Avropa İttifaqı hesab edir ki, atəşkəsin gücləndirilməsi və məsələnin siyasi nizamlanması yolunda bu addım mühüm əhəmiyyətə malikdir. Avropa İttifaqı ATƏM-in Minsk Qrupuna sözügedən bəyanatlarla nəticələnən səylərinə görə minnətdarlığını bildirir və Qrupun Dağlıq Qarabağ regionunda sülhün bərqərar olunması naminə mühüm fəaliyyətini dəstəkləyir. Avropa İttifaqı Minsk Konfransının tezliklə çağırıla biləcəyinə səmimi şəkildə ümid edir.

Nəhayət, Avropa İttifaqı ümid edir ki, münaqişə tərəfləri özlərinin ictimaiyyət üçün nəzərdə tutulmuş bəyanatlarında təmkinlilik nümayiş etdirəcəkdir. Bundan əlavə, Avropa İttifaqı danışıqlar prosesi üçün münbit və psixoloji nöqteyi nəzərdən əlverişli şəraitin yaradılması üçün tərəflər arasında təmasların davam etdirilməsini tövsiyə edir.

Bu kommünike dörd dövlətin mövqeyini bildirir.

Əlavə III.4.10

Almaniya sədrliyinin Avropa İttifaqı adından
Dağlıq Qarabağa dair
BƏYANATI

5 avqust, 1994-cü il

12 may 1994-cü ildən etibarən əməl olunan atəşkəsin Ermənistan və Azərbaycan Müdafiə nazirləri, o cümlədən Dağlıq Qarabağın ordu komandiri

tərəfindən 27 iyul 1994-cü ildə yazılı surətdə təsdiq edilməsini Avropa İttifaqı alqışlayır.

Müharibənin sülh və davamlı həllinə nail olmaqdan ötrü Avropa İttifaqı münaqişə tərəflərini bu məqsədlə ATƏM-in Minsk Qrupu ilə sıx əməkdaşlığa və onun təcrübəsindən istifadə etməyə çağırır. Avropa İttifaqı fürsətdən istifadə edərək Minsk Qrupunun səylərini tam olaraq dəstəklədiyini vurğulayır.

Atəşkəsin təsdiqi münaqişənin davamlı və siyasi üsulla həllinin təmin olunmasını nəzərdə tutan fasiləsiz danışıqlar yolunda atılan addımı ifadə edir. Avropa İttifaqı münaqişə tərəflərinin danışıqları avqustda davam etdirmək və ATƏM müşahidəçilərinin iştirakına yol verən sazişi imzalamaq niyyətini alqışlayır. Avropa İttifaqı münaqişə tərəflərini ATƏM-in müşahidə missiyasının ilk fazasının tezliklə başlamasına razı olmağa çağırır.

Avropa İttifaqına daxil olacaq ölkələr – Finlandiya, Avstriya və İsveç bu bəyanata qoşulurlar.

Əlavə III.4.11

İrlandiya sədrliyinin Avropa İttifaqı adından
Dağlıq Qarabağda vəziyyət barəsində
BƏYANATI

Daimi Şura, Brüssel, 31 oktyabr 1996-cı il

Avropa İttifaqı razılıq hissi ilə qeyd edir ki, 1996-cı il oktyabrın 28-dən 30-dək Moskvada Minsk Qrupu çərçivəsində danışıqların növbəti mərhələsi olmuş və sonrakı mərhələ noyabrın 18-dən başlayaraq Helsinkidə keçiriləcək. Biz Lissabon Zirvə Toplantısı zamanı çoxdan gözlənilən mühüm tərəqqi əldə olunması məqsədilə bu danışıqların müsbət nəticə verəcəyinə ümid bəsləyirik.

Avropa İttifaqı noyabrın 24-də Dağlıq Qarabağda seçkilər keçirilməsi niyyəti barədə Minsk Qrupunun 1996-cı il oktyabrın 30-da mətbuatda ifadə olunmuş bəyanatında onun ifadə etdiyi narahatlığa şərik çıxır. Belə seçkilər keçirilərsə, onlar cari danışıqlara mənfi təsir göstərə bilər. Biz təkid edirik ki, yerli hakimiyyət orqanları münaqişənin dincliklə həllinə nail olmağa kömək üçün öz qərarım dəyişdirsin.

Əlavə III.4.12

Avropa İttifaqı-Azərbaycan Əməkdaşlıq Komitəsinin üçüncü iclası

12 iyul 2002-ci il

Gələcək ikitərəfli əməkdaşlığın yekunları və qiymətləndirilməsi
Xarici siyasət

Avropa İttifaqı və Azərbaycan razıdırlar ki, Azərbaycanın və bütün Cənubi Qafqazın sabitliyi və tərəqqisi ilk növbədə regionda dondurulmuş münaqişələrin həll edilməsindən asılıdır.

Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünə tam hörmət əsasında Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsinin zəruriliyini vurğulayır.

Avropa İttifaqı inanır ki, bu münaqişə və onun həll edilməməsi Azərbaycanın və bütün regionun siyasi və iqtisadi inkişafı və təhlükəsizliyinə güclü mənfi təsir göstərir.

Hər iki tərəf ərazilərin de-fakto işğal edilməsi prinsipinin (fait accompli) münaqişənin həll edilməsinin əsasını təşkil edə bilmədiyinə razılaşdı və Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində nə hazırkı vəziyyətin, nə də status-kvo vəziyyətinin gücləndirilməsinə yönəldilmiş tədbirlərin qanuni hesab edilə bilmədiyini vurğuladı.

Avropa İttifaqı işğal olunmuş Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının dirçəldilməsi ilə birlikdə Bakı-Naxçıvan-Yerevan dəmir yolunun bərpasına imkan verəcək Ermənistan silahlı qüvvələrinin bu rayonlardan çıxarılmasına dair münaqişənin həlli və əməkdaşlığın bərpa edilməsi istiqamətində misilsiz tədbirlər paketi olan Azərbaycanın təklifini alqışladı və tərəfləri yaranmış çətin vəziyyətdən çıxmaq üçün bu fürsətdən istifadə etməyə dəvət etdi.

Hər iki tərəf ATƏT-in Minsk qrupunun münaqişənin həlli istiqamətindəki səylərinin əhəmiyyətini tanıyır və gələcəkdə də bu səyləri tam şəkildə dəstəkləyəcəklərinə dair öhdəlik götürür.

Avropa İttifaqı Ümumi Məsələlər Şurasının regionda daha fəal siyasi rol oynamaq niyyətinə dair 26 fevral 2001-ci il tarixli qərarını bir daha təsdiq edir. Avropa İttifaqı ATƏT-in Minsk qrupunun üzvləri, müvafiq beynəlxalq təşkilatlar və region ölkələri ilə sıx əməkdaşlıqda regionda mövcud olan münaqişələrin qarşısının alınması və həll edilməsinə yönəlmiş səyləri dəstəkləmək yollarını arayacaq və münaqişədən sonrakı bərpa işləri prosesində iştirak edəcək.

Avropa İttifaqı özünün regionda maraqlı olan bütün ölkələr, xüsusilə Rusiya və ABŞ ilə münasibətlərində Cənubi Qafqazda sülh və sabitliyin bərqərar edilməsinə yönəlmiş inkişafın təmin edilməsinə səy göstərəcək.

Əlavə III.4.13

Avropa Parlamentinin Cənubi Qafqaz üçün Avropa İttifaqının strategiyasına ehtiyac üzrə
Q Ə T N A M Ə

20 may 2010-cu il

Dağlıq Qarabağ münaqişəsi

Avropa Parlamenti

6. Dağlıq Qarabağ münaqişəsi üzrə danışıqlarda Ermənistan və Azərbaycan Prezidentləri arasında Moskva Bəyannaməsi ruhunda 2009-cu il ərzində keçirilən altı görüşdə öz əksini tapan dinamik tempi alqışlayır; tərəfləri növbəti ayda münaqişənin həllinin məqsədləri üçün sülh danışıqları səylərini intensivləşdirməyə, daha konstruktiv yanaşma nümayiş etdirməyə və güc yolu ilə yaradılmış və heç bir beynəlxalq legitimliyi olmayan status-kvonu saxlamağa üstünlük verməkdən və bu yolla qeyri-sabitlik yaratmaq və müharibənin təsirlərinə məruz qalan insanların məşəqqətlərini uzatmaqdan çəkinməyə çağırır; hərb yolu ideyasını və artıq istifadə olunmuş hərbi gücün ağır nəticələrini pisləyir və hər iki tərəfi 1994-cü il atəşkəsini bundan sonra pozmaqdan çəkinməyə çağırır;

7. ATƏT-in Minsk Qrupunun vasitəçilik səylərini, Madrid sənədindəki Əsas Prinsipləri və Böyük səkkizlik ölkələrinin Aakuil Sammiti çərçivəsində ATƏT-in Minsk Qrupu Həmsədr ölkələrinin 2009-cu il iyulun 10-da verilmiş bəyanatını tam olaraq dəstəkləyir; beynəlxalq birliyi sazişin əldə edilməsinə mane olan məqamları aradan qaldırmağa yardım etmək üçün cəsarət və siyasi iradə nümayiş etdirməyə çağırır;

8. Dağlıq Qarabağ müharibəsi zamanı və ya onunla əlaqədar öz evlərini tərk etmiş minlərlə qaçqın və məcburi köçkündən yüzlərlə insanın hələ də köçkün qalması və hüquqlarının, o cümlədən geri qayıtmaq, mülkiyyət və şəxsi təhlükəsizlik hüquqlarının pozulmasından ciddi narahatdır; bütün tərəfləri bu hüquqları şərtsiz tanımağa, onların tez bir zamanda reallaşdırılmasına və bu problemin beynəlxalq hüququn prinsiplərinə hörmət əsasında tez bir zamanda

həllinə çağırır; bu baxımdan bütün erməni qüvvələrinin Azərbaycanın bütün işğal olunmuş ərazilərindən geri çəkilməsini və bunun ardınca Dağlıq Qarabağ əhalisinin təhlükəsiziliyini təmin edəcək, məcburi köçkünlərə öz evlərinə qayıtmağa imkan verəcək və evsizlikdən doğan münaqişələrin qarşısını alacaq keçid dövrü zamanı zəruri olan təhlükəsizlik təminatlarını təmin etmək üçün BMT Nizamnaməsinə əsasən təşkil edilmiş beynəlxalq qüvvələrin yerləşdirilməsini tələb edir; Ermənistan və Azərbaycanın rəhbərliklərini və müvafiq icmaların rəhbərlərini məcburi köçkünlərin geri qayıtması üçün praktiki hazırlıqlar yolu ilə sülhməramlı etnik münasibətlər yaratmaq öhdəliklərini nümayiş etdirməyə çağırır; hesab edir ki, məcburi köçkünlərin və qaçqınların vəziyyətinə beynəlxalq standartlara, o cümlədən AŞPA-nın "Avropanın unudulmuş insanları: uzun müddətli köçkün düşmüş insanların insan hüquqlarının qorunması" adlı 1877 (2009) saylı tövsiyyəsinə uyğun şəkildə baxılmalıdır.

9. Davamlı sülhə nail olmaq üçün real səylərə ehtiyac olduğunu vurğulayır; bütün müvafiq rəhbər şəxsləri provokativ siyasətlərdən və ritorikadan, qızışdırıcı bəyanatlardan və tarixi manipulyasiya etməkdən çəkinməyə çağırır; Ermənistan və Azərbaycan rəhbərlərini məsuliyyətli davranmağa, çıxışlarını yumşaltmağa və ictimai fikrin münaqişənin hərtərəfli həllinin xeyirlərini tam olaraq qəbul etməsi və anlaması üçün əsas yaratmağa çağırır;

10. Dağlıq Qarabağ da daxil olmaqla, Dağlıq Qarabağı əhatə edən bütün işğal olunmuş Azərbaycan torpaqlarının tez bir zamanda boşaldılması mövqeyinə inanır; qeyd edir ki, Dağlıq Qarabağın yekun statusunun müəyyənləşdirilməsinə qədər ona müvəqqəti statusun verilməsi məsələnin həlli üçün çıxış yolu ola bilər və regionda erməni və Azərbaycan əhalisinin dinc yanaşı yaşaması və əməkdaşlığı üçün keçid çərçivəni təşkil edə bilər;

11. Hamı üçün təhlükəsizliyin istənilən münaqişənin həlli üçün vacib element olmasını vurğulayır; həm hərbi, həm də mülki aspektləri özündə cəmləyən və beynəlxalq insan hüquqları standartlarına əsaslanan müvafiq sülhqoruma tədbirlərinin vacibliyini tanıyır; münaqişənin siyasi həlli tapıldığı halda Şuranı sülh prosesini Birgə Təhlükəsizlik və Müdafiə Siyasəti (BTMS) missiyaları vasitəsilə, o cümlədən beynəlxalq sülhqoruma qüvvələrinin yaradılmasını asanlaşdıra bilmək üçün ərazıyə böyük monitorinq missiyası göndərmək yolu ilə dəstəkləmək imkanlarını müəyyənləşdirməyə çağırır.

III.5. İslam Konfransı Təşkilatının* sənədləri

Əlavə III.5.1

İslam Konfransı Təşkilatı Xarici işlər nazirlərinin XXI konfransı Ermənistan və Azərbaycan arasında münaqişə üzrə

QƏTNAMƏ

Kəraçi, 25-29 aprel 1993-cü il

Pakistan İslam Respublikasının Kəraçi şəhərində keçirilən İKT Xarici İşlər Nazirlərinin XXI konfransı İKT bəyannaməsinin prinsipləri və məqsədlərindən çıxış edərək,

Qarabağ məsələsi barəsində Ermənistanla Azərbaycan arasında münaqişənin kəskinləşməsi ilə əlaqədar dərindən narahat olaraq,

Ermənistanın Azərbaycana qarşı son hücumunu və Azərbaycan ərazisinin işğalını qətiyyətlə pisləyərək,

Azərbaycan Respublikasına qarşı Ermənistanın təcavüzü nəticəsində humanitar problemlərin dözülməz vəziyyətindən təsirlənərək,

İKT Xarici İşlər Nazirlərinin 1992-ci ildə İstanbulda keçirilmiş V fövqəladə iclasmın prinsipial mövqeyini yada salaraq, həmçinin İKT Xarici İşlər Nazirlərinin BMT qərargahında keçirilmiş əlaqələndirmə iclasının son rəsmi məlumatının müvafiq bəndlərini yada salaraq,

qonşu ölkələrin və regional dövlətlərin, xüsusilə İran və Türkiyənin, Qarabağ məsələsini sülh yolu ilə həll edilməsi istiqamətində göstərdiyi cəhdləri nəzərə alaraq,

ermənilərin son təcavüzünün beynəlxalq sülh və təhlükəsizlik üçün təhlükə yaratdığını dərk edərək,

bu yeni hərbi hücumun ATƏM çərçivəsində aparılan sülh prosesinə dağıdıcı təsir göstərə biləcəyindən xəbərdar olaraq,

Baş Katibin bu məsələ üzrə məruzəsini yüksək qiymətləndirərək:

1. Ermənistanın Azərbaycan Respublikasına qarşı təcavüzünü kəskin şəkildə pisləyir;

2. Erməni qüvvələrinin işğal edilmiş Azərbaycan ərazilərindən təcili çıxarılmasına və Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət bəsləməyi Ermənistandan ciddi surətdə tələb edir;

3. Qarabağ məsələsini dövlətlərin ərazi bütövlüyünün və beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə hörmət əsasında ədalətlə və sülh yolu ilə həll etməyə çağırır;

4. Həm Ermənistanın, həm də Azərbaycanın əməli surətdə həyata keçirilən ATƏM sülh prosesində konstruktiv mövqe tutmalarını tələb edir və məsələnin sülh yolu ilə həllini çətinləşdirə biləcək hər bir əməldən çəkinməyi tələb edir;

5. Azərbaycan hökumətinin və xalqının öz ölkəsinin müdafiəsi üçün etdiyi cəhdlərlə tam həmrəy olduğunu bir daha təsdiq edir;

6. Yaşayış yerlərini tərk edənlərin öz evlərinə təhlükəsiz, hörmət və qayğı ilə qayıtmalarını asanlaşdırmağa çağırır;

7. Üzv olan ölkələr İslam İnkişaf Bankından və digər İslam təsisatlarından Azərbaycan Respublikasına təcili maliyyə yardımı və humanitar yardım göstərməyi xahiş edirlər;

8. BMT Baş Katibindən və Təhlükəsizlik Şurasının sədrindən Təhlükəsizlik Şurasında Ermənistanın təcavüzünü pisləyən və Azərbaycanın işğal edilmiş bütün torpaqlarından erməni qüvvələrinin çıxarılmasını tələb edən qətnamə qəbul olunması üçün bütün səlahiyyətlərdən istifadə etməyi xahiş edir;

9. Baş Katibdən bu qətnamənin yerinə yetirilməsinə nəzarət etməyi və İKT Xarici İşlər Nazirlərinin XXII konfransında bu haqda məruzə etməyi xahiş edir.

Əlavə III.5.2

İslam Konfransı Təşkilatı Xarici işlər nazirlərinin fövqəladə sessiyası Ermənistan və Azərbaycan arasında münaqişə üzrə

QƏTNAMƏ

İslamabad, sentyabr 1994-cu il

Pakistan İslam Respublikasının İslamabad şəhərində keçirilən İKT xarici işlər nazirlərinin fövqəladə sessiyası.

İKT Bəyannaməsinin məqsəd və prinsiplərindən çıxış edərək;

Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasındakı hərbi münaqişənin kəskinləşməsi ilə əlaqədar dərindən narahat olaraq;

Ermənistan Respublikası ilə Azərbaycan Respublikasına qarşı aramsız hücumçu və Azərbaycan ərazisinin 20 faizdən artığının işğalını qətiyyətlə pisləyərək;

Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünün nəticəsində 1 milyondan artıq qaçqının əmələ gəlməsi və humanitar problemlərin dözülməzliyi ilə təsirlənərək;

1992-ci il İstanbulda keçirilmiş İKT Xarici İşlər Nazirlərinin beşinci fövqəladə konfransının prinsipal mövqeyini yada salaraq;

1993-cü ildə Pakistan İslam Respublikasının Kəraçi şəhərində keçirilmiş İKT Xarici İşlər Nazirlərinin XXI konfransının bu məsələ ilə əlaqədar qəbul etdiyi qətnaməsindən irəli gələn tələbləri bir daha təsdiq edərək;

Həmçinin BMT-nin qərargahında keçirilmiş İKT-nın Xarici İşlər Nazirlərinin koordinasiya iclasının son kommünikesinin müvafiq paraqraflarını yada salaraq;

Qonşu ölkələr və regional dövlətlərin, xüsusi ilə İran və Türkiyənin Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi istiqamətində etdikləri cəhdləri nəzərə alaraq;

Ermənistan Respublikasının təcavüzünün beynəlxalq sülh və təhlükəsizlik ücün maneə yaratdığını dərk edərək;

BMT Nizamnaməsinin və müvafiq qətnamələrinin dönmədən yerinə yetirilməsini bir daha təsdiq edərək;

Ermənistan Respublikasının davam etdirdiyi təcavüzkar siyasətin ATƏM çərçivəsində aparılan sülh prosesinə dağıdıcı təsir edə biləcəyindən xəbərdar olaraq;

Baş katibin bu məsələ üzrə məruzəsini yüksək qiymətləndirərək (Sənəd[1]);

1.Ermənistan Respublikasınm Azərbaycan Respublikasına qarşı hərbi təcavüzünü bir daha kəskin şəkildə pisləyir.

2.Təcavüz nəticəsində insanların kütləvi qətlə yetirilməsi, girovlara və hərbi əsirlərə işgəncə verilməsi, yaşayış məntəqələrinin bombardman edilməsi, işğal edilmiş şəhər və kəndlərin talan edilməsi, dağıdılması və yandırılmasını insaniyyət və bəşəriyyətə qarşı törədilən cinayət kimi qiymətləndirilir.

3.BMT-nin Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 nömrəli qətnamələrinin dönmədən yerinə yetirilməsini, Ermənistan Respublikası silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan ərazisindən təcili çıxarılmasını, Ermənistan Respublikasından Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə hörmət bəsləməsini ciddi surətdə tələb edir.

4.Təsdiq edir ki, ərazinin zor işlətməklə əldə edilməsi tanına bilməz, ərazinin işğal edilməsi isə beynəlxalq tanınma üçün və hüquqi statusun dəyişdirilməsinə vadar etmək üçün istifadə edilə bilməz.

5.Ermənistan-Azərbaycan münaqişəsinin dövlətlərin ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlərin pozulmazlığı prinsiplərinə hörmət əsasında ədalətlə və sülh yolu ilə həllinə çağırır.

6.Həm Ermənistan, həm də Azərbaycandan ATƏM-in sülh prosesində iştirak etməyi və problemin sülh yolu ilə həll edilməsini çətinləşdirə biləcək hər bir əməldən çəkinmələrini tələb edir.

7.Azərbaycan hökuməti və xalqının ölkənin müdafiəsi ücün etdikləri cəhdləri bütünlüklə dəstəklədiyini və onlarla tam həmrəy olduğunu bir daha təsdiq edir.

8.Yaşayış yerlərini tərk etmişlərin öz evlərinə təhlükəsiz, hörmət və şərəflə dönmələri üçün imkan yaratmağa çağırır.

9.Azərbaycan Respublikası ərazisində 1 milyondan artıq qaçqın və köçkünün olması ilə əlaqədar humanitar vəziyyətin kəskinləşməsindən təşviş keçirir və üzv ölkələr, İslam İnkişaf Bankı və digər islam institutlarından Azərbaycan Respublikasına təcili maliyyə və humanitar yardım etmələrini xahiş edir.

10. BMT-nin Baş katibi və Təhlükəsizlik Şurasından Ermənistan Respublikasını təcavüzkar kimi tanımasını, ona qarşı sanksiyaların tətbiq edilməsi və Ermənistan silahlı qüvvələrinin Azərbaycanın bütün işğal edilmiş torpaqlarından çıxarılmasını tələb edən TŞ qətnaməsinin qəbul edilməsi üçün bütün səlahiyyətlərindən istifadə etmələrini xahiş edir. Bu məqsədlə İKT-yə üzv olan hər bir dövləti bütün imkanlarından istifadə etməyə cağırır.

11. Baş katibdən bu Qətnamənin yerinə yetirilməsinə nəzarət və bu barədə İKT-nın Xarici İşlər Nazirlərinin növbəti konfransında məruzə etməsini xahiş edir.

Əlavə III.5.3

İslam Konfransı Təşkilatı ölkələrinin Dövlət başçılarının
VII Zirvə Toplantısı
Ermənistan və Azərbaycan arasında münaqişə üzrə
QƏTNAMƏ

Kasablanka, 13-14 dekabr 1994-cü il

İKT ölkələrinin Dövlət Başçılarının Mərakeş Krallığının Kasablanka şəhərində hicri tarixi ilə 1415-ci il rəcəb ayının 11-12-də, miladi tarixi ilə 1994-cü il dekabrın 13-14-də keçirilən VII Zirvə Toplantısı

İKT Bəyannaməsinin məqsəd və prinsiplərindən çıxış edərək;

Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində hərbi münaqişənin kəskinləşməsi və Azərbaycan ərazisinin 20%-dən artığının işğalından dərindən narahat olaraq;

Ermənistanın təcavüzü nəticəsində 1 milyondan artıq azərbaycanlının qaçqın vəziyyətinə düşməsi və humanitar problemlərin dözülməzliyi ilə təsirlənərək;

1992-ci ilin iyun ayında İstanbulda keçirilmiş V və 1994-cü ilin sentyabrında İslamabadda keçirilən İKT Xarici İşlər Nazirlərinin VII fövqəladə Konfransının prinsipial mövqeyini yada salaraq;

1993-cü il aprelin 25-29-da Pakistan İslam Respublikasının Kəraçi şəhərində keçirilən İKT Xarici İşlər Nazirlərinin XXI Konfransında qəbul edilən qətnamənin müddəalarını bir daha təsdiq edərək;

həmçinin BMT-nin 23 sentyabr 1992-ci ildə və 3 oktyabr 1994-cü ildə keçirilmiş İKT Xarici İşlər Nazirlərinin koordinasiya iclasının yekun sənədlərinin müvafiq bəndlərini yada salaraq;

qonşu ölkələr və regional dövlətlərin, xüsusilə İran və Türkiyənin Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi istiqamətində etdikləri cəhdləri nəzərə alaraq;

Ermənistan Respublikasının təcavüzünün beynəlxalq sülh və təhlükəsizlik üçün maneə yaratdığını dərk edərək;

BMT Nizamnaməsinin və Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin dönmədən yerinə yetirilməsini bir daha təsdiq edərək;

Ermənistan Respublikasının davam edən təcavüzkar siyasətinin ATƏM çərçivəsində aparılan sülh prosesinə dağıdıcı təsir edə biləcəyindən xəbərdar olaraq:

1. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünü kəskin şəkildə pisləyir;

2. Təcavüz nəticəsində Azərbaycan ərazisində mülki Azərbaycan vətəndaşlarına qarşı edilən hərəkətləri bəşəriyyətə qarşı törədilən cinayət kimi qiymətləndirir;

3. BMT-nin Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin dönmədən yerinə yetirilməsini, Ermənistan Respublikası silahlı qüvvələrinin işğal edilmiş bütün Azərbaycan ərazisindən, o cümlədən Laçın və Şuşa rayonlarından dərhal, tamamilə və şərtsiz çıxarılmasını qəti surətdə tələb edir. Ermənistandan Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə hörmət bəsləməsini tələb edir;

4. Təhlükəsizlik Şurası tərəfindən Azərbaycana qarşı edilən təcavüzün etiraf edilməsinə; BMT Nizamnaməsinin 7-ci fəslinə uyğun olaraq, öz qətnamələrinin yerinə yetirilməsinin təminatı üçün lazımi addımların atılmasına; Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə qarşı olan təcavüzü pisləyərək, təcavüzə son qoyulmasına çağırır və bu məqsədlə BMT ilə koordinasiyalı fəaliyyətdə olmağı qərara alır;

5. Bir daha təsdiq edir ki, ərazinin zor işlətməklə əldə edilməsi tanına bilməz;

6. Ermənistan və Azərbaycan arasındakı münaqişənin dövlətlərin ərazi bütövlüyü və beynəlxalq aləmdə tanınmış sərhədlərin pozulmazlığı prinsiplərinə hörmət əsasında ədalətlə və sülh yolu ilə həllinə çağırır;

7. Həm Ermənistan, həm də Azərbaycandan ATƏM-in sülh prosesində iştirak etməsi və problemin sülh yolu ilə həllini çətinləşdirə biləcək hər bir əməldən çəkinməsini tələb edir;

8. Azərbaycan hökuməti və xalqının ölkəsinin müdafiəsi üçün etdiyi cəhdləri bütünlüklə dəstəklədiyini və onlarla tam həmrəy olduğunu bir daha təsdiq edir;

9. Yaşayış yerlərini tərk etmişlərin öz evlərinə təhlükəsiz, hörmət və şərəflə dönmələri üçün imkan yaratmağa çağırır;

10. Azərbaycan Respublikası ərazisində 1 milyondan artıq qaçqın və köçkünün olması ilə əlaqədar humanitar vəziyyətin kəskinləşməsindən təşviş keçirir və üzv ölkələr, İslam İnkişaf Bankı və digər İslam institutlarından Azərbaycan Respublikasına təcili maliyyə və humanitar yardım etmələrini xahiş edir;

11. Baş Katibdən bu qətnamənin yerinə yetirilməsinə nəzarət və bu barədə İKT Xarici İşlər Nazirlərinin XXIII konfransına məruzə təqdim etməsini xahiş edir.

Əlavə III.5.4

İslam Konfransı Təşkilatı Xarici İşlər Nazirlərinin XXIV konfransı
Ermənistan Respublikasının Azərbaycan
Respublikasına qarşı təcavüzü haqqında
Q Ə T N A M Ə

Cakarta, 9-13 dekabr 1996-cı il

İKT Xarici İşlər Nazirlərinin İndoneziya Respublikasının Cakarta şəhərində hicri tarixi ilə 1417-ci il rəcəb ayının 28-dən şaban ayının 3-dək, miladi tarixi ilə 1996-cı il 9-13 dekabrda keçirilən XXIV konfransı

İKT Nizamnaməsinin məqsəd və prinsiplərindən çıxış edərək;

Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20%-indən artığının işğalından dərin narahat olaraq;

Ermənistanın təcavüzü nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqının aqibəti və humanitar problemlərin böyük həcmindən təsirlənərək;

ötən konfransların bütün müvafiq qətnamələrinə, xüsusilə Mərakeş Krallığının Kasablanka şəhərində 11-12 rəcəb 1415-ci (13-14 dekabr 1994-cü) ildə keçirilmiş VII Zirvə konfransının qətnaməsinə istinad edərək;

BMT Nizamnaməsinə və Təhlükəsizlik Şurasının qətnamələrinə ciddi surətdə əməl edilməsinə çağıraraq;

münaqişənin həlli üzrə edilən bütün diplomatik və digər səyləri alqışlayaraq;

bütün üzv dövlətlərin Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə ehtiramını bir daha təsdiq edərək;

Ermənistan Respublikasının davam etdirdiyi təcavüzkar siyasətin ATƏT çərçivəsində aparılan sülh prosesinə dağıdıcı təsirini dərk edərək:

1. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünü kəskin şəkildə pisləyir;

2. Təcavüz nəticəsində işğal edilmiş Azərbaycan ərazisində mülki Azərbaycan vətəndaşlarına qarşı edilən hərəkətləri bəşəriyyətə qarşı cinayət kimi qiymətləndirir;

3. İşğal edilmiş Azərbaycan ərazisində arxeoloji, mədəni və islam abidələrinin talan və məhv edilməsini qətiyyətlə pisləyir;

4. BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin dönmədən yerinə yetirilməsini, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş bütün Azərbaycan ərazisindən, o cümlədən Laçın və Şuşa rayonlarından dərhal, tamamilə və şərtsiz çıxarılmasını qəti surətdə tələb edir. Ermənistanı ciddi surətdə Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyə dəvət edir;

5. Təhlükəsizlik Şurası qətnamələrinin müddəalarının Ermənistan tərəfindən yerinə yetirilməməsindən narahat olduğunu bildirir;

6. Azərbaycana qarşı edilən təcavüzün Təhlükəsizlik Şurası tərəfindən etiraf edilməsinə; BMT Nizamnaməsinin 7-ci fəslinə uyğun olaraq, öz qətnamələrinin yerinə yetirilməsinin təminatı üçün lazımi addımların atılmasına; Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə qarşı olan təcavüzü pisləyərək, təcavüzə son qoyulmasına çağırır və bu məqsədlə BMT ilə koordinasiyalı fəaliyyətdə olmağı qərara alır;

7. Bütün üzv dövlətləri Azərbaycan ərazisinin işğalını davam etdirməyə təşviq edən Ermənistana silah və hərbi sursat təqdim etməkdən imtina etməyə çağırır. İKT-yə üzv dövlətin ərazisi bu kimi yüklərin tranziti üçün istifadə edilməməlidir;

8. Ermənistanm təcavüzə və Azərbaycan torpaqlarının işğalına son qoyması üçün bütün üzv dövlətlərə və beynəlxalq birliyin digər dövlətlərinə müraciət edərək, hər cür təsirli iqtisadi və siyasi tədbirlərdən istifadə etməyə çağırır;

9. Ermənistan və Azərbaycan arasındakı münaqişəni dövlətlərin ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə ehtiram əsasında ədalətlə və sülh yolu ilə həll etməyə çağırır;

10. Ermənistanı, Azərbaycam və Minsk Qrupuna daxil olan bütün üzv dövlətləri ATƏT-in sülh prosesində prinsipial surətdə iştirak etməyə və problemin sülh yolu ilə həllini çətinləşdirə biləcək hər cür əməldən çəkinməyə çağırır;

11. Azərbaycan hökuməti və xalqının ölkəsinin müdafiəsi üçün etdiyi cəhdləri bütünlüklə dəstəklədiyini və onlarla tam şəkildə həmrəy olduğunu bir daha təsdiq edir;

12. Qaçqın və köçkünlərin öz yaşayış yerlərinə təhlükəsiz, hörmət və şərəflə dönmələri üçün imkan yaratmağa çağırır;

13. Qaçqın və köçkünlərə humanitar yardım göstərmiş bütün üzv dövlətlərə öz təşəkkürünü bildirir. Digər dövlətləri onlara yardım göstərməyə çağırır;

14. Azərbaycan Respublikası ərazisində 1 milyondan artıq qaçqın və köçkünün qarşılaşdığı kəskin humanitar vəziyyətlə əlaqədar narahat olduğunu bildirir və üzv dövlətlər, İslam İnkişaf Bankı və digər İslam institutlarından Azərbaycan Respublikasına təcili maliyyə və humanitar yardım təqdim etmələrini xahiş edir;

15. Hesab edir ki, Azərbaycan ona dəymiş ziyanın müqabilini almaq hüququna malikdir və Ermənistan bu ziyanın müqabilini ödəmək üzrə tam məsuliyyət daşıyır;

16. İKT-yə üzv dövlətlərin bu haqda mövqeyini ATƏT-in indiki sədrinə bildirməsini Baş Katibdən xahiş edir;

17. Baş Katibdən bu Qətnamənin yerinə yetirilməsinə nəzarət və bu haqda İKT Xarici İşlər Nazirlərinin 25-ci konfransında məruzə etməsini xahiş edir.

Əlavə III.5.5

İslam Konfransı Təşkilatı ölkələrinin Dövlət başçılarının
VIII Zirvə Toplantısı
Ermənistan Respublikasının Azərbaycan
Respublikasına təcavüzünə dair
Q Ə T N A M Ə

Tehran, 9-11 dekabr 1997-ci il

İKT-nin Tehranda, İran İslam Respublikasında hicri tarixi ilə 1418-i il şaban ayının 9-11-də (miladi tarixi ilə 9-11 dekabr 1997-ci il) keçirilmiş VIII Zirvə Toplantısı,

İKT Nizamnaməsinin məqəd və prinsiplərindən çıxış edərək;

Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı apardığı və Azərbaycan ərazisinin 20%-dən çoxunun işğal olunması ilə nəticələnən təcavüzdən dərin narahat olaraq;

Erməni təcavüzü nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və köçkünlərin aqibəti və humanitar problemlərin böyük həcmindən dərin təəssüf hissini bildirərək;

Ötən konfransların müvafiq bütün qətnamələrini, xüsusilə Mərakeş Krallığının Kasablanka şəhərində 1415-ci il rəcəb ayının 11-12-də (13-14 dekabr 1994-cü il) keçirilmiş İKT-nin VII Zirvə Konfransının Qətnaməsini yenidən təsdiq edərək;

Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünün beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi təhlükə yaratdığını dərk edərək;

BMT Nizamnaməsinə və Təhlükəsizlik Şurasının qətnamələrinə ciddi surətdə əməl edilməsinə çağıraraq;

Münaqişənin həlli istiqamətində aparılan bütün diplomatik və digər səyləri alqışlayaraq;

Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi və onun siyasi müstəqilliyinə bütün üzv dövlətlərin ehtiramını bir daha təsdiq edərək;

Ərazilərin güc tətbiq etməklə işğalının tanınmamasını bir daha təsdiq edərək;

Ermənistan Respublikasının davam etdirdiyi təcavüzkar siyasətini ATƏT çərçivəsində aparılan hazırki sülh prosesinə dağıdıcı təsirindən xəbərdar olaraq:

1. Ermənistan Respublikasının Azərbaycan Republikasına qarşı təcavüzünü pisləyir.

2. İşğal edilmiş Azərbaycan ərazilərində mülki Azərbaycan vətəndaşlarına qarşı edilən hərəkətləri bəşəriyyətə qarşı cinayət hesab edir.

3. İşğal edilmiş Azərbaycan ərazilərində arxeoloji, mədəni və islam abidələrinin talan və məhv edilməsini qətiyyətlə pisləyir.

4. BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin dərhal, qeyd-şərtsiz və ciddi şəkildə yerinə yetirilməsini, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş bütün Azərbaycan ərazisindən, o cümlədən Laçın və Şuşa rayonlarından tamamilə çıxarılmasını qəti surətdə tələb edir və Ermənistanı Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə ciddi şəkildə hörmət etməyə çağırır.

5. Təhlükəsizlik Şurasının qətnamələrinin müddəalarının Ermənistan tərəfindən yerinə yetirilməməsindən narahat olduğunu bildirir.

6. Azərbaycana qarşı edilən təcavüzün Təhlükəsizlik Şurası tərəfindən etiraf edilməsinə; BMT Nizamnaməsinin 7-ci bəndinə uyğun olaraq, Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinin təminatı üçün lazımi addımların atılmasına; Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə qarşı olan təcavüzü pisləyərək, təcavüzə son qoyulmasına çağırır və bu məqsədlə BMT ilə koordinasiyalı fəaliyyət göstərməyi qərara alır.

7. Bütün üzv dövlətləri Ermənistana - təcavüzkarı münaqişəni şiddətləndirməyə və Azərbaycan ərazisinin işğalını davam etdirməyə təşviq edən, silahlı və hərbi sursat təqdim etməkdən imtina etməyə çağırır. İKT-yə üzv dövlətin ərazisi bu kimi yüklərin tranziti üçün istifadə edilməməlidir.

8. Ermənistanın təcavüzünə və Azərbaycan torpaqlarının işğalına son qoyulması üçün bütün üzv dövlətlərə və beynəlxalq birliyin digər dövlətlərinə

müraciət edərək, hər cür təsirli iqtisadi və siyasi tədbirlərdən istifadə etməyə çağırır.

9. Ermənistan və Azərbayan arasındakı münaqişəni dövlətlərin ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə ehtiram əsasında ədalətlə və sülh yolu ilə həll etməyə çağırır.

10. Ermənistanı, Azərbaycanı və Minsk qrupuna daxil olan bütün üzv dövlətləri ATƏT-in hazırkı sülh prosesində prinsipial surətdə iştirak etməyə və problemin sülh yolu ilə həllini çətinləşdirə biləcək hər cür əməldən çəkinməyə çağırır.

11. Azərbaycan Hökuməti və xalqının ölkəsinin müdafiəsi üçün etdiyi cəhdləri bütünlüklə dəstəklədiyini və onlarla tam şəkildə həmrəy olduğunu bir daha təsdiq edir.

12. Qaçqın və köçkünlərin öz yaşayış yerlərinə təhlükəsiz, hörmət və şərəflə dönmələri üçün imkan yaradılmasına çağırır.

13. Qaçqın və köçkünlərə humanitar yardım göstərmiş bütün üzv dövlətlərə öz təşəkkürünü bildirir və digər dövlətləri onlara yardım göstərməyə çağırır.

14. Azərbaycan Respublikasın ərazisində 1 milyondan artıq qaçqın və köçkünlərin qarşılaşdığı kəskin humanitar vəziyyətlə əlaqədar narahat olduğunu bildirir və üzv dövlətlər, İslam İnkişaf Bankı və digər islam institutlarından Azərbaycan Respublikasına təcili maliyyə və humanitar yardım göstərmələrini xahiş edir.

15. Hesab edir ki, Azərbaycan ona dəymiş ziyanın müqabilini almaq hüququna malikdir və Ermənistan bu ziyanın müqabilini ödəmək üçün tam məsuliyyət daşıyır.

16. İKT-yə üzv dövlətlərin bu problemlə əlaqədar mövqeyini ATƏT -in Hazırkı Sədrinə bildirməsinə dair Baş Katibin göstərdiyi səyləri alqışlayır.

17. Baş Katibdən bu Qətnamənin yerinə yetirilməsinə nəzarət edilməsinə və bu haqda İKT Xarici işlər nazirlərinin gələcək konfransına və İKT-nin gələcək Zirvə Toplantısına məruzə etməsini xahiş edir.

Əlavə III.5.6

İslam Konfransı Təşkilatı ölkələrinin Dövlət başçılarının
VIII Zirvə Toplantısı
Azərbaycan Respublikasına iqtisadi yardım haqqında
QƏTNAMƏ

Tehran, 9-11 dekabr 1997-ci il

İKT-nin Tehranda, İran İslam Respublikasında 1418-ci il şaban ayının 9-11-də (miladi tarix isə 9-11 dekabr 1997-ci il) keçirilmiş VIII Zirvə Toplantısını,

İKT xarici işlər nazirlərinin XXIV Zirvə Toplantısında qəbul edilmiş 18/24 E saylı Qətnaməsini xatırlayaraq;

İKT-yə üzv ölkələrin Azərbaycan xalqı və Hökuməti ilə ölkə tarixində bu çətin və çox böhranlı bir vaxtda tam həmrəyliyini təsdiq edərək;

Həmin münaqişə ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əsaslanaraq;

Azərbaycan Dağlıq Qarabağ bölgəsində Azərbaycan ərazisinin təxminən 20%-nin işğal edilməsi və amansız hücum nəticəsində öz evlərindən qaçmağa məcbur olmuş 1 milyona qədər azərbaycanlının zorakılıqla qovulması və bu təcavüz nəticəsində insan hüquqlarının pozulması ilə müşayət edilən Ermənistan hərbi əməliyyatlarını pisləyərək;

İKT-yə üzv ölkələrin Azərbaycan xalqı və hökuməti ilə həmrəyliyin daha konkret ifadəsinin zəruriliyini qəbul edərək;

İKT-yə üzv ölkələrinin və müvafiq təşkilatlarının, BMT institutlarını və beynəlxalq təşkilatlar tərəfindən göstərilən yardımı qiymətləndirərək və alqışlayaraq;

İqtisadi,mədəni və sosial məsələlər üzrə 20-ci islam komissiyasının tövsiyələrini nəzərə alaraq;

1. Bütün üzv dövlətlərə və islam institutlarına Azərbaycan hökumətinə Azərbaycan xalqının çəkdiyi əziyyətləri yüngülləşdirmək məqsədi ilə lazımi iqtisadi və humanitar yardım göstərmək çağırışı ilə müraciət edir;

2. Beynəlxalq təşkilatları təcili olaraq Azərbaycana humanitar və maliyyə yardımı göstərməyə çağırır;

3. Baş Katibdən bu məsələni izləməyi və Xarici işlər nazirlərinin növbəti konfransında baxılması üçün onunla əlaqədar məruzə təqdim etməyi xahiş edir.

Əlavə III.5.7

İslam Konfransı Təşkilatı ölkələrinin Dövlət başçılarının
VIII Zirvə Toplantısı
YEKUN BƏYANAT
(çıxarış)

Tehran, 9-11 dekabr 1997-ci il

56. Konfrans ATƏT-in hazırkı Sədrinin 1996-cı ildə Lissabon Sammitindəki bəyanatında ifadə olunmuş Ermənistan və Azərbaycan arasında münaqişənin nizama salınmasının üç prinsipinə tərəfdar olduğunu bir daha təsdiq etdi və həmçinin Ermənistan-Azərbaycan silahlı münaqişəsinin nizama salınmasının mərhələ-mərhələ həyata keçirilməsini ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar üçün əsas kimi hesab edən ATƏT-in Minsk konfransı həmsədrlərinin son təkliflərini dəstəklədiyini bildirdi və bu addımı Azərbaycan Respublikasına qarşı təcavüzün ciddi nəticələrinin dərhal aradan qaldırılmasının təminatçısı hesab etdi.

Əlavə III.5.8

İslam Konfransı Təşkilatı ölkələrinin Dövlət başçılarının
VIII Zirvə Toplantısı
TEHRAN BƏYANNAMƏSİ
(çıxarış)

Tehran, 9-11 dekabr 1997-ci il

8. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünü onların qəbul etməməsini ifadə edir və Ermənistan qoşunlarının işğal edilmiş bütün ərazilərdən bütünlüklə çıxarılmasına və Ermənistan-Azərbaycan münaqişəsinin tezliklə və sülh yolu ilə həll edilməsinə çağırır.

Əlavə III.5.9

İslam Konfransı Təşkilatı Xarici işlər nazirlərinin XXV konfransı
Ermənistan Respublikasının Azərbaycan Respublikasına
qarşı təcavüzünə dair
Q Ə T N A M Ə

Doha, 15-17 mart 1998-ci il

İslam Konfransı Təşkilatı Xarici işlər nazirlərinin (İslam Ümməti xalqlarının xoş gələcəyi naminə Konfrans) Dohada, Qətər Dövlətində hicri tarixi ilə 1418-ci il zülqədə ayının 17-19-da (miladi tarixi ilə 15-17 mart 1998-ci il) keçirilmiş XXV Konfransı,

İKT Nizamnaməsinin məqsəd və prinsiplərindən çıxış edərək;

Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı apardığı və Azərbaycan ərazisinin 20%-dən çoxunun işğal olunması ilə nəticələnən təcavüzündən dərin narahat olduğunu ifadə edərək;

Erməni təcavüzü nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və köçkünlərin aqibəti və humanitar problemlərin artmasından və onların böyük həcminə dərin təəssüf hissini bildirərək;

Ötən konfransların müvafiq bütün qətnamələrini, xüsusilə də İKT-nin Tehranda, İran İslam Respublikasında 1418-ci il şaban ayının 9-11-də (9-11 dekabr 1997-ci il) keçirilmiş VIII Zirvə Toplantısının N12/8-R(IS) saylı Qətnaməsini yenidən təsdiq edərək;

Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünün beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi təhlükə yaratdığını dərk edərək;

BMT Nizamnaməsinə və Təhlükəsizlik Şurasının qətnamələrinin tam şəkildə icrasına ciddi surətdə əməl edilməsinə çağıraraq;

Münaqişənin həlli istiqamətində aparılan bütün diplomatik və digər səyləri alqışlayaraq;

Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi və onun siyasi müstəqilliyinə bütün üzv dövlətlərin ehtiramını bir daha təsdiq edərək;

Ərazilərin güc tətbiq etməklə işğalının tanınmamasını bir daha təsdiq edərək;

Ermənistan Respublikasının davam etdirdiyi təcavüzkar siyasətin ATƏT çərçivəsində aparılan hazırkı sülh prosesinə pozucu təsirindən xəbərdar olaraq;

Baş Katibin Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünə dair məruzəsini (sənəd No ICFM/25-98/PILI/D/6) nəzərə alaraq;

1. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünü kəskin şəkildə pisləyir.

2. İşğal edilmiş Azərbaycan ərazilərində mülki Azərbaycan vətəndaşlarına qarşı edilən hərəkətləri bəşəriyyətə qarşı cinayət hesab edir.

3. İşğal edilmiş Azərbaycan ərazilərində arxeoloji, mədəni və islam abidələrinin talan və məhv edilməsini qətiyyətlə pisləyir.

4. BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin dərhal, qeyd-şərtsiz və ciddi şəkildə yerinə yetirilməsini, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş bütün Azərbaycan ərazisindən, o cümlədən Laçın və Şuşa rayonlarından tamamilə çıxarılmasını qəti surətdə tələb edir və Ermənistanı Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə ciddi şəkildə hörmət etməyə çağırır.

5. Təhlükəsizlik Şurasının qətnamələrinin müddəalarının Ermənistanın yerinə yetirməməsindən narahat olduğunu bildirir.

6. Azərbaycana qarşı edilən təcavüzün Təhlükəsizlik Şurası tərəfindən etiraf edilməsinə; BMT Nizamnaməsinin 7-ci bəndinə uyğun olaraq, Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinin təminatı üçün lazımi addımların atılmasına; Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə qarşı olan təcavüzü pisləyərək, təcavüzə son qoyulmasına çağırır və bu məqsədlə BMT ilə koordinasiyalı fəaliyyət göstərməyi qərara alır.

7. Bütün üzv dövlətləri Ermənistana – təcavüzkarı münaqişəni şiddətləndirməyə və Azərbaycan ərazisinin işğalını davam etdirməyə təşviq edən, silah və hərbi sursat təqdim etməkdən imtina etməyə çağırır. İKT-yə üzv dövlətin ərazisi bu kimi yüklərin tranziti üçün istifadə edilməməlidir.

8. Ermənistanın təcavüzünə və Azərbaycan torpaqlarının işğalına son qoyulması üçün bütün üzv dövlətlərə və beynəlxalq birliyin digər dövlətlərinə müraciət edərək, hər cür təsirli iqtisadi və siyasi tədbirlərdən istifadə etməyə çağırır.

9. Ermənistan və Azərbaycan arasındakı münaqişənin dövlətlərin ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə ehtiram əsasında ədalətlə və sülh yolu ilə həll etməyə çağırır.

10. Ermənistanı, Azərbaycanı və Minsk qrupuna daxil olan bütün üzv dövlətləri, BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və ATƏM-in 24 mart 1992-ci ildə keçirilmiş Birinci Əlavə Görüşündə, ATƏM-in 5-6 dekabr 1994-cü ildə keçirilmiş Sammitində, ATƏT-in 2-3 dekabr 1996-cı ildə keçirilmiş Sammitində və ATƏT-in 18-19 dekabr 1997-ci ildə keçirilmiş Nazirlər Şurasının Görüşündə məsələ ilə bağlı qəbul edilmiş qərar və sənədlər əsasında ATƏT-in hazırkı sülh prosesində prinsipial surətdə iştirak etməyə və problemin sülh yolu ilə həllini çətinləşdirə biləcək hər cür əməldən çəkinməyə çağırır.

11. ATƏT-in fəaliyyətdə olan sədrinin 1996-cı ildə Lissabon Sammitində Ermənistan-Azərbaycan silahlı münaqişəsinin həlli ilə bağlı bəyanatındakı, Ermənistan Respublikası və Azərbaycan Respublikasının ərazi bütövlüyü, Dağlıq Qarabağ regionunun Azərbaycanın tərkibində özünüidarəetmənin yüksək statusu, Dağlıq Qarabağ və onun bütün əhalisinin təhlükəsizliyinin təminatına dair 3 prinsipi tam şəkildə dəstəklədiyini bildirir.

12. Minsk Konfransının həmsədrlərinin Ermənistan-Azərbaycan hərbi münaqişəsinin mərhələlərlə həllinə dair təkliflərini ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar üçün əsas hesab edir və bu addımı Azərbaycan Respublikasına qarşı təcavüzün ciddi nəticələrinin dərhal aradan qaldırılmasının təminatçısı hesab edir.

13. Azərbaycan hökuməti və xalqının ölkəsinin müdafiəsi üçün etdiyi cəhdləri bütünlüklə dəstəklədiyini və onlarla tam şəkildə həmrəy olduğunu bir daha təsdiq edir.

14. Qaçqın və köçkünlərin öz yaşayış yerlərinə təhlükəsiz, hörmət və şərəflə dönmələri üçün imkan yaradılmasına çağırır.

15. Qaçqın və köçkünlərə humanitar yardım göstərmiş bütün üzv dövlətlərə öz təşəkkürünü bildirir və digər dövlətləri onlara yardım göstərməyə çağırır.

16. Azərbaycan Respublikası ərazisində 1 milyondan artıq qaçqın və köçkünlərin qarşılaşdığı kəskin humanitar vəziyyətlə əlaqədar narahat olduğunu bildirir və üzv dövlətlər, İslam İnkişaf Bankı və digər islam institutlarından Azərbaycan Respublikasına təcili maliyyə və humanitar yardım göstərmələrini xahiş edir.

17. Hesab edir ki, Azərbaycan ona dəymiş ziyanın müqabilini almaq hüququna malikdir və Ermənistan bu ziyanın müqabilini ödəmək üçün tam məsuliyyət daşıyır.

18. Baş Katibdən İKT-yə üzv dövlətlərin bu problemlə bağlı mövqeyini ATƏT-in Hazırkı Sədrinə bildirməyi xahiş edir.

19. Baş Katibdən bu Qətnamənin yerinə yetirilməsinə nəzarət edilməsini və bu barədə İKT Xarici işlər nazirlərinin XXVI Konfransına məruzə etməsini xahiş edir.

Əlavə III.5.10

İslam Konfransı Təşkilatı Xarici işlər nazirlərinin XXV konfransı Azərbaycan Respublikasına iqtisadi yardım haqqında QƏTNAMƏ

Doha, 15-17 mart 1998-ci il

İKT Xarici işlər nazirlərinin (İslam Ümməti xalqlarının xoş gələcəyi naminə Konfrans) Dohada,Qətər Dövlətində 1418-ci il zülqədə ayının 17-21-də (miladi tarixi ilə 15-19 mart 1998-ci il) keçirilmiş XXV Toplantısı,

İKT-nin Tehranda keçirilmiş VIII Zirvə Toplantısının 18/8-E (IS) saylı Qətnaməsini qeyd edərək;

İKT Xarici işlər nazirlərinin XXIV Konfransının 18/24-E saylı Qatnaməsini qeyd edərək;

İKT-yə üzv ölkələrin Azərbaycan xalqı və Hökuməti ilə ölkə tarixində bu çətin və çox böhranlı bir vaxtda tam həmrəyliyini təsdiq edərək;

Həmin münaqişə ilə əlaqədar BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əsaslanaraq;

Azərbaycan Dağlıq Qarabağ bölgəsində Azərbaycan ərazisinin təxminən 20%-nin işğal edilməsi və amansız hücum nəticəsində öz evlərindən qaçmağa məcbur olmuş 1 milyona qədər azərbaycanlının zorakılıqla qovulması və bu təcavüz nəticəsində insan hüquqlarının pozulması ilə müşaiyət edilən Ermənistan hərbi əməliyyatlarını pisləyərək;

İKT-yə üzv ölkələrin Azərbaycan xalqı və Hökuməti ilə həmrəyliyin daha konkret ifadəsinin zəruriliyini qəbul edərək;

İKT-yə üzv ölkələrinin və müvafiq təşkilatlarının, BMT institutlarını və beynəlxalq təşkilatlar tərəfindən göstərilən yardımı qiymətləndirərək və alqışlayaraq;

İqtisadi,mədəni və sosial məsələlər üzrə 20-ci islam komissiyasının tövsiyələrini nəzərə alaraq;

Həmçinin Baş Katibin məruzəsini nəzərə alıb;

1.Bütün üzv dövlətlərə və islam institutlarına Azərbaycan hökumətinə Azərbaycan xalqının çəkdiyi əziyyətləri yüngülləşdirmək məqsədi ilə lazımi iqtisadi və humanitar yardım göstərmək çağırışı ilə müraciət edir;

2.Beynəlxalq təşkilatları təcili olaraq Azərbaycana humanitar və maliyyə yardımı göstərməyə çağırır;

3. Baş Katibdən bu məsələni izləməyi və Xarici işlər nazirlərinin növbəti konfransına məsələ ilə bağlı məruzə təqdim etməyi xahiş edir.

Əlavə III.5.11

İslam Konfransı Təşkilatı Xarici işlər nazirlərinin XXV konfransı YEKUN BƏYANAT

(çıxarış)

Doha, 15-17 mart 1998-ci il

61. Konfrans ATƏT-in Hazırkı Sədrinin 1996-cı ildə Lissabon Sammitindəki bəyanatında ifadə olunmuş Ermənistan və Azərbaycan arasında münaqişənin nizama salınmasının üç prinsipinə tərəfdar olduğunu bir daha təsdiq etdi və həmçinin Ermənistan-Azərbaycan silahlı münaqişənin nizama salınmasının mərhələlərlə həyata keçirilməsini ATƏT-in Minsk qrupu çərçivəsində danışıqlar üçün əsas kimi hesab edən ATƏT-iin Minsk konfransı həmsədrlərinin son təkliflərini dəstəklədiyini bildirdi və bu addımı Azərbaycan Respublikasına qarşı təcavüzün ciddi nəticələrinin dərhal aradan qaldırılmasının təminatçısı hesab etdi.

Əlavə III.5.12

İslam Konfransı Təşkilatı Xarici işlər nazirlərinin XXVII Konfransı Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində İslam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında QƏTNAMƏ

Kuala-Lumpur, 27-30 iyun 2000-ci il

İslam Konfransı Təşkilatına üzv dövlətlərin Xarici İşlər Nazirlərinin 27-30 iyun 2000-ci ildə Malayziyada, Kuala-Lumpurda keçirilmiş XXVII Konfransı:

İslam irsinin qorunması və müdafiəsinə dair İslam Konfransı Təşkilatının (İKT) Nizamnaməsinin məqsəd və prinsiplərindən çıxış edərək;

Azərbaycan tarixinin, mədəniyyətinin, arxeologiyasının, etnoqrafiyasının və arxitekturasının, Azərbaycanın və onun xalqının tarixinin ayrılmaz hissəsi kimi İslam irsinin mənbələrindən biri olduğunu dərk edərək;

BMT-nin Təhlükəsizlik Şurasının Laçın və Şuşa rayonları daxil olmaqla Azərbaycanın işğal olunmuş bütün ərazilərindən erməni silahlı qüvvələrinin dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını, Ermənistan tərəfindən Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə hörmət edilməsini israrla tələbi barədə 822, 853, 874 və 884 saylı qətnamələrini təsdiq edərək;

Habelə, Ermənistanla Azərbaycan arasında münaqişəyə dair Kasablankada (Mərakeş Krallığı, 13-14 dekabr 1994-cü il) İslam Konfransı Təşkilatı Dövlət və Hökumət Başçılarının VII Konfransının P-22 saylı qətnaməsini, eyni zamanda Tehranda keçirilən İslam Konfransı Təşkilatı Dövlət və Hökumət Başçılarının VIII Konfransının Ermənistanın Azərbaycan Respublikasına təcavüzü barədə 12/ 8-P (İS) qətnaməsini (İİR, 9-11 dekabr 1997-ci il) və İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının İcraiyyə Şurasının XIV sessiyasının erməni təcavüzü nəticəsində Azərbaycanın işğal edilmiş ərazisində məscidlərin, təhsil və mədəniyyət müəssisələrinin dağıdılması haqqında qətnaməsini təsdiqləyərək;

Ermənistan tərəfindən etnik təmizləmə məqsədi ilə Azərbaycanda məscidlərin və digər islam məbədlərinin tam və vəhşiliklə dağıdılmasının vandalizm aktı olduğunu bəyan edərək;

Ümumi İslam mədəni irsinin qorunması istiqamətində birgə razılaşdırılmış fəaliyyəti nəzərdə tutan siyasətin aparılmasının vacibliyini dərk edərək;

Ermənistan Respublikasının işğal etdiyi Azərbaycan ərazilərində erməni təcavüzkarları tərəfindən İslam irsinə vurulmuş böyük zərərlərin, İslam mədəniyyətinə aid misilsiz abidələrin, habelə məscidlərin, məbədlərin, məzarlıqların, arxeoloji qazıntıların, muzeylərin, kitabxanaların, rəsm qalereyalarının, dövlət teatrlarının, musiqi məktəblərinin tam və ya bir qisminin dağıdılması, zəbt edilmiş muzeylərdən çoxsaylı qiymətli əşyaların, milyonlarla kitab və əlyazmaların çıxarılması və məhv edilməsi faktlarını nəzərə alaraq;

Bu məsələyə dair İslam Konfransı Təşkilatı Baş Katibinin hesabatını nəzərdən keçirərək;

1.Erməni təcavüzkarlarının Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində islam sivilizasiyasının tam məhv edilməsinə yönəldilmiş vəhşi hərəkətlərini ciddi surətdə pisləyir.

2.Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin Ermənistan tərəfindən qeyd-şərtsiz və mütləq yerinə yetirilməsini tələb edir.

3.Bununla bağlı Azərbaycan hökuməti və xalqının narahatlıq və həyacanını tam bölüşdürür, onun hərbi təcavüzün dayandırılması və nəticələrinin aradan qaldırılmasına yönəlmiş səylərini dəstəkləyir, həmçinin, hərbi münaqişələr baş verdiyi zaman dövlətlərin işğal olunmuş ərazilərdən mədəni dəyərlərin çıxarılmasının qarşısını almaq barədə öz üzərinə götürdükləri öhdəliklərini nəzərdə tutan "Hərbi münaqişə zamanı mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il tarixli Haaqa Konvensiyasının müddəalarından irəli gələn öhdəliklərin yerinə yetirilməsi istiqamətində Azərbaycan Respublikasının beynəlxalq təşkilatlar çərçivəsində səylərini dəstəklədiyini ifadə edir.

Dövlətlər habelə mədəni dəyərlərin hər hansı şəkildə oğurlanması, talan edilməsi və ya onların qanunsuz mənimsənilməsini, eyni zamanda həmin dəyərlərə qarşı hər hansı vandalizm aktlarını qadağan etmək və belə hərəkətlərin qarşısını almaq, lazım gəldikdə isə aradan qaldırmağı öz üzərinə götürmüşlər. Onlar digər dövlətlərin ərazisində yerləşən səyyar mədəni dəyərlərin müsadirəsini qadağan edirlər.

4. Aldığı zərərlərə görə Azərbaycanın təminat almaq hüququnun olduğunu və bu zərərin ödənilməsi üçün Ermənistan Respublikasının tam məsuliyyət daşıdığını hesab edir.

5. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində məscidlərin, təhsil ocaqlarının, kitabxanaların, muzeylərin İKT-yə üzv dövlətlərin yardımı ilə bərpası üçün İKT-nin bölmələrini və ixtisaslaşdırılmış qurumlarını yardım proqramının təşkili imkanlarını araşdırmağa çağırır.

6.Bu problemə dair İslam Konfransı Təşkilatına üzv dövlətlərin mövqeyi barədə BMT, ATƏT və digər beynəlxalq təşkilatlara məlumat verilməsini İKT Baş Katibliyindən xahiş edir.

7. İslam Konfransı Təşkilatı Xarici İşlər Nazirlərinin XXVIII Konfransına bu haqda məruzə təqdim etməsini Baş Katibdən xahiş edir.

Əlavə III.5.13

İslam Konfransı Təşkilatı Xarici işlər nazirlərinin XXVII Konfransı İslam Konfransı Təşkilatının Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında QƏTNAMƏ

Kuala-Lumpur, 27-30 iyun 2000-ci il

İslam Konfransı Təşkilatı (İKT) Xarici işlər nazirlərinin Malayziyanın Kuala-Lumpur şəhərində 24-27 Rəbiul-Əvvəl 1421-ci Hicri il (27-30 iyun 2000-ci il) tarixində keçirilən XXVII Konfransı,

İKT Nizamnaməsinin məqsəd və prinsiplərindən çıxış edərək;

Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində 20 faizdən artıq Azərbaycan ərazisinin işğalmdan dərin narahat olaraq;

Ermənistan təcavüzü nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqımn aqibəti və humanitar problemlərin böyük həcmindən təsirlənərək;

Ötən konfransların bu problemlə bağlı müvafiq bütün qətnamələrini, xüsusilə İran İslam Respublikasının Tehran şəhərində 9-11 Şaban 1418-ci Hicri il (9-11 dekabr 1997-ci il) tarixində keçirilmiş İKT Dövlət və Hökumət başçılarının VIII Zirvə konfransının 12/8-P(IS) saylı qətnaməsini bir daha təsdiq edərək;

Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünün beynəlxalq sülh və təhlükəsizlik üçün ciddi təhlükə yaratdığını dərk edərək;

BMT Nizamnaməsi və Təhlükəsizlik Şurasınm qətnamələrinin tam şəkildə icrasına ciddi surətdə əməl edilməsinə çağıraraq;

Münaqişənin həlli üzrə edilən bütün diplomatik və digər səyləri alqışlayaraq;

Bütün dövlətlərin Azərbaycan Respublikasının ərazi bütövlüyünə və suverenliyinə ehtiramını bir daha təsdiq edərək;

Ərazilərin güc tətbiq etmə yolu ilə alınmasının qəbul edilməzliyini bir daha təsdiq edərək;

Ermənistan Respublikasmn Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında İKT Baş katibinin məruzəsini (ICFM/27-2000/PIL/D.7 saylı sənədi) nəzərə alaraq:

1. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünü kəskin şəkildə pisləyir.

2. Təcavüz nəticəsində işğal edilmiş Azərbaycan ərazisində mülki Azərbaycan vətəndaşlarına qarşı edilən hərəkətləri bəşəriyyətə qarşı cinayət kimi qiymətləndirir.

3. İşğal edilmiş Azərbaycan ərazisində arxeoloji, mədəni və islam abidələrinin talan və məhv edilməsini qətiyyətlə pisləyir.

4. BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin dönmədən yerinə yetirilməsini, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş bütün Azərbaycan ərazisindən, o cümlədən Laçın və Şuşa rayonlarından dərhal, tamamilə və şərtsiz çıxarılmasını qəti surətdə tələb edir. Ermənistanı ciddi surətdə Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyə dəvət edir.

5. Təhlükəsizlik Şurasının qətnamələrinin müddəalarının Ermənistan tərəfindən yerinə yetirilməməsindən narahat olduğunu bildirir.

6. Azərbaycana qarşı edilən təcavüzün Təhlükəsizlik Şurası tərəfindən etiraf edilməsinə; BMT Nizamnaməsinin 7-ci bəndinə uyğun olaraq, öz qətnamələrinin yerinə yetirilməsinin təminatı üçün lazımi addımların atılmasına; Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə qarşı olan təcavüzü pisləyərək, təcavüzə son qoyulmasına çağırır və bu məqsədlə BMT-də koordinasiyalı fəaliyyətdə olmağı qərara alır.

7. Bütün üzv dövlətləri Ermənistanı təcavüzkarı münaqişəni şiddətləndirməyə və Azərbaycan ərazisinin işğalını davam etdirməyə təşviq edən, silah və hərbi sursat təqdim etməkdən imtina etməyə çağırır. İKT-yə üzv dövlətlərin ərazisi bu kimi yüklərin tranziti üçün istifadə edilməməlidir.

8. Ermənistanın təcavüzə və Azərbaycan torpaqlarının işğalına son qoyması üçün bütün üzv dövlətlərə və beynəlxalq birliyin digər dövlətlərinə müraciət edərək, hər cür təsirli iqtisadi və siyasi tədbirlərdən istifadə etməyə çağırır.

9. Ermənistan və Azərbaycan arasındakı münaqişəni dövlətlərin ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə ehtiram əsasında ədalətlə və sülh yolu ilə həll etməyə çağırır.

10. Ermənistanı, Azərbaycanı və Minsk qrupuna daxil olan bütün üzv dövlətləri, BMT-nin Təhlükəsizlik Şurasının bu haqda müvafiq qətnamələrinə və ATƏT-in 24 mart 1992-ci il tarixli Şuranın Birinci Əlavə Görüşünün, ATƏT-in 5-6 dekabr 1994-cü il Zirvəsinin, ATƏT-in 2-3 dekabr 1996-cı il tarixli Zirvəsinin, ATƏT-in 18-19 dekabr 1997-ci il tarixli Nazirlər Şurasının görüşünün qətnamə və sənədlərinə əsasən ATƏT-i davam edən sülh prosesində konstruktiv surətdə iştirak etməyə dəvət edir və problemin sülh yolu ilə həllini çətinləşdirə biləcək hər cür əməldən çəkinməyə çağırır.

11. ATƏT-in 1996-cı ildə Lissabonda keçirilmiş Zirvə görüşünün İcraçı sədrinin Ermənistanla Azərbaycan arasındakı silahlı münaqişənin həlli üzrə üç prinsipi – Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazi bütövlüyü, Azərbaycanın tərkibində Dağlıq Qarabağın yüksək idarəetmə hüququnu, Dağlıq Qarabağın və onun bütün sakinlərinin təmin edilmiş təhlükəsizliyini əhatə edən bəyanatını tamamilə dəstəklədiyini bildirir.

12. Ermənistanla Azərbaycan arasındakı silahlı münaqişənin mərhələlərlə həlli istiqamətində Minsk Qrupu Həmsədrlərinin təkliflərini ATƏT-in Minsk Qrupu çərçivəsində danışıqlar üçün əsas hesab edir və dərk edir ki, bu şəkildə yanaşma Azərbaycan Respublikasına qarşı təcavüzün ciddi nəticələrinin aradan qaldırılmasını dərhal təmin etməlidir.

13. Azərbaycan hökuməti və xalqının, ölkəsinin müdafiəsi üçün etdiyi cəhdləri bütünlüklə dəstəklədiyini və onlarla tam şəkildə həmrəy olduğunu bir daha təsdiq edir.

14. Qaçqın və köçkünlərin öz yaşayış yerlərinə təhlükəsiz, hörmət və şərəflə dönmələrinə imkan yaratmağa çağırır.

15. Qaçqın və köçkünlərə humanitar yardım göstərmiş bütün üzv dövlətlərə öz təşəkkürünü bildirir və digər dövlətləri onlara yardım göstərməyə çağırır.

16. Azərbaycan Respublikası ərazisində 1 milyondan artıq qaçqın və köçkünün qarşılaşdığı kəskin humanitar vəziyyətlə əlaqədar narahat olduğunu bildirir və üzv dövlətlər, İslam İnkişaf Bankı və digər islam institutlarından Azərbaycan Respublikasına təcili maliyyə və humanitar yardımı göstərmələrini xahiş edir.

17. Hesab edir ki, Azərbaycan ona dəymiş ziyanın müqabilini almaq hüququna malikdir və Ermənistan bu ziyanın müqabilini ödəmək üzrə tam məsuliyyət daşıyır.

18. Baş katibdən bu qətnaməni yerinə yetirilməsinə nəzarət və bu haqda İKT Xarici İşlər Nazirlərinin XXVIII konfransına məruzə etməsini xahiş edir.

Əlavə III.5.14

İslam Konfransı Təşkilatı Xarici işlər nazirlərinin XXX Konfransı
Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı
təcavüzü haqqında
QƏTNAMƏ*

Tehran, 28-30 may 2003-cü il

İKT Xarici işlər nazirlərinin İran İslam Respublikasının Tehran şəhərində 27-29 rabi-ul avval 1424-cü hicri il (28-30 may 2003-cü ilə müvafiqdir) tarixində keçirilmiş XXX (Həmrəylik və Ləyaqət) Toplantısı IKT Nizamnaməsinin məqsəd və prinsiplərindən çıxış edərək;

Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü nəticəsində Azərbaycan ərazisinin 20 faizindən artığının işğalından dərin narahat olaraq;

Ermənistan təcavüzü nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və köçkünün aqibəti və humanitar problemlərin böyük həcmindən təsirlənərək;

Ötən konfransların bu problemlə bağlı müvafiq bütün qətnamələrini, xüsusilə İKT Dövlət və Hökumət başçılarının IX Zirvə toplantısında qəbul olunmuş 21/9-P(İS) saylı Qətnaməsini bir daha təsdiq edərək;

BMT Nizamnaməsinə və Təhlükəsizlik Şurasının qətnamələrinə ciddi surətdə əməl edilməsinə çağıraraq;

Münaqişənin həlli üzrə edilən bütün diplomatik və digər səyləri alqışlayaraq;

Bütün üzv dövlətlərin Azərbaycan Respublikasının suverenliyinə, ərazi bütövlüyünə və müstəqilliyinə ehtiramını bir daha təsdiq edərək;

Ermənistan Respublikasının davam etdirdiyi təcavüzkar siyasətin ATƏT çərçivəsində aparılan prosesə dağıdıcı təsirini dərk edərək;

İKT Baş katibinin məruzəsini (İCFM/30-2003/POL/SG-REP.11 saylı sənədi) nəzərə alaraq:

1. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünü kəskin şəkildə pisləyir.

2. Təcavüz nəticəsində işğal edilmiş Azərbaycan ərazisində mülki Azərbaycan vətəndaşlarına qarşı edilən hərəkətləri bəşəriyyətə qarşı cinayət kimi qiymətləndirir.

3. İşğal edilmiş Azərbaycan ərazisində arxeoloji, mədəni və dini abidələrin talan və məhv edilməsini qətiyyətlə pisləyir.

4. BMT Təhlükəsilik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin dönmədən yerinə yetirilməsini, Ermənistan silahlı qüvvələrinin işğal edilmiş bütün Azərbaycan ərazisindən, o cümlədən Laçın və Şuşa rayonlarından dərhal, tamamilə və şərtsiz çıxarılmasını qəti surətdə tələb edir. Ermənistanı ciddi surətdə Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyə dəvət edir.

5. Təhlükəsizlik Şurasının qətnamələrinin müddəalarının Ermənistan tərəfindən yerinə yetirilməməsindən narahat olduğunu bildirir.

6. Azərbaycana qarşı edilən təcavüzün Təhlükəsizlik Şurası tərəfindən etiraf edilməsinə; BMT Nizamnaməsinin 7-ci fəslinə uyğun olaraq, öz qətnamələrinin yerinə yetirilməsinin təminatı üçün lazımi addımların atılmasına; Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə qarşı olan təcavüzü pisləyərək, təcavüzə son qoyulmasına çağırır və bu məqsədlə BMT ilə koordinasiyalı fəaliyyətdə olmağı qərara alır.

7. Bütün üzv dövlətləri Ermənistanı – təcavüzkarı münaqişəni şiddətləndirməyə və Azərbaycan ərazisinin işğalını davam etdirməyə təşviq edən, silah və hərbi sursat təqdim etməkdən imtina etməyə çağırır. İKT-yə üzv dövlətin ərazisi bu kimi yüklərin tranziti üçün istifadə edilməməlidir.

8. Ermənistanın təcavüzə və Azərbaycan torpaqlarının işğalına son qoyması üçün bütün üzv dövlətlərə və beynəlxalq birliyin digər dövlətlərinə müraciət edərək, hər cür təsirli iqtisadi və siyasi tədbirlərdən istifadə etməyə çağırır.

9. Ermənistan və Azərbaycan arasındakı münaqişənin dövlətlərin ərazi bütövlüyü və beynəlxalq tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə ehtiram əsasında ədalətlə və sülh yolu ilə həll etməyə çağırır.

10. Ermənistanı, Azərbaycanı və Minsk qrupuna daxil olan bütün üzv dövlətləri, BMT-nin Təhlükəsizlik Şurasının bu haqda müvafiq qətnamələrinə və ATƏT-in 24 mart 1992-ci il tarixli Şuranın Birinci Əlavə Görüşünün, ATƏT-in 5-6 dekabr 1994-cü il tarixli Zirvəsinin, ATƏT-in 2-3 dekabr 1996-cı il tarixli və ATƏT-in 18-19 noyabr 1999-cu il tarixli Zirvələrinin, ATƏT-in 18-19 dekabr 1997-ci il tarixli və 3-4 dekabr 2001-ci il tarixli Nazirlər Şurasının görüşlərinin qətnamə və sənədlərinə əsasən ATƏT-in davam edən sülh prosesində konstruktiv surətdə iştirak etməyə dəvət edir və problemin sülh yolu ilə həllini çətinləşdirə biləcək hər cür əməldən çəkinməyə çağırır.

11. ATƏT-in 1996-cı ildə Lissabonda keçirilmiş Zirvə görüşünün İcraçı Sədrinin Ermənistanla Azərbaycan arasındakı silahlı münaqişənin həlli üzrə üç prinsipi – Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazi bütövlüyünü, Azərbaycanın tərkibində Dağlıq Qarabağın yüksək idarəetmə

hüququnu, Dağlıq Qarabağın və onun bütün sakinlərinin təmin edilmiş təhlükəsizliyini əhatə edən bəyanatını tamamilə dəstəklədiyini bildirir.

12. Ermənistanla Azərbaycan arasındakı silahlı münaqişənin mərhələlərlə həlli istiqamətində Minsk Qrupu Həmsədrlərinin təkliflərini ATƏT-in Minsk Qrupu çərçivəsində danışıqlar üçün əsas hesab edir və dərk edir ki, bu şəkildə yanaşma Azərbaycan Respublikasına qarşı təcavüzün ciddi nəticələrinin aradan qaldırılmasını dərhal təmin etməlidir.

13. İKT üzv dövlətlərin Azərbaycan Respublikasına qarşı erməni təcavüzü barədə prinsipial və qəti mövqeyinin ATƏT-in İcraçı Sədrinə bildirilməsini Baş Katibdən xahiş edir.

14. Azərbaycan hökuməti və xalqının öz ölkəsinin müdafiəsi üçün etdiyi cəhdləri bütünlüklə dəstəklədiyini və onlarla tam şəkildə həmrəy olduğunu bir daha təsdiq edir.

15. Qaçqın və köçkünlərin öz yaşayış yerlərinə təhlükəsiz, hörmət və şərəflə dönmələrinə imkan yaratmağa çağırır.

16. Qaçqın və köçkünlərə humanitar yardım göstərmiş bütün üzv dövlətlərə öz təşəkkürünü bildirir və digər dövlətləri onlara yardım göstərməyə çağırır.

17. Azərbaycan Respublikası ərazisində 1 milyondan artıq qaçqın və köçkünün qarşılaşdığı kəskin humanitar vəziyyətlə əlaqədar narahat olduğunu bildirir və üzv dövlətlər, İslam İnkişaf Bankı və digər islam institutlarından Azərbaycan Respublikasına təcili maliyyə və humanitar yardım göstərmələrini xahiş edir.

18. Hesab edir ki, Azərbaycan ona dəymiş ziyanın müqabilini almaq hüququna malikdir və Ermənistan bu ziyanın müqabilini ödəmək üzrə tam məsuliyyət daşıyır.

19. Baş Katibdən bu Qətnamənin yerinə yetirilməsinə nəzarət və bu haqda İKT Xarici İşlər Nazirlərinin XXXI Toplantısına məruzə etməsini xahiş edir.

---

* "Ermənistanla Azərbaycan arasında münaqişə haqqında" Qətnamə (12/21-P) ilk dəfə İKT Xarici işlər nazirlərinin 1993-cü ildə Kəraçidə keçirilmiş XXI Toplantısında, sonralar isə İKT Xarici işlər nazirlərinin 1994-cü ildə Kasablankada keçirilmiş XXII Toplantısında (11/22-P) və İKT Dövlət və Hökumət başçılarının 1994-cü ildə Kasablankada keçirilmiş VII Zirvə konfransında (11/7-P(İS)), eləcə də İKT Xarici işlər nazirlərinin 1995-ci ildə Konakridə keçirilmiş XXIII Toplantısında (11/23-P) qəbul edilmişdir. İKT Xarici işlər nazirlərinin 1996-cı ildə Cakartada keçirilmiş XXIV Toplantısında "Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında" Qətnamə (12/24-P) adını almış bu sənəd İKT Dövlət və Hökumət başçılarının 1997-ci ildə Tehranda keçirilmiş VIII Zirvə toplantısında (12/8-P(İS)), İKT Xarici işlər nazirlərinin 1998-ci ildə Dohada keçirilmiş XXV Toplantısında (13/25-P) isə 11-ci və 12-ci

bəndləri əlavə olunmaqla, İKT Xarici işlər nazirlərinin 1999-cı ildə Uaqaduquda keçirilmiş XXVI Toplantısında (14/26-P), İKT Xarici işlər nazirlərinin 2000-ci ildə Kuala-Lumpurda keçirilmiş XXVII Toplantısında (17/27-P), İKT Dövlət və Hökumət başçılarının 2000-ci ildə Dohada keçirilmiş IX Zirvə konfransında (21/9-P(İS)), İKT Xarici işlər nazirlərinin 2001-ci ildə Bamakoda keçirilmiş XXVIII Toplantısında (21/28-P) və İKT Xarici işlər nazirlərinin 2002-ci ildə Xartumda keçirilmiş XXIX Toplantısında (20/29-P) bir daha qəbul edilmişdir.

Əlavə III.5.15

İslam Konfransı Təşkilatı Xarici işlər nazirlərinin XXX konfransı Azərbaycan Respublikasına İqtisadi yardım haqqında QƏTNAMƏ*

Tehran, 28-30 may 2003-cü il

İKT Xarici işlər nazirlərinin İran İslam Respublikasının Tehran şəhərində 27-29 rabi-ul avval 1424-cü hicri il (28-30 may 2003-cü ilə müvafiqdir) tarixində keçirilmiş XXX (Həmrəylik və Ləyaqət) Toplantısı İKT Dövlət və Hökumət başçılarının IX Zirvə Konfransının qəbul etdiyi 21/9-E (S) saylı qətnaməsini xatırlayaraq;

Eləcə də İKT Xarici işlər nazirlərinin XXIX Toplantısının 21/29-E saylı qətnaməsini xatırlayaraq;

Ölkənin tarixindəki təhlükəli dövr və böhran vəziyyətində İKT-yə üzv dövlətlərin Azərbaycan hökuməti və xalqı ilə tamamilə həmrəyliyini təsdiq edərək;

BMT Təhlükəsizlik Şurasının bu münaqişə ilə əlaqədar müvafiq qətnamələrinə istinad edərək;

Ermənistanın Azərbaycanın Yuxarı Qarabağ bölgəsində apardığı hərbi əməliyyatlar nəticəsində Azərbaycan ərazisinin təqribən 20 faizinin işğalı, həmçinin qəddarlıqla həyata keçirilən hücumlar nəticəsində 1 milyonadək azərbaycanlının öz doğma yurdlarından zorla qovulmağa məcbur edilməsi, eləcə də insan hüquqlarının kobud şəkildə pozulması ilə müşayiət olunan bu təcavüz əməllərini pisləyərək;

İKT-yə üzv dövlətlərin Azərbaycan hökuməti və xalqı ilə həmrəy olduğunu daha konkret ifadə etməyin zəruriliyini etiraf edərək;

Bir sıra İKT-yə üzv dövlətlərin və müvafiq qurumların, BMT təsisatlarının və beynəlxalq təşkilatların təqdim etdiyi yardımı alqışlayaraq və qiymətləndirərək;

Eləcə də, Baş Katibin məruzəsini nəzərə alaraq:

1. Üzv dövlətləri və İslam qurumlarını Azərbaycan xalqının əzablarını yüngülləşdirmək məqsədi ilə Azərbaycan hökumətinə lazımi iqtisadi və humanitar yardım göstərməyə çağırır.

2. Beynəlxalq təşkilatları Azərbaycanı təcili maliyyə və humanitar yardım ilə təmin etməyi davam etdirməyə dəvət edir.

3. İKT Xarici işlər nazirlərinin XXXI Toplantısına bu haqda məruzə təqdim etməsini Baş Katibdən xahiş edir.

---

* Qətnamə (16/22-E) ilk dəfə İKT Xarici işlər nazirlərinin 1994-cü ildə Kasablankada keçirilmiş XXII Toplantısında və İKT Dövlət və Hökumət başçılarının 1994-cü ildə Kasablankada keçirilmiş VII Zirvə konfransında (16/7-E(İS)) qəbul edilmiş və o vaxtdan etibarən cüzi texniki dəyişikliklərlə İKT Xarici işlər nazirlərinin 1995-ci ildə Konakridə keçirilmiş XXIII Toplantısında (17/23-E), İKT Xarici işlər nazirlərinin 1996-cı ildə Cakartada keçirilmiş XXIV Toplantısında (18/24-E), İKT Dövlət və Hökumət başçılarının 1997-ci ildə Tehranda keçirilmiş VIII Zirvə konfransında (18/8-E(İS)), İKT Xarici işlər nazirlərinin 1998-ci ildə Dohada keçirilmiş XXV Toplantısında (18/25-E), İKT Xarici işlər nazirlərinin 1999-cı ildə Uaqaduquda keçirilmiş XXVI Toplantısında (19/26-E), İKT Xarici işlər nazirlərinin 2000-ci ildə Kuala-Lumpurda keçirilmiş XXVII Toplantısında (20/27-E), İKT Dövlət və Hökumət başçılarının 2000-ci ildə Dohada keçirilmiş IX Zirvə konfransında (21/9-E(İS)), İKT Xarici işlər nazirlərinin 2001-ci ildə Bamakoda keçirilmiş XXVIII Toplantısında (21/28-E) və İKT Xarici işlər nazirlərinin 2002-ci ildə Xartumda keçirilmiş XXIX Toplantısında (21/29-E) qəbul edilmişdir

---

Əlavə III.5.16

İslam Konfransı Təşkilatı Xarici işlər nazirlərinin XXX konfransı Ermənistan Respublikasının təcavüzü nəticəsində Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində İslam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında QƏTNAMƏ*

Tehran, 28-30 may 2003-cü il

İKT Xarici işlər nazirlərinin İran İslam Respublikasının Tehran şəhərində 27-29 rabi-ul avval 1424-cü hicri il (28-30 may 2003-cü ilə müvafiqdir) kecirilmiş XXX (Həmrəylik və Ləyaqət) Toplantısı İKT Zirvələrinin və digər Toplantıların,

xüsusilə İKT Dövlət və Hökumət başçılarının IX Zirvə Konfransının qəbul etdiyi qətnamələri xatırlayaraq;

İslam irsinin qorunması və müdafiəsinə dair İslam Konfransı Təşkilatının (İKT) Nizamnaməsinin məqsəd və prinsiplərindən çıxış edərək;

Azərbaycan tarixinin, mədəniyyətinin, arxeologiyasının, etnoqrafiyasının və memarlığının Azərbaycanın və onun xalqının tarixinin ayrılmaz hissəsi kimi İslam irsinin mənbələrindən biri olduğunu dərk edərək;

BMT-nin Təhlükəsizlik Şurasının, Laçın və Şuşa rayonları daxil olmaqla Azərbaycanın işğal olunmuş bütün ərazilərindən erməni silahlı qüvvələrinin dərhal, qeyd-şərtsiz və tam çıxarılması, Ermənistan tərəfindən Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə hörmət edilməsinin israrla tələbi barədə 822, 853, 874 və 884 saylı qətnamələrini təsdiq edərək;

Ermənistan tərəfindən etnik təmizləmə məqsədi ilə Azərbaycanda məscidlərin və islama aid olan digər müqəddəs yerlərin tam və vəhşiliklə dağıdılmasının vandalizm aktı olduğunu bəyan edərək;

Ermənistan Respublikasının işğal etdiyi Azərbaycan ərazilərində erməni təcavüzkarları tərəfindən İslam irsinə vurulmuş böyük zərərlərin, İslam mədəniyyətinə aid misilsiz abidələrin, habelə məscidlərin, məbədlərin, məzarlıqların, arxeoloji qazıntıların, muzeylərin, kitabxanaların, rəsm qalereyalarının, dövlət teatrlarının, musiqi məktəblərinin tam və ya bir qisminin dağıdılması, zəbt edilmiş muzeylərdən çoxsaylı qiymətli əşyaların, milyonlarla kitab və tarixi əlyazmaların çıxarılması və məhv edilməsi faktlarını diqqətə alaraq;

Bu barədə Azərbaycan hökumətinin və xalqının narahatlığını tam bölüşərək;

Bu məsələyə dair İslam Konfransı Təşkilatı Baş Katibinin hesabatını nəzərdən keçirərək:

1. Erməni təcavüzkarlarının Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində İslam sivilzasiyasının tam məhv edilməsinə yönəldilmiş vəhşi hərəkətlərini ciddi surətdə pisləyir.

2. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin Ermənistan tərəfindən qeyri-şərtsiz və mütləq yerinə yetirilməsini tələb edir.

3. Hərbi təcavüzün dayandırılması və onun nəticələrinin aradan qaldırılmasına yönəlmiş, həmçinin, hərbi münaqişələr baş verdiyi zaman dövlətlərin işğal olunmuş ərazilərdən mədəni dəyərlərin çıxarılmasının qarşısını almaq barədə öz üzərinə götürdükləri öhdəliklərini nəzərdə tutan "Hərbi münaqişə zamanı mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il tarixli Haaqa Konvensiyasının müddəalarından irəli gələn öhdəliklərin yerinə yetirilməsi

istiqamətində Azərbaycanın beynəlxalq təşkilatlar çərçivəsində səylərini dəstəklədiyini ifadə edir. Dövlətlər habelə mədəni dəyərlərin hər hansı şəkildə oğurlanması, talan edilməsi və ya onların qanunsuz mənimsənilməsini, eyni zamanda həmin dəyərlərə qarşı hər hansı vandalizm aktlarını qadağan etmək və belə hərəkətlərin qarşısını almaq, lazım gəldikdə isə aradan qaldırmağı öz üzərinə götürmüşlər.

4. Aldığı zərərlərə görə Azərbaycanın müvafiq kompensasiya almaq hüququnun olduğunu və bu zərərin ödənilməsi üçün Ermənistan Respublikasının tam məsuliyyət daşıdığını hesab edir.

5. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində məscidlərin, təhsil ocaqlarının, kitabxanaların, muzeylərin İKT-yə üzv dövlətlərin yardımı ilə bərpası üçün İKT-nin bölmələrini və ixtisaslaşdırılmış qurumlarını yardım proqramının təşkili imkanlarını araşdırmağa çağırır.

6. Bu problemə dair İslam Konfransı Təşkilatına üzv dövlətlərin mövqeyi barədə BMT, ATƏT və digər beynəlxalq təşkilatlara məlumat verilməsi və İKT-nin himayəsi altında olan qurumlar və xüsusiləşdirilmiş orqanlar çərçivəsində həyata keçirilmiş koordinasiya işlərinə görə İKT Baş Katibliyinə təşəkkür bildirir. Həmçinin yardım etmiş adı çəkilən qurum və təşkilatlarına da, xüsusilə İslam İnkişaf Bankına və İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatına onlar tərəfindən Azərbaycan Respublikasında islama aid olan müqəddəs yerlərin qorunması üzrə layihələrin gerçəkləşdirilməsi üçün proqramların qəbul edilməsinə görə təşəkkür edir.

7. Məsələni izləməsini və İslam Konfransı Təşkilatı Xarici İşlər Nazirlərinin XXXI Toplantısına bu haqda məruzə təqdim etməsini Baş Katibdən xahiş edir.

---

* Qətnamə (39/26-C) ilk dəfə İKT Xarici işlər nazirlərinin 1999-cü ildə Uaqaduquda keçirilmiş XXVI Toplantısında qəbul edilmiş və o vaxtdan etibarən cüzi dəyişikliklərlə İKT Xarici işlər nazirlərinin 2000-ci ildə Kuala-Lumpurda keçirilmiş XXVII Toplantısında (25/27-C), İKT Dövlət və Hökumət başçılarının 2000-ci ildə Dohada keçirilmiş IX Zirvə konfransında (25/9-C(İS)), İKT Xarici işlər nazirlərinin 2001-ci ildə Bamakoda keçirilmiş XXVIII Toplantısında (12/28-C) və İKT Xarici işlər nazirlərinin 2002-ci ildə Xartumda keçirilmiş XXIX Toplantısında (11/29-C) qəbul edilmişdir.

Əlavə III.5.17

İslam Konfransı Təşkilatı Xarici işlər nazirlərinin XXXIV konfransı
Ermənistan Respublikasının Azərbaycan
Respublikasına qarşı təcavüzü haqqında
Q Ə T N A M Ə

Bakı, 19-21 iyun 2006-cı il

İKT Nizamnaməsinin məqsəd və prinsiplərindən çıxış edərək;

20%-dək Azərbaycan ərazisinin işğalı ilə nəticələnmiş Ermənistan Respublikası tərəfindən Azərbaycan Respublikasına qarşı həyata keçirilən təcavüzündən ciddi narahatlığını ifadə edərək;

Azərbaycan ərazisinin mühüm bir hissəsinin hələ də işğal altında olmasından və bu ərazilərin Ermənistan vətəndaşları ilə qeyri-qanuni şəkildə məskunlaşdırılmasından kəskin narahatlığını ifadə edərək;

Ermənistanın təcavüzü nəticəsində bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkünün vəziyyəti, humanitar problemlərin kəskinləşməsi və həcminin artması ilə əlaqədar dərin təəssüfünü bildirərək;

Ötən konfransların həmin problemlə əlaqədar bütün müvafiq qətnamələrini, xüsusilə 16-17 oktyabr 2003-cü il tarixində İKT X Zirvə Görüşündə qəbul olunmuş No.21/10-P(İS) saylı Qətnaməsini bir daha təsdiq edərək;

BMT Nizamnaməsinə və Təhlükəsizlik Şurasının qətnamələrinə ciddi surətdə əməl edilməsinə çağıraraq;

Ermənistan və Azərbaycan arasındakı münaqişənin həlli üzrə bütün diplomatik və digər səyləri alqışlayaraq;

Bütün üzv dövlətlərin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və siyasi müstəqilliyinə ehtiramını bir daha təsdiq edərək;

Ermənistan Respublikasının davam etdirdiyi təcavüzkarlıq siyasətinin ATƏT çərçivəsində aparılan sülh prosesinə dağıdıcı təsirini qeyd edərək;

Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında İKT Baş Katibinin məruzəsini (OİC/ICFM-33/POL/SG-REP.7) nəzərə alaraq;

1. Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzünü kəskin şəkildə pisləyir.

2. İşğal edilmiş Azərbaycan ərazilərində mülki azərbaycanlı sakinlərə qarşı edilən hərəkətləri bəşəriyyətə qarşı cinayət kimi qiymətləndirir.

3. İşğal edilmiş Azərbaycan ərazilərində arxeoloji, mədəni və dini abidələrinin talan və məhv edilməsini qətiyyətlə pisləyir.

4. BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin ciddi şəkildə yerinə yetirilməsinə, erməni silahlı qüvvələrinin işğal edilmiş bütün Azərbaycan ərazilərindən, o cümlədən Dağlıq Qarabağ bölgəsindən tam, qeyd-şərtsiz və dərhal çıxarılmasını qəti surətdə tələb edir, Ermənistanı Azərbaycan Respublikasının suverenliyinə və ərazi bütövlüyünə ehtiramla yanaşmağa çağırır.

5. Təhlükəsizlik Şurasının məlum qətnamələrinin müddəalarının Ermənistan tərəfindən hələ də yerinə yetirilməməsi ilə əlaqədar narahatlığını ifadə edir.

6. Təhlükəsizlik Şurasım Azərbaycan Respublikasına qarşı təcavüz faktını tanımağa; BMT Nizamnaməsinin VII fəslinə uyğun olaraq, Təhlükəsizlik Şurası qətnamələrinin Ermənistan Respublikası tərəfindən yerinə yetirilməsini təmin etmək məqsədilə lazımi addımlar atmağa, Azərbaycan Respublikasınm suverenliyi və ərazi bütövlüyünə qarşı təcavüzün pislənməsinə və təcavüzə son qoyulmasına çağırır və bununla əlaqədar BMT-də əlaqələndirilmiş fəaliyyətin həyata keçirilməsini qərara alır.

7. Təcavüzkar tərəfindən münaqişənin şiddətləndirilməsinin və Azərbaycan ərazisinin işğalının davam etdirilməsinin qarşısmın alınması məqsədilə bütün üzv dövlətləri Ermənistana silah və hərbi sursat təqdim etməkdən çəkinməyə çağırır. Üzv dövlətlərin ərazisi bu kimi təchizatların tranziti üçün istifadə edilməməlidir.

8. Erməni təcavüzü və Azərbaycan ərazilərinin işğalına son qoyulması məqsədilə üzv dövlətləri və beynəlxalq birliyin digər dövlətlərini bütün effektiv siyasi və iqtisadi vasitələrdən istifadə etməyə çağırır.

9. Ermənistan və Azərbaycan arasındakı münaqişənin dövlətlərin ərazi bütövlüyü və beynəlxalq ictimaiyyət tərəfindən tanınmış sərhədlərin toxunulmazlığına ehtiram prinsipləri əsasında ədalətli şəkildə və sülh yolu ilə həll edilməsinə çağırır.

10. Üzv dövlətlərin Nyu-Yorkda BMT yanında akkreditə olunmuş daimi nümayəndələrinin BMT Baş Assambleyasında Azərbaycan Respublikasının ərazi bütövlüyü ilə əlaqədar səsvermələr zamanı dəstək verilməsi barədə təlimatlandırılmasını qərara alır.

11. Ermənistanı və Minsk qrupuna daxil olan bütün üzv dövlətləri BMT Təhlükəsizlik Şurasının bu haqda müvafiq qətnamələrinə və ATƏT-in 24 mart 1992-ci il tarixli Birinci Əlavə Görüşünün, ATƏT-in 5-6 dekabr 1994-cü il, 2-3 dekabr 1996-cı il Zirvə toplantılarının qətnamə və sənədlərinə əsasən ATƏT tərəfindən həyata keçirilən sülh prosesində konstruktiv surətdə iştirak

etməyə dəvət edir və problemin sülh yolu ilə həllini çətinləşdirə biləcək hər cür addımlardan çəkinməyə çağırır.

12. ATƏT-in 1996-cı ildə Lissabonda keçirilmiş Zirvə Görüşündə icraçı sədrinin bəyanatının ehtiva etdiyi Ermənistanla Azərbaycan arasındakı silahlı münaqişənin həllinin üç prinsipini - Azərbaycan Respublikasının və Ermənistan Respublikasının ərazi bütövlüyü, Dağlıq Qarabağa Azərbaycanın tərkibində yüksək muxtariyyət statusunun verilməsi, region və onun əhalinin təhlükəsizliyinə zəmanət verilməsini dəstəklədiyini ifadə edir.

13. "Fait accompli" nizamlanmanın əsası kimi götürülməsinin qeyri-mümkünlüyünü, Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində hazırkı vəziyyətin, orada hər hansı digər fəaliyyətin, o cümlədən "status-kvo"nun möhkəmlənməsinə xidmət edən səsvermə prosesinin həyata keçirilməsinin qeyri-qanuni hesab ediləcəyini təsdiq edir.

14. İşğal olunmuş Azərbaycan ərazilərinin Ermənistan vətəndaşları ilə məskunlaşdırılmasının beynəlxalq qanunların kobud şəkildə pozulması və münaqişənin sülh yolu ilə həlli prosesinə mənfi təsir göstərdiyini bildirir və bu fəaliyyətin dərhal dayandırılmasını və onların geri qaytarılmasını tələb edir, bu sahədə Azərbaycanın həyata keçirdiyi cəhdlərə, o cümlədən BMT TŞ-də İKT üzvü ölkələrin Daimi Nümayəndəlikləri vasitəsilə tam dəstək verilməsinə razılığını bildirir.

15. Ermənistanla Azərbaycan arasındakı silahlı münaqişənin mərhələli həlli istiqamətində ATƏT-in Minsk qrupunun fəaliyyətini, Azərbaycan və Ermənistan Xarici işlər nazirləri səviyyəsində aparılan məsləhətləşmələri dəstəkləyir və məsələyə bu cür yanaşmanı Azərbaycana qarşı təcavüzün ciddi nəticələrinin aradan qaldırılması üçün vasitə kimi qiymətləndirir.

16. Baş Katibdən Azərbaycan Respublikasına qarşı erməni təcavüzü ilə əlaqədar İslam Konfransı Təşkilatının prinsipial və dəyişməz mövqeyini ATƏT-in fəaliyyətdə olan sədrinə çatdırmasını xahiş edir.

17. Azərbaycan hökuməti və xalqının öz ölkəsinin müdafiəsi naminə göstərdiyi cəhdləri bütövlükdə dəstəklədiyini və onlarla tam şəkildə həmrəy olduğunu bir daha təsdiq edir.

18. Qaçqın və köçkünlərin öz yaşayış yerlərinə təhlükəsiz, hörmət və şərəflə dönmələrinə imkan yaradılmasına çağırır.

19. Qaçqın və köçkünlərə humanitar yardım göstərmiş bütün üzv dövlətlərə öz təşəkkürünü bildirir və digər dövlətləri onlara yardım göstərməyə çağırır.

20. Bir milyondan artıq azərbaycanlı qaçqın və köçkünün qarşılaşdığı kəskin humanitar problemlərin ciddiliyi ilə əlaqədar narahatlığını bildirir

və üzv dövlətlərdən, İslam İnkişaf Bankı və digər İslam qurumlarından Azərbaycan Respublikasına ən çox ehtiyac duyulan maliyyə və humanitar yardım göstərilməsini xahiş edir.

21. Azərbaycanın ona dəymiş ziyanın müqabilində təzminat almaq hüququna malik olduğunu və adekvat təzminat ödənilməsi məsuliyyətini Ermənistanın üzərinə düşdüyünü hesab edir.

22. Baş Katibdən bu Qətnamənin yerinə yetirilməsinə nəzarət etməsini və bu barədə İKT Xarici işlər nazirlərinin XXXIV Konfransına hesabat verməsini xahiş edir.

Əlavə III.5.18

İslam Konfransı Təşkilatı Xarici işlər nazirlərinin XXXVI konfransı
Ermənistan Respublikasının Azərbaycan Respublikasına
qarşı təcavüzü üzrə
Q Ə T N A M Ə

Dəməşq, 23-25 may 2009-cu il

İslam Konfransı Təşkilatının prinsip və məqsədlərindən çıxış edərək,

Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı Azərbaycanın torpaqlarının 20 faizinin işğalı ilə nəticələnən təcavüzündən ciddi narahatlıq duyaraq,

Azərbaycan torpaqlarının mühüm bir hissəsinin işğal altında qalmasının davam etməsindən və erməni millətinə mənsub məskunların bu ərazilərə qeyri-qanuni köçürülməsindən dərin narahatlığını ifadə edərək,

Erməni təcavüzünün nəticəsində meydana çıxan bir milyon Azərbaycanlı məcburi köçkün və qaçqının vəziyyətindən və humanitar problemlərin böyüklüyü və kəskinliyindən dərin narahatlıq keçirərək,

Bütün əvvəlki müvafiq qətnamələri və xüsusilə İKT-nin 13-14 mart 2008-ci il tarixlərində Seneqal Respublikasının Dakar şəhərində keçirilmiş Sammitində qəbul edilmiş10/11-P(IS) saylı qətnaməni bir daha təsdiq edərək,

BMT Nizamnaməsinə ciddi əməl edilməsinə və Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin tam icrasına çağıraraq,

Ermənistan və Azərbaycan arasında münaqişənin həlli üçün bütün diplomatik və digər səyləri alqışlayaraq,

Bütün üzv dövlətlərin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və siyasi müstəqilliyinə hörmət etmək öhdəliyini bir daha təsdiq edərək,

Həmçinin Ermənistan Respublikasının təcavüzkar siyasətinin ATƏT çərçivəsində sülh prosesinə destruktiv təsirini qeyd edərək,

Baş Katibin Hesabatını nəzərə alaraq,

1. Ermənistan Respublikasının Azərbaycan Respublikasma qarşı təcavüzünü ciddi tənqid edir.

2. İşğal olunmuş Azərbaycan ərazilərdə mülki Azərbaycan əhalisinə qarşı törədilmiş hərəkətləri insanlıq əleyhinə cinayət hesab edir.

3. Azərbaycanın işğal olunmuş ərazilərində arxeoloji, mədəni və dini abidələrin talan edilməsi və dağıdılmasını ciddi tənqid edir.

4. BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin, eləcə də BMT Baş Assambleyasının A/RES/62/243 qətnaməsinin ciddi icrasını və Dağlıq Qarabağ regionu da daxil olmaqla bütün işğal olunmuş Azərbaycan ərazilərindən erməni qoşunlarının dərhal, qeyri-şərtsiz və tam çıxarılmasını təkidlə tələb edir və Ermənistanı Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə hörmət etməyə çağırır.

5. Bütün üzv dövlətləri BMT Baş Katibinin BMT Baş Assambleyasının A/RES/62/243 qətnaməsinin icrası üzrə hazırlanacaq hesabatında əks olunmaq üçün onun sorğusuna cavab verməklə tez bir zamanda öz töhfələrini verməyə və BMT Baş Katibinə cavablarına bütün İKT üzvlərinin Ermənistan-Azərbaycan münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və qovulmuş Azərbaycan əhalisinin öz evlərinə qayıtması, eləcə də ərazilərin işğal altında saxlanmasına yönələn istənilən hərəkətin qarşısının alınması əsasında həllinə aydın dəstəyini əks etdirən prinsipial mövqeyi daxil etməyə təkidlə çağırır. Bundan əlavə, BMT Baş Katibinin sözügedən hesabatının gələcək aylarda BMT Baş Assamblyasının iclasında müzakirə olunacağını nəzərə alaraq, bütün üzv dövlətləri öz Nyu-York və Cenevrədəki Daimi nümayəndəliklərinə və nümayəndə heyətlərinə bu məsələni gündəlikdə saxlamaq və Azərbaycanm bu sahədə irəli sürdüyü təşəbbüslərə güclü dəstək nümayiş etdirmək haqqında göstəriş verməyə çağırır.

6. Ermənistanm yuxarıda sadalanan BMT Təhlükəsizlik Şurası qətnamələrindəki tələbləri hələ də yerinə yetirməməsindən narahatlığını ifadə edir.

7. BMT Təhlükəsizlik Şurasını Azərbaycan Respublikasına qarşı təcavüz faktının olmasını tanımağa, öz qətnamələrinə əməl edilməsini təmin etmək üçün BMT Nizamnaməsinin VII fəslinə uyğun zəruri tədbirlər görməyə, Azərbaycan Rspublikasına qarşı təcavüzü pisləməyə və aradan qaldırmağa çağırır və BMT-də bu istiqamətdə əlaqələndirilimiş fəaliyyət göstərməyi qərara alır.

8. Bütün dövlətləri işğalçını münaqişəni daha da dərinləşdirmək və Azərbaycan torpaqlarını işğal altında saxlamaq imkanından məhrum etmək üçün Ermənistanı istənilən silah təchizatı və hərbi texnika ilə təmin etməkdən çəkinməyə təkidlə çağırır. Üzv dövlətlərin əraziləri bu cür təchizatın daşınması üçün istifadə olunmamalıdır.

9. Üzv dövlətləri, eləcə də beynəlxalq birliyin digər üzvlərini Ermənistan təcavüzünə və Azərbaycan torpaqlarının işğalına son qoymaq üçün zəruri olan təsirli siyasi və iqtisadi tədbirlər görməyə çağırır.

10. Ermənistan və Azərbaycan arasmdakı münaqişənin ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsiplərinə hörmət əsasında ədalətli və sülh yolu ilə həllinə çağırır.

11. Üzv dövlətlərin BMT-nin Nyu-Yorkdakı qərargahı yanında Daimi Nümayəndəliklərinə BMT Baş Assambleyasındakı səsvermə zamanı Azərbaycan Respublikasının ərazi bütövlüyü məsələsinə tam dəstək vermək barədə göstəriş verməyi qərara alır.

12. Etmənistanı və ATƏT-in Minsk Qrupunun bütün üzvlərini hazırda ATƏT çərçivəsində davam edən sülh prosesində BMT-nin müvafiq qətnamələri və ATƏT Şurasının 1992-ci il martın 24-də keçirilmiş Birinci Əlavə görüşünün, ATƏT-in 1994-cü il 5-6 dekabr, 1996-cı il 2-3 dekabr, 1999-cu il 18-19 noyabr Sammitləri də daxil olmaqla, ATƏT-in müvafiq qərarları və sənədləri əsasında konstruktiv şəkildə iştirak etməyə və münaqişənin sülh yolu ilə həllini çətinləşdirəcək istənilən hərəkətdən çəkinməyə təkidlə çağırır.

13. Ermənistan və Azərbaycan arasında silahlı münaqişənin ATƏT-in 1996-cı il Lissabon Sammitində ATƏT-in Fəaliyyətdə olan Sədri tərəfindən verilmiş bəyanatda sadalanan üç prinsip, yəni Ermənistan Respublikası və Azərbaycan Respublikasının ərazi bütövlüyü, Dağlıq Qarabağ regionuna Azərbaycan daxilində ən yüksək özünü idarəetmə dərəcəsi və bu regionun və onun bütün əhalisinin təhlükəsizliyinin təminatı, əsasında həllinə tam dəstəyini ifadə edir.

14. Baş vermiş faktın (fait accompli) nizamlama üçün əsas olmadığını, eləcə də, nə Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində hazırkı vəziyyətin, nə də səsvermə prosesi keçirmək də daxil olmaqla status-kvonu möhkəmləndirməyə yönəlmiş istənilən fəaliyyətin qanuni şəkildə tanınmasının mümkün olmadığını vurğulayır.

15. Beynəlxalq humanitar hüququ kobud şəkildə pozan və münaqişənin sülh yolu ilə nizamlanmasına zərər verən Azərbaycanın işğal olunmuş ərazilərinə erməni millətinə mənsub sakinlərin köçürülməsi prosesini dayandırmağı və aradan qaldırmağı tələb edir və bu istiqamətdə Azərbaycanın səylərinə, o cümlədən

BMT-nin Nyu Yorkdakı qərargahı yanında Daimi nümayəndəlikləri vasitəsilə BMT Baş Assambleyasındakı səylərinə tam dəstək verməyi qərara alır.

16. İKT üzv dövlətlərindən öz hüquqi və fiziki şəxslərini Dağlıq Qarabağ regionu və Azərbaycanın digər işğal olunmuş ərazilərində iqtisadi fəaliyyətlə məşğul olmaqdan çəkinməyə çağırmağı xahiş edir.

17. ATƏT-in Minsk Qrupunun fəaliyyətinə və Azərbaycan və Ermənistanın Xarici işlər nazirləri səviyyəsində keçirilən məsləhətləşmələrə öz dəstəyini və mərhələli həllin Azərbaycan Respublikasına qarşı təcavüzün ən ciddi nəticələrini tədricən aradan qaldırmağa kömək edəcəyinə inamını ifadə edir.

18. Baş Katibdən Ermənistanın Azərbaycan Resublikasına qarşı təcavüzünə münasibətdə İKT-nin prinsipial və sərt mövqeyini Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının hazırkı Sədrinə çatdırmağı xahiş edir.

19. Azərbaycan Hökuməti və xalqına öz ölkələrini qorumaq üçün həyata keçirdikləri səylərə tam həmrəyliyini və dəstəyini bir daha təsdiq edir.

20. Məcburi köçkünlərin və qaçqınların öz evlərinə təhlükəsiz, şərəf və ləyaqətlə qayıtması üçün şərait yaratmağa çağırır.

21. Qaçqın və məcburi köçkünlərə humanitar yardım göstərmiş bütün üzv dövlətlərə öz minnətdarlığını ifadə edir və digərlərini bu insanlara öz yardımlarını göstərməyə çağırır.

22. Azərbaycan Respublikası ərazisində bir milyon qaçqın və məcburi köçkünün olması ilə bağlı humanitar problemlərin kəskinliyindən narahatlığını ifadə edir və İKT üzv dövlətləri, İslam İnkişaf Bankı və digər İslam institutlarından Azərbaycan Respublikasına lazımi maliyyə və humanitar yardım göstərməyi xahiş edir.

23. Azərbaycanın münaqişənin nəticəsində dəymiş ziyanla əlaqədar müvafiq kompensasiya hüququ olduğunu hesab edir və bu müvafiq ziyanın ödənilməsi üzrə məsuliyyəti Ermənistanın üzərinə qoyur.

24. Baş Katibdən bu qətnamənin icrasında nəzarət etməyi və məsələ üzrə Xarici İşlər Nazirləri Şurasının 37-ci sessiyasında hesabat verməyi xahiş edir.

Əlavə III.5.19

İslam Konfransı Təşkilatı Xarici işlər nazirlərinin XXXVI konfransı Ermənistan Respublikasının Azərbaycan Respublikasına təcavüzü nəticəsində işğal olunmuş Azərbaycan torpaqlarında islam tarixi və mədəniyyət abidələrinin məhv edilməsi və dağıdılması haqqında

Q Ə T N A M Ə

Dəməşq, 23-25 may 2009-cu il

Azərbaycan tarixinin, mədəniyyətinin, arxeologiyasının, etnoqrafiyasının və memarlığının Azərbaycanın və onun xalqının tarixinin ayrılmaz hissəsi kimi İslam irsinin mənbələrindən biri olduğunu dərk edərək;

BMT-nin Təhlükəsizlik Şurasının, Laçın və Şuşa rayonları daxil olmaqla Azərbaycanın işğal olunmuş bütün ərazilərindən erməni silahlı qüvvələrinin dərhal, qeyd-şərtsiz və tam çıxarılması, Ermənistan tərəfindən Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə hörmət edilməsini israrla tələbi barədə 822, 853, 874 və 884 saylı qətnamələrini təsdiq edərək;

Ermənistan tərəfindən etnik təmizləmə məqsədi ilə Azərbaycanın Ermənistan tərəfindən tutulmuş məscidlərinin və islama aid olan digər müqəddəs yerlərinin tam və vəhşiliklə dağıdılmasının insanlıq əleyhinə cinayət olduğunu təsdiq edərək;

Ermənistan Respublikasının işğal etdiyi Azərbaycan ərazilərində erməni təcavüzkarları tərəfindən İslam irsinə vurulmuş böyük zərərlərin, İslam mədəniyyətinə aid misilsiz abidələrin, habelə məscidlərin, məbədlərin, məzarlıqların, arxeoloji qazıntıların, muzeylərin, kitabxanaların, rəsm qalereyalarının, dövlət teatrlarının, musiqi məktəblərinin tam və ya bir qismının dağıdılması, zəbt edilmiş muzeylərdən çoxsaylı qiymətli əşyaların, milyonlarla kitab və tarixi əlyazmaların ələ keçirilməsi və məhv edilməsi faktlarını qeyd edərək;

Bu barədə Azərbaycan hökumətinin və xalqının narahatlığı tam bölüşərək:

1. Erməni təcavüzkarlarının Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində İslam sivilizasiyasının tam məhv edilməsinə yönəldilmiş vəhşi hərəkətlərini ciddi surətdə pisləyir.

2. Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin Ermənistan tərəfindən qeyri-şərtsiz və mütləq yerinə yetirilməsini tələb edir.

3. Azərbaycanın regional və beynəlxalq səviyyədə göstərdiyi və Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə İslam mədəni dəyərlərinin və

xəzinələrinin qorunması və saxlanılması məqsədi daşıyan səylərinə öz dəstəyini təsdiqləyir.

4. Aldığı zərərlərə görə Azərbaycanın müvafiq kompensasiya almaq hüququnun olduğunu və bu zərərin ödənilməsi üçün Ermənistan Respublikasının tam məsuliyyət daşıdığını hesab edir.

5. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində məscidlərin, təhsil ocaqlarının, kitabxanaların, muzeylərin İKT-yə üzv dövlətlərin yardımı ilə bərpası üçün İKT-nin bölmələrini və ixtisaslaşdırılmış qurumlarını yardım proqramının təşkili imkanlarını araşdırmağa çağırır.

6. Bu problemə dair İslam Konfransı Təşkilatına üzv dövlətlərin mövqeyi barədə BMT, ATƏT və digər beynəlxalq təşkilatlara məlumat verilməsinə və İKT-nin himayəsi altında olan qurumlar və ixtisaslaşmış orqanlar çərçivəsində həyata keçirilmiş koordinasiya işlərinə görə İKT Baş Katibliyinə təşəkkür bildirir. Həmçinin bu işə yardım etmiş adı çəkilən qurum və təşkilatlara da, xüsusilə İslam İnkişaf Bankına və İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatına onlar tərəfindən Azərbaycan Respublikasında islama aid olan müqəddəs yerlərin qorunması üzrə layihələrin gerçəkləşdirilməsi üçün proqramların qəbul edilməsinə görə təşəkkür edir.

---

* 2011-ci il iyunun 28-də İslam Konfransı Təşkilatının (İKT) Xarici işlər nazirləri Şurasının Qazaxıstanın paytaxtı Astanada keçirilən XXXVIII sessiyasında təşkilatın adının dəyişdirilərək İslam Əməkdaşlıq Təşkilatı (İƏT) adlandırılması haqqında qərar qəbul edilmişdir.

III.6. Şimali Atlantika Müqaviləsi Təşkilatının (NATO) sənədləri

Əlavə III.6.1

Müdafiə Planlaşdırması Komitəsi və Nüvə Planlaşdırması Qrupu NATO Baş Qərargahı Yekun Kommünikə

(çıxarış)

Brüssel, 27 may 1992-ci il

8. Müzakirələrimiz zamanı biz keçmiş Yuqoslaviyada, Naxçıvan da daxil olmaqla Dağlıq Qarabağ və ətrafında mövcud olan münaqişələrlə bağlı dərin narahatlığımızı bildirmişik. Biz hərbi əməliyyatlarm dayandırılması və məsələlərin sülh yolu ilə nizamlanmaları istiqamətində BMT, ATƏM və Avropa İttifaqı tərəfindən edilən müxtəlif səyləri tamamilə dəstəkləyirik. Biz aidiyyəti olan tərəfləri münaqişələrə son qoymağa çağırırıq.

Əlavə III.6.2

Şimali Atlantika Şurası Nazirlərin görüşü Yekun Kommünikə

(çıxarış)

Oslo, 4 iyun 1992-ci il

4. Biz Avro-Atlantika regionunun müxtəlif yerlərində davam edən zorakılıq və dağıntılarla bağlı dərin narahatlığımızı bildiririk. Bu, bizim bütün Avro-Atlantika regionunda sadiq olduğumuz sülh və sabitliyə tamamilə ziddir. Biz Avropada sülh və əməkdaşlığa əsaslanan qaydanın bərqərar edilməsi istiqamətində səylərimizə mane olmamağı üçün azğın milliyyətçilik və mübahisələrin zor yolu ilə həll edilməsi cəhdlərinin qarşısının alınması məqsədilə əlimizdən gələni edəcəyik. Biz keçmiş Yuqoslaviya ərazisində mövcud olan və Dağlıq Qarabağda mərkəzləşən münaqişələrlə bağlı narahatlığımızı ifadə edən ayrıca bəyanatlar vermişik.

Əlavə III.6.3

Şimali Atlantika Əməkdaşlıq Şurası
BƏYANAT
(çıxarış)

Oslo, 5 iyun 1992-ci il

5. Biz, həmçinin, Dağlıq Qarabağ və onun ətrafında olan böhranın gedişində döyüşlərin intensivləşməsi, insan tələfatının, iztirabların və dağıntıların artması ilə bağlı dərin narahatlıq hissi keçiririk. Biz Minskdə ATƏM-in Konfransının çağırılması qərarını, bu Konfransın uğurla nəticələnməsi üçün Romada ilkin toplantının keçirilməsi kimi addımları və bu münaqişənin sülh yolu ilə nizamlanması ilə bağlı ATƏM çərçivəsində görülən bütün tədbirləri alqışlayırıq. Bu məqsədə nail olmaq üçün öz töhfəmizi verəcəyik və aidiyyəti olan tərəfləri də eyni tədbir görməyə çağırırıq. Biz sülh prosesinə töhfə vermək məqsədilə ATƏM çərçivəsində regiona vaxtlı-vaxtında müşahidəçilərin yerləşdirilməsinə dair razılıq əldə edilməsi istiqamətindəki səylərini dəstəkləyir və Şuramızın üzvlərinin həmin missiyanın işində iştirak etməyə hazır olduğunu bildiririk.

Biz aidiyyəti olan bütün tərəfləri sülh yolu ilə nizamlanma danışıqlarına mühüm töhfə verən səmərəli atəşkəs əldə etməyə çağırırıq. Biz eyni zamanda, tərəfləri münaqişənin qurbanları üçün təcili tələb olunan humanitar yardımın çatdırılması üçün müvafiq şəraiti təmin etməyə çağırırıq. Biz güc işlədilməsi vasitəsilə ərazilərin əldə edilməsi, sərhədlərin dəyişdirilməsi və ya siyasi məqsədlərə nail olunması üçün hər hansı cəhdin qəbul edilməz olduğunu və bu cəhdin əhəmiyyətli olan uzunmüddətli danışıqlara və dinc nizamlanmaya əsaslanan səylərə yalnız xələl gətirdiyini xüsusilə vurğulayırıq.

Əlavə III.6.4

Şimali Atlantika Şurası Nazirlərin görüşü
NATO Baş Qərargahı
Yekun Kommünike
(çıxarış)

Brüssel, 17 dekabr 1992-ci il

14. Biz Dağlıq Qarabağ və onun ətrafında cərəyan edən döyüş əməliyyatları ilə əlaqədar dərindən təəssüflənirik. Biz aidiyyəti olan tərəfləri səmərəli atəşkəsə nail olmağa çağırırıq. Biz BMT və ATƏM-in prinsiplərini, habelə hazırki münaqişə ilə əlaqədar ATƏM-in addım və qərarlarını tam şəkildə dəstəkləyirik. Biz hesab edirik ki, Minskdə keçirilməsi təklif edilən ATƏM-in Konfransı bu münaqişənin sülh yolu ilə nizamlanması üçün bilavasitə imkan yaradır və biz Roma görüşü çərçivəsində başlanmış işin davam etdirilməsi əsasında konfransın çağırılması ilə bağlı səyləri dəstəkləyirik.

Əlavə III.6.5

Şimali Atlantika Şurası Nazirlərin görüşü
Yekun Kommünike
(çıxarış)

Afina, 10 iyun 1993-cü il

13. Biz bir sıra regional məsələlər, xüsusilə də ATƏM-in Dağlıq Qarabağ üzrə Konfransının məşğul olduğu münaqişəni və keçmiş Sovet İttifaqı ərazisində digər gərginlik mənbələrini, habelə Baltik dövlətləri ərazisindən xarici dövlətlərə məxsus qüvvələrin çıxarılmasının tezliklə başa çatdırılmasının zəruriliyini müzakirə etmişik. Biz sabah Şimali Atlantika Əməkdaşlıq Şurasının Əməkdaşlıq Tərəfdaşları ilə də bütün qeyd edilən məsələlərə dair məsləhətləşmələr aparacağıq.

Əlavə III.6.6

Şimali Atlantika Əməkdaşlıq Şurası
BƏYANAT
(çıxarış)

Afina, 11 iyun 1993-cü il

3. Minskdə Dağlıq Qarabağa dair ATƏM Konfransının keçirilməsi planı münaqişənin daimi həlli yolunun tapılması və Ermənistan və Azərbaycan arasında yaxşı qonşuluq münasibətlərinin yaradılması üçün ən yaxşı imkan təklif edir. Biz bütün ölkələr və münaqişə tərəflərinin tam və ləngitmədən yerinə yetirilməli olduqları BMT TŞ-nin 822 saylı qətnaməsini tamamilə dəstəkləyirik. Biz hərbi əməliyyatların dərhal dayandırılması, bütün işğalçı qüvvələrin Kəlbəcər və son zamanlarda zəbt edilmiş digər Azərbaycan rayonlarından çıxarılması, beynəlxalq humanitar yardım səylərinin maneəsiz çatdırılması, məcburi köçkünlərin yaşayış yerlərinə geri dönmələri üçün zəruri şəraitin yaradılması və danışıqların bərpa edilməsinə çağırırıq. Biz ATƏM-in Minsk Qrupunun Sədrinin Minsk prosesi çərçivəsində sülh planının həyata keçirilməsi məqsədi daşıyan təşəbbüsünü dəstəkləyir və tərəfləri onu qəbul etməyə çağırırıq.

Əlavə III.6.7

Şimali Atlantika Şurası Nazirlərin görüşü
Mətbuat üçün Kommünike
NATO Baş Qərargahı
Dövlət və Hökumət Başçılarının
Bəyannaməsi
(çıxarış)

Brüssel, 11 yanvar 1994-cü il

21. Cənubi Qafqaz regionundakı vəziyyət xüsusi narahatlıq doğurmaqda davam edir. Biz ərazilərin əldə edilməsi üçün güc işlədilməsini pisləyirik. Ermənistan, Azərbaycan və Gürcüstanın ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə hörmət edilməsi regionda sülh, sabitlik və əməkdaşlığın bərqərar olunması üçün əhəmiyyət kəsb edir. Biz bütün dövlətləri mövcud problemlərin

həll edilməsi ilə bağlı BMT və ATƏM-in himayəsi altında həyata keçirilən beynəlxalq səylərə qoşulmağa çağırırıq.

Əlavə III.6.8

Şimali Atlantika Əməkdaşlıq Şurası
Nazirlərin görüşü
BƏYANAT

İstanbul, 10 iyun 1994-cü il

Biz əminik ki, Dağlıq Qarabağ üzrə Minskdə ATƏM Konfransının keçirilməsi planı, davam etməsi dərin narahatlıq mənbəyi olan münaqişənin ədalətli və davamlı nizamlanması üçün müvafiq vasitələr təklif edir. Biz bir daha vurğulayırıq ki, münaqişə hərbi vasitələrlə deyil, yalnız ATƏM prinsipləri və BMT Nizamnaməsinə hörmətə əsaslanan danışıq yolu ilə nizamlanma və Ermənistan və Azərbaycan və regionun bütün ölkələri arasında yaxşı qonşuluq münasibətlərinin yaradılması yolu ilə həll edilə bilər.

Biz ATƏM-in Minsk Qrupunun fəaliyyətini tam şəkildə dəstəkləyirik. Biz bu məqsədlərə nail olmaq üçün ATƏM-lə əməkdaşlıqda göstərilən bütün vasitəçilik səylərini alqışlayırıq. Biz razıyıq ki, BMT TŞ-nin müvafiq qətnamələrinə uyğun olaraq hərbi əməliyyatların dayandırılması, zor vasitəsilə işğal edilmiş ərazilərdən qoşunların çıxarılması və məcburi köçkünlərin daimi yaşayış yerlərinə qaytarılması daxil olmaqla, güzəşt mühitində əldə edilən atəşkəs və konstruktiv danışıqlar daimi nizamlanma ilə nəticələnən mərhələli sülh prosesi üçün mühüm əhəmiyyət kəsb edir. Biz həlli uzanmış münaqişənin daimi nizamlanmasını sürətləndirmək məqsədilə bu regiona ATƏM müşahidəçilərinin göndərilməsini dəstəkləyirik.

Əlavə III.6.9

Şimali Atlantika Şurası Nazirlərin görüşü
Yekun Kommünike

Brüssel, 1 dekabr 1994-cü il

Biz ATƏM-in Dağlıq Qarabağ və onun ətrafında mövcud olan münaqişənin sülh yolu ilə nizamlanması sahəsindəki səylərini tamamilə dəstəkləyirik. Bu, ATƏM prinsiplərinin praktiki tətbiqi istiqamətində bütün iştirakçı dövlətlərin siyasi qətiyyət nümayiş etdirilməsi üçün yaxşı fürsət olacaqdır.

Cənubi Qafqazda mövcud olan vəziyyət xüsusi narahatlıq doğurmaqda davam edir. Biz əldə edilmiş atəşkəsi alqışlayır, lakin hesab edirik ki, regionda, xüsusilə də Dağlıq Qarabağ və onun ətrafında cərəyan edən münaqişələrin dinc və ədalətli nizamlanması yalnız BMT-nin himayəsi və ATƏM-in mexanizmləri vasitəsilə həyata keçirilə bilər. Ümid edirik ki, ATƏM Dağlıq Qarabağa dair sülh prosesinə səmərəli, o cümlədən 1992-ci il Helsinki Sənədinin 3-cü Fəslinin prinsiplərinə əsasən ATƏM-in beynəlxalq sülhüqoruma əməliyyatının yaradılması vasitəsilə töhfə vermək iqtidarında olacaqdır.

Əlavə III.6.10

Şimali Atlantika Şurası Nazirlərin görüşü
Yekun Kommünike
(çıxarış)

Nordvik, 30 may 1995-ci il

Cənubi Qafqazda mövcud olan vəziyyət xüsusi narahatlıq doğurmaqda davam edir. Biz Dağlıq Qarabağ ərazisində davam edən atəşkəsin ümumilikdə səmərəli olmasını alqışlayırıq. Biz, Dağlıq Qarabağ və onun ətrafında mövcud olan münaqişənin siyasi nizamlanmasına nail olmaq istiqamətində Minsk Qrupunun səylərini dəstəkləyirik ki, bu nizamlanma, digər şərtlərlə yanaşı, Budapeşt Sammitində əldə edilmiş razılığa əsasən ATƏT-in beynəlxalq sülhməramlı qüvvələrinin yerləşdirilməsinə imkan verəcəkdir.

Əlavə III.6.11

Şimali Atlantika Şurası Nazirlərin görüşü
Yekun Kommünike

Brüssel, 5 dekabr 1995-ci il

Biz, Dağlıq Qarabağ və onun ətrafında mövcud olan münaqişənin siyasi nizamlanmasına nail olmaq istiqamətində Minsk Qrupunun davam edən səylərini dəstəkləyirik ki, bu nizamlanma, digər şərtlərlə yanaşı, Budapeşt Sammitində əldə edilmiş razılığa əsasən ATƏT-in beynəlxalq sülhməramlı qüvvələrinin yerləşdirilməsinə imkan verəcəkdir.

Əlavə III.6.12

Şimali Atlantika Şurası Nazirlərin görüşü
Yekun Kommünike
(çıxarış)

Berlin, 3 iyun 1996-cı il

Biz Dağlıq Qarabağ və onun ətrafında mövcud olan münaqişənin siyasi nizamlanmasına nail olmaq istiqamətində Minsk Qrupunun səylərini dəstəkləyirik.

Əlavə III.6.13

Şimali Atlantika Şurası Nazirlərin görüşü
Yekun Kommünike
(çıxarış)

Brüssel, 10 dekabr 1996-cü il

Bütün dövlətlərin demokratik və iqtisadi inkişafı, müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü Avro-Atlantika məkanında sabitlik və təhlükəsizliyin mühüm amilləridir. Biz özünün müxtəlif missiyaları vasitəsilə bir sıra regional münaqişələrdə vasitəçilik səyləri həyata keçirdiyinə görə ATƏT-i təqdir edir və Milli Azlıqlar üzrə Ali Komissarın dəyərli işini yüksək qiymətləndirik. Biz Dağlıq

Qarabağ və onun ətrafında mövcud olan münaqişənin siyasi nizamlanmasına nail olmaq istiqamətində Minsk Qrupunun səylərini dəstəkləyirik.

Əlavə III.6.14

NATO Zirvə Toplantısının
Kommünikesi
(çıxarış)

İstanbul, 28-29 iyun 2004

31. Avro-Atlantik Tərəfdaşlığını gücləndirərkən, biz Qafqaz və Mərkəzi Asiyanın strateji baxımdan vacib regionlarındakı tərəfdaşlarımızla birgə işləməyə xüsusi diqqət yetirəcəyik. Bu məqsədlə, iki əlaqələndirici zabitin, o cümlədən Beynəlxalq Katibliyin tərkibindən hər iki region üzrə xüsusi nümayəndənin təyin edilməsi də daxil olmaqla, NATO təkmilləşdirilmiş əlaqələndirmə vasitələrindən istifadə etmək razılığına gəlmişdir. Biz Gürcüstan, Azərbaycan və Özbəkistanın NATO ilə Fərdi Tərəfdaşlıq üzrə Əməliyyat Planlarının hazırlanması ilə bağlı qərarını alqışlayırıq. Bu, İttifaq ilə daha sıx Tərəfdaşlıq əlaqələrinin inkişaf etdirilməsi ilə bağlı həmin dövlətlərin səylərində əhəmiyyətli irəliləyiş təşkil edir. Biz Gürcüstanın yeni hökumətinin islahatlar sahəsindəki öhdəliyini alqışlayırıq.

Əlavə III.6.15

NATO Zirvə Toplantısının
BƏYANATI
(çıxarış)

Riqa, 28-29 noyabr 2006-cı il

43. Biz Cənubi Qafqazda və Moldova Respublikasında regional münaqişələrin təkidlə davam etməsinə təəssüf edirik. Bizim dövlətlərimiz Ermənistanın, Azərbaycanın, Gürcüstanın və Moldovanın ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini dəstəkləyir. Biz bu dövlətlərin cəlb olunduğu münaqişələrin sülh yolu ilə həll edilməsinə nail olmaq məqsədilə davam edən səyləri dəstəkləyirik.

Əlavə III.6.16

NATO Zirvə Toplantısının
BƏYANATI
(çıxarış)

Buxarest, 2-4 aprel 2008

43. Biz Cənubi Qafqazda və Moldova Respublikasında regional münaqişələrin təkidlə davam etməsindən narahatıq. Bizim dövlətlərimiz Ermənistanın, Azərbaycanın, Gürcüstanın və Moldovanın ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini dəstəkləyir. Biz bu prinsiplər nəzərə alınmaqla bu regional münaqişələrin sülh yolu ilə həll edilməsi yolunda səyləri dəstəkləməkdə davam edəcəyik.

Əlavə III.6.17

Şimali Atlantika Şurası Nazirlərin görüşü
Yekun Kommünike
(çıxarış)

Brüssel, 2-3 dekabr 2008

35. Biz Cənubi Qafqazda və Moldova Respublikasında regional münaqişələrin təkidlə davam etməsindən narahatıq. Biz Ermənistanın, Azərbaycanın, Gürcüstanın və Moldovanın ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini dəstəkləməkdə davam edirik. Regionun tam təhlükəsizliyi üçün münaqişələrin bu prinsiplər əsasında sülh yolu ilə həll olunmasının vacibliyi artmışdır.

Biz bu məqsədlə səyləri gələcəkdə də dəstəkləyəcək və regionda narahatçılıq doğuran məsələlər üzrə bu ölkələrlə məsləhətləşmələr aparmağa hazırıq. Biz həmçinin, münaqişələrin qarşısının alınması və münaqişələrin dinc yolla həll edilməsi mexanizmlərindən tam faydalanmaq məqsədilə göstərdiyi səylərdə bu dövlətləri dəstəkləyəcəyik.

Əlavə III.6.18

NATO Zirvə Toplantısının
BƏYANATI
(çıxarış)

Strasburq / Kehl, 3-4 aprel 2009

58. Biz Cənubi Qafqazda və Moldova Respublikasında uzadılmış regional münaqişələrin təkidlə davam etməsindən narahatıq. Konstruktiv şəkildə münaqişələrin sülh yolu ilə həlli ilə məşğul olmaq bu regionlardakı bütün tərəflər üçün vacibdir. Biz onların hamısım regional təhlükəsizlik və sabitliyə xələl gətirə biləcək bütün addımlardan çəkinməyə və hazırkı danışıqlar formatlarına hörmət etməyə çağırırıq. Biz Ermənistanın, Azərbaycanın, Gürcüstanın və Moldova Respublikasının ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini dəstəkləməkdə davam edir və həmçinin, bu prinsiplər nəzərə alınmaqla bu regional münaqişələrin sülh yolu ilə həll edilməsi yolunda səyləri dəstəkləməkdə davam edəcəyik. Biz ATƏT-in bu regionlarda səyləri və proseslərini alqışlayırıq və Qafqaz Sabitlik və Əməkdaşlıq Platforması bu səylərə əhəmiyyətli tamamlayıcı ola bilər.

Əlavə III.6.19

NATO Zirvə Toplantısının
Yekun Bəyannaməsi
(çıxarış)

Lissabon, 19-20 noyabr 2010

35. Avratlantik məkanda sülhün bərqərar olunması məqsədimiz naminə, Cənubi Qafqazda və Moldova Respublikasında uzadılmış regional münaqişələrin təkidlə davam etməsi Alyans üçün ciddi narahatlıq doğuran məsələ olaraq qalır. Biz bütün tərəfləri münaqişənin sülh yolu ilə həllində konstruktivlik və güclü siyasi iradə göstərməyə və hazırkı damşıqlar formatlarına hörmət etməyə çağırırıq. Biz onların hamısını regional təhlükəsizlik və sabitliyə xələl gətirən addımlardan çəkinməyə səsləyirik. Biz Azərbaycan, Gürcüstan, Ermənistan və Moldovanın ərazi bütövlüyünə, müstəqilliyinə və suverenliyinə dəstəyimizə sadiq qalırıq, həmçinin bu regional münaqişələrin həmin prinsiplər nəzərə alınmaqla sülh yolu ilə həll edilməsi naminə səyləri dəstəkləməyə davam edəcəyik.

Elçin Əhmədov 1994-cü ildə Bakı Dövlət Universitetinin tarix fakültəsinin əyani şöbəsini fərqlənmə diplomu ilə bitirmişdir. 1995-1999-cu illərdə BDU-nun aspiranturasında təhsil almış, "Siyasi tarix" və "Beynəlxalq münasibətlər" kafedralarında çalışmışdır.

1999-cu ildən Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının "Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrasında dosent vəzifəsində işləyir. 1995-ci ildən elmi tədqiqatının əsasını Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması prosesində böyük dövlətlər və beynəlxalq təşkilatların mövqeyinin öyrənilməsi təşkil edir. Bu barədə 1998-ci ildə "Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar" adlı kitabı nəşr edilmiş, 2001-ci ildə isə "Böyük dövlətlərin Qarabağ münaqişəsinə dair siyasəti" mövzusunda dissertasiya müdafiə edərək siyasi elmlər üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almışdır. "Azərbaycanın Avroatlantik təhlükəsizlik və əməkdaşlıq institutları ilə münasibətləri" mövzusunda doktorluq dissertasiyasını yekunlaşdırmışdır.

Müəllifin Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və hərbi təcavüzü, Dağlıq Qarabağ məsələsinin tarixi kökləri, ermənilərin Azərbaycan torpaqlarına köçürülməsi, Qarabağın tarixi, siyasi və strateji əhəmiyyətini əks etdirən 130-a qədər elmi-analitik məqasi (azərbaycan, türk, ingilis və rus dillərində) Ankara, İstanbul, Sakariya, Bişkek, Kişinyov və Tbilisidə çap edilmişdir.

Bununla yanaşı, o, 2008-ci ildə nəşr olunmuş "Dövlət idarəçiliyində varislik, novatorluq və dinamizm. İlham Əliyevin Prezidentlik fəaliyyətinin qısa xronikası: rəsmi qəbul və səfərlərinin icmalı (2003-2008)" adlı iki cildlik kitabın həmmüəllifidir.

E. Əhmədov dövrü mətbuatda da Azərbaycanaın xarici siyasəti,

Ermənistanın Azərbaycana qarşı təcavüzü və münaqişənin beynəlxalq-hüquqi aspektləri ilə bağlı məqalələrlə çıxış edir. Ümumilikdə, 350 çap vərəqinə qədər olan monoqrafiya, metodik vəsait, proqram, dərs vəsaiti və 200-dək elmi-analitik məqalənin müəllifidir. Təqdim edilən kitab müəllifin beşinci kitabıdır.

2010-cu ildə "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin təşəbbüsü ilə nəşr olunmuş "Qarabağa qayıdacağıq" kitabının müəllifi olan E.Əhmədov eyni zamanda, İctimai Birliyin analitik-informasiya mərkəzinin mudiri vəzifəsində çalışır.

1998-ci ildə Bakı Dövlət Universiteti, Azərbaycan Respublikasının Milli Elmlər Akademiyası və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin təşkil etdiyi gənc tədqiqatçılar arasında keçirilən müsabiqənin qalibi olaraq II dərəcəli diplomla təltif edilmiş, 2006-cı ildə Litva Dövlət İdarəçilik İnstitutunda "Strateji planlaşdırma" kurslarında iştirak etmiş və müvafiq sertifikat almışdır.

Müəllif 2008-ci ildə Azərbaycan Kütləvi İnformasiya Vasitələri İşçiləri Həmkarlar İttifaqı Rəyasət Heyətinin qərarı ilə "Qızıl Qələm" mükafatına layiq görülmüş və Azərbaycan Respublikasının Təhsil nazirinin 17 sentyabr 2009-cu il tarixli əmri ilə "Azərbaycan Respublikasının Qabaqcıl təhsil işçisi" döş nişam ilə təltif edilmişdir.

E.Əhmədov 2012-ci ildə "Yaddan çıxmaz Qarabağ" mövzusunda keçirilən ümumrespublika yazı müsabiqəsinin qalibi olaraq I yer üçün ayrılan diplom və mükafatla təltif edilmişdir.

Elçin Əhmədov

ERMƏNİSTANIN AZƏRBAYCANA TƏCAVÜZÜ:

Təhlili xronika

(1987-2011)

***

Elchin Ahmedov

AGGRESSION OF ARMENIA AGAINST AZERBAIJAN:

Analytical chronicle

(1987-2011)

***

Эльчин Ахмедов

Агрессия Армении против Азербайджана:

Аналитическая хроника

(1987-2011)

Kitabda Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) rəsmi foto-materiallarından və Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin xəritələrindən istifadə edilmişdir.

***

Müəllif rəsmi foto-materialların və xəritələrin kitabda işıq üzü görməsində göstərdikləri köməyə görə Azərbaycan Respublikası Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin sədri akademik Qərib Məmmədova və Azərbaycan Dövlət Teleqraf Agentliyinin (AzərTAc-ın) Baş direktoru Aslan Aslanova dərin minnətdarlığını bildirir.

***

Kitabda Azərbaycanın işğal olunmuş rayonlarına aid verilmiş fotolar Hüseyn Hüseynzadə, Babək Quliyev və Fətəli Fətəliyevə məxsusdur.

Səhifələmə: Fərid Rəhimov
Dizayner: Arif Həsənov

9 789952 452389

Çapa imzalanmışdır 12.12.12.
Kağız formatı 70x100 1/16.
Fiziki çap vərəqi 57. Sif. №1.
Tiraj 2000.

LETTERPRESS
NƏŞRİYYAT EVİ

"Letterpress" nəşriyyat evində çap olunmuşdur.
E-mail: office@letterpress.az